**Şasəddin Mikayılov**

# FƏLSƏFƏ
# PHILOSOPHY

**(Ali məktəblər üçün dərslik)**

ADPU-nun Elmi Şurasının
8 dekabr 2023-cü il tarixli iclasının
qərarına əsasən çap olunur
(protokol №3)

**Bakı – 2024**

*Elmi redaktor:* *Fəlsəfə elmləri doktoru, professor Gülnaz ABDULLAZADƏ*

*Rəyçilər:* *Fəlsəfə elmləri doktoru, professor Zeynəddin HACIYEV*

*Fəlsəfə elmləri doktoru, professor Rafail ƏHMƏDLİ*

**Şasəddin Mikayılov. FƏLSƏFƏ PHILOSOPHY**
**Bakı – 2024. ADPU-nəş. 366 s.**

Dərslikdə fəlsəfi biliklərin təşəkkülü və inkişaf prosesi, bu elmin ən köklü problemləri olan spesifik məsələlər – şüur, materiya, insan, təbiət, cəmiyyət, varlıq, əxlaq, din, idrak, təfəkkür, elm, mədəniyyət və s. kimi anlayışların səciyyəvi cəhətləri təhlil olunur. Bu anlayışların mahiyyəti fəlsəfi aspektdən araşdırılır, bir çox tədqiqatçıların çoxsaylı elmi mövqeləri müqayisəli təhlil olunur, elmi-əməli əhəmiyyət daşıyan tövsiyə xarakterli mülahizə və mühakimələr yürüdülür. Dərslikdə yeni bölmələr öz əksini tapmış, həm ölkəmizdə, həm də xaricdə çap olunmuş materiallardan istifadə edilmişdir. Kitab tələbələr, magistrlər, müəllimlər, filosoflar, sosioloqlar, politoloqlar, ümumiyyətlə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

# INTRODUCTION

At the time tribal relations began forming, in other words, at the beginning stage of society, explanation of natural phenomena required a definite level of knowledge. This could be provided only by wise people with great life experience. Therefore, from that time on, wisdom was cognized as the ability of rescue and protection. As the history developed, both relations between people and their attitude towards the environment changed and new types of knowledge began forming and enlarging in the spiritual world of people. World view of people widened. Developing historical events created the concept of spiritual world through infiltration in human thoughts. As a result, initial germs of philosophical views began forming, enabling people to understand the world as a whole.

As known, human thoughts are in permanent search, which continues today, too. In the history of philosophical thought of Azerbaijan, the history of philosophical culture is researched and gained scientific achievements improve our world view, enriching our inner world. Philosophical values created by our people have become an important indicator of its spiritual activity and a source of national pride. Learning the history of philosophical thought of our people, we pave the way for further development of its philosophical traditions, contributing, at the same time, to the development of global philosophy, as Azerbaijani philosophical thoughts are an integral part of world philosophy.

Philosophy is very capable to position itself in the natural course of all events and processes in nature and society. Good and evil, joy and grieve, happiness and suffering, spiritual contradictions are within the scope of philosophical studies. Apparently, people are aware of that being clever is better than mindlessness without knowing philosophy. Even well educated people sometimes do not are aware of that the ability of thinking is not what the nature has given and that every person should

develop his abilities in order to cognize the truth through philosophy. Real theoretical thinking ability is formed on the basis of explanation of social relations, dialogs and opinions, which correctly is called by us philosophy. Sometimes a question may emerge: Do I need these? If a human does not understand it, does his life become meaningless? Some people live without understanding life from this point, trying to avoid problems they face. In such cases, only philosophy is considered as capable helping people.

It should be mentioned that the type of philosophy shaped in Azerbaijan until the period of independence did not belong to it, as the atheist Soviet ideology imposed on Azerbaijan then repressed national world view and spiritual values of Azerbaijanis, promoting only the official Soviet ideology. Studying Soviet philosophy, one can observe that both medieval and 19$^{th}$-20$^{th}$ century religious-philosophical sources of Azerbaijanwere neglected and information on philosophers of the mentioned periods was not presented properly. In all volumes of the book titled “Историяфилософии”(History of Philosophy) and published in Moscow, among all philosopher of Azerbaijan some short information is present only about M.F.Akhundov. It was only after the 90$^{th}$ of the 20$^{th}$ century that the rich national-philosophical sources of Azerbaijan were revealed by researchers and textbooks, educational materials and scientific works were compiled on philosophy and published. In these books, together with the world philosophy heritage, national philosophy of Azerbaijan and its history were also presented and applied in the process of education. As known, philosophy is the world view, culture, spirituality and intelligence of every nation. In this sphere of activity, national philosophy enables to understand the national systemized positions. In this regard, it can be assumed that Azerbaijani philosophers have been able to prepare and form our general philosophical stand. Recognition of the essence of previous life principles in our society, proper assessment of the modern period and necessary view towards future became

possible after the mentioned work. So, our people managed to leave the gravitational field of the collapsed empire (which was like a giant galaxy) and entered the world of freedom and independence. Adoption of a philosophy with a new spirit enabled the formation of justice, dignity and freedom, allowing people to observe events objectively. This historical reality was not neglected. The all-national leader of Azerbaijan HaydarAliyev ensured the protection and further development of national-spiritual values, advising that no indifference in regard to philosophy should be allowed. Subsequently, on the order signed by the President of the Republic of Azerbaijan Ilham Aliyev on the occasion of the $60^{th}$ anniversary of Azerbaijan National Academy of Sciences, extraordinary achievements of ANAS in the field of study of philosophy were mentioned particularly.

Recently, terms as *philosopher, philosophical, making philosophy activities, philosophically* and etc. have been used on newspapers, periodicals and artistic literature. However, sometimes the word philosophy is divided, unfortunately, and used in various phrases like *philosophy of voice, philosophy of words, philosophy of subsistence, philosophy ofproduction, philosophy ofmarketing, philosophy ofthe criminal world* and etc. In some cases, people derogatively use towards each other the phrase *enough with making philosophy*, discrediting the meaning of philosophy. In this context, inappropriate reasoning is understood as the indicator of low level of both cultural and intellectual abilities. At first view, it can be considered that this kind of usage of the wordphilosophy is a result of the principles of a totalitarian society. Apparently, some researchers and people have not been able to leave the principles of the totalitarian society. Under the totalitarian Soviet regime, the dogma of philosophy could not surpass the boundaries of the Soviet thinking. More correctly, there was no discussion on the subject of philosophy, on the society and its position, on the forms of social conscience and the relation of natural and social sciences

with other types of knowledge. The spiritual treasury of thousands of years had been falsified on the basis of the worldview of dialectical and historical materialism of the Marxist-Leninist philosophy. According to most of philosophers, this kind of worldview not always bore a scientific character. Accordingly, a worldview can be scientific only if the results of a historical period are based on the scientific conclusions of the same period.

Negligence in regard to our national identity, as well as the biased opinion that our national philosophical-spiritual values do not have a long history were among the results of the propaganda conducted by Armenians, who had invaded and occupied our historical lands. Especially after the occupation of Azerbaijani lands in 1813 and 1822, being themselves newcomers, nevertheless Armenians titled Azerbaijanis (Turks, Kurds, Lezgins, Avars, Talyshis and etc.) as "newcomers", "uncultured people" and "nomads" with no ability of developing progressive social-philosophical thoughts. However, the result of the propaganda was different from what they planned. Because, they neglected the reality of strong historical philosophy and national-spiritual values possessed by Azerbaijanis. Based on this philosophy, our national identity demonstrated the will and power for struggle against occupation, which ended with the *Operation Iron Fist* resulting in full defeat of the enemy. Finally, the so-called Karabakh Autonomous Republic in liberated Azerbaijani territories was abolished and our ancient lands were regained.

Dedicated to an analysis of our global and national philosophy and designated for institutes of higher education, this textbook presents the rich philosophical-spiritual values and high level of culture possessed by Azerbaijani people, one of the ancient people in the world. Therefore, it would be worth to note that being our new generation, the youth have to study national philosophical values created by our people, to protect them from distortions and biased approaches and to enrich them for further generations. Nowadays, comprehensive textbooks on specially

categorized directions of philosophy (History of Philosophy, Ethics, Aesthetics, Religious Studies, Cultural Studies) compiled in accordance with modern principles and reflecting our national and spiritual values are found in few numbers. Accordingly, similar textbooks and materials with serious content proper modern global methods and principles are necessary for appropriate management of our independent state and proper representation of our national identity.

## Giriş

Cəmiyyətin başlanğıc mərhələsi olan qəbilə-tayfa münasibətlərinin formalaşmağa başladığı bir dövrdə təbiət hadisələrinin izahı müəyyən bilik tələb edirdi. Bu zaman bu izaha ancaq böyük həyat təcrübəsinə malik olan müdrik insanlar kömək edə bilərdilər. Odur ki, həmin dövrdən müdriklik - xilaskarlıq və mühafizəkarlıq kimi başa düşülürdü. Tarixi proses inkişaf etdikcə, həm insanlar arasındakı münasibətlər, həm də insanların ətraf aləmə olan münasibətləri dəyişməkdə oldu və insanların mənəvi dünyasında yeni biliklər formalaşmağa başladı. Bununla da insanlar arasında dünyagörüşü anlamı genişlənməyə başladı. İnkişaf edən tarixi proseslər təfəkkür süzgəcindən keçərək bir mənəvi dünya anlamı yaratmışdır. Bunun nəticəsində fəlsəfi təsəvvürlərin ilkin rüşeymləri formalaşmağa başlamış və formalaşan fəlsəfi təfəkkür dünyanı vahid bir şəkildə anlamağa əsas vermişdir.

Məlumdur ki, insan öz düşüncəsi ilə daim axtarışdadır. Bu axtarış prosesi bu gün də davam etməkdədir. Azərbaycan fəlsəfi fikir tarixində də fəlsəfi mədəniyyətin tarixi bu gün də araşdırılır və əldə olunan elmi nailiyyətlər cəmiyyətimizin elmi dünyagörüşünü təkmilləşdirir və zənginləşdirir. Xalqımızın yaratdığı fəlsəfi sərvətlər millətimizin milli qüruru ilə yanaşı mənəvi fəaliyyətinin mühüm göstəricisinə çevrildi. Əgər xalqımızın fəlsəfi fikir tarixini öyrənə biliriksə, deməli biz ölkəmizdə fəlsəfi ənənələri gücləndirib daha da inkişaf etdirə bilərik, çünki Azərbaycan fəlsəfi fikri eyni zamanda ümumdünya fəlsəfi fikrinin ayrılmaz hissəsidir.

Fəlsəfə təbiətdə və cəmiyyətdə baş verən bütün hadisə və proseslərin təbii axtarışında özünə mövqe tutmağa çox qadirdir. Xeyir və şər, sevinc və kədər, xoşbəxtlik iztirablar, təzadlar və s. kimi mənəvi hisslər fəlsəfi təfəkkür üçün öyrənmə dairəsidir. Aydındır ki, insanlar fəlsəfəni bilmədən dərk edirlər ki, əqilli olmaq əqlsizlikdən yaxşıdır. Hətta bəzən təhsilli insanlar düşünmür ki, düşünmək bacarığı təbiətin ona verdiyi kimi deyil, hər bir

bacarığı insan özündə tərbiyə etməlidir ki, həmişə bütün məqamlarda fəlsəfə ilə həqiqəti dərk etmək mümkün olsun. Sosial münasibətlərin, dialoqların, rəylərin açıqlanması əsasında həqiqi nəzəri təfəkkür yaranır ki, biz buna çox doğru olaraq fəlsəfə deyə bilərik. Bəzən insan özünə belə sual ilə müraciət edir: Bunlar mənə lazımdırmı? Əgər insan bunu anlamırsa, onun həyatı mənasız olur? İnsanların bir qrupu bu baxımdan həyatı dərk etmədən yaşayır və qarşıya çıxan problemlərdən yan keçməyə çalışırlar. Bu anlarda da ancaq insanın köməyinə fəlsəfə gələ bilər.

Xatırladaq ki, müstəqilliyimizə qədər Azərbaycanda yaranmış fəlsəfə onun özünə aid deyildir. Çünki o dövrdə ateist dünyagörüşü formalaşdıran Sovet fəlsəfəsi Azərbaycan xalqının milli dünyagörüşünü və mənəvi dəyərlərini Sovet ideologiyasında boğmuşdur. Sovet fəlsəfəsi ilə tanış olduqda görürdük ki, Azərbaycanda mövcud olan dini-fəlsəfi mənbələrimiz, istər orta əsr, istərsə də XIX-XX əsrə qədər yaşayıb-yaradan filosoflarımız və fəlsəfəmiz haqqında düzgün məlumatlar verilməmişdir. Moskvada nəşr olunan "История философии" (Fəlsəfə tarixi) adlı kitabın cildlərində yalnız M.F.Axundov fəlsəfəsi haqqında qısa məlumatlar verilmişdir. Ancaq 1990-cı illərdən sonra Azərbaycanın zəngin milli-fəlsəfi xəzinəsi elmi tədqiqatçılar tərəfindən üzə çıxarıldı və ali məktəblərdə tədris olunması üçün "Fəlsəfə" adlı dərsliklər, dərs vəsaitləri və elmi tədqiqat işləri yazıldı və nəşr olundu. Bu dərsliklərdə dünya fəlsəfi irsi ilə yanaşı Azərbaycan xalqının milli fəlsəfəsi və onun tarixi araşdırıldı və tədris prosesinə tətbiq olundu. Məlumdur ki, fəlsəfə hər bir xalqın xüsusi dünyagörüşüdür, mədəniyyətidir, mənəviyyatıdır, zəkasıdır və s. Bu fəaliyyət dairəsində milli fəlsəfə milli sistemləşdirilmiş mövqeləri dərk etməyə kömək edir. Artıq Azərbaycan filosofları nəticə etibarilə ümumi fəlsəfi mövqelərimizi işləyib hazırlaya bildilər. Cəmiyyətimiz keçmişdə yaşanılmış həyati prinsiplərin mahiyyətinin dərk olunmasını, indiki dövrü düzgün qiymətləndirmək və gələcəyimizi düzgün görmək mümkünlüyü əldə etmiş oldular. Beləliklə, imperiya adlanan

nəhəng bir qalaktikanın cazibə sahəsindən çıxdıq, müstəqillik, azadlıq dünyasına daxil ola bildik. Yeni ruhlu fəlsəfənin mənimsənilməsi insanlarda ədalətin, ləyaqətin və azadlığın yaranmasına və hadisələrdən düzgün nəticə çıxarmağa imkan verdi. Belə bir tarixi həqiqətə göz yumulmadı. Ümummilli lider Heydər Əliyev xalqın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasını və daim inkişaf etdirilməsini təmin etdi və tövsiyə etdi ki, fəlsəfəyə laqeyd münasibət bəsləmək olmaz. Bunun davamı olaraq Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncamda fəlsəfi fikrin araşdırılması sahəsində Elmlər Akademiyasının uğurlu xidmətlərini xüsusi olaraq qeyd etmişdir.

Son zamanlar qəzet, jurnal materiallarında, bədii ədəbiyyatda fəlsəfə sözü cəmiyyətin şüurunda “filosof”, “fəlsəfi”, “filosofluq etmək”, “filosofcasına” və s. kimi terminlər çox işlədilir. Lakin bəzi hallarda, təəssüflər olsun ki,  fəlsəfəni bir cox hissələrə ayıraraq müxtəlif ifadələrlə işlədirlər məsələn; “səsin fəlsəfəsi”, “sözün fəlsəfəsi”, “məişət fəlsəfəsi”, “istehsalat fəlsəfəsi”, “bazar fəlsəfəsi”, “cinayətkar dünyanın fəlsəfəsi” və s. Bəzi insanlar bir-birilə adi danışıqda belə “filosofluq etdiyin bəsdir” deməklə sanki “fəlsəfə” anlayışını gözdən salır. Nəticədə yersiz işlədilən mühakimələrdən həmin insanın həm mədəni, həm də intellektual səviyyəsinin aşağı olması kimi başa düşülür. Elə başa düşmək olar ki, fəlsəfənin bu mənada işlədilməsi totalitar cəmiyyətin prinsiplərindən irəli gəlmişdir. Görünür, bəzi tədqiqatçılar və insanlar totalitar cəmiyyətin prinsiplərindən uzaqlaşa bilməmişlər. Totalitar Sovet rejimi dövründə fəlsəfə ehkamı təfəkkürün tələblərindən kənara çıxa bilməmişdir. Daha düzgünü, fəlsəfənin predmetinin məzmunundan, cəmiyyət və onun mövqeyindən, ictimai şüurun formalarından, təbiət və cəmiyyət haqqında biliklərin başqa elmlərlə əlaqəsindən söhbət açılmırdı. Min illərlə bəşəriyyətin mənəvi xəzinəsinin əzəmətli yükü uzun müddət ”marksizim-leninizm fəlsəfəsi”nin dialektik və tarixi materializm dünyagörüşü əsasında saxtalaşdırılmışdır. Filofofların əksəriyyəti qeyd edir ki, hər cür dünyagörüşü heç də həmişə

elmi xarakter daşımır. Subut olunur ki, dünyagörüşü o zaman elmi xarakter daşıya bilər ki, tarixi dövrün nəticələri həmin dövrün elmi nəticələri əsasında qurulsun.

Milli kimliyimizin tanınmaması, milli fəlsəfi-mənəvi dəyərlərimizin qədim tarixə malik olmaması kimi qərəzli ideya tarixən torpağlarımızı işğal edən nankor ermənilərin apardığı təbliğatın əsas istiqamətlərdən də biri olmuşdur. Azərbaycan ərazisinin, xüsusilə 1813 və 1822-ci illərdən zorla Rusiyanın tərkibinə daxil edilməsindən sonra məkrli ermənilər özləri aborogen xalq olmadıqları halda azərbaycanlaları (türklər, kürdlər, ləzgilər, avarlar, talışlar və s.) "gəlmə", "köçəri", "qeyri-mədəni" xalq kimi adlandırmaqdan çəkinməmiş və mütərəqqi ictimai fəlsəfi fikir yaratmağa qadir olmayan xalq kimi təbliğ etmişlər. Amma bu heç də onların arzuladıqları kimi alınmadı. Onlar dərk etmək istəmədilər və ya başa düşmədilər ki, Azərbaycan xalqının çox qədim güclü fəlsəfəsi və milli-mənəvi dəyərləri var. Bu fəlsəfəyə əsalanan milli kimliyimiz ermənilərə qarşı qalib gücünü göstərməklə özünün "Dəmir yumruğu"nu işə saldı və düşmənin başına qüdrətli zərbə endirməklə onları məğlub etməyə məcbur etdi. Nəticədə Azərbaycan ərazisində qondarma Dağlıq Qarabağ Muxtar Respublikası adlı status ləğv edildi, əzəli, əbədi torpaqlarımız geri qaytarıldı.

Bəşəri və milli məfkurəmizin təhlilinə həsr edilmiş və ali məktəblər üçün nəzərdə tutulan bu dərslikdə göstərilir ki, dünyanın qədim və mədəni millətlərindən biri olan azərbaycanlılar zəngin fəlsəfi-mənəvi dəyərlərə və yüksək mədəniyyətə malkdir. Buna görə də qeyd etmək olar ki,yeni nəslimiz olan azərbaycan gəncləri xalqımızın yaratdığı və nəsildən-nəsilə ötürülən milli fəlsəfi dəyərlərimizə dərindən yiyələnməli, onları hər cür qərəzlərdən və təhriflərdən qoruyub saxlamaqla daha da zənginləşdirməlidir. Hal-hazırda fəlsəfi fənlərin tədrisi sahəsində xüsusilə göstərilən fənlər üzrə (Fəlsəfə tarixi, Etika, Estetika, Dinşünaslıq, Mədəniyyətşünaslıq və s.) müasir proqrama uyğun milli və mənəvi dəyərlərimizi əks etdirən əsaslı dərsliklər azdır. Belə nəticəyə gəlmək olar ki, bu gün müstəqil ölkəmizin inkişafını

düzgün istiqamətləndirən, milliliyimizi, milli kimliyimizi göstərən, bəşərilik və müasirlik prinsiplərinə əsaslanan dərin məzmunlu dərslik və dərs vəsaitlərinin olmasına ehtiyac duyulur.

# I FƏSİL

# FƏLSƏFİ TƏFƏKKÜR DÜNYANI DƏRKETMƏ ÜSULUDUR

**1. Fəlsəfənin predmeti, məzmunu və mahiyyəti**
**2. Fəlsəfi gerçəkliyin rasional dərki: dünyagörüşü və onun tarixi formaları**
**3. Fəlsəfi problemlər və onun funksiyaları**
**4. Fəlsəfə və elmi biliklər sistemi**

## 1. Fəlsəfənin predmeti, məzmunu və mahiyyəti

Fəlsəfə sözünün açıqlaması müxtəlif dillərdə necə səslənsə də, fəlsəfə insanın dünyagörüşü baxımından müdrikliyə və həqiqətə çatmaq, dünyanı dərk etməyin xüsusi forması olmaqla bir təfəkkür məktəbidir. Fəlsəfə nədir?- sualına cavab çoxmənalı və rəngarəng olduğundan müdriklər hələ bu suala tam cavab verə bilməmişlər. Çünki, müdriklik təkcə insanın varlığı rasional dərk etməsi kimi yox, həm də, refleksiya, intuisiya və təxəyyül vasitəsilə dərk olunması kimi başa düşülə bilər. Fəlsəfə nədir?- sualına cavab vermək üçün biz ilk növbədə müdriklik nədir? sualına da cavab axtarmalıyıq. Müdriklik sözü də fəlsəfənin özü kimi qədimdir. Çünki, müdriklik cəmiyyətin bütün tarixi inkişaf mərhələlərində müxtəlif mövqe baxımından şərh edilmişdir. Bu bir həqiqətdir ki, müdriklik axı insanın şüur səviyyəsindən və onun dünyagörüşündən asılıdır. Bəziləri fəlsəfəni xoşbəxt yaşamaq sənəti, var-dövlət, şan-şöhrət üçün qaçan əqlin ixtirası, xeyirxahlıq sənəti, şərəfli peşə seçən, qanunlar yaradıcısı və s. kimi təriflərlə bu suala cavab axtarmağa çalışmışlar. Müxtəlif mənbələrə görə bu sözün yaranması Pifaqor, Herodot, Sokratın adı ilə bağlanmış, lakin Aristotel tərəfindən xeyli təhlil olunmuşdur.

Deyilənlərə görə "Pifaqor Flius şəhərində olarkən şəhərin başçısı Leon ondan soruşur ki, sən hansı elm sahəsində özünü

bilikli hesab edirsən? Pifaqor cavab verir ki, heç bir elm sahəsində mən özümü bilikli hesab etmirəm. Mən ancaq filosofam. Leon ondan yenidən soruşur ki, bəs fəlsəfə nədir? Pifaqor qeyd edir ki, "insan həyatını bazarla və ya olimpiya oyunları ilə müqayisə etmək olar. Bazarda öz xeyrini güdən satıcılar və alıcılar var. Oyunlarda isə şöhrət və şərəf haqqında düşünülür, eləcə də oyunda nə baş verdiyini diqqətlə izləyən tamaşaçılar var. İnsanların həyatında da belədir. Onların xeyli hissəsi var-dövlət, şöhrət haqqında düşünür və onun ardınca qaçırlar. Lakin, elələri də var ki, (bunlar olduqca azdır) heç nəyin arxasınca qaçmasa da, şeylərin təbiətini tədqiq edir və həqiqətin dərk edilməsi onlar üçün ən qiymətli nemətdir. Onlar yəni həmin azlıqları filosof və ya müdrikliyi sevənlər adlandırırlar" (Cicero, Tusculan Disputations. VIII, p 8-9. Loeb Classical Library, trans. J.E. King, Harvard University Press, 1945, pp. 431 & 433).

Deyilənlərin bir qismini nəzərə alsaq demək olar ki, müdriklik xeyirxahlığa, həqiqətə, haqqa, əqlə, əxlaqa, insana, varlığa, hikmətə məhəbbət kimi başa düşülə bilər. Məlumdur ki, etimoloji baxımdan fəlsəfə hikməti sevmək deməkdir. Baxmayaraq ki, bir çox alimlər qeyd etmişlər ki, hikmətsevərlik və ya müdriklik ancaq yunanlara məxsusdur. Lakin **Əl-Fərabi** qeyd etmişdir ki, bu elm qədimdə İraq əhli olan gildanilərdə mövcud olmuşdur, bir müddət sonra Misirə, daha sonra yunanlara və ən nəhayət assurilərə və ərəblərə keçmişdir. Bütün deyilənləri nəzərə alsaq görkəmli Azərbaycan filosofu **Nəsrəddin Tusi** məşhur "Əxlaqi-Nasir" əsərində hikmətsevərliyin, müdrikliyin mənasını belə şərh edir ki, mərifət sahibləri arasında hər şeyi olduğu kimi dərk etməyə, hər işi lazimi şəkildə yerinə yetirməyə hikmət deyilir. Bunun nəticəsində insanın mənəviyyatı mümkün qədər təkmilləşməli, arzu edilən səviyyəyə yüksəlməlidir. Hikmət nədir? sualına cavabı biz nə qədər müxtəlif mənbələrdə axtarsaq belə, bu N. Tusinin "Əxlaqi-Nasiri" əsərində daha fərqli və dolğun şərh olunur. Qədim Şərqdə müdriklərə filosof deyilmirdi. Azərbaycanın ilk müdrikləri olan mağlarda da bu fərqli idi. Qeyd etmək istərdim ki, Laertli Diogenin "Məşhur filosofların həyatı,

təlimləri, deyimləri haqqında" mənbədə mağların ədalət, xeyirxahlıq haqqında fikirləri yunan filosoflarının dünyagörüşünə xeyli təsir göstərmişdir. Belə bir nəticə əldə edə bilərik ki, fəlsəfənin qədimliyi və mənşəyi haqqında olan təhlillər ancaq Qədim Şərqlə bağlıdır. Bu fikrin davamı olaraq Hegelin izahını daha da əsas götürə bilərik ki, "mütləq ruh" Şərqdən Qərbə doğru hərəkət etmiş və onun qədəm qoyduğu cəmiyyət və məkan daim çiçəklənmişdir.

Rus mütəfəkkiri **V.S.Solovyov** yazırdı ki, "fəlsəfənin hədəfi mövcudatın hər hansı bir tərəfi deyil, bütün mövcudatdır, öz məzmunu və mənası ilə bütün kainatdır. O, təkcə dünyanın hissələri və hissəciklərinin həddini və onların arasında qarşılıqlı təsiri müəyyən etmir, onların daxili əlaqələrini və vəhdətini anlamağa cəhd edir".

Elə bir adam tapmaq olmaz ki, özü haqqında və ya insanların gələcək həyatı, olum və ölüm, xeyir və şər, həqiqət və yalan barədə düşünməsin. Bunun haqqında **A.Q.Spirkin** belə bir fikir bildirmişdir ki, fəlsəfə konkret bir elm olmaqla gerçəkliyin empirik və nəzəri dərk edilməsi üçün müəyyən anlayışlardan, mühakimələrdən, prinsiplərdən, qanunlardan, hipotezlərdən və nəzəriyyələrdən bəhs edir. Bu düşüncələr istiqamətində çoxlu məktəblərin, cərəyanların və təlimlərin yaranması bunun əsası idi. Məhz dünya fəlsəfi mədəniyyəti bu yolla formalaşmağa başladı. Nəticədə müdriklik üzərində fəlsəfi və dünyəvi biliklər formalaşmağa başladı.

Qeyd edə bilərik ki, fəlsəfə mədəniyyətimizin ən qədim sahələrindən olmaqla dünyanı dərk etməyin xüsusi formasıdır. Fəlsəfə ictimai şüur forması olaraq dünyagörüşü ifadə edir və idrakı funksiyasını həyata keçirərək bəşəriyyətin mənəvi inkişafında mühüm rol oynayır. Bu elmin predmeti cəmiyyətin mənəvi həyatının bütün sahələri ilə qırılmaz şəkildə sıx əlaqəlidir.

Fəlsəfə dünyanın dərk edilməsində nəzəri bilik forması olmaqla müəyyən mühakimələrdən, qanunlardan, nəzəriyyələrdən, hipotezlərdən və s. istifadə edərək çıxış edir. Bütün bunlar inkişaf prosesi zamanı dəyişir, əvvəlki nəzəriyyələrin yerinə daha

mükəmməl nəzəriyyələr yaranır, burada tədqiqatçılar hətta belə səhv edə bilərlər. Lakin bu o demək deyildir ki, fəlsəfə bir aralıq elmi kimi fəaliyyət göstərir. Lakin fəlsəfənin predmetindən belə başa düşülməlidir ki, fəlsəfə ümumi qiymətləndirmə funksiyasını da yerinə yetirir. Bu istiqaməti heç bir elm həyata keçirə bilməz, bunu ancaq fəlsəfə edə bilər. Çünki fəlsəfə təfəkkür məntiqini həyata keçirir və ümumi nəticələrin dərk olunma prosesində məntiqi təfəkkürə əsaslanır.

Alman fəlsəfəsinin görkəmli nümayəndəsi **İmmanuel Kant** (1724-1804) fəlsəfəni insan ruhunun, insan canının təbii meyli adlandırmışdır. Az-çox düşünən insanlar həyati suallar haqqında düşünür və ona cavab axtarmağa çalışır: "Mən nə üçün yaşayıram?", "Mən tam azadam?", "Ölümdən sonra həyat varmı?", "Mənim taleyim necə ola bilər?", "Mən düzmü fikirləşirəm?", "Həyat nədir?", "Xoşbəxtlik nədədir?" və s. kimi həyati suallar hamısı fəlsəfi suallardır və bu sualların cavabı ancaq fəlsəfi təfəkkürün süzgəcindən keçərək nəticədə insan özü həyatın mənasını dəyərləndirə bilir.

Deyilənləri belə nəticələndirə bilərik ki, dünyanın öyrənilməsi elmi-nəzəri, praktiki və mənəvi üsullar vasitəsilə həyata keçirilir. Birinci üsul vasitəsilə insandan asılı olmayaraq dünyanın necə varsa eləcə də dərk olunmasıdır. İkinci üsula görə baş verən hadisə və proseslərin qiymətləndirilməsi və ya dəyərləndirilməsidir. Bir daha qeyd etmək olar ki, fəlsəfə insan üçün mənəvi ruhi tələbatdır. İnsan bütün dünyada baş verə bilən və baş verə biləcək hadisələri düşünüb təsəvvüründə canlandıra bilir.

Dünyanın dərketmə üsulunu öyrənmək üçün fəlsəfi anlamın özünəməxsus yeri vardır. Müasir dövrdə dünyanın dərk olunması elə bir səviyyəyə gəlib çatmışdır ki, insanın təbiətlə qarşı-qarşıya durması bunu sübut edir. Müasir səviyyədə olan qarşıdurmalar zamanı ictimai varlıqda kompleks şəkildə baş verən sosial-siyasi və elmi-texniki inkişafın yüksək səviyyəsinin bütün aspektlərini nəzərə almaq lazımdır. Sanki dünyanın dərki, insanın özünü anlama mexanizmi kimi olduqca mürəkkəbdir. Məlumdur ki, insan eyni zamanda tarixi mahiyyət kəsb edir və tarixi proses ilə

müəyyən olunur. Obyektiv gerçəklikdə insan universallığını və özünün mövcudluğunu özünə iki aspektdən daxil edir.

Birinci aspektdən qeyd etmək olar ki, varlığın dərki tərəflərin qarşılıqlı əlaqəsinə əsaslanmalıdır. İkinci aspektdən isə bu proses zamana əsaslanaraq varlığın ümumi mövcudluğunun vaxtını, müddətini özündə birləşdirir və bu proses dinamik bir inkişaf kimi qəbul edilir. Ümumiyyətlə, fəlsəfi aspektdən dünyanın dərk olunması onun genetik inkişafının öyrənilməsinin ən mühüm metodoloji əsasıdır. Fəlsəfi təfəkkürə əsasən insanda dünyanın dərkini 3 inkişaf mərhələsinə bölmək olar: **1) Dərketmənin uşaqlıq yaş dövrü; 2) Dərketmənin gənclik yaş dövrü; 3) Dərketmənin kamillik (müdriklik) yaş dövrü.**

Bu üç mərhələdə xronoloji nisbət zamanın ardıcıllığı və dərketmənin qarşılıqlı nisbəti mərhələləri kimi uzun keçidli inkişafın xarakterinə əsaslanır. Nəticədə dərketmə zamanı yeni keyfiyyətlər müəyyən zaman intervalında baş verir.

Demək olar ki, insanın bir şəxsiyyət kimi fəlsəfi mahiyyəti insan-təbiət və sosioloji mühit arasında qarşılıqlı əlaqə təsirinə əsaslanır. Bu dialektik əlaqə insan-təbiət-cəmiyyət münasibətində baş verir və özlüyündə ictimai inkişafa keçdikdə sürətlənir və bu fəaliyyət dairəsi öz növbəsində insan və cəmiyyətin maraq tələbatına əsaslanan məqsədyönlü fəaliyyət proqramı yaradır.

Dünyada mövcud olan bütün predmetlər və hadisələr arasındakı təbii proseslərdə özünü göstərən qanunauyğunluqlar hələ neolit dövründə yaşayan insanların da az da olsa diqqətini cəlb etmişdir. Ətraf aləmdə baş verən müxtəlif təbii hadisələr məkan və zaman baxımından dərk olunmağa başladı və insan idrakında vahid kosmos anlayışı yaradıldı. Getdikcə gerçəkliyin izahı aydınlaşdırılırdı ki, bütün kainatı özünə tabe etdirən bir dünya mövcuddur. Bununla da fəlsəfi hadisələrin dərki insanlara sanki bir dünya zəkasının mövcudluğunu güman etməyə əsas verdi. Dünya zəkasından söhbət açdıqda fövqəlbəşər varlıqlar (yunanlarda nus, hindlilərdə drahma və s.) diqqəti cəlb edir. Çünki burada subyektiv insan zəkası dünya zəkasının ən zəif ini-

kası kimi başa düşülür və məqsəd kamil insan zəkasını dünya zəkasının dinamik uyğunluğunda axtarmağa başlamaqdır.

Akademik **İ.T.Frolov** öz əsərlərində fəlsəfənin ən başlıca predmetini insan predmeti hesab etmişdir. O, qeyd edir ki, insan fəlsəfəni öyrənməklə daha da mübariz və inamlı olur. İnsan öz "Mən"ini dərk etməklə sanki həmişə mənəvi azadlıq əldə edir. Tarixdə ilk dəfə olaraq İ.Kant qeyd edirdi ki, fəlsəfə nəzəri cəhətdən formalaşmiş dünyagörüşüdür. Fəlsəfə mövcud olduğu illər ərzində insan zəkasını daimi formalaşdırmış, insan ağlını daim dərin təhlillərdən keçirərək, hər şeydən əvvəl həm insanla, həm onun mənəviyyatı və praktik fəaliyyəti ilə sıx şəkildə əlaqəli olmuş və əlaqəli olmaqdadır. Qeyd edə bilərik ki, fəlsəfə insanın mahiyyətini, insanın dünyanı dərk etməsini, həqiqəti, hadisə və proseslərdə ümumiliyi və xüsusiliyi öyrənir. **Q.Fixtenin** dediyi kimi, "insan necədirsə, fəlsəfə də elədir".

Fransız dramaturqu **Postion** yazırdı ki, qalib gəlmək üçün qarşı qarşıya durmuş orduların silahlarından çox onların fəlsəfəsi qalib gəlir. Müəllif bildirmək istəyir ki, düşmənin "fəlsəfəsini" bilməklə onu tərkisilah etmək mümkündür, bu mənada düşmənin fikir və ideyası,hiyləsi dərk olunur, nəticədə onu tərksilah etmək mümkün olur. Bəşəriyyət bütün çətin dövrlərdə və böhranlı vəziyyətdə həmişə yeni ideyalar axtarmış, zamanın nəbzinə uyğun olmayan ideyalardan əl çəkmişdir. Belə anlarda fəlsəfə insanlara kömək olmuş, cəmiyyətin və tarixi proseslərin istiqamətini düzgün müəyyənləşdirmişdir. Ədalətin, ləyaqətin və azadlığın yaranmasına və hadisələrdən düzgün nəticə çıxarmağa imkan vermişdir.

Zahirən bəzən belə görünür ki, dəqiq elmlər möhkəm bazaya malik olduğu üçün həmişə irəliləyişdədir. Bunun əksinə olaraq guya fəlsəfə dəqiq elm olmadığı üçün durğunluq halı keçirir. Əslində fəlsəfə həmişə öz üzərinə böyük məsuliyyət götürür, xeyir və şər, gözəllik və eybəcərlik, olum və ölüm kimi məsələləri həll etməyə çalışır. Dünyanın etik və estetik baxımından dəyərləndirilməsi, idraka yiyələnmə, təfəkkürün qanunlarını öyrənən məntiq, analiz və sintez kimi problemlərin həlli ilə

məşğul olur. Lakin dəqiq elmlərdə göstərilən problemləri həll etmək qeyri mümkündür. Belə nəticə verərdik ki, hər bir elm fəlsəfə kimi başlayır, lakin sənət kimi başa çatır. Daha doğrusu fəlsəfə məlum olmayanın hipotetik şərhidir. Fəlsəfə həqiqətin dairəsində olan bir müdafiə səngəridir, elm isə ələ keçirilmiş ərazidir və bu təhlükəsiz ərazidə fəlsəfə elm və sənət ilə birlikdə möcüzəli dünyamızın sirlərini üzə çıxarır. Fəlsəfəsiz elm dünyanın sirlərinin açıqlanmasını təsdiq edə bilməz. Doğrudur, elm həyatı və dünyəvi prosesləri müşahidə edir, izləyir, proqnozlaşdırıcı məlumatlar verə bilir, lakin fəlsəfə isə bütün bu proseslərin hamısını nizamlaya bilir. Elm bizə bilik verir, fəlsəfə isə müdriklik və kamillik. **Sokrat** belə bir fikir bildirmişdir ki, "ən yüksək bilik olan xeyir və şər həyatın hikməti haqqında bilikdir". Bundan başqa Sokrat Kritona belə demişdir ki, "fəlsəfə müəlliminin yaxşı və pis olduğuna etiraz etmə, yalnız fəlsəfənin özünü düşün və onu həqiqi sınaqdan keçir. Əgər o şərdirsə, bütün insanların üzünü ondan döndər və ya əksinə mənim inandığım kimidirsə, onda onun ardınca get, xidmətində dur və özünü rahat hiss et".

Fəlsəfə dünyanın dərk edilməsinin xüsusi bir forması olmaqla ictimai şüurun qədim formasıdır. Fəlsəfə bəşəriyyətin ümumi mənəvi inkişafında xüsusi rol oynamaqla üstqurum hadisəsi olmaqla cəmiyyətin dünyagörüşünü ifadə edir, cəmiyyət, insan və dünya üzərində ümumi nəzəri baxışlar sistemi yaratmaqla bir-birindən fərqlənən çoxlu sayda fəlsəfi məktəblər mövcud olmuşdur. Fəlsəfi təfəkkürdə, insan, şüur, dünya və s. kimi çoxsaylı hallara cavab axtarılmışdır. Ümumiyyətlə, cəmiyyətin inkişafında yeni-yeni münasibətlər yarandıqca, fəlsəfi baxışlarda mərhələlərlə, məzmunca yeniləşmə prossesi başladı. Hər bir dövrün nəzəri təfəkkürü müxtəlif məzmunda olmaqla insan təfəkkürünün tarixi məhsuluna çevirildi.

Fəlsəfi ədəbiyyatlarda və dərsliklərdə fəlsəfənin əsas məsələsi fikri tez-tez işlədilir. Bu iki ziddiyətli dünyagörüşün mahiyyəti və mübahisəli məsələsi ənənəvi olaraq hansının birinci olmasını, maddi dünyanın və ya ideyanın qəbul olunması

məsələsini ontoloji ("ontos" – olan, "loqos" – təlim) təlim materiyanı ilkin qəbul edən filosoflar **materialistlər** latınca "matera" – maddi ideyanı, ruhu birinci qəbul edən filosoflar isə **idealistlər** (yunanca idea-fikir, təsəvvür) adlandırılır. Artıq sonralar bu əks istiqamətlərin fəlsəfi mübahisələri və baxışları fəlsəfənin predmetini dərinləşdirdi və tədqiqatçılıq metodunu daha da gücləndirdi ki, nəticədə bu müzakirələr filosoflar tərəfindən bu gün də davam etdirilir. Bu təkcə cərəyanlar və nəzəriyyələr kimi deyil, həm də sosial-iqtisadi və siyasi amillərlə bağlı olmuşdur. Cəmiyyətin, təbiətin inkişaf mərhələlərində hər iki cərəyanın müxtəlif formaları və məktəbləri fəaliyyət göstərmişdir.

Məsələn materialistlər – qədim dövrün sadəlövh materializmini, mexaniki-metafizik, dialektik və tarixi materializm kimi metodları fəlsəfənin əsas istiqaməti hesab etmişdir. Lakin idealistlər isə obyektiv və subyektiv istiqamətdə fəaliyyət göstərməkdədir. Obyektiv idealistlər insan şüurundan asılı olmadan və ondan əvvəl olan "mütləq ideya"nı, "mütləq ruhu" hər şeyin yaradıcısı hesab edir, daha doğrusu "mütləq ideya" Allahın özüdür.

Subyektiv idealistlər isə belə qəbul edirlər ki, hər şey insanın duyğularından, hissi qavrayışından hasil edilir. Daha doğrusu mövcud olmaq elə qavranılmaq deməkdir. Subyektiv idealizimdə bu baxış solipsizm (latınca, təkcə özüm) adlandırılır. Doğrudur, bu cərəyan da ilk öncə Allahın varlığını qəbul edir, lakin duyğuları isə Allahın iradəsini bizə çatdıran işarələr kimi hesab edir. Əslində həm materializim, həm də idealizm varlığın əsasında bir başlanğıc monist (yunanca "monos") dünyagörüşü hesab olunur.

Fransız filosofu **R.Dekart** şüuru materiya ilə birlikdə vahid başlanğıc kimi qəbul etmişdir. Hər iki cərəyanın baxışlarında dünya və onun qanunlarının dərk olunub- olunmaması məsələsini də qarşıya qoymuşdur. Bir qisim filosoflar belə qəbul etmişlər ki, təbiətdə dərk olunmaz bir şey yoxdur. Çünki təcrübəyə əsaslanan biliklər obyektiv aləmi əks etdirən biliklər kimi qəbul edilmişdir.

Digərləri isə dünyanın dərkini qəbul etmir, yəni insan zəkasının qüdrətini məhdudlaşdırır. Bu ideyanı yürüdən və qəbul edən filosoflar idrak nəzəriyyəsinə görə aqnostisizm (yunanca "a"- inkar, qnosiz - bilik) adlanır. Bu termini fəlsəfi ədəbiyyata ilk dəfə gətirən Heksli olmuşdur. Deyilənlərə əsasən qeyd etmək olar ki, hər bir fəlsəfi təlim məzmunca materializim və idealizim dünyagörüşü kimi qəbul edilir və dualist təsəvvürlər kimi başa düşülür. Min illərlə bu mübarizədə fəlsəfə bir qanunuyğun olan elm kimi inkişaf etmişdir. Bu mübarizə prosesində həmin mübahisəli anlayışlar təfəkkürün varlığa olan münasibəti məsələsində fəlsəfə yeni məzmun və yeni forma kimi tanındı .

Məlumdur ki, fəlsəfə qarşısında bir necə sual qoyulmuşdur: "Mən nəyi bilməliyəm?", "Mən nəyə ümid edirəm?", "Mən nə etməyə borcluyam?" və sair kimi suallara cavab, tədqiqat yolunda axtarış kimi dərk olunur, ikinci sualın cavabında insan öz şüuruna, öz təfəkkürünün məntiqi nəticəsinə inam və ya ümid edə bilər. Üçüncü sualın cavabına görə başa düşülə bilər ki, insan ali şüurlu varlıq olmaqla bu gün insan – təbiət – cəmiyyət münasibətlərinin harmoniyasını qorumalı və düzgün dərk etməlidir. Deyilən bu baxışlara görə belə nəticəyə gəlmək olar ki, əgər insanın dünyadakı hər cür münasibətini qeyd etsək, belə düşünmək olar ki, insan ətrafındakını və özünü dərk edir və anlaya bilir. Deməli, insan varlıq forması kimi dünyanın mərkəzində olmaqla başa düşülür və bu onun iradi dərketmələrində özünə yer tapır. Bir çox tədqiqatçıların fikirincə, insan rəngarəngliyin və həm də mədəniyyətin subyektidir. Fəlsəfi aspektdən mədəniyyət aləminin çox aspektliliyi insanın dünyaya münasibətinin çox problemliyi kimi üzə çıxır. Bəzi fəlsəfi konsepsiyalara görə, fəlsəfənin məzmununun insanın taleyində cəmləşməsi, fəaliyyət, idrak, mədəniyyət, şüur, təfəkkür və tarixi subyekt kimi özünü müəyyən etməsində və məntiqi konkretləşməsində təzahür olunur.

Fəlsəfənin əsas məsələsinin aydınlaşdırılması onun predmeti ilə sıx bağlıdır. Əslində fəlsəfənin predmütinin müəyyənləşdirilməsi və onun spesifikasının əsas məsələ kimi dərk olunması

olduqca mühümdür. Bu spesifiklik universallıqla tam əlaqədardır və bu özünü üç əsas variantda müəyyənləşdirir. **a) Elmi aspektdən insandan, subyektdən kənarda olan dünya; b) Humanist aksioloji yanaşma baxımından insan və onun dünyaya olan münasibəti və dünyagörüşü; c) Rasionallıq baxımından obyektivliyin və subyektivliyin qarşılıqlı əlaqəsində bərabər əhəmiyyətliliyin olmasıdır.** Bu variantlar tamlıqla fəlsəfənin predmetinin ən ümumi şərhini özündə ehtiva edir. Burada insan-dünya münasibətində mənəviliyin əhəmiyyətinə xüsusi yer verilir, dialektikada ən ümumi prinsiplər, insan haqqında təcrübə, təbiət, cəmiyyətin və təfəkkürün ümumi inkişaf qanunları, ümumi varlığa olan münasibətlər və s. kimi baxışlar əsas yer tutur. Hegel fəlsəfəsinə nəzər salanda görürük ki, mütləq ideyanın həqiqiliyi və əbədiliyi ruhlar dünyasında zərurət baxımından şərh edilmişdir. İdealizm dünyagörüşü baxımından **Hegel** fəlsəfənin mütləq ideyaya nail olmasını Allah haqqında təsəvvürün yaradılmasında və onun dünyaya münasibətində görürdü. Klassik Alman fəlsəfəsinin görkəmli nümayəndələrindən biri olan **L.Feyerbax** qeyd edirdi ki, "fəlsəfənin predmeti gerçəkliyin özündədir. Burada isə həlledici varlıq insandır. İnsan fəlsəfənin yeganə ali və universal predmetidir".

Hind fəlsəfəsinin nümayəndələri fəlsəfənin predmetində kainatın ümumi varlığını, insanı, təbiəti və Allahın varlığini təhlil edilir. Bura biz Çin fəlsəfəsinin fəlsəfi dünyagörüşünü də eyni olaraq aid edə bilərik.

**E.Qusserə** görə fəlsəfənin predmetinə dünyaya və insana daxilən xas olan əlaqələr sistemi mütləq, universal, mühüm ideyalar, ideallar, əql və sair kimi elementlər daxil edilmişdir. Lakin **A.N.Uaythedə** görə fəlsəfə daha çox cəmiyyətə aid olan baxışlardır.

Keçmiş dövrün təfəkkür sahibləri olan məşhur dünya filosoflar **Sokrat, Platon, Aristotel, Avqustin, Epikur, Demokrit, İbn-Sina, Fərabi, Bəhmənyar, Spinoza, Kant, Hegel** və digərləri həmişə fəlsəfəni daimi öyrənməyə və sevməyə çağırmışlar. Onların rəyinə görə fəlsəfəni insan bütün ömrü boyu

öyrənməlidir. Çünki, fəlsəfə insana zəngin və məzmunlu ömür bəxş edir. İnsanın düşüncəsi və ağlı həmişə axtarışdadır. Bu axtarış prosesi min illərdir davam edir və bu gün də davam etməkdədir. Fəlsəfənin əsas vəzifəsi nəsildən-nəsilə keçən fəlsəfi biliklər nəticəsində əldə olunmuş nəticələrin analiz və sintezini yaratmaqdan ibarətdir. Eləcə də təkcə keçmiş deyil, həm də üzünü gələcəyə tutur və bu gün insan təbiət-cəmiyyət münasibətlərini təhlil edir. Antik və Orta əsrlərin məşhur filosofları fəlsəfəyə çox böyük qiymət vermişlər.

1. Avqustin deyirdi ki, fəlsəfə müdrikliyin özünü öyrədəndir.

2. Foma Akvinkiyə görə fəlsəfə həqiqət haqqında bilikdir, daha düzgün şeylərin ikin varlığı haqqında olan elmdir.

3. T.Hobbs qeyd edirdi ki, fəlsəfə bütün yaradılmışları öyrənən insan əqlidir, hadisə və proseslərin səbəblərinin mühakimə yolu ilə dərk edilməsidir.

4. Alman mütəfəkkiri Fixteyə görə fəlsəfə biliklər birliyi və ya şüur haqqında elm, Hegelə görə isə fəlsəfə zəmanəsinin fikri kimi qiymətləndirilmişdir.

5. Müasir ərəb filosoflarından Musa Əl-Musəzi Frensis Bekonun əqldən törənən bilik hesab etməsini xüsusi dəyərləndirmişdir.

6. Sokrata görə fəlsəfə xeyrə aparan əqli tədqiqat yoludur.

7. Platon fəlsəfəni bütün varlıqların həqiqət nizamından bəhs edən elm hesab edir.

8. Aristotel: Fəlsəfə canlı varlıqlar, onların səbəbləri əsas prinsipləri və ilkin mahiyyəti haqqında təlimdir.

9. Spikur: Fəlsəfə səadət, xoşbəxtlik bərqərar edən əqli və əməli elmdir.

10. Əl-Kindi: Hisslər sonsuz və hüdudsuzdur. Onları elm əhatə edə bilmir, ancaq fəlsəfə dərk edə bilər

11. İbn-Sina: Fəlsəfi hikmət nəzəri və əməli həqiqətləri təsdiq etməklə insani nəfsi kamilləşdirir.

12. Səfa qardaşları (İhvani Səfa) isə fəlsəfəni biliyə məhəbbət və mövcudatın həqiqətlərini bilmək kimi qiymətləndirmişdir.

13. S.Şirazi "Fəlsəfə dünyanın əqli qanunlarla nizamlanmasıdır" kimi şərh etmişdir.

14. R.Dekart: Fəlsəfə hər bir elmin əsas ünsürləri barədə elmdir.

15. Cek Jokk: Fəlsəfə bəşəri əqlin öyrənilməsi kimi başa düşülə bilər.

Yuxarıda qeyd olunan bütün fəlsəfi təriflərdə və baxışlarda fəlsəfə nədir və bizə nə üçün lazımdır? sualına qismən də olsa cavab tapa bildik. Gerçəkliklə bağlı olan bu elm müasir dünyanın dərk edilməsində insana çox şey öyrədə bilər. Çünki fəlsəfə dünyanı kənardan seyr etmir, o, dünyanı beyin, əqli şüur və məntiqi təfəkkür vasitəsi ilə dərk edir. Hər bir dövr üçün dünyanın qanunlarının nəzəri cəhətdən necə mənimsənilməsi elmi idrakın metodlarına əsaslanır. Hər bir dövrün nəzəri təfəkkürü çox müxtəlif məzmuna malik olan tarixi bir məhsuldur. Deməli, fəlsəfə təfəkkür haqqında tarixi bir elm olmaqla, həm də insan təfəkkürünün inkişafı haqqında elmdir.

Həyatda yaşayan insan çox saylı suallarla qarşılaşır. "Cəmiyyətin inkişafında hansı ziddiyyətlər mövcuddur və perspektivlər nədən ibarətdir?", "Müasir dövrü necə qiymətləndirmək olar?" və s. suallara cavab vermək üçün insan gerçəkliyə öz münasibətini müəyyən etməlidir. Bu suallara cavab əsasında insan dünyagörüşünü daha da formalaşdırır və bunun əsasında insan "öz fəlsəfəsini" əsaslandırmağa çalışaraq dünya anlamını daha da dərinləşdirir. Göstərilən fikirləri belə nəticələndirmək olar ki, əvvəla, hər bir elm o zaman mövcud olur ki, onun heç bir elm tərəfindən öyrənilməyən predmeti olsun. Bu mənada fəlsəfənin predmetini insanı əhatə edən gerçəklik, maddi və mənəvi varlıq və onu əhatə edən inkişaf qanunauyğunluqlarını bütöv halda öyrənir. Çünki, gerçəkliyin ən ümumi inkişaf qanunlarını ancaq fəlsəfə öyrənir. Qısa şəkildə desək fəlsəfə insan

- təbiət, insan - cəmiyyət və insan - mənəvi münasibətlərinə əsaslanan təlim və nəzəriyyələr sistemi kimi başa düşülür.

## 2. Fəlsəfi gerçəkliyin rasional dərki: dünyagörüşü və onun tarixi formaları

Dünyagörüşü, onun mahiyyəti və tarixi formaları haqqında çoxlu fikirlər söylənilmiş, bu istiqamətdə ziddiyyətlər, mübahisələr indi də qalmaqdadır. Sosial-siyasi, iqtisadi və mənəvi aspektlərdən şərhinə və izahına xeyli yer verilmişdir. Lakin filosofların əksəriyyəti dünyagörüşü gerçəkliyinin rasional dərki kimi şərh etmişdirlər. Məlumdur ki, dünyagörüşü ancaq insana məxsusdur və onun aşağıdakı elementləri vardır:

1. Dünyagörüşü – **insanın dünyada yeri və rolu haqqında baxışlar sistemidir**.

2. Dünyagörüşü – **insanın öz-özünə və onu əhatə edən gerçəkliyə olan münasibətidir**.

3. Dünyagörüşü – **insanların həyat mövqeyidir və insanın idrakı fəaliyyətində qiymətləndirici istiqamətdir.**

İnsan özünün zəkalı fəaliyyətində daim mühakimələr yaradaraq öz "Mən"ini obrazlaşdırmaq məharəti əldə etmişdir. Bunula da insan ömür boyu özünü və onu əhatə edən gerçəkliyi dərk etməyə səy göstərmişdir. Bu halda insan xeyirlə şər arasında, gözəllik və eybəcərlik, sevinc və kədər kimi hisslərə fərq qoymuş, bu dəyərləri həmişə qiymətləndirməyə çalışmışdır və nəticədə insan gerçəkliyi dünyagörüşü baxımından xarakterizə edə bilir. Strukturca mürəkkəb olan dünyagörüşü özündə müxtəlif bilikləri, əqidələri, əhval-ruhiyyələri, səyləri və ümidləri özündə birləşdirir. Müxtəlif biliklər sistemində ümumi səciyyə daşıyan adi, həyati, məişət, peşə, elmi, dünyəvi biliklər mühüm rol oynayır və bu biliklər artıqca, insanda dünyagörüşü daha da formalaşır və inkişaf edir, nəticədə insan dünyanın elmi mənzərəsini dərk edə bilir. Cəmiyyətin formalaşdığı ilkin başlanğıc dövründə dünyagörüşü əsasən fantastik uydurmalara və ibtidai inanclara meyilli olmuşdur. Dünyagörüşün formalaşmasında müxtəlif

biliklərin zənginləşməsi insanın mütləq mənada praktik fəaliyyətindən asılıdır. Deməli, dünyagörüşü ictimai şüurun kompleks halda formasıdır. Ona görə də, burada intellektual və emosional istiqamətlər müxtəlif formada ifadə olunur. Dünyagörüşü baxımından varlığın dərkində emosional-psixoloji və idrakı-intellektual tərəfləri əsas götürmək vacibdir. İnsanların şüurlu fəaliyyətində dünyanın dərki, onların emosional duyumu, nikbin və bədbin hissləri ilə bağlıdır. Bura sosial vəziyyət, peşə fəaliyyəti, cinsi mənsubiyyət, temperament və s. daxildir. Bir sözlə insanın və ya cəmiyyətin dünyagörüşü onun emosional və intellektual kimi cəhətlərinin qarşılıqlı əlaqəsindən asılıdır və bu inkişaf mexanizmində əqidə, şübhə, iradə və inam aparıcı rol oynayır. Hər hansısa bir baxışın əqidəyə çevrilməsi inamla bağlıdır. Bütün deyilənləri ümumiləşdirsək dünyagörüşü bilik, inam, zəka, əqidə, şübhə, iradə  və ənənəvi yaradıcı təfəkkürün vəhdətidir.

Dünyagörüşü insanda dünyanın mənəvi mənimsənilməsi tələblərindən yaranmışdır. Bu tələb özü isə insanın əməli fəaliyyətinin sayəsində əsrlər boyu inkişaf edərək, tarixi inkişafın mərhələlərindən asılı olaraq özünün təkmilləşmə prosesini keçmişdir. Deməli, dünyagörüşü bütün dövrlər üçün eyni ola bilməz, çünki konkret tarixi mahiyyət daşıyır. Hər bir real tarixi şərait özünün ictimai münasibətləri ilə fərqlənir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ümumiləşmiş halda dünyagörüşün aşağıdakı funksiyalarını qeyd edə bilərik: **a) İdraki funksiya** – insanın maraq dairəsində qarşısına qoyduğu suallara cavab axtarışı. Bu axtarışda insan idraki fəaliyyətini gücləndirərək dünyagörüşünü zənginləşdirir və bu mənada mənəvi-əxlaqi hisslər (həya, vicdan, borc, mərhəmət, başqasının halına yanmaq və s.) dünyagörüşün mühüm tərəfini təşkil edir. **b) Dünyanı qavrama səviyyəsi birinci ilə çox yaxındır.** Bu mexanizimdə təsəvvürlər gercəkliyə uyğun adekvat da ola bilər və ya olmaya da bilər. Belə halda dünyanın qavranılması bütöv obrazların yaradılması ilə səciyyələnir. **c) Dünyanı anlama – yüksək səviyyəli olması ilə səciyyələnir.** Dünyanı anlama mərhələsi gündəlik həyat təcrübəsinə əsas-

lanaraq təbiətdə və cəmiyyətdə baş verən hadisə və proseslər arasındakı əlaqələrin öyrənilməsində baş verir. Bütün bunlar nəticələndirilərək 3 bölgüdə özünü əhatə edir. **1) İlkin elementar səviyyə** - (əldə olunan ilkin baxışların, ideyaların dəyərlərinin məcmusu); **2) Konseptual səviyyə** - müxtəlif konseptual anlayışları (dünya, məkan, zaman, ictimai inkişaf, onun fəaliyyəti, hərəkət, səbəb, nəticə və s. kimi) özündə birləşdirir; **3) Metodoloji səviyyə** - dünya və insan dəyər baxımından qiymətləndirilir, bütövlükdə zəka və hisslər tam şəkildə özünü göstərir. Gercəkliyin mənəvi mənimsənilməsi birdən-birə yaranmamışdır, onun tarixi, sosial, iqtisadi, mənəvi qaynaqları və kökləri olmuşdur. Bəşəri idrak çox ziddiyyətli bir təkamül yolu keçmişdir. Həmin inkişaf öz yolunu birinci olaraq metodoloji dünyagörüşündən (mif-əfsanə, rəvayət, nağıl, dastan) başlamışdır.

**Dünyagörüşün üçüncü tarixi forması olan mif** – dünyanın yaranması, ictimai inkişafın ilkin formasıdır. Dilimizdə mifin qarşılığı "əsatir" kimi başa düşülür. Mif dünyanın yaranması, allahlar, qəhrəmanlar, təbiət hadisələri, adət və ənənələr, etiqadlar haqqında möcüzəli əfsanəyə və rəvayətə deyilir. Həm də təsadüfü deyildir ki, mifologiya qədim mədəniyyətin, incəsənətin beşiyi adlanır. Mif yaradıcılığı dünyanı dərk olunmasında əsas rol oynamaqla dünyanın mənzərəsi haqqında təsəvvürlərin yaranmasında kömək etmişdir. Diqqətlə yanaşsaq fəlsəfi aspektdən başa düşmək olar ki, cəmiyyətin inkişafının ilkin mərhələsində mifoloji şüur həmin inkişaf pilləsində törənən sosial hadisə kimi mövcud olumuşdur. Mifoloji şüur fəlsəfənin tədqiq etdiyi ictimai şüurun formalarından biridir.

Məlumdur ki, insanlarda nitq qabiliyyətinin yaranması dil ilə ifadə olundu və dil mif yaradıcılığının əmələ gəlməsində əsaslı rol oynadı. Miflər zaman etibarilə ibtidai fəlsəfi dünyagörüşün mahiyyətini əks etdirmişdir. Məsələn, görkəmli filosoflardan **K.İ.Quman** özünün "Mif və mədəniyyət" kitabında qeyd edirdi ki, miflərdə insanların təbiət üzərində ilk qələbəsi, əxlaqi normalar, emprik biliklər, adətlər, ənənələr, qəbilə mədəniyyətinin məhdudluğu və ya hər cür xürafatlar əks olunur.

Aydındır ki, ibtidai insanların yaşadığı dövrdə xeyli çətinliklər mövcud olmuşdur: olum – ölüm, güclü – zəif, işıq – qaranlıq, müxtəlif təbiət hadisələri onların yaddaşında və şüurunda mövcud olmuşdur. Bu hadisələr nəticəsində yaranan miflərdə də metoloji dünyagörüşü əks qütblərdə öz əksini tapdı və xaotik düşüncə isə ibtidai insanlar üçün mövcud olan bir başlanğıcdır. Məsələn, Azərbaycan kosmoqonik miflərində Ahura Məzda göy, torpaq onun anası, od onun oğlu, su isə qızı hesab olunurdu. Bu miflərdə bəzən çox qabarıq fikirlər səsləndirilmişdir. Məsələn, "Qabaqlar göy yerə yaxın idi", "Əzəli yer üzərində hec nə yox idi", "Yerlə göy bir-biri ilə bitişik imiş". Digər mənbələrdə, məsələn: Şümerlərin "Gilgameş (Bilqamıs), Enkidu və yeraltı səltənət" adlı poemasında göstərilir ki, əvvəllər yerlə göy bir olmuşdur ki, çox allahlar yerin göydən ayrılmasına qədər mövcud olmuşdur. Belə miflərdə bir nizamsızlıq, hüdudsuzluq, sonsuzluq və məkansızlıq mövcuddur. Dünyanın yaranması ilə bağlı bir mifoloji təsəvvürdə qeyd olunur: "Lap əvvəldən allahdan başqa hec kim yox imiş. Yer üzü başdan ayağa qədər su ilə dolu olmuşdur. Allah bu suyu lil edir. Daha sonra lili torpaq, sonra torpaqdan bitkilər cücərir. Ondan sonra torpaqdan palçıq yaradaraq insanları yaradır və onalara ruh verir". Biz bu mifoloji dünyagörüşə fikir versək, qarşı-qarşıya durmuş iki ziddiyyətli baxış görə bilərik: dağıtmaq və yaratmaq. Bu qarşılıqlı əlaqədə sanki kainatın formalaşması prosesi baş verir.

Mifoloji şüura xas olan digər formalardan biri də sinkretizimdir. Bundan qabaq biz qarşı-qarşıya duran ziddiyyətli tərəflərdən söhbət açdıq. Amma sinkretizimdə bunun tam əksinə bir şeyin inkişafında səciyyəvi olan ayrılmazlıq, qovuşuqluq movcudur. Mifoloji şüurun inkişaf mərhələlərində mövcud olan allahlar, totemlər, kultlar sanki formalaşmış şüurun məhsuludur. Bu dünyagörüşü mərhələsindən sonra qədim dünyanın harmonik mənzərəsi sanki bir tarazlığa əsaslanır.

Göstərilən bu mifik baxışlara nəzər saldıqda bizə aydın olur ki, mifoloji dünyagörüşü ibtidai cəmiyyətlərin mənəvi həyatında başlıca yer tutur. İbtidai insanlar gerçəklikdə baş verən hadisələri

duymaq, dərk etmək istəyində olmuşlar. Onlar ancaq bu hadisələrin real mahiyyətlərini dərk edə bilmədikləri üçün qeyri-adi rəvayətlər yaratdılar.

Ümumiyyətlə mif yaradıcılığı mənəvi hadisə kimi min illərlə davam etmişdir. Hələ qədim filosoflar mif probleminin açıqlamasını uzun illər boyu tədqiq etməyə çalışmışdır və mübahisə obyektinə çevrilmişdir. Hər hansısa bir xalqın dinini, fəlsəfəsini və mədəniyyətini öyrənmək üçün hər şeydən qabaq onun mifologiyasını tədqiq etmək lazımdır. Qeyd etmək olar ki, mif haqqında bütün baxışlara və nəzəriyyələrə nəzər salsaq və dərindən araşdırsaq bir sıra vəzifələri müəyyən etmək olar: **a) bizə gəlib çatan mifoloji strukturları düzgün müqayisə etmək; b) mifoloji strukturların yaranma, dəyişmə və fəaliyyət mexanizmi ilə bağlı nəticələrin əldə olunması; c) mifoloji dünyagörüşünün xüsusiyyətlərinin digər xalqlarda və başqa məzmunda olması təzahürünün təhlili; d) bütün mədəni sistemlərə əsaslanaraq dünya mifoloji modelinin müəyyənləşdirilməsi**. Göstərilən vəzifələri müəyyənləşdirərkən ilk növbədə xalqların mifologiyasının təsnifatı baxımından aşağıda göstərilən bölgüləri bilmək lazımdır:

- **Kosmoqonik miflər**
- **Antropoqonik miflər**
- **Etnoqrofik miflər**
- **Təqvim mifləri**

Ümumiyyətlə XIX-XX əsrin fəlsəfi tədqiqatçıları dünya mifoloji sisteminin ümumiləşməsini ancaq yunan mifoloji sisteminə əsaslandırmağa çalışmışlar. Bu da onlarda Avropa mərkəzçilik ideyasına əsaslanırdı. Çünki onlar nadir hallarda Babil, Misir, Ərəb, bir sözlə Şərq xalqlarının mifologiyasına müraciət edirdilər.

Şərqin rəngarəng dünyagörüşü olduqca bizə bir çox fikirləri təhlil etməyə əsas verir. Qədim Azərbaycanda günəşə və oda bir varlıq kimi sitayiş edirdilər. Onlara görə ilk başlanğıc Zərvan Əkarandır (qeyri-məhdud zaman) qədim dünyanın əksər Şərq xalqalrının mifologiyası əsasən atəşpərəsliklə bağlı

olmuşdur. Məsələn, **Layertli Diogenə** görə Şərqdə varlıq iki başlanğıcdan Hörmüz (xeyir allahı), Əhriman (şər allahı) kimi qüvvələrdən ibarətdir. Daha sonra qeyd edə bilərik ki, Hegel həm fəlsəfə tarixində, həm də "Estetika" kitabının 2-ci cildində Zərdüştlüyün iki başlanğıcı haqqında və onların əbədi mübarizəsi haqqında ətraflı təhlilini verir.

Mifoloji dünyagörüşün şərhinə böyük maraq göstərən filosoflardan biri olan **E.Taylor** qeyd edirdi ki, müxtəlif xalq-aların məişəti, psixologiyası, təfəkkürü, dini və fəlsəfi baxış-larında yaxınlıq olarsa, onların sujet xəttində də oxşarlıq mümkündür. Buna səbəb həmin xalqların mədəni tarixi əlaqələri və xalqların genetik qohumluğudur. Həmin xalqlar eyni tarixi prosesləri, eyni mərhələləri keçdiyi üçün təbiət və cəmiyyət hadisələrində bədii və mifoloji yaradıcılıqda oxşar baxışlara və təsəvvürlərə malik olurlar. Təxminən E.Taylorun fikirlərinə şərik çıxan filosoflardan biri **Q.Spenser** olmuşdur. Q.Spenser qeyd edirdi ki, ibtidai insanda yenini birdən-birə dərk etmək qabliyyəti yox idi, səbəb-nəticə əlaqələri haqqında məlumatsız idilər, analitik fikir üçün sözü çatmırdı, bir sözlə məntiqi düşünmək bacarığına malik deyildir. Onun fikrincə mif idrak üçün kifayət qədər vasitə hesab olunurdu, ona görə də insanlar anlamadıqları hadisə və faktları miflər vasitəsi ilə başa düşməyə cəhd göstər-mişlər.

Lakin rus mifologiya məktəbinin görkəmli nümayən-dələrindən biri olan **A.F.Zosev** mifoloji dünyagörüşün ən mühim xüsusiyyətini mifin ümumi ideyası ilə ən adi hissi obrazını bir başa maddi eyniyyət kimi götürürdü. O, uzun müddət antik mifologiya ilə məşğul olmuş və mifin sosial-tarixi inkişaf nəzə-riyyəsini işləyib hazırlaya bilmişdir. O, əsərlərində bir daha qeyd edir ki, mif nə ideal anlayış, nə ideal varlıq, nə poetik obraz, nə elm, nə də ehkam deyildir. Mif həyatın özüdür, mif varlığın özüdür, o, şəxsiyyətin özünün təsdiqidir, o, möcüzədir, necə ki, bütün dünya özü həm möcüzə, həm də mifdir.

Düzdür, mifologiyanın məzmunu, mahiyyəti ilə bağlı bir çox dünya ölkələrinin filosoflarının düşüncələri və baxışları ilə

bağlı müəyyən fikirlər qeyd olunmuşdur. Mifologiyanın tarixində ilk elmi əsər müəllifi **Mirzə Kazım bəyi** qeyd etmək istəyirəm. O, yazırdı ki, əfsanəsi olmayan xalq, rəvayəti olmayan ölkə yoxdur. Köcərilərdə bu nəsildən-nəsilə şifahi şəkildə keçir. Mirzə Kazım bəyə görə miflərin real əsası yoxdur. Mif real, təbii və ictimai hadisələrin insan təxəyyülündə əksidir. Görkəmli tədqiqatçı Şərq mifologiyasını iki hissəyə ayırır: **1) Allahlar haqqında ruhlar; 2) Ruhlar haqqında miflər.** Mirzə Kazım bəy mifologiya sahəsində hələ indiyə qədər yazılmayan "Mifoloji lüğət" əsəri ilk təcrübələrdən biri idi. Azərbaycan mifologiyasının tədqiqində misilsiz rolu olan tədqiqatçıların adlarını qeyd etmək istəyirəm. **Məsələn Eynəli Sultanov, Arif Acalov, Mahmud Mahmudbəyov, M.F.Axundov, Həsən bəy Zərdabi, F.Köçərli, Y.V.Çəmənzəmənli, P.Əfəndiyev, A.Bağiri, A.Zeynallı, B.Xuluflu, A.Sübhanverdixanov, C.Mümtaz, Əmin Abid, Hümmət Əlizadə** və başqalarının adını qeyd etmək olar. Əlbəttə qısa şəkildə Azərbaycan filosofları haqqında məlumat verdik, adları qeyd olunan və ya olunmayanların əksəriyyətinin əsərlərində mifoloji dünyagörüşü ilə bağlı gələcəkdə daha geniş məlumatlar əldə olunacaq.

Ümumiyyətlə, mif nədir? - sualına cavab müxtəlif səpkidə cavablandırılarsa da, bu barədə elmi və fəlsəfi ədəbiyyatda hələ müzakirələr davam etməkdədir. Amerikan alimi **U.Druqlas** bu problem ilə bağlı nəticəyə gəlmişdir ki, mifin mənası onu tədqiq edən alimlərin və filosofların sayından çoxdur. Yeni-yeni mifoloji konsepsiyalar yarandı. Məsələn, **M.Hohgezanq** özünün XX əsrdə "Mif və məntiq" əsərində göstərdi ki, mif və məntiq elə bir qüvvədir ki, onların hərəkəti mədəni həyatın ritminə daxil olur. Bu qüvvələrin dinamikası ona gətirib çıxarır ki, biz yeni mif dövrünə qədəm qoyuruq. Bununla yanaşı **J.Volter** mifin gələcəyinin fenomen olduğunu elan etmişdir. O, bildirirdi ki, "mifi zorla yaratmaq olmaz, yəqin ki, biz mifdən çıxmışıq, ola bilsin ki, yenə qayıda bilərik. Nə vaxtsa intellektual imkanlarımız tükənsə, o zaman biz mifi dərindən mənimsəyəcəyik".

Ümumiyyətlə, “mif” anlayışı adekvat münasibəti tələb edir, mif tarixə qədər və elmə qədər şüurdur, simvolik olaraq bir fantaziyadır. Mifə münasibətin təhlili tarixi-metodoloji baxımdan yaranma tələb edir. Məlumdur ki, hər bir elm kimi qədim tarix, fəlsəfə, folklor, antropologiya, din tarixi, psixologiya və s. kimi elmlər hər biri ayrı-ayrılıqda mifə öz tərifini verir. Verilən bu təriflərin hansı birisini seçsək, bu bizə çətin ola bilər. Çünki, mif müxtəlif tarixi və sosial şəraitin nəticəsi olaraq meydana gəlmişdir. Deməli, mif problemi əsasən mifologiya tarixi və metodoloji baxımdan həll olunmalıdır. Şellingin “Qədim dünya mifləri hekayətləri və filosofları haqqında” əsərində mifləri tarixi və fəlsəfi həqiqət kimi görür. “Tarixi miflərin məqsədi – tarixdir, fəlsəfi miflərin məqsədi isə həqiqətin inkasıdır”- deyərək **Şellinq** öz fikrini bildirir. Mif tarixin və fəlsəfənin başlanğıcıdır, ona görə uşaqlıq dövrünü yaşayan bir əxlaqa mənsubdur. “Mif tarixi fenomendir” – deyə Şellnqin baxışlarına görə mif tarixlik baxımından həm obyektiv, həm də subyektiv mahiyyət daşıyır.

**Dünyagörüşün ikinci tarixi forması** – dindir. Din ictimai şüurun bir forması olmaqla gercəkliyin dərk olunması əsasında yaranmışdır. Təbii ki, din cəmiyyətin tarixi inkişafında öz yolunu keçmiş və cəmiyyətin mənəvi dünyagörüşünün əsaslarından birini təşkil etmişdir. Dini dünyagörüşə əsasən dünya iki səviyyədə başa düşülür; “bu dünya” və “fövqəlhissi dünya". Dində qeyd etdiyimiz “fövqəlhissi dünya”da həyatın mənası, cənnət-cəhənnəm dünyası və s. əsas götürülür.

Din bəşər mədəniyyətinin tərkib hissələrindən biridir. Din bütün tarixi dövrlərdə insan həyatını müəyyənləşdirmişdir. Cəmiyyətin tarixi inkişafında dini dünyagörüşün formalaşması çoxallahlıqdan (politeizim) təkallahlıq (monoteizm) istiqamətində öz inkişaf yolunu keçmişdir. İbtidai dinlər (**animizim, animatizm, totemizm, fetişizm, magiya və s**.) mərhələsindən keçən bəşəriyyət öz gedişindən müxtəlif dini etiqadların və kultların şahidi olmuşdur. Əkinçiliyə və maldarlığa keçid dövründə daha mürəkkəb dini formalar meydana çıxdı. Məsələn, **totemizm** – heyvan obrazında ruhlara pərəstiş və ya ruhların insan gör-

kəmində olması, əkinçilik dövründə isə fəsillərin bir-birini əvəz etməsini, heyvan nəsillərinin bir-birini əvəz etməsi, eləcədə torpağa atılmış toxumun cücərməsinin dini aspektdən ölən və dirilən allah kimi pərəstiş edilmişdir. Materiarxal qəbilə quruluşundan patriarxal qəbilə quruluşuna keçid dövründən sonra qadın allahların kişi allahlar tərəfindən sıxışdırılması kimi başa düşüldü və nəticədə əcdadlar kultu formalaşdı yəni tayfa, qəbilə və ailə başçılarına sitayiş ön plana keçdi. Bunun nəticəsi olaraq panteon yəni çoxallahlıq forması əmələ gəldi. Qeyd etmək olar ki, din ictimai şüurun forması olmaqla cəmiyyətin mənəvi həyatında böyük rol oynayaraq tarixi inkişafın bugünki mərhələsində də mövcud olan milli və dünya dinləri arenasında özünə yer tutdu.

"Din" ərəb sözüdür və mükafat kimi tərcümə olunur. Din tarixində dinşünaslar, eləcə də filosoflar tərəfindən dinə 80-dən çox tərif verilmişdir. Ensklopedik lüğətdə qeyd olunur ki, din ictimai şüur formalarından biridir, bir və ya bir neçə ilahi varlığın, müqəddəslərin, yəni fövqəltəbii aləmin bu və ya digər növünün inamını əsas götürən dünyagörüşüdür və spesifik fəaliyyətdir.

Amerika filosofu və psixoloqu **Uilyam Ceyms** qeyd etmişdir ki, din insanın Allah adlandırdığı varlıq qarşısında keçdiyi hisslər və gördüyü işlərdən ibarət bir sistemdir. Fransız filosof **Şmil Dürxheym** "Əql və dini etiqad" əsərində mövcud olan dinlərin hamısını əhatə edəcək ifadə etmişdir ki,din ülvi bir həqiqət ətrafında toplanmış əqidələr, ayinlər və hisslər məcmusudur.

Din mədəniyyətin mühüm tərkib hissələrindən biridir. Bu bir həqiqətdir ki, bəşəriyyətin yaratdığı nə varsa hamısı mədəniyyət nümunəsidir. Din insan mənəviyyatını tənzimləyir, yüksəldir və ülviləşdirir. Buna əsasən deyə bilərik ki, din ulu bir sərvət və mədəniyyətdir. Akademik **F.Köçərlinin** qeyd etdiyi bir fikiri yadımıza salmaq istəyirəm ki, İslamın Şərq xalqlarının mədəniyyət tarixində yeri və rolu tam tədqiq edilməmiş qalır. Unutmaq olmaz ki, dini təsəvvürlərdə xalqların çoxəsrlik mənəvi-

psixoloji təcrübəsi, xüsusilə insan problemi haqqında düşüncələri cəmlənmişdir. Daha sonra 31 iyun 1992-ci il tarixində çap olunan "Xalq qəzetində qeyd olunur ki, "İslam yaradıcılıqda və mənəvi prosesdə böyük rol oynayır. O, yalnız estetik zövqün deyil, eyni zamanda ictimai həyatda etik normaların qərarlaşmasına xeyli dərəcədə kömək etmişdir".

Lakin kecmiş sosializm quruculuğu şəraitində, daha doğrusu ateizm şəraitində dinə hərtərəfli yanaşılmamış, yanlış təriflər verilmiş, keçmişin zərərli qalığı kimi cəmiyyətdə təbliğ olunmuşdur. Bu dövrdə "Elmi ateizm" fənni tədris olunmuşdur, orada elmlikdən çox "siyasi motivlərə" çox geniş yer verilmişdir. Təhsil müəssisələrində ateist dünyagörüşü təbliğ edilirdi ki, guya allahın və ya allahların mövcudluğu sadəcə olaraq "gərəksiz hipotez" kimi qəbul olunmuşdur.

Əslində dini şüur hər bir xalqın mədəniyyətinin tərkib hissəsi olmuş, ideologiya forması kimi cəmiyyətin mənəvi həyatında sosial funksiyaları həyata keçirmişdir. Bir şeyi qeyd etmək istərdim ki, dində ilahi qüvvə bir sehrli dünyanı yaradır. Bu baxışlar cəmiyyətdə dini dünyagörüşün yaşamasına kömək edir, digər tərəfdən şər qüvvələrin göstərdiyi təsirlərdən xilas olmaq üçün insanı ilahi qüvvə ilə birləşdirməyə sövq edir. Ona görə belə qəbul olunur ki, yüksək dini dünyagörüşə malik olan insan şər qüvvələrindən qoruna bilir. **Aristotel** özünün fəlsəfi baxışlarında qeyd etmişdir ki, tanrı dünyanı yaratmamışdır, onu ancaq hərəkətə gətirmişdir və sonra bütün əməliyyatların motivi olaraq idarə etməkdədir. Aristotelin dəqiq sözləri ilə desək "Sevilən obyekt sevəni necə idarə edərsə, tanrı da dünyanı elə hərəkətə gətirir". O tanrını belə ruhda təqdim edir: Aristotelin tanrısı sirli və mistik bir ruhdur, o hec bir arzuya, istəyə, malik deyil. O, mütləq olaraq mükəmməldir, kamildir. Onun yeganə məşğulluğu predmetlərin mahiyyətini seyr etməkdir. Çünki onun özü bütöv bir mahiyyətdir, hər şeyin mahiyyətidir, bütün formaların formasıdır. **Uil Durantın "Fəlsəfi hekayələr"** kitabında və **B.Spinozanın** tanrı haqqında belə bir fikirlərini çatdırmaq istəyirəm: "Tanrının yardımı ilə mən təbiət deyərkən

müəyyənləşmiş və dəyişməz nizamı və ya təbii hadisələrin zəncirini nəzərdə tuturam; təbiətin universal qanunları və tanrının əbədi fərmanı eyni şeydir. Tanrının hüdudsuz təbiətdən qaynaqlanan hər bir şeyi eyni zərurət vasitəsilə, eyni üsulla baş verir. Bir dairənin qanunu digər dairələr üçün nədirsə, Tanrı da dünya üçün odur".

Təəssüflər olsun ki, bəşəriyyət tarixində bəzi hallarda dinin həqiqi məziyyətləri gizlədilmişdir və ya bəzi qüvvələr müharibələrin yaranma səbəbləri üçün dindən bir alət kimi istifadə etməyə cəhd etmişdir. XX əsr bir növ tarixi missiyasını yerinə yetirdi. Tarixə yazılan hadisə və proseslərdə həm uğurlar, həm də uğursuzluqlar oldu. Elmi-texniki, sosial-iqtisadi, ictimai-siyasi, mədəniyyət, incəsənətin yüksək inkişafı ilə yanaşı XX əsrin son onilliklərində "islam təhlükəsi"nə dair narahatçılıq doğuran bəzi tədqiqat işləri üzə çıxdı. Bu tədqiqatlarda şərqlə-qərb arasında daha doğrusu müsəlman və xristianlar arasında qarşıdurmanı əsaslandırmağa çalışdılar. Bu baxışlar özünü xüsusilə **S. Kantınqtonun "Mədəniyyətlərin toqquşması"** adlı konsepsiyasında və politoloq **D.Paypsen "Müsəlmanlar gəlir! Müsəlmanlar gəlir!"** adlı əsərlərində belə bir sərlövhə ilə çıxış etmişdir.

ABŞ-da olan 11 sentyabr terror hadisəsindən sonra islam dininə olan münasibətin "islamofobiya" şəklində formalaşması işinə başlanıldı. Sanki din insanları birləşdirən yox, yalnız ayıran faktlar kimi təbliğ edilirdi. Lakin tarixçi və filosof **A.Toynbinin** nəzəriyyəsi əks məzmunda idi. O, qeyd edirdi ki, dünyada yalnız qərbin hökmranlığı nizamsızlığın yaranmasına gətirib çıxarmışdır. Biz başa düşməliyik ki, zorla "qərbləşmə" əks reaksiya doğurar, islam dininin əfsanəvi qəhramanlıq dövrünün sədasını oyada bilər; maddi modernləşmə siyasətinə dörd ali dinin mənəvi yaxınlaşması xeyir-dua verməlidir. Bu dinlərdən xristianlıq, islam, induizm və buddizm ümumbəşəri mahiyyət daşıyır.

Respublikamızın dünyəvi dövlətçiliyi bərpa olunduqdan sonra mədəniyyətimizə və dinimizə müəyyən təsir edən amillər oldu. Məsələn, bəzi gənclərimiz dinlərin tarixini, dinlərin cə-

miyyətin həyatında yerini və rolunu dəyərləndirə bilmirlər. Sitayiş etdiyimiz İslam dinini və onun tarixini, mədəniyyətini bilmədən çox böyük bəlalarla qarşılaşırlar. Qeyd etmək istərdim ki, xüsusilə Qərbdən yayılan və bizə, dinimizə gəlib çatan radikal dini cərəyanları bunun bariz nümunəsi kimi hesab etmək olar. Bəzi gənclər xarici ölkələrə gedərək gizli şəkildə dini terror qruplaşmalarında döyüşürlər və hətta ailəsini və uşaqlarını da o sahəyə cəlb edirlər. Ona görə də hər bir gənc istər elmi, istər siyasi, istər dini cəhətdən savadlı olmaqla yüksək intellektual dünyagörüşünə malik olmalıdır. Hər bir insan başa düşməlidir ki, o, dünyaya gəldiyi məqamdan müəyyən bir mədəniyyətin davamçısı və tənzimləyicisi olur. Hal-hazırda ölkəmizdə mədəniyyət sahəsində elmi konsepsiyalar ardıcıl olaraq həyata keçirilir. Bunun bariz nümunəsi kimi dəfələrlə bütün dünya ölkələrinin iştirakı ilə keçirilən "Bakı Beynəlxalq Mədəniyyətlərarası Dialoq" forumlarını göstərmək olar.

Qloballaşan dünyanın tələbləri baxımından cəmiyyətdə bəzən çağdaş insan ömrü dini müstəvidə dərin məzmunlu suallar və onlara cavab ağrısını yaşayırlar. Müasir insan özünün ömür yolunda yaşayır, yaradır və inkişaf edir, müasirləşir ancaq yenə də insanın mənəvi ehtiyacı fəlsəfə və dində daha çox nəzərə alınır. Çünki insanın daxilində həmişə özünün iç dünyasına ehtiyacı var. Əgər hər hansısa bir insan iç dünyasının tarazlığını yarada bilmirsə, zənnimcə o, dini-fəlsəfi suallara və tələblərə çox biganədir.

**Dünyagörüşün üçüncü tarixi forması fəlsəfədir.** Fəlsəfə insan həyatı ilə sıx bağlı olan bir sahədir. ABŞ, Kanada, Almaniya, İngiltərə, Fransa və s. digər inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən ali təhsil müəssisələrində fəlsəfə adlı fakultələr fəaliyyət göstərir, bu sahədə yüksək ixtisaslı kadr hazırlığı həyata keçirilir və araşdırmalar aparılır. Həmçinin Azərbaycan da bu şərəfli yolu davam etdirir. Çünki, fəlsəfə prinsiplər, düşüncələr və idraki araşdırmalar elmidir.

Deyə bilərik ki, fəlsəfə adı altında varlıq və insan amilinə əql və təfəkkür müstəvisində çözülm zamanı aydın olur ki, fəlsəfə

tarixi elə insanın özü qədər qədimdir. Çünki, insan yarandığı gündən yaşamaq uğurunda mübarizə apararaq həyat problemlərini həll etməyə çalışır. Həyati problemlərin həlli insanın mənəvi dünyagörüşündən asılıdır.

Fəlsəfə tarixçiləri fəlsəfi dünyagörüşün bir neçə tarixi mərhələyə ayrıldığını fəlsəfi ədəbiyyatda göstərmişdir: Qədim Yunan dövr fəlsəfəsi, yaxud Antik fəlsəfə, Orta əsrlər fəlsəfəsi, İntibah dövr fəlsəfəsi, Yeni dövr və Müasir dövr fəlsəfəsi. Antik dövr fəlsəfəsinin birinci mərhələsi e.ə. VII əsrin ortalarından V əsrə qədər davam etmişdir. II mərhələsi e.ə. V-IV əsri əhatə edir, III mərhələ isə e.ə. IV əsrin axırlarından eramızın III əsrinə qədər davam etmişdir. I mərhələdə kainatın yaradılışı, II mərhələdə isə məntiq, təbiət və etika haqqında olan pronlemlər fəlsəfənin öyrənmə predmetinə daxil olmuşdur. III əsrdən V əsrə qədər davam edən fəlsəfə Yeniplatonçuluq ideyalarından bəhrələnmişdir. Qərb fəlsəfəsi V əsrdən XIV əsrə qədər olan dövr Orta əsrlər fəlsəfəsi adlanır və bu dövrdə xristian dininin əqli sübutlarla şərh olunması əsas yer tutur. Avropada XIV əsrdən XVII əsrə qədər Renessans dövrü xaraktetizə edildi. XVII əsrdən davam edən fəlsəfə çoxsaylı fəlsəfi nəzəriyyələrin və sistemlərin mahiyyətini açmaqla məşğul oldu.

Bəşər mədəniyyətinin bütün bu tarixi mərhələlərində fəlsəfə uzun yol keçmişdir, cəmiyyətin və mədəniyyətlərin ümumi ideyalarına, fəlsəfi, ictimai, idraki, bəşəri, universiumları müəyyənləşdirməklə yanaşı yeni-yeni həqiqətləri üzə çıxarmağa nail oldu və onu əlavə etmək olar ki, bu prossesdə nə zaman dəqiq və düzgün məntiqi nəticə əldə etmək üçün  mühakimə  süzgəcindən keçirməyə çalışmışdır.

İnsanın mənəvi dünyagörüşü 4 əsas üzərində: **a) elm, b) din, c) incəsənət, d) fəlsəfə** üzərində formalaşır. Cəmiyyəti elmsiz və incəsənətsiz dərk edə bilmədiyimiz kimi dinsiz və fəlsəfəsiz də dərk etmək qeyri-mümkündür.

**A.N. Çanışev** qeyd edirdi ki, fəlsəfənin əsas mənbəyi və mənəvi qidası mifoloji və elmi biliklərin rüşeymidir. Fəlsəfə özünün uşaqlıq dövründə gilozoizm, antromorfizm, animizm,

animatizm, totemizm, fetişizm və digər ibtidai təsəvvürlərdən qidalanmışdır.

Daha sonralar tarixin ortaya qoyduğu bir sıra dünyagörüşlü suallara artıq mifologiya cavab verə bilmirdi. Deməli, yeni bir dünyagörüşü ifadə edə bilən bir bilik sahəsinin yaranmasına zəruri ehtiyac yarandı ki, bu həmin sahə ancaq və ancaq fəlsəfə olmalı idi. "Varlıq nədir?" sualı ən qədim dövrlərdən bəri bütün filosofları daim düşündürmüşdür. Həyat, insan və onun dünyaya münasibəti ənənəvi əqidə və etiqadların köməyi ilə həll edilə bilməzdi, çünki fəlsəfə tələb edirdi ki, əldə olunan hansısa bilik həqiqət kimi qəbul edilməyə də bilər. Özün düşün və təcrübəyə əsaslanaraq həqiqəti tap! Sanki fəlsəfə təbiətdə və cəmiyyətdə olan hadisələrin və əlaqələr sisteminin dərk olunmasında əldə etdikləri nəticələrə şübhə ilə yanaşmış və yenidən həqiqətin axtarışı uğurunda mübarizə aparmışdır. Çünki fəlsəfənin başlıca məqsədi dünyagörüşlü problemlərin cavablandırılmasıdır. Fəlsəfə cavab verdiyi sualların birdəfəlik həllini təklif etmir. Fəlsəfənin mahiyyəti təkrarən qeyd etmək istəyirəm ki, həqiqəti dərk etmək üçün əbədi axtarışda olmasıdır. Tutaq ki, təbiət elmləri fizika, kimya, biologiya, riyaziyyat və s.kimi elmlər həmişə məsələnin son bitmiş variantını axtarırlar. Lakin aydındır ki, varlığa, təfəkkürə, həyata, mənəvi dəyərlərə birdəfəlik və həmişəlik cavab vermək mümkün olmur. Bunun üçün fəlsəfi təfəkkür zaman və vaxt tələb edərək onların tədqiqi müzakirə və mübahisələr şəklində həll olunur.

Bir müddət fəlsəfə elmi funksiyaları yerinə yetirmişdir. Qeyd etdiyimiz bir çox təbiət elmləri hələ mövcud olmamışdır. Tarixi inkişaf prosesinin digər mərhələlərində elmlər tədricən fəlsəfədən ayrılmağa başladı. Bunun nəticəsində konkret olaraq fəlsəfənin öyrənmə dairəsi xeyli konkretləşdi. Fəlsəfədən ayrılan təbiət elmləri dünyanı bütövlükdə deyil, onun konkret ayrı-ayrı sahələrini cihazlar, müşahidələr və təcrübələr vasitəsilə öyrənməyə başladılar.

Bu gün müasir dünyada gedən qloballaşma istənilən xalq, millət və cəmiyyət üçün əldə olunan dəyərlər sisteminə müasir

baxışlar sistemi tələb edir. Demək olar ki, köhnə dəyərlər mənəvi aşınmaya məruz qalır, aradan çıxır, hələ tam öz yerini tutmamış və ruhuna müəyyən qədər yabancı olan yeni dəyərlər bərqərar olur və bu zaman kəsiyində fəlsəfənin cəmiyyətin həyatında oynadığı rolu danmaq olmaz. Bu baxımdan fəlsəfənin dünyagörüşü funksiyası öz vəzifəsini yerinə yetirir. Ona görə də belə bir zamanın tələbində insanların fəlsəfi savadı olmadan onların müasir dünyagörüşü səviyyəsinə qaldırılması çətin olar. Fəlsəfə yeganə bilik sahəsidir ki, milli dəyərlərlə ümumbəşəri dəyərlər arasında orqanik vəhdətin formalaşmasına kömək edə bilir. Fəlsəfi dünyagörüşü hər bir dövrün reallıqlarına görə insanı mənəvi və ideoloji baxımdan formalaşdıra bilir. Belə olmasa istənilən xalq cəmiyyətin inkişafından kənarda qalacaqdır. Şübhə yoxdur ki, milli-mənəvi-ideoloji müstəvidə bu çətin işi ancaq fəlsəfi dünyagörüşü həll edir.

Dini, mifoloji və fəlsəfi dünyagörüşləri dünyanın mənşəyi, quruluşu və formaları, insanın yaranması, onun dünyadakı yeri, rolu və s. kmi məsələləri özündə ehtiva edir. Göstərilən bu kimi məsələlərin həlli idraki komponent olan əqlin vasitəsi ilə həyata keçirilir. Ona görə də fəlsəi dünyagörüşü belə xarakterizə etmək olar ki, fəlsəfi dünyagörü nəzəri baxışlar sistemi olmaqla insanın təbiətə, insanın cəmiyyətə olan münasibətlərinin müxtəlif formalarını müəyyən edir. Deməli, fəlsəfədə dünyagörüşü özü də bir bilik forması olmaqla dünyagörüşün dörd tarixi formaları ilə sistemləşmiş formada pozitiv bilik formasının irsini yarada bilmişdir.

**Dünyagörüşün dördüncü tarixi forması elmi dünyagörüşüdür.** Məlumdur ki, fəlsəfə 3000 ilə yaxın elmi biliyin səbəbiyyət əlaqələrini özündə yaşadan elmi biliyin rüşeymlərini daim axtarmaqda olmuşdur. Bu rüşeymlərin axtarışı Qədim Şərqdən (Misir, Hindistan, Çin, Babilistan) başlayaraq növbəti mərhələsini Yunanıstanda tapa bilmişdir. Təbiət haqqında dünyanın təbii-elmi mənzərəsinin müəyyənləşməsi ümumi elmi ideyaların yaranmasına səbəb oldu. Nəhayət, zaman keçdikcə

dünyagörüşün müxtəlif məsələləri və ona cavab olaraq fəlsəfənin elmlə əlaqəsini sübut etdi.

Elmi dünyagörüşün istinad etdiyi əsas şərt predmetlər və hadisələr arasında əlaqələr ontoloji mənada müəyyənləşdirilir. Dünyanı qanunlar idarə edir və heç də təsadüfi deyildir ki, "təbiətin qanunu" ifadəsi ilk dəfə olaraq elmi təfəkkür daşıyıcısı olan ingilis alimi **İ.Nyuton** tərəfindən işlədilmişdir. İnsanlar zəka ilə dünyanın qanunlarını dərk etməyə çalışırlar ki, dünyanı özlərinə tabe etdirə bilsinlər. İnsan idrakının yəni onun elmi dünyagörüşünün məqsədi cəmiyyətin sosial problemlərinin həll olunması ilə bağlı olmuşdur. Hələ insan zəkasının qüdrətində olan **Frensis Bekonun** təbiəti insana tabe etdirmək məqsədi bunun bariz sübutudur. Lakin fəlsəfi dünyagörüşü F. Bekonun bu məqsədinə qarşı çıxdı və sübut etdi ki, inkişaf onu da təsdiq edir ki, tərəqqinin özünün də inkişafının müəyyən tarixi ölçüsü vardır. Tarixi ölçüsü olmayan elmi inkişaf cəmiyyətin məhvinə səbəb ola bilər.

Bəllidir ki, təfəkkür forması olan elmi dünyagörüşü bütün elmlərin predmetinə əsasən öz çərçivəsini özü müəyyənləşdirir, elmi qaydaların əsasında proqramlaşdırır. Məlumdur ki, elmi dünyagörüşün mahiyyəti elmi anlayışlar əsasında həyata keçirilir. Fəlsəfi təfəkkür bir başa mənəvi dəyərlərin formalaşması ilə əlaqəlidirsə, elmlik isə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsini reallaşdırır. Belə deyə bilərik ki, elmi təfəkkür "nə üçün?" sualına cavab verir, fəlsəfi təfəkkür "nə?", "hansı məqsədlər üçün?" suallarına, elmi təfəkkür "necə etmək?", fəlsəfi təfəkkür isə "hara getməyi?" aydınlaşdırır.

Belə nəticəyə gəlmək olar ki, elmi dünyagörüşü insanın dünyaya olan münasibətini müəyyənləşdirən təfəkkürə cavab vermir, ancaq elmin hüdudunda başa düşülən obyektiv reallığın predmetinə uyğun olaraq tədqiq edilir. Ancaq fəlsəfi təfəkkür reflektiv münasibət dairəsində gerçəkliyə öz münasibətini bildirir. O, təkcə obyektə deyil, həmçinin onun tədqiq edilməsi prosesini subyektin obyektə münasibətində müəyyənləşdirir. Daha doğrusu elmi dünyagörüşünə görə insan dünyanın dərkinə yönəlir, necə və hansı istiqamətdə baş verəcəyini proqnozlaşdıra bilir.

Fəlsəfi dünyagörüşü elmi dünyagörüşü ilə birlikdə 3 fəaliyyət dairəsində çıxış edir. **a) Məlum olmayan müxtəlif qeyri-adi hadisələr haqqında fikirlərin yaranması və qeyri müəyyənlik halı baş verərsə, onun rasional şərhi, b) metodologiya baxımından həmin problemin həllinin təmin edilməsi, c) əldə olunmuş bütün elmi faktların biliklər sisteminə daxil edilməsidir.**

Elmi dünyagörüşə əsasən obyektiv qanunlar insan fəaliyyətinin yeni proqramlarını proqnozlaşdırır və buna görə də insanın dünyaya gələcək mövcudluğu yəni varlığı mümkün olur. İnsan gələcək movcudluğunu qoruyub saxlamaq üçün o, mədəniyyət sahəsində çərçivəsini genişləndirir, sosial fəaliyyət üsullarını dəyişdirir, insan təbiət münasibətində yeni-yeni istiqamətlərini müəyyənləşdirir, idraki fəaliyyət normalarını dəyişdirərək tarixi prosesin inkişaf dinamikasının harmoniyasını yaradır.

Fəlsəfə həmişə elmi üsullarla dünyagörüşü məsələlərini müəyyənləşdirir. Tanınmış filosoflardan biri hesab olunan **P.B.Kopninə** görə fəlsəfə obyektiv reallıqlara əsasən bilikləri zənginləşdirir. Ona görə də daha qeyd etmək olar ki, elmi dünyagörüşü problemlərin həllində fəlsəfənin xidmətinə çox əsaslanır. İstər əxlaq, din, incəsənət, etika, estetika ayrı-ayrılıqda elm sahələri olmasına baxmayaraq adlarını çəkdiyimiz və digər elmlər özləri ictimai şüurun müxtəlif formaları kimi mövcud olmuş və onlara aid olan öyrənmə dairəsi bu gün də fəlsəfi dünyagörüşə əsaslanır. Qədim yunan filosofları **Fales, Pifaqor və Aristotelin** fikirincə dünyagörüşü- ictimai şüurun formalarının məzmunu kimi hesab edilə bilər. Əslində elm ictimai şüurun bir forması kimi ayrıca olaraq mövcuddur. Fəlsəfə metodoloji rolunu yerinə yetirərək cəmiyyətin özü-özünü dərk etməsi deməkdir. Bütövlükdə dünya anlamı adı altında təfəkkürün tarixi formaları olan mifologiya, din, fəlsəfə və elm ümumbəşəri dünyagörüşün mənəvi xəzinəsini birlikdə zənginləşdirərək obyektiv reallığın dərk olunmasında təbiət və cəmiyyət ilə qırılmaz əlaqəsini subuta yetirmişdir.

**Elmi dünyagörüşü -** tarixi inkişafın bütün mərhələlərində təbii-elmi və sosial–tarixi biliklərə əsaslanaraq, həmişə hadisə və proseslərin inkişaf dinamikasını və ya dəyişməsinin səbəblərini izləmiş, elmi səbəblərə əsaslanaraq kainat, dünya, təbiət, insan haqqında elmi anlayışların və qanunauyğunluqların ümumi inkasını əks etdirən baxış və prinsiplərin ümumi məcmusudur.

## 3. Fəlsəfi problemlər və onun funksiyaları

Fəlsəfənin bir elm kimi mövcudluğu onun ictimai-tarixi xarakter daşımasıdır və ictimai şüur forması kimi tarixən ictimai varlığın təsirindən özünün uzun müddət formalaşma dövrünü keçmişdir. Daha sonra öz mahiyyəti etibarı ilə mədəniyyətin bütün sahələrini şərtləndirərək əsas meyarlardan birinə çevrildi, və onların nəzəri-metodoloji əsaslarını müəyyənləşdirərək tamlıqla, ictimai funksiyanı yerinə yetirdi və yetirməkdədir. Həmin funksiyaların daşıyıcısı kimi iki qrup funksiyanı həyata keçirir: **dünyagörüşü və metodoloji.** Biz bunu aşağıdakı sxem şəklində görə bilərik.

**Dünyagörüşü funksiyaları.** İnsanın dünyaya münasibəti dünyada gedən proses və hadisələri dərk etməsi insanın özündən asılıdır. Dünyagörüşündə inam, bilik, əqidə, iradə, təcrübə, rasional, intuisiya, hiss və həyacan əsas rol oynayır. Belə olarsa fəlsəfəsiz dünyanın mənzərəsini anlamaq mümkün olmazdı. Ancaq aşağıda göstərilən müddəalar əsasında dünyaya münasibəti müəyyən qədər əks etdirmək mümkündür:

a) Fəlsəfənin dünyagörüşü funksiyasında əsas yeri **humanist funksiya** turur. İnsan özünün və varlığın necə yaranmasına aid suallara cavab tapmağa calışır. Cəmiyyət həmişə azad və humanist dəyərlərin formalaşmasına cəhd edir. Digər tərəfdən insan-təbiət münasibətində özünü göstərən elmləşmə və texnizm prosesi insanın şəxsiyyət kimi mənəvi göstəricisinə güclü mənfi təsir göstərir. Belə bir şəraitdə bu funksiyanın fəaliyyəti baxımından insan ölcülərinə düzgün yanaşma mühüm əhəmiyyət kəsb edir.


Fəlsəfənin funksiyaları
Dünyagörüşü
humanist
sosial-aksioloji
eksplikasiya
rasionallaşdırma və sistemləşdirmə
tənqidi
informasiyaverici
sosial proqnozlaşdırıcı
Metodoloji
evristik
əlaqələndirici
bərpaedici
Məntiqi qnoseoloji
praksioloji

b) **Sosial-aksioloji funksiya** - yuxarıda qeyd etdiyimiz kimi fəlsəfə həmişə can atır ki, insanlar ətraf aləmə düzgün qiymətverici münasibəti bildirsın, həqiqət, xeyrxahlıq, ədalət, gözəllik və s. kimi mənəvi keyfiyyətləri özündə yaşada bilsin. Məlumdur ki, bu funksiya dəyərlini dəyərsizdən ayırmağa və bölməyə calışır, yəni insanı mənəvi dəyərlərə cəlb edir. Həyatın mənasını anladır, insanın yerini dünyada və cəmiyyətdə müəyyən edir.

c) **Eksplikasiya** - mühüm və əsas funksiyalardan biridir. Burada başa düşülür ki, insanların ictimai həyatında dəyərlər üzə çıxıarılır və ya aşkarlandırılır. Yəni insanların həyatında əsas olan anlayışlar, ideyalar təcrübə formaları vasitəsi ilə müəyyənləşdirilir. Məlumdur ki, real gələcəkdə gedən hadisə və proseslər arasında ən ümumi əlaqələr mövcuddur. Bu münasibətlər sistemində kateqoriyalarsız belə gündəlik həyatda keçinmək mümkün ola bilməzdi. Çünki onda hec insan amili də formalaşa bilməzdi. Ona görə də bu funksiya təfəkkür prosesinin zəruriliyini müəyyən edir.

d) **Rasionallaşdırıcı və sistemləşdirici** funksiya sahəsində həmişə əldə olunmuş ideya və təsəvvürlərin, baxışların dünyagörüşü baxımından işlənib hazırlanması nəzəri-rasional forma kimi fəlsəfəyə xas olmuşdur. Nəzəri-rasional dünyagörüşün ümumiləşməsini fəlsəfə elmə qədər və ya elmdən kənar mövcud olan təcrübələrə, faktlara müraciət etmişdir. Məsələn, fəlsəfə tarixində tanınan Milet məktəbinin nümayəndələrinin dünyanın ilkin əsasının axtarışı və ya Demokritin atomizm nəzəriyyəsi kimi təlimlər və baxışlar konkret olaraq elmi kəşflərdən qabaq mövcud olmuşdur. Deməli bu funksiya öz vəzifəsini elmdə deyil, gündəlik praktik müşahidə və vərdişlərdə də tapa bilər.

e) **Tənqidi funksiya** onunla ifadə olunur ki, hec də asan olmayan baxışların formalaşmasında və ya təkmilləşməsində müxtəlif yanlışlıqların üzə çıxarılması, onun düzgün olmayan tərəfləri fəlsəfi tənqid vasitəsilə həyata keçirilir. F.Bekonun sözlərini xatırlasaq məsələn, hər hansı bir ehkamçılıq, düzgün olmayan mühakimə ənənələri, dini fanatizmlər daim axtarışda olan intellektin düşməni olmuşdur. Fəlsəfənin tənqidi funksiya-

sının məzmunu həmişə özünü süzgəcdən keçirmiş və müsbət keyfiyyətlərin yaranmasına müəyyən təkan vermiş, köhnəliklə yenilik arasında olan mübarizəni gücləndirmişdir. Bu funksiyanın fəaliyyət dairəsi daha çox mədəniyyət sistemində baş vermişdir.

Növbəti funksiya **informasiya** funksiyasıdır. Qeyd etmək olar ki, fəlsəfə özlüyündə daim inkişaf edən mürəkkəb dinamiklər sistemidir. Onun daxili məzmununu təşkil edən laylar məsələn, ontologiya, qnoseologiya, sosial fəlsəfə, etika, nəzəri estetika, eləcədə xüsusi elmlərin bir sıra təfəkkür üsulları olan din fəlsəfəsi, fəlsəfə tarixi bir sözlə fəlsəfi biliklər nəzəriyyəsi və s. kimi sistemlər innellektual tələblərə uyğun olan dünyagörüşü işləyib hazırlayaraq öz növbəsində etibarlı informasiya mərkəzi yaradır. Bunun nəticəsində biliyin toplanması, dərinləşdirilməsi və onun təhlili bu funksiyanın informasiya prosesiniu yaradır.

**Sosial proqnozlaşdırıcı funksiya** - cəmiyyətin müxtəlif inkişaf mərhələlərində bəşəriyyətin gələcək inkişaf yolunun müəyyənləşdirilməsini getdikcə həmişə təhlil etmişdir və nəticədə proses elmi-fəlsəfi təhlilə əsaslanır. Hazırda müxtəlif təşkilatlar, elmi mərkəzlər də sosial–iqtisadi inkişafın, elmi-texniki tərəqqinin, ekoloji vəziyyətin, demoqrafik proseslərin proqnozlaşdırılması sahəsində əməkdaşlıq yaranmışdır. Məlumdur ki, cəmiyyətin iqtisadi və elmi-texniki fəaliyyəti gücləndikcə gələcək haqqında biliklər bir daha süzgəcdən keçərək dəqiqləşdirilir. Proqnozlar qoruyucu, hifzedici olmaqla nisbi mahiyyət daşıyır və məqsəd elmi-idraki aspektlə yanaşı, həm də ideoloji baxımdan cəmiyyətin şüur və davranışına məqsədəyönlü istiqamət verir.

Fəsəfənin **metodoloji funksiyasının** fəaliyyətini və istiqamətini təhlil edərkən adından da göründüyü kimi metod anlayışının mahiyyətini başa düşürük. Aydındır ki, metod müəyyən məqsədə çatmağın üsuludur. Bu üsul ilə insan gerçəkliyin həm nəzəri həm də praktik mahiyyətinin mənimsənilməsi prosesində çox fəal iştirak edir. Metodoloji problemlər fəlsəfənin daxilində işlənib hazırlanılsa da o, hər bir elmin xarakter metodları əsasında gercəkliyin mənimsənilməsini müəyyənləşdirir. Fəlsəfənin hər iki funksiyası bir-birindən ayrılmazdır. Onlar

dialektik tamlıq təşkil edir. Fəlsəfi metodlar gercəkliyin nəzəri və praktiki prinsiplər sisteminə əsaslanır.

Ümumiyyətlə, fəlsəfi metod dünyanın elmi dərkinin müəyyən səviyyəsinin inkası kimi çıxış edir. Dünyada elə bir təbii elmi nəzəriyyə yoxdur ki, onun formalaşması səbəbiyyət, məkan, zaman və s. fəlsəfi təsəvvürlər baxımından həll edilməmiş olsun. Burada xüsusi elmlərdən çox fəlsəfə mühüm rol oynayır. Bu fəlsəfənin metodoloji funksiyasının mahiyyətini və məzmununu daha da öyrənmək üçün biz onun funksiyalarını nəzərdən keçirməliyik və bunlar aşağıdakı istiqamətdə özünü göstərir: evristik, əlaqələndirici, inteqrasiyaedici, məntiqi qnesoloji, praksioloji, həqiqətin əldə olunması və s.

a) **Evristik funksiyanın** məqsədi yenini axtarıb tapmaq deməkdir, lakin məzmunca yeni elmi biliklərin və müddəaların əldə olunmasına kömək edir. Burada əsasən ümumi metodoloji xarakterli yeniliklər axtarılır. Bu axtarışlar ayrı-ayrı elmlərin fəaliyyət istiqamətini daha da gücləndirir, yeni hipotez və nəzəriyyələr əldə olunur. Ümumiyyətlə, fəlsəfənin təbii-elmi nəzəriyyələri qurluşca fraqmental xarakter daşıyır, fəlsəfənin metodologiyasında ayrı-ayrı dialektik elementlər əsas rol oynayır. Evristik metod isə təkcə öz anlayışları və kateqoriyaları vasitəsi ilə həmçinin abstraktdan konkretə doğru gedən proseslərin və təbii elmlərin tətbiqinə dair faktlara müraciət edir.

b) **Əlaqələndirici funksiyaya** elmi araşdırmalarda daha çox fikir verilməlidir. Burada öyrənilən obyektlər arasında əlaqələrin sistemli şəkildə qurulmasını şərtləndirir. Bu əlaqələrin sistemli şəkildə həllində mərkəzi rolu oynayan idraki imkanları fəlsəfə genişləndirir. Metodoloji baxımdan əlaqələndirici funksiya varlığın və idrakın ümumi qanunauyğunluqlarını aşkar edə bilir. Həmçinin, qeyd etmək olar ki, müxtəlif bilik sahələrini əhatə edən biliklərin bir biri ilə əlaqəliyini sintez edir və nəticədə dünyanı bütöv şəkildə qarşılıqlı şəkildə əlaqəli və vəhdətdə öyrənməyə nail olur.

c) Fəlsəfənin metodoloji baxımdan əlaqələndirici funksiya ilə sıx bağlı olan funksiyalardan biri də **bərpaedici funksiyadır**.

Məlumdur ki, bilklərin inteqrasiyasına əsasən dünyanın maddi və mənəvi izahına ümumi-elmi anlayışlar vasitəsi ilə münasibət bildirilir. Tədricən bir elmin anlayış və kateqoriyalarından digər elm sahələrini səciyyələndirən hadisə və proseslərin aydınlaşdırılmasında istifadə oluna bilinir və nəticədə ümumi elmi anlayışların sistemləşdirici fəaliyyəti yaranır. Müasir dövrdə yəni qloballaşmaqda olan cəmiyyətdə elmi biliklərin bərpaedici funksiyası üçün yeni şərait və imkanlar genişlənir. İndiki real gerçəkliyin fəlsəfi mənimsənilməsində bərpaedici funksiya mühüm əhəmiyyətə malikdir.

d) **Məntiqi-qnosioloji funksiya** fəlsəfi metodların və onun normativ prinsiplərinin işlənib hazırlanılmasına xidmət edir. Bu funksiyanın yerinə yetirilməsində fəlsəfənin dialektik prinsipləri əsas yer tutur. Hadisə və proseslərin müəyyənləşdirilməsində müxtəlif elmi fəlsəfi nəzəriyyələri nəticələndirən məntiqi təfəkkür əsas rol oynayır. Aydındır ki, ayrı-ayrı elmlərin təfəkkür formaları xüsusi elmlər tərəfindən öyrənilir və nəticədə idraki prosesin mənimsənilməsində fəlsəfi metodologiyaya əsaslanan məntiqi qnoseoloji funksiyaya ehtiyac yaranır. Bu gün elmin yüksək inkişafı konkret olaraq ən dəqiq və düzgün həqiqətin müəyyənləşdirilməsidir. Məlumdur ki, idrak səviyyəsində tətbiq olunan metodlar ümumiməntiqi metod adlanır və bunun nəticəsində öyrənilən obyekt haqqında hərtərəfli baxışlar və təsəvvürlər məntiqi əsaslarla nəticələndirilir.

e) **Praksioloji funksiya** real gerçəklikdə baş verən hadisə və proseslər arasında uyğunluğu müəyyən edir və obyektiv qanunları dərk etməyə istiqamətləndirir. Praksioloji funksiya əsasən üç fəaliyyət dairəsində öz işini yerinə yetirir: **a) maddi nemətlərin yaradılması fəaliyyəti; b) ictimai-siyasi fəaliyyət; c) elmi-praktik fəaliyyət.** Praksioloji funksiya daha çox elmi axtarışlara istiqamət verir və tədqiqatçılıq işinin metodoloji baxımdan xüsusi bilik sahələrini daha da formalaşdırır, eləcə də bu fəaliyyət sahələri praktikada yoxlanılır və sübuta yetirilir. Hər şeydən əvvəl bu funksiyanın gedişi prosesində müşahidəyə əsaslanan elmi faktlar əldə etməklə idraki prosesdə rasional

pillənin müəyyən momentlərini əhatə edir. Praksioloji funksiya elmi araşdırmaların strategiyasını müəyyənləşdirə bilir və onların nəticələri elmi-praktik prosesdə əsas rol oynayır.

## 4. Fəlsəfə və elmi biliklər sistemi

Məlumdur ki, ilkin fəlsəfi təlimlər Hindistanda, Çində, Babilistanda, Misirdə yaranmış və özünün klassik formasını Qədim Yunanıstanda sistemləşdirmişdir. Elmi biliklərin rüşeymləri səbəbiyyət əlaqələrini əsas şüar kimi qəbul etməklə özlərini inkişaf etdirərək formalaşdıra bilirlər. İdraki subyektlərin oriyentasiyası ilk başlanğıcda dini-mifoloji dünyagörüşdə öz əksini tapa bildi. Getdikcə yeni-yeni tarixi məlumatların tarixi haqqında təbii-elmi informasiyanın yaranması və genişlənməsi baş verdi, nəticədə mifoloji dünyagörüşü fəaliyyətinin zəifləməsi baş verdi. Dünyagörüşün məzmununda nisbətən yeni müstəqil elmi istiqamətlər ayrılmağa başladı. Fəlsəfə isə bu prosesdə özünün ontoloji və qnoseoloji fəaliyyəti ilə təbii elmlərin inkişaf yolunu müəyyənləşdirməyə başladı. Belə bir analoji yolla inkişaf edən fəlsəfə elmliyin genetik aspektini özündə cəmləşdirir. Nəticədə artıq real gercəkliyin dərk olunmasında təbii-elmi dünyagörüşə əsaslanan biliklər fəlsəfi təfəkkürün süzgəcindən keçərək artıq sistemləşmə mərhələsinə daxil ola bildi. Artıq müəyyən mənada təbii elmi baxışlar əsasında yeni təbii-elmi-fəlsəfi kateqoriyalar və nəzəriyyələr (“atom”, “maddə”, “enerjinin saxlanması və itməməsi qanunu” və s.) işlənib hazırlanıldı. Qeyd etmək olar ki bu faktlar fəlsəfi elmlərin sistemləşməsində əsaslı yer tutur. Buna səbəb onun əldə olunan elmi biliklərin mahiyyətlərini ümumiləşdirmək və hadisələrin tədqiqində mahiyyətcə fəlsəfi problemlərin qoyuluşunu araşdırmaqdır.

Beləliklə, fəlsəfə və digər elmlər bir-birilə qarşılıqlı təsirdə olmaqla bir birini zənginləşdirməkdədir. Əldə olunan biliklər sistemi bir-birindən təcrid olunmuş halda deyil tam dialektik əlaqədə olmaqla, fəlsəfə ilə eyni kökdən yaranmışdır. Bütövlükdə, biliklərin yaranmasını tarixən nəzərə alsaq tarixi prosesin

inkişafında üç mərhələni qeyd etmək olar: a) ilkin dövrlərdə həm elmin, həm də fəlsəfənin əldə etdikləri baxışlar və biliklər sistemi ümumiləşmiş şəkildə olmuşdur. Lakin sonrakı dövrlərdə tədricən elmlərin predmetləri, funksiyaları və istiqamətləri bir-birindən ayrılmış və nəticədə sırf elm və fəlsəfə ilə müstəqil fəaliyyətə başlamışdır; b) ikinci mərhələdə konkret olaraq yeni elmlərin elmi dövriyyələrə gəlməsidir. Fəlsəfə ilə elmlərin ayrılması birdən birə baş verməmiş, xüsusilə, XVII-XVIII əsrlərdə daha intensiv baş vermişdir, yəqin ki, göstərilən tarixi mərhələlərdən sonra yeni bilik formasının yaranması prosesi bu günə qədər davam etməkdədir. c) üçüncü mərhələ - XIX əsrin axırlarından başlamışdır. Bu mərhələdə elmlərin əsasən nəzəri tərəflərinin uyğunluğu və ümumiliyi yaranır və bunun nəticəsində nəzəri tərəflərin inteqrasiyası və sintezi yarandı. Nəticədə tədqiqatın başa çatdırılması üçün çoxlu materiallar toplanılır və müxtəlif hadisə və proseslər arasında əlaqələrin tamlığını fəlsəfi funksiya yerinə yetirir.

Qədim Yunan filosofu **Aristotel** elmlərin münasibətini belə şərh etmişdir ki, ayrı-ayrı konkret hadisələri öyrənən xüsusi elmlərdən fərqli olaraq fəlsəfə ən ilkin səbəblər, ilkin prinsiplər və varlığın ən ümumi əsasları haqqında elmdir. Buna görə də fəlsəfə xüsusi elmlərdən daha güclüdür. Klassik alman fəlsəfəsinnin görkəmli nümayəndəsi **Hegel** də bu mövqedən çıxış edərək fəlsəfəni “elmlər elmi” adlandırmışdır. Deməli, fəlsəfə ictimai elm olduğu kimi həm də təbii elmdir. Onu birinciyə və ikinciyə aid etmək olmaz, onu ancaq elmlər elmi kimi ümumiyə aid etmək olar və onun elmlərlə əlaqəsindəki daxili məzmununa nəzər salınması ümdə şərtlərdən biridir.

**Fəlsəfə və humanitar biliklər.** Humanitar biliklər sanki fəlsəfənin daxili dünyasından xəbər verir. Çünki fəlsəfənin idraki imkanları çox böyükdür və cəmiyyətin sanki mənəvi mədəniyyətinin dünyasıdır. Məsələn, **humanitar elmlərdən psixologiya, sosialogiya, etika, estetika, mədəniyyətşünaslıq, ədəbiyyatşünaslıq, linqivistika və s**. kimi elmlər mətnlər vasitəsilə insanın mənəvi dünyasını öyrənir. **M.M. Baxtin** yazırdı ki, humanitar

elmlər təbii hadisələr və xəlvəti şeylər haqqında deyil, insan və onun spesifikası haqqında elmdir. İnsan həmişə insan spesifikasında özünü ifadə edir (danışır), daha doğrusu mətn yaradır, hardasa mətndən kənarda insan öyrənilərsə, artıq o humanitar elm deyildir. İnsan həmişə öz daxili aləminə bələddir və bunun nəticəsi olaraq öz anlamını yerinə yetirərək başqasının və ya hansısa fərdin mənalar dünyasına daxil olmaqla onun haqqında təəssüratlar əldə edə bilir.

Humanitar biliklər dialoqlarla çox əlaqəlidir. Məlumdur ki, dialektik təlim bir dialoq sənəti kimi ondan formalaşmışdır. Humanitar biliklərdə idraki münasibətlərin anlaşılmasında mətn və onun anlamı spesifik mahiyyət daşımaqla biliklərin dialoqluluğunu yaradır. Humanitar biliklər şəklində, **hermenevtikanın** rolunu xüsusi qeyd etmək olar. Çünki hermenevtika fəlsəfi təhlilin başlıca istiqamətidir və məqsədini mətnlərin şərtində görür. Dil təfəkkürü ifadə edir və təfəkkürün vasitəsi kimi təhlil olunur. **V.Humbold** dilin mütəmadi ruhu yaradıcılıq olmasını qeyd etmişdir ki, cəmiyyətin inkişaf prosesinin gedişində fəlsəfə ilə ideologiya varlığın inkası kimi başa düşülür. Məlumdur ki, ictimai elmlər özü, bu və ya digər aspektdən ideoloji dünyagörüşə xidmət edir. İdeologiya cəmiyyətin sosial dünyasında nəyin olmasını və ya əksinə nəyin olmamasını şərh edən və ya cəmiyyətin inkişafına təsir edən böyük bir qüvvədir. İdeologiya həmçinin cəmiyyətin mənəvi dünyagörüşünü şərtləndirirərək varlığın inkası kimi başa düşülür. İdeologiyanın fəaliyyət dairəsinə ideyalar sistemi və praktik münasibətlər sistemi böyük təsir göstərir. Dünyanın ümumi mənzərəsində insanların maddi həyatı, informasiya səviyyəsi, ideoloji təbliğat, ideologiyaya əsaslanan dünya haqqında baxışlar və təsəvvürlər reallığı mənimsəməyə xüsusi imkan yaradır və ideologiya özü cəmiyyətin idraki prosesidir. Buna görə də fəlsəfə həmişə dünya haqqında ideyalar sistemi və ideoloji dialoqların müzakirəsində fəal iştirak edir. Qeyd etmək olar ki, fəlsəfə ideologiya ilə çox bağlıdır. Əsaslandırmaq olar ki, fəlsəfə dünyanın elmi mənzərəsini şərh etməyə cəhd edir.

Müəyyən zaman kəsiyində hansısa subyektin (sinifin) fəaliyyətini və mənafeyini qiymətləndirə bilir.

**Fəlsəfə və incəsənət**. Real gercəkliyin obrazlı mənimsənilməsində və elmlə müqayisədə incəsənətin çox mühüm əlamətləri vardır. İncəsənət sanki mənəvi dəyərlərin mənimsənilməsi istiqmətində estetikliyə nail olmağın bir formasıdır. Əgər bir fəlsəfi əsərdə insanın varlığı və onu əhatə edən gerçəklik dərk edilirsə, deməli o, şəxsiyyətin və ya əsərin qəhrəmanının əhvali-ruhiyyəsini, təəssüratını və onun gerçəklik yə birbaşa münasibətini ifadə edir. İncəsənət həm də fəlsəfə ilə birlikdə şəxsiyyətin formalaşma prossesinə xidmət edir. **V.Vernadskiyə** görə fəlsəfə şəxsiyyətin mahiyyətini dərk etmək cəhdidir. Rus filosofu **N.Y.Qrot** özünün "Fəlsəfə incəsənətin bir şöbəsidir" adlı məqaləsində qeyd edir ki, poetik və ya fəlsəfi əsərlər müəyyən dövrlərdə bəzi adamları bədii emosionallıq baxımından təmin edir, bəzilərini təmin etmir. Tarix boyu elmdə əldə olunan nailiyyətlər idraki prosesdə öz məntiqi nəticəsini verdiyi kimi incəsənətin vasitəsilə əldə olunan mənəvi zövqlər, nailiyyətlər cəmiyyət tərəfindən musiqi, hekayə, dram, rəssamlıq və s. kimi vasitələrlə bədiiləşdirilərək, maddiləşdirilərək bu gün də saxlanılır və hər gün yaradılan nailiyyətlər əlavə olunur. **Bethoven, Rembrandt, Şopen, Q.Qarayev və Niyazi** kimi görkəmli incəsənət xadimlərinin yaratdıqları həmişə bizimlədir.İncəsənət fəlsəfi idrakın yaradıcılığı prosesinə xidmət edir. Bura fəlsəfi biliyin mühüm hissələrindən biri olan **"Estetika"** bölməsini əlavə etmək olar. Mövcudluğun və dünya mənzərəsinin gözəllik hissi ilə ya estetik zövqlə dərk olunmasını nümunə kimi qeyd edə bilərik. Fəlsəfə və incəsənətin bir-biri ilə qohumluğu göstərir ki, fəlsəfə əsrlər boyu bədii-ədəbi formada özünü göstərməkdədir.

Əlbəttə, fəlsəfə birbaşa təbii elmi kəşflər etmir, dünyagörüşü baxımından o, xüsusi elmlərlə əlaqə yaradır. Elm insanın təbiət, cəmiyyət və insan haqqında obyektiv biliklərini yalnız arqumentlərlə əsaslandırır. Elm bütün məntiqi sxemlərdən mürəkkəbdir. Onun inkişafı təkcə elmi ideyaların məntiqində deyil, bilavasitə həyatın özü ilə, onun tələbləri və şərtləri ilə

müəyyənləşir. Elmin inkişafına din, ideoloji, fəlsəfi dünyagörüşü, cərəyanlar, sosial-psixoloji mühit bu və ya digər amillər xidmət göstərir. Biz bu ardıcıllıqda fəlsəfə və hüquq münasibətlərinə də toxuna bilərik. İctimai şüurun formaları olan fəlsəfə və hüquq mənəvi həyatın müxtəlif sahələridir. Hər iki bilik sahəsində inkişafın obyektiv qanunauyğunluqları, müəyyən sosial qrupların maraqları, mövqeləri, ruhi təlabatlar spesfik olaraq öz əksini tapır. Hər iki tərəf insan və cəmiyyətin təbiətini müəyyənləşdirir və təkmilləşdirir.

**Fəlsəfə və əxlaq** ilk baxışda insan mənəviyyatını öyrənir. Əxlaq insanların cəmiyyətdə mənəvi davranış normalarının yaradılması və tənzimlənməsi funksiyasını yerinə yetirən sosial bir təsisat formasıdır. "Əxlaq" və "mənəviyyat" bir-birinə çox yaxın anlayışlar olmaqla mənəvi şüuru və ənənəvi praktikanın müəyyən aspektini təhlil edir, eyni zamanda əxlaq həm də ənənəvi praktikanın xüsusi növüdür. Əxlaq tamlıqla heç də mənəviyyat deyil, həm də əxlaq sosial şəraitin, insanın və cəmiyyəin təlabatında xeyir, şər, xoşbəxtliyə çatmaq, varlığın mənası və s. kimi anlayışların praktik şəkildə mənimsənilməsi üsuludur. Əxlaqın fəlsəfədən törəmə olduğunu bildirən İ.Kant qeyd etmişdir ki, saf və hüquqi-əxlaqı qanunları yalnız fəlsəfədə axtarmaq lazımdır.

**Fəlsəfə və ekologiya.** Bəşər tarixinin inkişafı gedişində və həyatın sonrakı davamı üçün ciddi təhlükə yaradan problemlər meydana çıxdı ki, onlardan biri də ekoloji problemdir. Bu problemin həlli yollarının araşdırılamsına alimlər, siyasətçilər, texniki məsələlər üzrə tədqiqatçılar, coğrafiyaçılar, ekoloqlar, iqtisadiyyatçılar və s. kimi sahələrdə elm adamları işə cəlb olunmuşdurlar. Hər bir tədqiqatçı bu problemin həllinə öz fəaliyyətləri baxımından çalışmalı və konkret bir nəticə kimi həllini görə bilməlidir. Təbiət-cəmiyyət sistemində baş verən bu problemin ancaq həllində fəlsəfi təhlilin həlledici rola malik olması hamıya məlum olan bir həqiqətə çevrildi. Doğurdan da, insan-təbiət münasibətlərinin fəlsəfi təhlili ekoloji böhranın aradan qaldırılmasında ekoloji etikanın və ekoloji mədəniyyətin

formalaşdırılması zamanın tələblərindən birinə çevrildi. Aydındır ki, ekoloji problemlərin təsnifatına dair müxtəlif baxışlar, təsəvvürlər təhlil olunur və onların nəticələri nəzəri cəhətdən ümumiləşdirilir. Fəlsəfi təhlilə əsasən ekoloji dünyagörüşün formalaşdırılması cəmiyyətdə insanın baxış və təsəvvürlərinin elə bir strukturunu tələb edir ki, insanın təhsildə və bütövlükdə cəmiyyətdə mənimsədiyi ekoloji normalar təbiətə münasibətdə davranış normalarına çevrilməlidir. Bu mənada fəlsəfə ilə ekologiyanın sıx əlaqədə olması, ekoloji dünyagörüşün formalaşmasının mühüm istiqamətidir.

**Fəlsəfə və ədəbiyyat.** İnsan həyatının bədii və fəlsəfi təfəkkürü baxımından hər iki elm bir birinin qarşılıqlı əlaqəsinə əsaslanır. Cünki bədii dəyərlər şəxsiyyət, sosial qrup və bütövlükdə cəmiyyət üçün müsbət əhəmiyyət kəsb edir və mənəvi-ideoloji funksiyarı həyata keçirir. Dəyərlər bir növ həyatın dərinliklərindən yaranan bir məsələdir. Bütövlükdə insan özünü bədii təfəkkürü ilə gercəklikdə baş verən hadisələrə qiymət verir, hadisələrin zərərli və ya qeyri-zərərli olanlarını fərqləndirir. Bədii təfəkkür cəmiyyəti həyat və yaşamaq uğrunda mübarizəyə səsləyir. Sosial funksiyanı yerinə yetirərək insanları ictimai dəyərə səsləyir. Çünki elmi araşdırmalar humanitar idrakda çox mühüm yer tutur. Cəmiyyətin və insanın bədii təfəkküründə mənəvi-ruhu həyatın dərk olunması prinsipial şəkildə fərqlənir.

Ədəbiyyat fənni özü özlüyündə daha çox inteqrativlik mahiyyəti daşıyır, cəmiyyətin mənəvi həyatında daha çox estetik mədəniyyətin formalaşmasında çox əhəmiyyəti var. Cəmiyyətin mənəvi simasında bədii-fəlsəfi ideyaların hansı istiqamətdə və ya hansı məzmunda və səviyyədə formalaşdırılması prosesi fəlsəfə ilə ədəbiyyatın əlaqəsindən çox asılıdır. İnsanların mənəvi aləminin əxlaqi, estetik dəyərlərlə formalaşmasında cəmiyyətdə yaradıcılıq, təşəbbüskarlıq, müstəqil çalışmaq, emosional zənginlik və s. kimi müsbət dəyərlər praktik əhəmiyyəti ilə çox böyük məna kəsb edir.

**Mədəniyyətşünaslıq və Fəlsəfə.** Aydındır ki, hal-hazırda bir çox tədris müəssisələrində mədəniyyətşünaslıq elmi "**Kultu-**

**rologiya" və ya "Mədəniyyətşünaslıq"** kimi adlandırılaraq tədris olunur. Mədəniyyətşünaslıq bir elm kimi XX əsrin əvvəllərində meydana gəlmişdir. ABŞ-ın tədqiqatçı alimi **L.Uayt** bu elmin tədqiqində mədəniyyəti, mədəniyyət tarixini, insanla mədəniyyətin qarşılıqlı əlaqəsini digər tərəfdən insanın ona təsiri mexanizmini aydınlaşdırmışdır. Bu elm həmişə elmlik əhatə dairəsində olmuş və fəlsəfə ilə birlikdə sosial reallığı, universal dəyərləri, keçmişin mənəvi irsini, cəmiyyətin mövcud bədii-mənəvi dəyərlərini və sistemlərini real gercəklik baxımından təhlil etmişdir. Mədəniyyət özünü cəmiyyətdəki yerini və rolunu müəyyən edir. Çünki, mədəniyyət spesifik sosial hadisədir. Fəlsəfə mədəniyyətin müxtəlif məhəlli, regional, milli, etik olduğunu subuta yetirir və qeyd edir ki, müxtəlif ölkə və xalqların tarixi-mədəni inkişaf vahidi dünya mədəniyyətinin və onun inkişafının tərkib hissəsidir və onun inkişafında çox mühüm amildir. Deməli, fəlsəfi təhlil göstərir ki, mədəniyyət aləmı xeyli dərəcədə nisbi müstəqilliyə malik olmaqla ümumi ictimai-tarixi prosesdir.

Fəlsəfi metodologiya dövrün və zamanın tələblərinə uyğun olaraq mədəni prosesin düzgün istiqamətini müəyyən edir, mədəniyyətə zərbə vura biləcək mürtəce qüvvələrin yaratdığı yanlış baxış və təsəvvürlərin aradan çıxarılmasına kömək edir. Cəmiyyətin düzgün inkişaf prosesi onun qarşısında duran sosial-siyasi və mədəni səviyyədən çox asılıdır. Müasir dövrdə real gercəklikdə baş verən hadisə və prosesləri öyrənən elmlər çoxdur. Məlumdur ki, elə bir elm sahəsi yoxdur ki,onun fəlsəfə ilə əlaqəsi olmasın. Məsələn fəlsəfə özü bu gün insan problemini öyrənirsə, deməli insanı öyrənən konkret elmlərə (iqtisadi nəzəriyyə, sosiologiya, psixologiya, təbabət, biologiya və sair kimi) bir tam kimi yanaşır. Buna görə də bütün elmlərin tədqiq etdiyi hadisə və proseslərin kompleks şəkildə öyrənilməsi məsuliyyəti fəlsəfə və onun dünyagörüşünün öhdəsinə düşür. Cünki, fəlsəfə və elmlər tarix boyu bir-birindən faydalanmışdır.

# II FƏSİL

# FƏLSƏFİ BİLİKLƏRİN YARANMASI VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**1. Qədim Şərqdə fəlsəfənin yaranması, onun tarixi tipləri və səciyyəvi xüsusiyyətləri**
**2. Qədm Şərq fəlsəfəsi:**
- **a)** Qədim Babilistan
- **b)** Qədim Misir
- **c)** Qədim Hindistan
- **d)** Qədim Çin
- **e)** Qədim Azərbaycan

**3. Qədim türk mifoloji dünyagörüşündə mənəvi anlamlar**

## 1. Qədim Şərqdə fəlsəfənin yaranması, onun tarixi tipləri və səciyyəvi xüsusiyyətləri

Bəşəriyyətin əsrlər boyu yaratdığı fəlsəfi hikmət xəzinəsi müxtəlif dövrlərdə ayrı-ayrı xalqlar tərəfindən yaradılmış və inkişaf etdirilmişdir. Bu fəlsəfi xəzinədə olan biliklər sistemində təkcə fəlsəfə deyil, deyə bilərik ki, riyaziyyat, astronomiya, mexanika, ədəbiyyat, mədəniyyət, incəsənət və digər elmlərin vətəni Qədim Şərqdir. Qədim Şərq mərhələsindən sonra Qərbdə yaranan fəlsəfi məktəblər və nəzəriyyələr özlərinin ilkin elmi fəlsəfi biliklərinin rüşeymlərini və mənbələrini ancaq Şərq fəlsəfi xəzinəsindən götürmüşlər. Ona görə ki, Qədim Şərq sivilizasiyası daha qədimdir və orada öz əksini tapan elmi biliklər daha çox dünyanın yaranması, təbiət və cəmiyyət hadisələri ilə bağlı olmuşdur. Fəlsəfə ilk növbədə özünün tarixi irsinin müəyyənləşdirilməsi üçün hansı səciyyəvi xüsusiyyətlərin olub-olmamasını zəruri bir şərt kimi qəbul etmişdir. Cünki fəlsəfə ilk əvvəldən adətlərin, gündəlik əldə olunan təsəvvürlərin mənəvi dəyərlərinin mənimsənilməsi prosesinə xidmət etmişdir. Nəticədə əldə olunan dəyərlər icərisində bəzi mənəvi prinsiplər qəbul edilirdi, digərləri

fəlsəfi təfəkkürə uyğun olaraq dəyişdirilirdi, nəticədə dövrün və zamanın tələblərinə uyğun olmadıqları üçün köhnəlirdi və ya zərərli hesab olunurdu. Məlumdur ki, fəlsəfə özü də bir şüur forması kimi mifoloji və dini şüur ilə tam bir formada yaranmışdır. Daha sonra mifologiya zamanın tələblərinə cavab verə bilmədiyi üçün böhran keçirdi və fəlsəfə yarandı. Sonra insanlar dünyada baş verən hadisə və proseslərin mahiyyətini axtarmağa başladılar. Qeyd etmək olar ki, axı fəlsəfə hər yerdə və eyni zamanda meydana gələ bilməzdi. Çünki fəlsəfə hər bir məkanda gedən ictimai-iqtisadi-siyasi münasibətlərin mahiyyətindən və məzmunundan asılıdır, quldarlıq qurluşu eyni yerdə və eyni zamanda meydana gəlməmişdir. Bir də onu qeyd edə bilərik ki, axı fəlsəfə yarandığı məkandan və zamandan asılı olmayaraq, ümumi mənəvi sistemlər formalaşdırdı.

Fəlsəfi xəzinə ümumi bəşəri mənəvi sərvətlərlə zənginləşsə belə Şərq ilə Qərb mədəniyyətində həm eynilik,həm də fərqlilik olmuşdur. Məsələn, Şərqdə fəlsəfi baxışlar dinə yaxın olsa belə, Şərqin fəlsəfi təfəkkürü insan və onun həyat fəaliyyəti, böyüklərə nəsihət, hökmdarlara itaət, ölüm, ruh, şüur, xeyir, şər və s. kimi problemlər araşdırılırdısa, lakin Qərb fəlsəfəsində insan problemi varlığın ümumi kontekstində araşdırılmaqla azadfikirlilik və ya fəlsəfədə isə imkan, zaman, hərəkət, ziddiyyət, substansiya və s. kimi anlayışlar daha çox işlədilirdi. Qərbdə materiyanın quruluşu (atomizm) haqqında və orada baş verən dəyişikliklərin səbəblərinin axtarışı əsas yer tuturdu. Lakin Şərq fəlsəfəsində materiyanın ruha qarşı qoyuluşu əsas hesab edilmişdir. Eləcə də insanın kainat mənşəli olması, insanların öz-özünü təkmilləşdirməsi, başqalarını idarə etməsi üçün müəyyən dünyagörüşə malik olan vacibliyi əsas şərt kimi qəbul olunurdu. Şərq ilə Qərb fəlsəfəsinin fərqləndirici xüsusiyyətlərini nəzərə alsaq belə nəticəyə gəlmək olar ki, Şərq fəlsəfi fikir dünyasında isə həqiqət axtarışının həssaslığını və bütövlükdə baş verən dəyişikliklərin praktiki səviyyədə irəlləyişini qeyd etmək olar.

Bəzi tarixçilərin tədqiqatlarında göstərilir ki, lap əvvəldən sivilizasiyanın spesifik xüsusiyyətləri həmin cəmiyyətin maddi

fəaliyyətindən asılı olmuşdur. Burada coğrafi mühit və əhalinin çoxluğu da baş verən dəyişikliklərə öz təsirini göstərmişdir.

Şərq və Qərb fəlsəfi təfəkkürü öz aralarında bir-birinə böyük təsir göstərmiş və göstərməkdədir. Bu qarşılıqlı təsir nəticəsində müasir təfəkkür üsuluna əsaslanan yeni cəmiyyətlər formalaşmaqda idi.

Ümumiyyətlə, Qədim Şərq fəlsəfəsi dünya fikir xəzinəsinə və onun inkişafına çox böyük təsir göstərmişdir. Şərq fəlsəfi mənəvi dünyasının baxışları sonrakı inkişaf mərhələlərində xeyli təhlil olunmuş və özünəməxsus yer tutmuşdur. Qədim Şərq fəlsəfəsinin meydana gəlməsi, formalaşması, yayılması həmin Şərq məkanının torpağı, iqlimi, coğrafi mühiti, etnik birliyi, ictimai-siyasi həyatı, əxlaqi-etnik dəyərləri ilə sıx bağlı olmuş və bu dövrdə görkəmli mütəfəkkirlər yaşamış və onlar özlərinin fəlsəfi məktəblərini və sistemlərini yaratmışlar. Belə Şərq ölkələrindən biz Babilistanın, Misirin, Hindistanın və Çinin adını qeyd edə bilərik.

## 2. Qədm Şərq fəlsəfəsi

**a) Qədim Babilistanda fəlsəfə.** Arxeoloji qazıntılar zamanı Dəclə və Fərat çayları arasında qədim şəhər mədəniyyətinin olması tədqiq edilmişdir. **Şumer və Akkadlar** bu ərazidə bizim eradan əvvəl 4000-ci ildə məskunlaşmışdır. Sivilizasiya mərkəzi olan və inkişaf edən qədim şəhər dövlətləri olan **Ur**, **Uruk və Rit** olmuşdur. Yəqin ki, Şumerlər bu sivilizasiyanı yaratmışlar. Şumer və Akkad mədəniyyətində dünyanın yaranması, qurluşu allahların mövcudluğu, dualar, lənətlər və s. kimi mifoloji və fəlsəfi baxışlar mövcud idi. Bir müddət sonra **Əmmarilər** bu ölkəni ələ keçirdilər, yeni dövlət olan Babilistan yarandı. Daha sonra Babilistan Misirdən İrana qədər olan ərazini əhatə edirdi. Bu iki çayarası (Dəclə və Fərat) xalqların mifoloji dünyagörüşü çox zəngin və maraqlıdır. Hətta bu zaman allahların mənəvi dünyasından xəbər verilirdi. Çünki hər bir allah özünəməxsus anlamı olmaqla münasib mövqe tuturdu. Bu ərazidə yaşayan xalqlar elmlərin ilkin əsasını yaratmaqla müxtəlif elm sahələrində

bir sıra naliyyətlər əldə etdilər. Bir sıra sənədlərdə xüsusilə təbabət elmi ilə məşğul olan insanlardan söhbət gedir və **Ajpur həkiminin** arayış kitabçasında 15-dən çox müalicə yazdığı haqqında məlumat verilirdi. Riyaziyyat və digər elm sahələrinin inkişafı haqqında fikirlər zəmanəmizə qədər gəlib çatmışdır. Babilistanlılar həmçinin astronomiya və astrologiya elmindən xəbərdar olmuşlar. Onlar səma cisimlərinin adlarını allahların adlarında axtarırdılar. Bunu Babilistan mədəniyyətinin inkişafının tunc dövrünə aid etmək olar. Elmdə də çoxlu irəlləyişlər əldə olunurdu. Arxeoloji tədqiqatlara görə toplanmış riyazi mətnlər bunun bariz nümunəsidir. Burada riyazi hesablamalar, kvadratlar, rəqəmlər, müəyyən məsələlər və s. kimi mənbələr müasir dövrə qədər gəlib çatmışdır. Daha sonra qeyd etmək olar ki, səma cisimlərinin müşahidə olunması, ayın tutulması ilə bağlı qrafiklər və Ay və Gün ilə bağlı təqvimlər eləcə də tibbi mətnlər buna misal ola bilər. Qeyd etmək olar ki, Babilistanda fəlsəfi təfəkkür daha çox elmlərlə əlaqədar olaraq biliklər sistemindən ibarət olmuşdur. Maraqlı cəhət odur ki, Yunan fiolsoflarının xüsusilə **Milet məktəbinin** nümayəndələrinin irəli sürdükləri dünyanın ilkin başlanğıcı ilə bağlı olan elmi fikirləri Babilistanlılar daha tez irəli sürmüşdürlər. Onlar dünyanın ilkin əsasını torpaq və səmada ("an" – "ki" – "göy" – "yer") axtarmışlar. Yerlə göy arasında olan üçüncü element kimi qəbul etdikləri **"Lil", "külək", "hava", "ruh"** qəbul edilirdi. Daha sonra qeyd olunurdu ki, günəş, ay, planetlər, ulduzlar onların qəbul etdikləri üçüncü elementlərdən əmələ gəlmişdir. Daha sonra qeyd olunur ki, göy yerdən ayrılır və nəticədə bitkilər və heyvanlar yaranır və allahlar isə birlikdə kainatı hərəkətə gətirdilər. Təsadüfi deyil ki, allah sözü şərqdə qəbul edilmiş, daha sonra digər dinlərdə əsas yer tutmuşdur.

Həmçinin şəkil çəkmək sənəti də mövcud olmuşdur. Babillər allahları insan obrazlarında dərk edirdilər və onların şəkillərini də insan obrazında təsvir edirdilər. Şəkillərdən görünürdü ki, allahlar fövqəladə qüvvə və qabiliyyətlərə malik idilər. Şəkillərdə onların başında tac, qiymətli paltar, iki və ya üç

sancılmış öküz buynuzu formasında baş geymləri öz əksini tapırdı. Xalq arasında yarımallahlara, iblislərə və qəhrəmanlara inam çox güclü idi. Onların hüquqi-əxlaqi prinsiplərini əks etdirən adət və ənənələr mövcud idi. Məsələn, onlarda belə qaydalar mövcud idi: ataya və anaya hörmət, böyük qardaşlara hörmət, başqasının arvadı ilə yaxınlıq etməmək, insanın qanını tökməmək, pis şey öyrətməmək, yalan və ya pis danışmamaq və s.

Biz konkret olaraq Şumer dastanlarının fəlsəfi baxışlarında "Bilqamıs" (hər şeyi bilən adam) və ya bəzi fəlsəfi əsərlərdə "Gilgameş" kimi tanınan dastanda dünya mədəniyyətinin söz incilərindən xəbər verilir. Bu fəlsəfi dünyadan bir necə nümunələri göstərmək istəyirəm: "**Ölümü insan üçün buyurmuşdular onlar"** deməklə, allahlar bütün insanlara ölüm buyurmuşdur, yəni burada olum və ölüm məsələsi araşdırılır və ya digər bir sətirdə də qeyd olunur: "**Heç vaxt tapa bilməzsən axtardığın həyatı**" deməklə yəni hec vaxt əbədi yaşaya bilməzsən, digər halda qeyd olunur ki, **"Kef elə, bayram keçir" və "Uşaqların oynasın, qoy tutsun əllərindən, insanın həyatı da, işi də budur ancaq"** deməklə, əbədi yaşamaq uğrunda mübarizə aparır, ən yaxşısı bu dünyada yaxşı deyərək insanları yaxşı yaşamaq, xoşbəxt olmaq uğurunda mübarizəyə səsləyir. Konkret belə bir fəlsəfi məntiqə gəlmək olar ki, insan həyatı əbədi ola bilməz, o bir gün mütləq başa çatmalıdır. Əbədi yaşamaqdan ötrü insan mənalı yaşamalıdır.

Babilistanda digər fəlsəfi ədəbiyyat nümunəsi **"Müdrik Aşikar haqqında"** olan bir hekayətdir. Bu hekayətdə etik normalara və nəsihətlərə daha çox yer verilmişdir: **"Sakit danış, səsini ucaltma", "Əgər səs-küylə ev tikmək mümkün olsaydı, onda eşşək gündə bir ev tikərdi", "Həddindən artıq şirin olma, yoxsa səni atarlar", "Sarayda eşitdiyin hər bir söz qoy sənin qəlbində çürüsün".** Bu hikmətli fikirlərdən belə nəticəyə gəlmək olar ki, burada müdrikliyə can atmaq cəhdi, kamilləşmə, mənəvi saflıq, əxlaqi-etik dəyərlər, eləcə də hüquqi normalara riayət olunması və s. kimi mənəvi baxışlara geniş yer verilmişdir.

“Ağanın qul ilə söhbəti” adlı abidədə bəzi fəlsəfi fikirlər maraq doğurur. Burada əsas söhbət insan həyatının mənasından, quldar (qul sahibi) ilə qulun münasibətindən, hökmdarın idarəçilik siyasətindən cana gələn quldar həyatın mənasızlığından söz açır, hətta ölümdən sonrakı həyatın da boş, mənasız olduğunu vurğulayır. Ümumiyyətlə, belə bir nəticə əldə olunur ki, Babilistan fəlsəfi-fikir tarixində həyatın əmələ gəlməsi və onun bütün rəngarəngliyi ilə bağlı fikirlər öz əksini tapmışdır, lakin ümumiləşdirildikdə görünür ki, əsas baxışlar insan və onun taleyi, olum və ölüm, əbədi yaşamaq, həyatın mənası kimi fəlsəfi düşüncə tərzinə yer verilmişdir.

**b) Qədim Misirdə fəlsəfə.** B.e.ə. IV minillikdə Qədim Misirin ərazisində ictimai-iqtisadi münasibət forması olan quldarlıq quruluşunun inkişafı yüksək səviyyədə idi. Ölkədə təsərrüfat fəaliyyəti əkinçilik və heyvandarlıqla yanaşı daş və ağac emalı, kətan parçalarının toxunması, papiruslar üzərində yazı, dəri aşılanması və s. kimi sənət növləri mövcud idi. Misirin həyat damarı olan Nil çayı 700 km məsafədə dərin vadiləri keçərək Aralıq dənizinə tökülür. Nil çayının delta hissəsində Misir yerləşir. Misirlilər öz ölkələrini torpaqlarının rənginə görə “Qara torpaq” (“Ta kemet”) adlandırırdı.

Misir özü Cənub və Şimal padşahlığından ibarət idi. Hər iki padşahlıq arasında mübahisəli məsələlər mövcud idi və onlar daim bir-biri ilə mübarizə şəraitində idi. Nəhayət Cənub padşahlığı Şimal padşahlığını məğlub etdi və Nil çayının bütün vadiləri onun əlinə keçdi və dövlətin paytaxtı **Memfis** şəhəri oldu. Misir padşahları xeyli müddət sərdabələr və ehramlar tikməyə başladılar. Hər bir padşah öz böyüklüyünü özlərinin tikdirdiyi ehramların böyüklüyündə axtarırdılar. Ən böyük ehram firon **Xeops** üçün tikilmiş ehram idi. Ətrafı 1 km uzunluqda, hündürlüyü isə 150 metrdən ibarət idi. Xeops ehramının yaxınlığında bir qaya var, halbuki orada daşdan hündürlüyü 20 metrdən çox olan insan başlı iri aslan heykəli yonulmuşdur.

Qədim misirlilərə görə Misir fironları **“Allahın oğlu” və ya “Böyük allah”** adlandırılırdı. Misir fəlsəfi və mifoloji dünya-

görüşü babilistanlılar kimi çoxallahlıq panteonuna əsaslanırdı. Onlar üçün daim dualar edilir və qurban vermə mərasimi keçirilirdi. Dini kahinlər allahların xidmətçiləri hesab olunduğu üçün onlar həmçinin allahları yedizdirməli idi. Allahların padşahı sayılan **Günəş allahı Ra** göydə qızıl qayıqda gəzir və Qərbdə yerə enir və s. kimi müxtəlif mifoloji düşüncələr mövcud idi. Misirlilərin etiqadına görə ruh heykəllərdə yaşaya bilir.

Misirdə yaranmış çoxallahlığa baxmayaraq, onların dünyagörüşündə bir sıra elmlər mühüm rol oynamışdır. Odur ki, burada fəlsəfə, bir sıra təbiət elmləri – riyaziyyat, astronomiya, kosmologiya, təbabət və s. elmlər sahəsində ilk addımlar atılmağa başlanıldı. Vaxtaşırı olaraq Nil çayının aşıb-daşması məsələsi Misir astronomiyasının yaranmasına və inkişafına səbəb oldu. Nil çayı daşanda Misir səmasında həmişə Sirus ulduzu görünürdü. Bu faktlardan istifadə edən misirlilər bürclərin fonunda Günəşin yolunu müəyyənləşdirərək 2 yerə bölmüşdür. Misirlilər 373 günəş və 832 ay tutulmasını müşahidə etmişdilər. Səmanı daim belə seyr etdiklərinə görə onlar özlərinin təqvimini yaratmışlar. Təqvimə görə il 30 gündən ibarət olan 12 aydan və əlavə olunmaqla 5 əlavə gündən ibarət idi.

Qədim misirlilərin gildən düzəldilmiş 36 ədəd qabları üzərində riyazi mətnlər dövrümüzə qədər gəlib çatmışdır. Bunlar hal-hazırda London, Berlin və Moskva muzeylərində saxlanılmaqdadır. Onlar hətta mürəkkəb ölçü vahidlərindən belə istifadə edirdilər. Həndəsə sahəsində də həndəsi fiqurların hesablanılması, kvadrat kökalma, çevrənin uzunluğunun onun diametrinə olan nisbətini və s. kimi həndəsi əməliyyatların həyata keçirilməsindən xəbərdar idilər.

Təbabət sahəsində bir çox biliklər də mövcud idi. Belə ki, meyitlərin yarılmasına görə orqanizmdə baş verən ölüm səbəblərindən və ya qan dövranından, cərrahiyyə əməliyyatlarından xəbərdar idilər. Deməli, bunlarda müalicə üsulu tam elmi əsaslarla həyata keçirilirdi.

Misirdə fəlsəfənin meydana gəlməsi bir tərəfdən elmlərin inkişafı, digər tərəfdən isə dünyanın mifoloji anlamından ibarət

idi. Belə bir mifoloji anlamlardan biri **"İliada və Osiris"** haqqında olan bir əsatir formasıdır.

Misirdə qədim fəlsəfi ədəbiyyat nümunəsi kimi **"Arfaçının mahnısı", "Ölümün tərənnümü"** adlı iki tarixi abidəni misal göstərə bilərik. "Arfaçının mahnısı" adlı əsərdə sanki axirət dünyasının mövcudluğu qəbul edilmir. Bu əsərlə təsdiq olunur ki, öləndən sonra heç kim geri qayıtmır, həyatını yaşadığın müddətdə qurmaq lazımdır. Bununla bağlı insan hissi və onun zəkası heç bir şey edə bilməz. Əsər insanı ancaq bu dünyada doğru, düzgün yaşamağa çağırır. Bir sözlə qeyd etmək olar ki, Misir cəmiyyətinin bəşəriyyətə təqdim etdiyi fəlsəfi düşüncələr tam fəlsəfi anlam deyildir. Bu baxışlar bir növ daha çox dini-mifoloji ruhla sıx bağlı idi və fundamental şəkildə ontoloji və qnoseoloji baxışların müzakirəsinə az yer verilirdi. Göstərilən bədii nümunələrdə həyat-ölüm, əbədi dünya kimi problemlərin mahiyyəti açıqlanılırdı. Ancaq bütövlükdə Şərq fəlsəfəsinin mərhələsində Şumer-Akkad mədəniyyətində digər məzmunda olan məlumatlar da az deyildir. Burada siyasət, cəmiyyətin əxlaqi normaları, nəsihətlər və s. kimi fəlsəfi fikirlərə rast gəlirik və bunlar özünəməxsus yer tutur. Bəzi halda qeyd etdiyimiz bu baxışlar və təsəvvürlər sistemi sadəlövh şəkildə görünə bilər, ancaq unutmamalıyıq bu fikirlər dörd min il bundan əvvəl irəli sürülmüşdür. Əlbəttə, öz dövrünə görə bu çox böyük bir dünyagörüşü idi. Qədim Şərqin bu istiqamətdə olan fəlsəfi dünyagörüşü dünya miqyasında mədəniyyətin inkişafına çox böyük təsir göstərmişdir.

**c) Qədim Hindistanda fəlsəfə.** Fəlsəfənin dünyaya baxış sistemi getdikcə I minilliyin ortalarında maddi və mənəvi cəhətdən nisbətən inkişaf etmiş Hindistan və Çin kimi ölkələrdə özünün formalaşdırma dövrünü kecirməyə başladı. Hind fəlsəfəsinin xarakterik xüsusiyyətlərini və məzmununu daha yaxşı başa düşmək üçün onun tatixi dövrlərini bilməliyik.

**Birinci**: vedalar dövrü (veda-bilik, e.ə.1500-600-cü illər). Bu dörd vedalar bəşəriyyətin əbədi abidələri içərisindən qədim nümunələr hesab olunur və hind cəmiyyətinin mənəvi həyatında ictimai quruluşdan çoxlu məlumatlar əldə olunurdu. Əslində

vedalar dini salnamələrdən, himnlərdən, xarici aləm və onun dərk olunmasından ibarət olsa da, bütün ölkələrdən əvvəl çoxlu fəlsəfi məktəblər yarandı.

Bu dövrdə qədim ari tayfaları şimal-qərbdən Hindistan ərazisinə daxil olaraq yerli əhalini əsarət altına aldı. Bu zaman Hindistan cəmiyyətinin idarəçiliyində torpaq sahibkarlığı aristokratiyasını və kahinlər (Brahman) hakimiyyətini qəbul edən racələr idarə edirdi. Vedalar 4 kitabdan ibarətdir: **Riqveda, Atharvaveda, Samaveda və Yacurveda.** Veda ayinlərin mistik mənasını aydınlaşdırır, ümumi şəkildə "müqəddəs kitablar" "yüksək müdriklik" mənasında işlədilir. Ən qədim olan bölmə **Riqveda** sayılır. Vedalar ədəbiyyatı bir neçə bölmələrdən ibarətdir. Bunlardan biz mantraların daha doğrusu himnlər samhitlər, brahmanlar və upanişadlar adlandırılır. Vedaların bir hissəsi **Brahmanlardır (ritual mətnlər).**

Vedaları fəlsəfə adlandırmaq bəkə də düzgün deyil. Onlarla tanış olarkən sanki bir mifik dünyaya daxil oluruq. Lakin Upanişadlardan söhbət açdıqda aydın olur ki, fəlsəfi təfəkkürdə mifdən elmi təsəvvürlərə keçid kimi qəbul edilə bilər. Upanişadlara aid olan mətnlər daha anlaşıqlıdır və veda dünyagörüşünə tənqidi bir anlamdır. "Upanişad" termini müdrikin öz şagirdlərini öyrətməsi kimi başa düşülür. Upanişadda mərkəzləşmiş ideyalardan biri olum və ölümün "halay vurması" ideyasıdır. Bu dünyagörüşə əsasən ölümdən sonra insanın yenidən dünyaya qayıtması təlimidir. Olum və ölüm arasında yeniləşən proses **sansara** (ruhun köçürülməsi) adlanır. Bu prosesdə guya insanın mahiyyəti (atman) üzə çıxır. Upanişadla tanış olduqca mühüm bir müddəa üzə çıxır ki, o da atman və brahmanı eyniləşdirir. Onların fikrincə həqiqət nə xaricdədir, nə də təbiətdə. O, insanın öz daxilindədir. Yəni insan "özünü tapmağı" öyrənməlidir. Belə bir mistik müdriklik ancaq kahin silkinə "brahmanlara" aid olunması kimi başa düşülürdü.

Brahman və atman müxtəlif şəkildə şərh olunur. Bəzi hallarda yaradıcı allah (dünyanı idarə edən, dünyanın ilkin əsası, yemək, nəfəs və s. kimi elementlər) ruhunda dünya ilə eyniləş-

dirilir. Brahman mənəvi mütləq və bütün proseslərin daxili mahiyyəti kimi başa düşülür. Upanişadlarda keçmiş ənənələrin əvəz olunması ilə bağlı konsepsiya mövcuddur ki, bu **karma** adlanır. İnsanın əməllərində səbəb və nəticə axtarılır, hərəkət, əməl mənasını bildirir. Karma haqqında təsəvvürün hətta atalar sözlərində mənalandırmanı görə bilərik, məsələn, **"nə atarsan aşına, o da çıxar qaşığına", "nə əkərsən, onu da biçərsən".** Bu mənalandırma hind fəlsəfi təfəkküründə əxalqi səbəbiyyət ideyasıdır.

Qədim Hind fəlsəfi fikrində çox maraqlıdır ki, **ontoloji və kosmoloji** təsəvvürləri ifadə edən baxışlar bir-biri ilə əlaqəli olmuşdur. Vedalarda təsvir olunur ki, **"Om" və ya "Azıq"** kimi ilk ilahi səslər əmələ gəlmişdir. Yerdə qalan bütün səslər onlardan yaranmışdır. Çünki səslər dalğavari ötrülən titrəyişlərdən ibarətdir. Ətrafda hər şey tərpəndiyindən bütün dünya səslərlə doludur. Ona görə də kainat, ulduzlar, torpaq, dağlar, çaylar, ağaclar hamısı səslənir. Bunun nəticəsində bu səsləri məlakələr oxuyar, nəticədə səs dalğaların axını insan qəlbinə yol tapar. Qədim hind dünyagörüşündə insanın ən böyük istəyi allaha qovuşmaqdır. Bu işdə insana kömək edən bir-biri ilə qarşılıqlı əlaqədə olan məhəbbət və musiqidir. Allaha məhəbbət insan qəlbini allaha yaxınlaşdırır. Ən əsası ilahi musiqini dərk etdikdən sonra, ürək allaha daha da yaxın olur. Musiqisiz Allaha yaxınlaşmaq qeyri-mümkündür.

Hind mədəniyyətinin mifoloji mərhələsi "Riqveda"da əks olunur. Burada ilk insan **Puruşadan** söhbət açılır. Puruşadan dünya ruhu və kosmosun elementləri yaranmışdır. Ölçüsünə görə o, hər yerdə mövcuddur həm də böyük kosmik ağıla mənsubdur.

Qədim hind fəlsəfəsinin səciyyəvi cəhəti odur ki, müəyyən sistemlərdən və çoxlu fəlsəfi məktəblərdən ibarət olmuşdur. Burada çox müxtəlif baxışlar, təsəvvürlər, varlıq və onun idraki nailiyyəti olum və ölüm, dünyanın ilkin əsasının müəyyənləş-dirilməsi və s. kimi çoxlu problemlər öz əksinə tapır. Bütün bu problemlərin fəlsəfi müzakirəsini nəticələndirən və hind

mədəniyyətinə böyük tövhə verən fəlsəfi məktəblər olmuşdur ki, biz onların adlarını qeyd edə bilərik.

**1. Vedanta (e.ə. IV-II), 2. Memansa (e.ə. VI), 3. Sankhya (e.ə. VI), 4. Nyaya (e.ə. III), Yoqa (e.ə. II), 6. Vayşeşika (e.ə. VI-V). 7. Buddizm (e.ə.VII-VI), 8. Caynizm (e.ə. IV), 9. Çarvaka-lokayata (e.ə. VI əsr).**

Bu məktəblərdə fəlsəfənin problemləri müxtəlif şəkildə şərh olunur, bütün təzahürlər və proseslərin həm **ortodoksal** (vedaları qəbul edənlər) və ya **qeyri-ortodoksal** (vedaları qəbul etməyənlər) dünyagörüşü baxımından təhlili həyata keçirilir.

Qədim Hindistan cəmiyyətində dörd qrup (varna) mövcud idi. **1) Kahinlər (brahman) varnası, 2) Hərbi aristokratiya (kşatrilər) varnası, 3) Əkinçilər, sənətkarlar, tacirlər (vayşilər) varnası, 4) Aşağı (şudralar) varnası.**

**Şudralar** adların çəkdiyim əvvəlki varnaların tabeliyində idi. Onlar cəmiyyətin və ya icmanın fəaliyyətinə aid olunmurdu və əməyin ən ağır hissəsi və növü onların üzərində idi. Cəmiyyətin varnalar bölgüsü əsasən din tərəfindən həyata keçirildi.

**Hind fəlsəfəsinin ikinci tarixi mərhələsi (e.ə. 600-200) epik dövr adlanır**, bu dövrün fəlsəfi tarixinin əsas mənbəyi 18 kitabdan ibarət idi və bu "**Mahabharata" poeması** adlanır. Bu kitabların məzmununa xalq inamları, xalqların mifologiyası, vedaların bəzi fraqmentləri, yoqa təlimi, varlığın mənbələri və s. kimi məsələlər daxil edilmişdir**. "Bhaqavad-qita"** əsərində daha çox fəlsəfi baxlşlar ifadə olunur. Bhaqavad-qita əsərinin hərfi tərcüməsi "ilahi nəğmə" kimi başa düşülür və əsərdə iki aləmin döyüş meydanında ədalətlilik, cəsarətlilik və digər nəsihət və göstərişləri Hindistanda üstünlük təşkil edən hinduizmin müqəddəs mətnləri də bura daxildir. Əsər həm də dialoq formasında yazılmışdır. Dialoq Bhaqavad-qita və onun arabaçısı **Krişna** arasında baş vermişdir. Dialoqun sonrakı gedişlərində aydın olur ki, **Krişna özünü Vişnanın təcəssümü** və kainatın hökmdarı kimi və ya tanrının özü kimi təqdim edir. Burada ideya xətti əxlaq və reallıqdır. Lakin arzu və nifrət insanın əsl düşmənidir. Göstərilir ki, **"öz borcunu pis də olsa özün yerinə**

**yetir".** Bu fraqment borcun ümumi etikasını əks etdirmir. Deməli, hər bir fərdi borc hər hansı kastaya aid olunması kimi başa düşülür.

Epik dövrdə nəzəri baxışların əsasını etik-sosial baxışlar təşkil edirdi. Krişna üçün allahı dərk etmək həyatın mənasını dərk etməkdir. Qeyd olunur ki, insanın daim sevən ürəyi olmalıdır ki, o biliyə sahib ola bilsin və nəticədə allahı sevə bilsin.

"Mahabharata"dan sonra dini-fəlsəfi abidələrə **"Ramayana" və "Manu qanunları"**nı aid etmək olar. "Ramayana" abidəsində əsasən köhnə allahlar ilə ictimai şüurdan öz əksini tapmış yeni allahlar arasındakı münasibətləri və çoxallahlılığa xas olan dünyagörüşü özündə əks etdirir. Digər abidədə olan "Manu qanunları"nda isə sosial-siyasi və hüquqi ənənələrin formalaşmasını, bir sözlə cəmiyyətdə mövcud olan təbəqələrin hüquq və vəzifələrini əks etdirən normalar xüsusi əhəmiyyət daşıyir.

**Vedanta** məktəbinin vedant fəlsəfəsi bir sözlə bir növ həyat məktəbidir. Şagird həmişə müəllimin dediklərinə qulaq asmalıdır. Bu məktəbin nümayəndəsi **Şankhara** olmuşdur. Vedanta məktəbi maddi dünya ilə bağlı bir təlim (mayya) hazırlamışdır və orada göstərilir ki, reallığın yeganə mənası həqiqi biliyə (brahmana) çatmaqdır. Hind təfəkküründə yoqa təlimi (xilasolma) xüsusi yer tutur. Hərfi mənası "cəmlənmə" və ya "mərkəzləşmə" kimi başa düşülür. Yoqa özlüyündə iztirablardan azad olmağa yönəlmiş bir praktik fəaliyyət sahəsidir. O meditasiya şüurunun formalaşması metodikasını həyata keçirir. Yoqa təlimi xilasolmanın xüsusi forması olmaqla hisslər və fikirlər üzərində nəzarətə nail olmaqdır. Məlumdur ki, Allah təkdir, onun çoxlu aspektləri olduğu üçün müxtəlif xalqlar ona müxtəlif adlar vermişdir. Onun adı və forması var, həmçinin nə adı var, nə də forması. Məhz yoqa təliminin həm fəlsəfəsi həm də praktikası bundan ibarətdir. Yəni Allah çoxlu aspektlərə malikdir və hərə onu bir cür görür.

Hindistanda ortodoksal olmayan fəlsəfi məktəblərdən biri də **Caynizmdir.** "Müdriklər" təliminin inkişafı nəticəsində əmələ gəlmişdir və onun əfsanəvi banisi **Cina (qalib)** təxəllüsü olan **Mahavira Vardhavana** hesab olunur. Cina öz etik-fəlsəfi

baxışlarında 5 həqiqəti əsas götürmüşdür: **adam öldürməmək, yalan danışmamaq, oğurluq etməmək, dünyəvi şeylərə bağlanmamaq, bakirəliyini saxlamaq (rahiblərə aid edilir). Təlimin əsas məqsədi insanın ehtiraslardan azad olunmasıdır.**

Eramızdan əvvəl VI-V əsrlərdə brahmanizmi tənqid edən başqa cərəyanlar da formalaşmağa başladı. Bu cərəyanlardan çarvaklar ya lokayata Hindistanda nüfuzlu cərəyanlardan hesab olunurdu. Burada daha çox materialist dünyagörüşə əsaslanan baxışlar idealizmə nisbətən daha çox yer tutur. Məsələn **"çarvak" termini çar - dörd, vak - söz yəni "dörd söz"** deməkdir, belə başa düşülür ki, dünyanın əsasının 4 substantiv elementlərdə axtarılması ideyası kimi başa düşülür. Demək olar ki, bu cərəyanın tərəfdarları idealizm dünyagörüşü ilə qarşı-qarşıya dayanaraq daha da inkişaf etməyə başladı. Buna əsasən qeyd etmək olar ki, carvaklar dünyanın maddi əsasını təhlil etməyə çalışırdılar və qeyd olunurdu ki, dünya maddi elementlərin kombinasiyasından ibarətdir. Daha sonra biz carvakların etik təlimi ilə də tanış ola bilərik. Onlar qeyd edirdilər ki, həyatda yemək, içmək və kef çəkmək lazımdır, Çünki, ölümdən qaçmaq mümkün deyil, o, onsuz da hamı üçün gələcəkdir.

Hindistanda yaranan dini-fəlsəfi təlimlərindən biri də buddizmdir. Buddizm dini təlimi çox dərin nüfuza malik olmuşdur. Banisi hind müqəddəslərindən biri olan **Siddharto Qautama** olmuşdur. O, ailəsini tərk edərək zahid və müdrik olmaq üçün səyahətə başlamışdır. O, bir müddət asketik həyat tərzində və tərkidünyalıqda yaşayaraq özünə əzab verir ki, özünün həyatının ənənəvi seyrinə nail olsun. Bir az keçdikdən sonra o özündə bir işıqlanma, nurlanma hiss edir və o çox suallara cavab verə bilən bir şəxsiyyətə çevrilir. Ona görə də o, sonralar **Budda (nurlanmış)** adı altında məşhurlaşır. Hal-hazırda Buddizm dünya dinlərindən biri hesab olunur. Buddizmdə nirvana yüksəlmə anlamı vardır ki, o, insanın əzablardan azad olma və ya xilasolma mərhələsi kimi başa düşülür. Buddizm dini və fəlsəfi təlim kimi "dörd həqiqət" adı altında məşhurdur.

**Birinci həqiqət** - Dünya əzablarla doludur. İnsan doğulandan ölənə qədər əziyyət çəkir. Doğulma-əzab, qocalıq-əzab, xəstəlik və ölüm əzab, ayrılıq-əzab, istəklərini ödəmək uğurunda mübarizə - əzabdır.

**İkinci həqiqət** - İnsan istirablarının səbəbi vardır. Bu səbəb yaşamaq ehtirasıdır. Çünki insan maddi şeyləri və mənəvi dəyərləri daimi sayır və onlara sahib olmağa və onlardan həzz almağa çalışaraq daha çox nəfsinin ardınca qaçır.

**Üçüncü həqiqət** - İztiraba son qoymaq mümkündür. Bunun üçün insan özünü arzudan kənarlaşdırmalı, nəfsinin həddini minimuma endirməklə öz daxili aləmini təkmilləşdirməlidir.

**Dördüncü həqiqət** - arzuların və əzabların olmaması üçün xeyirxah səkkiz mərhələdən ibarət olan yollar bunlardır: **1) düzgün anlamaq, 2) düzgün nitq, 3) düzgün hərəkət, 4) düzgün davranış, 5) düzgün həyat tərzi, 6) düzgün səy və ya cəhd etmək, 7) düzgün fikrin istiqaməti, 8) düzgün diqqət.** Hindistan mədəniyyətində buddizm dini və fəlsəfi təliminə görə əzabların səbəbindən xilasolunmanın nəcib yollarını məhz bu şəkildə şərh etmişdir. Hazırda bu din Hindistanda yaransa da Tibetdə, Çində, Yaponiyada və Seylonda çox geniş yayılmışdır. Baxmayaraq ki, qədim hind cəmiyyətində bərabərsizlik Şudralar (qul), kasta sistemi yəni insan taleyinin hansı kastada doğulmasından asılı olaraq müəyyənləşdirilməsi kimi ənənələr olsa belə, dini-fəlsəfi məntiq "**Bütün varlıqlar yeganənin təzahürüdür" kimi başa düşülür.**

Nəticədə başa düşmək olur ki, ümumiliyin elan olunması ideyası insaniyyətçiliyin təzahürü idi. Qeyd etmək olar ki, Qədim Şərq dünyasında fəlsəfi xəzinənin tərkib hissəsi olan Hind fəlsəfəsi Qərb xalqlarının mədəniyyətinə çox güclü təsir göstərən mədəniyyətlərdən biri olmuşdur.

**d) Qədim Çin fəlsəfəsi.** Qədim Çin xalqı və onun dünyagörüşü yüksək və zəngin olan mədəniyyətə malik olmuşdur. Çində fəlsəfi baxışlar digər şərq xalqlarında olduğu kimi özünün milli xarakteri və onun sosial praktikası əsasında formalaşmağa başladı ki, bu tarixi dövr e.ə VIII-VI əsrlərə təsadüf edir.

Quldarlıq cəmiyyətinə aid olan iki meyl mövcud idi: **a) konservativ b) mühafizəkar və ya mütərəqqi**. Hər iki tendensiyaya əsasən Çində çoxlu cərəyanlar meydana gəldi ki, biz onların ən əsasının adlarını aşağıdakı kimi qeyd edə bilərik: **1. Konfutsi təlimi, 2. Daosizm təlimi, 3. Mo-tszi məktəbi.**

Qeyd etmək olar ki, Qədim Çində bu məktəb və təlimlərdən əvvəl çox qədim mədəniyyət abidələri də mövcud olmuşdur. Bunlardan **Mahnılar kitabı (Şi-tszin), Tarix kitabı (Şu-tszin), Adətlər kitabı (Li-tszin), Dəyişikliklər kitabı (İ-tsizn)** və bir səlnamədən ibarət olmuşdur. Bu kitablar birlikdə **Beş kitab (U-tszin)** adlanır.

Qədim Çində fəlsəfənin ənənəvi bilik formaları da mövcud idi. Gerçəklik haqqında elmi biliklərin elementləri mövcud idi: ay-günəş təqvimi, ulduzların kataloqunun tərtibi, həndəsə sahəsində bir sıra elmi müddəalar **"Ney-tszin"** adlı tibb kitabı dünya elm və tibb tarixində mühüm əhəmiyyət kəsb etmişdir. Qədim Çində də fəlsəfi fikrin kortəbii materialist dünyagörüşü mövcud idi ki, burada **"metal", "ağac", "su", "od", "torpaq"** kimi elementlər haqqında və ya əks başlanğıclar **("in" və "yan")** daha sonra "təbii yol" haqqında ideyalar mövcud idi. Yuxarıda adları qeyd olunan təlimlər sistemində **Konfutsi** təlimi ilə bağlı müəyyən məlumatları açıqlamaq istəyirəm. Bu təlimin banisi Konfutsi ( Kon-tszi, yəni "müəllim" Kun) adı altında tanınmışdır. Çin filosofları o dövrdə əsasən yoxsul idilər və əsasən istəyirdilər ki, imperatorların saraylarında çalışsınlar ki, müəyyən qədər əmək haqqı ala bilsinlər və ona görə də təhsilli dövlət məmurları kimi fəaliyyət göstərirdilər.

Konfutsi təliminin əsas baxışları onun **"Mühazirələr və söhbətlər"** əsərinin məzmununa daxil edilmişdir. Burada Konfutsi öz şagirdləri ilə söhbətini dioloq şəklində quraraq onun fəlsəfi baxışları düzgün davranış qaydalarına, daha doğrusu sosial-etik problemlərə həsr olunmuşdur. Konfutsiyə görə insanları sevən adamlar heç vaxt pis əməl sahibi ola bilməz, daha doğrusu insan obrazı onun fəlsəfəsinin mərkəzində əsas yer tuturdu. Onun etikasında **"qarşılıqlı məhəbbət və insana sevgi"**

hissləri əsas şərt kimi qəbul edilirdi. Çin dilində **“Jen”** insana sevgi və humanist baxış kimi başa düşülürdü. Ona görə də Konfutsi etikası “jen” (humanizm) nəzəriyyəsi kimi qəbul edilirdi. O, insanları səbirsiz olmamağa çağırmış, ona verilən sualların məğzində öz şagirdlərinə belə cavab vermişdir: **“Özünə arzu etmədiyini başqalarına da etmə”. Onun belə bir müddəası var idi: “İnsanpərvərliyi sevən kəs, bilir ki, ondan yüksəkdə hec nə yoxdur**”. Konfutsi təliminin əxlaqi prinsipləri həmçinin dövlətin idarəciliyində, ailədə, insanlar arasındakı münasibətlərdə (yaş, vəzifə, ata, ana, hökmdar, əcdad, böyük, kiçik) ailəcanlılıq və əcdadların ənənələrinin müqəddəsliyinin qorunub saxlanılmasıdır. Konfutsi görkəmli mütəfəkkir və siyasi xadim olmuşdur. O, dövlətin və cəmiyyətin idarə olunmasında həmişə ədalətli hökmdar və ədalətli cəmiyyət axtarmışdır, onun bir çox siyasi baxışları və təklifləri həmişə öz aktuallığını saxlamışdır ki, bu gün də Çinin dövlətçilik siyasətində Konfutsi ənənələrindən geniş istifadə olunaraq rəsmi Çin ideologiyası kimi elan olunmuşdur. Hindistanda vedalar kimi Çində də konfutsiçilik böyük nüfuza malik oldu. Konfutsiçiliyə görə qəbul edilən etik normalarla yanaşı Konfutsi insanın taleyinin “Səma”dan aslılığını qəbul edərək onların “nəciblərə” və “rəzillərə” bölündüyünü qeyd etmişdir. Bütün bunları yekunlaşdırsaq Konfutsi fəlsəfi təliminin əsas xüsusiyyətlərini belə qeyd etmək olar**: a) Konfutsi təlimi insanın taleyinin səma qüvvələrindən asıllığını xarakterizə edir, b) Konfutsi təlimi sosial bir təlim olmaqla cəmiyyətə çatdırmaq istəyir ki, hər bir kəs öz işilə məşğul olmalı, öz işini sevməli və icra etməsinin bir subordinasiyası olmalıdır, c) Konfutsi təlimində etiketə, əxlaqi etik dəyərlərə çox üstünlük verilir və cəmiyyətdə “xeyirxah insan” obrazı yaradılaraq onun əsasında “jen” nəzəriyyəsi sistemləşdirilir. d) Konfutsi təlimində Qədim Çin ənənələri əsas götürülür və tərbiyə probleminə böyük diqqət yetirilərək “şəxsiyyət” anlamını yüksəklərə qaldırır.**

Konfutsi fəlsəfəsi dünyagörüşü daha sonra onun ardıcılları olan **Men-tszi Syun-tszi** və digərləri tərəfindən davam etdirilirdi.

Digər davamçılarından olan Cju-sinin və başqalarının şəxsində **“Yeni Konfutsiçilik”** baxışları yaradıldı.

Konfutsiçilik etik fəlsəfənin praktik və siyasi çəhətdən inkişaf etdirildiyi halda **daosizm** (və ya taisizm) daha çox mistik təfəkkürlə səciyyələnirdi. Daosizm təliminin ən böyük nümayəndəsi **Lao-tszı idi. Dao – “yollar**” haqqında təlim kimi başa düşülmüş və e.əVI-V əsrlərdə meydana gəlmişdir. Bu təlim insanları təbii həyatla uyğun hərəkət etməyə və yaşamağa səsləmişdir. Onun fəlsəfi baxışları özünün **“Dao de tszin”** adlı kitabında təhlil olunur. **“Yol və onun fəzilətləri barədə”** də təbiət və varlıq məsələsinə çox böyük yer verilir. Dao haqqında qeyd olunur ki, o, qeyri-müəyyəndir, sonsuzdur, dəyişməzdir, məkan və zaman baxımından sərhədsizdir, xaosdur, həm də formadır. Bəzi halda daosizm fəlsəfəsi antik dövr fəlsəfəsinin nümayəndələrindən olan **Anaksimandrın qeyd etdiyi “İlk başlanğıc” apeyronudur**, yəni qeyri-müəyyəndir və şərhsizdir kimi fikirləri ilə üst-üstə düşür. Daha sonra daosizm təliminin davamçılarından olan **İn Ven** təliminin bəzi müddəaları da **Anaksaqorun və Demokritin** atomizim təlimi ilə uyğunluq təşkil edir. Məsələn, İn Ven qeyd edirdi ki, insanın ruhu ən incə maddi hissəciklərdən ibarətdir. Atomizmə görə də daha doğrusu Anaksaqora görə ağıl və nur ən incə və yüngül hissəciklərdən ibarətdir.

Bu təlimi nəzərdən keçirdikdə aydın olur ki, dao adlanan qanun təbiətin,cəmiyyətin və insanın davranış və hərəkətini müəyyən edir. Daonu başa düşmək üçün təbiətin səsinə qulaq asmaq lazımdır. Dao bütün obrazlarda çıxış edir və **“dünyanın anası”** olmaqla mövcud müxtəlifliliyin ilkin nöqtəsi kimi qəbul edilə bilər. “Dao” anlayışının köməyilə bütün şeylər aləminin mövcudluğunu və mahiyyətini dərk etmək mümkün olur. Həmçinin göstərilir ki, o inkişaf yoludur və hər şeyi dəyişdirə bilər. Bir sözlə hər şey daim dəyişir. Əgər təbiətin ahəngdarlığı pozularsa, insanla təbiət arasında münasibət dəyişər və nəticədə təbiət insanı cəzalandıra bilər. Çünki, insan özü təbiətdən ayrılmazdır.

Daosizm təliminin tərəfdaşlarından biri də **Çjuan-tszi** olmuşdur. Onun fəlsəfi baxışlarına görə **“təfəkkür göyün və yerin güzgüsü”**dür. Çjuan-tszi “dao”nu şeylərdən ayırmağa çalışmışdır. Lakin sonralar onun fəlsəfəsində kortəbii materialist meyllərin movcud olduğunu qeyd edə bilərik. Sonradan onun ideyaları **Van Cun** tərəfindən davam etdirilmişdir. Qədim Çin filosoflarından biri olan **Mo-tzsinin (e.ə. 479-400)** adını da qeyd edə bilərik. Çində bir-birilə rəqabət aparan çox saylı şəkildə mərkəzlər və dini-fəlsəfi cərəyanlar mövcud olmuşdur. Bu fəlsəfi təlim icərisində Mo-tszinın özünəməxsus şəkildə fəlsəfi baxışları əsas yer tutur. O, “varlıq”, “məkan”, “zaman”, “səbəbiyyət”, “keyfiyyət” və s. kimi anlayışların mahiyyətini özünün fəlsəfi təlimlərində şərh etməyə çalışmışdır. O, hesab edirdi ki, baş verən hadisələrə mütləq mənada səbəbiyyət baxımından yanaşmaq lazımdır. Onda biliyin həqiqiliyini üç əsas şərtdə də axtarmaq lazımdır**: a) qədim müdriklərin təcrübəsi, b) mənbələr və faktlara əsaslanmaq, c) bütün bunların tətbiq olunması.**

Qeyd etmək olar ki, Mo-tzsi siyasi ideologiyanın daşıyıcısı olmuşdur. O, dövlətin mənşəynin idarə olunması və ya cəmiyyətin siyasi sistemi ilə bağlı olan bir sıra siyasi fikirlər söyləmişdir. O, öz siyasi baxışlarında konfutsiçiliyin irəli sürdüyü dövlət məmurlarının idarəçilikdə əbədiliyi ilə bağlı fikirləri qəbul etməmişdir. O, siyasi ideyaları etik münasibətlərin sintezində axtarmışdır ki, onun işlətdiyi **“müdrikliyə hörmət”, “biliyə hörmət”, “ümumi fayda”, “səma iradəsi”** kimi anlayışları dəyərləndirərək fatalizmə qarşı mübarizə aparmışdır. Bütün bunlara baxmayaraq **“ümumi fayda və ümumi məhəbbət”** şüarına müraciət etməklə səma və ruhlar haqqında baxışları qəbul etməklə onlarda bir qüvvənin mövcudluğunu da sübut etməyə çalışmışdır.

Göründüyü kimi Qədim Çin fəlsəfi dünya fəlsəfi xəzinəsinə öz töhfəsini bəxş edə bilmişdir. Qədim Çin fəlsəfi fikir tarixində çoxsaylı məktəblər içərisində onlardan Konfutsiçilik, Daosizm, Mo-tsznin aşağıdakı fəlsəfi baxışları özünəməxsus xüsusiyyətlərinə görə əsas yer tutmuşdur.

**1. Qədim Çin fəlsəfəsində cəmiyyətin mənəvi həyatında humanizim ədalət və xeyirxahlıq kimi prinsiplər və "şəx-siyyət" anlamı qiymətləndirilir.**

**2. Mistik baxışlardan elmi təfəkkürə keçid mərhələsi.**

**3. Dövlətin mənşəyi, mahiyyəti, idarə olunması və bir sıra siyasi baxışların təhlili.**

**4. Mühakimələrin dialoq formasında qurulması əsas götürülür.**

**5. İnsan taleyi səma qüvvələri tərəfindən müəyyənləşdirilir.**

**6. Dünyanın yaranması və sonu, səbəb və nəticə, olum və ölümdən sonrakı həyat kimi problemlər araşdırılır**

**7. Qnoseoloji və ontoloji baxışların sadəlövh naturalizm mövqeyi şərh olunur**.

**e) Qədim Azərbaycanda fəlsəfə.** Qədim Azərbaycan ərazi-sində fəlsəfi-dini baxışların yaranması digər xalqlarda olduğu kimi ibtidai icma quruluşunun dağılması və quldarlıq dövrünün meydana gəlməsi ilə əlaqədardır. Etnoqrafik və epiqrafik mən-bələrə əsasən demək olar ki, Şərq ölkələri ən qədim mədəniyyət mərkəzləri olmuşdur.Məlumdur ki Qədim Babilistan və Misir fəlsəfi baxışları ilə tanış olduq, indi isə bu prosesin davamı olaraq Qədim Azərbaycanda yaranmış fəlsəfi baxışlar haqqında məlumatlar vermək istərdik.

**1.** Eramızdan əvvəl ən qədim dövlət IX əsrdə Manna dövləti olmuşdur. Daha sonra e.ə VIII əsrdə Midiya dövləti meydana gəlir və Midiya güclənərək Assuri dövlətinə son qoyur və Azərbaycan ərazisində skif çarlığını ləğv edir. E.ə.IV əsrdə Midiya 2 hissəyə, Böyük Midiya və Atropat Midiya və yaxud Atropatena adı almış kiçik Midiyaya bölünür.

**2.** Qədim Azərbaycanın xeyli hissəsində yaşayan əhalinin dünyagörüşündə mühüm yeniliklər və həyata yeni baxışlar formalaşırdı. Ətraf aləm, axirət dünyası, miflər dünyasına inam, qəbr abidələri, dəfn mərasimləri, ölülərin yanında müxtəlif ev avadanlıqlarının qoyulması və s. kimi fraqmentlər mövcud idi və

bunların sübutu **Qobustandakı Gəmiqaya**, **Kəlbəcərdəki** çox-saylı qayaüstü daşlardakı olan rəsmlər bunun bariz nümunəsidir.

Ümumiyyətlə, arxaik dövrdə **Şumer** allahları insanabənzər formada olmuşlar və onlarda insana aid olan davranış normaları da onlarda mövcud olmuşdur. Bu prosesin növbəti gedişlərində Qayaüstü təsvirlər allahlar dünyası ilə bağlı olmuşdur. Politeist dünyagörüşü də çox bütpərəstliyə yol açırdı. İnsanların simvol-laşdırdığı obrazlar məsələn heyvan başlı, insan başlı, quşbaşlı bütlər, bürc-heyvan və ya bürc-insan təsvirləri hətta qayaüstü rəsmlər də mövcud idi. Belə nəticəyə gəlmək olar ki, həmin qayaüstü rəsmlər və ya quyu, mağara divarlarında çəkilən simvolik şəkillərin olmasından belə qənaətə gəlmək olar ki, bu yerlərin bir ibadətgah olmasından xəbər verir. Çünki, quyu, zağa, göy qübbəsinin əksi, divarlarda çəkilən şəkillər və təsvirlər sanki bir bürcü ifadə edirlər. Qobustan qayaüstü təsvirlərdə 91 nömrəli daş üzərindəki yazı **"imad saki", "dua etdi"** kimi yazılmışdır. Bu yazının da ibadət kimi istifadə edildiyindən xəbər verilir (C.Rüstəmov, Qobustan dünyası, səh 118 Bakı 1994). Azər-baycan xalqının da fəlsəfi ideologiyası mifoloji mahiyyətdə idi. Xeyli müddət sonra erkən quldarlıq cəmiyyətinin inkişafı ilə əlaqədar artıq yavaş-yavaş mifoloji ideyalar aradan çıxarılırdı və xalq folklor nümunələri formalaşmağa başladı.

Qədim Azərbaycanda günəşə, aya, suya, oda, bitkilərə və heyvanlara sitayiş olunurdu. **Strabonun məlumatına görə** Albaniyada Heliyə (Günəşə), Zevsə (Göyə), xüsusilə, Selenaya (Aya) etiqad formaları mövcud idi. D.Xəlilovun "Материальная культура кавказской Албании" adlı kitabında göstərilir ki, "aya sitayiş məbədinin İberiya yaxınlığında yerləşdiyini göstərsə də müasir tədqiqatçıların fikrincə baş məbəd Qəbələ ərazisində olmuşdur". Yenə orada göstərilir ki, e.ə. 60-cı illərdə hətta al-banlar Pompeyin qoşunlarına qarşı 60 min piyada və 2220 süvari ilə qanlı döyüşə çıxmışlar.

Demək olar ki, e.ə. I minillikdə Azərbaycan ərazisində mədəniyyət mərkəzi olan şəhərlər meydana gəldi. Bu şəhərlərdə müxtəlif məbədlər **"Qız qalası"**, **"Bakı qalası"**, **"Şüvəlan atəş-**

**pərəst məbədi", "Səbail ibadətgah qalası"** və s. kimi abidələr dövrün qalıqlarıdır. Məbədlər mədəni həyatımızın əsası hesab olunur, çünki orada kiçik yaşlı uşaqlar tərbiyə olunur və eyni zamanda xəstələr orada müalicə olunurdu. Nəzərə almaq olar ki, Azərbaycanın qədim şəhəri olan Şiz, Ərdəbil, Təbriz, Bakı və s. kimi şəhərlərdə atəşgahlar mövcud olmuşdur. Doğruluğu təqdirəlayiq kimi qəbul etmək, yalançılğı pisləmək, fiziki və mənəvi sağlamlığı təbliğ etmək, vicdanlı əməyə çağırış kimi qəbul edilən mənəvi prinsiplər bu dinə etiqad edən adamların yüksək mədəniyyətə malik olmasından xəbər verir.

Qədim Azərbaycanın təsərrüfat həyatının bütün sahələrində intensiv inkişaf ictimai həyata da öz təsirini göstərirdi. Eramızdan əvvəl III minilliyin ikinci yarısından patriarxal münasibətlər güclənməyə başladı. Ana nəsil quruluşu aradan qaldırıldı və orta nəsil hökmran mövqe tutdu. Azərbaycan ərazisində də qədim dövrlərdən politeizmin (çoxallahlıq) mövcud olması tarixçilər tərəfindən təsdiq olunmuşdur. Azərbaycan xalqının dini dünyagörüşündə də təbiət qüvvələrinin ilahi qüvvəyə malik olması, fetişizm, totemizm, sehrbazlıq və s. kimi inanclar mövcud olmuşdur. Bununla yanaşı qeyd etmək lazımdır ki, indiki cənubi və şimali Azərbaycan ərazisində hələ qədim dövrlərdən **zərdüştlük dini** mövcud olmuşdur və Azərbaycan xalqının qədim mədəniyyətinin ən böyük tarixi abidəsi və müqəddəs kitablar küllüyyatı olan **"Avesta"** idi. Tədqiqatçı **A.O.Makovelskiy** özünün "Avesta" adlı kitabında qeyd edir ki, zərdüştlük Azərbaycan, Yaxın və Orta Şərq ölkələri ərazisində yaşayan qədim tayfaların dini idi. Mənbələr Avestanın vətənini Midiya, özünü isə qədim Azərbaycan dini-fəlsəfi ədəbiyyatının əsəri hesab edirdi. "Avesta" sözünün mənası tam dəqiqliklə aşkarlanmasa da "əsas mətn" və ya "qanun" kimi tərcümə olunmasına üstünlük verilir . Avesta məcmuə (tam şəkildə deyil) şəklində gəlib çatsa da ilk illərdə şifahi şəkildə yayılmışdır. Ənənəvi rəvayətə görə bu kitabı ilkin yazan **Zərdüştün kürəkəni Camasp** olmuşdur. Bu abidə ilk dəfə Əhmənilər dövrünə (e.ə. VI-V) aid edilir. Lakin tədqiqatçıların söylədiklərinə görə Arşakidilər dövründə (e.ə. 250 və

bizim eranın 224-cü illər) məhv edilmiş hissələri yeni materiallarla əvəz olunsa da nəticədə 3 kitabda formalaşdırılmışdır. Ərəb işğalı və Sasanilər dövründə Avestanın xeyli hissəsi məhv olmuşdur. **Angeli dü Perron** Avestanın müəyyən hissələri haqqında məlumat toplamış və ilk dəfə (1771-ci ildə) fransız dilinə nəşr etdirmiş və həmin vaxtdan da daha yaxşı tanındı. Avestanın əlyazmalarının dövrümüzə qədər gəlib çatan hissələrini qeyd etmək istərdim:

**1.Yaştalar** (ehtiram, mədh etmə). Burada allahlara həsr olunmuş dualarla yanaşı mifoloji ünsürlər vardır.

**2. Yasna** – dua etmə və ya sitayiş etmə kimi başa düşülür. Qurban vermə zamanı oxunan dualar toplusu.

**3. Qatlarda(himnlər və mahnılar)** Zərdüştü peyğəmbər kimi qəbul edilir.

4. **Vispered** – (Vispart – “hakimlərin hamisi”, “Allahların hamisi” dua xarakterli mahnıların toplusu.

**5. Vendidad** – (Videvdat – Divlər əleyhinə).

**6. Kurtak Apastak** (Kurtak-Avesta balaca, Apastak-Avesta böyük deyilən küllüyyatdan qanun) şər qüvvələrin dəf edilməsinə yönələn qanunlar və mərasimlər.

Avesta özü ikili (dualist) dünyagörüşündən ibarətdir. Əsas ideya bir-birinə zidd olan iki qüvvədən ibarətdir və mövcud olanla bu iki qüvvə arasındakı mübarizədən yaranır. Hər yerdə işıq, qaranlıq, xeyir, şər, olum, ölüm, ədalətlə haqsızlıq və s. hökm sürür. Avestanın qatlarında **Ahura-Mazda (Hörmüz) – xeyir allahı, digəri şər allahı olan Əhrimandir (Anhra-Manyu**). Xeyir allahı gerçəklikdə mövcud olan bütün yaxşılıqların, xeyirxahlıqların təcəssümüdür, şər allahı isə şərin, fəlakətlərin, dağıntıların, cinayətlərin mənbəyidir. Zərdüşt Ahura-Mazdanı kamil, müdrik hesab etdiyi üçün onu ali və vahid allah kimi elan edir. Bunu Zərdüşt digər allahları-od allahını, günəş allahını, su allahını və s. Ahura-Mazdanın təzahürü hesab etmişdir. Zərdüştün ardıcılları olan Ahura-Mazda tərəfdarları Şər allahını daim pislik, zorakılıq yayan düşmən qüvvələrlə mübarizə Avestada əks etdirilmişdir. Orada belə sual ilə müraciət olunur:

“Dünyanı hər şeydən çox kədərləndirən şey haradadır?” - sualına Ahura-Mazda belə cavab verir: “Şər allahının yaratdıqları daha çox sığınacaq tapdıqları yerdə” (Vendidad, III s. 32-33).

Avestada çox güclü triada prinsipinə əsaslanan zərdüştlük etikası daha çox mühüm əhəmiyyətə malikdir. “Mazdanın dediyi bu etik təlimdə üç qayda, dörd peşə, beş hökmdar vardır... Bu üç qayda nədən ibarətdir?

**1. Yaxşı fikirləşmək (xeyir fikir), 2. Yaxşı danışmaq (xeyir söz), 3. Yaxşı iş görmək (xeyir əməl)** (Yasna XIX 44-45). Bu prinsip daha da dəqiqləşdirilərək xeyir fikir, xeyir söz, xeyir əməl kimi qəbul edilmişdir. Bu cəmiyyətə bir əxlaqi-mənəvi çağırışdır ki, ey insanlar; a) Həmişə xeyirli və yaxşı düşünün, b) Həmişə xeyirlə düşünənlər öz fikirlərini xeyir sözlə ifadə edərlər, c) Nəticədə irəli sürülən xeyir söz xeyir əməllə başa çatır. Burada insanın mənəvi fəaliyyəti humanizm prinsipinə əsaslanaraq insanların xeyirli fikri və sözü xeyirxah əməllə nəticələnir. Humanizmliyin bu şüarı mənəvi inkişafın dialektik prinsipinə əsaslanır.

Alman filosofu Fridrix Nitşe özünün “Belə söyləmişdi Zərdüşt” adlı əsərində qeyd etmişdir ki, klassik alman filosofları özlərinin dialektik təliminin mahiyyətini və metodunu öyrənən əksikliklərin vəhdəti və mübarizəsi qanunun fəlsəfi prinsiplərinin işlənib hesablanmasında zərdüştçülük dünyagörüşündən xeyli bəhrələnmişdirlər.

Avestanın tədqiq edənlər belə fikir irəli sürürlər ki, zərdüştlük antik dövrün məhşur filosofu olan Demokritə öz təsirini göstərmişdir. Daha sonra antik dövrün filosofları Platon, Aristotel də bu təlim ilə yaxından tanış idi.

Hələ **Makedoniyalı İsgəndərin** işğalına qədər yunanlar yaxın Şərq ölkələrini qarış-qarış gəzmiş, həmin xalqların dinləri, adət-ənənələri və tanınmış xadimləri haqqında ətraflı bilik toplamışlar. Təkcə bunu qeyd etmək olar ki, həm yunan mifologiyasında həm də zərdüştlükdə allahlar **Ahura Mazda və Zevs** bir-birinə çox oxşayırlar. Onlar ancaq hər bir xalqın adət ənənə və psixologiyası ilə əlaqədardır. Məlumdur ki, hər bir dinin təbli-

ğində və yayılmasında onun tərəfdarları olduğu kimi zərdüştlüyün geniş yayılmasında **mağların** xüsusi rolu olmuşdur. Mağlar "muğ" sözündən olub**, Dayti çayının (indiki adı Araz) sahilində "Mugan düzündə"** yaşayan muğlar nəzərdə tutulur. **Y.V.Çəmənzəminli 1929-cu ildə "Xalq ədəbiyyatının təhlili"** adlı məqaləsində qeyd edir ki, Zərdüştün ruhaniləri olan mağlar qədim zamanlarda Muğanda yaşamışdır. Tarixin atası Heredot mağları Midiya qəbilələrindən biri kimi hesab etmişdir. **Aristotel "Fəlsəfə haqqında"** əsərində belə qeyd edir ki, mağlar hətta Misir ruhanilərindən də qədim olmuşdur və onların xeyr və şər qüvvələrinə inancları doğrudur. Heç kəs inkar edə bilməz ki, antik dövr fəlsəfəsinin formalaşmasında zərdüştlüyün və mağların böyük təsiri olmuşdur. Bunu bizə **Layertli Diogen, Heredot** və digər yunan filosoflarının əsərlərindən bizə aydın olur ki, Zərdüştün təlimi yunan fəlsəfi dünyagörüşünə xeyli təsir göstərmişdir.

**Məhəmməd Şəhrəstani** belə şərh edir: "Allah işığı yaratdı, onun ardınca kölgə hasil oldu. Çünki varlıqda zəruri olaraq ziddiyyət doğur". İşraqilik fəlsəfəsinin banisi **Şihabəddin Yəhya Sührəverdi** dualizmi qəbul etməsə də, Zərdüştlüyə böyük diqqətlə yanaşmışdır. O, **"İşıq heykəlləri"**adlı kitabında yaradanların yaratdıqlarının əsasında işığın olduğunu göstərir və qeyd edir ki, "hərəkətin səbəbi də işıqdır. İşraq (işıq saçma) ilə hərəkət qarşılıqlı münasibətdə bir-birini vücuda gətirən proses şəkildə götürülür". Belə nəticəyə gəlmək olar ki, işıq özü ilə birlikdə səs, əlaqə və bənzərlik qüvvəsini yaradır. **F.Q.Kursinkin** baxışlarına görə bu qüvvələr həm maddənin, həm də xassənin yaradıcısıdır. Bəs onda bənzətmə nədir? – Təbiətin qüvvəsidir. Məlumdur ki, təbiət tam qanunauyğun şəkildə özünün qanunlarından ibarətdir, hər an, hər saniyə, dəqiqə, saat, hər gün təbiətin qanunları ilə əlaqədədir. Məsələn, müəyyən faktlara müraciət edə bilərik. El bənzətməsinə görə Novruz bayramının I günü yaz, II günü yay, III gün payız, IV gün qış kimi başa düşülür. O zaman kəsiyində dünyaya gələn uşaqların xüsusiyyətləri və xarakteri həmin günlər ilə əlaqələndirilir və yaxud ana bətinində uşaq olan ana ilk dəfə

ailə üzvündən kimə baxsa, uşaq həmin ailə üzvünə oxşaya bilər. Daha bir bənzətməni də qeyd etmək olar ki, "ananın qolu yazda acılmış gülə toxunsa, uşağın da qolunda acılmış gülün izi ola bilər və ya göydə ulduz itəndən sonra üzümüzdəki sızaqlar eyni sürətlə yox ola bilər".

Qədim folklorşünas alim **Ceyms Freyzer** bu bənzətmələri homopatik magiya kimi qeyd edir. Belə söyləmək olar ki, bu qüvvənin təsiri altında insan beyninin düşünmə qabiliyyəti daha da güclənir və sanki, insan damarlarında axan qan çayda axan suya bənzəyir. Demək olar ki, insanla təbiət arasında əlaqə qüvvəsi daha da güclənir. Yuxarıda qeyd etdiyimiz bənzətmələri müqayisə etməklə yanaşı adi həyacanlar haqqında baş verən psixi hadisələri də misal göstərə bilərik, məsələn, yaxın adamın başına bir hadisə gələndə sanki onun duyğularında qeyri-adi həyacanlar yaranır. Qeyd etdiyimiz kimi bu qüvvələrin təsiri altında insanın psixi-mənəvi fəaliyyət dairəsi genişlənir. Belə bir qüvvənin təsiri altında Bolqarıstanlı qadın **Vanqa, Nastrodamus** kimi psixo-metrlər öz zamanlarında hadisələrin qabaqcadan baş verməsini sanki duya bilirlər. Bu hadisələrin şərhi ondan ibarətdir ki, ulu peyğəmbərlərimizdən olan Zərdüşt bu qüvvələrin sirrini görə bilirdi. Deyilənlərə görə, o peyğəmbər səviyyəsinə yüksələrkən özünün bir çox möcüzələrini yarada bildi. Bu möcüzə vasitəsilə canlıların dilini başa düşürdü və canlılara və təbiətin bəzi hadisələrinə uzaq məsafədən təsir göstərə bilirdi.

Ümumiyyətlə, müqəddəs külliyat olan "Avesta" Azərbay-canda yaranmış və azərbaycanlılara mənsub olan qədim tayfalar-dan qalan dini-fəlsəfi abidədir. Dünya filosofları "Avesta"nın qatlarında olan dil xüsusiyyətləri, yazı üslubu və s.kimi bir çox qiymətli mənəvi-dini-fəlsəfi baxışlardan bəhrələndilər. Zərdüşt-lük antik dövrün həm ideoloji, həm də dini fəlsəfi dünyagörüşünə çevrilmişdir.

Qədim Azərbaycanda **zərdüştlük** dünyagörüşü ilə bağlı digər dini-fəlsəfi cərəyanlar da mövcud olmuşdur. Onlardan biri də **"zərvanilik"** idi. Bu təlimi zərdüştlükdən fərqli olaraq hər şeyin başlanğıcını dualist mövqedən yox, monist mövqe

baxımından “Zaman” anlayışında axtarırdı. **“Очерки по истории азербайджанской философии”** kitabında qeyd olunur ki, zərdüştlüyün qatlarında olan “Şikand-qumaniq-viçar” (Şübhəni aradan qaldıran şərh) mənbəsindən aydındır ki, Zərvan tərəfdarları çalışırlar ki, özlərini dini ayinlərə riayət etməkdən uzaqlaşdırsınlar. Onlar şərh edirlər ki, bu dünyada baş verən hadisələrlə birlikdə sonsuz zamanın (zərvanakaranaka) təzahür meyarıdır. Məhz bu başlanğıc ilahi varlığın təcəssümü kimi qəbul olunmuşdur.

Daha sonra Zərdüştlüyün, xristianlığın və buddizimin elementlərini özündə yaşadan dini-fəlsəfi cərəyanlardan biri olan **“Manilik”** (III əsr) hesab olunurdu. Manilik təliminin banisi Şərqin həkimi, rəssamı, filosofu Mani olmuşdur. Onun Arsaqilər qəbiləsindən olduğu müəyyənləşdirilmişdir. Fransız alimi **R.Şpigel “Eranische Alterthumskunde Leipriq”** əsərinin I cilidində (səh.264) göstərilir ki, Manninin atası dindar olmuşdur və Babilistanda yaşayan bir çox təriqətçilərlə yaxından əlaqəsi olmuşdur. Ona görə də Mani onların ilkin dini dünyagörüşləri ilə yaxından tanış idi. R. Şpigelin (səh. 176) həmin əsərində göstərilir ki, Mani öz təliminin məzmunu istiqamətində **“Sirlər kitabı”, “İki Şahzadə haqqında”, “Praqmatayya” yaxud “Məktub”, “Həyat xəzinəsi” və “Nəsihətlər**” adlı dini-fəlsəfi ədəbiyyat nümunələrini yaratmışdır. Mani təlimi getdikcə genişlənməyə başlayır və hökümdar ilk dəfə onun dini təlimini qəbul edir və daha sonra ondan üz döndərir. Bununla da Mani ölkəni tərk edir və Şərq ölkələrini gəzdiyinə görə onun təlimi hətta Hindistanda, Çində, Mərkəzi Asiyada yayılmağa başlayır. 40 il sərgərdan həyat sürdükdən sonra 60 yaşında ölkəsinə qayıdır. Mənbələrdə (R.Ştigelin həmin kitabı səh. 176) göstərilir ki, Mani **V Şapurun** vaxtında qaçmış və yalnız **I Bəhram**ın zamanında qayıtmışdır. Belə xəbər verilir ki, Mani Şapurun hakimiyyətinin sonunda edam edilmişdir.

Mani təliminin mənəvi-etik prinsipinə nəzər salsaq görünür ki, asketik həyat tərzi, dünyanı seyr etməklə kifayətlənmək təbliğ olunurdu. R.Ştugel mənbələrinə görə maniliyin üç epik prinsipi

göstərilir. **Birinci qayda** (Siqnaculum oris) əsasən ağız (möhrüdür) təlimidir. Burada mütləq fikir və sözlərin təmizliyinə fikir verilir və ət xörəklərdən spirtli ickilərdən imtina olunmalıdır. **İkincisi** – (Siqnakulum manuum) təlim əməllərində təmizliyə riayət olunmalı, heyvan və bitki həyatının qorunması idi. **Üçüncü** – (Siqnakulum sinus) qaydasına əsasən insan ismətli olmalı və nikah həyatından imtina etməlidir. Manilər belə hesab edirlər ki, allah dünyada şər qüvvə yaratmamışdır. Deməli, dünyanı da allah yaratmışdır. Materiya özü zülmət olmuşdur, insan isə materiya ilə nurun qarışığıdır. Maniliyə görə "Nur" və "Zülmət" bir-birinə qarışmışdır. Mani hesab edirdi ki, torpaq, su canlıdır, ruhlar ölməzdir, ancaq onlar tez-tez dəyişirlər. Ölülərin dirilməsi inkar olunurdu. Maniyə görə Günəş və Ay qayıqdır. Onlar hər şeyi qəbul edir və işığa doğru qaldırır. İşıq onları Şərin qarışığından təmizləyir və sonra ruh yeni bədənə daxil olur.

Maniliklə bağlı olan bu mənəvi prinsiplərə nəzər saldıqda görürük bu təlim Azərbaycanda və digər ölkələrdə özünəməxsus bir mədəniyyət yarada bilmişdir. Lakin bununla yanaşı qeyd etmək olar ki, Sasanilər əvvəlcə maniliyə mane olmuş, hətta onu müadfiə etmişlər. Sonrakı gedişlərdə maniliyin sosial təbiətli bir təlim olması üzə çıxırdı. Daha doğrusu ictimai bərabərsizliyə görə bir mübarizə forması mövcud idi. Ona görə də bu təlim tədqiqatçı təlim kimi tanınırdı.

Azərbaycanda ictimai-siyasi fikir tarixində mövcud olan digər cərəyanlardan biri də **məzdəkilik** idi. Məzdək sasani hökmdarı I Qubadın dövründə şahlıqda müəyyən vəzifə aparmış, sonra baş kahin fəlsəfəsinə layiq görülmüşdü.

Məzdəklik də Maniçiliyin sosial təbiətinin müəyyən tələblərini təbliğ edərək, ictimai ədaləti bərqərar etmək istəyində oldular. Məzdəkin təlimi daha çox sosial mahiyyətli təlimə çevrilsə də mübarizəyə başladılar, lakin Məzdəki ideyaları həyata keçirilmədi, Məzdək və onun tərəfdarları edam edildi.

Məzdək təliminin mərkəzində manilikdə olduğu kimi işıq və qaranlığın mübarizəsi məsələsi idi. Manilikdə olduğu kimi bu təlimdə də ət yeməmək, nikahdan imtina etmək kimi mənəvi

prinsiplərin tələbləri qalmaqda idi. Onlar artıq qəbul etmişdilər ki, işıq allahı qalib gəlmişdir. Ona görə də işığa səcdə etmək lazımdır. Qaranlığın tərkibindən işığın nurlarını azad etmək lazımdır. Cəmiyyətin sosial ədalətlə idarə olunması ideyası buradan qidalanmışdır. Cəmiyyətdə olan ədalətsizlik qaranlığın tərkibinə aid edilmiş və bərabərlik haqq, ədalət kimi mənəvi keyfiyyətlərin işığa səcdə etmək timsalında ona aid edilməsi əsas amil kimi bu mübarizənin yaranmasına səbəb olmuşdur.

Məzdəkin heç bir əsəri bizə gəlib çatmamışdır. Lakin onun əlyazmasının bir parçasında göstərilir ki, "İşıq allahı" çox yuxarı qatda öz taxtında oturmuşdur. Ali varlıq dünyanı dörd qüvvə ilə idarə edir:

- **idrakın qüvvəsi;**
- **ağlın qüvvəsi;**
- **sayıqlığın qüvvəsi;**
- **sevincin qüvvəsi.**

Bu dörd qüvvə 7 vəzn vasitəsilə hər "iki dünyanı" idarə edir.

Məzdəkilərin ideyaları sonralar **xürrəmilər** tərəfindən qismən qəbul edilmişdir. Tarixi ədəbiyyatlarda "xürrəm" sözü müxtəlif mənalarda şərh edilmişdir. Bəziləri xürrəm sözünü "kef" və ya "kefcil" mənası kimi səciyyələndirmişdir. Lakin akademik **Ziya Bünyadov** "xürrəm" sözünün mənasını "atəş" sözü kimi dəyərləndirərək, şübhəsiz xürrəmilərin elmi və siyasi cəhətdən savadlı olması bunu bir daha sübut edir. Çünki 20 ildən artıq xilafətə qarşı "azadlıq mübarizəsi" aparan xürrəmiləri kefcil həyat tərzi keçirən adamlar kimi qələmə vermək düzgün olmazdı. **"Xürrəm" sözü "**Avesta"dakı "xürrəm" sözündəndir, mənası **"Mənəvi işıq"** kimi başa düşülürdü. İslama qədər Qədim Azərbaycanda fəaliyyət göstərən bütün dini-fəlsəfi təlimlər Yaxın və Orta Şərq xalqlarının mənəvi həyatında yeni bir dünyagörüşü formalaşırdırdı, hətta Avropada bəzi cərəyanların fəlsəfi-dini və ictimai-siyasi fikrin formalaşmasında böyük rol oynamışdı. Müasir dövrdə bu təlimlərin bir etiqad kimi aradan çıxarılmasına baxmayaraq onun ayrı-ayrı prinsipləri və dəyərləri hələ də

qalmaqdadır. Beləliklə deyə bilərik ki, Azərbaycan mədəniyyəti dünyanın aparıcı imperiyaları olan Bizans və Sasani dövlətlərinin yaratdıqları mənəvi dəyərlərdən də bəhrələnmişdir. Ona görə də belə bir qədim mədəniyyət mərkəzi olan Azərbaycanın indiki inkişaf səviyyəsi islamın qəbul edilməsi və mənimsənilməsi prosesinə güclü təsir göstərmişdir.

### 3. Qədim türk mifoloji dünyagörüşündə mənəvi anlamlar

İnsanın abstrakt idrakı zaman-zaman formalaşdıqca mifoloji məzmun kəsb edən müxtəlif anlayışlar yaranmışdır. Xüsusilə dünyanın mövcudluğuna aid olan mifoloji anlamlar varlıq haqqında meydana gələn arxaik fikirlər sistemi kimi həm qloballaşmış, həm də milli təfəkkür zəminində ilkin başlanğıcın səbəbini geniş mənada izah etməyə istiqamətlənmişdir. Get-gedə dünyanın tək Allah tərəfindən yaradılmasına ünvanlanan miflər tədricən fəlsəfi-teoloji baxışlar sisteminin formalaşmasına səbəb olmuşdur. Məsələn, suyun ilkin başlanğıc olması anlamı mifoloji məzmundan fəlsəfi baxışlar sisteminə qədər inkişaf etmişdir. Azərbaycan xalqına məxsus olan mifoloji mətnlərin birində qeyd olunur ki, lap qədimlərdə Allahdan başqa heç kim yox imiş. Yer üzü isə başdan-başa sudan ibarət olmuşdur. Sonradan Allah bu suyu lil edib onu qurudaraq torpağa çevirmiş və nəhayət həmin torpaqdan insanları yaratmış, onlara öz ruhundan can vermişdir.

Göstərilən mif həm suyun ilk başlanğıc olması, həm də insanların Allah tərəfindən lilləşdirilmiş sudan yaradılması anlamı fəlsəfi baxışlar sisteminə qovuşaraq qloballaşmışdır. Belə ki, müxtəlif fəlsəfi təlimlər suyu varlığın ilkin başlanğıcı kimi qəbul etmişlər. Suyun ilkin başlanğıc olması anlamı antik dövrdə Milet məktəbini yaradan Falesin əsas fəlsəfi baxışına çevrilmişdir.

Ən maraqlı cəhət odur ki, suyun ilk başlanğıc olması anlamı hələ eradan çox-çox əvvəl qədim türk xalqlarının kosmoqonik mifoloji baxışlarında da öz əksini tapmışdır. Bu da onu göstərir ki, dünyanın yaranmasına aid olan bir çox mifoloji

fikirlər hələ lap qədim dövrlərdən qloballaşmışdır. Onlar tədricən müxtəlif dövrlərdə dini təlim başçılarının, kahinlərin, öz dövrünün mütəfəkkirlərinin fəaliyyəti və təbliğatı nəticəsində dildən-dilə, eldən-elə yayılmışlar.

Müxtəlif tayfaların bir yerdən digər yerlərə miqrasiyası da mifoloji baxışların qloballaşmasına yardımçı olmuşdur. Məsələn, alimlər Amerika qitəsində yaşayan hindularla qədim türklərin mifoloji baxışlarında bir oxşarlıq aşkar etmişlər. Qədim türklərin dünyagörüşlərini öyrənən Azərbaycan alimi Vəli Həbiboğlu yazmışdır: "Hindu və qədim türk mifoloji baxışlarının qarşılıqlı təhlili aydın göstərir ki, onlar arasında daxili bir əlaqə, yaxınlıq vardır. Xüsusilə qam-şaman mədəniyyətinin kökləri bir bulaqdan su içmişdir. Təsadüfi deyil ki, Yakut, Altay və Anadolu şamanlarının inanclarında, mifoloji baxışlarında eyniliyi görmək olar".

Bu xüsusiyyət bəşəri mənəvi dəyərlərdə baş verən qloballaşmanın erkən xarakterik cəhətləri kimi qeyd oluna bilər. Eyni zamanda xalq tərəfindən yaradılmış bu mənəvi dəyərlər tərbiyə prosesinin tənzimlənməsində xüsusi əhəmiyyət kəsb etmişdir. Elə buna görə də tərbiyəvi əhəmiyyət kəsb edən mifoloji anlamlar bütün dünyada qəbul edilmişdir və mədəni qaynaqlar kimi daima təşəkkül tapmış, əxlaqi dəyərlər səviyyəsinə yüksəlmişdir. Məhz, mifoloji anlamlar əxlaqi-mənəvi dəyərlər səviyyəsində yüksəldikləri üçün qloballaşmış, arxaik dövrlərdən üzü bəri bir növ insanlığın beşik tərbiyəsinin əsası kimi həm idrakın, həm də idrakla nizamlanan mənəvi keyfiyyətlərin formalaşmasına təsir göstərmişdir.

Qəbul etmək lazımdır ki, insan ən səmimi, ən dərin duyğularını ilkin tərbiyə zamanında alır. Bu səbəbdən də bütün insanların sosial duyğularının kökü qədim dini- mifoloji anlamlardan qidalanır. Türk sosioloqu Ziya Göyalp qeyd edirdi ki, əslində ruhumuzun sosial duyğuları dinə, əxlaqa və bədii-estetik qaynaqlara bağlıdır. Qeyd olunan bu amillər isə bəşəridir, ünvansızdır və deməli qlobaldır.

Buradan belə bir nəticə çıxır ki, dini-mifoloji zəmində

formalaşmış-müxtəlif adət və ənənələr də əsasən tərbiyə funksiyasını yerinə yetirdiklərinə görə təkcə millilik çərçivəsində qalmamış, müxtəlif xalqlar arasında yayılaraq qloballaşır, onların əxlaqi mahiyyət kəsb edən cəhətləri millilikla dünyəvi dəyərləri bir-biri ilə qovuşdurur. Məhz bunun da nəticəsində dünyəvi anlam kimi qəbul olunan əxlaq tərbiyəsinin aşağıdakı komponentləri formalaşmışdır:

-vətənpərvərlik tərbiyəsi və əxlaqı;
-məslək və əqidəni formalaşdıran əxlaq tərbiyəsi;
-ailə münasibətlərini formalaşdıran əxlaq tərbiyəsi;
-cinsi münasibətləri formalaşdıran əxlaq tərbiyəsi;
-şəxsiyyətin fərdi keyfiyyətlərini formalaşdıran əxlaq tərbiyəsi.

Qədim türklərin dini-mifoloji dünyagörüşündə vətənpərvərlik tərbiyəsi xüsusi yer tutmuşdur. Vətənə məhəbbət duyğuları Göy Tanrının obrazında təcəssümləşdirilmişdir. İnsanlar yaşadığı eli Göy Tanrının yer üzündəki kölgəsi kimi başa düşmüşdür. Mifologiyaya görə Göy Tanrı türklər üçün ən uğurlu olan Eşq gecəsində bir "qızıl işıq" olaraq yerə enmiş və "uğurlu el"i yaradıb, onun artırılmasına səbəb olmuşdur. Elin yarandığı bu yerə "yurd" və ya "ölkə" deyilmişdir. Türklər Göy Tanrının yaratdığı "yurdu" ata-babalarının ruhlarının yaşadığı əbədi məkan kimi müqəddəsləşdirmiş, onun unudulmasını əxlaqa sığmayan amil kimi qiymətləndirmişlər. Qədim türk başqa yerə miqrasiya etdikdə belə doğulduğu yurdu müqəddəs ana qucağı hesab etmişdir.

Ən maraqlı cəhət odur ki, yurda və ölkəyə aid olan anlamlar Türk xaqanları tərəfindən həmişə müqəddəs anlam və ya qanun formasına salınmışdır. Məsələn, qədim Hun dövlətinin qurucusu olan Mete haqqında yaranmış xalq hekayətlərinin birində deyilir ki, Tatar hökmdarları Hunlarla müharibə etmək üçün bəhanə olaraq Metenin ən sevimli atını istəmişdir. Mete ölkəsini

müharibənin məhrumiyyətlərindən qorumaq üçün sevimli atını Tatar xaqanına göndərmişdir. Lakin Tatar xaqanı müharibəyə səbəb ola biləcək yeni bir tələb kimi Metenin ən sevimli qadınını da istəmişdir. Bu halda isə Mete:

-"Mən vətənimi öz eşqimin uğrunda tapdalada bilmərəm" deyərək sevgilisini düşmənə verməyə razı olmuşdur.

Belə olduqda Tatar xaqanı Hun ölkəsindən heç bir məhsulu, "tarlası, meşəsi, yeraltı sərvəti, əhalisi olmayan bir torpaq ərazisi istəmişdir. Metenin çağırdığı bu qurultay da "faydasız" torpaq sahəsinin tatarlara verilməsinə etiraz etməmişdir. Lakin Mete qurultayın qərarına etiraz edərək:

-"Vətən mənim mülküm deyildir, məzarda yatan atalarımızın və qiyamətə qədər doğulacaq törəmələrimizin bu mübarək torpaq üzərində haqları vardır. Vətəndən istər, bir qarış qədər olsun yer verməyə heç kəsin səlahiyyəti yoxdur. Buna görə də müharibə edəcəyik. Bax indi mən atımı düşmənə doğru sürürəm. Ardımca gəlməyən edam olunacaqdır." deyərək tatarların üzərinə qoşun yeridir.

Hun hökmdarı Mete haqqında yaranan bu xalq hekayəti müasir dövrümüz üçün də çox böyük tərbiyəvi əhəmiyyətə malikdir. Bu mövcud mifologiyanın vətənpərvərlik əxlaqi dəyəri torpaqlarının 20%-i erməni işğalı altına düşmüş xalqımız üçün də örnək mənbəyidir.

Digər tərəfdən Elin təcəssümü kimi simvolik məna daşıyan Göy Tanrı sülh dininin yayıcısı kimi də qəbul edilir. Məhz bu səbəbdən də türklərin tarixən apardıqları bütün savaşlar əslində nəticə etibarı ilə dünyada sülh yaratmaq məqsədi güdmüşdür. Buna misal olaraq Hunların ilk elxanı olan Metenin davranışını göstərmək olar. Mete Çini fəth etsə də onun imperatoru olmaqdan imtina etmişdir. Atilla da qalibiyyətli hücumları zamanı sülh təklifindən imtina etməyərək müharibəni dayandırmışdır.

Məslək əxlaqı da türkdilli ölkələrdə, o cümlədən Azərbaycanda davam edən insan inkişafına, onun mənəvi tərbiyəsinə böyük təsir göstərən qədim miflərdən və folklor nümunələrindən qaynaqlanır. Məslək əxlaqını formalaşdıran mifoloji-dini

anlayışlar insanları mərdlik duyğuları ilə zənginləşdirmiş, humanist mənəvi dəyərlər formalaşdırmışdır. Bunun da nəticəsində tamahkarlığa, paxıllığa, riyakarlığa olan meyllərin qarşısı qismən də olsa alınmışdır. Dini-mifoloji anlamlar axirət mühakiməsi inamını yaratmaqla insanların davranış mədəniyyətinin inkişafına təsir etmişdir.

Qədim Misir, Şumer və Akkad miflərində məsləyə, əqidəyə, qanun şəklinə düşmüş davranış norması kimi yanaşılmışdır. Qədim mifoloji təfəkkür təsiri ilə insanlar bir-birinə qarşı gərgin mübarizə aparmaqdan, münaqişələr burulğanına düşməkdən çəkinmişlər. Məsələn, Qədim Şumer və Akkad miflərində hakimiyyət uğrunda mübarizələr olsa da onlar amansız münaqişə səviyyəsinə yüksəlməmişdir. Mifoloji təfəkkürə əsaslanan teoloji və kosmoqonik adətlər onların məslək və əqidəsində sabitliyin qorunmasına imkan yaratmışdır. Bu xüsusiyyətlər Azərbaycan-türk eposu olan "Kitabi-Dədə Qorqud"da mövcud olan mifoloji anlamlarda öz əksini tapmışdır. Burada "olumlu, ölümlü" dünyada milli ənənəyə, məslək əxlaqına uyğun olan şərəfli, namuslu, ləyaqətli ömür yaşamağa üstünlük verilir. Məhz, eposun bu xüsusiyyətlərini nəzərə alan Azərbaycan alimləri "Kitabi-Dədə Qorqud"u əxlaqi-etik fikrin əsas qaynaqlarından biri kimi qiymətləndirirlər.

"Kitabi-Dədə Qorqud"da ailə əxlaqının formalaşmasına da geniş yer verilmişdir. Məsələn, burada qadınların keyfiyyət xüsusiyyətləri nəzərdən keçirilir, onların tipoloji təhlili verilir. "Kitabi-Dədə Qorqud"da deyilir: "Arvadlar dörd cürdür: birisi soy soldurandır (nəsil korlayan); birisi toy doldurandır; birisi evin dayağıdır; birisi necə desən bayağıdır." Dədə Qorqud dünyagörüşünə münasibət bildirən tanınmış Azərbaycan psixoloqu Əkbər Bayramovun fikrincə qadın tipləri bu eposda etnik stereotiplər əsasında təhlil olunmuşdur, çox ehtimal ki, dünya alimlərinin müasir təhlilləri də məhz bu qədim mifoloji təfəkkür əsasında formalaşmışdır.

Qədim türk mifoloji anlamından irəli gələn fikrə görə ailə tanrısı ata ocağına sığınıb, ata ocağında yaşayır. Məhz ailə

tanrısının ata ocağında yaşadığını inanc kimi qəbul edən türklər bu ocağın odunu əbədi olaraq qoruyub saxlamağa çalışmışlar. Həmişə əsasən ailənin kiçik oğlu ailənin od qoruyucusu kimi yurdda saxlanılmışdır. Eyni zamanda bütün ailə üzvləri müəyyən vaxtlarda ata ocağına toplaşmış, hörmət əlaməti olan ayinlər icra etmişlər.

Bir çox alimlər belə hesab edirlər ki, qədim türk mifologiyası dini baxışlarla vəhdət təşkil etmişdir, onlar bir-birini tamamlamışdır. Bəzi alimlərin baxışlarına görə mifologiya ilə dini bir-biri ilə qarışdırmaq düzgün deyildir.

Lakin bir həqiqət məlumdur ki, mifologiya lap qədim zamanlardan insanların dünyagörüşü olmuş, onların əxlaqi meyarlarının inkişafına güclü təsir etmişdir. Mifoloji baxışlar zəminində ailə-məişət münasibətləri də formalaşmışdır. Ailənin qorunması, ailəyə kənardan edilən təcavüzlərin qarşısının alınması qədim mifoloji anlamlarda kifayət qədər geniş yer tutmuşdur. Məsələn, Azərbaycan türklərinə məxsus olan bir mifdə Günəş Ayın sevgilisi kimi təsvir olunur. Həmin mifologiyada göstərilir ki, Günəş öz sevgilisi Ayla görüşə gedərkən divlər və cinlər onu görüb yolunu kəsirlər və Günəşi oğurlamaq istəyirlər. Lakin Ay vaxtında bundan xəbər tutaraq divlərin və cinlərin üstünə hücum çəkir, onları öz sevgilisi Günəşdən uzaqlaşdırır. Məhz bu tipli mifoloji anlamlardan irəli gələrək uzun əsrlər boyu Günəşin qabağının tutulmasını cinlərin təcavüzü ilə izah etmişlər. Günəşi cinlərin və divlərin hücumundan çəkindirmək üçün onları müxtəlif vasitələrlə qorxutmağa çalışmışlar.

Qədim miflərdə Ay və Günəş insan obrazında təsvir edilmişdir. Miflərin birində qeyd olunur ki, bir zamanlar Ayla Günəş yerə yaxın olmuşlar. Lakin, bir gün Günəş çırpı yığmaq üçün göyə çıxır. Günəş gec gəldiyi üçün sevgilisi Ay da onu axtarmaq üçün Göyün üstünə qalxır. Bu vaxt Göy guruldayır, ildırım çaxır və Göy haray-həşirlə Ayla Günəşi də götürüb yerdən uzaqlaşdırır.

Ümumiyyətlə türklərin kosmoqonik miflərində ildırım da Göydə yaşayan və yerdəki adamlara ziyan vurmaq istəyən göy

insanlarının obrazı kimi təcəssümləşdirilir. Məhz bu anlama əsaslanan cənubi tuvinlər Göyün özünü də müqəddəsləşdirərək “ilahi tanrı” adlandırmışlar. Onların təsəvvürünə görə 99 qatdan ibarət olan Göydə 999 Tanrı mövcuddur. Hər qatın isə öz Günəşi və Ayı vardır.

Qədim türk miflərində Göy qurşağı da 7 bakirə qıza bənzədilir. Bu mifologiyada zorla xana ərə vermək meylinə qarşı çıxılır. 7 bacı sevmədən xana ərə getməkdən ölümü üstün tuturlar. Onlar öz ölümləri üçün tanrıya yalvarırlar. Tanrı isə bu qızların arzusunu yerinə yetirərək onları 7 göy qurşağına döndərir. Təbii ki, bu qeyd olunan mifologiyada əxlaqa da xüsusi yer verilmişdir. Bakirə bacılar xanla cinsi əlaqəyə girməkdən boyun qaçırmış və mənəvi əxlaqın tələbinə uyğun olaraq ölməyə üstünlük vermişlər.

Yakutiya türkləri isə Ayzit adlı bir doğum tanrısı haqqında mif yaratmışlar. Həmin mifologiyaya görə ilahə Ayzit qadınlar doğarkən onlara yardım edər, üç gün yenicə dünyaya uşaq gətirmiş qadının başı üstə dayanar, qadın özünü yaxşı hiss etdikdən sonra yanındakı dərə, tarla, ağac, çiçək pəriləriylə göyün üçüncü qatındakı sarayına qayıdar.

Ayzit həm də namus ilahəsi kimi də təsir gücünə malikdir. O, ismətini qorumamış qadınlara yardım etməkdən imtina etmişdir. Bu mifoloji faktor sübut edir ki, qədim türklərdə əxlaqa yüksək qiymət verilir, əxlaqsızlığa isə dini-mifoloji anlamlar zəminində yasaq qoyulmuşdur.

Cəmiyyətdə şəxsi əxlaqın formalaşmasında da mifologiyadan ənənəvi olaraq bir vasitə kimi istifadə olunmuşdur. Məsələn, qədim türklər şəxsiyyətin yüksək olmasına təsir etmək üçün ruhlar haqqında yaranmış miflərin tərbiyəvi əhəmiyyətinə üstünlük vermişlər. Yakutiya türklərinə görə insanda “tin” adlanan maddi ruhla yanaşı “eş, sur, qut” adlı mənəvi ruhlar da vardır. “Eş” canlı və cansız varlıqlarda olduğu halda, “sur” ruhu yalnız nəfəs alan varlıqlara məxsusdur. “Qut” isə insan və atda mövcuddur. “İnsanın qutlu olması” kəramət və şəxsiyyət sahibi olmaq deməkdir. Qurani-Kərimdə “Adəm oğullarını əzizlədik” kəlamı mövcuddur. Bu da “insanları qutlu etdik” deməkdir. Əski

türklərin mifologiyasına görə insanların ruhu üçüncü qat göydə olan süd gölündə alınır. Türk şamanlarına görə insan ruhunun daim ideala (ülküyə) yüksəklərə üz tutması əslinin (kökünün) göyə məxsus olmasından imiş. Bundan başqa, hər bir millət ortaya çıxarkən, Göy Tanrı bir "qızıl işıq" şəklində yer üzünə enərək, o milləti öz ruhunun gözəl nəfəsi və işığının nüfuzu ilə qutlu edərdi.

Göründüyü kimi ictimai-etik, fəlsəfi, pedaqoji, psixoloji görüşlər öz köklərini dini-mifoloji anlamlardan olaraq millətin, xalqın dünyagörüşünün, xarakterik xüsusiyyətlərinin, təfəkkürünün formalaşmasında böyük rol oynayır və buna görə də bəşəri dəyərlər kimi qiymətləndirilir.

Faktlar bir daha göstərir ki, mifoloji anlamlar hansı millət və xalq, etnik tərəfindən asılı olmayaraq qloballaşmış və qloballaşdıqca əbədiləşmişdir. Onları qloballaşdıran və əbədiləşdirən onların əsasən əxlaqi məzmunu olmuşdur.

# III FƏSİL

# ANTİK DÖVRDƏ FƏLSƏFƏNİN YARANMASI VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

1. **Qədim yunan fəlsəfəsinin birinci mərhələsi**
2. **Qədim yunan fəlsəfəsinin ikinci mərhələsi**
3. **Qədim yunan fəlsəfəsinin üçüncü mərhələsi (Ellinizm mərhələsi)**
4. **Qədim yunan fəlsəfəsinin dördüncü mərhələsi (Roma mərhələsi)**.

## 1. Qədim yunan fəlsəfəsinin birinci mərhələsi

Biz qədim dünya fəlsəfi fikrinin qarşımıza qoyduğu müddəaların dəyərlərini aydınlaşdırmaq üçün bizim eradan əvvəl təqribən VI əsrdə yaranmış yunan fəlsəfi məktəblərinə müraciət etməliyik. Yunan şəhər-dövləti (polis-yunanca şəhər) bir çox idarəetmə və coğrafi şəraitinə görə digərlərindən fərqlənirdi. Bizim eradan əvvəl V əsrdə Afinada 300 min əhali var idi. Onlardan təxminən 100 mini kölələr idi.Təqribən siyasi hüquqlara malik olan əhali var idi. Məlumdur ki, coğrafi relyefə görə yunan polisləri bir-birindən dənizlər və dağlar vasitəsilə ayrılırdılar. Ölkədə sənətkarlıq, ticarət və kənd təsərrüfatının inkişafı güclü idi.

Ölkənin siyasi quruluşu ilə bağlı deyə bilərik ki, Afinada bilavasitə demokratiya mövcud idi. Siyasi sferada qanunlar və azadlıq siyasi ideal kimi səciyyələnirdi. Bu aspektdən azadlıq hamı üçün qanunauyğun olan həyat, köləlik isə hüquqsuzluq çərçivəsində mövcud olan həyat kimi qəbul edilirdi. Afina demokratiyası birdən-birə onlar üçün elan olunmadı. E.ə.IV əsrdə müəyyən narazılıqların nəticəsi olaraq yarandı. Yunanıstanda baş verən tarixi və siyasi proseslərin rəngarəngliyi cəmiyyətin mənəvi həyatında da özünü göstərdi. İnsan, təbiət, idrak, dialektika, dünyanın ilkin əsası, mənəvi-əxlaqi dəyərlər, siyasi idarəçilik

kimi problemlər yunan fəlsəfəsinin çox aspektliliyini təmin etdi. Bizim eyni zamanda yunan fəlsəfəsinin Afinaya qədərki inkişafının əsas xüsusiyyətlərinin şərhi və bunlar haqqındakı biliklərimiz bir az məhduddur. Onlar haqqında məlumatlar bizə yalnız fraqmentlər və ya onlar haqqında deyilənlər gümanlara və ya da hansısa yunan filosofunun  şərhi əsasında bizə gəlib çatmışdır.

Yunan fəlsəfəsinin **birinci mərhələsi Sokrata qədərki mərhələ** (e.ə. VII-VI əsrlər) adlanır. Birinci mərhələdə **Milet məktəbi, Heraklit, Eleya və Efes məktəbləri** və onların nümayəndələri nəzərdə tutulur. Bu mərhələ əlbəttə Milet məktəbinin fəaliyyəti ilə başlayır. Məktəbin nümayəndələri **Fales, Anaksimandr** və **Anaksimen** olmuşdur. Bu məktəbin fəaliyyəti dövründə aşağıdakı suallara cavab axtarılır: 1. Dünyanın ilkin əsası (ilkin element, daimi element, ilkin material, yəni yunanca arche) nədir və dünya ondan qurulmuşdur? 2. Dəyişikliklər necə və ya hansı qaydada baş verir? – sualı yunan fəlsəfəsinin fundamental problemlərindən birinə çevrilmişdir.

Yuxarıda nəzərdən keçirilən suallara əsasən qeyd etmək olar ki, bu sualların cavabını təbii-elmi xarakter baxımından müəyyən edə bilərik. Ona görə də biz **Falesi** birinci filosof və ya ilk alim adlandıra bilərik. Bu dünyagörüşü baxımından demək olar ki, mif çərçivəsində olan təfəkkürdən sanki məntiqi təfəkkürə bir keçid başladı.

Fales (b.e.ə. 625 və 547) günəşin qabaqcadan tutulmasını həndəsi biliklər, riyazi müddəalar, günəş saatına görə vaxtın dəqiq müəyyənləşməsi, təbabət və s. kimi biliklərdən çox məlumatlı idi. Onun fəlsəfi və elmi əsərləri barədə az şey söyləyə bilərik. Çünki onun haqqında məlumatlar və biliklər digər filosoflar tərəfindən söylənilmişdir. Məsələn, **Aristotel** deyir ki, özünün axtarışında olduğu problemlərin həllinə görə onu fəlsəfənin banisi hesab etmək olar. Aristotel bir daha qeyd edirdi ki, "Fales güman edir ki, ilk başlanğıc sudur (və ya mayedir), yəni hər şey sudur." Əgər biz çox sadə şəkildə düşünsək ki, "Hər şey sudur" müddəası çətin ki, özündə qiymətli informasiya daşısın və mənasız olduğunu düşünənlər də ola bilər. Amma

Fales bu halda nəyi nəzərdə tuturdu? Əslində biz bu müddəanı arqument və nəticələr əldə etmək yolu ilə onun mənasını dərk edə bilərik. Fales başa düşürdü ki, dəyişikliklər daim mövcuddur və həmişə müşahidə olunur ki, suda yaranan və suda yox olan çoxlu canlılar və ya cansızlar var. Balıqlar və ya digərləri suda doğulur və sonra orada da ölürlər. Çoxlu maddələr suda əriyib yox olurlar, ya da su buxara və buza çevrilir. Falesin müddəasına görə kainatda suyun dəyişikliyini belə bir qrafik əsasında qurmaq olar.

Qeyd etdiyimiz müddəalar və məsələlər sözsüz ki, həm fəlsəfi və təbii-elmi mahiyyət daşıyır. Belə nəticəyə gəlmək olar ki, Fales öz dövrünə görə həm təbiətşünas və həm də filosof kimi çıxış etmişdir.

Milet məktəbinin digər nümayəndələri **Anaksimandr** (b.e.ə. təqribən 610-546) və Anaksimen (e.ə. təqribən 585-525) Falesin fəlsəfi dünyagörüşünün davamçısı idi. Anaksimandrla bağlı əsərlər və ya əlyazmalar bizə gəlib çatmamışdır, ancaq bir fraqment və Aristoteldən olan şərhlərlə tanış ola bilərik.

Anaksimandr Falesin su ilə bağlı olan müddəasına inandırıcı bir fakt tapa bilmədi. Lakin o dünyanın ilkin əsasının apeyron (aperion) olduğunu söyləmişdir. Anaksimandra görə ilkin başlanğıcın yaranışını məkan və zaman baxımından qeyri-müəyyənlik və hüdudsuzluq baxımından izah etməyə çalışmışdır.

Belə düşünmək olar ki, Aksimandr konkret olaraq hansısa substantiv elementin adını çəkmir, sanki o nəyisə itirirdi. Çünki apeyron sudan fərqli olaraq axı müşahidə olunmur. Anaksimandr elmin emprik tələbini qura bilmədi.

Milet məktəbinin üçüncü nümayəndəsi olan **Anaksimen** qeyd edirdi ki, su özünün dəyişilmiş formasına keçərkən bunun hansı yolla mümkün olduğunu Fales izah etməmişdir. Lakin Anaksimen qismən bu suala cavab axtarmağa çalışmış və qeyd etmişdir ki, "hava" ilkin əsas kimi götürülə bilər. O, izah edir ki, "hava" soyudularaq qatılaşır və suya çevrilir və sonrakı mərhələdə yenə də soyudulma zamanı qatılaşaraq suya və ya torpağa çevrilir. Beləliklə Anaksimen də ilkin başlanğıcın axtarışında bir-

birinə keçidləri haqqında müəyyən bir təəssürat yaratdı. Hava qızdırıldıqda seyrəlir və oda çevrilir.

Bütün bunlara baxmayaraq Anaksimenin bu fəlsəfi dünyagörüşünü müasir terminlərlə şərh etmək olar ki, ilkin əsas müəyyən aqreqat halları (buxar, hava, su, buz, torpaq) temperaturla müəyyənləşir. İstiliyin təsiri ilə substantiv elementin sıxlıq ölçüsü ilə mahiyyəti üzə çıxır. Milet məktəbi nümayəndələrinin bütün bu tezisləri son dərəcə səciyyəvi bir ümumiləşmədir.

Milet məktəbinin əldə etdikləri məntiqi sonluq ondan sonra gələn yunan filosoflarının ikinci nəsli tərəfindən davam etdirildi. Birinci nəsil naturfilosoflar dəyişikliklərin mövcudluğunu qəbul edirdilər. Lakin ikinci nəsil naturfilosoflar əvvəlki dəyişikliklərlə bağlı olan tezisləri bir növ şübhə altına alaraq ümumiyyətlə dəyişikliyin mövcud olub-olmamasını sübut etməyə çalışdılar. Bu suala **Heraklit**, daha sonra **Parmenid** cavab verməyə çalışdı.

Heraklit Efesli liman şəhərində Falesdən təqribən 80 il sonra (e. ə. 500-cü illər) dünyaya gəlmiş, qapalı, kəskin bir filosof kimi yaşamış və az miqdarda fraqmentləri bu dövrə gəlib çatmışdır. Bir fraqmentdə (D:34) göstərilir ki, bir şeyi başa düşməyənlər kar olanlara oxşayırlar, "olduqları yerdə də yoxdurlar".

Heraklitin belə bir fəlsəfi müddəası "hər şey fasiləsiz dəyişiklik vəziyyətindədir" ideyasını dilin köməyi olmadan ifadə edə bilmərik. O, qeyd edir ki, bu prosesi müəyyən zaman intervalında müəyyən edə bilərik və bu aşağıdakı tezislərə uyğun olaraq baş verə bilər:

1. Fraqment D:91-də göstərilir ki, "eyni çaya iki dəfə daxil olmaq olmaz və cansız təbiəti iki dəfə eyni vəziyyətdə yaxalamaq olmaz". Belə nəticə əldə etmək olar: hər şey fasiləsiz dəyişiklik vəziyyətindədir.

2. Fraqment D:30- da qeyd edilir ki, "Kosmos mövcud olan hər şey üçün eynidir, nə Tanrı tərəfindən, nə də insan tərəfindən yaradılmamışdır, amma həmişə canlı bir od olmuşdur, oddur və əbədi olaraq od olaraq qalacaqdır, meyarına uyğun olaraq bəzən alışaraq və bəzən də sönərək" - əsas nəticə: dəyişiklik dəyişməz qanuna (loqos) uyğun olaraq baş verir.

3. Fraqment D:8-də göstərilir ki, “doğulan ziddiyyət bir yerə toplanır, ayrı-ayrı musiqi səslərindən mükəmməl harmoniya yaranır, hər şey konflikt sayəsində baş verir”. Əsas nəticə: bu qanun əksiklərin qarşılıqlı təsirini özündə ehtiva edir.

4. Əksliklərin bu qarşılıqlı təsiri bir bütöv olaraq harmoniyanı doğurur (Heraklit təlimində dialektika momentlərinə toxunulur).

Ümumilikdə Heraklit təlimindən belə bir fəlsəfi baxış əldə olunur ki, hər şey əks qüvvələrin təsiri altında fasiləsiz dəyişikliklərə məruz qalır. Bütün dəyişikliklərin əsasını odla müqayisə edir və odda axtarırdı və həmçinin “od” daim hərəkətdədir. Bütün bu deyilənlər onu göstərir ki, Heraklit “kortəbii dialektika”nın əsasını yaratdı.

Heraklit varlığın mövcudluğu və dərk edilməsi ilə bağlı müəyyən mühakimələr irəli sürmüşdür. O, göstərirdi ki, dünya dərk olunandır və bu hisslər vasitəsi ilə həyata keçirilir. Hiss üzvləri fərdi qaydada məlumatlar verir və burada əsas məqsəd “loqos”un dərk olunmasıdır.

Antik yunan fəlsəfi fikir tarixində və onun inkişafında Eley məktəbi (e.ə. VI-V əsr) xüsusi rol oynamışdır. Məktəbin nümayəndələri **Ksenofon Kolotonlu (e.ə. 565-470), Parmenid Eleyli (e.ə. 540-470) və Zenon Eleyli (e.ə. 490-430)** olmuşdur.

Parmenidin həyatı ilə tanış olduqda aydın olur ki, o öz dövründə hörmətli insan olmaqla o, öz doğma şəhərinin ictimai və siyasi həyatında, əsasən qanunların hazırlanmasında fəal iştirak etmişdir. Onun fəlsəfi görüşləri “Təbiət haqqında” poemasında öz əksini tapır və bu poema özü iki hissədən “Həqiqətin yolu” və “Mülahizələrin yolu” adlı hissələrdən ibarətdir. Parmenid bildirirdi ki, yer kürə şəklindədir. Kainatın əsasını “od və torpaq” təşkil edir. Allahın özünün də kürə şəklində olması fikri Parmenid tərəfindən irəli sürülmüşdür.

Parmenidin təlimində zəka və hisslər arasında olan əlaqələrin sistemliliyi müəyyənləşdirilmişdir. Onun fikrinə görə zəka varlığı nəsə bir şey kimi qavrayır, çünki, hisslər bizə qeyri-real olanı çatdırır. Onun fəlsəfi dünyagörüşündə mövcud olan birdir,

vahiddir, çoxluq mövcud deyildir**,** vahid reallıq yalnız və yalnız zəka vasitəsilə dərk olunur.

Milet məktəbinin ikinci nümayəndəsi **Ksenofon** olmuşdur. Ksenofonun fəlsəfi baxışları "Kolofonun əsasları" və "Eleyə çıxış" adlı əsərlərində öz əksini tapır. Onun təlimində dünyanın yaranması, allahın mövcudluğu və dünyanın idarə edilməsində onun rolu kimi məsələlər şərh olunmuşdur. O, Allahın varlığını inkar etmir, vahid Allah hər şeyi görür və eşidir, ancaq hərəkət etmir fikri ilə dünyanı idarə edir. Ksenofon Allah dedikdə sanki səmanı nəzərdə tuturdu. O da **"Allahın mahiyyəti şarabən-zərdir"** deyə qəbul olunan fəlsəfi fikri təsdiq edir. Fəlsəfi baxışlara əsasən ilk dəfə onun tərəfindən belə fikir söylənilmişdir ki, allahlar əslində insan təxəyyülünün məhsuludur. Onun daha çox fərqlənən şüarı belədir: "Hər şey, daha dəqiq desək kainat vahiddir", "Yeganə allahdır", "Allah hər şeyi görür, hər şeyi eşidir, lakin nəfəs almır. O, ağıldır, təfəkkürdür, əbədiyyətdir". O, insanın mənşəyini belə şərh edirdi: "Biz hamımız, torpaqdan, sudan doğulmuşuq".

Ksenofon öz sələfləri arasında ilk dəfə olaraq mifologiyanı tənqid etmişdir. Qeyd etmişdir ki, insanlar allahları özlərinə oxşar yaratdılar və hansısa bir heyvan allaha inanmasaydı, onda allahları da bu və ya digər halda heyvan şəklində təsəvvür etmək olardı. Ksenofon digər filosoflardan fərqli olaraq, təklik və çoxluq, eynilik və dəyişkənlik problemlərini tədqiq etməmişdir. Lakin bütövlükdə onun fəlsəfi baxışları dialekt münasibət haqqında ideyaların qoyuluşuna kömək etmişdir.

Məktəbin üçüncü nümayəndəsi olan **Eleyli-Zenon** da Kse-nafonun fəlsəfi müddəalarında olduğu kimi dəyişiklik haqqında məntiqi qəbul etmirdi və bu problemin həllini məntiqi paradokslarda axtarırdı. Bu paradokslarda o, hərəkətin dialektik elementini irəli sürmüş və varlığın ziddiyyətsiz mahiyyətini şərh etməyə çalışmışdır. Parmenidin tələbəsi olan Zenon "insanların torpaqdan əmələ gəlməsi" ideyasının tərəfdarı olan müəlliminin fəlsəfi baxışlarını müdafiə etməyə çalışmışdır. Onun fikrincə təbiətdə hər şey istidən, soyuqdan, qurudan, rütubətdən və onların

bir-birinə kombinasiyasından yaranır. Zenon varlığın dərki məsələsini hissi idrak əsasında deyil, əql vasitəsilə dərk olunduğunu deyirdi. Gerçəkliyin dərk olunmasını hissi idrak yarada bilməz və nəticədə çoxlu sayda ziddiyyətlərin yaranmasına səbəb olar. Zenon Eley məktəbinin fəlsəfi təlimini özünün aporiyaları (yun. aporia - çıxılmaz vəziyyət) ilə izah edirdi. Onun **"Dixtomiya", "Axilles və tısbağa", "Ox", "Stadion"** kimi aporiyaların açıqlanmasında Zenon hərəkəti fasiləliklə fasiləsizliyin vəhdəti, məkan və zaman daxilində baş verən hadisə kimi şərh etməyə çalışmışdır. Zenon aporiyalar vasitəsilə varlığın vahid və hərəkətsiz olduğunu sübut etməyə çalışırdı. Onun "Axilles və tısbağa" adlı aporiyası Axilles və tısbağanın qaçış üzrə yarışı belə bir şəkildə illüstrasiya olunur: Qaçış zamanı eyni anda onlara start verildi. Amma təsəvvür edək ki, tısbağa Axillesdən bir qədər qabaqda idi. Qəbul etmək olar ki, Axilles tısbağaya nisbətdə ondan 50 dəfə sürətlə qaçır. Ancaq nisbət sürəti ilə qaçan insan - Axilles tısbağaya çata bilməz. Çünki, Axilles tısbağanın olduğu nöqtəyə çatana qədər tısbağa yenə müəyyən bir məsafə qət edəcək və sonsuz olaraq davam edəcəkdir. Buradan Zenon belə bir nəticəyə gəlir ki, ən tez hərəkət edən varlıq ən yavaş hərəkət edən varlığa çata bilməz. Zenonun səhvi ondan ibarətdir ki, o hərəkəti məkan və zaman nisbətində qəbul etmir, daha doğrusu sanki zamanı məkandan ayırır. Eley məktəbinin nümayəndələri Heraklitin fəlsəfi dünyagörüşünün əsası olan kortəbii-dialektik baxışına və Milet məktəbinin dünyanın ilkin əsası ilə bağlı olan fəlsəfi müddəalarını qəbul etməmiş, həqiqi varlığın dəyişkənliyinin dəyişməz mahiyyəti haqqında və gözlə görünən bütün dəyişikliklərin və fərqlərin xəyaliliyi haqqında təlimi irəli sürmüşlər.

Sonralar bu təlim Platonun mənbələrindən biri olmuşdur. Lakin Zenon aporiyalarının metafizik xarakterlərinə baxmayaraq, bütövlükdə Eley məktəbinin nümayəndələri dünyanın maddiliyi ilə bağlı fikirləri qəbul etmişlər və bu da dialektikanın sonrakı inkişafında müsbət rol oynamışdır. Hərəkətin ziddiyyətli xarak-

terinin müəyyənləşməsində və məntiqi anlaşmanın ifadə olunması probleminin açıqlanmasına kömək etmişdir.

Yunan fəlsəfəsinin inkişaf mərhələsində bir-birinə əks olan iki tendensiyanı görə bilərik: 1) hər şey fasiləsiz dəyişməkdədir; 2) dəyişiklik qeyri-mümkündür. Hər iki müddəa tənqidi yanaşma nəticəsində 3-cü nəslin filosofları olan **Empedokl (Empedokles), Anaksaqor (Anaxagoras), Denearit (Demolritus)** belə bir müddəanı qəbul etdilər, yəni "Bəzi şeylər dəyişməkdədir, bəziləri isə sükunət vəziyyətindədirlər".

**Empedokl Anaksaqor** (e.ə. 492-432) Siciliyada yaşamış və onun əsərlərindən **"Təmizlənmə", "Təbiət haqqında"** və s. adlarını qeyd etmək olar. Filosof, şair, təbiətşünas alim, həkim, siyasi xadim və din təbliğatçısı kimi çox məhşur idi. "Təbiət" haqqında fəlsəfi poemasında varlığı dörd əsasa, torpağa, suya, havaya və oda aid edir. Təbiətin bu dörd ünsürü ilə bağlı fəlsəfi fikir tarixində çox mübahisəli məsələ kimi müzakirə olunmuşdur. Burada ünsürlərin birləşməsi və ayrılması bir-biri ilə mübarizə aparan iki əks qüvvəni: itələmə və cazibə (yəni dostluq və düşmənçilik) təsiri kimi şərh etməyə çalışmışdır.

Empedoklun fəlsəfi ədəbiyyatından təxminən 150 fraqment qalmışdır. Fraqmentlərin birində göstərilir ki, varlığın 4 kökü olan od, su, hava və torpaq kəmiyyət və keyfiyyət baxımından dəyişməzdirlər. Bu substantiv elementlər daim öz keyfiyyət dəyişməzliyini saxlayırlar. Lakin birləşdirici elementlərin köməyi ilə müxtəlif obyektlər yarana bilər. Məsələn qayalar, bitki, daş və s. kimi ilk müxtəlif miqdarda elementlərin birləşmələrə uyğun olaraq yaranması mümkün ola bilər. Bu obyektlər dağıdıcı qüvvələrin təsiri ilə yox, birləşdirici qüvvələrin köməyi ilə mövcud olurlar. Göstərilən analogiyalara görə deyə bilərik ki, Empedokl bir model işləyib hazırlamış və bu modelə görə həm dəyişkənlik, həm də dəyişilməzlik analoji olaraq qəbul edilmişdir. Empedoklun dörd ünsür haqqında təlimi əsrlər boyu antik və orta əsrlər fəlsəfəsində müzakirə obyektində olmuşdur.

Bu məktəbin görkəmli nümayəndələrindən biri olan **Anaksaqor** (b.e.ə. təqribən 498-428-ci illər) həyatının uşaqlıq

dövrünü Klazomen şəhərində yetkin yaşlarını isə Afinada keçirmişdir. Anaksaqor demək olar ki, materialist filosof idi və quldarlıq demokratiyasının ideoloqu idi o, allahsızlıqda günahlandırıldı , ölümə məhkum edildi və tezliklə Afinanı tərk edərək ölümdən xilas ola bildi. Onun 22 fraqmentləri mövcud idi və iddia edirdi ki, günəş tanrı deyil, alışan böyük cisimdir. Anaksaqor Empedoklın fəlsəfi müddəalarına belə bir suallarla müraciət edir: “Hansı əsasla dörd elementi qəbul etmək olar? Müxtəlif keyfiyyətlər dörd ilkin elementə necə şamil edilə bilər? Keyfiyyətlər sonsuz miqdarda mövcuddurmu?”

Anaksaqor kəmiyyət və keyfiyyət müxtəlifliyinin əsas götürərək və yuxarıda göstərilən suallara cavab olaraq sonsuz keyfiyyət müxtəlifliyini qəbul etmişdir. Onun fəlsəfi müddəalarında sonsuz keyfiyyət müxtəlifliyi “əşya toxumları” anlayışı kimi qəbul edilmişdir. Anaksaqor maddi şeylər aləminin ən yüngül və ən incə maddəni “nus” (ağıl) elementar zərrəciklərin birləşməsini və ayrılmasını şərtləndirən hərəkətverici qüvvə kimi hesab etmişdir. Onun kosmoloji baxışlarına əsasən qeyd olunur ki, göy cisimləri elementar kiçik maddə hissəciklərinin qasırğa şəklində fırlanmasından və nizamsız birləşməsindən əmələ gəlmişdir.

Anaksaqor gerçəkliyin dərk olunmasında əsasən hissi idrakı qəbul edirdi. O eyni zamanda qəbul edirdi ki, əql, təfəkkür olmadan gerçəklik haqqında hec bir fikir söyləmək olmaz. Anaksaqorun fəlsəfi dünyagörüşünün öz sələflərinin fəlsəfi müddəalarından xeyli fərqləndiyinə görə irəliyə doğru atılmış bir addım oldu və Levkipp və Demokritin atomizmi üçün bir bünövrə oldu və nəticədə onunla yaratdıqları atomist konsepsiyası antik dövr fəlsəfəsində ən mühüm mərhələ idi.

**Levkipp də (təqribən e.ə. 500-440)** atomizim nəzəriyyəsinin banisi hesb olunur. Levkippin mətnləri demək olar ki, saxlanılmamışdır və ona görə də Levkipp haqqında məlumat azlığı vardır. Yunan məktəblərinin verdiyi məlumatlara görə Levkipp Parmenidin, Ksenofonun və Zenonun tələbəsi olub və onun “ən böyük diakosmos”, “Əql haqqında” iki kitabı müəyyənləşdirilib. Onun əsərlərində üç əsas müddəa qəbul edilmişdir:

**1) "mütləq boşluq" mövcuddur, 2) bu boşluqda atomlar hərəkət edir, 3) mexaniki zərurət anlamı.** Onun fəlsəfi mülahizələrində belə bir fəlsəfi aksioma müəyyənləşdirilmişdir ki, hadisə və proseslər səbəbsiz yaranmır, lakin hadisələr hansısa bir zərurət əsasında meydana gəlir. Levkipp daha sonra göstərir ki, atomlar bütün şeylərin səbəbləridir və onların ayrılması və birləşməsi əsasında şeylər aləmi yaranır. Burada Levkpp Eleylərin dəyişməz varlığı ilə Heraklitin dəyişən varlığını birləşdirir.

**Demokrit (e.ə 460-370)** atomizim fəlsəfəsinin görkəmli nümayəndəsi hesab olunur. Platonun müasiri olmuş, tez–tez Hindistan, Babilistan, Misir kimi ölkələrə səyahət etmiş və Şərq fəlsəfi dünyasından bəhrələnmişdir və geniş biliklərə mailk idi. Onun 300-ə qədər elmi dəyərlərdən və fəlsəfi müddəalardan ibarət olan fraqmentləri var idi. **"Böyük Diakosmos", "Təbabət elmi", "Ölümdən sonra olacaqlar barədə", "Təbiətin quruluşu barədə", "Dünya nizamı və təfəkkürün qaydaları haqqında", "Bitki və harmoniya haqqında", "Poeziya haqqında", "Əkinçilik haqqında" "Riyaziyyat haqqında", "Düzgün nitq və anlaşmayan sözlər barədə", "Ahəngdar olan və ahəngdar olmayan hərflər haqqında"** olan fraqmentlərin adlarını qeyd edə bilərik.

Demokritin atomizm təliminin zənginliyini sanki bir nəhəng bilyard oyununa bənzətmək olar. Boşluqda qalan kiçik hissəciklər sonsuz miqdarda hərəkət edirlər. Bu prosesdə baş verən yerdəyişmələrə və toqquşmalara əsasən baş verir. "Doğulanlar və ölənlər" aləminin sonsuzluğu bu qaydada əmələ gəlir. Çünki kiçik zərrəciklər bir burulğan formasında da mövcud olur. Bütün bunlar zərurət üzündən yaranır. Burada Demokrit zərurəti səbəbiyyət ilə eyniləşdirir.

Demokritin fəlsəfəsində varlığın dərkini hisslər və zəka vasitəsi ilə mümkünlüyünü qəbul edilir və o, qeyd edir ki, hissi prosesdə zərif qabıqlar yəni ("idiollar") obrazlar yaranır ki, bu da prosesin hiss mənbəyinə çevrilir. Demokritin varlıq haqqında təliminə görə atomlar varlıq hesab edilir. Demokrit kainatı

sonsuz, məhvedilməz, hec bir qüvvə tərəfindən yaradılmayan və sonsuz dərəcə dünyaların mövcudluğunu qəbul edirdi. Demokrit həmişə fəlsəfi baxışlarında səbəbiyyət əlaqələrinin asıllığını həmişə təhlil etmişdir və belə fikir bildirirdi ki, “hər hansısa bir hadisənin səbəbini bilmək, mənə İran taxt-tacına sahib olmaqdan qat-qat üstündür”.

Demokrit öz fəlsəfi təlimində əxlaq və etik dəyərlərə xüsusi diqqət yetirmişdir. Onun baxışlarına görə insan üçün ən böyük dəyər vətənə məhəbbət və xalq qarşısında öz borcunu yerinə yetirməkdir. O, yazırdı ki, insan qorxu ilə yox, xalqa, vətənə borclu olduğunu hiss edərək, ləyaqətsiz hərəkətlərindən imtina etməlidir O, daha bir fikir də qeyd edirdi ki: “Azadlıq köləlikdən uca olduğu kimi demokratik cəmiyyətdə kasıblıq da hökmdar yanında dövlətli olmaqdan şərəflidir”. Filosof dövlət idarəçiliyinin ədalətli həyata keçirilməsini çox zəruri hesab edirdi. O, bu barədə də yazırdı: “Yaxşı idarə olunan dövlət ən böyük dayaqdır.... Nə qədər ki, o mövcuddur, rahatlıq və əmin-amanlıqdır”.

Demokritə görə ruh və insan qəlbi özü də atomlardan ibarətdir. Onlar dəyirmi, xırda və hərəkətdə olan oddan ibarətdir və cisimdə yerləşir. Demokrit insan qəlbinin rahatlığını atomların nizamlı hərəkəti ilə, narahatlığı isə atomların xaotik və nizamsız hərəkətləri kimi xarakterizə etmişdir.

Demokrit qnoseologiya və məntiqi nəticələrin sistemli təhlilini apara bilmişdir. O, xarici aləmi duyğuların və biliklərin mənbəyi hesab etmişdir. Demokrit dərk olunmanı iki istiqamətdə axtarırdı: **1) həqiqətdə mövcud olanların dərki; 2) ümumi rəydə mövcud olanların dərki.**

Qədim Yunan fəlsəfəsinin ən mühüm cəhətlərindən biri odur ki, fəlsəfə tarixində ilk dəfə olaraq varlığın atomizm nəzəriyyəsi işlənib hazırlandı. Beləliklə varlığın mexaniki izahının düzgün variantı qəbul edilmişdir.

**Pifaqorçular məktəbi** (b.e.ə. VI əsrin 2-ci yarısı – V əsrin başlanğıcı) Pifaqor Samos adasında yaşamışdır və onun Pifaqorçular (e.ə. 580-500) cərəyanının formalaşmasında böyük

xidməti olmuşdur. Pifaqorçular riyaziyyat və astranomiyanın inkişafında xüsusi rol oynamış və kəmiyyət abstraksiyasını mütləqləşdirərək onu maddi şeylərdən ayırmışdır. Belə nəticəyə gəlmişdir ki, kəmiyyət özü şeylərin mahiyyətini təşkil edir. Məsələn, Pifaqorçular belə güman edirdilər ki, təbiət riyaziyyatın köməyi ilə "kəşf oluna" bilər. Bu aşağıdakı faktlara əsaslanır və təsdiq olunur:

**1. Harmoniya təlimi riyaziyyatla musiqi arasındakı əlaqəni müəyyənləşdirir;**

**2. Riyaziyyat maddi predmetlərə tətbiq oluna bilər;**

**3. Kainatda göy cisimlərinin dairəvi hərəkəti riyaziyyata tabedir.**

Ümumiyyətlə, belə söyləmək olar ki, Pifaqorçular kainatın bütün sirlərini rəqəmlərin mahiyyətində axtarmışlar. Pifaqorçular məktəbi varlığa ikili (dualist) yanaşmanı qəbul etməmişdir. Onlar hesab edirdilər ki, dünya ancaq bir başlanğıcdan ibarətdir. Onlar ədədlərin əhəmiyyətində qoşa əksliklərin rolunu şişirdərək idealist dialektikaya yaxınlaşmışlar. Onun idealizmi siyasi, etik və dini baxışlarda da aydın hiss olunurdu, dini və əxlaqı cəmiyyətin əsası hesab edirdi, ruhun ölməzliyi qəbul olunmurdu. Pifaqor riyaziyyat və rəqəmlər haqqında mistik simvollar müəllifi kimi, eləcə də bəzi etik normaların, məsələn metempsixoz (ruhun bədəndən digər bədənə keçməsi) nəzəriyyəsinin banisi və ya "ilkin və təbiətin kökündən" kosmik səsləri qəbul edən və başa düşən insan kimi özünü hesab edirdi.

## 2. Qədim yunan fəlsəfəsinin ikinci mərhələsi

Qədim yunan fəlsəfəsinin ikinci mərhələsi klassik dövrün fəlsəfi mərəhələsi kimi başa düşülür. Cəmiyyətin həm maddi, həm də mənəvi həyatında yeni bir inkişaf yaranır. Yunanıstan quldarlıq demokratiyasında inkişafın yeniləşməsi və "polis" adlanan siyasi dövlət forması mövcud olur. Afinanın iqtisadi, siyasi, mədəni həyatında xeyli irəliləyişlar baş verdi və Periklin hakimiyyətə gəlişi daha uğurlu oldu. Qul sahiblərinin fəaliyyəti

və hüquqları qanun qarşısında öz təsdiqini tapdı. Belə bir şəraitdə elmlərin fəaliyyətinə və mədəniyyətin inkişafına geniş imkanlar yaradıldı, təbiət elmlərinə bələd olan müdriklər nəsli meydana gəldi.

Belə müdriklər nəslindən **Sofistlərin** kimliyini bilmək üçün onun müasir anlamını (sofist – intellektual, foksçu, fırıldaqçı, dələduz) qəbul etməmək lazımdır, qədim yunanlarda “sofist” və “sofizm” sözü yüksək intellektual səviyyəli insanlara aid edilir. Məsələn, **Heredot, Fales, Pifaqor** və digərləri “sofist”, yəni müdrik adlandırılırdı. Həmin dövrdə “müdriklik” elm sözünün sinonimi idi. Fəlsəfə bütün elmləri əhatə etdiyi üçün həmin elmlər “müdriklik” adı altında tanınırdı. O zamanlar vətəndaşlar xalq iclaslarında iştirak edirdilər. Belə bir tədbirlərdə fəal nitq söyləmək qabiliyyəti tələb olunurdu ki, insanlar maraqla natiqləri dinləyə bilsin. Bunun nəticəsi olaraq natiqlik sənəti həm tanındı, həm də ritorika kimi inkişaf etdi. Belə bir sənətin müəllimləri sofistlər oldu və nəticədə natiqlik (ritorika) mədəniyyəti inkişaf etməyə başladı. Tarixən sofistlərin “yaşlı nəslindən” bir neçəsinin adını çəkmək olar: **George, Protaqor, Kippi, Prodik və Anfifontun** adlarını qeyd etmək olar.

Sofistlərin əsas nümayəndələri **Protaqor (e.ə. təqribən 481-411) və George (e.ə. 483-373)** olmuşdur. Protaqor Siciliya və İtaliyada müəllimlik etmişdir və bu sənət ona şöhrət qazandırdı. Platonun hətta dialoqlarından biri Protaqora həsr olunmuşdur. Protaqorun insanla bağlı belə bir tezisi var idi: “İnsan hər şeyin ölçüsüdür, mövcud olanların mövcud olduqlarına görə və mövcud olmayanların mövcud olmadıqlarına görə”. Daha doğrusu bu tezisi belə başa düşmək olar, həmin şey və ya hər şey mövcuddursa və ya əksinə mövcud deyilsə belə insanla ölçülür. İnsana sevinc bəxş edən nə varsa hər şey yaxşıdır, əzab-əziyyət gətirən hər şey pisdir və şərdir.

İkinci bir tərəfdən Protaqorun tezisinin daha bir təhlili açıqlayır ki, insan obyektiv gerçəklikdən əldə etdiyi bilikləri hiss orqanları vasitəsi ilə əldə edir. Biliklərimiz subyektivdir, obyektiv biliklər əlçatmaz hesab olunur. Protaqora görə şeylər haqında

bizim biliklərimiz olduğumuz situasiyadan asılıdır. Ona görə də hər hansısa əldə olunan bilik fəaliyyətimizdən asılı olaraq nisbi (relyativ) mahiyyət daşıyır. İnsan bütün şeylərin ölçüsüdür deyə-tezisini qəbul etmişdir.

Məlumdur ki, adətlər və ənənələr insanlar tərəfindən yaradılmışdır, həm də insan davranışlarının hansı səviyyədə müəyyənləşməsini də insanlar müəyyən edir. Bunun hamısını insan edirsə insan kimdir? Biz ayrı-ayrı fərdləri əsas götürsək məlumdur ki, onlar normalara münasibətdə həmişə heç də razılığa gəlməyə bilirlər. Amma əslində biz fərdi tarixi-sosial şəraitə, təbiətə, ilahi varlıqla uyğun olan münasibətlər sistemində müəyyən edə bilərik. Biz qəbul edirik ki, fərd tarixi-sosial şəraitdə yaşayır və təbiətin bir hissəsidir. Fərd ilə ilahi arasında olan nəsə varsa, deməli, real gerçəklikdə insanın münasibətlər sistemində olmadığı bir yer yoxdur. Deməli, insana verilən tərif və dəyərləri nəzərə alsaq görərik ki, Protaqorun insanı dəyərləndirən tezisində heç bir ziddiyyət yoxdur.

Sofistlərdən **Goerge** insan biliyinin müzakirəsini əsas götürmüş, biliyin idraki prosesdə əldə olunması prosesinə diqqət yetirmişdir. O, əsasən, ənənəvi biliyi əsas götürmürdü, insan şüurunun nəticəsi olaraq sübut edilmiş biliyi qəbul edirdi. Protaqorun insana verdiyi tezisdə Georgeni alqışlayırdı. Onlar qeyd edirdilər ki, sağlam adama şirin gələn şey xəstə adam üçün acıdır.

Sofistlər siyasi idarəçilik sistemində, məhkəmədə, hüquqi təşkilatlarda, həyati mübahisələrdə insanlara öz mövqelərini əsaslandıra bilirdi. Sofistlərin görkəmli nümayəndəsi olan **Sokrat** (e.ə. 470-399) heç bir əsər yazmamış, onun dedikləri şagirdləri, dostları, xüsusilə, Platon tərəfindən qeyd edilmişdir. Bütün həyatını doğma şəhəri olan Afinada yaşamışdır. Platonun dialoqlarında əksini tapan Sokratın fəlsəfi baxışları dünya fəlsəfi mədəniyyətinə çox böyük töhfə verdi. Sonra məhkəmənin qərarı ilə ölümə məhkum edildi. Görünür, Afina demokratiyasına gənclər arasında verilən satirik təhlilin nəticəsi olaraq onu cəzalandırdılar. Sokratın fəlsəfi şərhini Platonun qeydlərində axtarırıq.

Sokratın etik prinsiplərində belə bir baxışları söyləmək olar ki, ədalətin nə olduğu müzakirə olunur. Ədalətin nə olduğunu bilən insan ədalətli hərəkət edə bilər və nəticədə xoşbəxt olur və ya "Arete" sözünün mənası "səadət" və ya "kamillik" kimi qəbul edir və onun belə fikirlərini söyləmək olar: "Areteye malik olan hər kəs öz işini elə yerinə yetirir ki, bu iş mükəmməlliklə yerinə yetirilməlidir (Platon).

Sokrata görə biliyin anlaşılması kifayət qədər mürəkkəb proses kimi qəbul edilirdi. Sokrat biliyin 3 xüsusi tipini müəyyənləşdirirdi:

**1) faktiki əldə olunan biliklər**

**2) normativ biliklər (nələrin olmasının vacibliyi)**

**3) insanın həqiqəti əks etdirən bilikləri**

O, daha sonra söyləyirdi ki, konkret insanın artıq malik olduğu bilik həmişə aydınlaşdırılmalı və öz sahəsində tətbiq olunmalıdır.

Sokrat təhsil və tərbiyə ilə bağlı fikirləri fəlsəfəyə gətirən ilk filosoflardan biridir. Obrazlı şəkildə desək Sokrat insanları oyatmağa çalışmış və bir psixiatr kimi onunla kifayətlənmiş ki, hər iki tərəf müzakirə olunan problemi qarşılıqlı şəkildə dərk edə bilsin. Daha bir baxışını da qeyd edək ki, pedaqoji biliklərin mənimsənilməsini mühüm əsas kimi qəbul edərək bildirir ki, müəllim nə qədər çox səy göstərirsə, son nəticə bir o qədər yaxşı olur, Sokratın pedaqogikasında müəllimin və şagirdin yanaşı olması və birgə filosofluq etməsi vacibdir. Yəni birgə olaraq müzakirənin gedişində olurlar və hər ikisi çox şey öyrənə bilir, predmetin daha dərindən öyrənilməsi üsuluna yiyələnmək mümkün ola bilər.

Sokrat dialektik metodun banisidir. "Öz-özünü dərk et" və "mən bir şeyi bilirəm ki, heç nə bilmirəm" tezislərini əsas götürmüşdür. Dahi Sokrat biliklə xeyirxahlığı eyniləşdirmişdir. Sokrat induktiv metodu (ayrı-ayrı hadisələrdən ümumi nəticənin alınması) Sokratın fikrincə insanın şüurunda müxtəlif səviyyələr mövcuddur, şüurlu fəaliyyətdə ən yüksək mərhələni hesab edirdi

və göstərirdi ki, zəka ancaq fərd üçün deyil, hamı üçün zəruri olandır və bu ancaq cəhdlər sayəsində mümkün ola bilər.

Sokratın fəlsəfi dünyagörüşü etik rasionalizmə əsaslanır. Onun baxışlarına görə insan əxlaqsız hərəkət edirsə, deməli, o həqiqəti dərk edə bilmir. Əxlaqi cəhətdən şər işlər biliksizlikdən yaranır və nəticədə bilik mənəvi təkmilləşmənin mənbəyidir.

Sokratın siyasi baxışlarına əsasən qeyd etmək olar ki, dövlət təcrübəli, səriştəli insanlar tərəfindən idarə olunmalıdır. O, dövlət başçılarını gəmi kapitanı ilə müqayisə edirdi. O, dövlətin idarə formaları ilə bağlı fikirlərini də bildirmişdir:

**1) Monarxiya (bir nəfərin hakimiyyəti);**
**2) Tiraniya (zor və güc yolu ilə idarəolunma);**
**3) Aristokratiya (bir qrup aristokrat);**
**4) Plutokratiya (varlıların hakimiyyəti);**
**5) Demokratiya (əksəriyyətin hakimiyyəti).**

Sokrat idarəetmə formalarını göstərilən şəkildə elan etsə də, o daha çox Aristokratiya hakimiyyət formasının tərəfdarı idi.

**Platon** (e.ə. 427-347) müəllimi Sokrat kimi afinalı idi və 12 il mühacirətdə yaşamışdır. Sokratın qətlə yetirilməsindən 11 il sonra o, özünün Akademiyasını təsis etdi. Məşhur filosof adlandırılan Aristotel də Akademiyada təhsil almışdır. Sokratın zəngin fəlsəfi ideyaları şagirdlərinin əsərlərində öz əksini tapmışdır .

O, əla əsgər olmuş, idman yarışlarında layiqli yer tutmuşdur. Platonun təxminən 30 dialoqu və bir sıra məktubları qalmışdır. Platonun yazdığı dialoqları 3 qismə ayırmaq olar: **1) ilkin dialoqlar (əsasən Sokratla bağlı), 2) yetkin müddəaları əks etdirən dialoqlar, 3) son dialoqlar (qanunlar haqqında).** O, özünün "Yeddinci məktub"unda qeyd edir ki, fəlsəfə başqa bilik sahələri kimi şərh oluna bilmir, amma onun predmeti və həyatı barədə uzun sürən söhbətdən sonra ruhda birdən-birə sanki alov püskürür.

Platon çox böyük fəlsəfi irs yaratmışdır. Onun yaradıcılığı, fəlsəfi irsi istər Qərbdə, istərsə də Şərqdə layiqli yer tutduğu üçün çoxlu ardıcıllarının yaranmasına səbəb oldu. İslam dünyasında Platon "Əflatun" kimi tanındı və o, öz şagirdi Aristotel ilə

birlikdə işraqillik və peripatetizm məktəblərinin yaranmasına səbəb oldu.

Platon fəlsəfəsinin mahiyyəti üç ontoloji substansiyada öz əksini tapır: " vahid", "ağıl", "ruh". Bu elementlər varlığın əsası hesab olunur və vahid bir müəyyənliyə malik deyildir. Hər cür təfəkkür və varlıqdan üstün olmaqla, ideyalar və şeylər aləmini özündə birləşdirir. "Ağıl"-nur törəməsi kimi başa düşülür. Platon dünyagörüşündə ağıl ruhun bir törəməsi kimi qəbul edilir, "yerin və göyün allahı" hesab olunur.

Platon ideyaları ilkin materiyanı üç törəmə kimi qəbul etmişdir. O, materiyanı ideyanın daşıyıcısı hesab edir, onun heç bir formaya malik olmadığını qəbul etmişdir. Onun idrak nəzəriyyəsində ideya durur. Ruhlar isə ideyalar aləmində ən mühüm ideyaları qavraya bilir. Platon fəlsəfəsinə daha diqqətlə nəzər salsaq, aydın olur ki, ruh əslində idraki prosesdir və ideyanın bir haldan başqa hala keçməsi deməkdir. Platon öz fəlsəfəsində dialektikaya xüsusi yer vermiş və onun təliminə görə **a) dialektika şeylər aləminə məna verir (müəyyən bir ideyanı tapır), b) şeylər aləminin prinsipini müəyyənləşdirir ki, bunu biz "loqos" (qanun) adlandıra bilərik, q) dialektika tamlıqlar haqqında təlimdir.**

Platon dünyagörüşündə iki dünya mövcuddur: **"İdeyalar aləmi" və "Şeylər aləmi".** İdeyalar aləmi birinci, şeylər aləmi isə ikincidir. İnsan öldükdən sonra onun ruhu ideyalar aləmində öz çismini axtarır.

Platona görə biliyin mənbəyini ölməz ruhda axtarmaq lazımdır. Platon fəlsəfəsinin fərqliliyi ondadır ki, müəllimi sonradan gələn səmərəli və lazimi nəticələrini dialektik təlimdə axtarmağa çalışmışdır. Onun fikrincə dialektik anlayışların mahiyyətini üzə çıxarmaq üçün həmin anlayışlarda ziddiyyətləri açmaq lazımdır. O, "tək", və "çox", "bütöv və hissə", "sonsuz və sonlu", "yaxşı və pis", "yalan və həqiqət", "ədalətli və ədalətsiz" və s. kimi anlayışların biri digərini inkar etməsi mahiyyətini göstərmişdir.

Platonun **“Dövlət”** **və** **“Qanunlar”** adlı əsərləri onun **“Politik”** **və** **“Kiritiy”** dialoqları ilə tamamlanır. O, bu əsərlərdə mifoloji təsəvvürlər əsasında qurulan dövlət quruluşunu müqayisə edir. O, həmçinin dövlətin ideya formalarını belə müəyyənləşdirmişdir: **1) Timokratiya, 2) Oliqarxiya, 3) Demokratiya, 4) Tiraniya.**

Məlum olduğu kimi yunan tarixində dövlətin idarə olunması və onun təbiəti ilə bağlı mühakimələr çox olmuşdur və yeni-yeni ideyalar irəli sürülmüşdür. Bu mənada Afina demokratiyası həmişə Platonu düşündürmüşdür. Bəzi hallarda o, Afina demokratiyasını müsbət hal kimi qəbul etmirdi. Onun bu fikrini tarixi səbəblər baxımından izah etmək olar. Platon özü aristokratiya (oliqarxiya) nəslindən idi. Sonra vuruşmalarda dayıları Kiritiy və Xarmid öldürülmüşdür, müəllimi Sokratın öldürülməsi, sərkərdə Alkiviadın öldürülməsi və s. kimi hadisələr onda barışmaz ruhun yaranmasına səbəb olmuşdur.

Platonun cəmiyyət və dövlət haqqında baxışları onun qnoseoloji və ontoloji baxışları ilə sıx əlaqədədir. Onun özünəməxsus təfəkkür tərzi sosial-siyasi fəaliyyətinə və yaradıcılığına çox böyük təsir göstərmişdir və bunun nəticəsi olaraq bu problemlərin mahiyyətinin açıqlanmasında onun böyük rolu olmuşdur. **N.Q.Çernişevski** Aristotelin “Poetik” əsərinə müəyyən rəylərini vermişdir və orada o qeyd edir ki, Patonu hər şeydən əvvəl düşündürən problem insan anlamı olmuşdur. Platon üçün insan öz dövlətinin həqiqi vətəndaşı deməkdir.

Dünya fəlsəfi irsinin ən tanınmış dühalarından biri də **Aristotel (e.ə. 384-322)** olmuşdur. Dante onu “Müdriklər müəllimi” deyə adlandırmışdır. Onun dünya fəlsəfi xəzinəsinə **“Analitika”, “Metafizika”, “Etika”, “Politika”, “Ritorika”,** kimi digər əsərlərlə yanaşı fizika, astronomiya, psixologiya, təbabət, cəmiyyət, dövlət, hüquq və s. kimi əsərləri ilə ondan sonrakı elm və fəlsəfənin inkişafına güclü təsir göstərmişdir. Verilən mənbələrə görə İsgəndəriyyə kitabxanasının fondunda onun 400 kitabı mövcuddur.

Aristotel 17-18 yaşlarında Akademiyanın tələbəsi olmuş və bir filosof olaraq onun dünyagörüşünun formalaşmasında fəlsəfi baxışları üst-üstə düşməsə belə Pratoqorun ciddi təsiri olmuşdur. Verilən məlumatlara görə onun atası Makedoniya hökmdarının həkimi olmuşdur, Aristotelin daha çox biologiya elminə olan marağı onun atasının sənəti olmuşdur ki, o, nəticədə sualtı dünyanın həyatını öyrənməyə çalışmışdır.

Aristotel 4 ilə yaxın bir müddətə Makedoniya taxt-tacının varisi olan və sonradan Makedoniyalı İsgəndərin müəllimi olmuşdur, daha sonra o özünün (e.ə. 335) məktəbini yaratdı. Onun ölümündən sonra bu məktəb min il ərzində fəaliyyət göstərmişdir. Bu məktəb qərbdə **“Peripatetiklər”, şərqdə isə “Məşşaiyyə”** adlandırıldı.

Aristotel öz fəlsəfi müddəalarında qeyd edirdi ki, əgər Platonun dediyi kimi şeyləri “ideyalar” vasitəsilə izah etmiş olsaq, onda “ideyaları” mövcud olmasının səbəbi hesab etmək olar. Belə ki, Aristotel Platonun **“ideyalar aləmi”**nin şərhində yaranan fəlsəfi müddəaları qəbul etməyərək bildirmişdir ki, dünyanı anlamaq üçün bu bizə heç bir real əsas vermir. Aristotel varlığın substantiv elementlərini həqiqətən mövcudluğunu qəbul etmişdir. Ancaq substantiv elementlərə aid olan xassələr və növlər nisbi mənada mövcuddur. **S.Qunnar və N.Gilyemu “Fəlsəfə tarixi: Müasir dünyanın fəlsəfi qaynaqlarına bir baxış”** kitabında sanki bir illüstrativ sxem təqdim olunur. Sxemdən aydın olur ki, Aristotel ideyalarında xassələri və növləri isə ayrıca şeylərə mövcud olma kimi təqdim edir. Aristotel səbəbiyyət probleminə də toxunmuşdur. O, səbəbin prinsiplərini izah etməyə çalışmışdır, həmin səbəblərin **formal səbəb (forma), maddi səbəb (materiya), əmələ gələn səbəb (hərəkət), son səbəb (məqsəd)** kimi prinsiplərini göstərmişdir. Aristotel 4 səbəbin köməyi ilə təbii və mədəni şeylər arasındakı fərqi müəyyənləşdirmişdir. Son səbəbə malik olan şeylər təbiidir. Məsələn, normal şəraitdə toxum gələcəkdə bitki olacağın standart nümunə kimi qəbul edirik.

Aristotel materiyanı yalnız varlığın imkanı kimi qəbul etmiş, o imkandan gerçəkliyə çevrilir və konkret bir mahiyyət kimi mövcud olur. O, göstərirdi ki, materiya daim əbədi hərəkətdə olduğu üçün dünya əbədi hərəkətdədir və mövcuddur.

Aristotel əşyaların üç təbiətə malik olduğunu da söyləmişdir: **1) hərəkətsiz; 2) öz-özünə hərəkət edənlər; 3) baş-qa əşyaların köməyi ilə hərəkət edənlər**. O, hərəkətin dörd əlamətini qeyd etmişdir**: 1) kəmiyyət dəyişiklikləri, 2) keyfiyyət dəyişiklikləri, 3) yaranma və məhv olma, 4) məkan daxilində yerdəyişmə.**

Aristotel kateqoriyalar haqqında sistemli təhlil aparmış və o, göstərilən kateqoriyaların mahiyyət, kəmiyyət, keyfiyyət, zaman, məkan, hərəkət, hal, münasibət, vəziyyət, iztirab konkretliyini müəyyənləşdirməyə çalışmışdır. Aristotelin qnoseoloji fikirləri onun **"Nəfs haqqında"** adlı traktatında verilmişdir. Nəzərinizə çatdırmaq istəyirəm ki, o, yazırdı ki, insanın dərk olunması nəfs vasitəsilə əlaqələnir. Nəfs olmasa insan yaşaya bilməz. İnsan onun sayəsində yaşayır, hiss edir və fikirləşir. O, funksiyalara uyğun olaraq nəfsi üç növə ayırır: qidalanma, çoxalma və böyümə funksiyaları nəbati nəfs yerinə yetirir. Hiss etmə, hərəkət kimi xüsusiyyətləri heyvani nəfs, təfəkkür qabiliyyətli nəfs isə yalnız insana məxsus olan nəfsdir.

Aristotelin xidmətlərindən biri odur ki, gerçəkliyin dərk olunmasında hissi idrakla məntiqi idrakın dialektik nailiyyətini qeyd edirdi. Ümumi şeylər aləmini müşahidə və xatırlama kimi dərk etmək olmaz. Bunun üçün təfəkkürü praktik fəaliyyətlə tutuşdurmaq lazımdır. Onun idrak nəzəriyyəsində hissi idrak başlanğıc və ya ilkin mərhələ kimi ümumi qanunauyğunluqlar isə əql vasitəsilə dərk olunur və inkişaf mərhələlərini belə göstərmişdir: duyğu, təsəvvür, təcrübə, incəsənət, elm isə inkişafın uca zirvəsidir.

Onun əsərlərində məntiq mühüm anlayış kimi qəbul edilir. O, məntiqi elmi idrakın silahı kimi şərh etmiş və özünün məntiqə dair **"Orqanon" (silah)** adlı əsərini yazmışdır. O, bu əsərində məntiqin nəzəri əsaslarını işləyib hazırlaya bilmişdir və məntiqin

**“ziddiyyət qanunu” və “üçüncü istisna qanunu”**nu formula etmişdir.

Aristotelin kosmoloji baxışlarında yer kürəsinin şara bənzəməsi, ayrı-ayrı ulduzların göydə fasiləsiz sürətdə hərəkəti, ayın yerə yaxın olması, günəşin çox uzaq olması, ayla yer arası məkanın efirlə doldurulması, bütün kainatın 5 elementdən - od, su, hava, torpaq və efirdən ibarət olması kimi müddəalara rast gəlirik. O, belə hesab edirdi ki, göy cisimləri daim dairəvi hərəkətdədir.

Onun cəmiyyət və dövlət haqqında fikirlərinə əsasən qeyd etmək olar ki, o quldarlıq aristokratiyasının tərəfdarı kimi çıxış edirdi. O, “Politika” əsərində dövlətin təhlili məsələlərinə xüsusi yer ayırmışdır. Aristotelə görə dövlət təkmilləşmiş insan birliyi və siyasi birlik formasıdır. O, cəmiyyətin əsasında kişilərin və qadınların, quldarların və qulların durduğunu qeyd etmişdir. Qulları **“danışan heyvan” və ya “siyasi heyvan”** adlandırmışdır. O, özünün **“Afina partiyası”** əsərində ayrı-ayrı yunan dövlətini tədqiq etmiş, onları birləşdirməyə çalışmış və dövlətin özünü cəmiyyət kimi qəbul etmişdir.

O, qullarda bədəni, quldarda ruhu əsas götürərək bildirir ki, ruh cismdən əvvəl olduğu üçün və onu idarə etdiyindən quldar qulu idarə etməlidir. Aristotel bir də qeyd edir ki, dövlət və ailə cəmiyyətdən yarandığından ailədən dövlətə keçid açması pilləsini qeyd etmişdir.

Hüquqi məsələlər Arustotelin “Etika” və “Ritorika” əsərlərində geniş şərh olunur və hüquq vətəndaşların ümumi mənafeyinə xidmət etməlidir ideyasını irəli sürmüşdür. Cəmiyyətin üç sinifdən olmasını göstərmişdir.

**1) Azlıq (yuxarı sinif)**
**2) Orta təbəqə (əkinçi)**
**3) Aşağı təbəqə**

Aristotel həmçinin dövlətin mövcudluq şərtlərinin xarici amillərdən, dövlətin yerləşdiyi ərazinin böyüklüyündən, kiçikliyindən, iqlimindən və s. kimi amillərdən asılılığını qeyd etmişdir. Aristotel mükəmməl dövlət nəzəriyyəsini işləyib hazırlamış və bu

ideyalar **İ.Boden və Ş.Monteskye** və digərləri tərəfindən davam etdirilmişdir.

## 3. Qədim Yunan fəlsəfəsinin üçüncü mərhələsi (Ellinizm fəlsəfəsi)

Fəlsəfə tarixində Ellinizm dövrünü (e.ə IV əsrin sonlarına yaxın) Makedoniyalı İsgəndərin hərbi qələbəsindən sonra başlanan dövr kimi qəbul etmək olar. Bəzi mənbələrə görə Ellinzm mərhələsi Roma imperiyasının süqutu ilə başa çatır. Bu dövrdə coğrafi və say baxımından böyük mədəniyyət din və dil baxımından müxtəlif xalqları özündə birləşdirən dövlətlər mövcud idi.

Bu dövrün ilk fəlsəfi məktəblərindən biri də **Epikürçülük** b.e.ə. 341-270-ci illərdə yaşamış **Epikürün (Epicurus)** adı ilə bağlı olmuşdur. Epikürün gözəl bir bağı var idi. Burada öz məktəbinin əsasını qoymuşdur. Onun arzusu insanları nəcabətli və xoşbəxt görmək idi. Bu arzuya çatmağı ancaq fəlsəfə ilə məşğul olmaqda görürdü. O, həyatın mənasını həzzdə görürdü. O, həzzi hissi mənada yox ağlın və zəkanın qəbul etdiyi formada nəzərdə tuturdu..Epikürçülər belə bir fikri əsas tuturlar ki, biz dünyada zövq almaqdan yayınmamalıyıq, lakin düzgün seçimi bacarmalıyıq.

Epikür fəlsəfənin mənəbyi Demokritin atomizmi idi. Öz müəllimi Demokrit kimi Epikür də dünyanın bölünməz atomlardan ibarət olduğunu söyləmişdir. Onlar arasındakı fərq bundadır ki, Epikür atomları təkcə böyüklüyünə və formalarına görə deyil əsasən ağırlığına görə fərqlənirlər. Onun fikrincə atomlar ağırlıqlarından asılı olaraq şaquli xətt üzrə hərəkət etməklə bərabər kənara meyl edib əyri xətt üzrə də hərəkət edirlər. O, atomların boşluqda hərəkətlərini belə müəyyənləşdirmişdir: **1) düz xətt üzrə düşmə, 2) düz xətdən kənara meyl etmə, 3) atomların toqquşmasından yaranan hərəkət.**

Epikür varlıqdakı bütün dəyişmələrin səbəbini sonsuz hərəkət edən materiyada daha doğrusu təbiətin özündə görürdü. O, elmin və fəlsəfənin vəzifəsini daha mühüm səbəbləri axtar-

maqda görürdü. O, Demokritə nisbətən səbəbiyyət əlaqəsini daha mükəmməl şərh edərək determinizmin fatalistcəsinə izah olunmasına qarşı çıxmışdır.

Epikürün idrak nəzəriyyəsindən onu qeyd edə bilərik ki, o duyğuları insan biliyinin mənbəyi hesab edərək qeyd edir ki, idraki proses müşahidə hissi qavrayışlar əsasındb baş verə bilir. Cisimlərin surətləri hiss üzvlərinə təsir edərək insanda duyğuları əmələ gətirir. Daha sonra insan özünün yaddaşına görə gerçəklikdə mövcud olan şey və hadisələrin surətlərini toplayaraq özündə saxlayır və təfəkkür vasitəsilə təhlil edir.Onun fəlsəfəsinə görə kainat sonsuzdur, qeyri-məhduddur, maddi aləmdən başqa heç bir şey yoxdur. İnsanlar nə təbiətin hadisələrindən nə də allahlardan qorxmamalıdır.

Epikür insanların təlabatı ilə bağlı maraqlı fikirlər söyləmişdir. O, qeyd edirdi ki, insanlarda üç arzu forması var: **1) təbii və zəruri, 2) təbii, lakin həyat üçün zəruri olmayan, 3) həyat üçün təbii və zəruri olmayan.** O, qeyd edir ki, müdrik insanlar yalnız birinciyə meyl edə bilərlər, ikinciyə və üçüncüyə adətən fikir verməzlər.

Epikürçülük fəlsəfəsində dostluq və digər zərif təhlükəsiz formalara xüsusi diqqət yetirilir. Əgər hər bir insan şəxsi xoşbəxtliyə can atırsa, nəticədə insan özünü daha etibarlı formalarla məhdudlaşdırmalıdır. Epikürçülük sanki, siyasi fəaliyyəti qəbul etmirdi, onalra görə siyasi düşüncə və siyasi fəaliyyət insana həzzdən çox əzab gətirə bilər. O, dövləti və ya cəmiyyəti özlüyündə dəyərə malik olan bir şey kimi qəbul etmirdi. Dövlət və cəmiyyət onda lazımı dəyər kimi qəbul oluna bilər ki, əzabların qarşısı alınsın və insanlar fərdi həzzlə təmin olunsun. Epikür təliminə görə hüquq və əxlaqın bundan başqa heç bir əsası yoxdur.

Ellinizm dövründə **“Stoiklər”** adlı fəlsəfi biliklər mövcud idi və bu əvvəlcə Yunanıstanda, daha sonra Roma dövründə də geniş yayıldı. Stoiklər daha çox Sokrat və Platonun mövqeyini daha çox dəstəkləyirdilər. Onlar insanların xoşbəxtliyini müxtəlif xarici amillərlə müəyyənləşdirirdi. İnsan zəkaya və loqosa uyğun

yaşamalıdır. Loqos kosmik bir qüvvə hesab olunur. İnsan əgər özünün loqosuna uyğun yaşamağı bacarırsa, onda onun ruhu kosmosla harmoniyadadır.

Yunan stoizminin görkəmli nümayəndəsi **Stoikli Zenon (Zenon Citium təqribən e.ə. 336-264), Kleant (Cleanthes e.ə. 331-232) və Xrisipp (Chrysippus b.e.ə. 278-204)** idi. Bu cərəyanda daha çox dünyadan asketik imtina yox, borc hissi və xarakter əsas hesab olunurdu. Daha sonra Stoiklər təbii hüquqi qanunlar kimi məsələyə də toxunmuşlar.

Stoiklər fəlsəfədə məntiqi, fizikanı və etikanı bir sistem kimi birləşdirməyə çalışmışlar və insan orqanizmi ilə müqayisə edərək qeyd edirdilər ki, məntiq-insanın skeleti, etika-insanın damarı, fizika isə insanın ruhudur. Yenə də elmlərin yerini və rolunu belə təsvir edirlər: **məntiq-elmlərin çəpəridir, fizika-məhsul verən torpaq, etika isə onun meyvələridir.** Onlar fəlsəfənin əsas məsələsini etikada axtarmışlar. İnsan təbiətlə uyğun yaşamağı bacarmalıdır. Tale hər şeyi qabaqcadan müəyyən edir, kim istəyirsə onun ardınca gedir, kim etiraz edirsə, tale onu zorla aparır. Stoiklər hesab edir ki, elm dünyada baş verən hasdisələrin ümumiliyini müəyyən edə bilər, əslində ümumilik özlüyündə mövcud deyil. Onlar əsas dörd kateqoriyanı qəbul etmişdir: **1) mövcud olan, 2) keyfiyyət, 3) hal və vəziyyət, 4) nisbi vəziyyət** (Fəlsəfə ensiklopediyası lüğət 1997).

Aristoteldə olduğu kimi insan sosial varlıq hesab edilmir, onlara cəmiyyəti formalaşdırmaq və qanunları hazırlamaq imkanı vermək lazımdır. Müdriklər o insanlardır ki, onlar ədalətli qanunlar hazırlaya bilirlər. **Siseron belə demişdir: "Mükəmməl qanun müdriklərin ruhundadır" (De Leqibus II, 5).**

Ellinizm dövründə stoisizm fəlsəfi cərəyanının ideyası son stoiklər olan **Plutarx, Siseron, Kleant, Mark Avreliy olmuşdur.** Onlar da fəlsəfi təlimlərində əxlaqi azadlıq və ehtiraslardan həzz almaq ideyasını əsas götürmüşlər. Ellinizm dövründə formalaşan bu fəlsəfi sistem **"Sfoya" (Afina)** fəlsəfi nəzəriyyənin davamçıları hesab olunurdu. Onların həyat amalı sakitlik, daxili və xarici təsiredici və ya qıcıqlandırıcı amillərə fikir verməmək

qabiliyyəti formalaşdırmağı əsas götürürdülər. Epikürçülük görünür çoxlu ardıcıllara malik olmamışdır. **Stoisizm** hərəkat deyildir. Bu təlim öz mənəvi dünyasına görə cəmiyyətdən asılı olmayaraq formalaşa bilmişdir. Digər bir təlimlərdən biri də **"kiniklər"** hesab olunur. Bu təlim demək olar ki, məzlum və zəhmətkeş təbəqənin ideologiyası idi. Yəni bu qrupdan olan təbəqə nəyə malikdirsə onunla razılaşmaq və ona qane olmağı öyrədirdilər. Bu məktəbin banisi **Antisfen** hesab olunurdu. Bu məktəbin xarakterində həmişə nədənsə narazı olmaq anlamı əsas idi. Kinos sözünün açıqlanması "it" kimi tərcümə olunur. Bu versiyaya görə insanı it kimi tutmaq mənası kimi başa düşülür. Digər versiyaya görə kinos təbii həyat tərzində yaşamaq, maddi həyat tərzindən tam asılı olmamaq, öz nəfsini məhdudlaşdırmaq kimi başa düşülürdü. Bu təlimə görə müdriklik ondadır ki, insan xeyirin nə olduğunu bilməli və təbii təlabatdan kənara çıxlmamalıdır. **Kiniklər** nə oldu onu qida kimi qəbul etmişlər, harda oldu yatırlar, nimdaş paltar geyinirdilər, bir sözlə avara həyat tərzi sürürdülər. Kiniklər məktəbi 150 ildən çox mövcud olmuşdur. Bu təlim daha sonralar Stoiklərin daxilində assimliyasiyaya uğramışdır. Bu məktəbin digər nümayəndələrindən onların yaratdıqları təlimdə ən vacib amil dünyadan təkcə asketik imtina tərzi yox, həm də borc hissi tərbiyəsi təqribən nəzərdən keçirilmişdir.

Bir sözlə Epikürçülük etikasının əsas xəttində ictimai həyat deyil, ayrıca insan amili əsas götürülür. O, Aristotelin insana verdiyi dəyəri bir qədər dəyişdirərək fərdi hissləri əsas götürərək qeyd edirdi ki, həyatın mənası həzz almaq mənasında başa düşülən xoşbəxtlikdən ibarət olur. Əlbəttə Epikür etikasında həzz müəyyən bir çərçivə daxilində olması kimi başa düşülür. Eləcə də göstərilmişdir ki, insanın ruhu onun bədəni ilə birlikdə ölür. Ona görə də ölümdən qorxmaq lazım deyil, nə qədər ki, biz varıqsa ölüm yoxdur, ölüm gəldikdə isə biz olmayacağıq. Belə başa düşmək olar ki, istər canlılar, istərsə də ölülər üçün ölüm yoxdur.

Antik dövrə aid olan və xatırlanan fəlsəfi təlimlərin müəyyən qədər məğzi Sokratın irsinə əsaslanır. Burada əsas

məsələ belə bir suala cavab axtarılır ki, fərdin şəxsi xoşbəxtliyi necə təmin oluna bilər? Bu suala müxtəlif səpkidən cavab verilir. Bu cavabların bəzilərində başa düşülür ki, maddi anlamda xoşbəxt fərd rifah halına malikdir. Bəzi cavabları birləşdirən odur ki, onlar heç də həmişə bədbəxtliyin qarşısını almağa qabil deyildir. Həyat fələsfənin bu təlimlərindən heç biri hər bir kəsin şəxsi xoşbəxtliyini təmin etmək gücündə deyildir. Nəhayət antik dövrün son təlimlərindən belə fikir yaranır ki, insanlar üçün insanlar tərəfindən yaradılan bu təlimlər vəd etdiklərini yerinə yetirə bilməz.

## 4. Qədim yunan fəlsəfəsinin dördüncü mərhələsi (Roma mərhələsi)

Qədim Romada və vaxtı ilə Yunanıstanda formalaşmış 4 fələsfi məktəb mövcud olmuşdur: **1) stoisizm, 2) epikürçizm, 3) skeptisizm və 4) neoplotonizm**. Görkəmli nümayəndələrdən **Seneka, Epiktet, Mark Avreli Antonin, Lukretsi Kar, Plotin, Yamvliks, Prokl** və digərlərini göstərmək olar.

Seneka ruh nədir? sualına cavab axtarmağa çalışmış və qeyd etmişdir ki, ruhun hava ilə atəşin birləşməsindən yarandığını əsas götürmüş və antik **sensualizmi** əsas götürmüşdür. Seneka idraki prosesdə əqli əsas götürərək onun öz başlanğıcını hisslərdən götürdüyünü bildirmişdir. O, öz fəlsəfi görüşlərində etikaya yer vermiş, taleyə inam və həyatın mənasını mütləq mənada mənəvi sakitliyə nail olmaqda görürdü.

**Epiktet** əvvəlcə qul olmuşdur, azadlıq əldə etdikdən sonra öz fəaliyyətini fəlsəfə üzərində qurmuşdur. Onun dünyagörüşündə etik məsələlər əsas yer tutmuşdur. O, insanın əsl mahiyyətini onun əqlində axtarmış, allahı varlığın əsası kimi göstərərək bildirirdi ki, allah mövcudluğun inkişafının mənbəyi və həlledici qüvvəsidir.

**Mark Avreli Antonin** Roma imperatoru olmuşdur. Ölümündən sonra onun bir neçə qeydləri qalmışdır. Şərti olaraq onun bu qeydləri **"özüm özümlə"** və ya **"özümlə təklikdə"** kimi

adlanır. Lakin o qeydlərindəki fəlsəfi düşüncələri heç kəslə bölüşdürməmişdir. Onun dünyagörüşü ziddiyyətli idi. Onun dünyagörüşündə həm çox fəaliyyətlilik, enerjili və ədalətli dövlət xadimliyinə aid olan keyfiyyətlər mövcud idi. Onun baxışlarında belə fikirlər qeyd olunurdu: "elə şeylər vardır ki, ümumi faydalı fəaliyyət, yalanla ifadə olunmayan nitq və əhval-ruhiyyə rahatlığıdır. İnsan həyatı az müddətlidir, hazırkı ötəri anda yaşayan mövcudatdır, o həm də uzunmüddətli və möhkəm məqsədlər güdən varlıqdır. Bir sözlə onun fikrincə insan fəaliyyətinin əsas məqsədi xeyirxahlığa nail olmaqdan ibarətdir, insanın xeyirxahlığını müəyyənləşdirmək üçün insanın daxilinə nüfuz etmək lazımdır.

Romada formalaşan Epikürçilik fəlsəfi təliminin davamçılarından olan görkəmli nümayəndə **Lukretsi Kar** idi. Lukretsi Karın tanınmış fəlsəfi əsəri **"Şeylərin təbiəti haqqında"** əsəri idi. Bu şerlə ifadə olunmuş bir əsər idi. Demokritin və Epikürün atomist təlimini davam etdirmiş və onu daha da zənginləşdirmişdir. Lukretsi Kar qeyd edirdi ki, cismani nə varsa, hamısını maddi adlandırırdı. Ona görə bütün şeylərin müxtəlifliliyi onları təşkil edən atomların hansı vəziyyətdə birləşməsindən asılıdır. Atomların müxtəlif formada birləşmələri nəticəsində müəyyən qədər rəng, dad, qoxu kimi keyfiyyətlər formalaşır. O, atomların və şeylərin tutduğu yeri məkan adlandırmışdır və məkana nisbətdə zamanı isə təbiət hadisələrinə xas olan bir kateqoriya kimi qəbul etmişdir.

O, bədəni ruhla birlikdə yəni ayrılmaz bir vəhdətdə olması kimi qəbul etmişdir. Lukretsi Kar belə hesab edirdi ki, şeylərin səthindən onların özünə oxşar zərif surətlər və ya obrazlar ayrılır və nəticədə insanın hiss üzvlərinə bu obrazlar təsir edərək insanda görmə, eşitmə, dadbilmə, iybilmə kimi duyğular yaradır. Lukretsi Kar qeyd edirdi ki, duyğu bizə şeylər haqqında doğru və düzgün məlumat verir, nəticədə o, duyğunu idraki prosesin əsası kimi qəbul etmişdir. Hiss üzvlərinin verdiyi məlumatlara əsasən zəkanın rolunu xüsusi qeyd edir ki, nəticədə şeylərin özündə düzgün xarakter aşkar olunur. Əgər duyğuların verdiyi məlu-

matlar yalnış olsaydı, nəticədə zəka vasitəsilə əldə olunan nəticələr də yanlış ola bilərdi. Lukretsi "Şeylərin təbiəti haqqında" adlı əsərində atomizmin idrak nəzəriyyəsini daha da təkmilləşdirməyə çalışmışdır. Lukretsi Karın məqsədi şeylərin təbiətini aşkara çıxarmaqdan ibarət olmuşdur. Demokritdən fərqli olaraq Lukretsi Kar onları obyektiv keyfiyyətlər hesab edirdi. Lukretsi Kar hesab edirdi ki, dünya durmadan daim inkişaf edir, yeniləşir, lakin materiya heç vaxt məhv olmur, materiyaya heç nə əlavə olunmur və əlavə heç nə ayrılmır. Beləliklə, o materiyanın itməməsi qanununu göstərməyə çalışmışdır. Kainat hüdudsuzdur, onun heç bir istiqaməti yoxdur.

Antik platonizmin inkişafının son mərhələsi **neoplatonizmdir** və bu özünün üç mərhələsini keçmişdir. Birinci mərhələdə platonizmin mahiyyətinin yeni mərhələsi elmi nəzəriyyələrə əsaslanmışdır. Sonrakı mərhələ ilahiyyətə xidmət etməklə xristianlığa qarşı çıxmaq, nəhayət, sonuncu mərhələdə qədim yunan fəlsəfəsinin ümumiləşdirilməsi prosesi davam etmişdir. Bu üç mərhələ İskəndəriyyə, Suriya və Afina məktəbləri adı ilə tanındı və başlıca nümayəndələrdən **Plotin və Ammono Sakkas** olmuşdur. Plotinin fikrincə hər şeyin əsasında fövqəlhissi əqldən yüksək olan bir ilahi prinsip dayanır ki, varlığın bütün formaları ondan asılı olmalıdır. O, ilahi prinsipi mütləq varlıq deyə izah etməklə "Allah ideyası"nı nəzərdə tuturdu. Gerçəklikdə baş verən bütün hadisə və proseslərin ondan asılı olması ilə izah edilirdi. Plotin müəyyən qədər ruh probleminə də toxunmuşdur və o belə hesab edirdi ki, ruh ilahi varlıqdan müəyyən qədər maddi varlığa bir keçid anı kimi başa düşülə bilər. Ruhu ümumdünya ruhunun bir hissəsi kimi qəbul etməkdə onun bədən ilə bağlılığını qəbul etməmişdir. Plotin heç də ayrıca özünəməxsus bir təlim yaratmağa cəhd göstərməmişdir. O, Platonun baxışlarını inkişaf etdirsə də, Platondan sonra yaranmış fəlsəfi cərəyan və təlimlər digər cərəyanların və məktəblərin xüsusilə peripatetiklərin və stoiklərin dünyagörüşünə güclü təsir etmişdir. Onun fəlsəfəsinin nailiyyətlərindən biri o idi ki, o dövr fəlsəfəsinə aid olan dualizmi

aradan qaldırmış və idealizmi monizm dünyagörüşü aspektindən şərh etmişdir.

Neoplatonizmə qədər fəaliyyət göstərən nümayəndələrdən biri də **Empirikiadı** qeyd etmək olar. O, allahın adını şübhə altına alırdı. O, sübut etməyə çalışırdı **skeptisizm** başqa fəlsəfi təlimlərdən əsaslı şəkildə fərqlənirdi, o bəzi fəlsəfi təlimlərin məzmununu və nailiyyətini qəbul edirdi və ya digərlərini rədd edirdi. Roma mərhələsində skeptisizmin əsasını qoyan filosoflardan biri də **Elidali Pirron** (e. ə. 360-270) olmuşdur. Onun diqqət mərkəzində etik problemlər xoşbəxtliyə, səadətə çatmaq arzularının təhlili əsas yer tuturdu. O, səadəti həyəcansız sakit tərzdə (Afiraksiya) qəbul etmək və iztirabların isə hansı formada aradan götürülməsini (Apatiyada) axtarırdı. Pirrona görə biz bəzi şeylər haqqında heç nə deyə bilmərik, onlar haqqında mülahizə və mühakimələrdən uzaq durmaq yaxşı olardı. Pirron haqqında belə mülahizə mövcuddur: “Fırtına vaxtı Pirronla gəmidə olan insanların ümüdsüzlüyünü görən Pirron insanları ruhlandırmağa çalışaraq gəmidəki özü üçün yeyən donuz balasını onlara göstərərək demişdir: müdrik adam özünü bax belə həyəcansız saxlamalıdır.” Pirronun anlamına görə müəyyən bir şeyin haqqında yaxşı və ya pis olmasından çəkinməliyik, çünki əks təqdirdə ruhi rahatlıq pozulur.

Plotin də bəzi sələfləri kimi varlığın mənbəyini fövqəltəbii bir başlanğıcda axtarmaqla varlığı vahid adlandırmışdır və mütləq vahidi ziddiyyətlərdən yüksəkdə durması kimi şərh etməyə çalışmışdır. O, ilkin səbəbin maddi mahiyyətli olmasını qəbul etmir və onu ali mənəvi varlıq hesab edir. Plotin ilk səbəbi böyük bir enerji mənbəyində axtarırdı. Çünki, o qeyd edirdi ki, sonsuz mövcudatın yaranmasında hansısa bir enerji mənbəyi olmasaydı, müxtəlif təcəssümdə olan gerçəklik mövcud ola bilməzdi. Plotin mövcud edənlə mövcud olan arasındakı münasibətləri günəşin şüalarına olan münasibəti kimi bənzətməyə çalışmışdır. Çünki günəş kimi vahid varlığın enerjisi heç vaxt azalmır, özünün tamlığı və kamilliyi ilə daim varlığın mahiyyətini saxlamaqdadır. Varlığın mahiyyəti birinci substansiya kimi qəbul edilir. İkinci

substansiyanın ilkin mərhələsi dünya əqlidir. Plotinə görə üçüncü substansiya dünya nəfsi hesab olunur və dünya nəfsinə tamlıqla ideyalar aləmini əhatə edir. Vahidin tənəzzülünün axırıncı mərhələsi materiyanın olmasını qəbul edir. Neoplatonistlərin fəlsəfi dünyagörüşünə görə materiya "qeyri-varlıq", "qaranlıq", "zülmət" kimi şərh olunur, lakin mövcud varlıq səbəb və nəticə əlaqəsində təcəssüm olunur. Bunun əksi olan prosesdə isə nəfs insan bədənindən xaric olaraq dünya nəfsinə və əqlinə keçir və nəticədə vahid varlığa qoşulur.

Plotinin fəlsəfəsində politeizm əsas yer tutmuş və o, nəticədə qədim ilahi dinlərin bütün kultlarını birləşdirməyə cəhd etməklə xristianlığın kənarlaşdırılması məsələsini qarşıya qoymuşdur, hətta Plotin fəlsəfəsini əsaslı surətdə dəyişdirməyə çalışırdı.

Romada yayılmış cərəyanlardan biri də **eklektisiszm** olmuşdur. Bu təlimin görkəmli nümayəndəsi böyük siyasətçi və natiq **Mark Tuli Siseron (e.ə. 45-106)** olmuşdur. Eklektiklər fəlsəfənin nümayəndələri ensiklopedik zəkaya malik olan adamlar idi. Onlar real gerçəkliyin dərk olunması məsələsi ilə məşğul olmuşdur. Onlar siyasi aspektdən **monarxiyanın, aristokratiyanın və demokratiyanın kombinasiyasını** dövlətin ən yaxşı quruluşu kimi qəbul etmişdirlər. Onların fikrincə insanların təhlükəsizliyinin təmin olunmasında mülkiyyətdən azad istifadə etmək hüququnu əsas məqsəd kimi qarşıya qoyulmasıdur.

Antik fəlsəfə bəşəriyyətin fəlsəfi fikir dünyasında və onun tarixində əsas yer tutmuş və Şərq fəlsəfəsi ilə varislik əlaqələrini yarada bilmişdir. Bu dövr fəlsəfəsinin səciyyəvi cəhəti ondan ibarətdir ki, bütövlükdə təbiətin, kosmosun, kainatın sirlərinin və mahiyyətinin dərk olunması əsas hesab olunmuşdur. Dünya fəlsəfi irsinin mahiyyətini özündə axtarmış və bəşər dünyasının sonrakı inkişaf mərhələlərinə güclü təsir göstərmişdir.

# IV FƏSİL

# AZƏRBAYCANDA FƏLSƏFƏ (VII-XIII əsrlər)

**1. Kitabi Dədə Qorqud dastanında fəlsəfi anlamlar**
**2. Azərbaycanda dini-fəlsəfi təlimlər və cərəyanlar**
**3. Azərbaycan dini-fəlsəfi dünyagörüşündə peripatetizm**
**4. Azərbaycan dini-fəlsəfi fikir tarixində sufizm, panteizm, hürufilik və işraqilik**
**5. Azərbaycanda neoplatonizmin dini-fəlsəfi əsasları**
**6. İslam dəyərlərində mənəvi-əxlaqi xüsusiyyətlər**

## 1. Kitabi Dədə Qorqud dastanında fəlsəfi anlamlar

Hər bir xalqın mənəvi dünyasında onun ədəbiyyatı nə qədər qədimdirsə, onun müasir təsir dairəsi də daha qüvvətli olur. Azərbaycan xalqı bu cəhətdən xoşbəxtdir ki, onun sənət abidəsi olan "Dədə Qorqud" dastanı mənəviyyatımızın mənəvi enerji mənbəyidir, çünki dastanın söz xəzinəsi bitib-tükənməzdir. Təəssüflər olsun ki, xalqımızın yaddaşını silməyə çalışan, qəhrəmanlıqla dolu olan tarixini dünyanın başqa xalqlarının mədəniyyətinə və ədəbiyyatına calamaq istəyənlərə bildirmək istəyirik ki, bu dastanda Bərdə, Gəncə kimi şəhər adları, Qafqaz (Qazılıq) adı, Göycə göl tərəflərdə Altaxtant yaylası, Əlincə qalası, Qara Dərbənd, Dəmir qapı, Dərbənd, Tatyan qalası, Şirak düzənliyi, Ağlağan dağı, Qan Alqaza eli, Sürməli və s. kimi yerlər oğuzların Qafqaz ərazisində yaşadığını, Azərbaycanın qonşu ölkələrlə sıx əlaqə saxladığını sübut edir. Səlcuqların Azərbaycana kütləvi gəlişi təsdiq edir ki, Azərbaycanda oğuz dastanının formalaşması və yazıya alınmasını islamdan sonrakı dövrə, X-XI əsrlər dövrü məqsədəuyğun, həm də əlverişli mühit kimi qəbul edilmişdir. Doğrudur, dastanın heç bir yerində onun yaranması ilə bağlı məlumat verilmir. Yalnız dastanın müqəddiməsində verilən "Rəsul Əleyhissəlam zamanına yaxın Bayat boyundan Qorqud ata deyərlər, bir ər qopdu" cümləyə görə

belə fikir formalaşır ki, dastan VI-VII əsrlərdə yaranmışdır. Tədqiqatçılar (S.Əlizadə, F.Zeynalov) təsdiq edirlər ki, dastanda cərəyan edən hadisələr real olaraq VI-VII əsrin hadisələri ilə üst-üstə düşür. Məsələn, şərabın və at südünün içilməsi, qadınların başıaçıq, çadrasız gəzmələri də əsərin bu dövrdə, yəni islamdan qabaq yaranmasını sübut edir. Ərazi baxımından oğuzlar bir el (dövlət) yaradıb. İç Oğuz, Dış Oğuz adlanan qərargahda mərkəzləşmişdir. İç Oğuz Kür - Araz qovşağını qədim Arran ərazisini, Dış Oğuz isə indiki Cənubi Azərbaycanı əhatə edir.

Məlumdur ki, "Kitabi-Dədə Qorqud" dastanı 12 boydan (dastan) ibarətdir. Hər bir boy müstəqil sənət olmaqla, oğuz elinin həyatını, hadisələrini özündə əks etdirmişdir. Bu dastan Azərbaycan xalqının etnoqrafiyasını, tarixi coğrafiyasını, dilini, mədəniyyətini, dünyagörüşünü, sosial-siyasi və əxlaqi baxışlarını, bir sözlə, mənəvi dünyasını özündə təcəssüm etdirən misilsiz fəlsəfi sənət nümunəsidir.

Dastanın bir çox boylarında mərdlik, qəhrəmanlıq, şücaətlilik, ədalətlilik kimi müsbət mənəvi dəyərlər öz əksini tapır. Bu onunla əlaqədardır ki, belə müsbət mənəvi dəyərlər qədim Azərbaycan ərazisində yaranmış və mövcud olmuş dini-fəlsəfi təlimlərdən biri olan "Avesta"da xeyrin şər ilə mübarizəsi kimi olan cəhətlər öz təsirini göstərmişdir. Dastandakı şifahi ədəbiyyat nümunələrindən, həmçinin yazılı ədəbiyyatdan məlum olur ki, zərdüştlüyün təsiri açıq-aydın hiss olunur. Belə müqayisə etmək olar: dastanda və "Avesta"da Təpəgözdən, onun adam yeməsindən, pərilərdən, sehrli üzük və qılıncdan, şər qüvvələr-divlər, pərilər, qəhrəmanlardan bəhs olunur ki, bu və hər iki abidənin mənəvi baxımdan bir-birini tamamlamasıdır.

Qəhrəmanlıq eposu dastanda etik-estetik düşüncəni bütöv halda əks etdirən faktlar yazılı və şifahi şəkildə bu günümüzə qədər gəlib çatmışdır. "Dədə Qorqud" dastanının "Dəli Domrul" boyunda Dəli Domrul aparıcı bir qəhrəman kimi oxucuların diqqətini cəlb edir. Ümumiyyətlə, "Dədə Qorqud" eposunda oğuz elinin qəhrəmanlıq tarixi, vuruş və döyüş ənənələri təsvir olunur. Oğuz elinin qəhrəmanlıq və döyüş ənənələri ilə yanaşı,

həmçinin onların sakit həyat tərzi, dinclik mərhələsi də müəyyən dərəcədə öz ifadəsini tapmışdır. Ayrı-ayrı boylarda kifayət qədər dəlil və sübutlar vardır. Məsələn, dastanın "Buğac xan" boyunda məhz Bayandır xanın "Toy edib, atdan-ayğırdan, dəvədən, buğra, qoyundan qoç qırması" faktını qeyd edə bilərik.

Dastanda Dədə Qorquddan sonra ən çox adı çəkilən Bayındır xan hesab olunur. O, 90 minlik qoşunu olan Bayındır xan Oğuz elinin hökmdarıdır. O, ildə bir dəfə Oğuz bəylərini başına toplayır, bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə isə qara otaq qurduraraq şadlıq məclisi təşkil edirdi. "Dədə Qorqud" boylarından belə başa düşmək olar ki, əsas məqsəd vətəni müdafiə etmək və onun bütövlüyünü xarici düşmənlərdən qorumaq məqsədi güdürdü. "Dədə Qorqud" boylarında kişilərlə yanaşı qadınlar da qəhrəmandır. Burla xatun, Banuçiçək, Selcan xatun, Dirsə xanın arvadı və s. kimi xatunlar qəhrəmanlar sırasındadır. Dastanda qadınların ümumi mövqeyindən, analıq şərəfindən, döyüş igidliyindən, saf məhəbbətdən, ailə namusu və s. kimi müsbət mənəvi keyfiyyətlərdən danışmaq olar. Göstərilir ki, qadın hər şeydən əvvəl anadır. "Ana haqqı" "Tanrı haqqı"ına bərabər tutularaq, ana sanki tanrı kimi uca hesab olunur, müqəd-dəsləşdirilir. Burada ailə şərəfi, qadınlıq namusu, saf sevgi uğrun-da mübarizə əsas yer tutur. "Salur Qazanın evinin yağmalanması boyu"nda da Burla xatun səhnəsini təqdim etmək olar. Burla xatun ər namusu, ailə şərəfi, oğul dağı ilə əzab çəkir və dastanda belə müraciət səslənir:

Qiyma, qiyma ağ ətindən çəkin,
Qara qovurma edib,
Qırx bəy qızına aparın.
Namus hissindən doğan belə bir qəzəbli cavab:
Qara qovurma edib,
Qırx bəy qızına aparın. Hər kimi yedi, o deyil.

Hər kim yemədi, o, Qazanın xatunudur,
Qoy məni, xanım ana, çəngələ sancsınlar!

Qoy ətimdən çəksinlər, qara qovurma edb,
Qırx bəy qızının önünə aparsınlar.
Onlar bir yeyəndə, sən iki dəfə ye.
Kafirlər duymasınlar, səni tanımasınlar.

(Kitabi-Dədə Qorqud. Əsli və sadələşdirilmiş mətnlər. Bakı, ”Öndər nəşriyyat”, 2004, səh. 376-195).

Oğuz elində ailə namusu və övlad məhəbbəti hər şeydən üstün tutulurdu. Ümumiyyətlə ”Dədə Qorqud” boylarından aydın olur ki, əsas ideya yüksək humanizmə əsaslanır. Dastanda Azərbaycan xalqının tarixi keçmişi, milli adət və ənənələri əks olunur. Burada kifayət qədər müdrik və mənalı baxışlar, zərif bəşəri duyğular kifayət qədər tərənnüm edilir. Dastanın müxtəlif boylarından oğuz igidlərinin hay-harayı, qılıncların sədaları, axar suların şırıltısı, şahanə atların nal səsi, müqəddəs qopuzun-sözün sehrini aydın eşitmək olar. Əcdadlarımızın zəngin idrak və təxəyyülünün məhsulu olan möhtəşəm abidə kimi “Kitabi Dədə Qorqud” dastanında  həyat, insan, varlıq, ölüm, həyatın mənası, əxlaqi dəyərlər və s. kimi baxışlar əks olunmuşdur. Bir sözlə, “Kitabi Dədə Qorqud” dastanının həyat fəlsəfəsi Azərbaycan fəlsəfi fikir dünyasının formalaşmasında və zənginləşməsində əsas rol oynamışdır.

## 2. Azərbaycanda dini-fəlsəfi təlimlər və cərəyanlar

İslamdan əvvəl müxtəlif dövrlərdə Azərbaycanda günəşə, aya, suya, oda, bitkilərə və heyvanlara da sitayiş edilmişdir. Strabonun verdiyi məlumatlara görə Albaniyada Heliyə (Günəşə), Zevsə (Göyə), xüsusilə, Selenaya (Aya) etiqad formaları mövcud olmuşdur. Antik coğrafiyaçılar Aya sitayiş məbədinin İberiya yaxınlığında yerləşdiyini göstərsə də, müasir tədqiqatçılara görə baş məbəd Qəbələ ərazisində olmuşdur (Халилов Д. А. Материальная култура Кавказский Албании, Баку. Элм. 1985. Стр. 187-198).

Bizans və Sasani imperiyalarının tez-tez qarşıdurmaları nəticəsində təsirə məruz qalan Azərbaycan zərdüştlüyü, xristianlığı və hətta yəhudiliyi belə tanıyıb bilmişdir. Məlumdur ki, IV əsrdən xristianlıq Albaniyaya yayılır, xristian dini mətnləri yerli dilə tərcümə olunur.

Beləliklə, islamın yayılmasından qabaq Azərbaycanda yüksək inkişaf etmiş mədəniyyət yaranmaqda idi. Azərbaycanlılar islam dinini mədəni irsə malik olan bir xalq kimi qarşıladı. İslamdan əvvəl mövcud olan mədəni irs artıq islam dini şəraitində Azərbaycanda dini, fəlsəfi, ədəbi fikrin, elmin, mədəniyyətin inkişafında spesifik rol oynadı.

İslamın yayılmasından, təqribən, 100 il sonra müsəlmanlar arasında elmi irsə xeyli maraq yaranmışdı. Tibb, astronomiya, coğrafiya, riyaziyyat, mexanika, həndəsə və digər elmlər sürətlə inkişaf etməyə başladı. Bununla yanaşı mədrəsələrdə islam elmləri (Quran, hədis, təfsir, fiqh, ərəb dili və s.) tədris edilirdi. İslam fələsfəsinin mənşəyində müsəlman dini əsas yer tutur, bu fəlsəfə islamın müqəddəs kitabı Qurani-Kərimin ehkam və müddəalarına verilən dəyər izah və şərhlərdən başlamışdır. İslam fələsfəsi məlumdur ki, beynəlmiləl bir fəlsəfədir. Bu sırada biz cabbarilər, qədərilər, kəlamçılar, mötəzillər kimi dini təlimlərin adlarını çəkə bilərik. Bundan başqa bu təlimlərin təsisçilərindən **Əl-Kindi, İbn-Rüşd, Əl-Qəzalı, Əl-Fərabi, İbn-Sina və Ə.Bəhmənyarın** adını çəkə blərik. İslamda **panteizm, peripatetizm, neoplatonizm** və digər cərəyan və məktəblər diqqəti cəlb edir.

İslam fələsfəsində dini fəlsəfi təlimlərdən biri "**Kəlam**"dır. Kəlam - fəlsəfi mülahizələr vasitəsilə həqiqətə çatmağı izah edən bir anlayışdır. Kəlam anlayışından islamın dini-fəlsəfi təlimlərinin əksəriyyətində geniş istifadə olunur. Geniş mənada kəlam ilkin orta əsrlərin müsəlman ədəbiyyatında dini-fələsfi mülahizələrə tətbiq edilərdi. İslam dünyagörüşündən həmçinin mütəkkəllimlər, sufi tərkidünyaları, həm də filosoflar geniş istifadə edirdilər.

**Mütəkkəllimlər** kəlam təəssübkeşləri adlandırılırdı. Mütəkkəllimlər bir növ yunan sofistləri kimi hərəkət edirdilər.

Mülahizələrin inandırıcı şərhi mütəkkəllimlər üçün dini ehkamlar, filosoflar üçün isə elmi sübutlara əsaslanan müzakirələr əsas götürülürdü. Bir sözlə deyə bilərik ki, kəlam geniş mənada dini-fəlsəfi təlimlərə həsr olunmuşdur. Dar mənada isə kəlam islam ehkamlarının zəkaya əsaslanmasıdır. Zəkaya müraciət etmək kəlamı fəlsəfə ilə əlaqələndirmədə bir vasitə hesab edilirdi.

İslam filosofları kəlamın elmlərdən fərqini onda görürdülər ki, fələsfi mülahizə metodu **apodiktiv (sübut etmək)** xarakter daşıyır, amma mütəkəllimlərin kəlamı isə mübahisə əsasında sübut olunmağa səy göstərilirdi ki, bu da elə bil qədim yunan filosoflarının dialoq aparmaq üsulunu xatırladırdı.

Kəlamın nəzəri əsası VII-VIII əsrlərin qovşağında Suriyada, İraqda və Misirdə meydana gəlmiş **çəbrilər** (cabbarilər), **mötəzililər**, **qədərilər** arasında gedən mübahisəni təşkil etmişdir. Mütəkkəllimlərin məscidlərdə təşkil etdikləri dini-fəlsəfi disputlara qoşulması, kəlamın mənəvi qüvvəsini daha da artırırdı. Belə bir prinsip ifadə olunurdu ki, hər bir şəxsin dindar olması üçün dini ehkamların həqiqiliyinə şübhə ilə yanaşmaq tələb olunurdu. Bu tələblərdə heç bir nüfuzlu mənbəyə istinad etmədən fərdi zəkaya əsaslanan metod əsas götürürlər və bu qeyd olunan tezislərlə problemin şərhinə çalışılır: **1. Müsəlmanların başçısının keyfiyyəti; 2. İnsanın öz hərəkətinə görə məsuliyyət daşıması; 3. İnsanın sadə müsəlman, həqiqi dindar, kafir və günahkar olmaması; 4. Allahın təkliyi və onun mahiyyəti; 5. Qurani-Kərimin zaman daxilində yaranması.**

VII-IX əsrlərdə dini-fəlsəfi istiqamətlərdən biri **mötəzililik** (ayrılan) adlanırdı. Banilərindən əsas **Vasil ibn Ata Əmir ibn-Ubayd, Həsən əl-Bəsiri** hesab olunmuş və onlar digər dini təlimlərdən ayrılaraq özlərinin müstəqil təlimilərini yaratmışlar. Mötəzililər kəlamla mütəkkəllimlər arasında dini-fəlsəfi istiqamətlərdən biri idi və onlar xilafətin dini-siyasi həyatında əhəmiyyətli rol oynadı.

Mötəzililiyin banilərindən biri olan **Vasil ibn Ata** Mədinədə anadan olmuşdur, sonra Bəsrəyə köçür və orada **əl-Həsən əl-Bəsrinin** yaratdığı dərnəyinin fəal üzvü olur. Bir müddət sonra

günah etmiş insanın taleyinin müəyyənləşməsi məsələsində əl-Bəsri ilə razılaşmır və dərnəyi tərk etmiş olur. Bununla da o, mötəzilithe (ayrılanların) əsasını qoyur. Vasil ibn Ata öz təlimini yaymaq üçün müxtəlif bölgələrə Məğribə, Xorasana, Yəmənə, Əlcəzairə səfər edərək öz nümayəndələrini kiçik Asiya və Qafqaza göndərir. Onlar mötəziliiyi təbliğ etməklə Əməvilər hakimiyyəti əleyhinə təbliğat işi aparmışlar.

Araşdırmalara görə Vasil ibn Ata tərəfindən mötəzililik doktrinasının əsası qoyulur və ilahiyyət tezislərinin prinsiplərini aşağıdakı kimi şərh etmişdir: **a) siyasi mövqe baxımından xaricilikdən imtina etmək; b) Əli və onun əleyhdarları arasında "ağ dəvə" və 657-ci ildə baş vermiş "Siffin" döyüşlərində tərəfdarlardan birinin günahkar olmasının müəyyənləşdirməsi.** O, bir neçə əsərin müəllifi olmuşdur. **"Əl-Mənziləbaynəl-mənzilatayn", "Ət Douhid və əl-ədl", "Təbakat əhl əl-ilm və əl-həqq", "Əs-Sabil ila marifat əl-haqq"** kimi əsərlər müsəlman tarixində xüsusi rol oynamışdır. O, həqiqətə çatmağın dörd mühüm şərtlərini qəbul etmişdir: **1) müqəddəs kitab; 2) dəqiq, inanılmış və yekdilliklə qəbul edilmiş xəbər; 3) əqli nəticəyə əsaslanan sübut; 4) icmanın yekdil rəyi.**

Mötəzililər allahın atributlarını inkar edərək dini imanla zəkanı qarşı-qarşıya qoyurdular, bir sözlə fəlsəfəni dinin tabeliyinə verirdilər. Mötəziliiyin 5 əsas prinsipi digər görkəmli ilahiyyatçı-filosoflar tərəfindən formalaşdı və bu aşağıdakı kimi idi. 1. "**Əl-Ədl**" (ədalət), 2. "**Əl-Touhid**-təkallahlılıq, 3. "**Vəd və hədə-qorxu"** (allah öz vədlərini və hədə-qorxularını mütləq yerinə yetirirlər), 4. "**Orta vəziyyət"** (günah işlətmiş müsəlman kafir hesab olunmur, yəni orta vəziyyətdə qalır). Bu prinsip çox mübahisəli prinsip kimi qəbul olundu. 5. **"Əmr bi maarif" və "nəhl-münkar**" (Pis əməlin qadağan edilməsi və xeyirli əməlin hökm edilməsi).

Mötəziliiyə qarşı duran təlimlərdən biri **"Əl-əşariyyə"** məktəbi idi. **Əl-Əşrinin** adı ilə bağlı olan bu təlim iradə azadlığının müdafiəçilərindən idi. Onlar söyləyirdilər ki, allah insanı

xeyir və şər əməllərinə qadir vücud kimi yaratmışdır. “Əl-əşariyyə məktəbi”nə görə dünya və allah sonlu, səbəb-nəticə əlaqələri allahın müəyyən etdiyi ardıcıllıq kimi qeyd olunur. Bu təlimdə peripatetik fəlsəfəyə meyl olunmuşdur.

İslamda şiə təriqəti içərisində tanınmış təlimlərdən biri də **batinlik** idi. Tərəfdarlarından **ibn-Maymun, Həsən ibn Sabbah** adını qeyd etmək olar. Batinliyə görə hər şeyin gizli mənası vardır. Batinlər Xəlifə hakimiyyətini qəbul etmirdilər, onlar imam hakimiyyətini qurmağa çalışırdılar. Onlara görə insan hər şeyin bilicisi hesab olunur, dünya çox qədimdir və o yoxluqdan yaranmışdır. Onlar ruhları 2 yerə bölürlər. **1) Xeyirxah ruhlar, 2) Şər ruhlar.** Xeyirxah ruhlar səmanın ən yüksək qatına qalxırlar və ilahi ruha qovuşurlar, şər ruhlar isə bir cəsəddən digər cəsədə keçərək bəd əməllərini davam etdirirlər.

İslamda daha digər dini-fəlsəfi təlimlərdən və cərəyanlardan **sifatiliyin, cəbriliyin**, **qədəriliyin** adlarını çəkə bilərik. Bu təlimlərin mahiyyəti bir-birindən fərqli idi. Sifatiliyin banisi olan **Əbuabdulla Məhəmməd ibn Kərram** olan sifatilər Allahın antopomorf atributlara malik olmasını qəbul edirdilər. Ümumiyyətlə sifatilərə qarşı mübarizə aparan cərəyanlardan cəbrilər və qədərilərin adını qeyd etmək olar. Bu təlimlərin ümumi bir mübahisəli məsələsi var idi ki, bu da iradə azadlığı məsələsi idi. Cəbrilərin banisi olan **Cəhm ibn Səfvan Səmərqəndi** insanın taleyinin qabaqcadan müəyyən edilməsini qəbul edirdisə, lakin qədərilərin banisi olan **Məbud Çühəni** insanın öz hərəkətlərində sərbəstliyi, iradə azadlığını qəbul edirdi. Cəbrilərə görə fatalizm təbliğ olunur, Allah təkcə xeyirxah atributa malik deyil, həm də qəzəblidir. O qeyd edirdi ki. Quran müəyyən bir zaman ərzində nazil edilmişdir. Qədərilər (qədəriyyə sözündəndir) göstərir ki, Allah insanın bütün hərəkətlərini müəyyən edirsə, onda bəndələr bəd əməllərinə görə cəzalandırılmalıdır, axı insanlar azad iradə sahibləridir, ancaq öz günahlarına görə allah qarşısında cəzalandırıla bilər.

İslam fəlsəfəsinin dini baxışlarda tam öz əksini tapan mənbələrdən biri də ümumi bir adda **Əl-Mürciyyə (təxirə**

**salmaq)** adı ilə tanınmışdır. Əl-Mürciyyə sxolastik islam dini fəlsəfi mənbələrinin ümumi adıdır. Burada əsas məsələ dini iman məsələsidir. İlk öncə dini iman əsas götürülməli, sonra isə insanın taleyi, sosial vəziyyəti əsas götürülə bilər. Deməli, müridlər fəlsəfi problemləri dini etiqad tələblərindən asılı edir və fəlsəfəni dinə tabe etdirirdi.

IX-XI əsrlərdə İslam fəlsəfəsində geniş fəaliyyət göstərmiş cərəyan və təlimlərdən biri "**İhvani-Səfa**" (Paklıq qardaşları) olmuşdur. Bu təlimin məqsədi müsəlmanlar arasında dini və elmi bilikləri təbliğ etməkdən ibarətdir. Bu təlimin tərəfdarları özlərinin fəlsəfi-elmi biliklərini dörd cildlik ensiklopediyada əks etdirə bilmişdir: **1) fəlsəfi və riyazi elmlər, 2) təbii və cismani elmlər, 3) psixoloji və əqli elmlər, 4) Quran və ilahi elmlər.** "Saflıq qardaşları" təlimi həm yunan mifologiyasını, həm də yəhudi və xristianlıq baxışlarını eklektik şəkildə özündə birləşdirirdi. Onların bu eklektikizmi biliyə və idraka münasibətdə də özünü açıq şəkildə biruzə verərək rasionalizmi birləşdirməyə çalışmışdır. Saflıq qardaşları elmlərin təsnifatını da müəyyənləşdirmişdir: **1. Məntiq və riyazi elmlər, 2. Təbiət elmləri, astronomiya və fizika, 3. Zehni elmlər -psixologiya, 4. İnsanda metafizik (mənəvi) prinsiplərin təzahür olunması, 5. Bütün elmlərin başlıca hədəfi olan əxlaq elmi.**

Bu təlimin fəlsəfi-dini dünyagörüşünə əsasən mövcud olan hər şey öz nurunu ilahidən alır. İnsan ruhu əbədidir və bu ruh zəkaya qədər yüksələ bilir. Təlimdə göstərilir ki, təbiətdə daim dəyişikliklər baş verir və bunlar təkamül prosesinə əsaslanır.

### 3. Azərbaycan dini - fəlsəfi dünyagörüşündə peripatetizm

Bir sıra şərq mütəfəkkirləri islamla yanaşı dünyəvi elmlərə, xüsusilə Platon və Aristotel fəlsəfəsinə müraciət edərək özünəməxsus bir fəlsəfi mövqe müəyyənləşdirdilər. Onlar müstəqil dini-fəlsəfi əsərlər yazaraq sübut etməyə çalışırdılar ki, bunlar öz növbəsində müsəlman baxışları sistemində dəyişikliklər olunmasını tələb edirdilər.Belə bir mövqedə olan fəlsəfi məktəb

**peripatetizm** adlanırdı. Bu ifadənin mənasına görə, öz baxışlarını gəzərək izah etmək və ya nəql etmək kimi başa düşülürdü. Yəni peripatetizm ərəbcə **“məşşailik"** sözündəndir. Şərq filosofları müsəlman cəmiyyətinin mənəvi tələbatına uyğun olaraq mühüm əhəmiyyət kəsb edən təlimlərin və məktəblərin inkişafına rəvac verdilər. Bunların əsasında **peripatetizm, neoplatonizm, panteizm** və s. kimi fəlsəfi-dini məktəblər həm də Azərbaycanda inkişaf etməyə başladı. Peripatetizmin görkəmli nümayəndələrindən **Əbu-Reyhan Biruni (973-1048), Yaqub əl-Kindi (801-872), Əl-Fərabi (870-970), İbn-Sina (980-1037), İbn-Rüşd (1126-1198), Əbülhəsən Bəhmənyar (993-1066), İbn əl Mukaffa Abdallah (724-760)** və digərlərinin adlarını qeyd edə bilərik.

**Əbu Reyhan Biruni** öz dövrünün elmləri sahəsində xeyli nailiyyətlər əldə etmişdir və 150-yə yaxın əsərlərin müəllifi idi. Onun **“Hindistan tarixi”, “Qədim xalqların xronologiyası”, “Ötən nəsillərin yadigarları” və s.** kimi əhəmiyyətli əsərləri xüsusi məzmuna malik olan əsərlərdir. O, elm sahəsində geosentrik sistemi müdafiə etməklə yanaşı riyazi mövqedən heliosentrizmin mümkünlüyünü qəbul edirdi. Mütəfəkkir allahın varlığını qəbul edir və materiyanın hər şeyin əsasında olduğunu qəbul etmişdir.

Daha sonra şərqin ilk **Aristotelçisi peripatetik “ərəblərin ilk filosofu”** adını almış **Əl-Kindini** qeyd etmək olar. Əl-Kindi elmləri bölgüsü ilə bağlı fikirlərini irəli sürmüş və Aristotelin kateqoriyalar anlayışını təhlil etmişdir. Əl-Kindi Aristotel fəlsəfəsindəki “ilk səbəb”, “ilk təkanverici” məvhumları öz-özünü dərk edən “vahid və əbədi olan Allahı nəzərdə tutmuşdur. O, fəlsəfi axtarışın başlıca funksiyasını həqiqətə çatmaqda görürdü. O, özünün varlıq haqqında təlimində aləmi 2 sahəyə ayırırdı: **1) dörd ünsür nəticəsində yaranan şeylər aləmi, şeylər aləminin özü isti-soyuq, quru-yaş kimi keyfiyyətlərə malikdir. 2) Aydan o tərəfə dünyanın kənarına qədər olan aləmlər toplusu. Onun fikrincə bu aləmin mərkəzi Yer kürəsidir.**

**Əl-Fərabi** peripatetizmin Şərq dünyasında geniş yayıldığı dövrdə yazıb yaratmışdır. Onun fəlsfi dünyagörüşünə görə hər bir insan cismani təlabatını cilovlamalıdır və həqiqəti öyrənməyi özünə məqsəd qoymalıdır.

Əl-Fərabiyə görə elmlərin təsnifatı belə şəkildə izah edilir: 1. Dil elmi və onun hissələri, 2. Məntiq elmi və onun hissələri, 3. Dəqiq elmlər, 4. Təbiət elmləri və ilahiyyat elmi, 5. Mənəvi-ruhi elmlər. O, özünün fəlsəfi araşdırmalarını mənt dən başlayır. Çünki məntiq elmi insanı fikri xətalardan qoruyur və qanunlar vasitəsilə bəşəriyyəti öz hərəkətlərinə nəzarət etməyə çağırır.

Əl-Fərabi Demokritin atomist təlimini qəbul etmirdi. O, Aristotelin materiya və forma anlayışına daha üstün yer verirdi. Onun fikrincə materiya və formanın vəhdətindən cisimlər yaranır və bu cisimlər yeni-yeni formalara düşərək dəyişirlər. O, qeyd edirdi ki, aləmin əvvəli və sonu var və onun yaradıcısı Allahdır. Allah öz-özünü dərk edərək varlığın zirvəsində dayanır. O, təkdir, hər şeydir və bütün mövcudartın mayası "O"-dur.

Əl-Fərabi qeyd edirdi ki, "insan əqli ilahi əqli qavraya bilməz, ilahi həqiqətə eşq və vəcd ilə çatmaq olar. Əl-Fərabi fəlsəfəsi islam dini dünyagörüşünə daha yaxındır. O, fəlsəfəni əqli mühakimələrə əsaslanan elm hesab edirdi. O, fəlsəfəyə aid 100-ə qədər əsər yazmışdır. Onun **"Müdrikliyin incisi" (isbat-əl-əql) və "Xeyirxah şəhərin sakinlərinin baxışları haqqında traktat"** adlı əsərində cəmiyyətin fəlsəfi, ictimai-siyasi baxışları əsas yer tutur. Onun əsas arzusu zor işlədilməyən cəmiyyətin mövcudluğu və əsarətsiz, müharibəsiz, dostluq və qarşılıqlı yardıma əsaslanan birgə yaşayış normalarının tətbiq edilməsidir.

Dahi müsəlman dünyasının mütəfəkkirlərindən biri **İbn-Sina** olmuşdur. O fəlsəfi bilikləri ilə yanaşı təbabət elmini çox gözəl bilirdi. O, Buxara şəhəri yaxınlığındakı Əfsanə kəndində anadan olmuş, hakimlik fəaliyyətinə Buxaradan başlayaraq Xarəzm, İsfahan və Həmədan hakimlərinin sarayında hakimlik etmişdir.

Təbiət elmlərinin dindən asılı olmayaraq öyrənilməsini məsləhət görən İbn-Sina belə qeyd edirdi ki, əgər Allah dünyanın

ilkin səbəbi kimi əbədidirsə, onda ilahinin yaratdığı bu dünya ilahinin nəticəsi olaraq o da əbədidir. O, varlığın 3 əsas növünü göstərmişdir: **1) Zəruri varlıq - Allah, 2) Mümkün varlıq-gerçək aləm, 3) Qeyri-mümkün varlıq-maddi əsası olmayan ümumi anlayışlar.**

Onun **"Əş-Şəfa"** və **"Nicat"** əsərləri İbn-Sinaya şöhrət qazandırdı. O, fələsfəni iki hissəyə ayırırdı: **1) Nəzəri hikmət (buraya humanitar elmlər daxil edilir). 2) Əməli hikmət (buraya siyasət, iqtisadiyyat və əxlaq aiddir).** İbn-Sina atomizmi qəbul etmirdi. Onun fəlsəfi baxışlarında əxlaqi məsələlər də özünəməxsus yer tutudu. Onun fikrincə mövcudatın ilk səbəbi tək olan Allahdır. Hansısa xeyir və şər əməllər Allahdan irəli gəlir. Allah insanları şər qüvvədən qoruyur. İnsan ilahi aləmə bağlanmaqla şər əməldən uzaqlaşıb xeyirə qovuşmaq imkanına malik olur. Daha doğrusu onun fikrincə, Allah insanlara xeyir və şəri seçməkdə iradə azadlığı verir və xeyri seçən insanlara daim yardımçı olur.

Məlumdur ki, Aristotel fəlsəfəsi peripatetiklərin yaradıcılığında əsas yer tuturdu. Belə bir yaradıcılığın müəyyən istiqamətini tətqiq və təbliğ edən filosoflardan biri **İbn-Rüşd (Averroes)** idi. O, Avropada **"avverroizm"** adlanan fəlsəfi cərəyanın əsasını qoymuşdur. İbn-Rüşd İspaniyanın Kordovo əyalətində anadan olmuşdur, Seviliya və Kordovanın qazisi olmuşdur.

İbn-Ruşdun **"Təkzibin-təkzibi" (Təkafut əl-təkafut)** əsərinin fələsfə tarixində mühüm yeri varm. Bu əsərdə müəllif **Əl-Qəzalinin "Filosofların təkzibi"** adlı əsərinin fəlsəfi ideyalarına qarşı çıxmışdı. O, varlığın yaradılmasının islam dini konsepsiyası ilə razılaşmırdı. O, qeyd edirdi ki, dünyanın əvvəlində ilkin olaraq materiya mövcud olmuş və özlüyündə bu materiya sonsuz və əbədi olmuşdur və nəticədə Allah materiyanın daxili imkanlarını hərəkətə gətirmişdir. O, şərh edirdi ki, əgər hərəkət varsa orada zaman vardır, eləcə də kainat intellektdən əmələ gələn ruh tərəfindən idarə olunur və onun **"İkili həqiqət"** adlı əsəri orta əsr Avropa fəlsəfəsində tanınmış oldu, bununla da

o qərb ilə şərq arasında bir körpü rolunu oynadı. İbn-Rüşdün fəlsəfi dünyagörüşünün əsasında əsas 3 ideya dayanırdı: **a) maddi dünyanın əbədiliyi, b) aləmdəki bütün hadisələrin zərurən səbəbiyyət əlaqəsində olması, c) fərdi olan hər şeyin, o cümlədən də insan ruhunun ölməsi.** O, axirət dünyasını qəbul etmirdi, ölməzlik ayrıca insana məxsus deyil, bütövlükdə bəşəriyyətə xas olan keyfiyyətdir. İbn-Rüşd bütövlükdə fəlsəfi dünyagörüşü ilə **"ikili həqiqət" nəzəriyyəsini** yaratdı və bunlar bir-birindən ayrılmaz tərəflər olan fəlsəfi və ilahi həqiqət idi.

İbn Rüşd əxlaqi görüşlərində fəlsəfi baxışları elə bil əsas kimi qeyd etməmişdir. O, insanı bir ixtiyar sahibi kimi müəyyən edir və insanın məhdud və tabeli ömür sürməsi məcburiyyətini qəbul edir. O, əxlaqi görüşündə "yaxşı və pis" Allahın buyurduğuna görə yaxşı və pisdir. Yaxşı və pis olmaq əqldən asılıdır. Əxlaqi görüşlərində qeyd edir ki, insanın varlığı kollektivdə tanınır. Hər bir insan öz xoşbəxtlik payını kollektivin xoşbəxtlik payından götürməlidir.

İbn-Rüşdün əxlaqi baxışlarında "xeyir" Allahın buyruğuna görə xeyirdir və ya əksinə "şər" də ilahinin buyruğuna görə şərdir ideyasına qarşı çıxır. İbn Rüşdə görə hər şey özündən asılı olmayaraq "xeyir" və ya "şər"dir. Bunun hər ikisi əqldən asılıdır.

**Əbülhəsən Bəhmənyar** orta əsr Azərbaycan filosofu İbn Sinanın şagirdi olmuşdur və peripatetizm fəlsəfənin təhlilində müəllimi İbn Sina ilə tam razılaşmış və onunla ortaq fikir birliyində olmuşdur. Onun **"Təhsil", "Metafizikanın mövzusu", "Mövcudatın mərtəbələri"** adlı əsərləri bir sıra dillərə tərcümə olunmuş və Avropanın müxtəlif kitabxanalarında saxlanılır.

**Ə.Bəhmənyar** müəllimi kimi varlığın iki hissədən substansiya və aksideksiyadan ibarət olduğunu göstərir. Substansiyanın mahiyyət olduğunu qeyd edərək bildirirdi ki, mahiyyət olmayan substansiya ola bilməz. O, mövcudatın mərtəbəliliyini qəbul edən Bəhmənyar dünyanın zamana başlanğıcını qəbul etmirdi. O, substansiyanın aşağıdakı formalarını qəbul edirdi ki, bunlar materiya, forma, cisim, nəfs və əqldən ibarətdir. Bizi maraqlandıran cisim filosofa görə materiya və formadan yaranır

və duyğu ilə qavranılır. Nəfsi şərh etdikdə isə onun 3 növü qeyd olunur: bitki, heyvan, insan.

O, özünün fəlsəfi əsərlərində **(“Məntiqə dair zinət”, “Gözəllik və səadət”, “Musiqi”, “Metafizika**”**)** elmin əksər sahələrindən, ontologiyadan, qnoseologiyadan, məntiq və etikadan bəhs edir. Bu fəlsəfi əsərlər öz məzmun dərinliyi ilə xüsusilə fərqlənir. Bəhmənyar məlumdur ki, peripatetizm mövqeyindən çıxış edərək qeyd edir ki, hər şeyin əsasını varlıq təşkil edir. Bəhmənyara görə varlıq vacib və mümkün olmaqla iki yerə bölünür. Filosofa görə vacib varlıq müvəffəqdir, səbəbsizdir, daimidir və zəruridir. Mümkün varlıq isə səbəb deyil, ancaq nəticədir. Lakin hər iki varlıq zamanca vəhdətdə götürülür. Bəhmənyar istər varlıq, istərsə də idraki problemlərə dair zəngin irs qoyub getmişdir. O, idrakın hissi və məntiqi mərhələsi ideyasını qəbul etməklə duyğuları zəkanın mənbəyi hesab etmişdir. Onun fəlsəfi baxışları sonrakı dövrlərdə də Azərbaycanda və Şərqdə fəlsəfi fikrin inkişafına xeyli təsir göstərmişdir.

**İbn Xaldun Əbu ər-Rəhman Əbu Zeyd (1332-1406)** İbn Rüşdün davamçısı olmaqla öz dövrünün ictimai xadimi, tarixçisi, həkimi, dövlət müşaviri, səfiri və dəftərxana müdiri olmuşdur. O da peripatetizm mövqeyində olan filosoflardan idi. “İbn Xaldun” ədalətli dövlət və ədalətli idarəetmə” ideyasını irəli sürmüş və göstərirdi ki, filosofların başçılığı ilə ədalətli dövlət yaratmaq olar. O, peripatetik mövqedən çıxış edərək qeyd edirdi ki, həqiqət obyektiv mahiyyət daşıyır, empirik idrak yolu ilə praktik bilik əldə etmək olar. Onun ilk fəlsəfi əsərləri **“Ərəblərin, farsların, barbarların və onların müasiri olan qüdrətli xalqların tarixinə dair nümunələr və məlumatlar”** adlı çox cildlik əsərini qiymətli tarixi mənbə kimi dəyərləndirmək olar. Onun **“Əl-Müqəddimə”** adlı əsərində isə peripatetik yönümlü fəlsəfi baxışlar öz əksini tapır. O fəlsəfə ilə yanaşı cəmiyyət haqqında olan müstəqil baxışlarını qeyd edərək bildirirdi ki, cəmiyyətin inkişafında coğrafi mühit başlıca rol oynayır.

Onun fəlsəfi dünyagörüşündə qeyd olunur ki, materiya yaradılmayıb, o öz-özünə meydana gəlib. Hərəkət özü materiyaya

xasdır, əzəli və əbədididr. Dünyanın başlanğıcında ilk hərəkət lazımdır ki, bir dəyişiklik baş versin. Aləm hərəkət edə-edə bir haldan başqa hala keçir. Onun fikrincə ilk varlıq Allahdır. Allah aləmin ilk səbəbidir, məqsədidir və formasıdır. Allahı dərk etməkdə və ona iman gətirməkdə kəlamın çatışmazlığını qeyd etməyə çalışır. O fəlsəfəni din tərəfdən xoşagələn bir bilik sahəsi hesab etdiyini bildirərək deyirdi ki, “İştə bunu şəriət nöqteyi-nəzərindən araşdırmaqdır. Şəriət, mövcudatı əql vasitəsilə istehsalını istəməkdir. Bu Allahın kitabındakı “...bir şeyin, bir hadisənin yalnız görünüşünə baxmaqla qalmayın ondan diqqət və mühakimələrlə nəticələr, başqa hökmlər də istihrac edin” (Nəşr, ayət-2) kimi bir çox ayətlərdən müstəbahdır” (Həmid İmanov Fəlsəfənin əsasları Bakı-2010 səh. 69).

İbn Xalduna görə ilahi dünya dəyişməzdir. Keçən dünya keçicidir, onun tərkibini dörd ünsür: su, hava, od və torpaq təşkil edir. Bütün mövcudat (kainat, cəmiyyət, insan) mərtəbəli quruluşa malikdir. İbn Xalduna görə kainat qapalı, ahəngdar quruluşa malik bütöv bir aləmdir. O ilahi və gerçək dünyaya bölünür.

İbn Xalduna görə ideal cəmiyyət üç zümrəyə: **hakimiyyət başçılarına, hərbçilərə və əməkçilərə** bölünür. Bu zümrələrin hər birinin özünəməxsus bacarığı və xeyirxahlılığı mövcuddur. Onun fəlsəfədə varlıq və metafizika, məntiq və etik, həm də siyasi konsepsiyaların kökü Aristotel fəlsəfəsinə, bir qədər də Platon fəlsəfəsinə bağlılığı təzahür olunur.

Şərqin qabaqcıl mütəfəkkirləri fəlsəfənin rasional, təbii-elmi baxışlarını əsas götürərək cəmiyyətin mənəvi tələbatına uyğun olaraq peripatetik, neoplatonçu və panteist kimi fəlsəfi məktəblərin inkişafına güclü təsir göstərdilər. Yunan fəlsəfəsinə müraciət edənlərdən biri də **İbn əl-Mukaffa Abdallah** olmuşdur. Onun əsərlərində Şərqin əksər xalqlarının fəlsəfi baxışlarına müraciət edilir.O bir çox şərq abidələrini (“Kəlilə və Dimnə”, “Şahlar kitabı”, “Məzdək”) ərəb dilinə tərcümə etmişdir. O, Aristotelin fəlsəfi dünyagörüşü ilə yaxından tanış idi. O, Aristotelin “Kateqoriyalar” və “Analitiklər” adlı əsərlərini ərəb dilinə tərcümə etmişdir. Onun özünün də peripatetik yönümlü

“Əl-Kəbir” (Böyük işlərlə bağlı tövsiyyə) və Əl-Ədəb Əl-Saqir (Kiçik işlər üçün tövsiyyə) adlı əsərləri olmuşdur. **İbn-Əl-Mukaffa** islam dininin bəzi tələblərini zərdüştlüklə əlaqələndirməsinə görə Xəlifə-Əl-Mənsurun fərmanı ilə qətlə yetirilmişdir. Onun peripatetikliyinin əsas qayəsi Aristotelln fəlsəfl əsərlərinin tərcümə olunması və onun fəlsəfi baxışlarının təbliğ olunmasıdır.

## 4. Azərbaycan dini -fəlsəfi fikir tarixində sufizm, panteizm, hürufilik və işraqilık

Orta əsrlərdə Azərbaycanda peripatetizmlə yanaşı digər dini cərəyanlar və təlimlər yaranıb inkişaf etməyə başladı ki, bu təlimlərdə mistik tərkidünya həyat tərzi formalaşmaqda idi. Belə istiqamətlərdən biri də **sufizm** idi. Bu dini fəlsəfi təlimin yaranmasının ilkin səbəbi Məhəmməd peyğəmbərə sadiq olan kimsəsiz, evsiz-eşiksiz insanların onunla birgə bir dam altında (Əs-Suffa) yaşaması, digər baxışa görə (Bartold, Bertels) qaba yun paltar (suf) geyib həyatını dərviş qismində öz vaxtlarını ibadətdə keçirən peyğəmbərin şərəfinə dini mahnılar və rəqslər edənlər idi. Belə bir tərəfdaşların birgə fəaliyyət dairəsi sufiliyin yaranmasına səbəb oldu. Məhəmməd peyğəmbərin vəfatından sonra bu dini təlim daha da gücləndi. Sufiliyin istiqaməti dünya nemətlərindən imtina etmək, mistik tərkidünyalıq yolu ilə Allaha qovuşmaqdır. Məqsəd sufinin ilahi ilə mənəvi qovuşması ilə “kamil insana” çevrilməsidir, bir sözlə əxlaqi kamilləşmə yoludur.

Həqiqətə nail olmaq birdən-birə baş vermir, əslində bu dörd mərhələdən keçir. **Birinci mərhələ** - şəriət (belə başa düşülür ki, müsəlmanların şəriət qaydalarına əməl etməsi); **İkinci mərhələ** - təriqət (insan öz iradəsini allaha məxsus edir); **Üçüncü mərhələ** - mərifət (insan öz qəlbi ilə allahın varlıgını və xeyirlə şərin nisbətini dərk edilməsi); **Dördüncü mərhələ** - həqiqət (ekstaz vasitəsilə Allaha qovuşmaq)

Sufilik dini-mistik cərəyan kimi təxminən VIII əsrin ortaları və IX əsrin əvvəllərində formalaşma mərhələsini keçmişdir. Sufiliyin banilərindən **Əl-həllac, Əl-Bəsri, Rəbiyyə Əl-Ədəbiyyə, İbn Ata, Əbu Yəzid Əl-Bistani, Abdulfərəc Təbrizi, Əbbusalman Həmədani, Baba Kuxi Bakuvi, Zunun Əl-Misri, Əl-Mühasib olmuş və Cuneyd** tərəfindən inkişaf etdirilmişdir.

Bir müddət sonra sufilik iki qismə ayrıldı. **İfrat (radikal) və mötədil sufilər.** İfrat sufilər əsasən Qurana və sünnəyə sadiq olanlar kimi başa düşülürdü. Mötədil sufilər isə səssiz zikr etməyi və daha çox ibadətlə məşğul olmağı əsas tuturdular. XI-XII əsrlərdə sufilikdə geniş yayılmış təlimlər mövcud idi ki, bunlar **"Vəhdət əl-Vücud"** və **"Vəhdət əş-Şühud"**adlanırdı. Vəhdət əl-Vücuda görə "Vəhdət" adlanan varlıq aləmin cisimlərində özünü görmək və təzahür olunmasıdır. Belə başa düşülür ki, kamil insan bir növ **"ilahinin surəti"** kimi çıxış edir. Sufilikdə "Vəhdət əl-Vücud" təliminə görə Allahın yaratdıqlarının özünü dərk etməsi istəyi və onlarla vəhdət təşkil etmək cəhdidir. Həmin cəhdə görə Allah öz yaratdıqları ilə vəhdət təşkil edir, varlıq isə daim dəyişməkdədir və bunun nəticəsində Allahın yeni-yeni atributları formalaşır. Ona görə də müdriklər "Vəhdət Əl-Vücud"u Allahın yaradıcı fəaliyyəti kimi qəbul edirlər. "Vəhdət Əl-Vücud" fəlsəfəsinə görə ontoloji və qnoseoloji problemlər islam dini çərçivəsində həll oluna bilər.

"Vəhdət-əl-Şühud" sufi təlimində tərkidünyalıq əsas kimi qəbul edilən dini fəlsəfi təlim hesab olunur. Burada ilahi və insani başlanğıcın vəhdət şəklində olması əsas götürülür. Bu zaman Allah ibadət edənin qəlbində məskunlaşaraq bir-birini seyr etməklə şəhadət (şühud) verir. Sufi təliminə görə İlahinin atributları yalnız insana müyəssər olunur. İnsanın təbiətində özünü tapan Allah və insan vəhdət halında olur.

Sufizimdə **"Fəna" və "Bəqa"** adlı anlayışlar xüsusi yer tutur. Bilirsiniz ki, "fəna" hərfən yox olmaq və ya sona çatmaq deməkdir. Yəni bu anlayışa görə insanın öz şəxsi keyfiyyətini itirməsi və ilahi keyfiyyətin əldə olunması kimi başa düşülür. "Bəqa" anlayışına görə insanın ilahiyə (həqqə) qovuşması kimi

başa düşülür. Sufizm dünyagörüşünə görə birinci fəna, ikinci bəqa baş verir. Burada söhbət Allaha substansional birləşmədən yox, mənəvi-psixoloji birləşmədən gedir. Fəna və Bəqa vəziyyətləri sufinin son məqsədi kimi başa düşülür və bu vəziyyətdə olan sufi heç vaxt Allaha zidd olan hərəkət etmir. Hətta Qurani-Kərimin “Rəhman” surəsinin 26 və 27-ci ayələrində qeyd olunur ki, "yer üzündə hamının həyatı”, fanidir “Təkcə cəlal yiyəsi Rəbbim qalandır” kəlamından qidalandığı güman olunur.

**Panteizm -** müstəqil dini-fəlsəfi cərəyan kimi geniş yayılmış və panteist baxışlar sistemində digər cərəyanlar sufilik, hürufilik, işraqilik və s. kimi ideyalar çərçivəsində gerçəkliyə obyektiv-real münasibətin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Panteizm (yunanca “pan”-hər şey, theos-Allah) Allahın təbiətlə qovuşdurulması, təbiətdə mövcudluğu və eyniləşdirilməsi kimi başa düşülür. Xristian dünyasında dünyanı Allahla eyniləşdirən “panteist” anlayışı ilk dəfə ingilis filosofu **C.Toland** tərəfindən və xristian teoloqu **Y.Fay** tərəfindən işlədilmişdir. Bütün bunlar heç də sübut etmir ki, panteist ideyalar ancaq XVII əsrdə xristian dünyasında yaranmışdır. Əksinə bu ideyalar dini-fəlsəfi təlimlərdən çox qədim dövrlərdə yaranmışdır.

Allahın hər yerdə mənəvi tamlıq, ilkin ruhi varlıq kimi qəbul olunması mistik səciyyəli panteizmin tərkib hissəsi kimi qəbul edilmiş bir mənbə idi. Sufi tərkidünyalarının “Allaha məhəbbət qəlbimi elə doldurmuşdur ki, burada İlahidən kənar məhəbbət üçün yer qalmamışdır.” Bu şüarı qəbul edən müsəlman dini mistiklərindən **Həsən-Əl-Bəsri, Rəbiyyə Əl-Ədəvinin, Əl-Büstaminin, Əl-Həllacin İbn Əbdül Xeyrin, Zun Nun Misrinin, Əc-Cəkatinin, Əl-Bistaminin, Əbu Səid Əl Xərrazın** və digərlərinin adlarını qeyd etmək olar. Onlar “Mən öz mahiyyətimə baxıb, özümə çevrildim”, “Ən əl-Həqq” (Allah mənəm) nidaları ilə Allahın subyektivləşdirilməsi, “Hər şey odur” (Allahdır) kimi şüarları ilə Allahın obyektivləşdirilməsinə çalışmışlar.

İslam panteistləri insanı Allahın daxilində axtarmağa çalışmışlar. Onlara görə Allah hər şeyin mahiyyəti hesab edilmiş və bütün dünyaya yayılması haqqında fikirləri elan edirdilər. Məsələn **Əbu-Hamid əl-Qəzali** sufiliyi İslamın cərəyan və məzhəbləri ilə əlaqələndirərək ondakı panteizmi dəf etməyə çalışmışdır. O, "Vəhdət Əl-Vücud"un 2 müxtəlif şərtini monist (mötədil) və panteist (ifrat) kimi qeyd etmişdir. Əl-Qəzalı dünyanın əbədiliyini inkar edir və dünyada yəni təbiətdə gedən qanunauyğunluqları ilahi məqsədəuyğunluq kimi qəbul edirdi. Onun baxışlarına görə Allahın mövcudluğunda onun iradəsi və biliyi bütün hadisə və proseslərdə təzahür olunur. Belə nəticəyə gəlmək olur ki, bu prosesdə insan idrakın həqiqiliyinə inana bilməz. Həqiqəti yalnız mistik ruh vasitəsilə dərk etmək olar. Əl-Qəzaliyə görə dünya zaman etibarı ilə başlanğıca malikdir və Allahın yaradıcı qüvvəsinə əsasən mövcuddur. Mütəfəkkir hesab edirdi ki, dünya üç mərtəbədən ibarətdir: **1) birinci mərtəbə -** hissi qavrayışa əsaslanan şeylər aləmi kimi başa düşülür. Buna Aləm-əl-Mülk deyilir ki, o həmişə dəyişmə və inkişafdadır; **2) ikinci mərtəbə -** Ali dünya "Aləm əl-Cəbarut"; **3) Üçüncü mərtəbə -** mələklər dünyası yəni Allahın dərgahı. **"Aləm – əl Məlakut"** və bu üç mərtəbədən yuxarıda isə Allahın taxt-tacı **"Ərş-əl-İllah"**dır. Lakin insan isə hər üç mərtəbənin ünsürlərini özündə birləşdirir; insanın ruhu, bədəni və mənəvi imanı buna misal ola bilər və nəticə etibarilə Allah ruhu və bədəni də idarə edir.

Panteizm nəzəriyyəsinin şərhində görkəmli nümayəndələrdən biri də **İbn-Ərəbi** (1165-1240) olmuşdur. İbn-Ərəbiyə görə Allahın varlığı mövcudatın bütün tərəflərində təzahür olunur. İlahi substansiya bütün aləmə nüfuz etmək qabiliyyətinə malikdir. Bütün varlıqların mayası bir nöqtədən götürülür.

Nəzəriyyədə qeyd olunur ki, insan ruhu ilahi ruha qovuşmaq imkanına malikdir, lakin bəzi hallarda ruhlar ilahi bədəndən çıxa bilər və ya bədənin ölümündən sonra yenə əvvəlki yerinə qayıda bilər. Belə başa düşülür ki, istər ruh, istərsə də ölüm yeni həyat üçün Allahın bədənindən doğulmaq deməkdir.

Belə nəticəyə gəlmək olar ki, Əl-Ərəbi panteizmin əsas prinsipi Allahın mütləq varlıqla eyniləşdirilməsindən ibarətdir. Dünya məhdud varlıqla müqayisə olunmaqla yanaşı Allahın varlığı isə mütləq varlıq kimi başa düşülür. Bir sözlə İbn-Ərəbi fəlsəfi-dini dünyagörüşündə Allahın antropomorf və transsendent vəziyyətləri aradan qaldırılır və onun hər şeydə təzahür olunan hər şeyə qadir olunan bir varlıq kimi başa düşülür.

İslam panteizminin daha bir nümayəndələrindən biri də **İbn-əl-Rəzzaq əl-Kəşanidir** (1329-cu ildə vəfat edib). O da digər sələfləri kimi dünya ilə ilahi qüvvəni eyniləşdirilir. Lakin onun fərqli baxışı odur ki, o Allahın mövcud olduğu varlığın 3 pillədən ibarət olduğunu göstərmişdir. Yəni, Allah qeyri-varlığın əksidir, bütün şeylərdə təzahür olunduğu üçün şeylərin adları da İlahiyə aid olduğuna görə ilahinin təzahürüdür.

İslam panteistləri mükəmməl insan təlimi yaradaraq belə şərh edirlər ki, guya insan Allah və dünya formalarını özündə birləşdirə bilir, çünki, insan bütün atributları ilə ilahiyə tabedir və əslində insan Allahı əks etdirən bir güzgüdür.

Dini mistik səciyyə daşıyan panteist konsepsiyasının tərəfdarları Allahı mənəvi tamlıq, ilkin ruhi varlıq kimi qəbul edir, dünya Allah tərəfindən yaradılır və Allaha qovuşması ideyası kimi təbliğ olunur.

**Hürufilik.** Orta əsrlər dövründə İslamda neoplatonist ənənələri özündə yaşadan dini-fələsəfi təlimlərdən biri də hürufizm cərəyanıdır. Hürufilik Azərbaycanda, İranda, İraqda, Türkiyədə və müsəlman şərqinin bəzi ölkələrində yayılmışdır. Təlimin əsası **Fəzullah Nəimi Astarabadi (1340-1386)** tərəfindən yaradılmışdır. **F.Nəimi** dini təliminə görə Teymurləng oğlu Miranşah tərəfindən Naxçıvandakı Əlincə qalasında öldürülmüşdür və onun qəbri **“Şeyx Xorasan”** adı ilə bəlli olan ziyarətgahdır. Onun özü və davamçıları tərəfindən yazılmış **“Cavidani-Kəbir”, “Məhrum-namə”** adlı və digər dini fəlsəfi əsərlərində hürufizmin mahiyyəti şərh edilmişdir.

Təlimdə başlıca məqsəd ərəb əlifbası və onun sayına əsaslanan hesablamalar və onlara mistik ilahi məna verilməsi əsas

şərt kimi qəbul edilirdi. Təlimin başlıca ideyası Allaha məxsus bütün keyfiyyətlərin təcəssüm olunması, insanın ilahiləşməsi, kainatın əbədiliyinin qəbul edilməsi idi. Hürufilikdə varlığın hər bir mərhələsi Adəmin təzahürü ilə başlayır, nəticədə axirət ilə başa çatır.

Panteist istiqamətli təlim olan hürufilikdə Allahın siması təbiətlə bərabərləşdirilir və onun ali təzahür forması olan insanda təzahür edir. Məşhur **"Mənəm Allah"** nidası məhz bu prinsdipin əsası F.Nəiminin şüarına çevrilmişdir. Hürufilər Qurani Kərimin bəzi müddəalarının təkzib edilməsini əsas sayırdılar. Onların fikrincə kainat (varlıq) əbədi olaraq mövcuddur. Lakin İlahi başlanğıc insanı Allaha bənzər şəkildə yaratmışdır. Mövcudat Adəm peyğəmbərin gəlişi ilə başlayır və "Qiyamət günü" ilə bitir. Nəimiyə görə İlahi başlanğıc insanlara peyğəmbərlik, müqəddəslik və İlahilik formalarında təzahür edir. Buna görə də Nəiminin "Mənəm Allah" kəlməsi bütün Yaxın Şərqə yayılmışdır. F. Nəiminin qətlindən sonra görkəmli Azərbaycan şairi və filosofu İmadəddin **Nəsimi, Əli-əl-Əta və Mahmud Pacuhani** hürufi təriqətinin görkəmli nümayəndələrindən idi.

Nəsimi humanizminin əsasında insana böyük məhəbbət duyğuları dayanır. Nəsimi qəzəllərində kamil insan olmaq əsas məqsəddirsə bu məqsədə ancaq eşqin vasitəsilə, eşqi özünə yol yoldaşı etməklə nail olmaq mümkündür. Bir sözlə, Nəsimi məhəbbəti həm ciddi, fədakar, həm də öz eşqi, amalı uğrunda çarpışmağa hazır olan şux, hazırcavab bir gəncin məhəbbətini xatırladır. Digər qəzəllərində vətən, yurd məhəbbəti Nəsiminin yaradıcılığında doğma təbiətə vurğunluq geniş yer tutur. Ancaq maraqlıdır Nəsimidə sırf peyzaj lirikasının dərəcəsindədir, sanki peyzaj lirikasının özü də şairin yaradıcılığında kamil insan gözəlliyinin tərənnümünə xidmət edir. Onu düşündürən məsələlərdən biri də insan cəhalətidir. Bu, ictimai bəlanının törədicisidir. Şair həmçinin müasirlərini cəhalət yuxusundan oyandırmağa çalışmışdır. Ancaq bu bir həqiqətdir ki, Nəsimi kimi mütəfəkkirlər insan övladının xoşbəxtliyini düşünmüş və humanist görüşlərini bu sahədə əks etdirərək gələcək nəsilləri

daha qayğısız, daha şən öz taleyinin ağası kimi görmək istəmişlər.

Nəsiminin əsərlərindən bəlli olur ki, o riyaziyyat məntiq, fəlsəfə, tarix və s. kimi digər dünyəvi elmlərə dərindən bələd olmuşdur. O, Quran hədislərini, təfsiri, müxtəlif dini elmləri, həmçinin ərəb, fars və türk dillərini müəkəmməl şəkildə mənisəmişdir. Onun şeirləri məzmun dairəsinə görə bir neçə qrupa ayrılır**: 1) Təriqət poeziyası, 2) Dünyəvi poeziya, 3) Dini poeziya.**

Nəsimidə bütün varlıq 4 pilləli həqiqətdən ibarətdir: **1) Allah, 2) İnsan, 3) Məna aləmi, 4) Maddi aləm**. Nəsimi yaradıcılığının ilkin dövrlərində fəlsəfi dini təlim olan sufiliyə meyl etmiş və ilkin fəlsəfi irsi bu dini təlim üzərində qurulmuşdur. Məhz ona görə də insana münasibət, **insan konsepsiyası** onun poetik fəlsəfi aləmində başlıca məsələdir. Nəsimiyə görə insan özünəməxsus statusa malikdir. Şair Adəm övladına ilahi varlığın bir zərrəsi və ilahi sifətlərin daşıyıcısı kimi baxır və insan Tanrı münasibətləri onun yaradıcılığında ən başlıca təhlil obyektidir. Bu insana həm bəşəri, həm də ilahi keyfiyyət bəxş edir. Şair poeziyasında insana belə bir sual ilə müraciət edir. İnsan kimdir? Nədir və nəyə qadirdir? O, bu sualın cavabını bir neçə tezis şəklində dəyərləndirir:

1. **İnsan haqdır.**
2. **Haqq insandadır.**
3. **İnsana Tanrıya xas olan xassə və sifətlər malikdir.**
4. **İnsanın vücudunda haqqın müəyyən əlamətləri vardır.**
5. **İnsan varlıqla və qeyri-varlıqla eyniyyət təşkil edir.**

Bir sözlə, Nəsimiyə görə insan obrazı hər yerdədir, hər şeydədir, mahiyyətcə əzəli və əbədidir. Nəsiminin insan konsepsiyasının mərkəzində kamil şəxsiyyət problemi dayanır. Nəsiminin lirik qəhramanlarından biri də “Mən” dir. Adəm övladı surətə, cismə malik olsa da, onun içərisindəki məna-ruh mütləq bir zərrə hesab olunur və Nəsimi fəlsəfəsindən aydın olur ki, istər maddi, istərsə də, cismani ölümdən sonrakı həyat insanla bağlıdır.

Nəfsi istəklər ardınca qaçan insanlar haqqın nurunu anlamazlar. Onun dediyi kimi:

Bibəşərdən mənəvi - şövqi kamali - mərifət
Bixəbərdən söhbəti - irfan umarsan, nə əcəb!

Şairin yaradıcılığında insan aspektindən sonrakı aspekt onun bədii fəlsəfi ifadəsinə xidmət edən **söz** anlamıdır. Nəsimiyə görə, söz nəhayətsizdir, onun ölçüsü yoxdur, dərinliyi, eni və uzunluğu tapılmaz.

Dinləgil bu söz ki, candır söz,
Aliyu-asiman məkandır söz.

Söz olmasaydı, aləmləri yaratmaq və onu tanımaq mümkün olmazdı. "Söz" qəzəlində başlıca ideya zati- mütləq, kainat, insan və sözdən ibarət 4 qütblü sistemin eyniyyəti, sözü yaradanın, sözün və sözdən yarananların mahiyyəti etibarilə xaliqdə əridilməsi bərabərliyidir. Onun dediyi kimi söz göylərdən nazil olmuşdur və ali məqsədə xidmət edir. Quranda göstərildiyi kimi Allah təala bütün məxluqatı yaradarkən "Ol" demiş və bununla bütün dünya yaradılmışdır. O, buna belə bir poetik fəlsəfi analiz vermişdir.

Mərhaba, insani - kamil canımın cananəsi,
Aləmin cismi - sədəfdir, sənmisən dürdanəsi?

**"Məndə sığar iki cahan"** kəlməsində ilahi həqiqətlərin sirrləri ilə dolu olan kainat – makro kosmos (cahan) isə insanın kiçik aləmi kimi dərk edilməsidir. Yunan alimləri insanı mikro kosmos kimi öyrənmişçdir. Nəsimi bu fəlsəfi düşüncəni insan və kainat kimi qəbul etmişdir. İrfani ədəbiyyatda Allah və insanın, mövqeyi axirətə münasibət Nəsiminin bir çox əsərləri ilə bağlı olmuşdur. O, bir sözlə nə insanı göylərə qaldırmırdı, nə də Allahı təbiətə endirməmişdir.

Bütövlükdə, tarx sivlizasiyanın bir inkişaf yoludursa, insan bu inkişaf yolunun mərkəzində duran polad milə bənzədilə bilər. Bu polad mil olmadıqda, tarix özü də bir ictimai-mədəni hadisə kimi mahiyyət və mənasını itirə bilər. Bax belə bir dünyagörüşü Nəsimi fəlsəfəsinin zirvəsini yaradır. Çünki, insan haqqı görür, ancaq həqiqəti duya bilmir. Haqqı görmək ancaq kamil insan məxsusdur. Belə insanlar isə Allah kimi sevilməyə və alqışa layiqdir. Nəsimi insanı "qiblə" deyə adlandırılmışdır. **"Məndə sığar iki cahan, mən bu cahana sığmazam"**, həqiqi təala aləm oğlu özüdür – deyərək insanı Allahla eyniləşdirir. Bir fikiri qeyd etmək olar kı, sufiliyin "ən əl həqq" (Mənəm Allah) şuarını səsləndirəndə mütəfəkkir onu göylərə qaldırmır, əksinə Allahı konkret insan surətində təsvir edir. Nəsimiyə görə insan elə varlıqdır ki, kainatın bütün sirləri sanki insanda cəmləşmişdir, o əzəlidir və əbədidir. İnsan ancaq zəkası vasitəsilə dünyanı dərk etməyə qadirdir. Nəsimi hətta ruhun camadat (cansız aləm), nəbatat (bitkilər aləmi) və heyvanat aləmindən keçərək insana doğru inkişaf etdiyini göstərmişdir.

Hürufiliyin digər nümayəndələri də şeylərin sözdə, şüurda mövcudluğunu, ilahi sözün nitqin Quran bütün şeylərin səbəbi kimi, ilahi nitqi - Quran bütün şeylərin məcmusudur deyə şərh etməyə çalışmışlar. Belə nəticə alınır ki, Allah insanda və sözdə (Quranda) təzahür edir. Buna əsasən demək olar ki, ərəb əlifbası ilahi mahiyyət daşıyır.

Beləliklə, hürufilik Azərbaycan fəlsəfi fikrində və tarixində panteizm mövqeyində özünəməxsus yer tutan mistik dini fəlsəfi təlimdir. Burada Allahla insanla, maddi dünyanın varlıqları eyniləşdirilir, dünya əbədi hesab olunur, lakin onun daim dəyişmə və inkişafda olması qəbul edilir. Hürufiliyə görə dünya dərk ediləndir, lakin bu dərketmə yalnız və yalnız ekstaz, vəhy və intuisiya vasitəsilə mümkündür. Həm də insanın əxlaqi saflaşması və kamilləşməsi (ilahiləşmə) hürufiliyin mənəvi aspektini təşkil edir. Azərbaycan orta əsrlər dövründə istər sufi, istərsə də hürufi mənəvi dünyasını təbliğ edən əsərlərin çoxu bu günə qədər gəlib çatmışdır. **"Böyük əbədiyyət"**, **"Kiçik əbədiyyət"**, **"Tacnamə"**,

**“Eşqnamə”, “Vəsiyyətnamə”, “Tövhidnamə”** və s. kimi əsərlərin adlarını qeyd edə bilərik.

**İşraqilik.** Neoplatonçuluğu aristotelçiliklə birləşdirməyə can atan **Şihabəddin Yəhya Sührəverdi (1155-1191**) İslam dini mövqeyindən çıxış edən işraqi filosofudur. Şihabəddin Sührəverdi Eynəlqüzat Miyanəvi kimi azad fikirlilikdə və dinsizlikdə günahlandıraraq edam edilmişdir. O, **“Filosofların görüşləri”, “Baxışlar”, “Müqavimətlər”, “İşıq heykəlləri”, “İşraq hikməti”** və s. kimi əsərlərin müəllifi olmuşdur.

Onun “İşıq heykəllər” adlı əsəri əsas müqəddimə və yeddi fəsildən ibarətdir. O, yeddi sayını – yeddi planet, yeddi inam ilə əlaqələndirir: efir, hava, su, torpaq, mineral, bitki və heyvanat kimi substional elementlər işığı qəbul edən kimi qəbul edilir. İşraqiliyə görə günəş həmişə öz şüalarını törədir və o işıq mənbəyidir. Əslində günəş təkdir, şüaları isə çoxdur. İşıq mənbəyi işığı yaratdığı üçün Allah da gerçəkliyi yaradır. Sührəverdi qeyd edir ki, günəş işıqlar işığıdır, formalar forması isə Allahdır. İşıq səbəb olur, saçdığı şüalar nəticədir.

Sührəverdiyə görə mümkün varlıq zəruri varlığın törəməsi olur. İnsanın da ruhu ilahi ruhdan qidalanır, bədən öləndən sonra ruh bədəni tərk edir və nəticədə ümumbəşəri ruha qovuşur. Onun “İşıq heykəlləri” adlı əsərində göstərilir ki, hərəkətin səbəbi işıqdır.

Sührəverdi göstərirdi ki, ilk materiya elə bir substansiyadır o, gah od formasında gah hava formasında, gah su formasında ya da torpaq formasında olur. Lakin materiyanın təzahür formaları olan fiqurlar, cisim, rəng, isti, soyuq və s. kimi aksidensiyalarla fərqlənir. İşraqilik fəlsəfəsinin tərəfdarları belə hesab edir ki, dünya və insan ilahi qüvvənin keçdiyi **1) Dünya zəkası, 2) Dünya ruhu, 3) İlkin materiya, 4) Məkan, 5) Zaman kimi emanasiya** pillələrinin nəticəsi kimi yaranmışdır. Hürufiliyə görə kainatın əbədiliyi qəbul edilir. Allah insanın simasında təzahür olunur. Çünki insan allaha bənzər formada yaradılmışdır.

Ş.Sührəverdi əsərlərində cəmiyyətin ictimai-siyasi mövqelərinə də toxunmuşdur. O, ictimai haqsızlığa, ədalətsizliyə nifrət

etmiş və bədxah insanları əjdaha və ilan adlandırmışdır. Onun fikrincə hakimiyyətə ləyaqətli, maarifpərvər və ədalətli adamlar gəlməlidir. İslam neoplatonizminin əlamətləri Sührəverdi və Ər-Razi yaradıcılığında Demokrit təlimi ilə birləşdirilir, **Ər-Razi** dünyanın emanasiya yolu ilə ilahidən törəndiyini izah edir və beş ilkin başlanğıc qəbul edilir: **1. Allah, 2. Mütləq ruh, 3. İlkin materiya, 4.Mütləq məkan, 5. Mütləq zaman.**

İlahi yaradanın bətnindən gələn mütləq ruh ilkin materiyanı doğurur. Materiya öz növbəsində məkan və zaman şəklində təzahür olunur. Ş.Sührəverdi dörd ilkin elementin müxtəlif birləşmədən maddi dünyanın qaz, maye, bərk cisimlərin əmələ gəlməsini, bu elementlərin bir-birinə çevrilməsini müxtəlifliyin səbəbi kimi başa düşürdü. İşraqilik fəlsəfəsində insanın bütün fəaliyyəti və idraki qabiliyyəti nəfslə əlaqələndirilir və duyğuların yaranması hafizə, yaddaş kimi idraki proseslər şərh olunur. Bir sözlə bu təlimdə insanın maddi dünyanın və Ali işığın mahiyyətini dərk edə bilmək qabiliyyəti təsdiq olunur. Maddi dünya hissi və əqli idrakla dərk olunarsa, Ali işıq və emanasiya prosesləri intuitiv idrak prosesi kimi başa düşülür.

## 5. Azərbaycanda neoplatonizm dini- fəlsəfi təlimi

**Neoplatonizm (yeni platonçuluq)** peripatetizmdən fərqli olaraq varlığın ilahinin bətnindən gəldiyini, hər yerdə və hər şeydə Allahın nurunun təcəssüm olunması ideyasını irəli sürmüş və gerçəkliyin emanasiya (şüalanma) yolu ilə ilahidən yarandığını əsaslandırmağa çalışmışdır. Məlumdur ki, Qurani-Kərimdə dünyanın allah tərəfindən yaranması açıq-aydın şərh olunur. Lakin bəzi müsəlman mütəfəkkirləri dünyanın emanasiya yolu ilə ilahinin özündən törəndiyini söyləyərək Platon təlimini əsas götürürdülər. Müsəlman ənənəsinə görə tək olan hər bir qüvvə tək olan hər bir şeyin səbəbi ola bilər. Platon fəlsəfəsinə görə dünya-dakı mütəfəkkirlər emanasiya yolu ilə yaranır və transsendent olaraq qalır.

Neoplatonizmə görə emanasiyaya xüsusi fikir versələr də onlar dünya zəkasını da əsas götürürlər və nəticədə qeyd olunur ki, dünya zəkası həyat atributu olan dünya ruhunu törədir və bu da öz növbəsində passiv materiyanı yaradır.Nəhayət, ilkin materiyadan yer, planetlər, canlılar yaranır və onların üzərində ruh yüksəlir, daha yuxarıda isə "ilk mahiyyət" və ya "vahid olan" yerləşir.

Neoplatonizm cərəyanının ilk əsası əvvəllər Misirdə və İsgəndəriyyəadə yaradıldı və Romada Plotin bu məktəbin əsasını qoydu. Bunun davamı olaraq Suriyada Jamilik məktəbi mövcud oldu və bu məktəbdə Pifaqorçuluq ənənələri də mövcud olmuşdur. Neoplatonizm məktəbi **Prokl** tərəfindən Afinada təşkil edildi və 529-cu ilədək fəaliyyət göstərdi. Məktəbin fəaliyyətinin ilk illərində məktəbdə Şərq mifologiyası və cadugərliyin təbliği güclü idi. Lakin nəticədə xristianlıq ideologiyası gücləndi və buna qarşı çıxdı. Daha sonra həm xristian, həm də müsəlman fəlsəfəsinin inkişafına çox böyük təsir etdi (Fəlsəfə ensiklopedik lüğəti, İzzət Rüstəmov Bakı 1997 səh. 304).

İslam neoplatonizminin **"Paklıq qardaşları"** adlı bir qrup alimlər X əsrdə tərtib etdikləri fəlsəfi ensiklopediyalarında yeddi mərtəbəli emanasiya sisteminin əsas yer tutmasından xəbər verirdi. Bu qrupun şərh etdiyi idrak nəzəriyyəsi Platonun ruh və yada salma təliminin təsiri altında olmuşdur.

İslam neoplatonçuları olan "Paklıq qardaşları" özlərinin etik-fəlsəfi və psixoloji təlimlərini yaradarkən Plotin fəlsəfəsinə daha çox müraciət edilmiş və dörd əsas humanist prinsipə (müdriklik, mərdlik, xeyirxah düşüncə və ədalət) əməl olunma **"Dünya zəkası"**na doğru irəliləməyin əsas şərti kimi qəbul edilir. Bu tipli fəlsəfi məsələlərin izahında aristotelçiliyin və platonçuluğun təbliği bir sıra işraqilik fəlsəfi məktəbinin nümayəndələri də var idi. Onlara görə passiv materiyanın ünsürləri müxtəlif təzahür formaları kimi başa düşülür və onları maddi aləmin vəhdəti kimi qəbul edirlər. Lakin bu ünsürlər bir-birinə çevrilə bilər. Məsələn, mineralları, bitkiləri, heyvanları və insanları nümunə verə bilərik. Bəzi filosoflara görə minerallar bitkilərə

yaxındır (mərcan), bitkilərin eləsi var ki, heyvana yaxındır (xurma), heyvanalrın da bəzisi insana yaxındır (meymun). İşraqilikdə qəbul olunan **"işıqalar işığı Allahdır"** adlı kəlamı sanki Aristotelin **"formalar forması aləmin xaliqidir"** adlı kəlamına uyğun gəlir. Lakin işraqilikdə mövcudatın ontoloji və qnoseoloji əsasları əsas götürülərək neoplatonizmə yaxınlaşdırılırır.

İslam neoplatonçuları peripatetizmdə olduğu kimi Platon və Plotinin fəlsəfi düşüncələrini Aristotel fəlsəfəsi ilə birləşdirməyə cəhd etmişdir. Yuxarıda şərh etdiyimiz kimi məlumdur ki, neoplatonizm fəlsəfi sisteminin əsasında emanasiya konsepsiyası başlıca xəttdir. Bu da maddi ünsürlərin hissi qavrayışla dərk olunması kimi təlqin olunur. İslam fəlsəfəsində neoplatonizm cərəyanının ən yaxın forması olan **"nurlanma"** və ya **"işıqlanma"** təlimidir. İslamda imamilik təriqətinin tərəfdarları Quranın həmin ayəsinə əsasən imamların emanasiya yolu ilə Peyğəmbərimizin İlahidən nurlanmasını təbliğ edirlər.

Neoplatonizm, işraqilik və peripatetizm bir-birlərini həmişə təzahür etdirmiş və onların nümayəndələrindən olan **Əbusəid Urməvi (XI-XII əsrlər), Eynəlqüzat Miyanəçi (1039-1131), Şihabəddin Sührəverdi (1154-1191)** və digərləri Aristotel fəlsəfəsini islam dini fələsfəsinə tətbiq etmişlər. Antik yunan fəlsəfi dünyagörüşünə müraciət edən fəlsəfi-dini biliklər islam fəlsəfi fikrinin inkişafına əhəmiyyətli dərəcədə istiqamət verdi və yeni mərhələ yaratdı. Platonun və Aristotelin **"Ali xeyirxah ideyası", "Ümumdünya zəkası"** müsəlman Allahının fəlsəfi təhlilinə xeyli kömək etmişdir.

Antik ictimai fəlsəfi fikrin təsiri altında yüksək səviyyəyə çatmış humanist istiqamətli bədii - fəlsəfi yaradıcılıq XII yüzillikdə **Nizami** irsi ilə özünün zirvə nöqtəsinə yetişdi. Dünya mədəni irsində mühüm yer tutan mütəfəkkirlərdən biri şair və filosof olan Nizami Gəncəvidir. Nizami öz dövründə Qərb, Yaxın və Uzaq Şərq mədəniyyətini dərindən yiyələnərək mənəvi baxımdan həmişə bəşəriyyəti xilas etməyə çalışmışdır. O, əbədi dəyərləri, ədaləti, xeyirxahlığı zəhməti, humanizmi tərənnüm

etmişdir. O, öz əsərlərində qəhrəmanlarını tərbiyə edir, səhvlərini başa salır və cəmiyyətə xidmət etməyə çağırırdı. Bəşər mədəniyyəti tarixində yer tutan Nizami irsi Azərbaycanın ictimai bədii fəlsəfi fikir tarixində özünəməxsusluğu ilə seçilir. Onun əsərlərində ən önəmli yer tutan fəlsəfi təlimlərdən biri də insan və varlıq konsepsiyasıdır. Şair “Ey qiblə şode həme cəhanra” misrası ilə başlayan qəzəlində insana olan münasibət belə başa düşülür.

Sən ucalıq aləminin sərvisən
Göyləri səcdəyə gətirmisən...
Nə qədər ki, sağlam, şad yaşa
Birdə bu zamanı kim tapar

Şair insanları şad yaşamağa sövq edir, ömrün qisa olduğunu başa salır və bu qısa ömrünü sevinc icərisində yaşamağa çağırır.

El yolunda günə dön, aya dön, ülduza dön
Yaxşılığı əzəldən adət etsən özünə
Yaxşılığın hər yanda qapı açar üznə

Şair öz əsərlərində bu mənada **“Mən adəm oğluyam, mələklərdən üstünəm”** deyir. Nizami **“Sirlər xəzinəsi”** poeması̇nda yazır: “Ey yer üzündə fələk kimi nazlanan insan, həm fələk, həm də göy sənin nazını çəkir” deməklə şair bildirmək istəyir ki, insan xilqətdən şərəfli yarandığı üçün zəngin mənaviyyatla böyük amallar yolçusu olmalıdır. Nizami bu misralarda xalq üçün yanmağı daha qabarıq göstərir: “Gərək özünü şam edib, özgələrin xətri üçün yanasan” və ya “Səy elə ki, xalqın işinə yarıyasan, öz xeyir işinlə dünyanı bəzəyəsən” Şair insana həmişə belə münasibətlə müraciət etmişdir: “Aldığın hər bir nəfs ömürə sərmayədir”, “Özünü həmişə zəfər güzgüsündə gör”- deyirdi. Şair daim insan axtarışında idi: oxuyurdu, öyrənirdi, olum və ölüm haqqında olan mülahizələrində və konsepsiyalarında daim araşdırırdı. Nizami öz əsərlərində təsvir etdiyi ədalətli cəmiyyətin qonaqpərvər, əməksevər, humanizt dəyərlər

üzərində qurulmasını arzu edərək, sanki dünaynın yaxşılıqlar üzərində dayandığını iddia edirdi.

Orta əsrlər fəlsəfi düşüncə tərzinə görə, Nizami hesab edirdi ki, insanın özü mövcud şeylər aləmidir və insan özünün yüksək qabiliyyəti ilə mühakimə yürütmək qabiliyyətinə malikdir. Nizami digər sələfləri kim varlığın dərk olunmasında əql və əxlaqi kefiyyətə yüksək yer verərək qeyd edirdi ki, **"dünyaya işıq verən ağıldır"**.

Şairin fəlsəfəsində şərh olunan insan konsepsiyası mütərəqqi məzmuna malikdir, insanın, varlığın dərk olunması mənəvi baxımdan daim saflaşmalı, kamilləşməli və gələcəyə ümidlə, inamla yanaşılmalıdır.

Nizami həmişə insan şəxsiyyətinə hörmətlə yanaşmışdır və insanı mənəvi sərvətlərin təcəssümündə görmüşdür. O, orta əsrlərdə digər mütəfəkkirlərdən fərqli olaraq, insanların xalqa xidmət etməyini üstün tutaraq qeyd edirdi:

Xidmət etmək sayılır kişilikdən nişana,
Xalqına xidmət etmək, bir şərəfdir insana.

Onun əsərlərində insan çətinliyə düşəndə "müdrik insanların" məsləhətlərinə qulaq asmağı məsləhət görmüşdür. O, insan ləyaqətini yüksək dərəcədə qiymətləndirməyə çalışaraq hər bir kəsdə mənəvi saflaşma anlamını əsas götürmüşdür. "İnsanı dünyanın əşrəfi" hesab etmişdir.

Nizami qeyd edirdi ki, insan təbiətən dünyada qul deyildir, o mübarizdir, safdır, ləyaqətlidir, nikbindir və s. O, insanı idrakının qüdrəti və qabiliyyəti sayəsində xoşbəxtliyə çatmağa çağırmışdır.

Nizami fəlsəfəsinin əsas cəhətlərindən biri odur ki, o, insanı üzvi təbiətin inkişafından ayırmamış və onu təbiətin övladı hesab etmişdir. N.Gəncəvi insanları həyatda gözəllik qanunları əsasında yaşamağa çağırırdı.

Qeyd etmək düzgün olar ki, Nizaminin insan haqqındakı fəlsəfi konsepsiyası nümunəvi təlimdir. N. Gəncəvinin fəlsəfi

konsepsiyasında varlıq və insan haqqında olan düşüncələr Azərbaycan ictimai-fəlsəfi fikir tarixində aktual səslənən problemlərdən biridir. Nizami dövründə hətta insan - təbiət münasibətlərinin harmoniyasında ekoloji situasiya mövcud idi. Nizami Gəncəvinin əsərlərində təbiətin nemətlərindən istifadə edən insana onlardan düzgün istifadə etməyi məsləhət görürdü. Hava və günəş şüasının sağlamlıq üçün xeyirli olmasından danışmışdır. Onun təsvir etdiyi qəhrəmanların fəaliyyətini təbiətin ən gözəl və füsünkar qoynunda axtarmışdır. Məsələn, **“Xəmsə”**də təbiətlə bağlı bu istiqamətdə xeyli fikirlər var. O, Bərdənin keçmişini öz dövrü ilə müqayisə etmişdir.

O qanunsuz ov edənlərə qarşı çıxır və **“Leyli və Məcnun”** əsərində bu hadisə ilə bağlı əhvalatlar təsvir edir. Ceyranlar üçün qurulan tələnin Məcnunun dilində ceyranın tələdən çıxmasına yalvarması nümunəsindən görə bilərik. O, bitkilər aləmi ilə bağlı məsələlərə toxunmuşdur. Vaxtilə Azərbaycan ərazisində geniş yayılan meyvə və bitkilərin tükənmək üzrə olduğunu qeyd etmişdir. O, hətta “İsgəndər” poemasında havada xəstəliklər törədən hansı səbəblər olduğunu qeyd etmişdir.

Yox əgər olarsa, havada zəhər,
Dərdiyi o şeyi yəqin məhv edər.

Qeyd emək olar ki, böyük alim hətta təbiətşünaslıq elmindən xəbərdar olmuşdur. Onun fəlsəfi konsepsiyasında insan və varlıq haqqında olan düşüncələr Azərbaycanın ictimai fəlsəfi fikir tarixində ən aktual səslən problemlərdən biri olmuşdur. Məlumdur ki, orta əsr ilə yeni dövr arasında tarixdə intibah (qərb dünyagörüşündə renessans) dövrü mövcud olmuşdur. Bu dövr özündən əvvəlki inkişaf mərhələsinə nisbətdə yeni inkişaf mərhələsi kimi qəbul edildi. İntibah dövründə insanda yeni məzmunda humanist dəyərlər, yaradıcılıq prosesi güclənir və bu inkişafın nəticəsinə uyğun olaraq fəlsəfənin də tədqiqat istiqaməti dəyişir, müasirləşir, antik dövrdəki kosmosentrizmdən, orta

əsrlərdəki teosentrizmə və daha sonrakı inkişaf mərhələlərində antroposentrizmə keçir.

## 6. İslam dəyərlərində mənəvi-əxlaqi xüsusiyyətlər

Azərbaycanın müstəqil bir dövlət statusuna yiyələnməsi bütün sosial-humanitar elmlər üzrə aparılan tədqiqatların məzmun və mahiyyətinə böyük təsir göstərmiş, mədəni-pedaqoji irsimizin milli-dini zəmində öyrənilməsi imkanı yaratmışdır.

Məlumdur ki, din ictimai şüurun xüsusi forması kimi uzun əsrlər boyu insanların davranışına, mədəniyyətinə böyük təsir göstərmiş, milli-mənəvi dəyərlərin formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

Sosioloqların fikrincə insanların dini fəaliyyəti ayrı-ayrı kultlar şəklində həyata keçirilir. Belə ki, insanlar fövqəltəbii varlıqlara təsir etmək üçün emosional hərəkətlərlə özlərinə inam reallaşdırmağa çalışır, özlərinin obrazlı təsəvvürlərinin bədii ifadələri ilə real varlığa münasibətlərini formalaşdırırlar. Bu obrazlı təsəvvürlərdə ovsunçuluq-sehrbazlıq və mərhəmətçilik istiqamətləri mövcuddur. İnsanlar sehrbazlıq vasitəsilə həm özlərinə, həm də müəyyən predmetlərə təsir göstərməyə çalışırlar. Mərhəmətlilik anlayışı vasitəsilə Allahın varlığına inam hissi tərbiyə olunur. Dini şüurun bu cəhəti dünyada mövcud olan bütün dinlərə məxsusdur. Məhz bu cəhət dinlərin məzmununa mütərəqqi ideyalar daxil edir, insanın mənəvi aləminin saflaşdırılmasına, tərbiyə olunmasına istiqamətləndirilir. Dinin insanların mənəviyyatına, həyat tərzi prosesində dini adət və ənənələr, bayram və mərasimlər təşəkkül tapır. Dinin təbliğ etdiyi mütərəqqi cəhətlər insanların nəinki şüurunda, mənəviyyatında, həyat tərzi prosesində eyni zamanda gündəlik davranışında, həyata münasibətində, bayram və mərasimlərdə özünü biruzə verir, bu mütərəqqi cəhətlər təcəssümləşdirilərək xalq yaradıcılığının müxtəlif növlərinin əsas məzmunu təşkil etmişdir. Beləliklə də sivilizasiyanın mütərəqqi komponentlərini özündə birləşdirən dinlər həm pedaqoji, həm da fəlsəfi təlim-tərbiyə funksiyasını

yerinə yetirmişdir. Dində bəşəri dəyərlər bir toplum halında qəbul eilmiş həm də onlardan təsir vasitələri kimi istifadə olunmuşdur və hal-hazırda da istifadə olunmaqdadır. Xüsusilə İslam dini bəşəri dəyərlərin qorunub saxlanılmasında, insanların mənəvi həyatının tənzimlənməsində, onlar arasında əmin-amanlığın, qarşılıqlı yardımın yaradılmasında böyük rol oynayır.

İslam dini şüurun yeni bir mərhələsi kimi meydana çıxaraq köhnəni inkar, yenini isə təbliğ etmək, yeni biliklərə yiyələndirmək prinsiplərinə əsaslanmışdır. İslam bütpərəstlik əqidələrini inkar edərkən yeni bilik tipinə üstünlük vermişdir. Elə buna görə də "bilmək" mənasını daşıyan sözlər bu dinin müqəddəs kitabı olan "Qurani-Kərim"də 850 dəfədən çox təkrar olunur.

"Qurani-Kərim"ə görə, bilik İlahi substansiyanın ayrılmaz keyfiyyətidir. Bu mənada bilik Allahın 99 sifət adlarından doqquzunda öz ifadəsini tapır: Əl-Əlim (Hər şeyi bilən), ƏL-Həkim (Hikmət sahibi), Əs-Səmi (Hər şeyi eşidən), Əl-Xəbir (Xəbərdar olan), Əl-Bəsir (Hər şeyi görən), Əş-Şəhid (Hər şeyə şahid olan), Ər-Rəqib (Nəzarət edən), Əl-Batin (Sirləri bilən), Əl-Mühəymin (Hər şeyi himayə edən).

İslam insanların mənəvi aləminə təsir göstərmək üçün daha çox möcüzələrin mövcudluğu amillərindən istifadə edir. Öz əsasını müqəddəs kitablardan almış bir çox xalq yaradıcılığı nümunələri də möcüzələrin təcəssümləşdirilməsi istiqamətində baş vermişdir. Bu möcüzələr təcəssümləşdirilərək miflərə, nağılların, dastanların əsas süjet xəttinə daxil olmuşlar. Məsələn, Musa, İsa, Qautama və başqa peyğəmbərlərin möcüzələri haqqında çoxlu miflər mövcuddur. "Kafirlərin hüzurunda Həzrəti Musanın əsasının əjdahaya çevrilməsi, Həzrəti İsanın anası Məryəmin şərəfini qorumaq naminə beєikdə dil açması Qurani-Kərimdə nəql olunan möcüzələrdəndir.

Ümumiyyətlə möcüzələrdən bəhrələnən xalq yaradıcılığı nümunələri peyğəmbərləri, ayrı-ayrı din xadimlərini tanıtmaq, onların baxışlarını xalq arasında yaymaq məqsədi üçün istifadə olunmuşdur. Möcüzələrdən öz süjetlərini götürən miflər və başqa xalq yaradıcılığı nümunələri maarifləndirici xarakter daşımış,

insanlara ədalətlilik, xeyirxahlıq prinsipləri aşılamışdır.

Bütün kainat haqqında dini anlamlar mifoloji məzmun kəsb edən rəvayətlər vasitəsilə bütün insanlara çatdırılmışdır. Xüsusilə Məhəmməd Peyğəmbərin dünyaya münasibətini bildirən miflərə İslam alimləri ictimai fikirdə daha çox yer vermişlər. Məsələn, Peyğəmbərə yəhudilərin verdikləri 40 sualın birində deyilir: "Ya Peyğəmbər göydən danışın, göyün məxluqlarından danışın". Peyğəmbər suala cavab verərək bütün qalaktikanın quruluşunu və onun yaranma səbəblərini izah edərək deyir: "Hər şeydən uca olan Allah göyü buxardan yaratmışdır. Göyün birinci qatı "Bar-qiya" adlanır. Bu qatda yaşayan məlaikələr daim, arasıkəsilmədən Allahın qarşısında diz çöküb ona səcdə edirlər".

Qeyd olunan dini-mifoloji materiallarda insanlara kainat haqqında bilgilər çatdıran əxlaqi bir proses mövcuddur. Mifologiyada göyün ayrı-ayrı qatlarının quruluşu və onların sakinləri haqqında məlumatlar verilir. İnsanlara qalaktikanın 7 qatdan ibarət olması təlqin edilir. Hətta göyün yeddinci qatında uzunluğu 80 ilə dəf edilə biləcək bir dəniz olduğu göstərilir. Həmin dənizdə məlaikələr yaşadığı bildirilir. Bütün bunlar həm də dini-fəlsəfi bilgidir.

Peyğəmbərlə bağlı olan mif və rəvayətlərdə müəyyən məsələlər izah edilərkən fikir müxtəlifliklərinə rast gəlinsə də onlarda dünyanın yaranması və gərdişi barədə, həmçinin insanın varlığı və tale yolları haqqında mülahizələr irəli sürülür. Məhz, uzun əsrlər boyu İslam dini məkanında yaşayan bütün insanların əxlaqı, etik normaları bu dini rəvayətlər əsasında qurulmuşdur. Belə ki, Azərbaycanda da İslam dini yayıldıqdan sonra onun siyasi və sosial rolu güclənmişdir. Bunun da nəticəsində İslam dini müsəlmanlığı qəbul edən bütün xalqların dünyagörüşünün formalaşmasında xüsusi rol oynamışdır. İslam dünyagörüşü xalq yaradıcılığında da özünü geniş şəkildə biruzə verir. İslama xas olan müəyyən etik normalar zəminində müəyyən həyat hadisələri təcəssümləşdirilir, bunun da nəticəsində ibrətamiz rəvayətlər, hekayətlər meydana gəlirdi. Həmin rəvayət və hekayətlərin əsas obrazları mələklər, şeytanlar, onlara rəhbərlik edən iblis idi. Eyni

zamanda xalq özünün qədim tarixinə aid olan bir sıra bayram və mərasimləri də islamiləşdirirdi. Novruz bayramını buna misal göstərmək olar. Həmçinin sadə xalq etiqadlarına bir çox qədim adət və mərasimlər, habelə islamın ilk dövrləri üçün səciyyəvi olmayan, çox vaxt isə onun mahiyyətinə zidd olan təsəvvürlər daxil olmuşdur.

Bu xüsusiyyət hər bir xalqın özünə məxsus olan mənəvi dəyərlərinin, əxlaqi xüsusiyyətlərinin qorunub saxlanılması arzularından irəli gəlirdi. Buna görə də çox zaman müxtəlif nağıllar və hekayətlər etik tələblərə uyğunlaşdırılırdı. Nağıl və rəvayətlərin əsas süjet xəttini ədalətin bərpası, xeyrin qalibiyyəti kimi anlayışlar təşkil edirdi. Məsələn, "Çıraqlı İsa" adlı qədim xalq nağılında qeyd olunur ki, bir qadının var-yox bir keçisi varmış. Qarının İsa adlı nəvəsi hər gün keçinin südünü aparıb satar, puluna çörək alarmış... Bir gün Darğa İsadan bir qab süd alır və süd xoşuna gəlir. Bundan sonra Darğa Qazı ilə sözləşib keçini zorla qarının əlindən alırlar. Qarının nəvəsi İsa keçini qaytarmaq üçün Qazının düşməni şeytana şikayət edir. Şeytan İsaya bir sehrli toppuz verir və bildirir ki, onu kimin üstünə buraxsan onu döyməyə başlayacaq. İsa sehrli toppuzu alıb dik tutan kimi toppuz onu göyə qaldırır və Darğanın evinə gətirir. İsa Darğadan keçisini istəyərkən o vermək istəmir. Bundan sonra İsa toppuza Darğanı döymək əmri verir.. Döyülüb haldan düşən Darğa keçini qaytarmağa məcbur olur.

Bildiyimiz kimi şeytan bütün nağıllarda şər qüvvə kimi verildiyi halda bu nağılda haqqın bərpaedicisi rolunda çıxış edir. Şeytanın İsaya verdiyi toppuzun köməyi ilə ədalət bərpa olunur.

Ə. Həşimov haqlı olaraq qeyd edir ki, "Azərbaycan xalq pedaqogikası abidələrindəki qiymətli tərbiyəvi fikirlər tarix boyu milyon-milyon adamların, o cümlədən, pedaqoji fikir nümayəndələrinin ümumi inkişafına qüvvətli təsir etmişdir. Bu abidələr - xalq pedaqogikasının yadigarları, hikmət məktəbi olub, indi də ayrı-ayrı hadisələrin xüsusiyyətləri ilə insanları tanış edir, biliklərini dərinləşdirir, hissini, təsəvvürünü, təxəyyülünü inkişaf etdirir, adama az sözlə geniş fikir söyləməyi öyrədir, adamın

nitqini canlı xalq dilinə yaxınlaşdırır, söz ehtiyatını zənginləşdirir".

Məhz bu abidələr içərisində praktiki əhəmiyyət kəsb edən, real həyatı öyrətmək funksiyasını yerinə yetirən çoxlu empirik tədqiqat materialları vardır. Onlar mühüm anlayışların məcmusu kimi uzun əsrlər boyu varlıq haqqında bilgilərin insanlara çatdırılmasında mühüm rol oynamışdır.

Məhz bu qədim dini-mifoloji, bədii abidələrə əsaslanaraq belə qənaətə gəlmək olar ki, "İnsan biliklərinin sahəsi olan mənəvi-əxlaqi biliklər qədimdir və bəşər cəmiyyətinin inkişafından ayrılmazdır. Bu biliklər böyüyən nəslin həyata
hazırlanması, onun təhsil-tərbiyəsi ilə bağlı insan fəaliyyətinin spesifik sahəsinə aiddir".

Hələ ibtidai cəmiyyətdə din insanların həyatında dünya haqqında təsəvvürlərin ilkin mənbəyi olmuşdur. İbtidai insan dini baxışlar zəminində ruhun əbədiliyinə inanmış, öz həyatını da bu inama uyğunlaşdırmışdır. Dini təsəvvür və inamın bütün mərhələlərində tərbiyə problemi diqqət mərkəzində olmuşdur. Bu problem İslam dinində daha qabarıq şəkildə nəzərə çarpır. Xüsusilə İslama aid olan kəlamlar sırf fəlsəfi mahiyyət kəsb edir. Məsələn: "Ömrünü elmə sərf edən adam heç vaxt ölmür", "İnsan beşikdən qəbir evinə qədər öyrənməlidir", "Özünü tanıyan Allahı da tanıyar", "Həya və nəciblik insanın şaxəsidir" və s. kəlamlar İslam dininə məxsusdur və onların hər biri öz məntiqi mənasına görə sırf fəlsəfi əhəmiyyət kəsb edir.

Tanınmış Azərbaycan pedaqoqu Əjdər Ağayev insanın tarixi təkamülündəki xüsusiyyətləri nəzərdən keçirərək belə qənaətə gəlir ki, "Fərd kimi dünyaya gələn insan inkişafa və formalaşmağa möhtacdır. Bioloji, sosial, psixi və mənəvi inkişaf yolunda müəyyən xassə və keyfiyyətləri özü ilə gətirən insan görünən xassə və keyfiyyətlərə müvafiq mühitdə ona verilən təlim və tərbiyə ilə, özünüdərk, özünütəhsil, özünütərbiyə ilə formalaşır və kamillik qazanır"

İnsana xas olan bu xüsusiyyətləri nəzərə alaraq belə qeyd edə bilərik ki, bütün xalq yaradıcılığı nümunələri, o cümlədən,

bəşəri dini anlamlar insanın özünütərbiyə və özünütəhsil prosesində xüsusi rol oynamış, mənəviyyatın formalaşmasının əsasını təşkil etmişdir. Məhz, indiki demokratik mühitdə dini dəyərlərimizlə bağlı olan biliklərin kompleks şəkildə öyrənil-məsinə böyük ehtiyac vardır.

# V FƏSİL

# QƏRB FƏLSƏFƏSİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**1. Xristian teologiyasında mahiyyət və mövcudluq problemi**
**2. Qərb fəlsəfəsində xristian antropologiyası**
**3. İntibah dövr fəlsəfəsi**
**4. Yeni dövr fəlsəfəsi**
**5. Yeni dövr fəlsəfi təfəkkürü**

## 1. Xristian teologiyasında mahiyyət və mövcudluq

Orta əsrlərdə Qərbi Avropanın dini ideologiyasında xristianlıq dini hökmranlıq edirdi, eləcə də fəlsəfə dinin xidmətçisinə çevrilmişdir. Dünyanın əksər filosofları göstərirdilər ki, orta əsrlərin dünyagörüşü ilahi məzmundan ibarət idi. Qərbdə kilsə ehkamları hər cür təfəkkürün çıxış nöqtəsi hesab olunurdu. Əksər elmlərin məzmunu kilsə təlimləri ilə üst-üstə düşürdü. Orta əsrlərin qərb fəlsəfəsi **sxolastika** adlanırdı. (Sxolastika - latınca scholasticus sözündən olub - məktəb, məktəbə aid). Sxolastika "məktəb fəlsəfəsi" kimi başa düşülür. Əslində sxolastika tarixən bir neçə dövrdə formalaşma mərhələlərini keçmişdir. **1) Erkən sxolastika (IX-XIII əsrlər) neoplatonizmin təsir dövrü, 2) Klassik sxolastika (XIV-XV əsrlər) "Xristian aristotelçiliyi", 3) Dirçəliş dövrünün sxolastikası (XV-XIX əsrlər)**.

Sxolastik fəlsəfənin nümayəndələri dini dünyagörüşün nəzəri əsaslarını yaratdılar. Məlumdur ki, orta əsrlər fəlsəfəsi feodal cəmiyyəti mədəniyyətinin inkişafına kömək edirdi və əsas cəhətlərini ifadə edirdi. Orta əsrlər fəlsəfəsinə sxolastik məktəb hakim idi və mücərrəd mühakimə əsas yer tuturdu.

Qərbi Avropa fəlsəfəsinin yaranması və formalaşması **Filon Meksandri, Avreliy Avqustin və Akvinali Fomanın** adı ilə bağlıdır. Xeyli davam edən orta əsrlər fəlsəfəsi xristian dini ilə əlaqədar olduğu üçün həmin filosoflar xristian təəssübkeşi idi.

Xristian fəlsəfəsinin inkişafının birinci mərhələsi **“Patristika”** adlanan dövr II-VII əsrləri əhatə edir (Patristika - latınca patria sözündən olub, ata deməkdir). Kilsə ataları tərəfindən yazılmış ədəbiyyatın ümumi adıdır. Patristikanın özünü 2 mərhələyə bölmək olur. **Birinci mərhələdə** xristian ehkamları əsas götürülmüş və nəticədə vahid və güclü kilsələr yaradılmışdır. **İkinci mərhələdə** xristian ehkamları ilə fəlsəfənin birliyi əsas götürülmüşdür. Patristika həm qərbdə, həm də şərqdə yaranmışdır.

Orta əsrlərin istər qərb, istərsə də şərq fəlsəfəsi təkallahlığa (monoteizmə) əsaslanmışdır. Mahiyyətinə görə teosentrik səciyyə daşıyırdı. Bu belə başa düşülür ki, bütün mövcudat allah tərəfindən yaradılmışdır. Xristian monoteist dünyagörüşü həm dini-mifoloji şüura, həm də bütpərəstlik fələsfi təfəkkürünə əsaslanırdı. Bu iki prinsip bir-biri ilə sıx bağlı idi və bu prinsiplər dünyanın yaradılması ilə bağlı olan vəhylərə əsaslanırdı. Birinci prinsip varlıq haqqında təlimin (ontologiyanın), ikinci prinsip isə idrak nəzəriyyəsinin (qnoseologiyanın) ilkin olan əsasını yarada bilmişdir.

Xristian dünyagörüşündə iddia olunur ki, allah dünyanı öz iradəsi ilə heç nədən yaratdı. Bu qəbil dünyagörüşü qərb fəlsəfəsində **kreasionizm** (yaradılan haqqında təlim) adlanır. Kreasionizmin bir səciyyəvi cəhəti antik fəlsəfəyə xas olan dualizmin (ideya və materiya) aradan qaldırılması olmuşdur. Orta əsr qərb fəlsəfəsinin görkəmli nəzəriyyəçisi **Avreliy Avqustin** olmuşdur. Onun dini fəlsəfi baxışları **“Həqiqi din haqqında”, “Azad iradə haqqında”, “Tövbə”, “Allah şəhəri haqqında”** və s. kimi əsərlərində şərh olunmuşdur. Avqustinin bu əsərləri sxolastik dünyagörüşə həlledici təsir göstərmişdir. Bu baxışa görə Allah ali varlıq, əbədi və dəyişməz ideyalar mənbəyidir. Avqustin fəlsəfəsində tale, qismət təlimi əsas yer tutur. Göstərilir ki, insan azad fəaliyyət göstərsə də, Allah hər şeyi onun vasitəsilə edir. Allah bəzi adamları xilas edir və digərlərini cəhənnəm əzabına göndərir.

Orta əsrlərin Qərb fələsəfəsində görkəmli nümayəndələrdən biri də **Akvinali Foma (1225-1274)** olmuşdur. Ölümündən sonra

Roma katolik kilsəsinin qərarı ilə müqəddəslər sırasına daxil edilmişdir. Onun əsas əsərləri **"Bütpərəstlər əleyhinə külliyat"** və **"Teoloji külliyat"**dır. Akvinali Foma həm Aristotelin həm də digər filosofların əsərlərinin şərhçisi olmuşdur. O, sxolistikanın sistemləşdirilıməsinə cəhd göstərmişdir.

O, Aristotel fəlsəfəsindəki idealist ünsürləri (məs: dünyanın ilk təkanverici qüvvəsi, hərəkətsizlik və s.) özünün fəlsəfəsi dünyagörüşünə daxil etmişdir. O, başlıca olaraq xristian teologiyasını şərh edərək qeyd edirdi ki, ali ilahi mütləq sayılan İsus Xristos bir tərəfdən insan obrazındadır və digər tərəfdən Allaha məxsus keyfiyyətlərə malikdir. O, ilahi (ideal) ilə insanın (maddi, materiya) vəhdət simvoludur. Fomaya görə ali həqiqət Allahın özü hesab edilir. Akvinali Foma belə hesab edir ki, insan əqlin dərk edə biləcəyi həqiqəti dərk etməlidir. Bu ancaq fəlsəfi həqiqətin dərk edilməsi ilə tamamlana bilər. Akvinali Foma əqlin və elmin münasibəti məsələsində elmi müstəqilliyi qəbul etməyərək burada üstünlüyü etiqada vermişdir. O, həmçinin Allahın varlığını kosmoloji sübutlar vasitəsilə təsdiq etməyə çalışırdı. Foma kosmoloji sübutlar baxımından qeyd edirdi ki, Allahın mövcud olmasının beş sübutu mövcuddur. **Birinci -** nə varsa hərəkətdədir, ancaq onların başlanğıcı hərəkətsizlikdir. Deməli bir başlanğıcdan digər bir başlanğıca keçid üçün təkan lazımdır; **İkinci -** təkanverici qüvvə Allahdır; ikinci-ilkin səbəb mövcuddur, bu Allahdır; **üçüncü -** təbiət müxtəlif maddi ünsürlərdən ibarətdir; **dördüncü -** həyatda mümkün olan səviyyələrdə xeyirxahlıq və doğruluq mövcuddur, deməli bir kamillik mövcuddur ki, bu Allahdır; **beşinci -** təbiətdə baş verənlər məqsədə doğru hərəkətdədir ki, bunu Allah istiqamətləndirir və Allah da yaradandır. Hələ ki, bunlar mövcuddur, birdən bu mövcudluq olmazsa, onda heç bir mövcudluq olmayacaq. Deməli, nə isə zəruri olan bir mövcudluq var ki, o da Allahdır.

## 2. Xristian teologiyasında mahiyyət və mövcudluq problemi

Xristian teologiyasının şərhində **varlıq (mövcudluq) və mahiyyət (ekzistensiya** və **essensiya)** problemləri bir-birindən

fərqli şəkildə izah olunur. Məsələn xristian teologiyasında mövcudluq onun nə və necə olmasında mövcudluq səbəbi əsas şərt kimi qəbul olunur. Orta əsr filosoflarından olan **Boesi (480-524)** mahiyyət və mövcudluğu bir-birindən tamamilə fərqlənən həqiqət kimi qəbul edirdi. Onun işləyib hazırlaya biləcəyi məntiq problemi orta əsr sxolastikasının inkişafına həlledici təsir göstərdi. Boesiyə görə ancaq Allahın simasında mövcudluq ilə mahiyyət üst-üstə düşə bilər. Ona görə Allahın yaratdıqları bütün şeylər mürəkkəb substansiyalardan ibarətdir. Orta əsrlərin dini-fəlsəfi dünyagörüşünə əsasən şeylərin mahiyyəti zəka vasitəsilə dərk olunan anlayışlarda ifadə olunur. Lakin biz şeylərin mövcud olduğunu təcrübə nəticəsində müəyyən edə bilərik. Deməli, mövcudluq bu və ya digər mənada başqa bir anlayışa daxil ola bilməz.

Orta əsrlər fəlsəfəsinin səciyyəvi xüsusiyyətlərindən biri də odur ki, ümumi anlayışların (universalilərin) mahiyyətinin açıqlanmasında və şərhində əsrlər boyu davam edən mübahisələrin təzahüründə **realizm və romantizm** adlanan cərəyanları qeyd etmək olar. **"Realizm"** anlayışı indiki mənada yox, orta əsrlər dövrünə uyğun olan bir termin kimi yəni ümumi anlayışların (universalilərin) əsl reallıq olduğunu qəbul edən təlim kimi başa düşülür. Təlimə görə ümumi anlayışlar ilahi ideya və zəka kimi şeylərdən əvvəl mövcud olmuşdur. Ancaq bunun sayəsində insan zəkası şeyin mahiyyətini dərk edə bilər. Digər xristian təlimçisi olan **Kenterberiyalı Anseliyə (1033-1109)** görə dərketmə ancaq zəka vasitəsilə mümkün ola bilər.

Realizmin əksi olan və bir-birilə qarşı-qarşıya duran cərəyanlardan biri olan **nominalizm** (latınca nomen ad deməkdir) göstərir ki, ümumi anlayışlar konkret şeylərin adlarını bildirir. İnsan əqli ümumi anlayışları yarada bilir. Məsələn, biz ayrı-ayrı fərdi keyfiyyətlərə malik olması və həmin cisimlərdə ümumi tərəfləri götürməklə hansısa substantiv elementin olduğunu müəyyən edə bilərik. Xristian katolikləri şərh edirlər ki, substansional və aksidensial (xassə, keyfiyyət) formalar bir-birindən fərqli olur. Burada birinci formaya görə varlığın və onun

nədən yarandığını və ya məhv olmasında nəyinsə məhv oldunduğu qeyd edilir. İkinci formaya görə isə şeyin varlığını yox, onun keyfiyyət mənbəyinin müəyyən edilməsidir.

XIII-XIV əsrlərdə nominalizmin tərəfdarlarından **Uilyam Okkam, Joam Buridan və Ofrekurlu Nikolayın** adlarını qeyd etmək olar. Bu müəlliflər varlıq ilə mahiyyət problemini aristotelçilk dünyagörüşü baxımından izah etməyə səy göstərmişlər. Onlar göstərirdilər ki, mahiyyət və varlıq digər kateqoriyalara nisbətən bir-birinə daha çox yaxındır. Mahiyyət hiss üzvləri ilə deyil, ancaq ağıl vasitəsilə dərk edilə bilər. Nominalizmdə isə ilahini hər şeyə qadir olan qüvvə kimi və yaradılan hər bir şeyin Allahın iradəsinin nəticəsi kimi şərh edirlər. U.Okkam mahiyyət anlayışını qəbul etmirdi. Okkama görə ideya Allahın ağlında mövcud ola bilməz. Allah əvvəlcə iradəsinə uyğun olaraq şeyləri yaradır, sonralar isə şeylər haqqında ideyalar təsəvvür kimi yaranır.

Demək olar ki, XI əsrdən sonra məntiq problemi və onun mahiyyəti ilə bağlı fəlsəfi baxışlar inkişaf etməkdə idi və o vaxtlar məntiq dialetktika kimi şərh olunurdu və bu problemin mahiyyəti anlayışlar və onun mahiyyətinin açıqlanmasına daha çox ehtiyac duyulurdu. Boesinin bu istiqamətdə olan baxışları XI-XIV əsrlərdə fəlsəfənin inkişafına xeyli təsir göstərdi ki, sonralar artıq dialektika fəlsəfənin əsas elementlərindən birinə çevrilirdi. Qeyd edtmək olar ki, anlayışların təhlili və onların bir-birindən fərqləndirilməsi çox əhəmiyyətli idi.

Orta əsrlərdə təbiətə olan münasibət dəyişməyə başladı. Artıq təbiət bir müstəqil varlıq kimi qəbul edilmirdi. İlahi qüvvəni qəbul edən təlim təbiəti müstəqillikdən çıxardı. Allah nəinki təbiəti yaratdı, hətta möcüzələr belə törədə bildi. Təbiət hadisələri izah edilərkən yüksək dini-əxlaqi reallıqlara yer verilirdi. Lakin artıq son dövrlərdə təbiət müstəqil obyekt kimi öyrənilməyə başlanıldı. Bu da öz növbəsində təbiət elmlərinin öyrənilməsinə və inkişafına təkan verdi.

## 3. Qərb fəlsəfəsində xristian antropologiyası

Orta əsr xristian mütəfəkkirlərinin fəlsəfi-dini yaradıcılığında insan və onun mahiyyəti haqqında baxışlara xeyli yer verilmişdir. Bu mübahisəli məsələlərdə insanın "Allahın obrazı və bənzəri" və ya insanın "zəkalı heyvan" kimi anlaşılması idi. Filosoflar arasında bu problemlərdən alınan çoxsaylı suallara məsələn, zəkaya üstünlük və yaxud heyvani tərəflərə üstünlüyün verilməsi və s. kimi məsələlərin həlli öz əksini tapırdı. Digər bir müzakirəli məsələ həm də insanın allahın bənzəri olub-olmaması məsələsi idi. Lakin xristian dini dünyagörüşündə insan hər şeydən yüksəkdə durur, çünkü Allah transendentdir, o öz yaratdığı dünyada tam əlçatmazdır. Məlumdur ki, antik dövrdə insan problemi hər iki cərəyanda (platonizm və aristotelizm) öz təhlilini verirdi. Həmin dövrdə insana üstünlük verilmirdi. Məsələn, platonçuluqda insanın əsl mahiyyəti onun zəkalı ruhunda axtarılırdı və belə qəbul olunurdu ki, insan zəkalı mövcudatlar içərisində (ruh, mələk, şeytan və s.) ən aşağı yer tutur. Lakin Aristotelə görə insan canlı bədən hesab olunmuş ruha malik olan bir heyvandır. İnsanın digər canlılardan fərqi yalnız onun ruhunun zəkalı olmasıdır.

Orta əsr filosoflarına görə insan kainatdan tam ayrı götürülərək onların başqa bir dünyadan (səma səltənəti, ruhlar dünyası, cənnət və s.) gəlməsi və nəticədə onların oraya qayıtması əsas şərt kimi qəbul edilmişdir. Allah insana zəka, iradə, ağıl verir və nəticədə insanı mühakimə etmək, yaxşılığı və pisliyi dərk etmək, düşünmək, planlaşdırmaq və s. kimi mənəvi keyfiyyətləri bəxş edir, digər tərəfdən Allah insanın digər mövcudluqlar üzərində fərqli olması üçün ona bədən və ruh verir.

Xristian teologiyasına görə Allahın oğlu olan İsa Məsih insan nəslini günahdan təmizləmək üçün insan şəklində təcəssüm olunmuşdur. Xristian antropologiyasında əsas ehkamlardan biri də insanın öləndən sonra yenidən dirilməsidir. Əvvəlki bütpərəstlik ənənələrindən fərqli olaraq ruhun ölməzliyi (bədən öldükdən sonra ruhun başqa bədənə köçməsi) məsələsinin əksinə

olaraq belə fikir yaranır ki, müəyyən vaxt keçəndən sonra insan bütöv şəkildə yenidən dirçələcəkdir. Ancaq xristianlığa görə ruh bədəndən ayrı yaşaya bilməz.

İnsan haqqında təlim yaradan ilk filosoflardan biri III əsrdə **Origen** olmuşdur. Origen şərh edirdi ki, insan ruhdan, qəlbdən və bədəndən ibarətdir. Ruh insanın özünə mənsub deyil, insana Allah tərəfindən verilmişdir və ruh həmişə yaxşılığa və həqiqətə doğru yönümdə olur. Lakin qəlb dedikdə o təbiətinə görə insanın "mən"ini ifadə edir. Qəlbin ikiləşməsi anlamında qəlb həm xeyirə, həm də şərə meyli olmasında tərəddüd edir. İnsan istək, arzular və ehtirasların ardınca getməyə can atır. Bu fəaliyyət bir neçə dəfə davam olunarsa, nəticədə insan günahkar varlığa çevrilə bilər. Bu hal vərdiş halını almazsa, ilahinin yaratdığı təbii qayda pozulmuş olur və nəticədə insan şərə yuvarlanmış olur. Şəri insan özü yaradır, pislik Allahın insana verdiyi azadlığın sui istifadəsinin nəticəsidir.

Orta əsrlərdə Şərqdə olduğu kimi Qərbdə də tərki-dünya həyat tərzi də mövcud olmuşdur. Aydındır ki, orta əsrlər dövründə asketizm deyəndə bu insanın öz bədənindən imtina edilməsi kimi yox, insan bədəninin yüksək mənəvi əsaslara tabe etdirilməsi ruhunda başa düşmək olar. Xristian antropologiyasına görə xristian Allahı ilə insan iradə sahibinə malikdir. Bu baxımdan qeyd etmək olar ki, etik rasionalizm dünyagörüşü yenidən canlanmış olur. Antik dövrdə etikada mərkəzi yer biliyə verilirdi, orta əsrlərdə isə dini etiqad əsas yer tuturdu. Avqustin qeyd edirdi ki, insanın mahiyyəti onun iradəsindən asılıdır. Lakin insanda elə müəyyən hallar olur ki, bəzən insan etmək istəmədiyi hərəkəti edir. Bu insanda qəlbin xəstəliyi, daha doğrusu özündən yüksək başlanğıca tabe olmaması kimi başa düşülür.

Orta əsrlər antropologiyasına görə insan kosmosun tərkib hissəsi kimi başa düşülmüş hesab olunurdu, lakin xristian teologiyasına görə insan günahkar hesab olunur, ona görə də o nəinki təbiətdən yüksəkdə durur, hətta özü-özünün ağası ola bilmir və Allahın mərhəmətindən asılı olur. Ona görə də qeyd etmək olar ki, orta əsrlər antropologiyasına görə insan ikili

vəziyyətdə təhlil olunur, əsas diqqət insanın özünə və insan ruhunun daxilinə yönəldilir. Ruha məxsus olan sirlər insanın özünə aid edilmir. Bu daxili mahiyyəti ancaq Allah müəyyənləşdirə bilər. Ruhun təbiətinin Allah tərəfindən müəyyənləşdirilməsi sanki insanın bu yolla günahdan təmizlənməsinə imkanı yaradır və bu da nəticədə ümummədəni inkişafa istiqamət verir. İnsanın daxili mənəvi dünyasına diqqət artdıqca insanda "Mən"in güclənməsinə səbəb olur. Məlumdur ki, bu ənənə Antik mədəniyyətdə yox idi, bu orta əsrlərdə özünü dərketmə (mənlik şüuru) prosesində formalaşmağa başladı. Məsələn Avqustin qeyd edirdi ki, insan öz mövcudluğu haqqında daxili bilik əldə edə bilir. Qeyd olunan bu baxışlar sonrakı dövr üçün rasionalizmin çıxış nöqtəsinə çevrildi.

İlkin Orta əsrlər dövründə Qərb fəlsəfəsində tarixi dövrə yüksək maraq göstərilmişdir. "Müqəddəs kosmos" anlayışı "Müqəddəs tarix" anlayışı ilə əvəz oluna bildi. Xristianlar öyrədirdi ki, dindarların xilas olunacağı gün, daha doğrusu günahlarla içi dolu olan dünyanın məhv ediləcəyi gün gələcəkdir. Qiyamət günü isə tarixi hadisə kimi mənalandırılırdı. Orta əsrlər təfəkküründə tarixin sonu haqqında yəni, tarixin gələcəyi ilə bağlı olan təsəvvürlərin açıqlanmasına diqqət yetirilirdi.

Avqustin sübut etdi ki, vaxt həmişə insan qəlbinin nailiyyətidir. Onun fikrincə vaxtı yaradan şərtlər insan qəlbində 3 əsas cəhətlə müəyyənləşdirilir: **1) indiki dövrə yönələn diqqət, 2) gələcəyə yönələn gözlənti, 3) keçmişə yönələn yaddaş.**

Qeyd etmək lazımdır ki, tarixi anlayış "müqəddəs hadisələr" çərçivəsinə daxil edildiyindən zaman fövqündə dayanan tarixi reallıqlar kimi başa düşülürdü. Yalnız intibah dövründə dünyəvi tarixilik "müqəddəslik" qabığından azad olunması cəhdi ilə başlandı. Bütövlükdə orta əsrlərin qərb fəlsəfəsini teosentrizm kimi səciyyələndirmək mümkündür. Çünki bu dövrdə insan təfəkkürünə xas olan anlayışlar Allahla müqayisədə təhlil olunur və bütün proseslər ancaq onun vasitəsilə mütləqləşdirilirdi.

## 4. İntibah dövr fəlsəfəsi

XIV əsrdə Şərqdə feodalizmin dayaqları hələ möhkəm idi, amma Avropada ilk öncə İtaliyada burjua münasibətləri qərarlaşmağa başlayırdı. Məlumdur ki, feodalizmdə feodal üsul idarəsi və burjua münasibətlərində isə yeni iqtisadi münasibətlər daha güclü idi. Burjua münasibətlərində isə manufakturalar istehsalı yaranırdı və elm, fəlsəfə bir sözlə yeni mənəvi münasibətlər formalaşmağa başlayırdı. Odur ki, bəşəriyyətin belə inkişaf mərhələsində intibah dövr fəlsəfəsi mühüm yer tutdu və bu Avropa mədəniyyəti tarixində **İntibah** və ya **Renessans** (fransız sözü mənasında dirçəliş deməkdir) dövrü kimi yer tutur. Zaman etibarilə bu dövr İtaliyada XIV-XVI, digər Avropa ölkələrində isə XV-XVI əsrləri əhatə edir. Bu dövrdə bir-birinin ardınca elmi-kəşflər və ixtiralar genişlənməyə başladı. Hindistana dəniz yolunun açılması (Vasko de Qama) Magellanın dünya səyahəti, yerin kürə şəkilli olması və onun günəş ətrafında fırlanması, çap maşını və odlu silahın ixtirası, coğrafiya və kartoqrafiya elmlərinin tibb, kimya, astronomiya sahəsində əldə olunan ixtiraları intibah dövründə yaranan böyük elmi nailiyyətlər kimi qəbul etmək olar. Bütün bu kəşflər insanların mənəvi dünyasını genişləndirdi və bir sözlə, insan artıq konkret olaraq iradə azadlığı əldə etməklə insan şüurunun din və kilsədən çox dünyəviləşmə prosesinə doğru can ataraq insan probleminin şərhinə geniş yer verildi. Həmçinin cəmiyyətin mənəvi dünyagörüşündə insan probleminin açıqlanmasında humanizm fəlsəfəsi aktuallıq kəsb edirdi, çünki, humanizm dünyagörüşünün mərkəzində insan və onun şəxsiyyəti, mənəviyyatı əsas yer tutur. Humanizm fəlsəfəsində əsas cəhəti dini yox, əsas olaraq insanın özünün qiymətləndirilməsi və mahiyyəti təbliğ olunurdu.

İntibah fəlsəfəsi insana yüksək qiymət verərək insanı kainatın mərkəzində olmasını qəbul edərək antroposentrizm dünyagörüşünü təqdim edir və bu da öz ifadəsini fəlsəfədə, ədəbiyyatda, heykəltəraşlıqda, rəssamlıqda, xüsusilə **Mikelancelo, Leonardo da Vinçi, Rafael, Petrarki, Dante** və digərlərinin

əsərlərində öz əksini tapdı. Dahi rəssamlar, heykəltəraşlar və alimlər arasında özünün çox tərəfliliyi və dərin biliyi ilə seçilən italyan **Leonardo da Vinçi (1452-1519)** olmuşdur. Onun təbiətşünaslıq elminin yaradılmasında xeyli əməyi olmuşdur. O, eksperimental-riyazi metodun tətbiq edilməsi işini həyata keçirmiş və o, elmi fəaliyyətin insana gətirdiyi faktiki faydasını da qeyd etmişdir. Onun bədii estetik fikrinin inkişafında da həmçinin xidməti əvəzsizdir. Rəssam dövrün zamanın ideallarına cavab verən insan obrazı yarada bilmişdir. Mono Lizanın portreti, yaxud "Cakonda" kimi əsərləri qadın gözəlliyinin humanist idealı idi.

İntibah dövrünün humanist prinsipləri insanı fəal həyata çağırırdı, onun özünə olan inamı artırırdı, bir sözlə insan azad və hərtərəfli inkişaf edən bir varlıq kimi xarakterizə edilirdi. Buna əsasən demək olar ki, humanizm fəlsəfəsi intibah dövr mədəniyyətinin əsas məğzi kimi qəbul edilirdi.

Sonralar XV-XVI əsrlərdə intibah dövrünün xarakterik xüsusiyyətləri İtaliya çərçivəsindən kənara çıxaraq Alpyanı Avropa ölkələrinə, İngiltərə və Niderlanddan başlayaraq Almaniya, İsveçrə, Polşa və Macarıstana qədər geniş yayılmağa başladı. Onlar bir-birindən fərqlənsələr də ümumi cəhətlərə malik idi. Ən ümumi cəhət ondan ibarət idi ki, hər iki humanizmin nümayəndələri katolisizmin hökmran ideologiyası və fəlsəfəsi ilə üz-üzə qalırdı. Nəticədə İtaliyada Platonçu humanizm məktəbinin dəyərləri aradan çıxdı və öz yerini fəlsəfənin yeni bir sahəsi olan təbiət fəlsəfəsinə verdi. Onun ən görkəmli nümayəndələrindən **Cordano Brunonun (1548-1600)** adını qeyd etmək olar. İntibah dövr mütəfəkkiri kainatın vahid vəhdətdə olmasını və təbiətin sonsluzluğu kimi ideyalarını irəli sürürdü. O, sxolastik fəlsəfəni və xristian dini dünyagörüşünü qəbul etmirdi. Onun **"Sonsuzluq, kainat və dünyalar haqqında"** adlı əsərlərində dünyanın sonsuzluğu, onun dinamik inkişaf birliyi və əbədiliyi haqqında olan problemləri əsas götürmüşdür. O, qeyd edirdi ki, **"Bütöv sonsuzdursa və yerini dəyişmirsə, onda hərəkətin mənbəyini**

**axtarmağa heç bir ehtiyac qalmır** (Fərrux Ramazanov, Fəlsəfə. Ali məktəblər üçün dərslik səh. 110. 1998).

C.Bruno belə mütərəqqi fikirlərinə görə təqib olundu və İtaliyanı tərk etdi. Uzun müddət Fransada, İngiltərədə, Almaniyada və Praqada yaşadı. Sonralar İtaliyaya qayıtdı və həbs olunaraq ölüm cəzasına məhkum edildi. İntibah dövrünün və elminin əsas nümayəndələrindən biri də **Q.Qaliley (1564-1642)** olmuşdur. O, dünyanın heliosentrik mənzərəsinin elmi mahiyyətini şərh etmişdir. Onun 1632-ci ildə yazdığı **"Dünyanın ən başlıca iki sistemi – Ptolomey və Kopernik sistemləri haqqında dialoq"** adlı əsərinin nəşrindən sonra ciddi təqibə məruz qalaraq həbs olundu. Onun haqqında belə rəvayət vardır ki, o hələ həbsxanadan azad olmamış belə deyirdi ki, "mən ancaq bir şeyi bilirəm ki, Yer fırlanır". Qalileyin təbii-elmi nəzəriyyəsi sonrakı dövrlərdə elmi tədqiqatçılıq fəaliyyətində əhəmiyyətli rol oynamış və yeni idraki metodun rasional mövqe ilə əvəz olunmasına səbəb olmuşdur. Bu dövrdə digər təbiət elmləri (kimya, biologiya və s.) meydana gəlmək ərəfəsində idi. Lakin, mexanika və riyaziyyat ən ümumi xarakter daşıyırdı.

Tanınmış və məşhur ədiblərdən biri də **İ.Nyuton (1643-1727)** idi. İ.Nyuton klassik mexanika qanunlarını, ümumdünya cazibə qanunlarını kəşf etmiş və səma cismlərinin dövranı nəzəriyyəsini işləməklə, həmin mexaniki – metafizik fəlsəfi istiqaməti daha da möhkəmləndirdi, nəticədə artıq dünyanın yeni elmi-mexaniki mənzərəsi meydana çıxdı. İntibah dövrünün klassik nümayəndələrindən biri olan **Nikolay Koperniki (1473-1543)** xüsusi qeyd etmək olar. Onun dünyanın heliosentrik mənzərəsinin formalaşmasında xüsusi rolu olmuşdur. O, yerin kürə şəklində olmasını öz oxu və günəş ətrafında fırlanmasını, səma cismlərinin dövranı haqqında olan heliosentrik nəzəriyyələrini irəli sürmüşdür. O, həmçinin səma cisimləri ilə yerin eyni qanunlara tabe olması fikirini bildirmişdir. Onun **"Səma cisimlərinin dövranı"** kitabının çapdan çıxması ilə demək olar ki, təbiətşünaslığın dindən ayrılmasınının başlanğıcı kimi qəbul

etmək olar. Ancaq kitabın müəllifi olan N.Kopernik ölüm ayağında kitabının ilk çap nüsxəsini görə bildi.

İntibah dövründə siyasi ideoloqlardan **Nikola Makiavelinin (1469-1527)** adını qeyd etmək olar. Makiaveli təsdiq edirdi ki, dövlət öz məqsədlərini həyata keçirmək üçün hər cür vasitədən istifadə edə bilər. Öz hakimiyyətini qurmaq və möhkəmləndirmək üçün hökmdar hətta zidd vasitələrdən də istifadə edə bilər. Çünki məqsəd vasitəyə haqq qazandırmaqdır. Vasitəyə haqq qazandıran məqsədlər Makiavelliyə görə bunlardır: **xaricilərin hökmranlığından azad olmaq, sabitlik və ya qanunçuluq**. Xeyirxahlıq isə sözün həqiqi mənasında bütün məqsədə çatmaq üçün zəruri və əlverişli olan adətlərin cəmidir. Məhz həmin məqsədlər bizim əməllərimizdə xeyirxah vərdişlər yaradır. Xeyirxahlıq isə vətəndaş ləyaqətindən, vətənpərvərlikdən, eqoizmdən başqa bir şey deyildir.

XVI əsr humanistlərində utopik yaradıcılıq meydana gəldi. Onlardan **Tomas Mor** (1479-1555) **"Utopiya adası"** adlı əsərində (Utopiya adlı ada yoxdur, onu Tomas Mor uydurmuşdu) o, mövcud ictimai quruluşu tənqid edirdi və xüsusi mülkiyyəti ədalətsizliyin, bərabərsizliyin səbəbi kimi izah edirdi. O, qeyd edirdi ki, hər bir adam işləməli və insanı hüquqlara malik olmalıdır, eləcə də dövləti ağıllı adamlar idarə etməlidir. Tomas Morun Utopik təlimi XVIII əsrin axırlarında sosializm nəzəriyyəsinin rüşeymlərindən biri oldu. Əlbəttə o öz təlimini utopiya hesab etmirdi və o düşünürdü ki, yüksək səviyyəli ədalətli hökmdarla bu cəmiyyəti qurmaq olar.

Digər klassik nümayəndələrdən biri də **Tommazo Kampanella** İtaliyan fəlsəfəsinin banilərindən biri hesab olunurdu. Onun sosioloji ideyaları **"Günəş şəhəri", "Xristian monarxiyası haqqında", "Kilsə hakimiyyəti haqqında", "İspaniya monarxiyası haqqında"** əsərlərində öz əksini tapmışdır. Müəllif kilsə və aristokrat hakimiyyətinin birliyini qəbul edir, protestant reformasiyasını rədd edirdi və papa hakimiyyətinin tərəfdarı idi. O, sui-qəsddə günahlandırıldığı üçün cinayət məsuliyyətinə cəlb edilmiş və əsərlərinin çoxunu həbsxanada yazdığı "Günəş şəhəri"

adlı əsərində dövlət quruluşunun təhlilini verir və teokratik sistemin yaradılmasını və onun idarə olunmasında kahinlərin yəni ruhanilərin rolunu qəbul edirdi. Kampanellanın əsərlərində bəzi ziddiyyətli fikirlərə rast gəlinərsə, bütövlükdə onun dünyagörüşü mütərəqqi xarakterə malik idi. O, cəmiyyətin inkişafında elmin yüksək rolundan söbət acmış, müharibələrin və xüsusi mülkiyyətin aradan qaldırılmasını əsaslı şərt kimi qəbul etmişdi.

Renessans dövrü fəlsəfəsinin nümayəndələrindən biri də **N.Kuzanski (1401-1494)** olmuşdur. O, neoplatonizm ənənələrinə yeni tərzdə yanaşmışdır. O, antik dövrün dualizminə qarşı çıxaraq xristian moneizmini əsas tuturdu. O, insanın öz idraki ilə yaradıcılıq səviyyəsinə yüksəlməsini onun "allahabənzərliyi" kimi qəbul edirdi. N.Kuzanski yazırdı: "Hər şey ilə maraqlanan insan üçün ən mükəmməl idrak öz biliksizliyi haqqında ən yüksək biliyə malik olmasıdır: öz biliksizliyini görən insan daha bilikli olar. Onun fikrincə insan ağıllı həqiqəti tamamilə dərk edə bilməz: "Beləliklə, həqiqət haqqında biz dəqiq yalnız onu bilirik ki, o əlçatmazdır, bizim ağlımız həqiqətə necə olduğundan nə çox, nə də az ola bilməyən mütləq zərurətə çatmaq imkanı kimi yanaşır". O, belə bir dialektik müddəanı qəbul edərək "əksliklərin eyniyyəti" (vahidliyi) prinsipi haqqındakı müddəanı əsas götürürdü. Yəni vahid onun əksliyi ilə "vahid olmayan"dan ibarət olan əksliyi dualist formada qəbul etmirdi. O, **"vahid hər şeydir, hüdudsuzdur, sonsuzdur"** müddəasından belə alınırdı ki, sonsuzluq "maksimum", vahid isə "minimumdur".

Humanizm dövrünün bəzi filosoflarının fəlsəfi baxışlarını xarakterizə edə bilməsək də, fəlsəfi fikrin inkişaf tarixinə intibah dövr fəlsəfəsi böyük təsir etmişdir. İntibah dövrün humanizmi sxolastikaya, asketizmə qarşı mübarizə apararaq cəmiyyətin inkişafında mütərəqqi rol oynadı. İntibah dövrünün səciyyəvi cəhətlərinin biri də antropoentrizm ilə sıx əlaqəli olaraq insan şəxsiyyətinin rolu çox artdı. Bu dövrdə şəxsiyyət anlayışına yeni bir keyfiyyət – öz hərəkətinə cavab vermək, məsuliyyətli olmaq, öz yerini müəyyənləşdirmək və s. kimi qabiliyyətlər verilirdi. XV əsr humanistlərindən **C. Mirandolanın "İnsanın ləyaqəti**

**haqqında miflər”** əsərində belə bir fikir səciyyələndirilərək qeyd olunurdu ki, Allah insana belə sözlərlə müraciət edir. “Ey Adəm, biz ona görə sənin yerini, simanı və vəzifələrini dəqiq müəyyənləşdirmirik ki, bunları sən özün öz şəxsi arzuna, iradənə və qərarına görə özün müəyyənləşdirəsən”. İntibah dövründə naturfəlsəfəyə çox güclü maraq yarandı. Hər şeydən əvvəl bu təbiətin panteist izahında özünü göstərdi, xristian Allahı sanki təbiətə qovuşur və daha sonra təbiətin təbii-elmi mənzərəsini yaradır. Məsələn, alman həkimi və astroloqu **Parasels (1493-1541)** göstərirdi ki, təbiət təkcə canlı varlıqların (bitki, heyvan, insan və s.) quruluşu ilə yox, həm də cansız stixiyalarda ifadə olunur.

Deyilənlər sübut edir ki, intibah dövründə fəlsəfə ilə elmin əlaqəsi gücləndi və onlar dünyəvi mahiyyət daşımağa başladı. Əgər Orta əsr fəlsəfəsinin predmeti ilahiyyət idisə, intibah dövründə isə əsas yeri təbiət tuturdu. Ona görə də intibah dövr fəlsəfəsindən Yeni dövrün fəlsəfi ənənələrinə keçid üçün zəmin yarandı.

## 5. Yeni dövr fəlsəfi təfəkkürü

Yeni dövr fəlsəfəsi XVI əsrin başlanğıcı və XX əsrə qədər olan dövrü əhatə edir. Əslində yeni dövr fəlsəfəsi elmi-fəlsəfi baxışlarına görə intibah dövr fəlsəfəsinin davamı kimi başa düşülə bilər. Bu dövrdən sonra Avropanın sosial-iqtisadi və mənəvi həyatında yeni cizgilər özünü göstərdi. Bunlardan biri kilsənin nüfuzunun aşağı düşməsi, digər tərəfdən isə getdikcə elmin rolunun artması ilə müşahidə olundu. Yeni dövrdə əsasən antik mədəniyyətin formalaşması mərhələsi kimi başa düşülə bilər. Əvvəlki dövrə nəzər saldıqda aydın olur ki, insan təbiətin hökmranlığı altından çıxmağa çalışırdı. Lakin elm ilə texnikanın qovuşması ilə yeni bir dünyagörüşünün formalaşmağa başlanması amili yarandı. Ona görə də bu dövrü yeni inqilab dövrü kimi qəbul etmək olar. Yeni dövrdə elmin inkişafı fəlsəfənin də istiqamətinin müəyyənləşməsinə kömək etdi. Orta əsrlər dövründə fəlsəfənin istiqaməti teosentrik mahiyyət daşıyırdısa, lakin bu dövrdə incəsənətə, humanitar biliklərə meyl gücləndi.

Yeni dövr ingilis fəlsəfəsinin görkəmli nümayəndələrindən biri də **Frensis Bekon** (1561-1626) olmuşdur. O, həm siyasi xadim, həm də görkəmli ideoloq idi. O, elmdə induktiv metodda məntiqi sistemləşdirilmənin əsasını qoydu. Onun **"Yeni Orqanon", "Ləyaqət və elmin inkişafı haqqında**" olan digər əsərlərində biliklər sisteminin praktik əhəmiyyətinin mahiyyətindən bəhs olunur. Frensis Bekon **"Prinsiplər və başlanğıclar"** haqqında olan əsərində materiyanın atomlardan ibarət olması və onun daxili fəallığı qeyd olunur. O, qeyd edirdi ki, materiyanın kəmiyyəti və onun məcmusu daim sabitdir, nə artır və nə də azalır. F.Bekonun fəlsəfəsində sosial problemlərin həlli və təsərrüfat həyatının dirçəlməsi əsas amil kimi başa düşülürdü. Frenses Bekon bilik qüvvədir deyərək idraki prosesə məntiqi yanaşma baxımından münasibət bildirmiş və onun fikrincə dünyanın dərk edilməsi özündə eksperimenti və təcrübəni birləşdirən hissi idrak vasitəsilə mümkündür. O, bu münasibətlə **"Dörd idol**" əsərində **birinci idol -** cinsi idol adlanır və burada belə başa düşülür ki, düşüncələr şeylərin təbiətini təhrif edir. **İkinci idol-**həqiqətin təhrif olunması, **üçüncü idol -** insanların dil vasitəsilə ünsiyyətin və sözlərin düzgün ifadə olunması kimi başa düşülür. **Dördüncü idol -** teatr idolu kimi qəbul olunur. Yəni burada biliklərə xələl gətirən xülyaları aradan qaldırmaq üçün bilik və praktikadan, eksperimentdən elmi tədqiqatlarda induktiv metoddan istifadə edilməlidir.

Yeni dövr fəlsəfəsinin formalaşması və inkişafında fransız filosofu **Rene Dekartın** (1596-1650) xüsusi fəaliyyəti olmuşdur. **R.Dekartın "Metod haqqında mühakimələr", "Metafizik düşüncələr", "Fəlsəfənin əsası"** kimi əsərlərində dualist fəlsəfi təlimlərin şərhinə geniş yer verilir. O, göstərir ki, dünya bir-birindən asılı olmayan 2 substansiyadan ibarət ola bilər, onun biri ruhu, digəri isə maddi substansiyadır. Filosof qeyd edirdi ki, ruhi substansiyanın əlaməti təfəkkürdür, maddi substansiyanın əlaməti isə en, uzun və dərinliyinə malik olmasıdır.

R.Dekartın idraki təliminə görə idrak yox, ancaq hisslər bizi aldada bilər. O, qeyd edirdi ki, məkan və zamanı şübhə kimi

qəbul etmək olar. Məsələn, hesab və həndəsədə şübhə ola bilər, çünki hesablamalarda səhvə yol vermək mümkündür. O, həmçinin bir şeyi-mənim mövcud olmaq faktımı şübhə altına almaq qeyri mümkündür.

**“Mən düşünürəmsə, deməli mən mövcudam! -** kimi aforizm R.Dekarta aiddir. R.Dekarta görə təbiətin dərk edilməsinin həqiqi idrakı metodu ancaq riyaziyyat qəbul edilə bilər. R.Dekart klassik mexanikanın əsasını qoya bilmişdir. İlk dəfə R.Dekart təbiəti “nəhəng mexanizm” kimi qəbul edərək təbiəti Allah “ilk təkanla” hərəkətə gətirmişdir. R.Dekart nəzəri ideyaları hissi təcrübəyə qarşı qoyur və nəticədə “intellektual intuisiya” anlayışını irəli sürürdü.

Qeyd olunmalıdır ki, R.Dekartın **“Metod haqqında mühakimə”** adlı əsərində idraki rasionalizmdə deduktiv metoda geniş yer verilmiş və orada 4 mühüm şərt əsas hesab olunur. **Birincisi -** zəka üçün məlum olan və heç bir şübhə doğurmayan müddəanın həqiqi hesab olunması; **ikincisi -** hər bir mürəkkəb müddəalar onu təşkil edən hissələrdən ibarətdir; **üçüncüsü -** məlum olan və sübut olan şeylərdən naməlum və sübut olunmayan şeylərə keçid; **dördüncüsü -** tədqiqatda hər bir şeyin açıqlanması məqsədəuyğun olmalıdır. Bir sözlə R.Dekart anadangəlmə ideyalar nəzəriyyəsinin tərəfdarı olmaqla, biliyin mənbəyini təcrübədə, yəni insan zəkasının qabiliyyətində görürdü.

Öz fəlsəfəsinin dualist təlimini davam etdirən Hollandiya filosofu **B.Spinoza (1632-1677)** olmuşdur. O, vahid substansiya olan Allahı əsas götürərək monist təlim yaratmışdır. Milliyyətcə yəhudi olan B.Spinoza öz fəlsəfəsində Allahı təbiətin maddi substansiyası kimi şərh etdiyinə görə onu ateizmdə günahlandırmışlar. B.Spinozaya görə təbiət müstəqil bir qüvvə kimi qəbul edilir. Onun əsas fəlsəfi görüşləri **“Allah və insan haqqında”, “İnsanın xoşbəxtliyi haqqında”, “İlahiyyatçı-siyasi əsər”, “Etika”, “Siyasi traktat” və s**. kimi əsərlərində **“vahid substansiya anlayışı”** adlı təlimı əsas yer tutmaqla R.Dekartın dualizm anlayışını aradan qaldırdı. Onun antolo-

giyasında Allahla təbiəti eyniləşdirən B. Spinoza fəlsəfəsində ifrat realizmdən panteizmə keçid diqqəti cəlb edir. B.Spinozaya görə dünya özü-özünün səbəbi kimi başa düşülür və o müxtəlif təbiət hadisələrinin substansiyasının modusları (halları) kimi qiymətləndirilir.

**"Azadlıq dərk edilmiş zərurətdir!"** adlı məşhur tezis B.Spinozaya məxsusdur. B.Spinoza dünyada mövcud olan hər şey mütləq zərurət tərəfindən idarə olunur və insan iradəsinin heç nəyi dəyişməməsi fikrini əsas götürürdü. Onun fikrincə insan yalnız dünya prosesini dərk etməklə öz həyatını ona uyğun qura bilər. B.Spinozanın dünyagörüşü Allaha, zərurətə və ölümə münasibəti baxımından Stoiklərin təliminə uyğun olmuşdur. O, yazırdı ki, insan ölümdən qorxmamalıdır və ona görə narahat olmağa dəyməz. Çünki insanı heç bir şey ölümsüz edə bilməz. Ölümdən qorxmaq qulçuluq (köləlik) ənənəsidir və qeyd edirdi ki, əsl azad insan ölüm haqqında o qədər də düşünmür.

B.Spinoza təxminən 1661-ci ildə tamamlanmamış və ölümündən sonra çap olunan **"Zəkanın təkmilləşdirilməsi haqqında"** əsərində əsasən etik məsələləri müzakirə edirdi, şöhrəti, var-dövləti və həzzi inkar edirdi. B.Spinoza üçün ən əsası idrakın ali formada olması məsələsi idi. O, burada idrakın dörd istiqamətini müəyyənləşdirmişdir:

**1) Biz nə haqqında danışdığımız zaman heç bir şəxsi təcrübəyə malik olmasaq da öz danışığımızı dərk edə bilirik.**

**2) Biz şəxsi təcrübənin köməyi ilə dərk edə bilirik.**

**3) İnsan əqli nəticə ilə məntiqi prosesin gedişində deduksiya metodundan yəni həqiqi nəticənin köməyi ilə məlum olmayan müddəalardan məlum olan müddəaları öyrənə bilir.**

**4) İdrakın sonuncu istiqaməti bilavasitə intuisiyadır və bu şeylərin mahiyyətini müəyyənləşdirən yeganə istiqamətdir**.

Yeni dövr fəlsəfəsinin digər nümayəndəsi **Tomas Hobbs (1588-1679) F.Bekonun** fəlsəfi baxışlarını sistemləşdirmişdir. Onun fəlsəfi təlimləri **"Cisim haqqında"**, **"İnsan haqqında"**, **"Vətəndaş haqqında"**, **"Leviafan"** kimi əsərlərində öz əksini

tapmışdır. Tomas Hobbsa görə "dünya cisimlərin məcmusundan ibarətdir. Dünyada qeyri-cismani heç nə mövcud deyildir, dünya ancaq cismanidir, yəni dünyada cisim var, cisim yoxdursa deməli heç nə yoxdur". Filosof qeyd edir ki, materiya əbədidir, onun təşkil etdiyi ayrı-ayrı cisimlər isə müvəqqəti xarakterə malikdir. İnkişaf prosesində onlar meydana gəlir və yox olur (T.Hobbs. Leviatov səh. 468).

Onun fəlsəfi baxışlarına görə materiyanı təşkil edən maddi cisimlər rəng, səs, iy və s. kimi keyfiyyətlərə malik deyil, lakin materiyanın əsas xassəsini onun keyfiyyətində axtarırdı. O, dünyanın dərk olunmasını qəbul edirdi, insan biliklərinin mənbəyini obyektiv gerçəkliyin özündə axtarırdı. Dünyanın dərk olunması prosesində duyğuların rolunu da qeyd edir və digər tərəfdən qeyd edir ki, duyğu cismin hissəciklərinin hərəkətindən ibarətdir və hisslər vasitəsilə insan ancaq şeylərin obrazını yarada bilər. O, idrakda ağlın roluna da xeyli yer verir və məlum edir ki, insan ağlın vasitəsi ilə şeylərin tərkib hissəsini dərk edə bilir.

T.Hobbsun sosial və siyasi baxışları onun dövlət və hüquq ilə bağlı təlimində ictimai fikrin inkişafına güclü təsir etmişdir. Onun fikrincə dövlət-insanlar arasında bağlanmış müqavilənin nəticələrinə görə formalaşır. O, dövlətin 3 formada olmasını qeyd etmişdir: **monarxiya, aristokratiya və demokratiya.** Lakin o, monarxiyanı kamil forma kimi qəbul edirdi. T.Hobbs cəmiyyəti hissələrə bölürdü. Ayrı-ayrılıqda o hissələri öyrənir sonra onları yığaraq əlaqələri bir-birinə bağlaya bilir və nəticədə onların fəaliyyəti üzə çıxır və onu öyrənmək mümkün olur. Tomasın bu nümunəsi "yığılma-sökülmə" metodu kimi başa düşülür. O, ictimai hadisələri psixoloji hadisələr vasitəsilə izah etməyə səy göstərmişdir. O, əsas olaraq fərdi qəbul edir və özünün də fərd kimi özünü qoruyub saxlayan keyfiyyətin daşıyıcısı kimi qəbul edir. O, konfliktlərin üç mənbəyini əsas götürür: **qorxu, rəqabət və şöhrət** qazanmaq meyli. Bunlardan ən vacib olan qorxudur. Qorxu insanı siyasi cəhətdən formalaşmış cəmiyyətdə yetişdirir. Bununla da burada iqtisadi rəqabət və şöhrət uğurunda mübarizə yaranır - deyə T.Hobbs bildirmişdir.

Alman filosofu **Qotfrid Leybnits (1646-1716)** öz əsərlərini fransız və latın dilində yazmışdır. O, çoxlu səyahətlər etmişdir və sanki bütün Avropa onun evi idi. O, nəzəri səviyyədə fəlsəfə, teologiya, hüquq, fizika, təbabət, tarix və filologiyanın problemləri ilə məşğul olmuşdur. Onun xeyli əsərləri içərisində **"Monadalogiya" (monadi - yunanca təklik, vahid)** xüsusi yer tutur. Məlumdur ki, hələ antik dövr ənənəsinə görə mahiyyət (substansiya) anlayışı bölünməz hesab olunurdu. Belə başa düşülür ki, monadi sadə hisslərdən təşkil olunmayan və bölünməzdir. Leybnistin fikrincə hər bir monadin mahiyyəti onun fəaliyyəti kimi başa düşülür. Çünki fəaliyyət qavrayış, təsəvvür, cəhdlər kimi çıxış edir. Filosofa görə fəaliyyət dedikdə daxili vəziyyətin fasiləsiz olan dəyişiklikləri başa düşülür. Bunu insan öz qəlbində də həyatını seyr etməklə müşahidə edə bilir. Monadlar hissələr kimi qəbul olunduqda qəlb, zəka kimi olduqda isə ruh kimi başa düşülə bilər.

Onun "Monodalogiya" əsərində göstərilir ki, kainat Allah tərəfindən yaradılmışdır və orada sonsuz miqdarda substansional vahidlər (monadalar) mövcuddur. Yəni monadalar varlığı təşkil edən atomlarda və onların tərkib hissələrində mövcudluğunu şərh etmişdir. Filosof monadaların üç kateqoriyadan ibarət olmasını təsdiq edirdi: **1) Həyat monadaları, 2) Can monadaları, 3) Ruh monadaları.**

O, bunların hər birini ayrılıqda belə izah edirdi ki, qeyri-üzvi cisimlər həyat monadaları tərəfindən, insanlar isə ruh monadaları tərəfindən yaradılır. Daha sonra filosofa görə monadalar ikili təbiətə malikdir: **fəal-ruhi və passiv-maddi** monadalar. Leybnitsin fikrincə dünyada hər şey o cümlədən atomlar da Allah tərəfindən yaradılmışdır. O, qnoseoloji baxışlarına görə rasionalist idi. O da hisslər vasitəsilə rənglər, iylər, dadların dərk olunması ideyasını qəbul edirdi və duyğulara əsaslanan idrakı qəbul edirdi. Leybnits ikili həqiqət anlayışını qəbul edir: **zəruri (məntiqi) həqiqət və faktlara əsaslanan həqiqət.** Faktlara əsaslanan həqiqətlər emprik şəraitdən asılıdır. Lakin zəruri həqiqətlər isə heç vaxt pozulmur, hətta Tanrı tərəfindən də

mümkün deyildir. Leybnitsə görə bunu belə nəticələndirmək olar ki, varlığı əhatə edən hər şeyin bir əsası var. Bu əsas həm məntiqi olaraq çox mühümdür, digər tərəfdən isə mövcud dünyanın varlığı kimi başa düşülür.

Leybnitsin təlimlərindən biri olan "qeyri-şüuri təsəvvürlər" aləmində göstərilir ki, şüurlu şəkildə başa düşülən vəziyyət ilə qeyri-şüuri vəziyyət arasında kəskin bir mərhələ yoxdur. Çünki, monadaların bir-birinə keçməsi tədrici prosesə əsaslanır. Onun baxışlarına görə manadalar öz fəaliyyətində dəqiqlik dərəcəsinə görə şüurluluq səviyyəsinə keçməsinə görə müxtəlif vəziyyətdə olurlar. Leybnits digər tərəfdən qeyd edir ki, monadalara yalnız Allah təsir edə bilər. Varlığı əks etdirən hər bir monada kosmosun bütün dərinliklərini və rəngarəngliyini qavraya bilir. Onun anlamına görə dünya canlı kimi başa düşülür. Leybnitsin monadalogiyası mikroskopun gələcək elmi kəşfinin bir növ özünəməxsus ümumiləşdirilməsi kimi başa düşülə bilər. Məlumdur ki, dini kəşflər yeni elmi dünyagörüşü və yeni baxışlar tələb edir. Leybnitsin fəlsəfi dünyagörüşünə əsasən Allahın mövcudluğu dörd sübuta əsasən müəyyənləşdimişdir: **1) Ontoloji sübut, 2) Kosmoloji sübut, 3) Əbədi həqiqətdən olan sübut, 4) Əvvəlcədən müəyyənləşdirilmiş olan sübut.** Alman filosofu **İ.Kant** bu sübutları teoloji sübut deyə adlandırmışdır. Bütövlükdə Leybnitsin fəlsəfi təlimindəki rasionalist baxışları XVII əsr fəlsəfəsinin sonu və klassik alman fəlsəfəsinin sələfi hesab etmək olar.

XVIII əsrdə formalaşmış maarifçilik fəlsəfəsi Avropada yeni təfəkkürün əsasını qoydu. İngiltərədə kral cəmiyyətinə oxşar ilk elmi cəmiyyətlər formalaşmağa başladı. Onlarla birgə elmi və ümumtəhsil jurnallarında dövr üçün zəruri olan elmi məlumatlar toplusu yaradıldı. Bu dövrdə yaşayıb-yaradan maarifçilərdən biri də **Con Lokk (1632-1704)** olmuşdur. Sxolastik fəlsəfəyə tənqidi münasibət bəsləyən C.Lokk təbii elmlərə, təbabətə, kimyaya böyük maraq göstərmişdir. O, qarşısına idrakın tənqidi sınağını qoyaraq dini problemlər ətrafında sonsuz mübahisələrə, bir çox aydın olmayan müddəaların müəyyənləşdirilməsinə çox böyük

səy göstərmişdir. Onun **"İdarəetmə haqqında", "Dini dözümlülük haqqında", "Tərbiyə haqqında düşüncələr", "İnsan zəkası haqqında" və s**. kimi əsərlərində rəngarəng elmi-ideya istiqamətləri tədqiq olunmuşdur.

C.Lokk anadangəlmə bilikilər ideyasını qəbul etməmiş əsas olaraq təcrübə nəticəsində əldə olunan biliklər sistemini məqbul hesab etmişdir. O, insanı sosial mühitin məhsulu hesab etməklə yanaşı insan beyninin dünyaya gələrkən "ağ lövhə" kimi təmiz olduğunu və insan sosial və ictimai varlıq olaraq fəaliyyəti prosesində "çox şeydə yanıldığını" ideyasını qəbul etmək olar kimi fikrini bildirmişdir.

Onun qnoseoloji baxışlarına görə insan zəkasında elə bir məlumat, elə bir bilik yoxdur ki, onalar əvvəlcədən insanın hisslərində olmasın. Onun fikirlərinə görə şüuru əvvəlcə boş bir otağa bənzətmək olar, lakin ömrü boyu insan təcrübə ilə həmin boş otağı tam dolu bir otağa çevirir. C.Lokk fəlsəfəni insanın öz fəaliyyətində nailiyyətlər qazanmasında yardımçı bir elm kimi təqdim etmişdir. Fəlsəfə insanlara qanunlara hörmət etməyi, xeyirxah olmağı, dinc həyat sürmək ideyasını öyrədir. Buna görə də insan öz peşəsini dərindən bilməli və özünün inkişaf səviyyəsinin yüksəlişi üçün daim mübarizə aparmalıdır.

C.Lokk siyasi baxışlarına əsasən qeyd etmişdir ki, dövlətin hakimiyyəti qanunvericiliyə, bir də federativ hakimiyyətə əsaslanmalıdır. C.Lokka görə siyasi cəhətdən mövcud olan cəmiyyət despotik olmamalı, müəyyən qaydalara əsasən əksəriyyət tərəfindən olunmalıdır. Çünki, hər bir fərd ayrılmaz hüquq-lara malikdir. Ona görə də cəmiyyət konstitusiyalı idarəetmə formasına malik olmalıdır. XVII əsrdə İngiltərədə öz müasirləri kimi C.Lokk iqtisadi siyasəti həmişə dəstəkləmişdir, çünki, hər şeyin əsasında fərdin şəxsi əməyi dayanır, həm də dövlətdə sosial və iqtisadi bərabərliklə yanaşı hüquqi bərabərlik də təmin edilməlidir.

**Corc Berkli (1685-1753)** İrland yepiskopu idi. O, dini-fəlsəfi təlimlərində həm materializmə, həm də idealizmə meyl etmişdir. Onun ən məşhur əsərləri **"İnsan biliyinin prinsipləri"**

**haqqında, "Hilas və Filonus arasında üç söhbət", "Yeni baxış nəzəriyyəsi"**dir. onun "Yeni baxış nəzəriyyəsi"ndə qeyd olunur ki, dünya ona görə mövcuddur ki, biz onu dərk edirik. O, deyirdi ki, mövcud olan bütün şeylər bizim duyğularımızın kombinasiyasıdır. Onun qnoseoloji baxışlarında qeyd olunur ki, dünya ona görə mövcuddur ki, biz onu dərk edirik. Bunu əsas götürərək onun belə bir devizini qəbul etmək olar: **"Mövcud olmaq qavranılmaq deməkdir"**. C.Berkli səbəbiyyət anlayışına qarşı qətiyyətlə çıxış etmişdir, ancaq şeyləri duyğuların məcmusu hesab etmişdir. Beləliklə C.Berklinin qnoseoloji baxışlarına görə duyğuların rolu şişirdilir və onu mütləqə çevirir. O, belə bir fikir bildirir ki, şüurdan asılı olmayaraq materiyanın mövcud olmasının təkzib olunması bəşəriyyətə heç bir ziyan vurmaz.

C.Berkli güman edirdi ki, reallıq və illuziya arasında məlumdur ki, müəyyən fərq vardır. Biz iradəmizə uyğun olaraq müntəzəm hissi təəssüratlara malikik. Reallıq ancaq bir mənanı ifadə etmir. Lakin təəssüratlar hissi olaraq qavranılmayan maddi substansiyalardan yaranır. Amma Berkli qeyd edir ki, "mövcud olmaq - qavranılmaqdır" prinsipində belə başa düşülür ki, elə bil kimsə var o qavrayır. Məlumdur ki, qavrayış anlayışı subyekt ilə zəruri olaraq bağlıdır. Qavraya bilən kimsə olmalıdır. Bu subyekt üçün mövcud olmaq-qavramaq mənasını verir. Amma Berkliyə görə bütün reallığı əhatə edən və qavranılan hər bir şeyi həmişə qavrayan şüur mövcuddur. Bu şüur - Tanrıdır. Tanrı hər şeyi himayə edəndir. C.Berkli materiyanın fəlsəfi anlamını belə izah edir ki, materiya ölüdür, Tanrı isə yaradıcı, hifz edən və bəxş edəndir.

İngilis filosofu **David Yum (1711-1788**) maarifçilk dövründə yaşayıb yaratmışdır. Onun **"İnsan təbiəti haqqında traktat", "İnsan idrakı haqqında tədqiqat"** kimi əsərləri maarifçilik fəlsəfəsinin ənənələrini təsvir etmişdir. O, bu əsərlərində əsasən idraki problemləri, səbəbiyyat əlaqələrini, əxlaq fəlsəfəsi kimi müxtəlif fəlsəfi problemlərin mahiyyətini açmağa çalışmışlar. Yum idrakın 2 növünü qeyd edirdi. **Birinci növ** təcrübəyə son nəticədə hissi qavrayışa əsaslanan qaydalar,

**ikinci növ** isə anlayışların qarşılıqlı əlaqəsini müəyyən edən qaydalar (daha doğrusu riyaziyyata və məntiqə əsaslanan idraki proses). D.Yum metafizikanı tənqid edərək təbiətşünaslığa və riyaziyyata dair öz şərhini irəli sürür. Onun səbəbiyyət əlaqəsinin şərhində aşağıdakı müddəaları əsas götürür: **1) nəsə nəyinsə arxasınca gəlir; 2) iki hadisə arasında kontakt baş verir; 3) bu kontakt nəticəsində baş verən mütləq baş verir.** Bir sözlə D.Yuma görə səbəbiyyət anlayışı aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: ardıcllıq, kontakt və zərurət. O, qeyd edir ki, biz ancaq təcrübəmizdə olan şey haqqında bilirik. Əslində biz keçmişdə olan və indiki zamanda olacaq hadisələrin şahidi deyilik və gələcəkdə baş verən hadisə haqqında təcrübədən keçəcək biliyə sahib deyilik. Buradan belə nəticəyə gəlmək olar ki, D.Yum səbəb və nəticə arasındakı əlaqəni göstərmir, bir sözlə onun tezisi ontoloji deyil, epistemolojidir.

D.Yum əxlaqi fəlsəfəsində T.Hobbs və C.Lokkun ictimai müqavilə nəzəriyyəsinin ideyasını qəbul etmir, mənəvi dəyərləri və təbii inamı daha üstün tutur. Qanunlar dövlətin idarəedici orqanlarında fəaliyyət göstərən insanlara daha çox lazımdır. D.Yum sadə insanlarda insani meyllərə hisslərə daha çox yaxın olmaq başqasının dərdinə şərik olmaq və s. kimi mənəvi dəyərləri üstün tutur. D.Yum bir sözlə “sağlam təfəkkürü” əsas götürərərk insan mərhəmətinə əsaslanan, ictimai qaydaya, azadlığa meylli olan ingilis liberal konservatizmini təqdim edir.

XVIII əsr fransız maarifçiliyinin dünyagörüşündə insanın xeyirxah təbiəti, ümumi hiss anlayışı, fərdi və ümumi, təbii və sosial münasibət kimi problemlərin həlli əsas yer tutmuşdur. Biz görkəmli nümayəndələrdən **Jan Jak Russo (1712-1755), Mari Volter (1694-1778), Lui Monteskyo (1689-1755), Lametri (1709-1751), Helvetsi (1715-1771), Didro (1713-1784), Holbax (1723-1789)** və digərlərinin adlarını qeyd etmək olar. Məlumdur ki, fransız maarifçiliyi fəlsəfi-siyasi cərəyan olmaqla mütərəqqi dünyagörüşü yayan yaradıcı insanlar, siyasətçiləri, filosofları, hüquqşünasları, təbiətşünasları özündə birləşdirdi və nəticədə 1789-1794-cü ildəki inqilabın ideoloji əsası yaranmış oldu. Bu

fəlsəfi dünyagörüşün səciyyəvi cəhətləri Allah tərəfindən dünyanın yaradılmasını ilkin səbəb kimi qəbul edirdilər, ancaq onun ətraf aləmə, insana, tarixi gedişə heç bir təsir etmədiyi başa düşülür, Allah ilə təbiətin eyniləşdirilməsi qəbul edilmirdi. Adları qeyd olunan filosofların heç də hamısı bu fikri qəbul etmirdilər. Maarifçilərin bir qrup nümayəndələri **(Lametri, Didro, Helvetsi, Holbax)** Allahın varlığını heç də çox qəbul etmirdilər, təbiətin və insanın yaranmasını və mənşəyini təbii-elmi mövqedən sübut etməyə çalışırdılar, həmçinin idrak nəzəriyyəsinin izahında üstünlüyü praktik fəaliyyət nəticəsində əldə olunan bilikləri qəbul edirdilər.

Digər maarifçi qruplar **(Volter, Monteskyo, Didro, Holbax və b.)** elmin, incəsənətin, sənətkarlığın "ensklopediyasının" tərtib olunması fikrini əsas götürmüşlər. Qeyd edirdilər ki, qabaqcıl elmlərin sistemləşdirilməsi və birləşdirilməsi bilik mənbəyini yaradar və gücləndirə bilər, nəticədə dünya fəlsəfi irsinin keyfiyyətcə zənginləşməsinə xidmət edə bilər. Fransız maarifçiləri idrak kəmiyyətinin izahında dünyanın dərk olunmasının mümkünlüyünü əsas götürərərək zəkaya, nəzəri təfəkkürə etinasızlıq göstərilməsinin əleyhinə çıxış etməklə, XVII əsr rasionalistlərindən fərqli olaraq duyğuların, gerçəkliyin hiss ilə qavranılması prosesini yüksək qiymətləndirmişlər. Onların elmi-fəlsəfi təlimlərində dialektik ideyalara daha çox rast gəlinir. Qeyd olunurdu ki, təbiətdə hər şey hərəkətdədir və bir-birinə qarşılıqlı təsir göstərirr. Bu fikir ilə dünyaya determinist baxış yaranır, azadlıq və zərurət haqqında təlimə xüsusi olaraq maraq yaranır. Onlara görə azadlıq və zərurət bir-birinə zidd deyil, əksinə insan azadlığının müqəddəs şərtidir. Məsələn, J.Lametri qeyd edirdi ki, insan çox incəliklə qurulmuş mexanizmdən ibarətdir, onu yalnız mexanikanın qanunlarına əsaslanmaqla öyrənmək olar. O, belə güman edirdi ki, insan bədəninin mexanikasının tədqiq olunması insanın hissi və zehni fəaliyyətinin mahiyyətini açmağa kömək edə bilər və ya Helvetsi göstərirdi ki, insan öz təbiətinə görə maddidir, obyektiv surətdə mövcuddur.

Fransız maarifçilərin dünyagörüşünə əsasən bütün maddi cisimlər atomlar, bölünməz və dəyişməz elementlər bir sözlə molekullardan ibarətdir, materiya yeganə mövcud olan substansiyadır; müxtəlif şeylər aləmi onun təzahürüdür və hərəkət isə materiyanın xassəsidir. Şüur materiyanın xassəsi hesab olunur, dünyanın ruhi başlanğıcı qəbul edilməmiş, hökmdarların ilahi hakimiyyəti tənqid edilmiş və cəmiyyətin əsasında "ictimai müqavilə" əsas götürülmüş və dövlətin ideal forması "maariflənmiş monarxiya" hesab edilmişdir.

Beləliklə, qeyd etmək olar ki, maarifçilik fəlsəfəsinin nəzəri mənbəyində **sensualizm, insan haqqında təlim, rasionalizm, mexanika fizikası və s. kimi sahələr** əsas yer tutmaqla, ümumdünya mədəniyyət tarixində keyfiyyətcə yeni bir mərhələ yarandı və nəticədə millətin milli mənlik şüurunun mənəvi simasını və keyfiyyət halını səciyyələndirən mədəni inkişaf aparıcı rol oynadı.

# VI FƏSİL

# KLASSİK ALMAN FƏLSƏFƏSİNDƏ İDRAKİ, DİALEKTİK VƏ ANTROPOLOJİ BAXIŞLAR

1. **İ.Kantın transsendental fəlsəfəsi (idrak, əxlaq, teologiya və estetika)**
2. **F.Hegel fəlsəfəsində tarixilik və dialektika**
3. **L.Feyerbaxın antropoloji materializmi. F.Şellinq və İ.Fixte fəlsəfəsində idealizm mövqeyi**
4. **K.Marksın və F.Engelsin tarix fəlsəfəsi (sosial, iqtisadi, siyasi və elmi mənbələr)**

## 1. İ.Kantın transsendental fəlsəfəsi (idrak, əxlaq, teologiya və estetika)

XVIII əsrin sonu və XX əsrin əvvəllərində yeni dövr fəlsəfi fikrinin zirvəsi Almaniyanın klassik fəlsəfəsində özünəməxsus yer tutdu. Bu fəlsəfənin formalaşması Almaniyada yaranmış iqtisadi və mədəni şəraitlə bağlı idi. Hər şeydən əvvəl bu dövrdə Almaniyada elm, ədəbiyyat, incəsənət, təbiət elmlərinin və əldə olunan kəşflər hamıya məlum idi. Lakin digər tərəfdən qeyd etmək olar ki, ictimai gerçəklikdə baş verən sosial-siyasi hadisələr fəlsəfəyə də öz təsirini göstərmişdir. Alman filosofları köhnəlik ilə yenilik arasında baş verən mübarizənin önündə gedərək öz fəlsəfi təlimlərini işləyib hazırlaya bildilər. Qeyd etmək olar ki, alman fəlsəfi idealist mahiyyət daşımaqla yanaşı eyni zamanda dialektik təlimin yeni mərhələsini yaratdı. Onlar Yunan filosoflarının yaratdığı kortəbii dialektikanı klassik səviyyəyə qaldıra bildilər, eləcə də tarixin fəlsəfi təhlili, dərk edən subyektiv fəallığı və s. kimi problemlər məhz alman filosofları tərəfindən uğurla həyata keçirildi. Onlardan biri də klassik alman fəlsəfəsinin banisi və birinci nümayəndəsi **İmmanuel Kant (1742-1804)** idi. O, həyatını Şərqi Prussiyada Keniqsberqdə (indiki Kalininqrad) keçirmişdir. O, ev müəllimliyindən başla-

yaraq professorluğa qədər həyat yolu keçmişdir. O, bütün zehni və mənəvi enerjisini nəzəri tədqiqatlarına həsr etmişdir. Onun əsərləri arasında **"Xalis zəkanın tənqidi", "Praktik zəkanın tənqidi", "Mühakimə qabiliyyətinin tənqidi", "Əxlaqın metafizik əsasları", "Əbədi sülhə dair" və s.** kimi adlı əsərlərini qeyd etmək olar.

İ.Kantın dünyagörüşünü liberalist ənənəyə aid etmək olar. O, özünün **transsendental (əlçatmaz, idrakın müəyyən edə bilmədiyi fövqəltəbii aləm)** fəlsəfənin köməyi ilə **həm empirizmi** (C.Lokk, D.Yum), **həm də rasionalizmi** (Dekart) dəf etməyə səy göstərmişdir.

Biz əvvəlcə onun transsendental fələsəfəsinin bir tərəflərinə fikir versək, bunlar onun idrak və əxlaq nəzəriyyəsi ilə bağlıdır. İ.Kant belə hesab edirdi ki, bizim idrakımızda zəruri və ümumi əhəmiyyətə malik olan nəsə var. Amma o, həmçinin empiriklərlə razılaşaraq idrakın təcrübədən başladığını və onun subyekt tərəfindən formalaşdırılmasını qəbul edir. İ.Kant güman edir ki, hər bir insana fundamental **"formalar"** xasdır. Ona görə də hər bir bilik hər bir insanda formaların köməyi ilə formalaşır və bu mənada formalar ümumi əhəmiyyət daşıyır.

Qeyd etmək olar ki, İ.Kantın transendental fəlsəfəni yaratmaqda məqsədi elmin və fəlsəfənin qarşısına çıxan mürəkkəb problemləri araşdırmaq idi; çünki, rasionalizmin və empirizmin nümayəndələri bu işi həll edə bilməmişlər. Belə çətinliklərdən biri də elmi biliyin dəqiqləşdirilməsi məsələsi idi. O, biliyin bizdən kənarda olan obyektinə uyğun gəldiyini müəyyən etmək üçün o subyektin xarakterini və qabiliyyətini əsas götürürdü. Ona görə də o, subyektin fəaliyyətini əsas şərt kimi, tədqiqatın predmetinin nəticəsi kimi qəbul edirdi.

İ.Kant idrakın rasional və emperik tərəflərini əsas götürərək qeyd edirdi ki, biliklər bir-birindən fərqli iki tərəfin **(hissiyyat və dərrakə)** sintezidir. İ.Kanta görə hissiyyat qəlbi seyr etmək qabiliyyətidir, dərrakə isə hissi şey haqqında fikirləşmək və onu mənalandırmaq kimi qəbul edilməsidir. O, qeyd edirdi ki, **"Bu iki qabiliyyətdən heç biri digərinin funksiyasını yerinə yetirə**

**bilməz. Dərrakə heç nəyi seyr edə bilməz, hisslər isə heç nə haqqında fikirləşə bilməz. Bilik yalnız onların birləşməsindən əmələ gəlir".**

İ.Kant həmçinin **aprior (təcrübədən əvvəl)** biliklər haqqında mühakimələrə xüsusi diqqət yetirmişdir. O, qeyd edirdi ki, hər bir hissi təcrübədə bir təsadüflik mövcuddur. Məsələn, biz görürük ki, ağacın altındakı oturacaqda kimsə əyləşmşdir. Bunu biz bir hökm kimi qəbul edirik. Lakin müəyyən vaxtdan sonra kimsənin ağacın altında olmadığını görürük. Nəticədə bizim qəbul etdiyimiz hökm həqiqiliyini itirdi. Ona görə də Kant belə hesab edir ki, empirik və hissi müşahidə yolu ilə ümumi və zəruri bilik əldə etmək mümkün deyildir. İ.Kant işlətdiyi idrak tiplərini aşağıdakı kimi səciyyələndirir:

**1) analitik (aprior, apriori) idrak məsələn, "bütün gənclər tələbə deyildir" mülahizəsi.**

**2) sintetik (aposterior, aposteriori) idrak məsələn, "bu maşın qaradır" mülahizəsi.**

**3) sintetik apriop idrak məsələn, "hava istiləşdi və buz əriməyə başladı" mülahizəsi.**

**Burada birinci tip - anlayışlar arasındakı əlaqələrə aid edilir. İkinci tip - formalaşmış hissi təssüratlara, üçüncü tip - formaların dərk olunmasına aiddir.**

İ.Kant təsdiq edir ki, baş verən hər bir hadisə və proses müəyyən bir səbəbə malikdir və təcrübəyə müraciət etmək lazım gəlmir. Məsələn, "hava istiləşdi və buz əridi" mülahizəsi təbiətşünaslığın fundamental prinsipinə aiddir. İ.Kantın idrak prosesindəki **"özündə şeylər"** (İ.Kant obyektiv naməlum predmetləri belə adlandırırdı) insanın hiss üzvlərinə təsir edir və onda müxtəlif duyğular ancaq məkan və zamanın köməyi ilə nizama salınır. İ.Kant dərrakəni xüsusi olaraq qəbul etsə də, onu idrakda yüksək pillə kimi qəbul etmirdi, ona görə ki, dərrakə bir şərtlənmiş vəziyyətdən digər şərtlənmiş vəziyyətə keçir. Ona görə də onu mütləq bilik kimi qəbul etmir, lakin mütləq biliyin ancaq zəka tərəfindən əldə olunduğunu əsas götürürdü. İ.Kant idrak

nəzəriyyəsinin əsasını təşkil edən bir fikri əsas götürürdü ki, insanlar yalnız öz yaratdıqları predmetləri dərk edə bilərlər.

İ.Kant **"Sən etməlisən!"** adlı əxlaq normativi irəli sürmüşdür, cavab olaraq düşünürsən bu necə mümkün ola bilər? "Sən etməlisən!" Kanta görə bir mütləq öhdəlikdir. Məlumdur ki, təcrübi olan normativ ola bilməz və təcrübi olan həm də tam yanlış ola bilməz. Belə başa düşülür ki, "sən etməlisən!" ancaq insanın daxilində ola bilər və bu şərtsiz əxlaqi öhdəlikdir. Ancaq əxlaqi iradəmizə yönələ bilər. Çünki əxlaq özü iradənin və borcun etikasıdır. "Sən etməlisən!" adlı əxlaqi öhdəlik transsendental formalar (məkan, zaman, səbəbiyyət) kimi insanın əxlaqi fəaliyyətində praktiki zəkanın təhlilinə görə Kant belə bir deviz yaratmışdır. Elə hərəkət et ki, sənin iradənin son həddi ümumi qanunvericilik prinsipləri qüvvəsinə malik olsun. **Kant bir də bu fikri tövsiyyə edirdi ki, insan kimlərsə rəftarında həmişə özünü onun yerinə qoymalıdır. Yəni özünə nəyi rəva bilirsənsə, onlarla da o rəftarı et.**

İ.Kantın transsendental fəlsəfəsində onun fikirlərini izləmək heç də asan deyildir. Bir faktı söyləmək olar ki, onun tez-tez işlətdiyi **"Kopernik çevrilişi"** ideyası irəliləyişinə əsasən fəlsəfə də və bir çox sosial elmlər də mühüm dəyişikliklərə məruz qaldı. O, cümlədən də bu dəyişikliklər də İ.Kantın siyasi təfəkkürünə təsir etdi və bu təsir İ.Kantın maarifçilklə bağlı olan siyasi meyllərində də öz əksini tapdı. İ.Kantın açar anlayışları olan zəka və azadlıq insanlarda Fransa inqilabının özünüdərkinə məxsusdur. Elə İ.Kantın bu fikirlərinə görə onun siyasi baxışlarında mütləqiyyətdən konstitusion və demokratik idarəetmə formasına gedən yol başa düşülür. Maarifçiliyin bir sıra prinsiplərini əsas götürək. İ.Kant qeyd edirdi ki, hər bir insan anadangəlmə və ayrılmaz hüquqlara malikdir. Rasional anlama aspekti baxımından hər bir insanın əməl azadlığı digər insanların əməl azadlıqları ilə uzlaşmalıdır.

İ.Kant siyasi baxışlarında beynəlxalq münasibətlər ilə bağlı şərhində əsaslı olaraq qeyd edirdi ki, müstəqil dövlətlər arasında siyasi münasibətlərin çətinliklərini və hüquqa uyğun olmayan

vəziyyətləri də şərh edə bilmişdir. O, **"Əbədi sülh haqqında" və ya "Millətlər liqası"** adlı ideyasını əsas götürdü. Millətlər liqası ideyasına görə konfliktlərin tənzimlənməsi dinc, yanaşı yaşama prinsipinə əsaslanmalıdır. Doğurdan da İ.Kantın bu siyasi və hüquqi ideyası bu gün dövlətlər arası praktik münasibətdə də özünü göstərir. Əlbəttə, bunu demək etməkdən asandır; dövlətlərin bəziləri kiçik və zəifdir, digərləri isə böyük və güclüdür. Əlbəttə aydındır ki, onlar müxtəlif iqtisadi sistemlərə müxtəlif siyasi ideologiyalara və mənəvi dəyərlərə malikdirlər. İ.Kanta görə belə bir ziddiyyətlərin həlli üçün yalnız yeganə ədalət prinsipi üçün "kövrək" prinsiplərin yaradılması, məsələn "heç bir müstəqil dövlət başqa bir dövlət tərəfindən nə miras, nə mübadilə, nə pula alınma nə də bağışlanma yolu ilə (böyük və ya kiçik olmasının əhəmiyyəti yoxdur) ələ keçirilə bilməz. İ.Kant aşkarcasına belə bir fikri vurğulayırdı ki, məqsəd heç də bütün xalqların qardaşlıq ailəsini yaratmaq deyildir, sadəcə olaraq dinc cəmiyyətin yaradılması mühüm əhəmiyyət kəsb edə bilər.

İ.Kant izah edir ki, elmi istiqamətlər əsasında formalaşan cəmiyyətdə tanrının mövcudluğu barədə olan məsələ bizim koqnitiv qabiliyyətlərimizdən kənardır. Bununla o burada protestant dini teoloji şərhini əsas tutur. Əlbəttə bu teoloji sübut ilə razılaşmaq bir az çətindir. İ.Kant burada səbəbiyyət əlaqəsinə əsaslanan təcrübənin daxilimizdə olan əxlaq dünyasını qarşı-qarşıya qoyur və əlaqələndirici olaraq **"mühakimə"** nəzəriyyəsini irəli sürür. Onun xalis zəkanın tənqidi və praktik zəkanın tənqidindən sonra mühakimə qabiliyyətinin tənqidi analizi meydana gəlir. İ.Kantın şərhinə əsasən bu istiqamətdə bu iki dünyanı birləşdirmək olar və nəticədə mühakimə nəzəri və praktik zəkanın əlaqələndiricisi ola bilər. Bu əlaqələndirmə idrak ola bilməz deməklə, İ.Kant güman edir ki, praktik və nəzəri zəkanı sintez etmək mümkündür. O, teoloji baxımdan fikirləşərək bildirir ki, bütün şərhlər əslində səbəbiyyətin şərhidir. Məna və məqsəd əsasında olan bu təfəkkür üsulu bizim bu iki dünyamızda (zərurət və azadlıq) olan gərginliyin azaldılmasına xidmət edir. Ancaq estetika isə bu iki dünyanı başqa bir formada birləşdirir.

Təcrübənin iki əsas prinsipində **birincisi, möhtəşəmliyin** (məs. böyük sənət əsərinin) qavranılmasıdır. **İkincisi isə, gözəlliyin qavranılmasıdır.** İ.Kanta görə həm teoloji, həm də estetik mühakimələr idrakın yox "zövqün mühakimələridir". Kant güman edir ki, estetik mühakimə müəyyən mənada subyektə əsaslanır. Bu o mənada başa düşülür ki, bizim hamımız hansı bir rəssamın sənət əsərini nəzərdən keçiririk və burada eyni estetik zövqü hiss edəcəyik və nəticədə "zövq mühakimələrimiz" uzlaşacaqdır. Deməli, ümumi hisslər düzgün mühakimələr üçün əsasdır.

İncəsənət Platon və Aristotelə görə mövcud olanın və mövcud olmalı olanın imitasiyasıdır. Platona görə də onun "ideyalar aləmi"ndə mövcud olan və mövcud olmalı olan idilər. Amma Aristotel estetikasında bu rolda substansiyalar və onların formaları çıxış edirdi. Bu mövqedə gözəllik həqiqətlər və xeyirxahlıqla birləşir. İ.Kantın baxışlarına görə gözəllik möhtəşəmliklə yanaşı (teoloji təfəkkür) həqiqət və əxlaq əlaqələndirici mahiyyətdə olur. Göründüyü kimi İ.Kant fəlsəfəsi çox mürəkkəb və daxilən ziddiyyətlidir. XIX əsrin başlanğıcında İ.Kant fəlsəfəsinə öz tənqidi münasibətini bildirmişdir, lakin buna baxmayaraq İ.Kant fəlsəfəsi bəşəriyyətin fəlsəfi fikir tarixində mühüm rol oynamışdır.

## 2. G.Hegel fəlsəfəsində tarixilik və dialektika

Klassik alman fəlsəfəsində yeni fəlsəfi təfəkkür yaratmış **İ.Kantdan sonra G.Hegelin, L.Feyerbaxın, İ.Fixtenin** fəlsəfi ideyaları bəşəriyyətin fəlsəfi fikir tarixində mühüm yer tutdu. Hegelin fəlsəfi dünyagörüşündə əsas yer tutan ideyalardan biri **"mütləq ideya"** anlayışı idi. "Mütləq ideya" maddi şeylər aləmində təzahür olunur. Hegelin bu ideyası sanki bizə Platonun ideyalar aləmini və kölgələr aləmini xatırladır. O, göstərirdi ki, "mütləq ideya" daim inkişafdadır və daim üç mərhələdən keçir. **Birinci mərhələdə** - "mütləq ideya", **ikinci mərhələdə -** maddi aləmdə öz təzahürünü taparaq təbiətə, **üçncü mərhələdə** - isə ruha (idrak) çevrilir. Hegel bu hər bir üç mərhələyə ayrı-ayrılıqda

əsər yazmışdır: **“Məntiq elmi”, “Təbiətin fəlsəfəsi”, “Ruhun fəlsəfəsi”.** O, özünün bu əsərlərində dialektikanı (inkişaf haqqında təlim) inkişaf etdirərək, həqiqətə bir proses kimi baxmış, varlığı isə nisbi həqiqət anlayışı kimi şərh etmişdir.

Onun fəlsəfəsinin sütununu, ana xəttini dialektika təşkil edir. Burada dünyanın dialektik anlayışının mahiyyəti, gerçəkliyin öyrənilməsi dialektikasına yanaşmanın prinsiplərini sistematik şəkildə işləyib hazırlamaqdan ibarətdir. Əlbəttə, Hegel dialektikanın birbaşa banisi deyildir. Ondan əvvəl kortəbii və sadəlövh dialektik baxışlar Qədim Şərq ölkələrində meydana gəlmiş və antik Yunanıstanda Heraklit və digərləri tərəfindən inkişaf etdirilmişdir. Lakin Hegel tarixdə ilk dəfə olaraq dünyanın dialektik metodunu, məntiqi sistemin və təfəkkür üsulunun əsas prinsiplərini işləyib hazırlaya bildi.

Amma bir şeyi qeyd etmək lazımdır ki, Hegel dialektikasında təxmini ad altında nəyi nəzərdə tutduğunu anlamaq üçün empirik biliklərdən olan dialektikanı xalis analitik idrakdan fərqləndirmək lazımdır ki, bizdə bir dialektik keçid anlamı yaransın. Dialektikanın köməyi ilə biz nəyin yalan, nəyin doğru və ya hansısa hadisənin iqrar və inkar olduğunu görə bilərik. Məsələn, fundamental müqəddəs şərtlər daxilində hansısa siyasi və ya elmi nəzəriyyənin adekvat və ya natamam olması üzə çıxır. Dialektikanın köməyi ilə biz təcrübəyə və ya deduktiv arqumentlərə istinad edərək həqiqiliyi üzə çıxarmaq olar, daha hansısa mövqelərdə həqiqiliyin daha dolğunluğunu tapa bilərik. Bu mənada demək olar ki, dialektik təfəkkür necə deyərlər oriyentasiyalı təfəkkürdür. Dialektik təfəkkür vasitəsilə ancaq konkret predmetlər haqqında dialektik olaraq düşünmək və öyrənmək olar. Lakin mahiyyəti və məzmunu daha dərindən öyrənmək üçün dialektik analiz tələb olunur. Hegelin fikrincə dünyanın əsasında dayanan mütləq mənəvi başlanğıc mövcuddur. O, bunu müxtəlif anlayışlarla izah etməyə çalışmışdır: **“dünya ruhu”, “dünya zəkası”, “mütləq ruh”, “mütləq ideya”** və s. O, iddia edir ki, mütləq mənəvi başlanğıclar təbiətdən əvvəl mövcud olmuşdur. Hegelə görə **“mütləq ideya”** triada prinsipinə əsasən

**tezis, antitezis, sintez** mərhələlərindən keçir. Hegelə görə "mütləq ideya" insan şüuru şəklində lokallaşdırılır və göstərilən formada özünü büruzə verir:

- **Subyektiv ruh (antropologiya, fenomenologiya, psixologiya kimi elmlər)**
- **Obyektiv ruh (hüquq, mənəviyyat-əxlaq, dövlət)**
- **Mütləq ruh (incəsənət, din, fəlsəfə)**

Məlumdur ki, tarixilik baxımından Şərq və Qərb mədəniyyəti daim bir-birini zənginləşdirmişdir. İ.Kant haqlı olaraq qeyd edirdi ki, insan əqlinə aid olan məsələlər nə bir əsrdə, nə də bir millətin həll edəcəyi məsələlər deyil, bu bəşəriyyətin vəzifəsidir. Lakin bunun əksinə olaraq Hegel şərq sivilizasiyasının özünü doğrultmadığını və qərb sivilizasiyasının daha üstün olmasını sübut etməyə çalışmışdır. Hegelin iddiasına görə Qərbin xristian dünyası bəşər sivilizasiyasının yekunudur. Əlbəttə, bu fikir heç bir tarixi fakta əsaslandırıla bilməz, çünki görünür Hegel Şərq təfəkkürünün xüsusiyyətlərini daha yaxından bilməmişdir və onun qeyd etdiyi **"Şərq ruhu fikirləşməyən subyektdir"** fikri etibarlı deyildir. Hegel özünün **"Tarix fəlsəfəsi"** əsərində ümumdünya tarixi bölgünü belə qeyd etmişdir: **1) Şərq səltənəti (Çin, Hindistan, İran, Misir), 2) Yunan səltənəti, 3) Roma səltənəti, 4) Alman səltənəti.** Lakin Hegelin müəyyən ziddiyyətləri ilə yanaşı onun ən böyük nailiyyəti gerçəklikdə baş verən bütün hadisə və proseslərin dialektikaya aid olunmasını qeyd etmək olar. Belə bir fikir də yürütmək olar ki, dialektika transsendental fəlsəfənin özünəməxsus "yumşaldılması" kimi anlaşıla bilər. Lakin bu da heç o demək deyildir ki, Hegelin dialektik təlimi problemsiz və səhvsizdir.

## 3. L.Feyerbaxın antropoloji materializmi. İ.Fixte və V.Şellinq fəlsəfəsində idealism mövqeyi

Klassik alman fəlsəfəsinin digər nümayəndələrindən **L.Feyerbaxın (1804-1872)** tarixi xidməti mütərəqqi ənənələrin inkişaf etdirilməsində çox böyük xidməti olmuşdur. O, gənc ikən

Hegelin obyektiv idealizminin təsiri altında oldu və sonralar L.Feyerbax Hegel fəlsəfəsi ilə razılaşmır və özünün **“Hegel fəlsəfəsinin tənqidinə dair” və “Xristianlığın mahiyyəti”, “Fəlsəfədə islahata dair ilk tezislər”, “Gələcəyin fəlsəfəsinin əsasları” və s.** kimi əsərlərini yazmışdır.

L.Feyerbax öz əsərlərində qeyd edir ki idealizm rasionallaşdırılmış dindir, din ilə fəlsəfə bir-birindən çox fərqlidir. Dinin əsasını dini ehkamlar və etiqadlar təşkil etdiyi halda, fəlsəfənin qarşısında isə şeylərin həqiqi mahiyyətini aşkar edən biliklər sistemi mövcuddur. Bundan başqa fəlsəfənin mahiyyətində duran biliklər sistemindən başqa insan problemi bioloji varlıq kimi xarakterizə olunur və bunu varlığın maddi və mənəvinin, varlıq və təfəkkürün tamlığı kimi şərh etmişdir. Onun rəyinə görə təhsilin “dünya ruhu”nun məhsulu olması yəni Hegelin təlimi əsasında təbiətin Allah tərəfindən yaradılması ancaq onun rasional ifadəsidir. “Ən yüksək mövcudat” olan Allah varlığın fantastik inikasından başqa bir şey deyildir. Hegelin fəlsəfəsinin başlanğıcla tənqid edilməsi ilə o, özünün tam formalaşmış fəlsəfi təlimini yaratmağa başladı. L.Feyerbax belə şərh edirdi ki, insan təbiəti öyrənməklə ancaq bilik əldə edə bilər. Təbiətdən və insandan kənarda olan sistem mənasızdır və heç nədir. Daha sonra o, göstərirdi ki, təbiət əbədidir və yeganə reallıqdır, insan isə onun ali məhsuludur, təbiətin həm başlanğıcı, həm də sonunda baş verən hadisələr həm qarşılıqlıdır, həm nisbidir, hər şey eyni zamanda bir-birinin səbəbidir. Təbiət elə bir əsasdır ki, onun məhsulu olan insanlar onun üzərində mövcud olmuşdur. L.Feyerbax insana hər şeydən əvvəl mənəvi mövcudluq kimi baxan idealizmi qəbul etmirdi. Bütövlükdə o, görünən bədən məhz mənim mahiyyətimi ifadə edir, ruh və bədəni bir-birindən ayırmaq olmaz deyə fikrini qəbul edirdi. Lakin Feyerbax insanın ictimai mahiyyətini və sosial-tarixi rolunu görə bilmirdi, eləcə də onun idrak nəzəriyyəsi sensualist dünyagörüşü baxımından şərh olunur. Onun fikrincə reallıq bizə hisslərimiz vasitəsilə məlum olur. Onun idrak nəzəriyyəsində obyekt anlayışı insan ünsiyyətinə əsaslanır. Beləliklə, L.Feyerbax

özünün antropoloji materializmini yaratdı və təfəkkürün varlığa olan münasibətini insanın mahiyyətində axtarmağa başladı, çünki o insanı yeganə düşünən varlıq kimi qəbul edirdi. Bütün bu nəticələri qəbul edərək L.Feyerbax insan və onun mövcudluğunu şərh edən baxışları fəlsəfi antropologiya kimi qəbul edirdi.

**İohann Qotlib Fixtenin** (1762-1814) fəlsəfi düşüncələri onun **"Elm təlimi"**, **"Alimin təyinatı barədə"**, **"İnsanın təyinatı"**, **"Qapalı ticarət dövləti"** kimi əsərlərində öz əksini tapır. O, özü toxucu ailəsində anadan olmuşdur. İyen və Leypsiq Universitetində təhsil almışdır. Özünün "Elm təlimi" adlı əsərində bütün elmlərin bünövrəsini fəlsəfi biliklərdə axtarmışdır. Öz fəlsəfi baxışlarında İ.Kantın dualizmini (özündə şey-hadisə, təbiət-azadlıq) qəbul etmirdi. O, biliklər sistemini yaratmağa çalışırdı. Belə başa düşmək olar ki, İ.Fixte İ.Kantın təlimini yenidən nəzərdən keçirməklə sübut etməyə çalışır ki, fəlsəfənin çıxış nöqtəsi olan insan – **"Mən"** anlayışı kimi qəbul edilir. "Mən" mütləq subyektdir, həm də mütləq ruhi başlanğıcdır, eləcə də daha sonra "Mən", "Qeyri Mən"i yaradır. Filosofa görə "Mən" xarici reallıq kimi başa düşülür. İ.Fixte özündən əvvəlki filosofların fəlsəfi düşüncələrini qəbul edərək, obyektivdən və subyektivdən olan iki momentin mübarizəsini inkişafın mənbəyi kimi (inkişaf tezis (mən), antitezis (qeyri-mən), sintez mərhələsindən ibarət olması kimi şərh edirdi. Göründüyü kimi İ.Fixte fəlsəfəsində maddi aləm mənəvidən, obyektiv aləm isə subyektiv aləmdən hesab olunur. İ.Fixtenin subyektiv idealizmində varlıq problemi yox, əsasən bilik problemi şərh olunurdu. Onun baxışlarında elm qeyri-elmi təsəvvürlər kimi yox, onu sistem formasında olması kimi qəbul edilmişdir. İ.Fixte şüurda mənlik şüurunu səhih bir anlayış kimi qəbul edərək R.Dekartın **"Mən varam və mən mən kimi varam"** devizini daha əsas tuturdu. O, həmçinin qeyd edirdi ki, özünüdərketmə və mənlik şüuru həm hərəkət, həm də bu hərəkətin nəticəsidir, yəni əksliklərin subyekt və obyektin üst-üstə düşməsidir. Çünki bu aktda "Mən" özü-özünü yaradır və özü-özünü nəzərdə tutur. İ.Fixte mövcudatın yeganə mənbəyni subyektin aktiv fəaliy-

yətində görür. Subyekt ilə obyekt arasındakı əksliklərin eyniləşdirilməsi Şellinq fəlsəfəsinin çıxış nöqtəsi kimi qəbul olunsa da, İ.Fixtenin subyektə münasibətdə işləyib hazırladığı inkişaf anlayışı həm də təbiətin təhlilinə aparıb çıxarır. Onun fikrincə, təbiətin inkişafının ardıcıl mərhələləri (aşağı formalardan yuxarı formalara) və səviyyələri insan şüurunun inkişaf pillələri arasında bir paralelizm aşkar olunmasıdır. Bir sözlə İ.Fixtenin təlimində idealist dialektikanın müəyyən elementlərinin olduğunu müşahidə edirik. Belə dialektik ideyalardan bir neçəsini qeyd etmək olar fəlsəfi əsərlərinin: "mən" və "qeyri-mən", subyektiv olanla obyektiv olanın ziddiyyətli vəhdəti, şüurun inkişafının inkarı inkar prosesi kimi başa düşülür. Burada qarşılıqlı hərəkət, səbəb, nəticə, sonlu, sonsuz, hissə və bütöv kimi kateqoriyaların dialektcəsinə şərhinə yer verilmişdir.

**Vilhelm Jozef Şellinq** (1775-1854) klassik alman fəlsəfəsinin tanınmış nümayəndələrindən biridir. Onun **"Doqmatizm və kritisizm haqqında fəlsəfi məktublar", "Transsendental idealizm sistemi", "Təbiət fəlsəfəsi ideyaları", "Naturfəlsəfə sisteminin birinci eskizləri"** adlı əsərlərininın adlarını çəkə bilərik. Təbiətşünaslıq elmində olan kəşflər (Prestelinin, Lovuazyenin, Kulonun, Volterin kəşfləri) və onun inkişafı Şellinq fəlsəfi dünyagörüşünə böyük təsir göstərdi. Lakin bu elmlərin inkişafının nəticəsi materialist dünyagörüşünə əsaslansa da, ruh və təbiət, ideal və maddi eyniliyi irəli sürülürdü. Şellinq təbiəti **"sönmüş ruh"** kimi təsvir etmiş olsa belə, o bütün ünsürlər arasında cəzb və ya dəf olunmağa əsaslanan dinamik əlaqənin mövcudluğunu üzvi təbiət ilə qeyri-üzvi təbiətin vəhdəti kimi qeyd etmişdir. O, baxışlarında təbiətə canlanma verən dünya ruhunun rolunu da qeyd etmişdir. Biz Şellinq fəlsəfəsi ilə tanış olduqca görürük ki, İ.Fixtenin bir növ ardıcılı kimi başa düşülür və o özünün obyektiv idealizmini yaratmağa başladı. O, ruhun və təbiətin subyektiv və obyektiv münasibətini yaratmağa çalışmış, o varlığın ilkin başlanğıcını nə materiyada, nə də şüurda axtarmışdır. Onun fikrincə hər şeyin başlanğıcı əbədi ağıl, zəka və mütləq "mən"dir. Mütləq ağıl, mənəvi və maddinin subyektiv və

obyektiv ilkin əsası və mənbəyidir. O, mənəvi və maddini idealistcəsinə eyniləşdirərək mahiyyət etibarilə maddini mənəvidə əritmişdir.

Əgər Şelling fəlsəfəsinin mahiyətində idealist dialektika olmasaydı, onun fəlsəfi sistemi özü-özlüyündə heç bir maraq doğurmazdı. Onun çıxış nöqtəsi bir-biri ilə mübarizədə olan əksliklər, ziddiyyətli olan bir şey kimi xarakterizə olunur. O, təbiətə xas olan hərəkətin mənbəyini elə təbiətin özünün daxilində olan zidd qüvvələrdə görürdü. Bir sözlə Şellinq bütövlükdə təbiətdə baş verən hər bir dəyişikliklərin səbəbini əksliklərin mübarizəsində axtarırdı və təbiət hadisələrinin vəhdətini universal əlaqələrin vəhdətində görürdü. Bütün bu səmərəli baxışlar Şellinq fəlsəfəsinin dialektik şərhinə yol açdı.

Bütövlükdə klassik alman fəlsəfəsi dünya fəlsəfi fikir tarixində özünəməxsus yer tutmaqla hər şeydən əvvəl Avropa və dünya mədəniyyətinə geniş və universal bir fəlsəfi təfəkkür bəxş etdi. Onun nümayəndələri elmləri biliyin çox mühüm sahəsi kimi tanıtsalar da, qeyd etdi ki, biliklər həm dil, fəlsəfə, incəsənət və s. formalar kimi mövcuddur, həqiqətin nisbiliyi, dinamik və çoxtərəfli olmasını sübut etdi. Onlar göstərdilər ki, hər bir xalq özünəməxsus və təkrarolunmaz tarixi inkişaf prosesinə mənsubdur.

## 4. K.Marksın və F.Engelsin tarix fəlsəfəsi (sosial, iqtisadi, siyasi və elmi mənbələr)

Marksizm fəlsəfi alman mütəfəkkirləri olan **Karl Marks (1818-1883) və Fridrix Engels (1820-1895)** tərəfindən yaradılmışdır. Onlar öz təlimini yaradarkən mövcud olan materialist təlimlərdən, antik dövr naturfəlsəfəsindən, yeni dövr filosoflarının materialist ideyalarından bəhrələnmişlər. Onlar daha çox təbiətşünaslıq elminin nailiyyətlərini (Nyuton, Darvin və s. elmi kəşfləri) əsas götürmüşlər. F.Engels ömrünün xeyli hissəsini fizikanın, mexanikanın, kimyanın, astronomiyanın, biologiyanın, riyaziyyatın fundamental məsələləri ilə yaxından tanış olmuşdur.

Ümumiyyətlə, Marksizm fəlsəfəsinin formalaşması XIX əsrin 40-cı illərə təsadüf edir. Bu dövrdə Avropa ölkələrində kapitalist istehsal üsulunun sürətlə inkişaf etdiyi və onun ziddiyyətlərinin getdikcə kəskinləşdiyi bir dövrə təsadüf edir. Bəzi Avropa ölkələrində istehsal böhranı yaranırdı. Nəticədə Fransada Lion fəhlələrinin, 1844-cü ildə Almaniyada Sileziya toxucularının üsyanları, 1848-ci ildə İngiltərədə çaristlərin çıxışları Avropada ilk proletariatın ilk etirazı idi. Belə bir şəraitdə K.Mark və F.Engelsin nəzəriyyəsi proletariatın ideologiyasına çevrildi. Bu ziddiyyətlərdən əlavə marksizm fəlsəfəsinin yaranmasında **klassik alman fəlsəfəsi, ingilis siyasi iqtisadi və fransız utopik sosializmi marksizmin nəzəri mənbələri kimi** K.Marksın fəlsəfəsindən, L.Feyerbaxın materialist fəlsəfəsinin dünyagörüşündən istifadə olunmuş, insan təbiətin ali varlığı kimi qəbul olunur və təbiət özünü insan vasitəsi ilə dərk edir. Məlumdur ki, Feyerbaxın materializmi metafizik materialist idi.

Marksizmin digər nəzəri mənbələrdən biri olan ingilis siyasi iqtisadçılarından **Adam Smit, David Rikardo** sübut edirdi ki, ictimai sərvətin əsasında əmək amili dayanır. K.Marks iqtisad nəzəriyyəsini yaradarkən xüsusilə izafi dəyər qanunu haqqındakı təlimdən istifadə etmişdir. Fransız utopik sosialistləri **Anri Sen-Simon, Şarl Furye və Robert Ouen** kapitalist quruluşunu kəskin tənqid edir, xüsusi mülkiyyət ədalətsizlik kimi hesab olunmuş, ancaq ictimai mülkiyyət əsas şərt kimi qəbul edildi. Onlar tam ədalətli olan istismarsız cəmiyyət arzu edirdilər. Lakin onlar buna çatmağın yollarını və üsullarını görə bilmirdilər və bu bir utopik ideya kimi qalırdı. Nəhayət, K.Marks və F.Engels bu mənbələrə tənqidi yanaşaraq öz təlimlərini yaratdılar. K.Marks və F.Engels mürəkkəb siyasi inkişaf yolunu keçdi. Onlar yaradıcılığının ilk başlanğıcında idealist olmuşdur. Getdikcə onların ictimai-siyasi baxışları inqilabi –demokratik xarakter daşımışdır. Qeyd etmək olar ki, K.Marks özünün **“Demokratik naturfəlsəfəsi ilə Epikürün naturfəlsəfəsi arasındakı fərq”** mövzusunda olan dissertasiyası idealizm mövqeyindən yazılmışdır. Dissertasiyada göstərilir ki, idealizm fantaziya deyil, o bir həqiqətdir. Hələ 1842-

ci ildə “Reyn” qəzetində işləyərkən idealizmdən materializmə, inqilabi-demokratizmdən kommunizm ideologiyasına keçid həyata keçirildi. Nəticədə K.Marks və F.Engels tarixin materialist dünyagörüşünü yaratmış oldu. K.Marks və F.Engels 1842-ci ildə “Reyn qəzeti”ndə, 1844-cü ildə isə Parisdə görüşə bildilər. Onlar görüşməklə daha yaxın münasibət qura bildilər. Marksizm fəlsəfəsinin ideologiyası onun **“Müqəddəs ailə” və “Alman ideologiyası”** adlı əsərində öz əksini tapdı. Sonrakı inkişafda isə K.Marks özünün **“Fəlsəfənin yoxsulluğu”** adlı əsərini yazdı. Daha sonra K.Marks “Kapital” əsərini yazdı və əsərdə elmin emprik faktları və siyasi iqtisada əsaslanan faktlardan bəhs olunur. ”Müqəddəs ailə” əsərində göstərilir ki, burjua cəmiyyətinin daxili inkişaf mənbəyində iki qüvvə mövcuddur, bu **burjuaziya və proletariat** arasındakı müharibədir. Daha sonra qeyd olunur ki, xüsusi mülkiyyət ancaq proletariatın mübarizəsi nəticəsində aradan qalxa bilər, ancaq sosialist inqilabı köhnə iqtisadi münasibətləri aradan qaldıra bilər, üst qurumu dəyişməyə siyasi, iqtisadi hüquqi və ideoloji münasibətləri bütünlüklə yeniləmək olar. K.Marks və F.Engelsin dövlətin mənşəyinə dair yeni nəzəriyyə yaradaraq qeyd edirlər ki, siniflər xüsusi mülkiyyətin yaranması nəticəsində meydana gəlmişdir. Onlar mülkiyyətin formalarına uyğun gələn beş ictimai-iqtisadi formasiyanı qeyd etmişlər**: 1) ibtidai icma, 2) quldarlıq, 3) feodalizm, 4) kapitalizm, 5) kommunizm.**

K.Marks və F.Engels dövlətin mənşəyi ilə bağlı qeyd edirdilər ki, dövlətin əsas əlamətləri mövcuddur: 1) Ümumi, kütləvi hakimiyyət, 2) Əhalinin vergi tutulması və borc almaq qaydalarının sistemləşdirilməsi. Onların dövlət və hüquq təlimləri yalnız sinfi zəmində əsas götürülür. K.Marks belə nəticəyə gəlir ki, proletar inqilabi dövlət aparatını məhv edə bilər, nəticədə kapitalizm cəmiyyəti arasında keçid mərhələsi baş verə bilər. Onlar “Alman ideologiyası” əsərində daha belə bir ideyanı irəli sürürdülər ki, kommunist inqilabi bütün qabaqcıl kapitalist ölkələrində eyni zamanda baş verəcəkdir. Bu prosesin baş verməsi üçün onlar maraqlı idi ki, məhsuldar qüvvələrin inkişafı

ilə istehsal münasibətlər arasında ziddiyyətlər yaranmış olsun. Nəticədə sosialist inqilabı baş verə bilər. Nəhayət 1847-ci ildə K.Marks və F.Engels beynəlxalq fəhlə sinfinin ilk təşkilatı olan "kommunistlər ittifaqı"nın təşkilati işində onun proqram sənədi olan **"Kommunist partiyasının manifesti"** yazıldı və qəbul edildi.

K.Marks və F.Engels kommunizmə utopiya kimi yox, bu cəmiyyətdə real azadlığın və əsl xoşbəxt həyatın olacağına tam ümid edirdilər. Bu ideologiya Rusiyanın ictimai-siyasi həyatına praktik şəkildə tətbiq olundu və kommunist partiyasını siyasi qüvvəyə çevirdi. Doğurdan da,bu siyasi qüvvənin hakimiyyəti qələbə çaldı və Sovetlər dövrü yaransa da,lakin ictimai mülkiyyət və totalitar rejim hakimiyyəti (70 il) uzun çəkmədi. Bizim Respublikamız da öz müstəqilliyini itirdi və bu totalitar rejim həyatını yaşadı, ölkəmiz yenidən tarixi müstəqilliyini əldə edərək bu yolda öz müstəqilliyini uğurla davam etdirir.

# VII FƏSİL

# AZƏRBAYCANDA MAARİFÇİLİK (İNTİBAH) FƏLSƏFƏSİ

1. **Azərbaycanda maarifçiliyin təşəkkülü və səciyyəvi cəhətləri**
2. **Maarifçilik fəlsəfəsində varlıq təlimi və qnoseoloji baxışlar**
3. **XX əsrin əvvəllərində maarifçi –demokratik baxışlar**
4. **Azərbaycan fəlsəfəsində və ictimai fikrində milli istiqlal ideyalar**

## 1. Azərbaycanda maarifçiliyin təşəkkülü və səciyyəvi cəhətləri

Adından göründüyü kimi maarifçilik dünyagörüşündə elm və mədəniyyətin tarixi inkişaf mərhələsində yaranmış keyfiyyətcə yeni bir mərhələni intibah dövrü kimi qəbul edə bilərik. Məlumdur ki, maarifçilik Qərbi Avropa ölkələrində burjua inqilablarının hazırlanması dövründə meydana gəlmişdir. Maarifçilik dünyagörüşü çox geniş bir sahə olmaqla ictimai siyasi, hüquqi, elmi, əazxlaqi, dini, bədii və s. kimi baxışlar sistemini özündə birləşdirirdi. Ona görə də maarifçilk milli mənlik şüurunun formalaşmasını, tarixi-mənəvi simasını müəyyənləşdirən aparıcı bir xətti idi. Bu dövrdəki tarixi mərhələni xatırlayaraq qeyd etmək olar ki, məlumdur rus imperiyası Qafqazda işğalçılıq siyasəti ilə o cümlədən, Azərbaycanda da öz dayaqlarını möhkəmləndirmiş oldu və bunun bariz nümunəsi olaraq Gəncə xanlığının alınması buna tarixi nümunə idi. Hələ bundan əlavə 1918-ci il Gülüstan və 1828-ci il Türkmənçay sülh müqaviləsinə görə Azərbaycan iki yerə bölündü. Araz çayı sərhəd olmaqla Şimali Azərbaycan Rusiyanın tərkibinə birləşdirildi. O vaxtdan Şimali Azərbaycanla Cənubi Azərbaycan arasındakı iqtisadi, siyasi, elmi və mədəni həyat yolları ayrıldı və nəticədə rus mədəniyyətinin siyasi, elmi və mədəni həyatı Azərbaycan xalqının mənəvi həyatının

inkişafında öz təsir dairəsini gücləndirdi. Çünki Azərbaycan o qədər də güclü inkişaf etməmişdir. Ona görə də marifçiliyin yaranması şəraiti xeyli gec yarandı. Məhz həmin dövrdə Azərbaycanda feodalizmə, sxolastikaya, cəhalətə qarşı mübarizəyə geniş təlabat var idi. Yeni məktəblər açıldı və imkanlı insanların uşaqları həmin məktəblərdə təhsil almağa başladılar. Getdikcə məktəblər şəbəkəsi yayılmağa başladı. Mərkəzi şəhərlərdə yeni-yeni məktəblərin açılması azərbaycanlılar üçün müsbət bir hal idi. Bu irəliləyiş hər yerdə eyni olmasa da bu inkişafda irəliyə doğru bir addım idi. Azərbaycanın istedadlı və savadlı insanları çar rusiyasının yaratdığı idarələrdə işə girirdilər və imkanları daxilində xalqa xidmət edirdilər. Azərbaycanda mövcud olan təbii sərvətlər, mis, dəmir, qaz və neft kimi yataqların mövcudluğu Azərbaycanda elmin inkişafına səbəb oldu. Nəticədə Rus çarizminin müstəmləkəçilik siyasətinə baxmayaraq feodal-patriarxal münasibətləri sarsılır və kapitalist idarəetmə üsulu təşəkkül tapırdı və Avropa həyat tərzinə maraq güclənir, iqtisadi əlaziələr tədricən genişlənir və milli şüurun formalaşmasına müəyyən istiqamətlər yaranırdı.

Maarifçilik ideyaları əvvəlcə Avropa ölkələrində, sonra Rusiyada, daha sonra Şərq ölkələrində meydana çıxmağa başladı. Əlbəttə Şərqdə maarifçilik Qərb mütəfəkkirlərinin ideyalarının təsiri altında formalaşmağa başladı. Daha sonra biz bunu o dövrdə yaşamış Azərbaycan mütəfəkkirlərinin maarifçilik fəaliyyətində görə bilərik. Lakin bir şeyi qeyd etmək olar ki, Azərbaycanda 60-70-ci illərdə maarifçiliyin yaranması o demək deyildir ki, bu vaxta qədər mənəvi həyatımızda maarifçilik və humanizm ideyalarını təbliğ edən baxışlar olmuşdur. Əslində XII əsrdən başlayaraq müsəlman (intibah) renessansı dövründən başlanan dövr tarixi kökə malik olan və maarifçiliyin bir spesfik forması kimi başa düşülə bilər. Həmçinin maarifçilik ümumbəşəri demokratik ideologiya nəzdində formalaşma mərhələsindən başladı.

Azərbaycan maarifçiliyi bir sıra səciyyəvi cəhətlərə malikdir: **birincisi -** maarifçiliyin yarandığı dövrdə kapitalist münasi-

bətləri hələ zəif inkişaf etmişdir, maarifçilik ideologiyası təkimçiliyə qarşı mübarizə apararaq bərabərlik prinsipinə əsaslanan cəmiyyət formalaşdırmağa çalışmışdır. Qeyd etmək olar ki, bu zaman aydın ideoloji mübarizə proqramı yox idi və yetkin ideoloji sistem mövcud deyildir, **ikincisi -** əsasən Azərbaycanda maarifçilik ideyaları daha çox bədii üslubda (ədəbiyyat, sosial sfera, ədəbi-tənqid, publisist yazılar, karikaturalar və s.) ifadə olunurdu və bu nəticədə yaranmış demokratik ideologiyada özünəməxsus cəhətlərə malik olmuşdur. **Üçüncüsü** – maarifçiliyin formalaşması bir günün içərisində mövcud olmamış, bu bir çox hallarda bəzi publisistlər, şair və yazıçılar tədricən inqilabi-demokratik pillələrə qalxa bilmişlər. Bu zaman həm maarifçilik, həm də inqilabi-demokrayik ideyaları arasında heç də əsaslı fərq olmamışdır.

XIX əsrdə maarifçilik ideyaları feodal təhkimçilik üsul idarəsinin maariflənmə yolu ilə islah edilməsi, humanistləşdirilməsi, daha doğrusu mövhumata, dini-fanatizmə, cəhalətə tənqidi yanaşmaqda bir mübarizə mərhələsi idi. Belə maarifçilərdən **A.Bakıxanovun, M.F.Axundovun İ.B.Qutqaşınlının, H.B.Zərdabinin, N.B.Vəzirovun, Q.B.Zakirin** və başqalarının ideyalarını Azərbaycan maarifçilərinin birinci mərhələsi kimi başa düşmək olar.

Azərbaycan maarifçiliyinin ikinci mərhələsi XIX əsrin sonu və XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövrün maarifçiliyinin ideyaları artıq birinci mərhələdəki ideyadan fərqli olaraq radikalizmə, inqilabi demokratik ideyalara qarşı mübarizənin yolları açıq idi. Belə maarifçi filosoflardan **C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ö.Nemətzadənin, Ü.Hacıbəyovun, C.Ağamalıoğlunun, N.Nərimanovun** və digərlərinin adlarnı qeyd etmək olar.

Yuxarıda qeyd olunduğu kimi ölkənin milli müstəqilliyi, suverenliyi və demokratik inkişafı **türkçülük, islamçılıq və müasirlik** kimi mənəvi prinsiplər xüsusi olaraq ideya-fəlsəfi cərəyanın istiqamətinə çevrilmişdir. Bu ideya - fəlsəfi istiqamətin xalqımızın milli şüurunun oyanmasında, milli dəyərlərə qayıt-

masında, müstəqil Azərbaycan dövlətçiliyi ideyasının yaradılması və reallaşmasında mütərəqqi xidməti olmuşdur. Belə bir ideya istiqamətinin reallaşmasında **M.Ə.Rəsulzadənin, Ə.Ağayevin, Ə.Hüseynzadənin, A.Topçubaşovun, N.Vəzirov** kimi mütəfəkkirlərin adlarını xüsusi qeyd etmək olar.

## 2. Maarifçilik fəlsəfəsində varlıq təlimi və qnoseoloji baxışlar

XIX əsrin ortalarından sonra Şimali Azərbaycanda artıq kainat, təbiət, dünya, insan haqqında elmi təsəvvürlər və varlığın mahiyyəti haqqındakı fəlsəfi baxışlar, maarifçilərin qarşısında duran zəruri problemlərdən hesab olunur. Bu problemləri digər maarifçilər kimi **A.Bakıxanovun, M.F.Axundovun, H.Zərdabinin** ədəbi və fəlsəfi irsində tapmaq mümkündür. Məsələn, A.Bakıxanovun əsərlərində **“varlıq problemi"** bir tərəfdən orta əsrə digər tərəfdən yeni dövrə bağlı idi. Varlığın problemi ona görə həm dini həm də elmi mövqedən şərh olunmuşdur. Lakin **M.F.Axundov (1812-1878)** bu problemin şərhinə daha ciddi yanaşmış, ənənəvi müsəlman ilahiyyatçılarının dini dünyagörüşünü qəbul etməmişdir. Dünyanın və təbiətin varlığını və mövcud olma formalarını mexaniki-metafizik materializm mövqeyindən izah etmişdir.

A.Bakıxanov ərəbdilli müsəlman fəlsəfəsinin təlimində əsas yer tutan **“Vəhdət əl vücud” (**varlığın vəhdəti) ideyasını sufi panteist konsepsiyası baxımında şərh edir. O, 1846-cı ildə Məkkəyə ziyarət yolunda yolüstü türk sultanı I Əbdül Məcidlə görüşür və ona **“Əsrarəl-məlakut” (kainatın sirləri)** adlı əsərini ona təqdim etmişdir. O, əsərində kainatın quruluşu (Yerin vəziyyəti və onun Günəş ətrafında fırlanması. Səma cismlərinin yaranması və yox olması, göydəki “ağ ləkələr”, “sabiq ulduzlar” toplusu və s.) haqqında məlumatlardan ətraflı xəbər verilir.

M.F.Axundovun fəlsəfi dünyagörüşü müəyyən qədər B.Spinoza, L.Feyerbax və digər fransız maarifçilərinin, alman fəlsəfəsinin və rus inqilabçı demokratlarının təsiri altında formalaşmışdır.

M.F.Axundov yazmışdır: “Bütün kainat bir vahid, qadir və kamil vücuddur. Əvvəli də budur, axırı da budur. Nə ondan qabaq başlanğıc olmuşdur, nə də ondan sonra nəhayət olacaqdır”. Lakin onun tələblərindən, məkan isə keyfiyyətlərindən sayılır. Digər tərəfdən o, təbiətin kənar qüvvədən asılılığı ideyasını qəbul etməyərək yazmışdır: “Biz bu dünyanın mövcud olduğunu gözümüzlə görürük. Bu varlıq öz-özünə öz qanunları ilə, başqa bir xarici varlığa hiss etmədən mövcuddur.

Azərbaycanda maarifçilik fəlsəfəsinin sistemləşdirilməsi məhz M.F.Axundovun adı ilə bağlıdır və o xalqının elmi-mədəni səviyyəsinin yüksəlişi üçün yollar axtarmışdır. O, rus dilini yaxşı bildiyi üçün təkcə rus mütərəqqi mədəniyyəti ilə deyil, həm də Qərbi Avropa elmi və fəlsəfəsi ilə yaxından tanış idi. O, əsərlərində geriliyi, cəhaləti, dini fanatizmi, radikalizmi həmişə tənqid etmişdir. O, öz əsərlərində dünyanın böyük mütəfəkkirlərinin (Homer, Sokrat, Platon, Aristotel, Spinoza, Şekspir, Volter, Monteskye, Russo, Holbax və digərləri) bədii-fəlsəfi fikirlərindən sitatlar gətirmiş və onların həyat və yaradıcılığı ilə yaxından tanış idi. O, D.Yumun ilk səbəb təlimi ilə bağlı fikrini məqalə şəklində şərh etmiş, fikir azadlığı və ictimai tərəqqidə rolu haqqında C.S.Milin baxışlarının tərəfdarı olmuşdur. M.F.Axundovun mühüm xidməti o idi ki, o, elmi maddi dünyanın qanunlarını öyrənən və səbəbiyyət əlaqələrini öyrənməkdə əsas kimi qəbul etmişdir.

**H.B.Zərdabi** maarifçi – demokrat, publisist, təbiətşünas – darvinçi alim idi və onun dünyagörüşünü səciyyələndirən ən əsas cəhət təbii-elmi və materialist məzmun daşıması və xüsusilə təbii-bioloji biliklərin geniş təbliğ olunmasıdır. O, Darvin təlimini əsas götürməmiş, üzvi aləmin əmələ gəlməsinin təbii-obyektiv qanunauyğunluqları ilə yaxından tanış olmuş və onu izləmişdir. O, həmişə demokratik fikirli adamlarla dostluq və yaxınlıq etmişdir. O, baxışlarında dünyanın, yəni varlığın Allah tərəfindən yaradılması fikrini qəbul etməmiş, dünyanın sonsuzluğu ilə bağlı müddəaları əsas götürmüşdür. O, varlığın mövcudluğunun dialektik mahiyyətini şərh etməyə çalışmışdır. O, kainatı əbədi

hərəkətin və dəyişkənliyin mövcudluğu kimi qəbul etmişdir. H Zərdabi daim kosmoqonik baxışlarla maraqlanmış, Kant-Laplasın kosmoqonik baxışları ilə yaxından tanış olmuşdur. H.Zərdabi qeyd edirdi ki, bütün kosmik cisimlər hətta planetlər təbii yollarla mövcud olmuşdur. O, Kaspi qəzetinin 41-ci nömrəsində dərc olunan **"Yeni ulduzlar"** adlı məqaləsində qeyd edirdi ki, "İndi sübut edilmişdir ki, yeni ulduzların zühur etməsi təsadüfi hadisə olmayıb, dünya cisimlərinin və Günəş sisteminin qanunauyğun inkişafında müəyyən mərhələdir! Günəş sistemində mövcud olan Yer planeti də təbii-tarixi inkişafın nəticəsidir. Yerin yaranması isə bir andır, "milyon-milyon illər yaxşı olan bütün həyat kainatın inkişafında bir saniyədən artıq deyil. Onun fikrincə üzvi təbiət qeyri-üzvi təbiətin fasiləsiz inkişafının nəticəsidir. **"Torpaq, su və hava"** adlı əsərində qeyd edirdi ki, "Yer üzərində olan hər bir qatı mülahizə edəndə aydın olur ki, bizim yer kürəsi çox qədimdir. Neçə milyon illər yer üzərində o qədər isti olmuşdur ki, orada heyvanat və nəbatatın mövcudluğu mümkün olmamışdır. Yer üzündə əvvəl nəbatat, sonra heyvanat aləmi yaranmış və axırda insan dünyaya gəlmiş, çünki axırıncı qatın üstə insan və onun sümüklərinin ya bir qeyri hissəsinin şəkli tapılır, ondan irəli gələn qatların içində insandan heç bir əsər yoxdur". Zərdabi insanı təbiətin bir hissəsi hesab etmiş. İnsanın mənşəyindən bəhs edərək qeyd edirdi ki, insan da heyvandır. Amma insan ağlı olmaq səbəbinə görə tamam heyvanların padşahıdır.

Maarifçi təfəkkürlər inkişafı ümumi dəyişkənlik, köhnənin məhv olması, yeninin yaranması kimi qəbul etmişlər. Onlar ictimai inkişafın əsasını elmdə, maarifdə, mədəniyyətdə axtarmışlar. Çünki, onlar kamil insan düşüncəsini düşünən zəkada axtarmışlar. **"Mövcudatın ən şərəflisi"** və **"əvəzsiz varlığı"** olan insan ideyalarını, ictimai-siyasi nəzəriyyələri qnoseoloji aspektdə də əsaslandırmağa çalışmışlar. İdrakın qüdrətli mahiyyətinin açıqlanması, dünya və onun qanunlarının idraki prosesdə işıqlandırılması, insanın özü-özünü dərk etməsi çox zəruri bir məsələ kimi anlaşılması çox mühümdür. İdrakın mahiyyətinin açıqlan-

masını A.Bakıxanov özünün **“Mişkatül ənvar” (Nurlar mənbəyi)** poemasında yazır:

Şərafətə minər insan artarsa onda şüur
İnsan idrak sayəsində günəş kimi saçar nur.

**M.F.Axundov** isə qeyd edir ki, idraki fəaliyyət ictimai tərəqqiyə xidmət edir. Çünki təbiətin sirləri, cəmiyyət hadisələri insan tərəfindən dərk edilə bilər. H.Zərdabi isə deyirdi: “Hərgah diqqət ilə mülahizə edərsən aşkar olar ki, insan tamam dünyaya malikdir”.

M.F.Axundov insanları “dünyaya nədən ötrü gəldiklərini başa düşməyə çağırırdı. Artıq elə bir vaxt yetişmişdir ki, siz gərək 5 hiss orqanınızın bütün qüvvələrini dünya işlərində müvəffəqiyyət qazanmaq və həyatda fəzilət sahibi olmaq işinə sərf edəsiniz” deyə öz mülahizələrini bildirmişdir. Eyni zamanda M.F.Axundov qeyd edirdi ki, insanın idraki fəaliyyətini məhdudlaşdıran, zehni şikəst edən köhnə qapalı həyat tərzindən uzaqlaşmaq lazımdır. M.F.Axundov və H.Zərdabi eyni mövqedən bu təhlillərlə yanaşmalarda idraki prosesdə hissi və əqli cəhətlərin rolunu səciyyələndirərək, onlar duyğuları, hissi təsəvvürləri idrakın ilkin başlanğıcı kimi başa düşmüşlər. Məsələn: A.Bakıxanov qeyd edirdi ki, ağıl hisslərin dərkinə möhtacdır və hisslərlə qavranılan dünyanı “mümkün olan varlıq” adlandırmışdır.

Maarifçilər belə qənaətə gəlirlər ki, idrakda hiss üzvləri kimi əql, zəka da iştirak edirlər. Bu idraki elementlərin hər biri ayrılmaz tərəflərdir. Hiss müşahidə idraki fəaliyyətin başlanğıcı olsa da, son həddi hesab edilmir. İnsan hiss orqanları ilə ancaq predmet və hadisənin müəyyən tərəfini öyrənə bilər, lakin mahiyyətini isə dərk etmək qeyri-mümkündür. H.Zərdabi **“Marsda insan yaşayırmı?”** adlı məqaləsində qeyd edir ki, insan cihazların köməyi ilə ancaq gözlə görünə bilən və ya az görünə bilən predmetləri müşahidə edə bilər. Məsələn, qeyd edirdi ki, insan teleskopla silahlanan kimi onun görüş dairəsi genişləndi və görünən ulduzların sayı artdı.

Onlar idrak prosesində hissi və əqli pillələrin rolunu düzgün qiymətləndirmiş olsalar da idrakın dialektik xarakterini görə bilməmişlər. Düzdür onlar insan idrakının məqsədini həqiqətə çatmaqda görürdülər, lakin biliklərin düzgünlüyünün və ya qeyri-düzgünlüyünün müəyyən edilməsi nəticələrinin müəyyənləşdirilməsi ziddiyyətli mahiyyət daşımışdır.

## 3. XX əsrin əvvəllərində maarifçi – demokratik baxışlar

Artıq XIX əsrin sonlarına doğru Azərbaycanda kapitalist münasibətləri inkişaf etməyə başladı. Neft sənayesində olan irəliləyiş cəmiyyətin milli ideoloji baxışlarına öz təsirini göstərdi. Bəzi sahələrdə ticarətdə milli burjuaziya yaranırdı. Həmin dövrdə türk xalqlarının da milli oyanma prossesi baş verirdi. Xalqın dünyagörüşündə milli özünüdərk və siyasi məfkurə ideologiyasının meylləri güclənməkdə idi və nəticədə islamçılıq və türkçülük ideologiyası yaranmaqda idi. Əlbəttə, qeyd etmək lazımdır ki, bu hərəkatın önündə ziyalılar gedirdi. Bu ziyalılardan **Məhəmməd Ağa Şahtaxtlının, M.Ə.Sabirin, Q.F.Nemanzdənin, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, N.Nərimanovun** adlarını qeyd edə bilərik.

Maarifçi-demokratlardan Məhəmməd Ağa Şahtaxtlının (1846-1931) "Müsəlman həyat qabiliyyətinin böhranı", "Müsəlmanların avropalaşması" adlı məqalələrdə Avropa həyat tərzi təbliğ olunur. Şahtaxtlı vahid dövlətdə yaşayan milli-etnik qrupların və xalqların özünü idarə hüquqlarının müdafiəçisi idi və ictimai inkişafda qanunların dərk edilməsi kimi hüquqi əsaslar onun yaradıcılığında öz əksini tapırdı. Maarifçi şairin: **"Nə yazım?", "Açmış inqilabi hüsnün.."** və s. kimi şeirlərində xalqın ictimai və mənəvi düşmənlərinə qarşı mübarizə aparmışdır. O, burjua-mülkədar quruluşunun çürüklüyünü və digər mürtəce qüvvələrə qarşı mübarizə aparmışdır.

**M.Ə.Sabir** başa düşrdü ki, ictimai bərabərsizliyi yaradan sosial-siyasi səbəbləri ifşa etmək bir satirik kimi onun üzərinə düşür. Bu dövrdə insanları yeni düşüncə tərzinə səsləyən, ictimai

bərabərsizliklə barışmağa çağıran M.Ə. Sabir fəlsəfəsində çox böyük rəngarəng məntiqi məzmuna malik olan mütərəqqi və humanist əxlaqi dəyərlərə rast gəlirik. Hophopnamənin şerlər bölməsində verilən **"Elmə təqib"** adlı əsərində yeni nəsli mədəniyytə, xoşbəxtliyə çatmaq yolunda ancaq elm vasitəsilə müvəffəq olmağa çağırırdı:

Elmin izzəti payidar olur,
Cəhlin nikbəti canşikar olur.
Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.

XX əsrin əvvəlləri Azərbaycan ictimai-fəlsəfi fikrində M.Ə.Sabirin özünə məxsus rolu olmuşdur. O, yaxşı bilirdi ki, dünyanın qabaqcıl xalqları ilə ünsiyyət qurmadan və dünya mədəniyyəti xəzinəsindən bəhrələnmədən cəmiyyətin inkişafından söhbət gedə bilməz. M.Ə.Sabir özünün fəlsəfi dünyasında milli özünüdərk milli dil, milli mədəniyyət, milli təhsil kimi məsələlər qətiyyətlə ifadə olunur və bu da cəmiyyətin mənəvi dünyagörüşündə maarifçilik hər şeydən əvvəl mənəvi sima və adət-ənənələrin formalaşmasında milli mənlik şüurunun oyanması başlıca şərt idi.

XX əsr Azərbaycan görkəmli publisistlərindən biri olan **Ö.F.Nemanzadə (1872-1941)** təfəkkürünün formalaşmasında dövrün ictimai-siyasi hadisələri və türk siyasi fikrinin böyük təsiri olmuşdur. **"Molla Nəsrəddin"** jurnalında yazdığı məqalələr xalqın inqilabi-demokratik ruhunun yüksəlməsinə müsbət təsir göstərmişdir. Onun əsərlərində çarizmin tənqidi, xalqın ağır həyat tərzinin acısını yaşamaq, ağır və dəhşətli həyatın dəyişdirilməsi onun ən böyük arzularından idi. Bu cəmiyyətin içərisindən çıxan yəni xalq tərəfindən seçilmiş söz, mətbuat, vicdan azadlığına əsaslanan "millət məclisi"nin yaradılması ideyasını irəli sürmüşdü.

Azərbaycanda ictimai-fəlsəfi fikir tarixində mühüm yer tutanlardan biri də **Nəriman Nərimanov (1870-1928)** idi. O,

qeyd edirdi ki, əhalinin maariflənməsi, ictimai münasibətlərdəki ziddiyyətlərin aradan qaldırılması üçün ilk növbədə ziddiyyətlərin mənbəyinin aradan qaldırılması çox mühümdür. O, xalqının müstəqilliyi uğurunda həmişə mübarizə aparmış və bu yolla hər bir çətinliyə dözmüşdür. N.Nərimanov "Nadanlıq", "Şamdan bəy", "Nadir şah", "Bahadur və Sona" adlı əsərlərində və çox saylı məqalə, çıxış, teleqram və məktublarında xalqımızın tarixi taleyi, mənəvi və siyasi azadlığı, dini əqidəsi, vicdan azadlığı və s. kimi mənəvi dəyərlər ifadə edilmişdir. Təbiətşünas alim, həkim, yazıçı, filosof və siyasi xadim N.Nərimanov Azərbaycanın ictimai və bədii fikrində özünəməxsus yer tutan bir xadimdir. N.Nərimanov həm Sovet Azərbaycanında həm də SSRİ-nin rəhbər orqanlarında işləmişdir və o din, dil, adət-ənənə, milli mənəviyyatla bağlı məsələlərin müdafiəsi üçün xeyli mübarizə apara bilmişdir. Azərbaycanın daim gələcəyindən narahat olan N.Nərimanov oğluna vəsiyyət xarakterli **"Ucqarlarda inqilabımızın tarixinə dair"** məktubunda SSRİ rəhbərliyinin Azərbaycanda yeridilən siyasəti tənqid edirdi. O, özünün bu məktubunda milli məsələlərdə əyintilər, azərbaycanlıların sıxışdırılması, məsul vəzifələrdə iştirakın təmin olunmaması, dini mərasimlərin, adət-ənənələrin icrasına törədilən çətinliklərə xüsusi diqqət yetirildi.

Demokratik siyasi fikrin inkişafında "Molla Nəsrəddin" jurnalının banisi və redaktoru olan **Cəlil Məmmədquluzadə (1866-1932)** xüsusi rol oynamışdır. C.Məmmədquluzadə molla yanında ilk təhsil almış lakin sonralar Qori müəllimlər seminariyasında təhsil almışdır. O, rus mədəniyyəti və siyasi ideologiyası ilə yaxından tanış idi. Xalqı islam və şəriət ehkamlarından xilas etməyə çalışan C.Məmmədquqluzadə kəndlilərin geriliyini, cahilliyini və onların istismar olunmasını yaxından görürdü. C.Məmmədquluzadənin maarifçilik ideyaları **"Poçt qutusu", "Usta Zeynal", "Danabaş kəndinin əhvalatları"** və digər əsərlərində ifadə olunmuşdur. C.Məmmədquluzadə bu əsərlərlə Azərbaycan kəndinin həyat və məişətini, fanatizmi, mövhumatı kəskin satira atəşinə tutaraq kəndlilərin ağır vəziyyətini göstərirdi. C.Məmmədquluzadə maarifçilik ideyalarını **"Şərqi**

**Rus"** qəzetində inkişaf etdirirdi. O, məqalələrin birində yazırdı: "Məramımız müsəlman dindarlarımızın məlumatlarının artmasına, fikrinin işıqlanmasına əlimizdən gələn qədər kömək etməkdir. Başqa millətlər elm oxuyub mədəniyyətə sahib olaraq qabağa getdikləri halda biz geri qalmışıq. Mədəni millətlərin bizdən çox xoşbəxt və məsud yaşadıqlarını hamımız təsdiq edirik, kaş biz də bunlar kimi xoşgüzəran olardıq. Biz də mədəniləşib, mədəni xalqların sırasında durmalıyıq.

C.Məmmədquluzadənin siyasi-hüquqi görüşlərini təhlil edərkən belə nəticəyə gəlmək olar ki, o, çarizmin devrilməsini demokratik respublika qurulmasını, feodalizm qalıqlarının məhv edilməsini, aqrar və milli məsələlərin həll edilməsi və s. kimi proqramların tərəfdarı idi. O, qeyd edirdi ki, demokratik respublika quruluşunda köhnə dövlət aparatı və köhnə qanunlar ləğv edilir, xalq öz iradəsinə uyğun olaraq yeni dövlət aparatı və qanunlar yaradır. C.Məmmədquluzadənin məqalələrində belə bir fikir söylənilir: "Cumhuriyyət üsulu məmləkətin idarəsi camaatın öz ixtiyarındadır. Camaat vətənin sahibidir. Dəxi heç bir kəsin ixtiyarı yoxdur ki, özünə padşah adı qoyub millətin rəyindən kənar məmləkət işinə qarışsın. Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları yəni vəkilləridir.

C.Məmmədquluzadənin yeni ictimai və dövlət quruluşu haqqında proqramı əsasən belə şərh etmişdir:

**a) Mövcud ictimai-siyasi quruluşun və hüquq sisteminin məhv edilməsi və onun daha mütərəqqi demokratik quruluş və hüquq sistemi ilə əvəz edilməsi.**

**b) Əmək şəraitinin yaxşılaşdırılması, 8 saatlıq iş günü, aqrar məsələlərin həlli.**

**c) Dinin dövlətdən ayrılması, təhsil və maarif üçün şəraitin yaradılması.**

**d) Hüquqsuzluğun ləğv edilməsi yolu ilə milli məsələnin demokratik həlli.**

C.Məmmədquluzadə öz maarifçi və publisist fəaliyyətilə bürokratizmə, rüşvətxorluğa, ayrı-ayrı işçilərin nadanlıq,

savadsızlıq əleyhinə, köhnə cəmiyyətin bütün qalıqlarına qarşı bütün həyatı boyu mübarizə aparmışdır və onun elə bir məqaləsi yoxdur ki, orada köhnəliyə qarşı mübarizə aparmış olmasun. O xalqlar arasında sülh, dostluq və əməkdaşlıq ideyalarını həmişə təbliğ etmişdir. O, **"Sülhi-əbədi"** məqaləsində yazırdı: "Sülhi-əbədi, yəni türkçəyə çöndərsək "həmişəlik barışıq" deməkdir. Onun üçün də mən yuxarıda bu tədbirə "gözəl" ad qoyuram: çünki dünyada sülh və asayişdən gözəl nə ola bilər?"

## 4. Azərbaycan fəlsəfəsində və ictimai fikrində milli istiqlal ideyalar

Azərbaycanın ictimai-siyasi fikir tarixində milli istiqlal məfkurəsi özünəməxsus yer tutur. Belə bir tarixi mərhələnin bariz nümayəndələrindən **M.Ə.Rəsulzadə, Ə.Hüseynzadənin, Ə.Ağayevin, Ə.Topçubaşovun, Ə.Ağayevin** və digərlərinin adını qeyd etmək olar. Bu ədiblərin yaşayıb yaratdığı dövrdə müəyyən qədər irəliləyişlər var idi. Sənayenin müxtəlif sahələrində və ticarətdə milli burjuaziya formalaşırdı, azərbaycanlı maarifpərvər ziyalıların sayı çoxalmaqda idi. Artıq bu dövrdə ziyalıların üçüncü nəsli formalaşırdı. Nəticədə Azərbaycanda Şərqdəki milli ideoloji kökü özündə yaşadaraq Qərbdəki demokratik cərəyanların müəyyən baxışlarını da özündə yaşadırdı.

Onlar əsasən türkçülük hərəkatının ümumi liderlərindən **Ziay Göyalp, İsmayıl bəy Qaspiralı, Zəki Vəlidə Toğan, Yusif Akçura** və başqalarının ideya irsindən bəhrələnirdilər. Demokratik fikrin önündə gedənlərdən biri də **Ə.Hüseynzadə (1864-1940)** olmuşdur. O, milli şüurun, milli kimliyin oyanmasında, dərk olunmasında və Azərbaycan mədəniyyətinin formalaşmasında müstəsna rol oynamışdır. Onun **"Türklər kimdir və kimlərdən ibarətdir?", "Siyasəti fürsət", "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar"** və s. adlı əsərlərində qarşılaşdırılma və ruslaşdırılma ideologiyasına qarşı çıxaraq türkçülüyün birləşdirilməsi ideyasını əsas tutaraq qəbul etmişdir. O, öz əsərlərində müstəmləkəçiliyə qarşı çıxmış və bu siyasəti insanlığa qarşı ən böyük cinayət kimi qəbul etmişdir. O, türk xalqlarının vahid

ideya altında birləşməyə çağıraraq **"Türkləşmək, islamlaşmaq, avropalaşmaq"** şüarını qəbul etmişdir. O, üçrəngli bayrağımızı türk millətinin mentaliteti kimi qəbul etmişdir.

Ə.Hüseynzadənin siyasi-fəlsəfi baxışlarında erməni şovinizminin ideya kökləri, dini-irqi əsasları şərh olunmuşdur. Eləcə də Qafazda Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilən erməni genosidinin mahiyyətini ideya əsaslarını və tarixi köklərini izah etmişdir.Onun həyat və yaradıcılığına nəzər saldıqda aydın olur ki, o mükəmməl təhsil görmüş ziyalılardan biri hesab olunur. O, əvvəlcə Tiflis gimnaziyasını, sonra Peterburq Universitetinin fizika-riyaziyyat fakultəsini, daha sonra İstanbul Ali Hərbi Tibb məktəbini bitirmişdir. O, H.Z.Tağıyevin yardım ilə "Həyat" qəzetində, "Fyuzat" jurnallarını nəşr etdirmişdir. Ə.Hüseynzadə Türkiyədən geri qayıdandan sonra çar Rusiyasına qarşı Azərbaycan türklərinin haqqını qorumaq üçün Ə.Topçubaşovun redaktorluğu ilə rus dilində çap olunan **"Kaspi"** və Qahirədə nəşr olunan **"Türk"** qəzetində türk birliyini və islam ideologiyasını təbliğ edən elmi Ə.Hüseynzadə **"Fyuzat"** jurnalı ilə türkçülüyə ancaq ideoloji baxımdan deyil, onun mənəvi tərəfini qəbul etmək lazımdır ki, ən başlıcası **Məhəmməd Hadi, Krımlı Səbri Eyvazoğlu** və s. kimi dahi şəxsiyyətlərin tanınmasında əvəzsiz xidmətləri olmuşdur. Elə bir siyasi proses yarandı ki, Ə.Hüseynzadənin siyasi fəaliyyəti məhdudlaşdırıldı və məsləkdaşı olan Əhməd bəy Ağayevlə birlikdə ölkəni tərk etdi və 17 mart 1940-cı ildə İstanbulda ürək xəstəliyindən vəfat etdi. məqalələr çap etdirmişdir.

O, öz əsərlərində xalqların mədəniyyətinin və tarixinin araşdırılmasına diqqət yetirmiş, həmişə türk xalqlarının birliyi uğurunda mübarizə apararaq türkçülük, turançılıq ideya siyasi xəttin yarada bildi.

Türkçülüyün ən böyük yaradıcılarından biri olan **Əhməd bəy Ağayev (1869-1939)** Qarabağı və Şirvanı Azərbaycan türk mədəniyyətinin türk musiqisinin beşiyi hesab etmişdir. O, Avropada ilk təhsil alan azərbaycanlı türkü idi. Yaxın məsləkdaşı olan Şeyx Cəmaləddin Əfqani onun əsərlərini Fransada fransız

dilinə tərcümə etmişdir. Ə.Ağayev **"Qafqaz"** qəzetində bir sıra məqalələrini çap etdirir və Tiflis gimnaziyasında fransız dili müəllimi işləmiş daha sonra "Kaspi" qəzetində redaktor kimi çalışmışdır və nəticədə Azərbaycan türklərinin hüququnu müdafiə edən rusca bir türk orqanına çevrildi.

Onun həyat və yaradıcılığında daha çox maarifçilik fəaliyyəti əsas yer tutur. O, ərəb və fars dillərini bilirdi və rus məktəblərində də təhsil almışdır. O, Tiflis gimnaziyasını qurtardıqdan sonra Parisə getmiş, orada hüquq məktəbində təhsil almış və Sorbone Universitetini bitirmişdir. Bir müddət Bakıda fəaliyyətə başlamış və 1909-cu ildə İstanbula köçmüşdür. Demək olar ki, xeyli vaxt Ankara və İstanbul Univrsitetində müəllimliklə məşğul olmuşdur və burada inqilabi-demokratik fəliyyətini daha da genişləndirmiş və əsərlərini yazmışdır. Onun **"Üç mədəniyyət", "Azərbaycanın əhəmiyyəti", "Türk hüquq tarixi", "Sərbəst insanlar arasında" və s**. kimi əsərlərinin adını qeyd etmək olar. O, burada türk milli şüurunun türk xalqlarının birliyini ifadə edən Turançılıq ideyalarını təbliğ etməyə çalışmış, milli intibah ideyalarının formalaşmasında fəal iştirak etmişdir. O, öz məqsədini belə ifadə edirdi ki, məqsədimiz türk xalqlarının siyasi azadlığını yaratmaq və gücləndirmək, eləcə də onun birliyini formalaşdırmaq və eləcə də səsləməkdən ibarət olmalıdır. Həqiqətən XX əsrin əvvəllərində xalqımızın milli şüuru xeyli inkişaf etmişdir. Türkçülük artıq istər Osmanlı, istər Azərbaycan istərsə də Krım, Kazan və Türküstanda siyasi ideoloji bir cərəyana çevrilmişdir.

Azərbaycanda milli qurtuluş hərəkatının, siyasi türkçülüyün ən tanınmış nümayəndələrindən biri də **M.Ə.Rəsulzadə (1884-1995)** olmuşdur. **M.Ə.Rəsulzadə** gənc yaşlarında olarkən siyasi fəaliyyətə həmişə can atmış, **"Müsəlman gənclik təşkilatı"**nda **"Hümmət"** təşkilatında çalışmış və İranda demokratik partiyanın yaradılmasında xüsusi rolu olmuşdur. O, 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Milli Şurasına, daha sonra Müsavat fraksiyasına başçılıq etmişdir. 1920-ci ildən Azərbaycan Demokratik Respublikası rus işğalının nəticəsində öz fəaliyyətini

dayandırdı və M.Ə.Rəsulzadə mühacirət həyatı yaşadı. Onun **"Panturanizm və Qafqaz", "Çağdaş Azərbaycan tarixi" və "Əsrimizin Səyavuşu"** əsərləri xüsusi əhəmiyyət kəsb edirdi. O, bu əsərlərində bolşevizmin mahiyyətini açaraq qeyd edirdi ki, Azərbaycanda müstəmləkəçilik 2 istiqamətdə təzahür edir: **1) iqtisadiyyatda mərkəzləşdirmə siyasəti, 2) mədəniyyət sahəsində ruslaşdırma.** O, qeyd edirdi ki, xalq bu siyasəti dərk etməklə özü-özünü dərk edə bilər. O, söz mətbuat, vicdan kimi azadlıq anlayışlarını əsas götürmüşdür. Böyük türkçülük cərəyanının siyasi şüarı olan **"Türkləşmək, islamlaşmaq və müasirləşmək"** onun əsərlərinin ana xəttini təşkil edirdi.

M.Ə.Rəsulzadənin dünyagörüşü XX əsrin əvvəllərində gedən siyasi proseslərin və siyasi mübarizənin təsiri altında formalaşmağa başladı. O, daim türk dilinin saflığının qorunması ilə yanaşı savadsızlığa qarşı mübarizə aparmaqla cəhaləti daim tənqid etmişdir O, Azərbaycanda gedən milli hərəkatla yaxından tanış olmuş və bu hərəkatın tarixi əsaslarını və hərəkətverici qüvvələrini təhlil etmişdir. O, millətin formalaşmasında, birliyində dilin əhəmiyyətini qeyd edərək bildirirdi ki, **"dil təbiətdir, ona görə də əsasdır",** millətlə bərabər yaranır, dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil ola bilməz. Rusiya müsəlmanlarının lideri kimi tanınan **Ə.Topçubaşovun (1865-1934)** istiqlaliyyət və azadlıq uğurunda daim mübarizə aparmış və türk xalqlarını vahid ideya uğurunda birləşdirməyə çalışmışdır. O, 1906-cı ildə Rusiyanın I Dövlət Dumasına deputat seçilmiş və Rusiya müsəlmanlarının III qurultayının keçirilməsinə nail ola bilmiş və tapdalanan müsəlman hüquqlarını bərpa etməyə çalışmışdır.

Yekun olaraq qeyd etmək olar ki, XIX-XX əsrlərdə Azərbaycanda yaranmış maarifçilik fəlsəfəsi Yaxın və Orta Şərq xalqlarının milli ideologiyasının və milli kimliyinin tanınmasınnda, onların savadlanmasında və maariflənməsində böyük rol oynamışdır. Azərbaycanda yaranan maarifçilik cərəyanının irsinin, dövlətçilik təcrübəsinin fəaliyyəti yeni demokratik cəmiyyət quruculuğu üçün irəliyə doğru atılmış mühüm bir addım idi.

# VIII Fəsil

# XX ƏSRİN QƏRB FƏLSƏFƏSİNDƏ CƏRƏYANLAR VƏ TƏLİMLƏR

1. **XX əsr Qərb fəlsəfi dünyagörüşünün səciyyəvi xüsusiyyətləri**
2. **A.Şopenhauer və F.Nitsenin fəlsəfi dünyagörüşü**
3. **Z.Freydin psixi-fəlsəfi təlimi**
4. **Pozitivizm və praqmatizm**
5. **Ekzistensializm və hermenevtika**
6. **Müasir dini fəlsəfi cərəyanlar**
7. **Müasir dövrdə dinin siyasiləşdirilməsi faktorları**
8. **Dini münasibətlərdə tarixlik və müasirlik**

## 1. XX əsr Qərb fəlsəfi dünyagörüşünün səciyyəvi xüsusiyyətləri

Qeyd etmək olar ki, burjua inqilablarının başa çatması ilə XIX əsrin sonu və XX əsrin əvvəllərində Avropanın iqtisadi, ictimai, siyasi həyatında baş verən mühüm dəyişikliklər fəlsəfəyə də öz təsirini göstərə bildi. Bu dövrdə elmlərin diferensiyası bir fakta çevrilirdi. Əsrlərin kəsiyində əslində çoxlu kəşflər həyata keçirilirdi. Artıq səbəbiyyətin klassik mahiyyəti dəyişilməkdə idi. Lakin fizikanın bəzi sahələrində əsas tutulan indeterminizm insan təbiətini və ictimai sferaları öyrənməkdə idi. XX əsr fəlsəfi fikrinin inkişafında başlıca cəhət çoxsaylı məktəb və cərəyanların mövcudluğu idi. Əsasən təbiətşünaslıq (fizika, kimya, biologiya) elminin nailiyyətlərindən daha geniş istifadə olundu ki, nəticədə xeyli fəlsəfi konsepsiyaların yaranmasına səbəb oldu. Fəlsəfə varlıq haqqındakı təlimində materiyanın mürəkkəb quruluşunu müəyyənləşdirərək insanın mövcudluğunu yeni məzmunda başa düşürdü. Səciyyəvi cəhət onda idi ki, bu problemlərin şərhində din ilə fəlsəfə ayrılıqda deyil, birlikdə iştirak edirdilər, lakin sırf elm və ictimai praktikanın təsirindən kənar olan "təmiz fəlsəfə"

yaratmaq cəhdi hələ qalmaqda idi. Ona görə də dövrün bu və ya digər fəlsəfi cərəyanlarını qiymətləndirmək konkret olaraq sosial-siyasi-iqtisadi şəraiti dərk etmək olduqca əhəmiyyətli idi.

İnsana elə gəlirdi ki, cəmiyyətdə mövcud olan antihumanizm bütün dünya xalqlarına hiss etdirdi ki, sanki müharibələr sosial konfliktləri həll edə bilər və bu da nəticədə bəşəriyyəti yeni bir ümumdünya yanğınına sürükləyə bilər. Bu inkişaf mərhələsində yeni elmi kəşflər əldə olunduqca, əldə olunan nailiyyətlər bəzən xeyirdən çox şərə doğru irəliləyirdi. Ona görə də XX əsrdə sanki "mədəniyyət böhranı"na keçid başlayırdı ki, bu da artıq cəmiyyətin mənəvi həyatına daxil olurdu. Ümumiyyətlə, XX əsr Qərb fəlsəfəsi müxtəlif istiqamətlərdə özünün inkişaf və formalaşma dövrünü keçirdi.

Elmin rolunun güclənməsi fəlsəfəyə öz təsirini göstərirdi. **Sayentizm (science - elm, bilik)**istiqaməti güclənmişdir, ona görə də fəlsəfənin tədqiqat dairəsi elmi təfəkkürə əsaslanırdı.

Sayentizm öz tədqiqat başlanğıcını əsas olaraq təbiətşünaslıq elminin nailiyyətləri baxımından davam etdirirdi. Sayentizm istiqamətində bəzən **neopozitivizm (analitik fəlsəfə) "elm fəlsəfəsi"** də struktur kimi fəaliyyət göstərirdi ki, bu da öz növbəsində ictimai quruluşun tələblərinə uyğun olan modellər məsələn, industrial, postindustrial, texnotron informasiya və s. formalaşdı. Digər istiqamətlərdən biri də antropoloji konsepsiya idi. Bu istiqamət zəruri olaraq humanitar aspekti qəbul etməklə antisayentizm meyllərini gücləndirirdi. Nəticədə **"insan məzmunu"** əsas prinsip kimi güclənirdi. Bu istiqamətdə **fəlsəfi antropologiya, həyat fəlsəfəsi, ekzistensializm, personalizm** və s. kimi cərəyanlar formalaşmağa başladı. Bütün bu deyilənləri belə nəticələndirmək olar: **birinci -** sayentizm artıq fəlsəfəni xüsusi elmə çevirməkdə idi və bu istiqamətdə sanki fəlsəfəni öz predmetindən uzaqlaşdırmağa, daha doğrusu onun dünyagörüşlü məsələlərindən kənarlaşdırılmasına cəhd olunurdu. Bundan başqa humanitar biliklər üçün strukturalizm cərəyanı da buraya daxil edilirdi. **İkincisi -** antisayentizm qəbildən olan cərəyanlar birləşdirilirdi. Həm də bunların arasında irrasionalizm mövqeyində

duranlar da mövcud idi. Bu təlimlərin baxışlarına görə guya elm və digər elmdən kənar şüur və idrak formalarını sıxışdırırdılar. Buna misal olaraq həyat fəlsəfəsini, ekzistensializmi, hermenevtikanı göstərmək olar. **Üçüncüsü -** fəlsəfəyə varlığın və idrakın ən dərin məsələlərini təhlil edən kimi yanaşılır və fəlsəfənin məzmunu xüsusi elmlərin faktlarından və nəticələrindən asılı olmayaraq inkişaf edir. Buraya həmçinin **fenomenologiya** adlanan cərəyan da daxil edilirdi. Bütün şərh etdiyimiz baxışları əsaslandırmaqla deyə bilərik ki, müasir Qərb fəlsəfənin inkişafını üç mərhələdə görə bilərik.

**Birinci mərhələ -** XIX əsrin 70-ci illərindən başayaraq Birinci Dünya müharibəsinə qədər olan dövrü əhatə edir. Bu mərhələdə həyat fəlsəfəsi, neokantçılıq, praqmatizm empiriokritisizm inkişafda idi. Nəticədə, sanki fəlsəfə ilə elm bir-birini qəbul etmirdi.

**İkinci mərhələ -** Birinci Dünya müharibəsindən XX əsrin 50-ci illərinə qədər olan dövr daxil edilir. Bu dövrdə fenomenologiya, ekzistensializm, neopozitivizm, personalizm kimi digər cərəyanları özündə ehtiva edir.

**Üçüncü mərhələ -** keçən əsrin 60-cı illərindən başlanır. Bu dövrün fəlsəfi təfəkküründə əsas xüsusiyyət insan və onun azadlığının dərk olunmasıdır. Bu dövrdə artıq tarixi mərhələ hansısa səbəbi şərtləndirən mərhələ kimi yox, insanın, cəmiyyətin fəaliyyət dövrünü şərtləndirən münasibətlərin məcmusu kimi başa düşülür.

## 2. A. Şopenhauer və F.Nitşenin fəlsəfi dünyagörüşü

XIX-XX əsrdə ən geniş yayılmış cərəyanlardan biri də **"Həyat fəlsəfəsi"**idi. Bu cərəyanın banilərindən biri də alman filosofu **A.Şopenhauer (1788-1860)** olmuşdur. Gənc Şopenhauer biznes və maliyyə mühitində böyüsə də o, atasının biznes sahəsindəki yolundan imtina etdi və onu da çox maraqlandıran zəkanın realist dönəmində dünya və insanlarla bağlı olan biliklər sistemi onun daha çox maraq dairəsində idi. Şopenhauer yazırdı

ki, xarakteri və iradəni atasından intellekti isə anasından miras olaraq qəbul etmişdir.

Bununla belə A.Şopenhauer əvvəlcə gimnaziyada daha sonra universitetdə təhsil almışdır. O, **"kafi əsasın dördlü kökü haqqında" (1813)** adlı dissertasiyadan sonra **"Dünya İradə və ideya kimi"** adlı məşhur əsərini yazdı. Daha sonra 1836-cı ildə **"Təbiətdə İradə"** haqqında adlı essesini yazdı və bu esse də **"Dünya iradə və ideya kimi"** əsərini müəyyən dərəcədə genişləndirmiş oldu. 1841-ci ildə isə **"Etikanın iki fundamental problemi",** 1851-ci ildə isə iki sanballı cilddən olan **"Əlavələr və unudulanlar" (Parerqa et Parliapomena)** adlı iki cilddən ibarət olan əsəri də çap olundu.

A.Şopenhauer özünün fəlsəfi dünyagörüşünə görə dünyanı kor iradə və ideya kimi təsvir edirdi. O, göstərirdi ki, insan illüziyalardan xilas olaraq gələcəyi yarada bilir. Onun fəlsəfi ideyaları E.Hegelin fəlsəfi dünyagörüşünü qəbul etmirdi və onun tam əksi idi. Şopenhauerin "Dünya iradə və ideya kimi" adlı məşhur əsəri Platonun "ideyalar aləmi"nə və İ.Kantın "Özündə şeylər" ideyasına yaxın olmuşdur.

A.Şopenhauer fəlsəfəsinin müəyyən hissəsi subyektiv idealizm mahiyyətində idi. Onun üçün subyektsiz obyekt yoxdur. Filosofa görə dünya dərkedənin təsəvvürüdür, dərkedən isə dünyanın məhsuludur. O, belə bir fikir irəli sürür ki, həyatda mövcud olan və baş verən bütün hadisələr iradənin obyektivləşdirilməsinin nəticəsidir. Dünya təcəssümləşdirilmiş iradə, həyat isə uzun yuxu görmədir. Lakin A.Şopenhauer fəlsəfəsinə daha dəqiqliklə yanaşdıqda aydın olur ki, o özünün fəlsəfi dünyagörüşündə pessimist baxışlara xeyli yer vermiş və o, sanki hind dini-fəlsəfi baxışlarından pessimist şüarı qəbul etmişdir.

**F.Nitşe (1844-1900)** alman pastoru ailəsində anadan olmuşdur. O, klassik filologiyanı yaxından öyrənmiş və 24 yaşında Bazel universitetində professor yerini tutmuşdur. Tədqiqatların gedişindən aydın olur ki, F.Nitşe A.Şopenhauerin pessimist fəlsəfəsinin təsiri altına düşmüş və iradə haqqında həyatın müəyyənliyi kimi təsəvvürü qəbul etmişdir. O, özündən

sonra bir neçə çap olunmuş əlyazmalar və qeydlər qoyub getmişdir. Onun ən əsas əsərləri bunlardır**: "Faciənin musiqinin ruhundan doğulması", "İnsani, həddindən artıq insani", "Səhər şəfəqi: əxlaqi gümanlar barədə fikirlər", "Şən elmi", "Zərdüşt belə deyirdi", "Xeyrin və şərin o tayında", "Hakimiyyətə can atan iradə".**

Ötən əsrin sonunda F.Nitşe öz dəhşətli bir vəhyini çap etdirdi: "...yeni hadisələrin ən böyüyü o oldu ki, **"Tanrı öldü"** və xristian tanrısına inam etibara layiq olmayan nəyəsə çevrildi və o, artıq Avropaya öz ilk kölgəsini salmağa başlayır!!! Onun əsərlərində xristian mənəvi dəyərlərinə yenidən qiymət verilməsi ön plana çəkilmişdir. Ona görə xristianlıq iradəsi məhvə doğru gedən iradədədir", xəstəlikdir və nəticədə tənəzzüldür. Bir də qeyd edir ki, xristianlıq qul şüuru yaradır və bəşəriyyətin nəslininin kəsilməsinə xidmət edir. Bütün bu mülahizələrədən sonra F.Nitşe öz fəlsəfəsini" **"həyatın müdafiə instinkti"** deyə adlandırmışdır. O, öz fəlsəfəsində belə fikri bildirir ki, insan heç bir avtoritetdən asılı olmamalıdır. Həmin əsərinin **"Azad ölüm haqqında"** olan fəslində qeyd edir ki, azad ölüm və azad həyat hər bir adama qismət olmur, bu hadisə ancaq fövqəl insana xas ola bilər. Onun fikrincə bəşəriyyət öz yolu ilə gedən saysız insan kütləsindən biridir. Bu kütlənin, bu yürüşün heç bir planı və məqsədi yoxdur. Nitşenin pessimist baxışlarında ifadə olunur ki, xalqın həyatında heç bir tərəqqi olmur, nəticədə hər bir kəsi acı və kədərli bir sonluq gözləyir. Bunun əksi olaraq dünya fəlsəfi irsində qeyd olunur ki, **"İnsan öz əzəli instiktlərinə qayıtmalı, xeyir və şərin nə olduğunu bilməyən güclü, təbii, azad fərdlərə çevrilməlidir. Əks təqdirdə bəşəriyyəti ümumi bir cırlaşma və qum zərrəcikləri kimi bir-birilərinin eyni olmaq kimi kədərli, bəhrəsiz, cılız bir sonluq gözləyir".**

### 3. Z.Freydin psixi-fəlsəfi təlimi

**Z.Freyd** 1856-cı ildə Freyburqda anadan olmuşdur. O, Vyanada təbabəti öyrənmişdir. Lakin o, bir yəhudi olmaqla vətəni

tərk etməyə məcbur olmuşdur və Londona gəlmişdir. Onun ən məşhur əsərlərinin adlarını qeyd etmək olar**. “Yuxugörmələrin şərhi”, “Psixoanalizə giriş üzrə mühazirələr”, “Həzz prinsiplərinin sərhədləri kənarında”, “Bir illüziyanın gələcəyi”, “Musa və monoteizm”.**

Z.Freyd psixoanalizin banisidir. O, insan haqqında mövcud olan təsəvvürləri altını üstünə çevirməklə Dekartın, Kantın, Lokkun fikirlərini əsas götürməklə qeyd edir ki, təbiət insana iradə azadlığı vermişdir. Azad seçim fərdin dərin mahiyyətdə olan şüurlu “Mən” ilə bağlıdır. Z.Freydə görə şüurlu “Mən” qüdrətli şüursuz mentallıq həyatın zirvəsi hesab olunur. Z.Freyd özünün **“Moisey və monteizm”** əsərində dinə qarşı çıxaraq iki əsas qüvvənin həyat və ölümün əbədi mübarizəsinin psixoloji əsaslarını şərh edir.

Z.Freydə görə fəlsəfənin çətinliklərindən biri odur ki, təhtəlşüur problemi fəlsəfənin predmetində olmamışdır. Tədqiqat problemi əsasən əql, şüur və idrakla bağlı olmuşdur. Düzdür Z.Freydə görə şüurun öyrənilməsi çox vacibdir. Əslində şüur ancaq insanın oriyentasiyasını müəyyənləşdirir. Z.Freydə görə şüur təhtəlşüurdan fərqlidir. Belə bənzətmək olar ki, qaranlıq otaqda işıq yandırılır və oradakı predmetlər ayrı cür görünür. Təhtəlşüur hipotetik vəziyyətdə, davranışda, yuxugörmədə təzahür olunur. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, psixoanaliz insanın yeni anlamını təklif edir. Məsələn, qeyri-adekvat reaksiyalarımız, zarafatlarımız və ya nevrotik vəziyyətdə şüursuz motivlər gözlənilir. Z.Freyd qeyd edir ki, seksual arzular (həyəcanlı və ya gizli) simptomlar və yuxugörümlər kimi mənasız görünən hadisələr digər fərqli hadisələrə çevrilə bilər. Z.Freyd belə güman edir ki, hadisələrin digər fərqli hadisələrə çevrilərkən emosional yaşantılar zamanı sanki yaddaşın yolu bağlanılır. 1920-ci illərədən sonra Freyd psixoanalizdə elə bil ki, topoqrafik modelləri yeniləşdirdi, psixi instansiyaları yaradan **“id”, “eqo” və “super eqo”** terminlərini yaratdı. Bu zaman o, bəzi psixoanalitiklərin (Jak Lakanın, Jacques Lacan) həm də elm fəlsəfəsinin bəzi nümayəndələrinin etirazı ilə qarşılaşdı. Freyd yeni psixi

instansiya olan **"idi"** qaynamaqda olan həyəcanlı çaydanla müqayisə edir. İnsanda instinktlər yalnız tələbatları ödəyən bir vasitədir və bu həzz prinsipinə mütləq mənada tabe olurlar.

Psixoanaliz nəzəriyyəsinə görə belə güman edilir ki, psixikada və "id"də baş verən proseslər zamanı daxili və xarici dünyanın əlaqələndirilməsi müəyyən bir mental sahəyə aiddir və bunu Freyd **"eqo"** adlandırır. "Eqo" bir növ tələbatın təhlükəsiz ödənilməsi yoludur."Eqo" həm də bir növ instinktlərin tələblərini təxirə salır və reallıq prinsiplərinə tabe olur. "Eqo"nun növbəti qabiliyyəti digər qabiliyyətinə nisbətən daha sonrakı mərhələ mövcuddur ki, bu **"super eqo"** normalarıdır. "Super eqo" normaların və ideallların dərk olunması və mənimsənilməsi nəticələridir. "Super eqo" demək olar ki, həmişə "eqo"nu müşahidə edir, bəzi hallarda onunla razılaşmır. Freydə görə "super eqo"- psixi prosesdə üçüncü qüvvədir.

Z.Freyd son əsərlərində həyat instinkti ilə (Eros) ölüm instinkti (Tanatos) arasındakı fərqi də şərh etməyə çalışmışdır. O, qeyd edir ki, iki əsas instinkt ideyası artıq yunan fəlsəfəsində də məlum idi. (Empedokl ilə müqayisədə) Z.Freyd müharibə və təcavüz ideyasını da izah etməyə çalışmışdır.

Z.Freyd belə başa düşürdü ki, mədəniyyət insanı həmişə müdafiə etmiş və aqressiya meylli şəxslər arasındakı münasibətlərini tənzimləyə bilir.

## 4. Pozitivizm və praqmatizm

Qərb fəlsəfəsində formalaşan bu cərəyanlar birdən birə deyil, Avropanın ictimai, siyasi və iqtisadi həyatında baş verən əhəmiyyətli dəyişikliklərin nəticəsi olaraq meydana gəlmişdir. Əlbəttə yaranan bu müxtəlif cərəyanlar fəlsəfənin əvvəlki dövrlərdə formalaşan müxtəlif ənənələri, klassik fəlsəfənin dövrü üçün səciyyəvi olan materializmə və idealizmə bölünməsindən əmələ gəlmişdir. XIX əsrin 30-40-cı illərində Fransada **Oqyust Kant (1798-1857)** tərəfindən yaradımış **"Pozitivizm"** adlı cərəyan (latınca pozitivus - müsbət) elmi biliklərlə bağlı

problemlərin müzakirəsini verir. Ona görə də bu cərəyanın tərəfdarları təbiətşünaslıq elminin nümayəndələri olmuşdur. Lakin İ.Kant fəlsəfəsinin elmlərlə müqayisəli təhlilində ümumiyyətlə fəlsəfənin predmetini inkar edir. Bu cərəyanın tərəfdarları sübut etməyə çalışırlar ki, dünya varlıq, hadisələr, fenomenlər toplusudur və buna görə də onu dərk etmək üçün hiss orqanları olan duyğular, qavrayışlar kifayətdir. Başqa sözlə desək dünya hiss orqanları vasitəsilə bəlli olur və bunları dərk etmək üçün elm kifayətdir. Ona görə də bu cərəyanda fəlsəfi reallığı öyrənən elm kimi qəbul edilmir. Lakin neopozitivizmə görə fəlsəfə təbii və süni dillərin məntiqi təhlili ilə bağlı olan xüsusi fəaliyyət sahəsidir. Neopozitivizm 1920-ci ildə Vyanada meydana gəlmiş və onun banisi **Morris Şlik** olmuşdur. O, **"Ümumi idrak nəzəriyyəsi"** adlı kitabı ilə neopozitivizmə daha geniş yol aça bilmişdir. L.Vitgenşteyn iddia edirdi: **"Dünya faktların məcmusudur" və qeyd etmək olar ki, dünya dilin universiumudur, fəlsəfənin funksiyası isə insanın dil aləmindəki fəaliyyətini aydınlaşdırmaqdan ibarətdir. Ümumiyyətlə sözlərin, işarələrin cümlələrin mənası, məntiq, linqvistik və psixoloji problemlər analizin predmetinə aid edildi. L.Vitgenşteyn** 1922-ci ildə **"Məntiqi-fəlsəfi traktat"** adlı əsəri neopozitivizmin fundamental prinsiplərini müəyyən etdi. Buna əsasən xüsusi bir hərəkat formalaşdı ki, bunun adı **"Vyana dərnəyi"** oldu. **M.Şlik, F.Frank, R.Rayxenbax, R.Karnar, A.Par** və başqaları bu dərnəyin tərəfdarları oldu. Bu dərnəkdə belə bir fundamental prinsip qəbul olundu. Bu prinsipə əsasən fəlsəfə elm deyil, məna axtarışıdır, bir sözlə cümlələri, sözlərti analiz etməlidir. Lakin 1930-cu illərdən sonra neopozitivizmin antifəlsəfi mövqeyi ciddi tənqid olundu və fəlsəfənin dünyagörüşlü bir elm olduğu sübut olundu və bununla da neopozitivizm cərəyanının baxışları iflasa uğradı. L.Vitgenşteynin yeni təlimi-linqvistik analiz təlimi öz yerini tapdı. Nəhayət Neopozitivizm parçalandı və öz yerini linqvistik fəlsəfəyə verdi.

**Pozitivizmin** daha bir tarixi forması **maxizm və empriokritisizm (təcrübənin tənqidi)** idi və bunun baniləri fizik

**E.Max (1836-1916) və R.Avenariusdur (1843-1916).** Bu cərəyanın nümayəndələri fəlsəfənin artıq idrak nəzəriyyəsinə müraciət etmiş oldular, elmlər hipotez və istənilən biliklər özlüyündə fəlsəfi biliklər sistemi kimi qəbul edilir.

Fəlsəfədə digər cərəyanlardan biri olan **praqmatizm** (yunanca praqma-iş, fəaliyyət, hərəkət deməkdir) XIX əsrin 70-ci illərində ABŞ-da meydana gəlmiş, sonralar Avropanın bir sıra ölkələrində xüsusilə İngiltərədə geniş yayılmağa başladı. Əsas nümayəndələrdən **V.Ceyms (1842-1910), Ç.S.Pirs (1839-1914), C.Dui (1859-1952), F,Şiller (1864-1937)** və başqalarının adlarını qeyd etmək olar. Praqmatizmin əsas devizi **"mövcud olmaq - fayda vermək"** müddəasıdır. Burada insan fəaliyyətinə geniş yer verilir, fəlsəfə real həyatla əlaqələndirilir, gerçəkliyin insanların istək və tələbatına görə qavranılması şüarı kimi başa düşülür. Bu cərəyanın dünyagörüşünə əsasən qeyd etmək olar ki, biliyin intellektual fəallığı, fəlsəfi təfəkkürdə qarşıya çıxan çətinlikləri aradan qaldırmağa xidmət edir. Məlumdur ki, hər bir nəzəriyyənin funksional mahiyyəti vardır. Bu cərəyanın tərəfdarları göstərir ki, nəzəriyyənin təyinatı təcrübəyə əsaslanmışdır, əgər nəzəriyyə mükəmməl olarsa, deməli o həqiqətdir. **V.Ceyms** qeyd edirdi ki, nəyinsə həqiqiliyini təsdiq etmək yeganə əsas onun təsirliyidir.

Gözənilməz bir şey meydanda təhlükə və ya problemlər yarada bilər. Ona görə də daimi fəaliyyət göstərmək üçün davranışı tənzimləyən səmərəli vasitənin olması zəruridir. Belə vasitə ancaq və ancaq intellektdir.

**C.Düiyə** görə idrakın funksiyaları bütün obyektlərlə daha səmərəli və faydalı münasibətlərin yaradılmasıdır. Bu nəzəriyyədə fəlsəfi aspektdən təcrübə anlayışı xüsusi şərh edilərək qeyd olunur ki, həyatımızda saxlamaq istədiyimiz hər bir şey real aləmdir. Amerikanın görkəmli məntiqçisi **Çarlz Pirs 1904-cü ildə çap etdirdiyi "Praqmatizm nədir?"** əsəridir. Onun ideyaları sonralar **Uilyam Ceyms** tərəfindən davam etdirilmişdir. Qeyd olunur ki, bilik əvəzinə qeyri-şüur irrasional otaqda sahib olmağı, hər şeydən əvvəl məntiqi təfəkkürü rədd edən dini etiqad

sahibi olmağı təklif edir. Cərəyanın bəzi tərəfdaşları praqmatistləri **"instrumental məntiq"**dən və ya **"eksperimental məntiq"**dən istifadə etməyi məsləhət görürdülər. Bu məntiqi metodlar əslində yaranmış vəziyyətdə sınama səhvləri kənarlaşdırıb sərfəli hərəkət etməyi məsləhət görürdü. Praqmatiklərə görə təfəkkür heç də insana bilik vermir, onu yalnız çətin vəziyyətdən xilas edir. Onlar dinin müddəalarını çox əsaslı və düzgün hesab edirdilər. Praqmatistlər fayda prinsipini təkcə idraka deyil, həmçinin mənəvi və əməli fəaliyyətə müyəssər etmişlər.

## 5. Ekzistensializm və hermenevtika

Ekzistensializm - **"ekzisto"** sözündən olub mövcudluq və varlıq kimi başa düşülür. Bu təlim Qərbdə **"gələcəyin fəlsəfəsi"** adını almış və çox böyük nüfuza malik olmuşdur. Bəzən bu fəlsəfə hətta mövcudluq və varlıq kimi başa düşülsə də insan fəlsəfəsi kimi qəbul edilmişdir. Çünki ekzistensizlistlər özlərini bütünlükdə insan varlığını – bəşərivarlığa aid etmişlər. Ekzistensialistlər klassik fəlsəfənin bu tərəfliyini aradan qaldırmağa çalışmışlar və fəlsəfəni əsasən varlığı dərk etməyə çağırmışdır.

Bundan başqa qeyd etmək istəyirəm ki, bütün fəlsəfi cərəyanlar və sistemlər **rasionalizmə və irrasionalizmə** bölünmüşdür. **İrrasionalizm** (latınca irrasionalis - düşüncəsiz, şüursuz) yəni zəkanın, idrakın məhdudluğu kimi başa düşülür. **Rasionalizm** isə bunun əksi olaraq başa düşülür. İrrasionalist düşüncəli fəlsəfə bu dövrdə də xeyli yayılmışdır. Burada insanın yaradıcı gücünə inamsızlıq, tarixi və sosial pessimizm əsas rol oynayırdı. Müasir Qərb fəlsəfəsində irrasionalizmin bərqərar olması özündə həyat fəlsəfəsi, ekzistensializm və hermenevtika kimi qolların yaranmasına səbəb oldu.

Ekzistensialistlərdən mistik dünyagörüşə malik olan **S.Kyerkeqoru (1813-1855**) qeyd edə bilərik. O, həmişə subyektin varlığını ön plana çəkmiş və onu fəlsəfənin predmeti hesab edirdi. Ancaq 20-ci illərdən sonra **M.Haydegger** özünün **"Varlıq və zaman"** əsərində obyektiv idrak metodu yalnız xarici aləmi

öyrənmək üçün zəruridir. İnsan xüsusi varlıq olduğu üçün onu öyrənmək səmərəli ola bilməz. Həm də bu cərəyana görə real həyatda insan xarici aləmlə təmasda olduğu üçün ünsiyyət prosesində əriyib gedir.

Deməli bu dünyagörüşdə **“şəxssizlik”** özünü göstərir. Belə mövcudluq əsl mövcudluq hesab oluna bilməz. **Ekztensialistlər** belə nəticəyə gəlirdilər ki, insan öz şəxsi mövcudluğunda. Öz həyat yolunu seçməkdə başqa insanlardan kömək gözləyə bilməz. Belə halda insan öz vicdanı ilə hərəkət etməlidir. Belə bir fəlsəfi ideologiyaya **K.Gaspers, jan Pol Sartz, A.Kamyu, N.Berdyayev, L.Şestov** və başqaları da qoşuldu.

**İ.P.Sartr** subyektiv düşüncələrimizin obyektiv əsaslı olduğunu irəli sürmüşdür. Qorxu, həyəcan bunlar hamısı obyektiv əsasa malikdir. O, şüuru substansional varlıq kimi qəbul etməmiş, ancaq hansısa real bir şeyin və ya prosesin şüurudur. Ekzistensialistlərin bəzi nümayəndələrində də pessimizmlik mövcuddur. Məsələn, onlar qeyd edirdi ki, insanın yaşaması özü üçün ən əsas faktdır, insan öz həyatını daim ölüm qarşısında daha doğrusu qorxu şəraitində keçirir. İnsan başqa adamlarla yaşasa belə, bu adamlar özlərini yalqız hesab edirlər. **K.Gaspers** II dünya müharibəsindən sonra yazdığı **“Günah haqqında məsələ”** əsərində almanları günahlandırır. Burada günahlar təsnifata bölünür: cəmiyyətə görə günah, siyasi günah, əxlaqi günah və s. Burada xəbərdarlıq edilir ki, günah hər yerdə, hər xalqda ola bilər.

Ümumiyyətlə, ekzistensializmin həm müsbət, həm də mənfi tərəfi var idi. Onların fikrincə, mövcudluq insanın özüdür, onun dünyaya gəlişidir. O, nə xeyirxah, nə də bədxahdır. Bir sözlə insan mövcud hakim sərvətdir. İnsanda “Mən”in tənzimlənməsi ona özünü ekzistensiya kimi anlamaq imkanı verir. **Gaspers yazırdı: “Reallıq nə obyektdir, nə də subyekt, lakin hər ikisini özündə birləşdirir”. “Dini ekzistensialistlər üçün “Allah reallığın mənbəyidir”, ateist ekzistensialistlər üçün isə reallıq insanın hərəkət rəftarıdır ki, bu da dildə özünü ifadə edir. Ona görə də “dil-varlığın evidir” (Haydegger).**

Ekzistensializmin və digər fəlsəfi cərəyanların müəyyən tərəfi sintez edilməsi əsasında yeni fəlsəfi istiqamət formalaşdı ki, bu **hermenevtika (izah etmək, şərh etmək)** adlanırdı. İlk dəfə o fəlsəfi nəzəriyyə kimi **F.Şleyermaxer (1768-1834)** və **V.Diltey (1833-1911)** tərəfindən əsaslandırılmışdır. İdraki metod baxımından humanitar biliklər əsas götürülür. Təbiət elmlərinin idraki metodu **rasional-deduktiv** anlamdır. Ruh haqqında elmlərdən isə fərqli olaraq anlama olmalıdır. O, insanın subyektiv qiymətlərindən, ehtiras və emosiya ilə bağlı təsəvvürlərdən ayrılmazdır. Buna görə də **Diltey** hermenevtikanı **"anlayan psixologiya"** adlandırırdı. **M.Haydegger** anlamanın iki formasını müəyyənləşdirmişdir. **Birincisi -** anlama varlığın şərhini əsas tutur. **İkincisi -** anlama keçmiş obyektlərin hermenevtik şərhini ifadə edir. Lakin Haydeggerin fəlsəfəsi **Q.Qadamer** hermenevtikanı gerçəkliyin və varlığın tədqiqat metodu kimi qiymətləndirilirdi. Onun fikrincə gerçəkliyə mətnlər aləmi aspektindən yanaşıldıqda onu şərh etmək, anlamaq lazımdır. Buraya həmçinin insan hərəkətlərini ifadə edən dil və söz lazımdır. Mütəfəkkirlər göstərir ki, insan dil sferasında yaşayır. Dilin hüdudları varlığın hüdudlarına uyğun gəlir. Bir sözlə hər cür anlama dil probleminə aid edilir.

Hermenevtikanın digər nümayəndələrindən olan **P.Rikyorun və A.Lorensin** hermenevtikanı psixoanaliz ilə sintez etməyə çalışmışlar. Burada mədəniyyət anlayışını yuxularda və simvollarda xarakterizə etmişdir. Deməli, aydın olur ki, hermenevtika freydizim ideyaları ilə sintez olunur. **Y.Xabermas** öz psixoanalitik tədqiqatlarında hermenevtikanın mətnləri izah etməkdən başlayaraq bütün ətraf dünyanı şərh etmək vasitəsi kimi qəbul edilir.

## 6. Müasir dini fəlsəfi cərəyanlar

Müasir dini fəlsəfi cərəyanların izahı fəlsəfi təfəkkürdə dini modellərin izahı ilə başlanılır. Katolik kilsəsinin fəlsəfi dünyagörüşü olan neoatomizmin provaslavlıq fəlsəfəsinin, islam

fəlsəfəsinin, buddizm fəlsəfəsinin adlarını qeyd etmək olar. Neotomizm dini fəlsəfi cərəyanın nümayəndələrindən **Jak Mariten (1882-1973) Etyen Anri Vilson (1884-1978) Yusef Mariya Bohenski (1902)** və həmçinin İslam fəlsəfəsi ilə məşğul olan **Cəmaləddin Əfqani (1839-1909)** və **Məhəmməd İqbalın (1877-1938)** adını çəkə bilərik.

Müasir dini fəlsəfi cərəyanlardan olan **neotomizm** özünə məxsus xarakterik şərhə etiyacı olandır. Burada XIII əsrdə yaşamış **Akvinali Fomanın (latınca Tomas)** sxolastik dini təliminin dirçəldilməsidir. Burada bir-birinə əks olan inam və zəkanı dini və elmi bütöv bir harmonik sistemdə birləşdirmək cəhdi idi. Neotomizm fəlsəfənin bütün tarixi mərhələlərini yanılmalar sistemi kimi qəbul edərək ekzistensialistlərdə olduğu kimi dünyanın nikbin konsepsiyasını yaratmaq iddiasıdır.

Neotomizm idealizminin **"fəlsəfə dinin kənizidir"** adlı bir müddəası mövcuddur. Neotomizmin varlıq haqqında təlimi ruhi başlanğıcın **"xalis varlığı"** kimi ehtiva olunurdu.

Digər cərəyanlardan olan **personalizm (latınca-şəxsiyyət)** teistik mahiyyətdədir. Şəxsiyyət ilkin yaradıcı və ali mənəvi varlıq hesab olunur. Şəxsiyyətin fəaliyyət göstərdiyi dünya Ali şəxsiyyət hesab olunur. Personalizm Rusiyada və ABŞ-da formalaşmağa başladı. Cərəyanın banilərindən **N.A.Berdyayevin, L.Şestovun, N.O.Loşskinin, S.N.Bulqakovun, A.Belinin** və başqalarının yaradıcılığında təsvir edilmişdir. Bu cərəyanın inkişafı daha da genişlənərək Fransada daha da yeni inkişaf mərhələsi yaratdı.

Personalizmdə ənənəvi fəlsəfənin müəyyən təzahürlərinə antropoloji mövqedən yanaşılır. Bu yanaşmada **Emmanuel Munyeder** idealizmdə **monoteizm** prinsipini əsas şərt kimi qəbul etdi. Ontoloji planda şəxsiyyət hərtərəfli kateqoriya hesab olunur. Şəxsiyyət mənbəyi özündə deyil, Allahdadır. Bu təlimin xüsusiyyətlərindən biri də iradə azadlığı haqqında ideyanının əsaslandırılmasıdır.

**Fenomenologiya** dünya fəlsəfəsində aparıcı təlimlərdən biri olaraq rasional metodologiyası ilə fəlsəfi təlimləri ilə

ekzistensializmin formalaşmasına xeyli kömək etdi. Bu cərəyanın banisi **Edmund Hüsserldir (1859-1938)** Bu təlimin coğrafiyası çox genişdir, Almaniyada yarandı və ABŞ, Yaponiya İngiltərə kimi ölkələrə yayıldı, nəticədə xeyli cəmiyyətlərin formalaşmasına təkan verdi. Bu istiqamətdə Edmundun **"Məntiqi tədqiqatlar", "Xalis fenomenologiya ideyası", "Təcrübə və mühakimə", "Paris məruzələri", "Dekartın fəlsəfəsinə dair mülahizələr"** kimi tədqiqat xarakterli əsərləri mövcud idi.

**Hüsserlinin** baxışlarına görə elm və texnika təbiət üzərində daim ağalıq etmiş, təbiət sanki bir anbara çevrilmişdir. Hüsserlin bu ziddiyyəti fəlakət kimi qəbul etmirdi. Bu böhrandan çıxmağın səbəbi təbii elmi yanaşmalardan və tədqiqə aid olmayan rasionalizmdən əl çəkmək lazımdır. Lakin o əvəzində təklif edirdi ki, **"elmə qədərki"** rasionalizmə qayıtmaq daha məqsədə uyğun hesab oluna bilər. Daha doğrusu dünya hiss etdiklərimizdən ibarətdir. Dünya isə şüurun fenomenidir.

XX əsrin Qərb fəlsəfəsinə münasibətdə qeyd etmək olar ki, marksist yanaşmanı özündə doğrultmaması və fəlsəfi nəzəriyyələrdə varlıq, insan və onun həyatının mənası, azadlığa dair məsuliyyətli problemlərə dair maraqlı məsələlər fəlsəfi təfəkkür baxımından mühüm əhəmiyyət kəsb etmişdir. XX əsr fəlsəfi fikrinin inkişafında plüralizmin və çoxsaylı mənbələrin, cərəyanların mövcudluğu fərqli fəlsəfi konsepsiyaların yaradılmasına səbəb oldu. Eyni zamanda elm tərəfindən fəlsəfənin öyrənmə dairəsində olan problemlərin aradan qaldırılması həyata keçirildi.

## 7. Müasir dövrdə dinin siyasiləşdirilməsi faktorları

Din ictimai şüurun xüsusi forması kimi bəşər tarixi boyu insanların mənəvi-etik baxışlarının formalaşmasında böyük rol oynamışdır. Hələ üst paleolit dövründə insani davranışların modernləşməsinə təkan vermiş, adət və mərasimlərin meydana gəlməsinə səbəb olmuşdur. İbtidai dinlərdə yaranmış emosional təsir vasitələri tayfanın, icmanın idarə olunmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Ruhlara sitayiş insanların məskunlaş-

masına, onların sosial varlığa çevrilməsinə əhəmiyyətli dərəcədə təsir göstərə bilmişdir. Məsələn, qədim türk tayfaları Ata və Ana ruhunun yerləşdiyi yeri yadlardan qoruyub saxlamış, onların əhatə dairəsində yaşamağa çalışmışlar. Beləliklə də animistik anlayışlar bütün zamanlarda insanların varlıq haqqında düşüncələrinə öz təsirini göstərmişdir.

Bir çox dini etiqadlar, fövqəltəbii varlıqların mövcudluğuna inam yaratmış, nəsihətlər və pərəstiş qaydaları formalaşdırmışdır. Dini şüur nəticəsində ibadətlər, ayinlər, mərasimlər qanunlaşdırılmış bir sistem şəklinə salınmışdır. Təsəvvürlər, hisslər, emosiyalar bu sistemin daima qorunub saxlanılmasına və inkişaf etdirilməsinə xidmət göstərmişdir. Lakin mahiyyətcə çox mürəkkəb təbiətə malik olan dindən siyasi məqsədlər üçün də geniş istifadə olunmuşdur. Elə bunun da nəticəsində ayrı-ayrı dinlərdə çoxlu cərəyanlar, təriqətlər və məzhəblər meydana gəlmişdir. Məsələn, iudaizmdə 71, xristianlıqda 72, islam dinində isə 73 təriqət vardır. Bu təriqətlərin çoxu müxalif mövqe zəminində yarandıqlarına görə bidət təriqətlər adlandırılmışdır. Etiraf etmək lazımdır ki, din mənəvi mədəniyyətin tərkib hissəsi kimi böyük əhəmiyyət kəsb etsə də uzun əsrlər boyu ondan cəhalət aləti kimi də istifadə etmişlər. Müasir dövrdə də dindən siyasi vasitələr kimi istifadə etməklə milli, etnik qarşıdurmalar üçün zəmin yaradırlar, müxtəlif təriqətləri məqsədli şəkildə terror fəaliyyətinə istiqamətləndirməyə çalışırlar. Təəssüflər olsun ki, demokratiya pərdəsi altında dini hissləri qızışdırıb insanları bir-birinə qarşı düşmən edən və qırğınlar törədən qüvvələr də vardır.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra dinindən, milliyətindən, irqindən asılı olmayaraq bütün vətəndaşlara dini etiqad azadlığı verilmişdir. Dini bayramların təntənəli şəkildə qeyd olunmasına dövlət və onun prezidenti səviyyəsində xüsusi qayğı göstərilir. Ölkə prezidenti dini bayramlarda da bütün Azərbaycan xalqını təbrik edir. Hətta həmin bayramlar ərəfəsində məhkum edilmiş bir sıra şəxslərin azad edilməsi haqqında əfv fərmanları imzalayır.

Dövlətin xüsusi qayğısı ilə məscidlər, kilsələr, sinaqoqlar

və başqa dini abidələr təmir edilir və onlarada bərpa işləri aparılır. Bu qayğının bariz nümunəsi kimi prezident İlham Əliyevin çıxışlarındakı bir fraqmentə diqqət yetirmək kifayət edir. Cənab İlham Əliyev Ramazan bayramı münasibətilə etdiyi çıxışların birində demişdir: “Azərbaycanda bütün dinlərə mənsub olan abidələr bərpa olunur, məbədlər tikilir.”

Bildiyimiz kimi dövlətin köməyi ilə Bibiheybət məscidi əsaslı şəkildə bərpa edilmiş, Qafqaz müsəlmanları idarəsinin yeni inzibati binası tikilmiş, Əjdər bəy və qədim Şamaxı məscidi əsaslı şəkildə təmir olunmuş, xristian kilsələrində təmir-bərpa işləri aparılmışdır.

Bütün bunlarla yanaşı Azərbaycan dövlətinin inkişafına mane olmağa, ona qarşı dini-siyasi təxribatlar törətməyə çalışan qüvvələr də var. Bu qüvvələr əsasən Azərbaycana düşmən olan xarici dövlətlərin kəşfiyyat orqanları tərəfindən maliyyələşdirilir. Belə ki, xarici kəşfiyyat orqanları əsasən dini sektaların fəaliyyətindən istifadə edərək ölkəmiz ərazisində müəyyən təxribatlar törətməyə can atırlar. Məsələn, Azərbaycana düşmən olan Ermənistanın kəşfiyyat orqanları nəinki xristian dini icmalarından, eyni zamanda qeyri-leqal fəaliyyət göstərən müsəlman dini təşkilatlarından da istifadə etməyə çalışmışlar. Bu təşkilatlardan İran İslam Respublikasında qeyri-leqal fəaliyyət göstərən “Sufiyan”, “Möminə”, “Birlik və dirilik” kimi dini cəmiyyətlərin adlarını çəkmək olar. Təəssüflər olsun ki, həm dininə, həm də etnik-milli xüsusiyyətlərinə görə bizə çox yaxın olan İran kimi qardaş ölkədə adları göstərilən təşkilatlar erməni kəşfiyyatının təsiri altına düşərək Azərbaycana qarşı təxribat işləri aparmışlar. Livan mənşəli Zore Azkaveryan bu təşkilatların rəhbərlərini ələ alaraq onları öz təsiri altına sala bilmişdir. Həmin təşkilatlar İrandakı “Sərkis” kilsəsi vasitəsilə uzun illər Ermənistandakı “Güclü xaç” cəmiyyətinin sifarişlərini yerinə yetirmişlər.

Qeyd etmək lazımdır ki, vaxtilə Azərbaycanda qarşıdurmalar yaratmaq üçün “Güclü xaç” cəmiyyətinin vasitəsilə ölkəmizin ərazisinə 4000 nüsxə təxribat xarakterli vərəqlər ötürülmüşdür. Bu işi həyata keçirərkən Ermənistan Demokratik Parti-

yasının lideri olmuş Aram Sarkisyan xüsusi fəallıq göstərmişdir. "Sərkis" kilsəsinin ideoloqlarından biri olan Ordak Mallukyan İrandakı bəzi fars şovinistlərini azərbaycanlılara qarşı qoya bilmişdir.

Son dövrlərdə bir sıra hegomon dövlətlər öz maraqlarına uyğun olaraq ayrı-ayrı regionlarda münaqişə ocaqları yaratmaq üçün İslamın Vahabizm təriqətindən də geniş istifadə etməyə çalışırlar.

Bildiyimiz kimi Vahabizmin əsası hələ 1740-cı ildə Bəsrə şəhərində qoyulmuşdur. Həmin dövrdə Böyük Britaniyanın xüsusi olaraq təlimatlandırılmış xəfıyyəsi Hemfer Bəsrə bazarında Məhəmməd İbn Əbdülvahabla görüşmüşdür. Məhəmməd İbn Əbdülvahab Bəsrə bazarında ticarətlə məşğul olurdu. O, hər gün bazara gələrkən İslamda bütpərəstliliyə meyl yaranmasından gileylənir, qəbirlərə, müqəddəs yerlərə sitayişi Allahın iradəsinə qarşı çıxmaq kimi qiymətləndirirdi. Həmin dövrdə Böyük Britaniya Osmanlı imperiyasını dağıtmaq üçün bu bölgədə münaqişə ocağı yaratmağa çalışırdı. İngilis casusu Hemfer Böyük Britaniyanın Türk Sultanlığını dağıtmaq maraqlarına uyğun olaraq İbn Səidin rəhbərliyi altında bir separatçı dövlətin yaranmasına hərtərəfli kömək etdi. Məhəmməd İbn Əbdülvahaba isə həmin dövlətin dini hakimiyyəti tapşırıldı. Məhəmməd ibn Əbdülvahab öldükdən sonra isə bu təriqət "Vahabizm" adlandırıldı. Hal-hazırda Vahabizm Səudiyyə Ərəbistanın dövlət dinidir. Vahabizmi qəbul edən şəxs "Ceyşullah" adlandırıldı (allahın əsgəri). Ceyşullah Allahın iradəsinə qarşı çıxan hər şeyə cihad etməli idi.

Vahabizmdə mövcud olan bu radikallıq tarixin müxtəlif dövrlərində böyük dövlətlərin siyasi dairələrinin diqqətini özünə cəlb etdi. Məsələn, ABŞ SSRİ-ni zəiflətmək üçün vahabizm təriqətinə etiqad edən əfqan mücahidlərini hərbi texnika ilə silahlandırdı. Əslən Səudiyyə Ərəbistanından olan Ben Laden əfqan mücahidlərinə rəhbər təyin olundu. Onun adına ABŞ banklarında xüsusi hesab açıldı. 2001-ci il sentyabr ayının 11-də ABŞ-ın Beynəlxalq ticarət mərkəzində törədilən terror hadisəsini

Ben Ladenin adı ilə bağladılar. Düz on il onun axtarıldığını söylədilər. Lakin İraqın keçmiş prezidenti Səddam Hüseyni 2 ay müddətində çox asanlıqla tapıb edam edən ABŞ guya Ben Ladenin yerini müəyyənləşdirib həbs edə bilmirdi. Yalnız 10 il keçdikdən sonra guya bombalanma zamanı öldürüldüyü qeyd edildi. Hal-hazırda da vahabizmdən istifadə edərək dünyanın bir sıra bölgələrində terror qorxusu yaratmaq ənənəsini davam etdirir. Çeçenistan, Əfqanıstan, Pakistan, İraq, Suriya, Livan, Yəmən ərazilərində radikal vahabizmdən geniş istifadə olunur. Azərbaycanda da hələ 1994-cü ildən bəri bir çox radikal fəaliyyətli etiqadların emissarları gələrək burada öz təşkilatlarını yaratmağa çalışmışlar. Məsələn, "İhvanəl-müslimin" və "Hizbi təhrif" təşkilatlarının ayrı-ayrı emissarları Bakıda 18 dəfə olmuşlar. Səudiyyə Ərəbistanın hərbi hava qüvvələrinin istefada olan generalı Əbdülvahab Nuri Azərbaycanın Şimal bölgəsində olmuş, o cümlədən bütün MDB ölkələrini gəzmiş, vahabizmin təbliği ilə bağlı bir çox əməli işlər görmüşdür.

Qeyd etmək lazımdır ki, İslam dinində 73 təriqət və hər təriqət daxilində çoxlu məzhəblər mövcuddur. Bunlar arasında vahabizm və onun ayrı-ayrı məzhəbləri daha radikaldır. Əl-Qaidəni isə beynəlxalq miqyasda vahabizmin terror təşkilatı obrazı kimi formalaşdırmağa çalışan qüvvələr təəssüflər olsun ki, bəzən İraqda, Əfqanıstanda, Pakistanda və s. yerlərdə baş verən terror hadisələrini Əl-Qaidənin üzərinə yıxırlar. Lakin, hamıya məlumdur ki, çox zaman böyük dövlətlərin kəşfiyyat orqanları İslam daxilindəki cərəyan və təriqətləri bir-birinə düşmən etmək üçün müxtəlif bölgələrdə partlayışlar və qırğınlar törədirlər. Elə Amerika Birləşmiş Ştatları artıq İraqda sünnilərlə şiələri bir-birinə qarşı qanlı düşmən edə bilmişdir. Buna görə də hər gün İraqda yüzlərlə günahsız insanlar məqsədli şəkildə törədilən terror aktlarının qurbanı olurlar.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda başlarına hicab bağlayan qız və gəlinlərin, hətta uşaqların da sayı gündən-günə artırdı. Bu prosesin kütləviləşməsi isə İranda dövlət dini olan Cəfəriyyə təriqətinin Azərbaycana yayılmış emissarları

vasitəsilə baş verir. Azərbaycan dünyəvi dövlət olsa da gizli emissarlar xüsusilə gənclərə təsir göstərərək burada Cəfəriyyə təriqətini daha geniş yayıb insanlarımızı dünyəvi düşünməkdən məhrum etməyə çalışırlar. Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi ilk dövrlərdə ölkəmizə gəlmiş gizli emissarlar vasitəsilə vətənimizin cənub bölgəsindən hər il yüzlərlə oğlan və qızlar Xoy, Tehran və başqa şəhərlərə aparılırdı, onlara dini təhsil verilirdi. Həmçinin onlara xarici dövlət maraqlarına uyğun olan ideologiya aşılanırdı. Lakin sonralar ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycan hökuməti dini təhsilə maraq göstərənlər üçün Bakı Dövlət Universitetində "İlahiyyat" fakültəsi və eyni zamanda Qafqaz Müsəlmanları İdarəsinin nəzdində İslam Universiteti yaradıldı. Məhz, bu yeniliklər ilahiyyat təhsilinə maraq göstərən gənclərin yad təsir altına düşməsinə qismən mane oldu. Ancaq Azərbaycanda etiqad azadlığının mövcudluğundan istifadə edən emissarlar öz ölkələrinin kəşfiyyat orqanlarının sifarişləri əsasında təhsil müəssisələrinə daha çox ayaq açır, müxtəlif vasitələrlə tələbə və şagirdləri öz təsirləri altına salmağa cəhdlər göstərirdi. Xüsusilə Ermənistanın kəşfiyyat orqanlarının təsiri altında olan bəzi xristian sektaları gənclərimizin hərbi xidmətdən yayınmaları üçün ölkəmizin müxtəlif bölgələrində təbliğat aparırdılar. Bu istiqamətdə "İyoqova şahidləri" sektası daha çox fəallıq göstərirdi. Azərbaycanın əsasən Şimal bölgəsində radikal vahabizmin təsiri altına düşənlərin də sayı artırdı.

Bütün bunları nəzərə alaraq dini etiqad azadlığından istifadə edib ölkəmizə qarşı təxribatlar törətmək istəyən qüvvələrin qarşısı vaxtında alınmalıdır. Ölkəmiz Ermənistanla müharibə şəraitindədir. Belə bir vəziyyətdə gənclərimizi hərtərəfli olaraq maarifləndirməli, onları dini-siyasi, ideoloji təxribatlardan qorumalıyıq.

Qeyd olunan fikirlər ateist baxışlar kimi qiymət- ləndirilməməlidir. Din ictimai şüurun xüsusi forması olaraq həmişə cəmiyyətdə etik münasibətləri tənzimləməyə və xeyirxahlığa xidmət etməlidir. Məlumdur ki, insanın qəlbində Allah xofu

olmadıqda o qəddarlaşır, mərhəmət hissini itirir, onda idraki pozuntular yaranır, cəhalətə qapanaraq cəmiyyətdə qara ləkəyə çevrilir. Cəhalət insanları əqli mühakimədən uzaqlaşdırır, hətta onları bir-birinə qarşı canavarlaşdırır. Bunu İŞİD-in nümunəsində aydın dərk etmək olar. Özlərini "Ceyşullah" adlandıran bu insanların əslində hansı dinə qulluq etdiklərini müəyyənləşdirmək mümkün deyildir.

## 8. Dini münasibətlərdə tarixlik və müasirlik

Din ictimai şüurun xüsusi forması olmasına baxmayaraq materialist - ateist düşüncədə onun bəşər tarixindəki əhəmiyyəti heçə endirilmişdir. Hətta tarixi təkamülün müəyyən reallıqlarına əhəmiyyət verməyən K. Marks özünün "Hegelin hüquq fəlsəfəsinin tənqidinə dair giriş" adlı məqaləsində dinin sinfi cəmiyyətin təsiri ilə yarandığını iddia etmişdir. Lakin onun dinə olan bu qeyri - obyektiv münasibəti türk alimi Helmi Ziya və başqaları tərəfindən tənqidlə qarşılanmışdır. Belə ki, bir çox alimlər, xüsusi ilə arxeoloqlar dini şüurun yaranmasının ilkin mərhələsini üst paleolit (qədim daş dövrü) dövrünə aid etmişlər.

Müxtəlif elmi tədqiqatlar nəticəsində dinin 40-50 min il bundan əvvəl arxaik dünyagörüşü kimi formalaşdığı sübuta yetirilmişdir. Eyni zamanda etimoloji tədqiqatlara əsaslanaraq demək olar ki, din istehsalın, ənənəvi mədəniyyətin aşağı inkişaf səviyəsi dövründə yaranmışdır.

Din yarandığı gündən fövqəltəbiiliyə inamın əsasını qoymaqla yanaşı fəlsəfi, psixoloji, etik, estetik münasibətlərin formalaşmasına təkan vermiş, cəmiyyətin inkişafında əxlaq və davranış normaları kimi xüsusi rol oynamışdır. Yanlış və ya qeyri yanlış olmasından asılı olmayaraq varlıq haqqında bir-birindən fərqli və zəngin olan təsəvvürlər mövcuddur. Bu təsəvvürlər uzun əsrlər boyu ibtidai cəmiyyətdə yaşayan insanların ictimai, ənənəvi münasibətlərini tənzimləmiş, yeni sosial, mədəni anlayışların təkamülünə öz təsirini göstərmişdir. Yenicə formalaşan arxaik dini baxışlar müxtəlif hadisə və prosesləri idrakın təhlilinə

çıxararaq, əqli nəticəyə gəlmək imkanı yaratmışdır. İdraki təhlil prosesində insan fizioloji varlıqdan ictimai varlığa çevrilmişdir. Dini anlayışlar isə insanın cismi və ruhi varlıq olduğunu önə çıxarmışdır. Bunun da nəticəsində dünyada hal-hazırda mövcud olan bütün dinlərin sütunu sayılan animizm meydana gəlmişdir. Animistik anlayışlarda insanın bir tam şəklində bədən və ruhdan ibarət olduğu qeyd olunmuşdur. Bu anlayış qədim daş dövründən üzü bəri insanın həm həyatla, həm də ruhi aləmlə bağlı olan münasibətlərini və davranışlarını formalaşdırmışdır.

Ruhi aləmin mövcudluğuna inam insanların bir sıra mənəvi və əməli fəaliyyətlərində təzahür etmiş, müxtəlif adət və ənənələr, mərasimlər yaratmışdır. Həmin adət və ənənələrin, mərasimlərin ruhi-psixoloji təsir zəminində insanların müxtəlif məzmunlu və istiqamətli münasibətlərini formalaşdırmışdır. Bu arxaik münasibətlər idrakın təkamülü nəticəsində ictimai münasibətlər səviyyəsinə yüksəlmişdir. Eyni zamanda animistik anlayış ictimai şüurun digər formalarına təsir etmiş, onların qarşılıqlı münasibətləri sistemində möhkəm yer tutmuş, ruhi anlama zəminində tənzimləməyə yardımçı olmuşdur. Beləliklə də din hələ animistik anlayışların qloballaşdığı dövrlərdən üzü bəri cəmiyyətin ideoloji-ictimai münasibətləri sistemində möhkəm yer tutmuş, insanların təcrübi həyat fəaliyyətlərində xüsusi rol oynamışdır. Məhz animistik anlayışlar zəminində dindən bəhrələnmə prosesi baş vermiş, bu praktiki fəaliyyətlər nəticəsində ayinlər, mərasimlər, ənənələr və s. mənəvi dəyərlər yaranmışdır.

Ruhların mövcudluğu anlamı insanın müəyyən ərazilərdə məskunlaşmasında xüsusi rol oynamışdır. Belə ki, ruhun əbədiyyata qovuşması təsəvvürü dəfn mərasimini və axirət evinin yaradılması ənənəsini meydana gətirmişdir. Bu mərasim və ənənələr insanları daimi olaraq doğma ruhların mövcud olduğu konkret məkana bağlamışdır. Ruhlarla əlaqədar olaraq konkret məkana bağlılıq ənənəsi elin, obanın müqəddəsliyi anlamını formalaşdırmışdır. Hətta dağlar, göllər, çaylar və s. ərazilər də animistik anlayışlar zəminində müqəddəsləşdirilmişdir. Bununla əlaqədar olaraq M.Seyidov yazmışdır: “Əski türkdilli qəbilələrdə

animist baxış çox geniş yayılmış; onun izlərinə son zamanlara qədər Azərbaycan və bir çox türkdilli xalqların şifahi ədəbiyyatında, adət - ənənələrində rast gəlmək olur. Bu xalqların animist baxışlarına görə dağlar, göllər, çaylar (Alaş, Tanınıya, Xandağ, Altay, Abakan, Kem (Yenisey), Katim bəy, Süd göl və b.) insan kimi sevib - sevilir, duyur; göllər, sular müqəddəsləşdirilir".

Qədim folklor nümunələrində ruhlar əsasən insanların bənzəri kimi verilir, insanlar xarakterlərin müxtəlifliyini ruhların müxtəlif xassələrinə şamil edirlər. Xüsusilə şamanlar ruhları insan obrazında təcəssümləşdirmiş, hətta həmin ruhlarla evlənmək məqamları da uydurmuşlar. Məsələn, qədim türk miflərinin birində qeyd olunur ki, hər şaman iki qadın ruhla evlənmişdir. Bu ruhlardan biri meşənin, meşə ruhunun qızı, digəri isə su kultunun qızıdır. Onlar şaman ruhlar aləmini müşayət edirlər.

Ruhun ölməzliyi anlamı bütün dinlərdə ehkamlığın əsas məzmununu təşkil edir, lakin dünya dinlərində bu özünü daha qabarıq şəkildə özünü biruzə verir. Amma dünya dinlərdən olan buddizm başqa dinlərdən fərqli olaraq həm fəlsəfi, həm də mənəvi - əxlaqi keyfiyyətləri özündə əks etdirmişdir. Belə ki, buddizm zahidlərin rəhbərliyi ilə insanlar arasında xüsusi əxlaqi tələblər qoyur və bütün dindarları bu tələblərə əməl etməyə çağırır. Buddizmə görə hər bir insan canlı məxluqlara rəhm etməli, yalan danışmamalı, oğurluq etməməli, haram yeməməli, içki içməməli, eyş-işrətdən və əxlaqa mənfi təsir göstərən əyləncələrdən uzaq olmalıdır.

Buddizmin əxlaqi prinsipləri animistik anlayışlarla müşayət olunur, insanlara xeyirxahlıqlarına görə ilahi vədlər verilir. Qeyd olunur ki, Nirvanaya yüksəlmək, yəni nicat tapmaq üçün insanlar dünyanın şərindən, günahlarından uzaq olmalı, bu hərəkətləri ilə öz ruhunu maddi aləmin əsarətindən qurtarmalıdır.

Buddistlərə görə bu real dünya ruhi varlığın təzahürüdür. Mövcudatı fani hesab edən buddistlər cismani tələbatdan imtina edir, ruhi - ənənəvi dünyaya qovuşmaq üçün həmişə dini ibadətlə məşğul olmağa üstünlük verirlər.

İbtidai dinlərə inam zəminində insanların bədii-emosional hissləri də təşəkkül tapmış və tərbiyələnmişdir. Dini anlayışlar konkret hissi idrakın, estetik qavrama qabiliyyətinin inkişafına da təsir göstərmişdir. “Hələ dinin rüşeymləri baş qaldırdığı, dinin animizm, totemizm, fetişizm kimi ilk formaları meydana çıxdığı vaxtlardan başlayaraq dini şüur estetik hisslərə təmas etməyə başlamışdır. Bu səbəbədən də dini təcəssümləşdirmə ilə bədii-mifoloji yaradıcılıq bir-birini tamamlamışdır. Elə buna görə də qədim xalqların dini şüuru arxaik folklor nümunələrinin məzmununa sirayət etmişdir. Deməli animistik anlayışlar ictimai şürun xüsusi forması olan incəsənətin yaranmasına, onun hissi-ruhani məzmunla zənginləşməsinə təkan vermişdir. Bu anlayışlar söz sənətinin inkişafina miflər vasitəsilə qoşulmaqla yanaşı, təsviri - incəsənətin, musiqi mədəniyyətinin formalaşmasında xüsusi rol oynamışdır. Dini ehkamların təlqinində, ibadət və tərbiyə məsələlərində incəsənət də böyük əhəmiyyət kəsb etmişdir. İncəsənət vasitələri dinin ünsiyyət fünksiyasını daha da artırmışdır. Məhz buna görə də bir çox din xadimlərinin baxış-larına görə incəsənət əyani moizədir, ruhani təlqindir, Allaha ibadətin ayrılmaz bir hissəsidir.

Tanınmış burjua alimi Herbert Rid dinlə incəsənətin tarixin lap dərinliklərindən üzü bəri bir-birini tamamlayaraq inkişaf etdiyini söyləmişdir. O, qeyd edir ki, “keçmişə baxanda incəsənətlə dinin əl-ələ verib uzaq tarixin qaranlıqları içindən bir yerdə çıxdıqlarını görürük. Onlar əsrlər boyu bir-birinə ayrılmaz surətdə bağlı olmuşdur.

Animistik anlayışlar meydana gəldiyi tarixdən ideallaşdır-mağa daha çox üstünlük vermişdir. Buradakı ideallaşdırmanı allahlarla, ilahiləşdirilmiş varlıqlarla əlaqələndirsələr də, mənəvi ideallaşdırma daha çox əhəmiyyət kəsb etmişdir. Mənəvi ideallaşdırma geniş mənada şəxsiyyətin, fərdlərin əxlaq tərbiyəsi istiqamətinə yönəldilmişdir. Sözsüz ki, əxlaq tərbiyəsi dini-emosional təsir vasitələri ilə müşayət olunmuşdur və animistik anlayışlar, insanların inamına çevrilərək onlarm bir sıra adət və vərdişlərinə daxil olmuşdur. Əxlaqi keyfiyyətlər animistik

anlayışlar əsasında formalaşmışdır. Hətta sənətkarlıq meydana gəldikdən sonra da animistik anlayışlar insanların fərdi yaradıcılığında da özünü göstərmişdir. Məsələn, müxtəlif sənətkarlar tərəfindən hazırlanmış tunc dövrünün fiqurlu qablarının çoxu quş şəklindədir. Bu o dövrün dini əqidələri ilə bağlıdır. Həmin dövrdə hazırlanmış tunc quş fiqurları Xanlar, Çovdar və başqa yerlərdən tapılmışdır. Bu içi boş quşlar ölülərin ruhunun simvolik ifadəsi olub, onlarm saxlanması üçün ən etibarlı yer idi. Ruhların yerləşməsindən başqa, onlarm qidalanmasını da nəzərə alaraq, qəbirlərə quş formalı gil su qabları qoyurdular. Belə qablar ənənəvi olaraq Alban dövründə də düzəldilmişdi.

Qeyd olunan tarixi fakt bir daha sübut edir ki, animistik anlayışlar insanları bütün əmək fəaliyyəti prosesində də müşayət etmiş, onların fəaliyyət və yaradıcılığının məzmununa təsir göstərmişdir. İnsanlar animistik anlamlar baxımından tərbiyə olunmuşlar və onların ictimai davranışları da bu anlamlara uyğunlaşmışdır.

Müqəddəsləşdirilmiş ruhlar üçün insanlar bütün həyatları boyu müəyyən xidmətlər göstərmiş, onları canlı varlıqlar kimi təsvir edərək özlərində bu varlıqların əbədiliyinə inam yaratmışlar. Məhz bu səbəbdən də insanlar ruhları hətta qruplaşdırmışlar. Bunun da nəticəsində “doğma” və “düşmən” ruhlar anlamı meydana gəlmişdir. İnsanlar doğma ruhlara sitayiş etmiş, müəyyən çətin məqamlarda bu ruhları müxtəlif mərasimlər vasitəsi ilə köməyə çağırmşlar. Hətta düşmən ruhlardan da mühafizə olunmaq üçün onların yaratdıqları talismanlar onlarda şər qüvvələrə qalib gələcəklərinə inam yaradaraq mənəvi rahatlıq gətirmişdir.

İnsanların dəfni zamanı ənənəvi olaraq ilan başlı qol bilərziklərindən bədxah ruhlardan qorunmaq məqsədilə istifadə olunmuşdur. İbtidai insanların etiqadına görə qolunda belə bilərziklər olan ölülər guya axirət dünyasında özlərini yad ruhlardan belə bilərziklərlə mühafizə edə bilərdilər.

Ümumiyyətlə insanlarda həm özlərinə, həm də dünyanın reallıqlarına inam yaratmağın tarixi çox qədimdir. Dini anlayışlar

zəminində yaranan bu inanclar insanları mərhələ-mərhələ tərbiyə etmiş, onların mənəvi aləminin inkişafına təsir göstərmişdir. Animistik anlayışlar insanın mənəvi aləminin kamilləşməsinə, onun ictimai varlığa xas olan davranışlarının, həyat vərdişlərinin formalaşmasına güclü, təsir göstərmişdir. Məhz bu təsirlər nəticəsində insanlann bütün həyat fəliyyətini tənzimləyən mərasimlər, dini ehkamlar, etik davranış normaları yaranmışdır.

Çox təəssüflər olsun ki, dini şüurun əhəmiyyəti sosializmin ateist məkanında heçə endirilmiş, köhnə dünyadan miras qalmış və artıq elmi - texniki tərəqqinin təsiri ilə yox olmağa məhkum olan adi şüur forması kimi qiymətləndirilmişdir. Xüsusilə Marksist ideologiya dinin, ictimai şüurun xüsusi forması və bütün bəşər tarixi boyu mənəvi - əxlaqi dəyər kimi mövcudluğunu inkar etmişdir. Təbii ki, marksizmə xaş olan bu baxışlar dünyanın ayrı - ayrı teoloq alimləri tərəfindən, kəskin şəkildə tənqid olunmuşdur. Məsələn amerikalı alim Con Midlton Merri “Fikir qəhrəmanları” adlı kitabında marksizmi mənəvi-əxlaqi amilləri insan cəmiyyətindən sıxışdırıb çıxarmaq cəhdində ittiham etmişdir. Fransız yazıçısı Jan Blok Mişel keçmiş SSRİ-də insanların ənənəvi inkişafının qarşısında bir çox əngəllər yaradıldığını bildirmişdir. Avstriyanın görkəmli din xadimi olan M.Rodinq isə marksizmi ateizm siyasəti ilə yüklənmiş ideologiya adlandırmışdır. Keşiş Qustav Vetter isə 1968-ci ilin sentyabrında Vyanada keçirilən XIV Beynəlxalq Fəlsəfə Konqresində “İdeologiya və fəlsəfə” mövzusunda etdiyi məruzəsində sübut etməyə çalışmışdır ki, marksizm dini, ictimai şüurun əsas forması kimi qəbul etməlidir. Həmçinin o, qeyd edir ki, “Nə ucun marksizmə görə fəlsəfə elm olmalidir din isə yox. Bəs məntiq harada qaldi? Axı hər ikisi gerçəkliyi əks etdirir”.

Təbii ki, qeyd olunan alimlərin fikirlərində həqiqətə uyğunluq da vardır. Belə ki, sadəcə olaraq fəlsəfədən fərqli şəkildə ictimai şüurun xüsusi forması kimi gerçəkliyin qanunauyğunluqlarını fövqəltəbii affektlər əsasinda izah edir. Daha doğrusu dünyanı dərk etməyə çalışan insanlar müxtəlif affektlərə fövqəltəbii bir hal kimi baxırdılar. İnsanın ehtiras və həyəcanlarının həqiqi

səbəbini bilmədiklərinə görə onlar affektləri ilahiləşdirirdilər.

Ümumiyyətlə animistik anlayışlar zəminində təhlillər apararkən müasir dünya dinləri arasında böyük fərq olmadığını görürük. Çünki bütün dinlər insan ruhunun əbədiyyətə qovuşduğunu bildirir və ruhlara sitayişlə bağlı adət və ənənələrin qoruyucusu funksiyasını yerinə yetirirlər. Animistik anlayış bütün dinlərin möhtəşəm sütunu kimi özünü biruzə verir. Bu xarakterik xüsusiyyət dinlər arası tolerantlığa böyük zəmin yaradır. Qeyd olunan əsas faktor insanlar arasında dini ayrı seçkiliyin mahiyyətini heçə endirir. Məhz göstərilən bu məntiq əsasında bütün dünya dinlərinin əsasında animistik anlayışların durduğunu söyləmək olar.

# IX FƏSİL

# FƏLSƏFƏDƏ VARLIQ VƏ MATERİYA ANLAYIŞI

1. **Varlıq anlayışı və onun tarixi mahiyyəti**
2. **Varlığın formaları və müxtəlifliyi**
3. **Materiya anlayışının elmi-fəlsəfi təhlili**

## 1. Varlıq anlayışı və onun tarixi mahiyyəti

Varlıq fəlsəfənin ən fundamental və universal əlaqələr sistemindən biridir. Varlıq anlayışının mahiyyəttində "varlıq" sözü fəlsəfədə xüsusi məna kəsb edir. Məsələn, "olmaq" "varlıq" terminləri təkcə mövcudluğu ifadə etmir, xüsusi məna kəsb edir. Varlıq elə anlayışdır ki, o bir hadisə kimi insan şüurunda yeni-yeni anlamlar və gerçəkliklər üzə çıxarır. Ümumiyyətlə qeyd etmək olar ki, varlıq şüurdan asılı olmayan obyektiv reallıqdır. Fəlsəfə həmişə bu suallara cavab axtarmaqdadır: Nə mövcuddur və harada mövcuddur? Ayrı-ayrı maddi şeylər aləmi nə müddətə mövcuddur? Dünya harada mövcuddur? və s. Burada problemin kökü təbiətin keçici olmayan hallarında, insan vücudunun keçiciliyində və varlığın ziddiyyətli mahiyyətindədir. İnsan həmişə öz mövcudluğunda yaxşı həyat uğurunda mübarizədə olmuşdur və əsaslana biləcək səbəblər axtarmaqdadır. Real hadisə və proseslərdən baş çıxarmağa inkan verən **"gerçəklik" və "reallıq"** anlayışları xüsusi yer tutur. Bu anlayışlar çox vaxt eyni mənada başa düşülür. Reallıq dedikdə varlığın iki tərəfini, obyektiv və subyektiv anlamda nəzərə çatdırır. Gerçəklik anlayışı isə keçmişdə mövcud olanlar, hal-hazırda mövcud olan və olacaqların məcmusu kimi başa düşülür.

İspan filosofu **Orteqa Qasset** -fəlsəfədə varlığın izhını belə şərh etmişdir: "Fəlsəfə əşyaların varlığını tam parlaqlığı və şəffaflığı ilə açmaq deməkdir. O, yalnız varlıq haqqında təlimdir, ontologiyadır".

XX əsr Qərb fəlsəfəsinin ekzistensialist cərəyanının görkəmli nümayəndəsi **M.Haydekker** varlığa cəmiyyəti düşündürən və narahat edən bir məsələ kimi nəzərə alaraq qeyd edirdi ki, obrazlı şəkildə insanın öz evini axtarması kimi başa düşmək olar.

**Birinci aspektdə** qeyd etmək olar ki, varlıq bütöv bir tam kimi dünyanın və insanın varlığının öyrənilməsidir. **İkinci aspektdə** isə varlıq haqqında təlimi **(ontologiya - varlıq haqqında təlim)** təhlil etsək, geniş mənada varlığı mövcud olan hər şey (cansız və canlı aləm, cəmiyyət, planet, cəmiyyət, qalaktika və s.)kimi başa düşmək olar. Belə düşünsək buraya insanın tamlıqla bütün mənəvi dünyasını və fəaliyyətini (elm, bədii yaradıcılıq, incəsənət və s.) daxil emək olar. Dar mənada, isə insan şüurundan kənarda mövcud olan obyektiv reallıq başa düşülür. Fəlsəfə tarixində antik dövr fəlsəfəsində xüsusi yer tutan nümayəndələrindən **Fales, Anaksimandr, Anaksimen, Heraklit, Parmenid və Ksenofon** varlığın ilkin əsasını su, hava, od qeyri-müəyyən maddə olan apeyronda axtarmışdır. Xüsusilə Eleya məktəbinin nümayəndələri varlığı vahid, əbədi olan kainat, allahın mövcud olduğu məkan kimi xarakterizə etmişdirlər. Eleya məktəbinin nümayəndələrindən **Parmenid (e.ə. 574-501)** belə şərh edirdi ki, varlıq mövcuddur, amma qeyri-varlıq yoxdur. Varlıq hərəkət etmir. Varlıq yaranmır və məhv olmur, o əbədi olaraq mövcuddur. O, dəyişməzdir, mükəmməldir.

**Heraklit** isə qeyd edirdi ki, dünya daim mövcud olan oddur. Bu od həmişə hərəkət edir və bir haldan digər hala keçir. Antik dövr fəlsəfəsinin digər nümayəndələrindən olan **Demokrit** isə (e.ə. 460-370) varlığın bölünməz kiçik hissəciklərdən – atomlardan və boşluqlardan ibarət olmasını söyləmişdir. Antik fəlsəfənin digər nümayəndəsi **Platon** (e.ə. 427-347) varlığı özünəməxsus şəkildə şərh edərək dəyişməz ideyalar aləmi kimi, Aristotel isə canlı substansiya **(substansiya - hər hansı mövcudatın əsasında duran)** olması fikrini irəli sürmüşdür.

İntibah və yeni dövrdə yaranmış fəlsəfi dünyagörüşü dünyəviləşirdi, fəlsəfədən təbiətşünaslıq elmləri ayrılmaqda idi, sanki fəlsəfə müstəqilləşirdi. Varlığın subyektiv idealist izahı

xeyli dərəcədə genişlənməkdə idi, xüsusilə mexanika elmi daha çox inkişaf edirdi. Ona görə varlığın cismani kimi mənalandırılması üzə çıxarıldı, yəni təbiət öz-özünə fəaliyytdə olan bir mexanizm kimi şərh olundu. Bununla qeyd olunur ki, varlığa naturfəlsəfi baxış formalaşdı ki, nəticədə nəzəri elmi dünyagörüşün yaranması mərhələsinə qədəm qoyulurdu. Deməli, burada iki anlayış – **varlıq ilə varlıq olmayan** təsəvvürlər üzə çıxır. Təbiətşünaslığa görə kainat yeganə deyildir, o çoxluqdan ibarətdir və bunların hər ikisi inkişaf səviyyəsindədir. Məlumdur ki, həyatda heç bir şey, heç bir hadisə mütləq şəkildə daimi deyildir. Öz dövrünü keçirmiş nələr varsa məhvə doğru gedir və bunula da varlıq yox olur. Əgər bunun haqqında məlumat olarsa və yəni ideal obrazı saxlanılarsa, deməli **"ikinci varlıq"** yaşadılır.

## 2. Varlığın formaları və müxtəlifliyi

Ən ümumi əlaqələri həyata keçirən varlıq çoxsaylı şeylərlə, hadisələrlə və proseslərlə zəngindir. Bu hadisə və proseslər ümumi bir dialekt tamlıq təşkil edir və bir-biri ilə sıx surətdə qarşılıqlı əlaqədədir. Varlığın ümumi mənzərəsini yaratmış olsaq, belə nəticəyə gəlmək olar ki, bu bir üçlük kimi başa düşülə bilər, üçlüyün önündə qeyri-üzvi təbiət yaranır, onun üzərində isə canlı təbiət yaranır, daha sonra isə ruhun, canlı təbiətin və cansız təbiətin vahidliyini təşkil edən insan dayanır. Varlıq həmçinin özünəməxsus xüsusiyyətləri ilə təkrarolunmaz mahiyyət daşıyır. Təbiətdə mövcud olan şeylər və hadisələr təbii və süni dünyanı, təbiətdə baş verən hadisələrin mövcudluğunu özündə ehtiva edir.

Canlı təbiətin varlığı ikili istiqamətdə özünü göstərə bilir. Birincisi, çoxalma qabiliyyətində olan, maddələr mübadiləsini həyata keçirən, şüura malik olmayan nə varsa hamısı canlı varlığın bir fəaliyyət istiqamətidir. Varlığın aşağıdakı formalarını ayırd etmək olar: **a) Varlığı əhatə edən əşyaların və proseslərin varlığı, b) insanın varlığı, c) mənəvi varlıq, d) ictimai və sosial varlıq.** Varlığın bu formalarında rəngarənglik mövcuddur və bunlar daxilən mürəkkəb proseslərdir və hər birini ayrı-ayrılıqda

səviyyələri mövcuddur. Məsələn, varlığı əhatə edən əşyaların və proseslərin varlığına tam kimi götürülən təbiətdə müxtəlif hadisə və proseslərin mövcudluğu, digər tərəfdən insan təfəkkürü ilə yaradılan əşyalar və proseslərdir ki, biz bunu **"ikinci təbiət"** kimi qəbul edirik. Təbiətdə mövcud olan əşya və proseslər insandan əvvəl və ondan asılı olmadan mövcud olmuşdur. Bu daxili proseslər müvəqqəti xarakter daşıyır, ya inkişaf edir ya da yox olur.

Əslində ikinci təbiət insanların bilik və bacarıqları nəticəsində ilkin təbiət materiallarından yaradılan və insan tərəfindən istifadə olunan hər şey nəzərdə tutulur və düzəldilən əşyalar və predmetlər cəmiyyətdə sosial təminatı olmaqla müəyyən funksiyaları yerinə yetirirlər. Deməli, belə aydın olur ki, qeyd etdiyimiz varlığın bu növü özündə maddi və mənəvinin vəhdətini təmin edir.

Aydındır ki, insan orqanizmi həm maddi, həm təbii və həm də bioloji qanunlar əsasında fəaliyyət göstərir, ancaq təbiət isə mexanika qanunlarına əsaslanır. Bitki və heyvanlara aid olan əlamətlər insan orqanizminin bioloji qanunlarına aid edilir. Lakin fərqli olaraq insan varlıqda özünü düşünür, burada nəyi və nə zaman etməyi düşünərək özü üçün mühakimə yürütməyə çalışır. Ona görə də qeyd etmək olar ki, insan təkcə cismani varlıq kimi mövcudluğuna görə insan adlandırılmır. O, subyektiv mənəvi varlıqdır, həm də ali şüurlu varlıq olmaqla insanın özünəməxsus daxili psixi dünyası olan vardır. İnsanın mənəvi varlığı ikili xüsusiyyətə malikdir: **mənəvi varlığın subyektivliyi** digər tərəfdən **mənəvi varlığın obyektivliyi**. Subyektivliyə əlbəttə insanın şüura və idraka aid olan elementlər (hiss, qavrayış, duyğu, instinktlər, qavrayış, mühakimə və s.) daxil edilir. Obyektivliyə isə fərdi şəkildə insan yox, kollektivdə və cəmiyyətdə insanlar arasındakı qarşılıqlı münasibətlərə əsaslanan yaradılmış mənəvi hadisələrin tamlığı təzahür olunur. Bunun nəticəsi olaraq insanın idraki prosesinə görə buraya din, elmi biliklər, əxlaqi və estetik normalar, birgə yaşayış qaydaları, din və incəsənət daxildir. Bu

varlığın səciyyəvi cəhəti dilin və elmin nümunələrində öz əksini tapır.

Nəhayət, varlığın daha sonra müzakirə olunan sonuncu forması **sosial varlıqdır**. Sosial varlığın daxili mahiyyəti insanlar arasındakı çoxsaylı hadisə, proses və bir sözlə çoxsaylı münasibətlər məcmusu kimi başa düşülür. Varlığın bu daxili mahiyyəti bir çox tərəfləri əhatə edir. Məsələn, təbiətin varlığı dedikdə bir burada məsələn, bir neçə qatları qeyd etmək olar: atmosfer, litosfer, biosfer, noosfer və ya sosial dedikdə iqtisadi, ekoloji, siyasi, mənəvi və s. tərəfləri qeyd etmək olar.

Varlıq çox mürəkkəb mahiyyətə malikdir və getdikcə tarixi prosesin müxtəlif mərhələlərində real konkret məna kəsb edir. Dünyada gedən dəyişikliklər və inkişaf qanunauyğunluqları varlığın sistemli mahiyyətində mexaniki məzmun daşıyır. Dünya bir reallıq olmaqla eləcə də transendental dünya kimi şərh olunsa da, bu insan qarşısında bütöv tam hadisələr toplusu və münasibətlər sistemi kimi qəbul edilir. Bir sözlə, dünya çox saylı hadisələrlə, şeylərlə mövcud olmaqla mahiyyətlər dünyası kimi qəbul edilə bilər. Varlığın formaları ilə bağlı bir fikri qeyd etmək istəyirəm ki, varlığın bütöv formaları tamlıqla bir-birilə sıx əlaqədədir.

## 3. Materiya anlayışının elmi-fəlsəfi təhlili

Materiya anlayışının mahiyyəti ilə bağlı fəlsəfi fikir tarixində bir sıra mülahizələrə yol verilir. Məsələn, Platon fəlsəfəsində materiya formasız və qeyri-müəyyənlik kimi şərh olunur. Fransız maarifçisi **Volter "Materiya nədir?"** sualını belə qeyd edir ki, "Mən bu haqda çox bilmirəm. Mən materiyanı müqavimətə, cazibəyə, bölünənə, mütəhərrikə malik olan məsafəlik, sıxlıq kimi güman edirəm". Fəlsəfi fikir tarixində bəzi filosoflar **"obyektiv reallıq"** materiya anlayışı ilə eyniləşdirilir. Bizi əhatə edən aləmi götürsək məsələn, Yer öz oxu ətrafında fırlanaraq məlumdur ki, günəşin ətrafında dövr edir. Günəş isə ətrafında hərəkət edən planetlərlə birgə kainatda hərəkət edirlər. Onlarla

birlikdə cismləri təşkil edən atomlar da onlarla birlikdə daim hərəkətdə olurlar. Deməli, hərəkət materiyanın atributudur, əbədi xassədir bir sözlə, mövcudluq üsuludur. Bütün bu fikirlərə görə qeyd edə bilərik ki, hərəkətsiz materiya mövcud ola bilməz. Antik fəlsəfəyə görə substantiv elementlər ilkin əsası hesab olunmuşdur.Daha sonra **R.Dekart** substansiyanı maddi və mənəvi mövcudluğun əsası kimi qəbul etmişdir. Bu istiqamətin mahiyyəti ontoloji planda öz əksini tapır. **C.Berkli** maddi substansiya anlamını qəbul etmir. Onun fikrincə biz qavradığımız hər bir şey duyğularımızın məcmusudur. XX əsrin Qərb fəlsəfəsində substansiya anlayışı və onun idrakda rolu şübhə altına alınırdı. Pozitivistlər onu adi şüurun qalığı kimi qəbul edirdilər. Daha sonralar substansiya müasir nəzəri fikirdə yeni şəkildə mənalandırıldı. Substansiya anlayışının mahiyyəti getdikcə izah olunaraq vacib və lazimi element kimi qəbul edildi və materiyanın genetik mənbəyi kimi ifadə olundu. Yuxarıda qeyd etdiyim kimi materiyanın mahiyyətini bilmək üçün onu obyektiv reallıq kimi qəbul etmək olar.

Materiya son dərəcə olaraq özündə məlum olan və ya məlum olmayan formaları və xassələri özündə birləşdirərək dünyanın sonsuz dərk olunması prosesində əhatə olunur. Elmi və fəlsəfi idrakın gedişi baxımından ümumiləşdirmə aparsaq belə nəticəyə gəlmək olar ki, materiya duyğular vasitəsilə insanın hissi idrakına ötürülür və ancaq duyğularımızdan asılı olaraq mövcuddur. Materiyanın fəlsəfi təhlili **ontoloji və qnoseoloji** tərəflərini belə qeyd etmək olar: **a) materiya insan şüurundan asılı olmayan mövcud olan reallıqdır, b) reallıqda mövcud olan materiya hiss üzvlərinə təsir edərək dərk edilir.** Materiya substansiya olmaqla maddi törəmələrin əsası kimi çıxış edir. Materiyanın qnoseoloji baxımdan bir-birinə qarşı-qarşıya qoyulmasının nisbiliyi nəticəsində aşkar olunur ki, onlardan hansının birinci və ya ikinci qəbul edilməsi hələ də fəlsəfənin başlıca problemi olaraq qalmaqdadır. Materiyanın fəlsəfi anlamı təbii elmi təsəvvürlərlə sıx əlaqəli olduğundan zaman baxımından təbii-elmi təsəvvürlərin öyrənmə dairəsi daha da genişlənir, idrakı

inkişaf prosesinin gedişində əsaslı dəyişikliklər baş verir. Bu əsaslı dəyişikliklər bir neçə mərhələdən keçmişdir: **a) materiya ilkin əsas kimi axtarılır və hissi təsəvvürlər formasında çıxış edir; b) materiya substral (əşya) kimi başa düşülür; c) materiya qnoseoloji aspektdən təhlil olunur; d) materiya aksioloji baxımdan mənalandırılır**. Materiya təkcə obyektiv reallıq kimi məhdudlaşmır, ona bir çox atributiv xassələrin sistemi kimi baxılır.

Belə qeyd etmək olar ki, materiya anlayışı fəlsəfənin yerinə yetirdiyi ontoloji, məntiqi, qnoseoloji, dünyagörüşü, metodoloji funksiyaların vəhdət halında tətbiq olunması nümunəsi kimi başa düşülür. Materiya obyektiv reallıq kimi qəbul edilmədikdə, ontoloji aspektdən fəlsəfi kateqoriya kimi təhlil edildikdə məntiqi aspekt əsas götürülür. Materiya çox mürəkkəb mahiyyətə malik olmaqla müxtəlif struktur səviyyələrini özündə ehtiva edir. Materiyaya aid olan struktur səviyyələr həmişə bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla kosmik təkamülün məhsulu kimi qəbul edilir. Dünyada baş verən keyfiyyətcə fərqli olan hadisələr obyektiv reallıqlar olmaqla, insan şüurundan asılı olmayaraq məkan və zaman daxilində mövcuddur və hərəkətdə olan materiyanın konkret təzahür formasıdır.

# X FƏSİL

# DİALEKTİKA İNKİŞAF HAQQINDA SİSTEMDİR

1. **Dialektika universal əlaqələr və inkişaf haqqında təlimdir**
2. **Kəmiyyət dəyişiminin keyfiyyət dəyişiminə keçməsi qanunu**
3. **Əksliklərin vəhdəti və mübarizəsi qanunu**
4. **İnkarı inkar qanunu**
5. **Dialektika təlimində kateqoriyalar və ümumelmi anlayışlar**

## 1. Dialektika universal əlaqələr və inkişaf haqqında təlimdir

Dialektika anlayışı ilk dövrlərdə həqiqətə nail olmaq üçün aparılan mübahisə (dialoq-mübahisə) və ya nəyisə sübut etmək mənası kimi başa düşülə bilər. Dialektika birdən-birə yaranmamışdır, böyük tarixi inkişaf yolu keçmişdir və aşağıdakı tarixi mərhələlərdən ibarət olmuşdur: **1) Antik dövrün kortəbii dialektikası, 2) Klassik alman fəlsəfəsinin dialektikası, 3) Materialist dialektika.**

**Antik dialektika (Heraklit, Sokrat, Platon, Zenon, Aristotel** və başqaları) adları qeyd olunan filosoflardan olan **Heraklit** "Dialektikanın mənəvi atası" hesab olunmuşdur. Heraklitə görə dünyada hər şey canlı ilə ölü, oyaq ilə yatan, gənclik ilə qocalıq, aclıq ilə toxluq, yorğunluq və istirahət, gözəllik və eybəcərlik, təmizlik və çirklilik və s. bir-biri ilə daim mübarizədədir. Heraklitə görə dünyadakı bütün şeylər daxili fəallığa malikdir, hərəkət, dəyişmə və inkişafın mənbəyi materiyanın özündə şeylər və hadisələri təşkil edən əksliklərin mübarizəsidir. Bu mənada Antik fəlsəfədə dialektika anlamı əsas yer tutmuşdur. Orta əsrlərdə isə dialektika doğma xarakter daşımışdır. Buna görə də fəlsəfi fikir tarixində ilk dəfə E.Hegel dialektikanı bir sistem halına sala bildi. İdrakın universal əlaqələrini təbiətdə və

cəmiyyətdə baş verən inkişaf qanunlarını E.Hegel aşkar etmişdir. Dialektikanın növbəti mərhələsi materialist dialektika adlanır. **K.Marks və F.Engels** təbiətdə, cəmiyyətdə və təfəkkürdə gedən prosesləri təhlil etmişdir. Bu təlimə görə inkişaf universal əlaqələrə əsaslanır. Materialist dialektikaya görə inkişaf təliminin dörd tərkib hissəsi müəyyən edilmişdir. **Əvvəla,** dialektika təbiət haqqında onun hərəkəti və inkişafının ümumi qanunları haqqında fəlsəfi təlimdir. **İkincisi** – cəmiyyət və onun inkişafı haqqında təlimdir. **Üçüncüsü** – dialektika təfəkkür haqqında təlimdir. **Dördüncüsü** – dialektika idrak haqqında, onun forma və qanunlarından bəhs edən təlimdir.

İnkişaf anlayışı dedikdə hər şeydən əvvəl ümumiyyətlə hər şeyin inkişafı deyildir, əslində inkişaf ancaq maddi və mənvi sistemlə əlqədardır. Günəş sistemi, cəmiyyət, nəzəriyyə və s. bu qəbildən hesab olunur. Konkret sistemdən kənarda heç bir inkişaf yoxdur. Tamlıqda inkişaf haqqında təlimdən söz açdıqda, burada konkret olaraq sonsuz sayda inkişaf edən konkret olaraq ayrı-ayrı sistemlərin inkişafı nəzərdə tutulur. İnkişaf həm də keyfiyyət dəyişkənliyində varislik prinsipinə əsaslanır, həm də istiqamətlənmiş dəyişikliklərlə əlaqədardır. İnkişafın istiqamətliliyində üç əsas əlamət formalaşır: **1) inkişafın keyfiyyət xarakteri, 2) inkişafın dönməzliyi, 3) inkişafın istiqamətliliyi.**

**Əvvəla**, dialektika anlayışının mənası belə də ifadə olunur: anlayışın nisbiliyi, ziddiyyətliliyi, çevikliyi.

**İkinci**, şüurdan asılı olmayaraq baş verən dəyişkənlik, nisbilik, ziddiyyətlilik.

**Üçüncüsü**, dialektika fəlsəfi idrak nəzəriyyəsini ifadə edir.

Deyilənlərdən aydın olur ki, dialektikanın ən ümumi cəhətlərindən biri dünyanın fasiləsiz və qanunauyğun inkişafını qəbul etməkdir, dünyada baş verən bütün hadisə və proseslər bir-birini şərtləndirir. Dialektika hadisə və proseslərin qarşılıqlı əlaqə prinsipini araşdırarkən özünün metodoloji prinsiplərindən istifadə edir.

-**Ümumi qarşılıqlı əlaqə prinsipi**. Bütün hadisə və proseslər ancaq qarşılıqlı əqlaqədə öyrənilə bilər.

**-Ziddiyyətlilik prinsipi.** Bu prinsip ancaq proseslər zamanı bir-birinə əks olan meylləri üzə çıxarmağı öyrənir.

**-Tarixilik prinsipi.** Predmet və hadisələr hərəkətdə və inkişafda olarkən daha doğrusu hadisənin yaranma səbəblərini inkişaf mərhələlərinin bir-birini əvəz etməsi, hər bir mərhələnin nisbi tamlığı və davamlılığı kimi başa düşülür. Bu prinsip hər bir mərhələnin bir-birini əvəz etməsinə və ümumi xarakterin saxlanılmasına xidmət edir.

**Məlumdur ki, ən ümumi əlaqələr qanun anlayışı vasitəsilə müəyyənləşdirilir. Qanunlar özləri də ümumi, ən ümumi və xüsusi olur. Hər şeydən əvvəl qanun zəruri əlqə formasıdır.**

**Ümumi qanunlar** gerçəkliyin müəyyən sahəsində özünü biruzə verir və müəyyən inkişaf mərhələlərinə təsir edir. Ümumi qanunlar təbiətdə və cəmiyyətdə mövcuddur. Məsələn, ümumdünya cazibə qanunu, enerjinin saxlanması və çevrilməsi qanunu və s. göstərmək olar.

**Xüsusi qanunlar** dedikdə müəyyən qrup hadisələrin inkişaf mərhələsinə təsir edən qanunlar başa düşülür. Məsələn, biologiyanın canlı aləmdə fəaliyyət göstərən qanunları, yəni ünsiyyət və dəyişkənlik, kimyada elementlərin dövri sistemi, Kulon qanunu və s. bu qəbildəndir.

Qanunlar həmçinin **dinamik və statik qanunlar** kimi fəaliyyət göstərirlər. Dinamik qanunlar dedikdə hadisələr arasında bütün göstəriciləri məlum olan və gələcək vəziyyətdə hansı şəkildə mümkünlüyünü göstərə bilir. İnsanlar bu üsula əsaslanaraq keçmişdə Günəş və Ay tutulmalarını qabaqcadan müəyyən edə bilmişlər. Nyuton qanunu, Om qanunu, Cazibə qanunu və s. belə qanunlardandır.

Statistik qanunlar kütləvi hadisələrə və proseslərə aid olan qanunlardır. Klassik fizikanın bir çox qanunları məsələn, Marksvel qanunu, Bolsman qanunu, ideal qaz qanunları və s. aid etmək olar. Bu qanun böyük sayda və ya miqdarda olan predmet və hadisələrin kəmiyyət göstəricilərinin statistik məlumatını verir. Statistik qanunlar həm də ehtimal xarakteri daşıyır. Dialektikanın

üç əsas qanunu var: **1) Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu**, **2) əksliklərin vəhdəti və mübarizəsi qanunu, 3) inkarı inkar qanunu.**

## 2. Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu

Biz ətraf aləmə nəzər saldıqda görürük ki, bütün predmet və hadisələr müəyyən kəmiyyət və keyfiyyət nisbiliyinə malikdir. Predmetlərin say və miqdarını bilmədən qabaq onların bir-birindən keyfiyyətcə necə fərqləndiyini görürük. Onda keyfiyyəti biz necə müəyyənləşdiririk? Keyfiyyət predmetləri bir-birindən fərqləndirən əlamət olaraq həmçinin predmetlərin daxili xassəsidir. Müəyyən bir predmet nə qədər mövcuddursa, həmin xassə də o qədər mövcud olmaqla onun ayrılmaz tərəfidir. Hər bir predmetin özünəməxsus keyfiyyət ölçüsü və ya müəyyənliyi mövcuddur. **E.Hegelin** belə bir fikrini təsdiq etmək olar ki, predmetin xassəsi onun digərləri ilə konkret münasibətində aşkara çıxır. Konkret olaraq demək olar ki, keyfiyyət predmeti tam təsdiq edir.

Kəmiyyət anlayışı predmetlərin, hadisə və proseslərin miqdarını, həcmini və ölçüsünü bildirir. Əgər keyfiyyət predmetin nisbi sabit tərəfini əks etdirirsə, bundan fərqli olaraq kəmiyyət anlayışının dəyişkənliyini göstərir.

Bununla belə qeyd etmək olar ki, **predmet, kəmiyyət, keyfiyyət** kimi ən ümumi mahiyyətə malikdir və belə müəyyənliklə tam xarakterizə olunur. Hər bir predmetin vahid tamlığı **ölçü** anlayışı ilə ifadə olunur. Ölçü kəmiyyətin hüdudunu müəyyən edir. Bu fikri əsas götürərək qeyd etmək olar ki, temperaturun dəyişilməsi ilə predmet və ya cisim bir aqreqat halından digər aqreqat halına keçir.

İnkişaf prosesinin mexanizminə diqqət yetirsək aydın olur ki, baş verən kəmiyyət dəyişmələri müəyyən həddə qədər onun keyfiyyətini dəyişmir. Hər bir predmetin keyfiyyət müəyyənliyinə görə tədricən toplanan kəmiyyətlə keyfiyyət arasında

ziddiyyət baş verir. Həmin ziddiyyətin həll olunması köhnə keyfiyyətdən yeni keyfiyytə keçilməsi kimi başa düşülür. Yeni keyfiyyət inkişafın fasiləsizliyində müəyyən bir fasilə momentini ifadə edir ki, bu prosesi **sıçrayış** adı ilə ifadə etmək olar. Sıçrayış anlayışı mikro aləmdə çevrilmə kimi başa düşülə bilər. Sıçrayışlar və ya çevrilmələr həmişə heç də hansısa müəyyən qısa zamanda deyil,hətta uzun bir dövr ərzində davam edə bilər. Məsələn, uranın parçalanması, neft (karbohidrogen) ehtiyatlarının yaranması bunun bariz nümunəsidir.

Dialektikanın qanunu olan kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanununa görə ümumiyyətlə heç vaxt inkişaf dayanmır, köhnə keyfiyyət daxilində kəmiyət dəyişimlərinin fasiləsizliyi baş verir, yeni keyfiyyət yaranır, yəni köhnə keyfiyyət yenisi ilə əvəz olunur. Təbiət, cəmiyyət və insan təfəkküründə inkişaf keyfiyyətdən keyfiyyətə doğru hərəkət edir. Məsələn bunu belə ifadə etmək olar: elementar zərrəciklərdən atomlar, atomlardan molekullar, molekullardan cisimlər, cansız təbiət, orqanizmlərin bioloji təkamülündən insan və cəmiyyət formalaşmışdır. Əslində cəmiyyət özü də bir neçə ictimai-iqtisadi formasiyadan keçmişdir. Bunların hər biri özündən əvvəlkindən əsaslı surətdə fərqlənmişdir. İnkişafın bu prosesi idrakın və real gerçəkliyin özündə baş verən ümumilik kimi qəbul olunur.

İnkişafın ən ümumi qanunu olan kəmiyyət dəyişmələrini keyfiyyət dəyişmələrinə qarşılıqlı keçməsi – öz hərəkətin “öz inkişafın”, mexanizmini, xarakterini, mahiyyətini üzə çıxarır və inkişafın necə və hansı formada baş verdiyini müəyyən edir, inkişafın səciyyəvi xüsusiyyətlərini, formalarını və mərhələlərini əhatə edir. Bu qanun insanın varlığı dərk etməsinə və əməli-praktik münasibətlərin qurulmasına kömək edir. Dialektikanın bu qanunu dünyanın dərk edilməsində metodoloji və idraki əhəmiyyətə malikdir. Deyilənlər bir daha sübut etməyə əsas verir ki, təbiət, cəmiyyət və insan təfəkkürünə aid olan kəmiyyət və keyfiyyət dəyişmələri dialektik mahiyyətə əsaslanır və bu inkişafın mənbəyini, səbəblərini isə dialektikanın əksliklərini vəhdəti və mübarizəsi qanununu konkret ifadə edir.

## 3. Əksliklərin vəhdəti və mübarizəsi qanunu

Əksliklərin vəhdəti və mübarizəsi qanununun mahiyyətini və fəaliyyət mexanizmini dərk etmək üçün **“eyniyyət”**, **“fərqlilik”**, **“ziddiyyət”**, **“əkslik”** və s. kimi anlayışların mahiyyətini və fərqliliyini bilmək çox vacibdir. “Əkslik” gerçəkliyə xas olan inkişafı şərtləndirən ən ümumi anlayışdır. Bundan başqa anlayışları iki mənada səciyyələndirilir. Əvvəla **“əkslik”** gerçəkliyə xas olan ən ümumi müəyyənlikdir. Digər anlayışlar isə **“fərqlilik”**, **“münaqişə”**, **“ziddiyyət”** əksliyin təzahür xüsusiyyətləridir, eyni zamanda “əkslik”ziddiyyətlərin kəskinləşməsi dərəcəsi kimi mənafe fərqlərinin qütbləşməsi və ya barışmazlığı bir təzahür formasıdır. Bu baxımdan deyə bilərik ki, ziddiyyətlər inkişaf edərək əksliyə və münaqişəyə çevrilir.

Bütün predmet və hadisələri başqa predmet və hadisələrdə ümumiləşdirən, eyniləşdirən oxşar cəhətlər, həm də başqalarından fərqləndirən müxtəlifliklər mövcuddur. Bir hadisədə onu ümumi hadisələrdən bəzisi ilə eyniləşdirə bilər və ya ümumilikdən ayrılan fərqlilik ola bilər. **Eynilik** predmet və hadisələr arasında əlaqə və münasibətlərin xassəcə oxşar, ümumi eyniyyət təşkil edən xüsusiyyətlərin ümumi məcmusu kimi başa düşülür.

Hələ qədim zamanlarda belə cəhətə fikir verilirdi ki, bizi əhatə edən aləmdə əks xassələr, qüvvələr, meyllər xüsusi mühüm rol oynayır. Əks başlanğıclar həmişə yan-yana mövcud olurlar, eyni hadisədə və ya prosesdə meydana gəlir və digər proseslərin müxtəlif cəhətlərini təşkil edirlər.

Hələ Qədim Şərq ölkələrində və Qədim Yunanıstanda bir çox filosoflar belə hesab edirlər ki, şeylər hansısa əksliklərdə təşəkkül tapır, bu da öz növbəsində həmin şeylərin mənşəyində və mövcudluğunda öz əksini tapır. Məsələn, qədim yunan filosofu **Heraklit** qeyd edirdi ki, “hər şey mübarizə vasitəsilə olur”, yəni mübarizə hər şeyin əsasıdır. Dialektiklər belə hesab edirlər ki, əksliklər dəyişməz bir şey deyildir: onlar nisbidir, bir-birindən fərqlidirlər, lazim gəldikdə müəyyən şəraitdə bir-birini əvəz edir. Məsələn, kortəbii dialektikanın banisi Heraklit hesab

edirdi ki, harmoniya əslində ziddiyyətlərdən (əksliklərdən) ibarətdir. Aristotel isə qeyd edirdi ki, harmoniya ümumiyyətlə ziddiyyətlərdən yaranır. Deməli, ziddiyyətlər hər şeydən əvvəl prosesdir. Bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, əks tərəflər yəni ziddiyyətlər bir-birini tamamlayır, digər tərəfdən ziddiyyətlər arasında müəyyən zaman daxilində müvazinət mövcud olur. Sonra əksliklər bir birini əvəz edir, öz yerlərini dəyişməklə onların müvəqqəti birləşməsinə imkan yaranır. Qeyd etmək olar ki, əksliklər müvəqqəti və keçicidir, lakin onlar arasında mübarizə həmişə nisbidir. Yuxarıda deyilənlərin hamısını nəzərə alsaq belə nəticəyə gəlmək olar ki, bu qanun ümumi hərəkət və inkişafın səbəblərini, mənbələrini və hərəkətverici qüvvələrini müəyyənləşdrir. Bir çox filosoflar dialektikanın bu qanunu inkişafın mənbəyi və hərəkətverici qüvvəsi kimi, daha doğrusu dialektikanın nüvəsi, məğzi və özəyi kimi şərh etmişlər. Bir daha bu qanunun məzmununu və mahiyyətini belə bir fikirlə tamamlamaq olar ki, **əksliklərin vəhdəti və mübarizəsi qanunu inkişafın mənbəyi və impulsu** kimi qəbul edilir. Varlığın müxtəlif sahələrindəki ziddiyyətlər özünəməxsus xarakterik xüsusiyyətlərə malikdir. Onların hamısı üçün ümumi cəhət mövcuddur. Bu da ondan ibarətdir ki, inkişaf dövründə vahidin əksliklərə parçalanması, onların bir-birinə qarşılıqlı təsiri, ziddiyyətlərin yaranması və həlli yolları baş verir.

## 4. İnkarı inkar qanunu

E.Hegel dialektikanın mahiyyətini şərh edərkən **"inkar"** anlayışından istifadə etmişdir. O, belə bir fikri izah edərkən qeyd etmişdir ki, **"mütləq ideya"** özünün məntiqi inkişafında inkar olunur və ya inkar edir. Çox vaxt inkişaf prosesində köhnə keyfiyyətin yeni keyfiyyət ilə əvəz olunmasında, daha doğrusu inkar olunanla inkar edən arasında əlaqə, varislik prinsipləri yaranır, mühüm müsbət elementlər saxlanılır, hifz olunur və nəticədə mütərəqqi və ya hansı keyfiyyətdə varsa, bir inkişaf üçün şərt yaranır. Belə göstərmək olar ki, yerin geoloji dövrləri

bir-birini əvəz edir və ya ulduzlar bir müddət mövcud olur, sonra sönür və yox olur. Bitki və ya heyvan nəsli də bir müddət yaşayır və məhv olurlar. Bu prosesi təbiətlə yanaşı cəmiyyətə də aid etmək olar yəni nəsillər bir-birini əvəz edir. Deməli inkar gerçəklikdə yayılmış geniş münasibətlər formasıdır.

İnkarın müxtəlif tipləri və növləri vardır. Təsir dairəsinə görə inkarları iki qismə ayırmaq olar: **destruktiv inkar və konstruktiv inkar.** Destruktiv inkar zamanı sistem dağılır və məhv olur, nəticədə inkişafın dayanmasına səbəb olur. Məsələn, hansısa bitki toxumunun əzilməsi, yandırılması, bir sözlə məhv edilməsi destruktiv inkardır. Daha doğrusu inkişaf zamanı sistemin dağılmasında xarici amillər mühüm rol oynayır. Əks mənada bitki toxumlarının torpaqda inkişafı (yəni gövdə, budaq, yarpaq, gül açmaq və s. kimi) və məhsuldarlıqla bitən nəticə özü-özünün inkarı olmaqla konstruktiv hesab olunur. Nümunələri ümumiləşdirməklə konstruktiv inkarda ibtidai ilə alinin, sadə ilə mürəkkəbin xeyir ilə şərin müsbət və mənfinin və s. dialektik əlaqəsi təmin olunur. Proqressiv inkişafda hansısa zaman daxilində hər bir inkarın əlaqə momenti mövcuddur ki, bu da nəticədə inkarı inkarın mütləq mənada zirvəsi (yəni inkarların inkişaf mərhələsinin yenilənməsi) yaramır və inkişafın bir həlqəsi tamamlanmış olur, daha doğrusu başlanğıc nöqtə ilə sonuncu nöqtə üst-üstə düşərək köhnə ilə yenilik özünü təsdiq edir. Fəsilləri, gecənin gündüzlə dəyişməsini, günəşin vaxtaşırı olaraq enib-qalxmasını, fəsillərin bir-birini əvəz etməsi və s. məlumdur ki, dövrani xarakter daşıyır. Məsələn XIII əsrdə yaşayan italyan sosioloqu **C.Viko (1668-1744)** özünün tarixi dövran nəzəriyyəsini yazıb yaratmışdır. Onun nəzəriyyəsində cəmiyyətin inkişafı üç dövrə ayrılır: **uşaqlıq, gənclik və yetkinlik dövrü**. Məlumdur ki, cəmiyyətin üçüncü dövründə cəmiyyət qocalır və deqradasiyaya uğrayır və özünün başlanğıc halına qayıdır və inkişaf dövranını yenidən təkrar edir. Bu konsepsiyada cəmiy-yətin inkişaf dövranı nəzərə alınmır. Sonralar bu nəzəriyyə Nitşe və başqaları tərəfindən davam etdirilir. Fransız alimlərindən

Lamark belə fərz edirdi ki, canlı təbiət heç bir sıçrayış olmadan fasilə olmadan yüksələn düz xətt boyunca inkişaf edir.

Maarifçilərdən **Didro, Helvetsi, Kondorce** və başqaları yüksələn inkişaf nəzəriyyəsini cəmiyyətə aid etmişlər. Düz xətli inkişaf əsasən insan zəkasına əsaslanan Avropa tarixini qeyd etmək olar. Ancaq bunu bəşəriyyətə aid etmək düzgün olmazdı. Məsələn, bir çox sivilizasiyaların məhv olmasını, yüksək inkişaf etmiş ərəb, hind, çin mədəniyyətinin inkişaf surətinin zəifləməsini bunun parlaq nümunəsi kimi göstərmək olar.

Beləliklə, inkarı inkar qanunu özündə bir çox mühüm xüsusiyyətləri əks etdirir. Əvvəla, inkişaf nə düz xətt boyunca, nə də dairə formasında getmir. İnkişaf spiralın hər bir yuxarı mərhələsi olmaqla sanki əvvəlki mərhələsinə qayıda bilir. Bir sözlə inkarı inkar qanununda inkişaf **spiralvari formada** baş verən proses kimi qəbul edilir. İnkişafın spiralvari formada baş verməsi heç də həmişə irəliyə doğru istiqamətlənmiş dəyişikliklər kimi qəbul etmək olmaz. Çünki bu prosesdə tənəzzül yönümlü istiqamətlər də baş verə bilər. Bir sözlə inkarı inkar qanunu inkişafın istiqamətini və nəticəsini göstərir. İnkişafın bir mərhələsindən digər mərhələsinə keçid inkar adlanır.

**İnkarı inkar qanunu yeni ilə köhnənin əlaqəsini göstərir, varisliyi, təkrarolunanlığı, bir sözlə irəliyə doğru inkişafın xarakterini sübut etməyə çalışır.** Bir sözlə dialektikanın bu üç qanunu bir-birilə sıx vəhdətdədir və biri digərinə nüfuz edir. Əksliklərin vəhdəti və mübarizəsi qanunu inkişafın necə baş verdiyini göstərir, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanununda inkişafın səbəbi və mənbəyi açıqlanırdısa, inkarı inkar qanununda isə inkişafın irəliyə doğru istiqaməti göstərilir. Bu qanunların hər biri ümumilikdə hadisə və proseslərdə dialektik tamlıq təşkil edir və vahid inkişaf mexanizminin mahiyyətini açmağa xidmət edir.

## 5. Dialektika təlimində kateqoriyalar və ümumelmi anlayışlar

Məlumdur ki, hər bir elm gerçəkliyin hansı sahəsini öyrənməyindən asılı olmayaraq problemlərin həllində ümumi anlayışlar sistemindən istifadə edir. Lakin fəlsəfə isə gerçəkliyin ümumi cəhətlərini, əlaqələrini, tərəflərini və xassələrini əks etdirən anlayışlar və kateqoriyalar vasitəsilə öyrənir. Dialektikanın kateqoriyaları ilə bağlı fikrimizi nəzərdən keçirdikdə buraya varlıq, materiya, hərəkət, məkan, zaman, səbəb, zərurət, təsadüf, azadlıq və s. kimi anlayışların adlarını qeyd edə bilərik. Diqqətinizə çatdırdığımız baxışlarda həm anlayışlar, həm də kateqoriyal sözlərdən istifadə edirik. "Onda bunlardan hansı əsas götürülür?" sualına belə cavab vermək olar ki, bütün kateqoriyalar anlayış kimi qəbul edilə bilər, amma bütün anlayışlar kateqoriyalar kimi anlaşıla bilməz. Çünki, kateqoriyalar anlayışlara nisbətən daha geniş anlayışdır, yəni ən ümumi məzmuna malik olmaqla varlığın bütün formalarını (təbiət, cəmiyyət, insan) əhatə edir. Həmçinin ümumelmi anlayışlar da dialektikanın kateqoriyalarına daha yaxındır. Ona görə də biz kateqoriyaları şərh etməzdən əvvəl ümumelmi anlayışların düzgün işlədilməsini bilməliyik. Dialektikanın kateqoriyaları elmlərin inkişafının nəticəsidir. Dialektikanın kateqoriyaları geniş məzmuna malik olmaqla bu münasibətlərdə kateqoriyaları iki əsas qrupa ayrılır: **1) varlığın quruluşunu əks etdirən kateqoriyalar, 2) varlığın determinasiya və səbəbiyyət əlaqələrini ifadə edən kateqoriyalardır ki, biz bunları ardıcıllıqla şərh edəcəyik.**

**Varlığın quruluşunu əks etdirən kateqoriyalara "təkcə və ümumi", "mahiyyət və hadisə", "məzmun və forma"**nı xüsusilə göstərmək olar. İnsan təbiət münasibətlərində aydın olur ki, bir sıra predmetlər ümumi cəhətlərə malikdir, lakin təkcə dedikdə predmetin başqalarından fərqlənən özünəməxsus keyfiyyəti və xassələri mövcuddur. Lakin ümumilikdə isə hadisələrə, proseslərə oxşar cəhətlər çoxdur. Əslində təkcə ilə ümuminin əlaqələri **"xüsusi"** kateqoriyanın vasitəsilə təmin olunur. Çünki, xüsusi təkcəyə münasibətdə ümumidir. Məsələn, "Maral buy-

nuzlu heyvandır” cümləsində maral təkcəni, buynuz xüsusini, heyvan isə umumilik bildirir.

**Mahiyyət və hadisə kateqoriyası** gerçəklidə müəyyən olunan obyektlərin bir-biri ilə sıx əlaqəsini müəyyənləşdirərərək bir-biri ilə sıx əlaqəsi olan iki amili, zahiri - yəni üzdə olan məlumatlar və daxili - dərində olan məlumatlar nəzərdən keçirilir. Mahiyyət daha doğrusu predmetin təbiətini aydınlaşdırmağa çalışır. Dialektika sübut edir ki, əməli fəaliyyətin ümumiləşməsində mahiyyət və hadisə birləşərək vahidlik prinsipinə əsaslanır. Əslində hadisə mahiyyəti tamamilə əhatə etmir, onu yalnız hansı tərəfdənsə səciyyələndirir. Müəyyən hallarda mahiyyət ilə hadisə vahidliklə yanaşı ziddiyyət də təşkil edir. Çox vaxt mahiyyət üzdə olmur, sanki gizlidir. Lakin predmet uzun müddət öyrənildikdən sonra onun mahiyyəti aşkar oluna bilər.

**Məzmun və forma kateqoriyasında** məzmun dedikdə predmetə xas olan bütün elementlərin məcmusu və onlar arasındakı qarşılıqlı əlaqələr başa düşülür. Formanı isə məzmunun struktur quruluşu hesab etmək olar. Məzmunsuz forma, formasız məzmun yoxdur. Məzmun dəyişdikcə forma da dəyişir. Məzmuna xas olan ziddiyyətlər daim hərəkətdə və inkişafda olur. Məzmun formanı müəyyənləşdirir. Forma da əslində məzmuna fəal təsir göstərir, məzmunun inkişafına ya kömək edir ya da əngəl törədir. Ancaq məzmuna uyğun gəlməyən köhnə forma məzmuna əngəl törədə bilir. Məzmuna nisbətən forma sabitdir, nisbətən məzmundan geri qalır. Yeni məzmun yaranarsa, köhnə forma arasında ziddiyyət daha da güclənir və nəticədə yeni forma yaranmış olur. Bu minvalla məzmun gələcək inkişaf üçün vacib olur və perspektivlər əldə olunur. Ümumiyyətlə, elə bir əlaqələr sistemi yoxdur ki, orada məzmun və forma olmasın. Bu proses əslində həmişə davam edir, çünki, bunu dialektika qanunu tələb edir.

**Determinasiya əlaqələrini ifadə edən kateqoriyalara** səbəbiyyət və nəticəni, zərurət və təsadüfü, imkan və gerçəkliyin adlarını qeyd etmək olar. Hadisə və proseslər arasında determinizm prinsipi əhəmiyyətli yer tutur. Bu prinsipə görə başa

düşülür ki, varlıqda mövcud olan və baş verən hadisə və proseslər müəyyən səbəblər prinsipi ilə şərtlənir. Şeylərin hadisə və proseslər müəyyən qanunauyğunluq haqqındakı təlim **determinizm (latınca-determinal sözündən olub müəyyən etmək kimi başa düşülür**). Bunun əksi olan təlim **indeterminizm** adlanır. Varlıqda səbəbiyyət ən ümumi, universal mahiyyət daşıyır. Həyatda səbəbsiz heç bir hadisə yoxdur və bilməz. Səbəbiyyət gerçəkliyə xas olan əlamətdir və praktika prosesində aşkar olunur.

Səbəbiyyət əlaqəsinin birinci əlaməti iki hadisə arasında hasiledici və törədici münasibət yaradır. Bu zaman səbəb nəinki zaman baxımından nəticədən əvvəl gəlir, o da öz növbəsində nəticəni törədir, onun meydana gəlməsini və mövcud olmasını genetik surətdə şərtləndirir. Səbəbiyyət əlaqəsinin substansional xarakteri ilk dəfə Hegel tərəfindən qeyd olunmuş və o, səbəbiyyəti "substansiyanın yürüşü" adlandırmışdır.

Səbəbiyyət əlaqəsinin daha bir mühüm əlaməti odur ki, məkan və zaman etibarilə fasiləsizliyidir. Digər tərəfdən hadisələr səbəb və nəticə etibarilə hadisələr zənciridir. Səbəbiyyət əlaqəsinin ən mühüm əlaməti onun ən ümumi səciyyə daşımasıdır. Bu münasibətlərin ən ümumiliyi o deməkdir ki, dünyada elə bir hadisə yoxdur ki, onun mövcudluğu səbəblə bağlı olmamış olsun.

Səbəbiyyət əlaqəsi öz formalarına görə və əhəmiyyətinə görə rəngarəngdir və bu zaman o, müxtəlif formalarda meydana çıxır ki, biz bunu xarakterinə görə daxili və xarici, başlıca və qeyri-başlıca, zəruri və təsadüf ola bilir.

**Zərurət və təsadüf kateqoriyalarının** təhlili zərurət və təsadüfün qarşılıqlı əlaqəsinin inkişafda bir sıra momentlərini aşkara çıxarmağa imkan verir. **Zərurət** – prosesin daxili mühüm əlaqələrinin qanunauyğun şəkildə baş verməsi ilə hazırlanan hadisədir. **Təsadüf** – xarici əlaqə və münasibətlərdən törəyir, müəyyən şəraitdə baş verməsi labüd ola bilər və ya olmaya da bilər. Zərurət hadisələrin inkişaf qaydasını müəyyən edir və həyatın bütün sahələrində hökm sürür. Lakin təsadüf hadisələrin

mühüm və ya qeyri-mühüm əlaqələrinə görə ümumi xarakter daşımır.

Zərurət qanunauyğunluqla bağlıdır və ondan törəyir. Digər tərəfdən qanunlar zəruri qüvvə kimi reallığın bütün sahələrində məcburi xarakter daşıyır. Zərurət qanunun mühüm əlamətidir.

Ümumiyyətlə, zərurət və təsadüf sıx dialektik əlaqəyə aiddir və maddələr, sistemlərin inkişafında kök salmış prosesdir. Bir sistemin reallaşan hər bir inkişaf mərhələsi onun sonrakı inkişafı üçün tam imkanlar yaradır. Müasir elm sübut edir ki, zərurətlə yanaşı təsadüflər hadisələr sistemində mühüm rol oynayır. Təsadüflərin rolu özünütəşkiletmə prosesi üçün səciyyəvi mahiyyət daşıyır və geridönməzliyin keyfiyyətində özünü göstərir.

**İmkan və gerçəklik.** Gerçəklik dedikdə müəyyən zamanda bu və ya digər obyektin konkret varlığı başa düşülür. Burada gerçəklik öz məzmunu ilə imkan anlayışı ilə müqayisə olunmur. İmkan və gerçəklik ayrılmaz tərəflərdir. Hadisə və proseslərin yaranma imkanı maddi aləmin qanunlarından irəli gəlir. İmkan və gerçəklik inkişafın iki tərəfi kimi inkişafın çıxış momenti və nəticəsi kimi bir-birini tamamlayır. İmkanlar müxtəlif olur və iki cür imkan mövcuddur; **abstrakt (formal) imkan və real imkan.** Müəyyən qanunauyğunluqda hər iki tərəf yəni, formal və real imkan bir-birini şərtləndirsə də konkret tarixi şəraitdə gerçəkliyə çevrilə bilmir, çünki onun gerçəkliyə çevrilməsi üçün ilkin şərait yoxdur, ancaq real imkana arxalanmaq olar. Əslində imkanın gerçəkliyə çevrilməsində iki şərt mühümdür. Əvvəla, müəyyən qanunun fəaliyyət göstərməsi, daha sonra isə müvafiq şəraitin mövcudluğudur. **Əslində imkanlar müxtəlif növlər kimi mövcuddur; mühüm və qeyri-mühüm, geriyə qayıdan və ya geriyə qayıtmayan, formal və real imkanlar**.

Əlbəttə dialektik determinizmin inkişafı hadisə və proseslərin müəyyən inkişaf prosesində yeni-yeni imkanların yaranması kimi edir. Bu nəzəriyyə göstərir ki, bütün yaranmış imkanların hamısı yox, yalnız onların bir qismi gerçəkliyə çevrilə

bilər. Ona görə də imkan və gerçəkliyin dialektik əlaqəsinin mahiyyətini praktik fəaliyyətdə başa düşmək mümkündür.

Ümumiyyətlə, fəlsəfi kateqoriyalar gerçəkliyin ümumi və mühüm cəhətlərini, əlaqələrini, tərəflərini və xassələrini əks etdirir. Dialektikanın kateqoriyaları insanların min illər boyu davam edən təcrübəsinin, onların ümumi idrakının ümumiləşdirilməsidir.

# XI FƏSİL

# FƏLSƏFƏDƏ İNSAN - ŞÜUR PROBLEMİ

1. **Fəlsəfədə insan mövzusunun yeri, mənşəyi və mahiyyəti**
2. **İnsan və onun bioloji-sosial istiqamətləri**
3. **Fəlsəfədə şüur problemi və onun mahiyyəti**
4. **Şüurun ictimai təbiəti və onun strukturu**

## 1. Fəlsəfədə insan mövzusunun yeri, mənşəyi və mahiyyəti

İnsan mövzusunun şərhində əvvəlcə **F.M. Dostoyevskinin** belə bir fikrini çatdırmaq istəyirəm**: "İnsan sirdir, sehrdir. Onu tapmaq lazımdır. Əgər bütün həyatın boyu axtarıb, nəhayət onun sirrini tapsan demə ki, vaxt itirmişəm". Bəzi mütəfəkkirlərin fikrincə insan qeyri-adi və bənzərsiz bir varlıqdır, təbiətin və tarixin yaratdığı bir möcüzədir. Digərlərinin fikrincə insan təbiətin səhvidir, gələcəyi yoxdur. Kimin səhv və ya doğru olduğu barədə hələ də müxtəlif səpgidə fikirlər söylənilir: insan həm dünyanın əşrəfi, həm də dünyanı təhlükə altında saxlayan bir varlıq kimi qəbul edilir**.

Son illərdə təsadüfi deyildir ki, insan fəlsəfənin varlıq anlayışına daxil edilmiş və onun dünyada yeri və rolu haqqında baxışları fəlsəfənin əsas məsələsi kimi şərh olunur. Bir sözlə insan və onun mahiyyəti, maddi və mənəvi mövcudluğunun problemləri əsrlər boyu öyrənilmiş və bundan sonra öyrənilməkdə olan problemlər sırasına daxildir. İnsan təbiətin bütün yaratdıqları içərisində xüsusi fərqlənən varlığın bir növüdür. İnsan təbiəti dəyişdirir, öz fəaliyyətini planlaşdırır, cəmiyyəti, mədəniyyəti, istehsalı və müxtəlif sferaları yaratmışdır. Tarix boyu insan zəkalı, əqilli, təfəkkürə malik olan varlıq kimi inkişaf etmişdir.

**Alman filosofu Maks Şeller (1874-1928)** fəlsəfi antropologiyanın yaradıcısı olmaqla, o keçən əsrin 20-ci illərində nəşr etdirdiyi əsərlərində **("İnsan ideyası", "İnsanda əbədi olan**

**haqqında", "İnsanın kosmosda yeri" və s.)** insan mədəniyyətin və dünyanın yaradıcısı kimi şərh edilir. Antropologiya elmi ilk dəfə 1594-cü ildə **O.Qosman** tərəfindən işlədilmişdir və insanın mahiyyəti haqqında təlim kimi qəbul edilir.

Verilən məlumatlara görə Antik dövr filosofu olan **Diogen** əlində çıraq gəzdirərək insan axtarmışdır. **Protoqor** insanı bütün şeylərin elçisi hesab etmiş, **Aristotelə** görə "siyasi heyvan", **Epikürə** görə fəlsəfənin əsas məqsədi insanın xoşbəxtliyə çatmasıdır. **Platona** görə insanın mahiyyətini onun ruhu təşkil edir, onun bədəni isə ruha düşmən olan materiyadır. İnsan sanki iki hissəyə bölünür: ruh və bədən. **Sokrat** həmişə insanın mahiyyətini öyrənməyə çalışmış, insanın təbiəti və reallığı onu daim düşündürmüşdür. Sokrat insan anlayışını mənəviyyat sahəsində ruh haqqında təlim səviyyəsinə görə "insan-ruhdur" və ya "ruh-insandır" devizini əsas götürmüşdür.

Orta əsrlərin islam fəlsəfəsinin müzakirəsində insan əsas yer tutur. İslam filosofları insanı mənəvi simasının daşıyıcısı kimi qəbul edərək, iki əsas istiqaməti müəyyən etmişlər: **a) özünüdərketmə, b) cəmiyyəti dərketmə.** İslam fəlsəfəsində insan bir cisim kimi maddiyyatla, ruh kimi isə mənəviyyatla əlaqələndirilir. Maddiyyat (bədən) müvəqqəti, mənəviyyat (ruh) isə əbədidir.

Lakin orta əsrlərin Qərb fəlsəfəsinin banisi **Foma Akvinski** insan probleminə də öz münasibətini bildirmişdir. O, bildirirdi ki, insan mikrokosmosa aiddir, onun mühərriki onun qəlbidir, qəlb isə ruhla bağlıdır, lakin insanın iradə azdlığı isə Allahın əlindədir. Xristian dinində qeyd olunur ki, "**insan Allahın obrazı və bənzəridir**". İnsanın əsas vəzifəsi Allaha qovuşmaq və qiyamət günündə öz günahlarına görə cəza çəkməlidir.

Klaasik Alman fəlsəfi fikrində **İ.Kanta** görə "insan bütün dünyanın predmetidir". İ.Kant insanı əxalaqi mövcudat kimi qəbul edərək, o həmişə insanı azad və müstəqil görmək istəyirdi. **E.Hegel** insanın heyvandan təfəkkür vasitəsilə fərqləndiyini qəbul edirdi. O, insanı mənəvi fəaliyyətin subyekti kimi dəyərləndirmişdir, eləcə də ruhun və zəkanın daşıyıcısıdır. **L.Feyrbaxın**

antropoloji materializmində insanın mahiyyəti ön plana çəkilir, həm də bioloji varlıq kimi xarakterizə olunmuşdur.

Azərbaycanın ictimai və bədii fikir tarixində insan dəyərinə çox yüksək qiymət verilir, insanlar köhnəliyə qarşı mübarizəyə səsləndirilirdi. **N.Gəncəvi** insanı ən şərəfli varlıq hesab edərək, insanı yüksək amallar uğrunda mübarizəyə səsləmişdir. İnsanı bacarığı və qabiliyyətinə görə yer üzünün ən ali varlığı kimi qiymətləndirmişdir. **N.Tusi, M.Füzuli, M.F.Axundov** yaradıcılığında insan kamilliyindən, ictimai birliyə möhtac olmasından, idraki qabiliyyətə malik olmasından, insan və onun həyatının azadlığından geniş şəkildə şərh olunmasını görə bilərik. **İ.Nəsimi** fəlsəfəsində insana təkcə ontoloji deyil, həm də humanist və etik məzmun verərək insanı **"kiçik aləm"** adlandırmış, insanın **"Mən"ini "Haqq"** anlayışı ilə eyniləşdirməyə çalışmışdır.

Lakin müasir fəlsəfi antropologiyada insan bir aqressiv subyekt kimi də qiymətləndirilir və göstərilir ki, bütün bunlar təsadüfi deyil, çünki insanda qaranlıq və neqativ tərəflər də mövcuddur. Xüsusilə bu qiymətləndirmə **Z.Freydin** psixoanaliz təliminin təhlilindən sonra həyata keçirilir. Z.Freydə görə qeyri-şüuri meyllər insan ruhunun təzahürüdür, çünki insan daim şüur ilə qeyri-şüurun münaqişəsini yaşayır. Psixoanalizə görə insan özünü aldatmağa meyllidir və müxtəlif meyllərlə idarə olunan varlıqdır. Lakin **M.Şeller və L.Frank** tərəfindən bu baxış qəbul edilməmişdir. Müasir antropoloji fəlsəfədə insan anlamı **"Mən", "Şüur", "Şəxsiyyət", "Ruh", "Zəka", "İdrakın subyekti", "Şəxsiyyət"** və s. kimi anlayışlarla xarakterizə olunmuşdur.

İnsan problemini bir çox elmlər – antropologiya, tibb, psixologiya, hüquq, sosiologiya və s. öyrənsə belə, lakin fəlsəfə bunlardan tam fərqli olaraq bu problemi araşdırır. Fəlsəfə insan problemini şərh edərkən əvvəlcə əsas iki analyışı götürür: **insanın təbiəti, insanın mahiyyəti.** Məlumdur ki, bu anlayışlar demək olar ki, məzmunca eynidir, lakin mənaca fərqlidir. İnsana məxsus olan mənəvi-idraki fizioloji keyfiyyətlərin (əql, əxlaq, şüur, qavrayış, mühakimə, yaddaş və s.) fərqliliyi üzə çıxır. Bunu belə

başa düşmək olar ki, insan həm təbiətə, həm cəmiyyətə, həm cismani bədənə, həm də düşünən ruha malikdir,o həm də mədəniyyət normalarını və dəyərlərini ardıcıl olaraq mənimsəyir, özünün fərdi xüsusiyyətlərini yaradır və şəxsiyyətə çevrilir.

İnsan real gerçəklikdə ictimai münasibətlərin daşıyıcısıdır. **Əvvəla,** ictimai münasibətlər insanın özü tərəfindən yaradılır amma, ictimai münasibətlər insanın mahiyyətinə aid olunmur, ancaq insan ictimai münasibətlərin mahiyyətindədir.

**İkincisi,** insan mənəvi-ruhi varlığın mahiyyətindədir. **Üçüncüsü,** ictimai münasibətlər həm də cəmiyyətin mahiyyətidir. Bu baxımdan bütövlükdə bütün cəmiyyəti insanın mahiyyətinə aid etmək olar.

**Dördüncüsü,** ictimai münasibətlərin məcmusu konkret tarixi başlanğıcla müşayət olunur və nəticədə tarixi inkişafın mərhələləri yaranır. İctimai münasibətlərin məzmununa daxil olan amillərdən biri də əmək və maddi istehsal münasibətidir.

Beləliklə, insanın mahiyyəti "hər bir insan fərdinə məxsus olan" ümuminsani keyfiyyətlərin məcmusu kimi də izah oluna bilər. Yəni hər bir fərdi insanda ümuminsani əlamətlər və keyfiyyətlər mövcuddur, əlbəttə, bu keyfiyyətlər bioloji varlıq kimi təbiətdən, sosial varlıq kimi ictimai prosesdən yaranır.

## 2. İnsan və onun bioloji-sosial istiqamətləri

İnsan tarix boyu fiziki və mənəvi, təbii və sosial tərəfləri özündə birləşdirərək daim hadisələrin təbii əlaqəsinə qoşulur. Məlumdur ki, insan həm sosial, həm də bioloji varlıqdır. Dünyaya gələn hər bir insan beyin quruluşunu, əsəb sistemini bir sözlə genetik quruluşunu irsən əldə edir. Təbii əlamətlər ünsiyyət prosesində sosial həyat tərzində formalaşır. İnsanın fəaliyyəti və dünyagörüşü ictimai-siyasi mühitdən və onu təmsil edən sosial qrupların xüsusiyyətlərindən asılıdır.

İnsanın mənəvi fəaliyyəti və mənəvi dünyagörüşü qabaqcadan proqramlaşdırılmır. İnsan baş verən hadisə və proseslərin iştirakçısı olur və nəticədə onun sosial fəallığı üzə çıxır. İnsan

bioloji varlıq olmasına baxmayaraq, tam başqa təbiətli varlıq insani instinklərdən ibarət olan anadangəlmə davranış proqramlarına malik deyildir. İnsan bioloji növ olduğu üçün onun irsiyyət və dəyişkənlik, böyümə, çoxalma, həyatı tərk etmə və s. kimi qanunauyğunluqlara xas olan əlamətlər mövcuddur. Bütün bu məsələlərin izahında bioloji və sosial tərəflərin nisbətinin ifadə olunması əsas şərtlərdən biridir və buna baxmayaraq hər iki tərəf əsas rol oynayır.

Sosioloqlar belə hesab edirlər ki, gen ilə mədəniyyət birgə inkişaf edir və insanda üzvi və mədəni təkamül baş verir. Bunlar bir-biri ilə sıx əlaqədə inkişaf etsə belə əsas rolu gen yaradır və buna görə də insanların bir çox hərəkətlərinə səbəb genlər olur. Məsələn, **Uilson** hətta insan da daxil olmaqla heyvanlarda sosial davranışın bütün formalarının bioloji əsasla öyrənilməsini əsas götürüdü. Uilsonun tərəfdarları belə hesab edirdilər ki, ehtimal ki, əxlaqi hisslər də bioloji kanallar vasitəsilə irsən keçir. Onlar nümunə kimi ibtidai cəmiyyətdə qan qohumları arasında olan nigahın qadağan olunmasını göstərirdilər və bu hadisənin yasaqlığını heyvanlar aləmindən qəbul olunmuş bir əlamət kimi izah etmişlər. Bu istiqamət və bu ideya sosiobioloqlar tərəfindən irəli sürülmüşdür.

XVIII əsrdə ingilis iqtisadçısı **Maltus** iddia edirdi ki, ictimai həyat fərdlərin yaşayış uğrunda mübarizəsinə əsaslanır. **Ç.Darvin** isə insanın formalaşmasında təbii seçmə və təkamülü əsas götürürdü. Lakin daha sonralar **etalogiyaya** (heyvan davranışı haqqında elm) görə insanda müəyyən hərəkətlər irsən instiktivdir, mürtəcilik, yırtıcı təbiət guya heyvan nəslindən keçmədir.

Lakin sosioloji konsepsiyada ancaq insanda sosial tərəflər əsas götürülür və mütləqləşdirilir. İnsan özü təbiətin tərkib hissəsi kimi qəbul edilməklə insan bədəni və canı, beyni ilə təbiətə məxsusdur. Belə qeyd etmək olar ki, insana sosioloji konsepsiyanın növ müxtəlifliyi kimi baxıla bilməz, çünki, bioloji və sosial amil vəhdətdə qeyd olunur. Daha doğrusu sosioloji konsepsiyaya görə insan tamlıqda bioloji, sosial və psixi mənəvi ölçüləri təşkil edir.

İnsan bioloji cəhət kimi varlığın ilkin şərti hesab olunur, özündə fizioloji, genetik, beyin əsəb sistemi, elektrokimyəvi və s. kimi prosesləri özündə ehtiva edir.

İnsan haqqında təkcə bizim qeyd etdiyimiz baxışlar heç də problemi tam əsaslandırmır, xeyli konsepsiyalar və baxışlar mövcuddur. Bəs amillərdə qeyd olunur ki, guya insana xarici təsir göstərməklə onun təbiətini istənilən istiqamətdə dəyişmək mümkündür. Bir çox dövrlərdə insanların ictimai psixologiyasına təsir göstərməklə kütləvi psixoz vəziyyəti yaradılmışdır, lakin bu qısa müddətdə baş vermişdir və yenidən şüur əvvəlki öz vəziyyətinə qayıtmışdır. Deməli, güclə edilən xarici təsirin mənası ola bilməmişdir.

Məlumdur ki, insan cəmiyyətdə yaşayır və müxtəlif sosial əlaqələr (iqtisadi, ideoloji, siyasi) sistemində fəaliyyətdə olur. İnsan paralel olaraq həm cəmiyyətlə, həm də təbiətlə təmasdadır. Təbiətin insanda yaratdığı tərəflərin məcmusu insanın bioloji istiqamətini, ictimai münasibətlər sistemində insanın əldə etdiyi tərəflər isə, insanın sosial istiqamətini müəyyən edir. İnsan istehsal münasibətində zaman keçdikcə modifikasiyaya uğrayaraq, daha yüksək səviyyə istiqamətində inkişaf edir. İnsanın yüksək şüurlu varlığa çevrilməsinin əsas səbəbi genetik irsə malik olmaqla yanaşı insan əsrlər boyu yaratdığı zəngin olan maddi və mənəvi irsi şüurlu şəkildə gələcək nəsillərə ötürmək qabiliyyətindədir.

Deyilənləri yekunlaşdırsaq, belə qənaətə gəlmək olar ki, biolojiliyi və sosiallığı yalnız abstrakt baxımından ayrılıqda götürdükdə, insanın mahiyyətində və mövcudluğunda müxtəlif qütblər əhatə olunur. Məsələn, insanın orqanizmi onun bioloji qütbü hesab olunmaqla biofiziki və fizioloji qanunlara əsaslanır. Bu qanunlar insanın tamlığını və mövcudluğunu qorumaqla sabit sistem kimi qəbul edilməli, sosial qütb isə insanın konkret tarixi məzmuna malik olmasını göstərərək, hər bir dövrün məzmununa və sosial şəraitinə uyğun olan insan formalaşır. Beləliklə, **Spirkin** insanın bioloji və sosial varlığının mahiyyətini belə şərh etmişdir: “İnsan təcəssüm olunmuş ruha və bədənə malik zəkalı mənəvi-

maddi varlıqdır. O, eyni zamanda əməyin, sosial münasibətlərin və nitqin köməyilə həyata keçirilən ünsiyyətin subyektidir".

## 3. Fəlsəfədə şüur problemi və onun mahiyyəti

Fəlsəfə tarixində şüur probleminə çox müxtəlif mövqedən yanaşılmışdır. Qədim fəlsəfənin bəzi nümayəndələri **Demokrit, Epikür, L.Kar** şüuru insan bədənindən asılı hesab etmişlər. Xüsusilə Demokrit belə qeyd edirdi ki, insan bədənin səthi altında incə atomlar təbəqəsi mövcuddur, onlar xarici siqnalı qəbul edir və nəticədə həmin siqnallar şüura çevrilir.

Adlarını qeyd etdiyimiz digər sələflər isə qeyd edirlər ki, insan uşaqlıq dövründə zəif ruhi qabiliyyətə malik olurlar, lakin böyüdükcə yəni insan orqanizmi təkmilləşdikcə ruhi qabiliyyət daha da güclənir və ya əksinə insan qocaldıqca onun ruhi qabiliyyəti zəifləyir. Onların anlamına görə ruhi qabiliyyət şüurlu fəaliyyət kimi başa düşülür. Platon şüuru **"ideyalar aləmi"ni "maddi aləmə"** qarşı qoymuş və "ideyalar aləmi"nin ilkin olması fikrini qəbul etmişdir. Daha sonra şüur **"Dünya ruhu", "Mütləq ideya"** gerçəkliyin əsası hesab edilməklə müəyyənedici kimi izah edilmişdir. **Hegel qədər Fixte, Şellinq, Berkli** və digərləri şüurun gerçəklikdən asılı olmasını qeyd edərək müxtəlif formalarda əsaslandırmağa çalışmışlar.

Yeni dövr fəlsəfəsinin nümayəndələrindən **R.Dekart iddia edirdi ki, "əgər mən bir prosesin mövcudluğuna etiraz edirəmsə, deməli mən ona şübhə edirəm. Əgər şübhə edirəmsə, deməli mən fikirləşirəm. Əgər mən fikirləşirəmsə, mən mövcudam. Əgər fikirləşməyim dayanarsa deməli, mən mövcud deyiləm**".

Onun fəlsəfi baxışlarında ruh, zəka, şüur fikirləşən substansiyanın fəaliyyətidir. **T.Hobbs, G.Helvetsi, B.Spinoza, D.Didro** kimi filosoflar şüuru materiyanın təzahür forması kimi qəbul etmişlər.

Şüur fəlsəfi problem kimi onun genezisi, ictimai-tarixi mühiyyəti və psixiko-fizioloji prosesləri əsas kimi götürülür,

lakin hələ də mübahisəli məsələ kimi qalmaqdadır. Bu problemə fəlsəfi-metodoloji baxımdan yanaşsaq, belə qeyd etmək olar ki, insan şüurunun əmələ gəlməsinin əsasında insanın varlığı və onun gerçəkliyə olan münasibət üsulu kimi başa düşmək olar. Fiziologiya elmi sübut etməyə çalışır ki, psixiki fəaliyyətin əsasında insan beyni və onun yarımkürələrində baş verən **fizioloji, biofiziki, neyrodinamik** proseslər durur.

Şüur öz mahiyyəti etibarilə dünyagörüşüdür və dünyanın insan tərəfindən mənimsənilməsi formasıdır. Şüurun obyekti maddi dünya, təbiət, cəmiyyət və öz şüuru ilə birlikdə götürülən insandır.

XIX əsrin 50-ci illərində yeni bir elm sahəsi yaranmışdır ki, bu elmlərin qovşağında psixoloji dilçilik elmi formalaşmışdır. Bu elm vasitəsi ilə beyin sistemində nitq siqnalları kodlaşdırılır. Bu kompleks şəkildə araşdırılması vacib olan bir elm sahəsidir. Məlumdur ki, dil ünsiyyət vasitəsi kimi hər bir insana, hər bir fərdə aid ola bilməz, o tamlıqda bir kolletktivin, bir xalqın şüuru ilə əlaqələndirilə bilər. İdraki komponent olan təfəkkür daim nitqin qurulmasına xidmət edir. Bir sözlə təfəkkür nitqin mədəniyyət səviyyəsini yüksəldir. Şüur da öz növbəsində nitqi ifadə edən amilə çevrilir. İnsan nitqi ifadə edərkən öz şüurunun əmrinə əsasən müəyyən sözlərdən, onlar arasında əlaqələrdən, forma və kateqoriyalardan istifadə edir.

Dilin fəlsəfəsini ilk dəfə yaradan alman **dilçisi Humbol dil və təfəkkür prosesi arasındakı asılılığı belə hesab edirdi ki, "dil fikri yaradan vasitədir. Zehni fəaliyyət tamamilə daim aləmlə bağlıdır, o yalnız nitq vasitəsilə maddiləşir və ətraf mühiti qavramağa imkan yaradır. Ona görə də təfəkkür və dil ayrılmaz birlik kimi qəbul olunur" (**Новое в лингвистике 1975. Выпуск 7).

Bu günə qədər dil və şüur problemi dilçilər və psixoloqlar tərəfindən tam aydınlaşdırılmamış və müşahidələr bu məsələlərin hələ də qeyri-müəyyən və mübahisəli məsələ kimi qalmaqda olması və tam həllini tapmamasındadır. Lakin buna baxmayaraq "insanın fəaliyyətdə olduğu gerçəklik bir-birinə təsir edən dörd

sistemdən ibarət olduğunu göstərir: **a) təbiət sistemi, b) cəmiyyət sistemi, c) şüur sistemi, ç) dil sistemi”** (Ф.М.Березин, Б.Н.Головин. Обшее языкознание М.Просвешение 1979 с. 72).

İnsan təbiət və cəmiyyət hadisələrini qavrayır, predmetlərin xassələrini, xüsusiyyətlərini, qarşılıqlı əlaqələrini dərk edir. Bu proses canlı seyrdən başlayır və canlı seyr aləmin inikasının başlanğıc nöqtəsi kimi qəbul etmək olar. İnsan hiss üzvləri ilə hadisələrin ayrı-ayrı xassələrini qavraya bilir, lakin mahiyyətini, daxili təbiətini, qanunauyğun əlqələrini aşkara çıxara bilmir. Bu mürəkkəb məsələnin həlli yalnız mücərrəd təfəkkür sayəsində, insanın ictimai praktikasına əsaslanan əqli fəaliyyətin köməkliyi ilə mümkündür.

## 4. Şüurun ictimai təbiəti və onun strukturu

İnsan öz təbiəti etibarı ilə sosial varlıqdır. Lakin onun mahiyyəti belə başa düşülməlidir ki, insan bilikləri, baxışları irsi yolla əldə edir. Bunlar fitri (anadangəlmə) deyildir. Çünki insani keyfiyyətlər yalnız sosial təcrübəyə yiyələnmək prosesində formalaşa bilir, nəticədə insan öz qabiliyyətini, təfəkkürünü inkişaf etdirir. İnsan hisslərinin əsas məzmunu sosial cəhətdən şərtlənir.

Bundan başqa bioloji cəhətdə də şərtlənir və gerçəkliyin inikasının xüsusi formasını təşkil edirlər. Zaman-zaman insanın bioloji məzmunu sosial məzmun elementləri ilə daha çox zənginləşmişdir. Şüurun konkret məzmunu istər insanın sosial varlığı, istərsə də onun bioloji təbiəti ilə formalaşdırılır. Belə qeyd etmək lazımdır ki, bioloji amildən kənarda fərdi şüurun varlığı təsəvvür edilməzdir, ona görə ki, sosial tərəf insanın mahiyyətini təşkil edir və ondakı bütün özünəməxsus ictimaini müəyyənləşdirir. Qeyd olunmalıdır ki, insanda psixi proses konkret hansısa şəraitin təsiri nəticəsində yaranır və fərdi şüurun inkişafının nəticəsi kimi təsdiq olunur.

Şüurun ictimai təbiəti və mahiyyətini ruh anlayışı olmadan araşdırmaq mümkün deyildir. Ruh insanın mənəvi dünyasının daşıyıcısıdır və insan psixikasının tamlığıdır. Ruhun özünün daxili aləminə bir sıra idraki elementləri aid etmək olar. Bunlar ağıl, iradə, xarakter, temperament, hadisə və emosiyadır.

Söylənilən fikirləri bir qədər ümumiləşdirsək qeyd edə bilərik ki, şüur beyinin ali, yalnız insana məxsus olan və dil ilə əlaqəli funksiyasıdır və reallığın real inikasıdır. İnsanların nəzəri və praktiki fəaliyyətində insanın niyyətləri üzə çıxır və bu ideya şəklində təzahür olunur. İdeya nəyin olub-olmadığını planlaşdırır və nəticədə praktik fəaliyyətə yönəldilir. Ancaq şüur psixikanın çox mühüm keyfiyyət formasıdır və daha fəaldır. Bu fəallıq insan beynində ali, məqsədyönlü, funksional bir sosial inikasıdır. Fikrimizdə tutduğumuz və qavradığımız dünya ilə gerçək dünya heç də eyni deyildir. Obraz, inikas doğrudursa, həqiqidirsə, deməli məzmun etibari ilə obyektivdir və o cisim və hadisələrin dərin qatlarında olur.

Şüurun ali səviyyəsi yalnız insana məxsus olmaqla ictimai həyat şəraitində meydana gəlmişdir. Əməyə əsaslanan ictimai həyat insanın şüurunu inkişaf etdirərək ibtidaidən aliyə doğru olan istiqamətini müəyyənləşdirmişdir. Bir sözlə təbiət onun mühəndisi, insan isə daşıyıcısı olmuşdur.

Şüur bütün təzahürlərində dərk edilmiş varlıq olaraq qalır, həm xaricə, həm də daxilə istiqamətlənə bilir. Şüurun belə yönümdə istiqamətlənməsi özünü təhlildən ibarət olur. Şüur insan üçün üç mühüm əhəmiyyətə malikdir. **Birincisi,** şüur idraki əhəmiyyətə malikdir. Şüur vasitəsilə biliklər mənimsənilir və onlar əməli fəaliyyətlərə tətbiq olunur və əldə olunmuş nəticələr varislik prinsiplərinə əsaslanaraq, nəsildən-nəsilə ötürülə bilir. **İkincisi**, şüur ideal hadisələrədən, proseslərdən təşkil olunaraq daxili aləmin məzmununu müəyyənləşdirir. **Üçüncüsü**, şüur öz varlığında insan aləmində özü-özünə münasibətini təşkil edən zəruri münasibət formasıdır. Şüurun yaranması üçün təkcə bioloji amil yox, insanın həyatda fəaliyyət üsulu, yəni onun praktiki fəaliyyəti şüurun formalaşmasının zəruri şərtidir. Məlumdur ki,

ictimai əmək insan şüurunu formalaşdırır. Əmək fəaliyyətinə başlanmasından və əmək alətlərinin yaranmasından sonra bu tələbat özünü daimi göstərmişdir. İnsan özünü təbiətə qarşı qoyur, özünü və təbiəti dərketmək və onu dəyişdirməyin subyekti kimi çıxış edir. Bu münasibətlərdə insan həyatını fəlakətlərə sala biləcək dəyişmələr baş verə bilər. Ona görə də bəşəriyyət öz tarixi inkişafında təhlükəsizlik şəraitini təmin etmək məqsədilə ətraf mühit və insan arasında harmoniya yaratmağa çalışmışdır ki, bu da nəticədə cəmiyyətin tarixi inkişafının nəticəsi onun şüurlu fəaliyyətində sosial münasibətlərə əsalanaraq müəyyənləşdirildi.

## XII FƏSİL

## İDRAK NƏZƏRİYYƏSİ

**1. İdrak fəlsəfi təhlilin predmetidir**
**2. İdrakın metodları**
**3. İdraki inkişafın dialektikası**
**4. İdraki prosesdə dini mifoloji baxışlar və mənəvi-əxlaqi dəyərlər**
**5. İdraki prosesdə ekoloji mədəniyyət anlamı**

### 1. İdrak fəlsəfi təhlilin predmetidir

Tarixi inkişafın bütün mərhələlərində insan təbiətin bir hissəsi olmaqla onu dərk etməyə çalışmışdır. Ətraf aləmdə gedən hadisə və proseslərin baş vermə səbəbini axtarmağa çalışmışdır. Odur ki, idrak mövzusu fəlsəfənin öyrənmə dairəsində başlıca yer tutur. Məlumdur ki, real gerçəkliyin məqsədyönlü şəkildə öyrənilməsi çox ziddiyyətli problemdir. Bu prosesin qanunauyğunluqlarından və kateqoriyalarından məqsədyönlü şəkildə öyrənən elm sahəsi **qnoseologiya (yunanca bilik haqqında elm)** adlanır. Bu anlayışı ilk dəfə olaraq 1854-cü ildə Şotlandiyalı alim **C.Ferrez** tərəfindən işlədilmişdir.

Qeyd etmək olar ki, idrak nəzəriyyəsi müxtəlif elmlər tərəfindən (psixologiya, tarix, elmşünaslıq, sosiologiya və s.) öyrənilirr və bu elmlər fəlsəfə ilə əməkdaşlıq etməklə konkret olaraq idrak prosesini öyrənirlər. Bu təlimdə əsas diqqət dünyanın dərk edilməsi problemində biliklərimizin hüdudları üsulları və həqiqiliyin meyarları kimi məsələlər əsas götürülür. Qnoseologiya insanın dərketmə qabiliyyətini tədqiq etməklə, varlığın mühüm tərəflərini və idrakın obyektiv və subyektiv mahiyyətini araşdırır. Bir sözlə idraki fəaliyyətdə mövcud biliklərdən istifadə olunmaqla mənəvi-ruhi fəaliyyət dairəsidir. İdraki fəaliyyət həmişə az bilikdən çox bilikliyə gedən yol kimi qəbul edilir.

**İdrak nəzəriyyəsi** – idrakın mənşəyi və mahiyyətini, idrakın pillələri və əsas formalarını, inkişaf qanunlarını, metodlarını

və elmi tədqiqatların metodologiyasını öyrənir. İdrak hər şeydən əvvəl subyektlə obyektin qarşılıqlı təsiri prosesidir. **Obyekt** idrakın mənbəyi olmaqla biliklərimizin mənbəyi kimi başa düşülür, **subyekt** isə gerçəkliyin idraki inikasıdır. Sözün geniş mənasında idrakın subyekti konkret cəmiyyət və onun mövcudluğunun və inkişafının zəruri şərti olan təbiətdir. Deyilənləri əsas gətirməklə belə qeyd etmək olar ki, idrakın subyekti maddi və mənəvi istehsalın müxtəlif sahələrində fəaliyyət göstərən insan qruplarını ehtiva edən dinamik sistemdir.

Belə bir sual qarşıya çıxır ki, idraki prosesin mexanizmi necədir? Bu mexanizmin bir tərəfini araşdırmaq üçün idrakın pillələrini nəzərdən keçirməliyik. Fəlsəfi ədəbiyyatların çoxunda idrakın birinci pilləsi **hissi idrak** pilləsi kimi başa düşülür. Gerçəkliyin canlı seyri idrakın birinci pilləsinə aid olmaqla **duyğulardan** başlanılır. Hiss üzvləri xarici aləmlə tanışlıqdan ibarətdir ki, gerçəkliyin konkret inikası başa düşülür. Belə başa düşmək olar ki, hissi idrakın elementlərinə **duyğu, qavrayış və təsəvvürləri** aid etmək olar. **Duyğu** bunların içərisində ən sadə elementdir. Duyğu biliklərimizin mənbəyi hesab olunmaqla, predmet və hadisələrin müəyyən tərəflərini öyrənir. Predmet və hadisələr hiss üzvlərinə təsir edərək müəyyən duyğular yaradır. Duyğular obyektiv aləmin subyektiv formasıdır və obyektiv və subyektiv mövcudluq formasıdır.

Hissi idrakın ikinci elementi **qavrayışdır**. Hiss üzvləri nəticəsində əldə olunan məlumatların birləşməsi kimi başa düşülə bilər. Qavrayış idraki prosesdə duyğulara nisbətən daha bir fərqli prosesdir. Qavrayış müəyyən qədər praktik fəaliyyətin müəyyən sintezi ilə baş verir. Duyğulardan fərqli olaraq qavrayış hiss üzvlərimizə təsir edən predmetlərin bütöv obrazıdır. İnsan bu prosesdə təkcə duyğulara təsir edən əşyaların obrazı kimi qəbul edilmir, həmçinin keçmişdə təsir edən hadisələrin obrazı qavrayışda yəni insanın yaddaşında saxlanıla bilir.

Hissi idrakın üçüncü elementləri **təsəvvür və emosiyalar** aid edilə bilər. Təsəvvür bir növ qavrayışın davamıdır və insanı maraqlandıran hadisə və proseslər haqqında maraqlı xassələr və

cəhətlər ön plana çəkilir. Bu mərhələdə qavramadığımız predmetlər və hadisələri təsəvvür etmək mümkündür. Təsəvvür bir növ fantaziya ilə bağlıdır. Emosiyalar isə rəngarəngdir. Sevinc, qorxu, qəzəb, nifrət və s. kimi hisslərlə gerçəklikdə baş verən hadisə və proseslərə qiymətverici münasibət ifadə olunur. Hər bir insanın özünəməxsus spesfik psixiki xarakterinə uyğun olaraq emosiyaları vardır. Hər bir emosiyalara uyğun olaraq təsəvvürlər formalaşdırmaq mümkündür və onlar tamlıq təşkil etməklə bir-birini şərtləndirə bilir.

İdraki prosesin ikinci əlaqələndirici və davamlı mərhələsi **məntiqi idrak** kimi qəbul edilir. Məntiqi idrak pilləsinin elementləri **anlayış, mühakimə və əqli nəticədir**. Məsələn, **anlayış** cisim və hadisələrdə ümumi və mühüm əlaqələrini əks etdirən məntiqi təfəkkür formasıdır. Anlayışlar obyektiv olmaqla həm də subyektivdir. Belə anlayışlar insanlar tərəfindən yaradılır və məqsədə uyğun fəaliyyətdə istifadə olunur. Söz anlayışının dildə ifadəsi və maddiləşmiş forması sözün daxili halı və onun məzmunudur. İnsan söz anlayışından istifadə etməklə ictimai praktik münasibətlərin nəticələrindən və informasiya mübadiləsindən məharətlə istifadə edirlər.

Məntiqi idrakın ikinci elementi **mühakimə** hesab olunur. Bu mərhələdə gerçəklikdə baş verən hadisə və proseslər arasında əlaqələr, onların əmələ gəlmə səbəbləri və funksiyaları üzə çıxarılır. Mühakimə zamanı hadisə, predmet haqqında əldə olunan biliklər ya təsdiq mühakimələri sintezindən yaranır. Hadisələrin sintezi nəticəsində yeni mühakimələr əldə olunur. İnsan hiss orqanlarının əks etdirə bilmədiyi, ya da inkar oluna bilər. Bu zaman insanlar hadisə və proseslər haqqında düşünərək onu fikrən mənimsəməyə çalışır.

Məntiqi idrakın daha yetkin formalarından biri də **əqli nəticədir**. Əqli nəticə hadisələri əqli nəticənin köməyilə qavrayır. Əqli nəticə şeylərin gizli, daxili, sirli dünyasının nailiyyətini üzə çıxara bilir, daha doğrusu əqli nəticə mərhələsində kainatın qanunauyğunluqları, göy cisimlərinin ölçüsü, ara məsafələri,

kimyəvi tərkib, atomdaxili proseslər və s. kimi tədqiqat sahələri üzə çıxarıla bilir.

## 2. İdrakın metodları

Məlum olduğu kimi müxtəlif elmlər özünün spesfik metodlarına malikdir. Lakin fəlsəfi idrakın ən ümumi metod və vasitələrinə üstünlük verir. Metod dedikdə mürəkkəb idraki əməliyyat başa düşülür. Metod tədqiqatın müxtəlif istiqamətlərini özündə birləşdirir. İdraki metodları üç qrupa ayırmaq olar: **Xüsusi, ümumelmi və universal metodlar. Xüsusi metodlar** dedikdə ayrı-ayrı elmlərin çərçivəsində tətbiq olunur. Bu metodun əsasını xüsusi qanunlar və nəzəriyyələr təşkil edir. **Ümumelmi metodlar** zamanı bütün elmlərdə idraki proses mühüm rol oynayır və bütün elmlərin qnoseoloji prinsiplərini özündə ehtiva edir. **Universal metodlar** ümumilikdə insan təfəkkürünü xarakterizə edir. Bu metodun obyektiv əsasını, bizi əhatə edən dünyanı insanın özünü, insanın dünyanı dəyişdirməsi fəaliyyətini yaradan ümumfəlsəfi qanunauyğunluqlar təşkil edir.

Öz təbiəti etibarilə sonsuz və rəngarəng olan maddi dünyanın hər bir predmeti və hadisələrin özündə xüsusi yanaşma üsulu spesfik tədqiqat metodu tələb edir. Belə metodlardan biri ilə tanış olaq. **Müşahidə metodu** idraki prosesin müxtəlif sahələrində təbiətşünaslıqda daha geniş tətbiq olunur. Müşahidə bir növ hissi idraka əsaslansa belə düşünmək olmaz ki, insanın burada bilik və təcrübəsi əsas rol oynayır. Bu metodda izlənilən məqsəd, insanın bilik və təcrübəsindən bilavasitə asılıdır.

İdrakın empirik metodlarından biri də **müqayisə metodudur**. Bu metod zaman hadisə və proseslərin oxşar və fərqli cəhətlər üzə çıxarılır. Müqayisə metodu əsasən əsas və vacib olan tələblərə cavab verir. Müqayisə ilə bağlı olan metod ölçü hesab edilir. Əsası Qaliley və Nyuton tərəfindən qoyulmuş müasir eksperimental təbiətşünaslıq məhz **ölçü** sayəsində meydana gəlib inkişaf etmişdir. Ölçü, həm keyfiyyətin həm də kəmiyyətin ifadə olunmasıdır. Tədqiqat işinin ən mühüm yayılmış metodlarından

biri də **eksperimentdir** və bu sınaq və təcrübə kimi başa düşülür. Bu metod vasitəsilə tədqiqatın gedişinə müdaxilə etməklə prosesin və predmetin daxili xassəsini öyrənmək mümkündür. İdrakın universal metodlarından biri də **abstraktlaşdırmadır** (abstrakttia-uzaqlaşma, kənarlaşma). Abstraktlaşdırma zamanı tədqiq olunan predmet və hadisələrin ayrı-ayrı əlamətləri, xassələri ideya baxımından ayırmaq prosesidir. Mühüm kəsb etməyən əlamətlərin, xassələrin və münasibətlərin kənarlaşması və ayrılması kimi başa düşülür. Digər metodlardan biri də **modelləşdirmə** hesab olunur. Əqli nəticəyə əsaslanan bu metod əksər elmlərin tədqiqində istifadə olunur. Modelləşdirmə ancaq özünəbənzər obyektdə mövcudlaşır. Modelin öyrənilməsi nəticəsində əldə olunan bilik oxşarlıq nəzəriyyəsi əsasında orijinala köçürülür.

Daha bir metod **formalaşdırma** adlanır. Tədqiqat zamanı obyektə aid olan **xassə, kəmiyyət, keyfiyyət ölçüləri və s.** formalar vasitəsilə ifadə olunur və bu yolla öyrənilən predmetin mahiyyəti ümumiləşmiş model vasitəsilə riyaziləşmə prosesini yaradır. İdrakda **induktiv və deduktiv** metoddan geniş surətdə istifadə olunur. Məlumdur ki, **induksiya** (yönəlmə "induksion" sözündəndir) ayrı-ayrı proseslərdən ümumi nəticənin əldə olunması cəhdidir. Yəni ayrı-ayrı biliklərdən ümumi biliyin əldə olunmasıdır. Belə bir prosesdə gedən qanunauyğunluqlar zamanı səbəbiyyət əlaqələri üzə çıxır və yeni bilik əldə olunur. **Deduksiya** (hasiletmə) ümumidən təkcəyə doğru istiqamət kimi başa düşülür. Yəni tamın hissələrə ayrılması, daha doğrusu ümumi biliklərdən xüsusi biliklərin ayrılması kimi başa düşülür. İnduksiya və deduksiya bir-biri ilə sıx əlaqədə olmaqla didaktik tamlıq təşkil edərək əslində ümumi bilik almaq üçün təkcəni də dəqiq etmək lazım gəlir və ya əksinə.

İdraki prosesdə əldə olunan biliklər sistemi birdən birə əldə olunmur, onun müxtəlif mərhələləri keçməsinə görə idrakın əsas forması olan elmin fəlsəfi təhlilinə ehtiyac duyulur. Elm cəmiyyətdə böyük rol oynamaqla real gerçəkliyi dolğun və hərtərəfli əks etdirir. Elmin sosial qüvvə kimi fəaliyyəti və onun funk-

siyaları çox mühümdür. Bu funksiya cəmiyyətin maddi və mənəvi fəaliyyətinin qurulmasını təmin edir. Elm təkcə hazırda olan təlabatı yox həm də gələcəyin öyrənilməsinə xidmət edir. Mənəvi istehsal sahəsi kimi qəbul olunan elmi fəaliyyət bir neçə mərhələdən keçir və bunları qeyd etmək olar ki, onlardan biri **ideya** anlayışıdır. İdeya mövcud biliklərin sintezində gələcək nəzəriyyənin əsası qoyulur. Bu bir fikir forması olmaqla gerçəklikdə olanlara və ola biləcəklərə qiymətverici münasibət bildirilir. Ona görə də ideya hər bir elmi nəzəriyyənin ilkin forması kimi çıxış edir.

Elmi nəzəriyyənin yaradılmasında mühüm anlayışlardan biri də **hipotez** adlanır. Hipotez həm mövcud olan biliklər sisteminə həm də təcrübəyə əsaslanan elmi fərziyyə kimi başa düşülür. Hipotez zamanı ifadə olunan bilik həqiqi olmaya da bilər. Elmi və praktikanın sonrakı gedşində ya təsdiq, ya da təkzib olunur. Hipotez adətən elmi problemin gedişi və ya hansısa obyektin hadisə və prosesin müəyyənləşməsində üzə çıxa bilər. Nəticədə dolğun və həqiqi biliyə gec yol açıla bilir.

İdraki fəaliyyətin ən yüksək formalarından biri də elmi nəzəriyyədir. Elmi nəzəriyyə hadisə və proseslər barədə praktikaya əsalanaraq dəqiq biliklər verir. Elmi dünyagörüşü formalaşdıqca elmi nəzəriyyənin əhatə dairəsi genişlənir. İstənilən elmi nəzəriyyələrin kökü və əsası mövcud olur və bu özündən əvvəlki baxışlara və ideyalara əsaslanır.

Konkret biliklərimizin inkişaf səviyyəsindən asılı olaraq nisbi həqiqət mütləq həqiqətə doğru inkişafda olur və həqiqətin yeni-yeni meyarları üzə çıxır. İdrakın səviyyəsi yüksəldikcə biz mütləq həqiqətə yaxınlaşırıq. Tarixi inkişafın müxtəlif mərhələlərində dünyanın yeni-yeni qanunauyğunluqları üzə çıxır və bu proses sonsuz şəkildə davam edə bilər.

### 3. İdraki inkişafın dialektikası

Bəşəriyyət tarixində üç təkamül prosesinin meydana gəlməsi emprik və rasional biliyin inkişafına təkan vermişdir. Hələ ibtidai icma qurluşunda təbiətdən asılı vəziyyətdə yaşayan

insanlar demoqrafik problemlərlə üzləşdikcə düşünməyə, iqtisadi çətinliklərdən xilas olmağa çalışırdılar. İnsanların sayı artdıqca ov heyvanlarının qıtlığı yaranırdı. Bitkilər və giləmeyvələr isə yalnız müəyyən fəsillərdə onların imdadına çatırdı. Bəzən nəhəng heyvanları ovlamaq istəyərkən sadə çarpanaq daşlarından istifadə edən ovçunun çəhdləri baş tutmurdu. Bunun da nəticəsində ac qalan ovçu düşünərək yaşamaq üçün çıxış yolu axtarırdı. İlkin idraki düşünmə mərhələsində ovçu ac qalan insan heyvanları ovsunlamaq və ondan bəhrələnmək anlayışını yaradırdı. Zaman keçdikcə bu təcrübə tayfa anlayışını formalaşdırdı. Mağara divarlarında, sığındıqları qayalarda ovlanacaq heyvanların şəkillərini çəkib onların ətrafında ovçuluq mərasimləri icra edirdilər. Təbii ki, bu mərasimlər insanlarda özünə inam hissini artırırdı və ovun uğurluluğuna qismən də olsa təminat yaradırdı. Lakin insan ov heyvanlarından fərqli olaraq həndəsi silsilə ilə artırdı. Ov heyvanlarının artımı insanların sayına uyğun gəlmirdi. Bunun nəticəsində həyati problemlərin həlli üçün yeni biliklərin meydana gəlməsinə ehtiyac yaranırdı. Bu problemləri aradan qaldırmaq çətin olsa da böyük həyat təcrübəsinə, dərin hafizəyə malik olan müdrik adamların fəaliyyəti insanların köməyinə çatırdı. Tarixin neolit (yeni daş dövrü) dövründə müdriklər təbiətdə böyük bir inqilab etdilər. Əkinçiliyi, heyvandarlığı, sənətkarlığı meydana gətirdilər. Bu ilkin təkamül inqilabı insanları təbiətin ağalığından xilas etdi. İnsan özü təbiətin ağasına çevrildi, yaradıcı sosial varlıq kimi formalaşdı.

Bu hadisə həm də bir idrakın təkamül prosesi idi. İdraki təkamül prosesi təbiətə, dünyaya münasibətləri dəyişirdi. Beləliklə, insan dünyanın ən güclü varlığına çevrildi. Təbii sığınacaqların əvəzinə özünün yaratdığı yaşayış yerlərində məskunlaşdı. Əldə olunan idraki təkamül insanları təbiət hadisələrindən, güclü vəhşi heyvanların hücumundan qorudu.

Lakin insanların qazandıqları bu nailiyyətlər zaman keçdikcə onların həm iqtisadi, həm də mənəvi ehtiyaclarını ödəyə bilmədi. Bütün işlərin əl üsulu ilə icra olunması daima çoxalan insanların ehtiyaclarını daha ödəyə bilmirdi. Həndəsi silsilə ilə

çoxalan insanın köməyinə onun yeniləşən idrakı çatdı. İnsanın varlığa olan adekvat münasibəti, onun obyektiv gercəklikdə düzgün oriyentasiya götürməsi həyatda praktiki fəaliyyətin daha məhsuldar formasını meydana gətirdi. Bunun nəticəsində XVIII əsrdə əl əməyi artıq təkmilləşdirilərək nisbətən texniki qurğularla əvəz olundu. İdraki təcrübə təbiət və cəmiyyət münasibətlərində insanları məqsədyönlü fəaliyyətə istiqamətləndirdi və sənaye inqilabı yaratdı. Məqsədyönlü fəaliyyətin aşağıdakı formaları yaranaraq insanları yeni həyat fəaliyyətinə uyğunlaşdırdı:

1) Praktikanın əsas müəyyənedici forması kimi insanların təbii və əmək məhsullarına təsirindən ibarət olan maddi istehsal fəaliyyəti;

2) İstehsal münasibətləri, əməyin təşkili, sosial fəaliyyət siyasi mübarizə, sinfi toqquşmalar, milli azadlıq hərəkatları, sosial inqilablar;

3) Obyektin dərk edilməsi ilə həyata keçirilən eksperimental fəaliyyət, o cümlədən kosmik texnika, cihaz və elektron hesablayıcı maşınların tətbiqi ilə aparılan elmi müşahidələr;

4) İnsanların ailə-məişət sahəsindəki bədii – estetik, dini – mənəvi və s. fəaliyyət formalarını da əlavə etmək olar.

Məlumdur ki, praktika idrakın mənbəyi və hərəkətverici qüvvəsidir. Lakin idrakın mənbəyini təkcə emprik anlayışlarla məhdudlaşdırmaq yanlış nəticələrə aparıb çıxara bilər. Əslində praktika əldə olunmuş biliyin gücünü nümayiş etdirən sınaq meydanıdır. Əldə olunan biliklər abstrak anlayışın nəticəsi kimi də formalaşır. Kainat cisimləri haqqında yaranmış kosmoqonik mifləri buna misal kimi göstərmək olar. Kosmoqonik miflərdə günəşin, ayın və başqa göy cisimlərinin xassələri fövqəl- təbiiləşdirilərkən rasional xarakter daşıyan abstrak anlayışlardan istifadə olunmuşdur. İnsan yaxından bələd olmadığı cismin kortəbii inikasını bədii-mənəvi formada təcəssüm- ləşdirmişdir. Bu fantastik təcəssümləşdirmələr əslində təkcə miflərin deyil, çoxlu

dastanların, dini anlayışların meydana gəlməsinə səbəb olmuşdur. İnsan fantastik şüurunda təcəssümləşdirdiyi cisim və hadisələri real gerçəklikdə görməyə çalışmışdır. O, "uçan xalça" ilə uzaq məsafələri yaxınlaşdırmaq, "göstərən güzgü" ilə etdiklərini, hətta etmədiklərini görmək istəmişdir. Mərhələ - mərhələ baş verən bu proses elmi idrakın ibtidai əsasını qoymuşdur.

Deməli, elm bir çox filosofların dediyi kimi madddi istehsalın təkcə daxili tələblərindən yaranmamışdır. O, həm də bir sıra sosial – mədəni funksiyaları da özündə əks etdirir. Məhz müasir elmi – texniki tərəqqi dövründə elmi idrak bir-birini əvəz edən problemlər silsiləsini biliklə aradan qaldırmaq imkanı yaradır. Bu xüsusiyyətinə görə elmi idrak müasir təhsilin fəlsəfəsinin əsasını təşkil edərək insanların biliksizlikdən biliyə və dünyagörüşünə yiyələnmə mərhələsini təşkil edir. Elmi idrak emprik biliklə rasional biliyin vəhdətini yaradır. Nəzəriyyə praktikanı, praktika isə nəzəriyyəni tamamlayır. Buna görə də elmi idrak insanların intellektual fəaliyyətinin əsasını təşkil edir. Daha doğrusu intilektin formalaşma prosesi elmi idrakın köməyi ilə mümkün olur.

Elmi idrak məntiqi düşüncə nəticəsində bir çox sahələrə istiqamətlənir. Məntiqi düşüncə hadisə və prosesləri abstrak formada ideallaşdırır, onlar haqqında düzgün nəticə çıxarmaq imkanı yaradır. Düzgün nəticəyə gəlmək üçün hadisə və proseslərin mahiyyəti, onların dərk olunması, ayrı-ayrı əqli mühakimə nəticəsində aşkar olunur.

Qeyd etmək lazımdır ki, hər bir insan özünün həyat fəaliyyətinin müsbət və mənfi istiqamətlərini yalnız əqli mühakimə nəticəsində aşkar edə bilər. Əqli mühakimə həqiqəti üzə çıxarmağın ilkin məsələsidir. Lakin, həqiqət ictimai tərəqqi sahəsində öz gerçəkliyini müəyyən zaman baxımında qoruyub saxlaya bilir. İnkişaf zamanı baş verən yeni anlayışlar köhnə həqiqəti inkar edir, onu tarixin müəyyən anına çevirir.

Bu prosesi daha aydın izah etmək üçün mifoloji anlamalara, onların təcəssümləşdirdiyi "həqiqət" meyarlarının zaman-zaman dəyişməsinə xüsusi diqqət yetirmək lazımdır. Kosmoqonik

miflərdə kainat haqqında yaranmış anlayışlar öz dövrü üçün həqiqət kimi qavranılmışdır. Bu anlayışlar dünyanı dərk etməyin ilkin vasitəsinə çevrilmişdir. Miflərin həqiqət, yaxud qeyri həqiqət olmasından asılı olmayaraq onlar ibtidai idrak prosesi kimi qiymətləndirilməlidir. Mifologiya fəlsəfi biliyin formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir. O, dünyanı öz dövrünün bilik səviyyəsinə uyğun olaraq əks etdirmişdir.

Qədim yunan filosofu Aristotel də mifologiyanın biliyə yiyələnmə prosesində əhəmiyyətinə xüsusi diqqət yetirmişdir. O, "Metafizika" əsərində yazmışdır: "Kim mifi sevirsə o, müəyyən mənada filosofdur. Cünki mif təəccüb, fövqəltəbiilik əsasında yaradılır. Əgər, insan biliksizlikdən xilas olmaqdan ötrü filosofluq edirsə, məqsəd fayda gətirmək, xeyir əldə etmək deyil, anlamaq xatirinə edilir".

Bu baxımdan deyə bilərik ki, miflər müasir dövrün də mənəvi-əxlaqi dəyərlər kimi cəmiyyətin mənəvi həyatında əhəmiyyətli yer tutur.

Tarixin müxtəlif dövrlərində məkanındanasılı olmayaraq idraki düşünən insanlara böyük ehtiyac olmuşdur. İdraki düşünən insanlar güclü zəkaya arxalanaraq dünyada ayrı-ayrı sivilizasiyaların yaranmasında xüsusi rol oynamışlar. Onların vasitəsilə insanlar ətraf mühiti dərk etmiş müəyyən dünyagörüşünə yiyələnmişlər. İdrakın təkamülü bəşəriyyət tarixində nəzərə çarpan əhəmiyyət kəsb etmişdir. Elə buna görə də Azərbaycanın maarifçi filosofu A.Bakıxanov idraka yiyələnməni insanı nurlandıran bir faktor kimi qiymət- ləndirmişdir. O, "Nurlar mənbəyi" (Mişkətül-ənbər) adlı poemasında yazmışdır ki, "İnsan idrak sayəsində günəş kimi saçar nur".

Görkəmli Azərbayca filosofu, maarifçi mütəfəkkir insanın beynini mürəkkəb fikirlər xəzinəsinə bənzətmişdir. Bu fikirlər xəzinəsində daima yeniləşən idrakın həyatda yeniliklər etmək qüdrətinə malik olduğunu bildirmişdir.

H.Zərdabi də dünyanın dərk edilməsini insan idrakının əməli, təcrübi fəaliyyatinin nəticəsi kimi qiymətləndirmişdir.

Ümumiyyətlə Azərbaycanın maarifçi mütəfəkkirləri idraka yiyələnmənin əsasında təhsilin durduğunu bildirmişlər. Təhsil prosesini insanların cəhalətdən uzaqlaşdırılmasının ən real vasitəsi hesab etmişlər. Xüsusilə H.Zərdabi insanın yaradıcılıq fəaliyyətini insan idrakının imkanları ilə əlaqələndirirdi. Eyni zamanda bu imkanların insanların ardıcıl olaraq yeni biliklərə yiyələnmək marağından asılı olduğunu da deyirdi. O, "Marsda insan yaşayırmı?" adlı məqaləsində elmin nailiyyətləri sayəsində yaranan yeni cihazların insanların yeni bilgilərə yiyələnməsində böyük əhəmiyyət kəsb etdiyindən bəhs etmişdir. H.Zərdabi yazmışdır: "...insan teleskopla silahlanan kimi onun görüş dairəsi genişləndi və görünən ulduzların sayı çoxaldı."

Deməli məhz, insanlar yüksək idraka malik olan elm adamları tərəfindən yaradılmış cihazlar vasitəsilə obyektiv gercəkliyin insan şüurunda yeni məzmunda inikas olunması səviyyəsinə çatdılar. İdraka yiyələnmə prosesində praktikanın əhəmiyyətini dərk etdilər. Bütün mərhələlərdə idrakın formalaşmasının və inkişafının əsasında praktikanın durduğu müəyyən edilir. Praktiki biliklər həm də idrakın nəzəri səviyyəsinin artmasına öz təsirini göstərir. Belə ki, inkişafın xarakterindən asılı olaraq biliyin emprik və nəzəri tərəfləri bir-biri ilə vəhdət təşkil edir. Lakin, praktiki biliyin əsasında yalnız ayrı-ayrı faktlar və məlumatlar durduğu halda, nəzəri bilik əldə olunmuş emprik materiallardan istifadə etməklə yanaşı, hipotezlər, nəzəriyyələr, formula edilmiş qanunlar və s. müvafiq nəticələr əsasında formalaşır. Beləliklə də idraka yiyələnmə prosesi hissi idrakdan başlayıb elmi-rasional idraka doğru yüksəlir. Əslində bu proses idraka yiyələnmənin dialektikasıdır. İnsanlar daima idraki prosesin dialektiv inkişafından bəhrələnir. Belə ki, dialektiv şəkildə idraka yiyələnmə prosesi insanın sosial-mədəni fəaliyyətini zənginləşdirir, onu yaradıcı varlığa çevirir. İdraki prosesdə əldə olunan biliklər istehsalın genişlənməsinə, elmi-texniki tərəqqinin təkamülünə səbəb olur. İdraka yiyələnmənin dialektikası bütün yeniliklərin meydana gəlməsində özünü büruzə verir, varlığın universal əlaqələrini və inkişafını təmin edən bir təlim kimi bir çox yaradıcı funksiyaları

yerinə yetirir. Bununla da dialektikanın hər bir qanunu dünyada baş verən inkişaf prosesini müxtəlif cəhətdən səciyyələndirir. Əksiliklərin vəhdəti və mübarizəsi qanunu inkişafın əsasında ziddiyyətlərin olduğunu bildirir, inkarı inkar qanunu isə inkişafın xarakterini, onun istiqamətlərini, köhnə ilə yeni arasındakı münasibəti bildirir. Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə və əksinə keçməsi qanunu isə inkişafın dialektik vəhdətdə olduğunu və onların bir-birini tamamladığını bildirir. İdraka yiyələnmə prosesi də bu dialektik qanunlar əsasında daima formalaşır, təkamül edir.

## 4. İdraki prosesdə dini mifoloji baxışlar və mənəvi-əxlaqi dəyərlər

Dini-mifoloji baxışlar insanların yaddaşında əbədi həkk olunaraq müasir dövrümüzə qədər gəlib çataraq varlığın dərk olunması prosesində xüsusi rol oynadı. Xüsusilə insan probleminin mahiyyətini acıqlayan miflərdə məntiqi idrakın mənimsənilməsinin müəyyən elementlərini üzə çıxardı. Belə nümunələr bir fərdin özünün dərkinə yaxından kömək edir, onlarda əqli mühakimə qabiliyyətini formalaşdırır. Məsələn, Nuh peyğəmbərlə bağlı miflərin birində deyilir: Peyğəmbərin cəmi bir qızı var idi. Həmin qıza peyğəmbərin üç yaxın dostu bir-birindən xəbərsiz elçi gəlir. Peyğəmbər ayrı-ayrı vaxtlarda gələn bu dostların üçünə də tək qızının razılığını verir. Dostlarını yola saldıqdan sonra üzünü Allaha tutaraq deyir: Ey Allahım mən üç dostuma da tək qızımın razılığını verdim. Düşündüm ki, onlardam hansını əliboş geri qaytarsam həmin dostumu itirmiş olaram. Ey ulu tanrı, məni bu cətin vəziyyətdən qurtar. Allah onun yalvarışlarını eşidib qarşısındakı eşşəyi də, iti də qızının donuna salır. Peyğəmbər Allaha şükürlər edib qızları ərə verir. Bir neçə vaxt keçdikdən sonra qızları yoxlamaq üçün bir-bir kürəkənləri ilə görüşür və onlardan qızların xasiyyətini öyrənmək istəyir. Birinci kürəkəni deyir: Qızın çox qoçaqdır, səhərdən axşama qədər işləyir. Ancaq bir qüsuru var. Bir söz deyəndə eşşək kimi bir qulağından alıb o biri qulağına ötürür.

İkinci kürəkəni isə görüş zamanı dedi: Qızının dəhşətli bir qüsuru var. O səhərdən axşama qədər it kimi deyinir.

Peyğəmbər bu qızın da Allahın itdən yaratdığı qızı olduğunu müəyyənləşdirir. Üçüncü qızın özününki olduğunu bilsə də kürəkənindən onun da xasiyyətini soruşur. Kürəkən "İndi özün görərsən" deyib qıza hökmlə deyir:

- Ay qız, atan uzaq yol gəlib. Get çardaqdan bir qarpız gətir, kəsək, kişi yeyib ürəyini sərinləşdirsin. Bir qarpız seçib kəsmək üçün kürəkən arvadını 16 dəfə çardağa qalxıb düşməyə məcbur edir. On altıncı qarpızı kəsib deyir: Mənim çardaqda cəmi bir qarpızım vardı. Ancaq sənin qızın elə təəsürat yaratdı ki, mənim orada bir tağ qarpızım var.

Bu mifoloji nümunə teoloji məzmun daşısa da burada yüksək mənəvi keyfiyyətə malik olan insan varlıqlarına müqayisəli yanaşmalar əslində əksikliklərin vəhdəti və mübarizəsi anlamı kimi nəzərə çarpır. Misaldan göründüyü kimi əxlaqi-mənəvi dəyərlərin meydana gəlməsi və inkişafında dini – mifoloji baxışlar böyük rol oynamışdır. Xüsusilə mifologiya bəşəriyyətin təkamülünün uşaqlıq dövrü kimi qiymətləndirilmiş, gerçəkliyin fantastik inikası olaraq bədii-fəlsəfi təcəssüm- ləşdirmənin erkən dövrü hesab olunmuşdur. Mifologiyanın obrazlılığı təbiət cəmiyyət hadisələrinin nəqlinə emosionallıq gətirməklə onun insan şüuruna təsir gücünü dahada artırmışdır. İnsanlarda həyəcan və qəlb çırpıntıları yaratmaqla obyektiv reallığın mistik şəkildə qavranılmasına təkan vermişdir. Beləliklə də mifologiya mistik xarakter daşısa da, təbiət və cəmiyyət hadisələrini duymaq və anlamaq üçün ilkin vasitə olmuşdur.

İnsanlar mifologiya vasitəsilə dünyanı anlamağa, ona müxtəlif forma və məzmunda münasibət bildirməyə çalışmışlar.

Mifoloji baxışlarda fantastik inikas xüsusi yer tutsa da, onlar mənəvi -əxlaqi dəyər kimi hər bir xalqın həyatında xüsusi əhəmiyyətə malik olmuşdur. Mifoloji baxış insan əqlini zaman-zaman cilalamış, onun fanataziyasını yaradıcılıq zirvəsinə doğru inkişaf etdirə bilmişdir. Bu yaradıcılıq nümunələri varlığın səbəblərini dərk etməyə, onun əvvəlinin və sonunun olub-olmamasını

öyrənməyə imkan yaratmışdır. Məsələn, Qədim Şumer mifologiyasının birində suyun bütün varlığın əsasında durduğu bildirilmiş, əvvəl sudan başqa heç nəyin olmadığı təsəvvür edilmişdir. "Kainatın və insanların yaranması" adlanan bu mifologiyada yerin və göyün tanrı Enlil tərəfindən yarandığı qeyd olunur. Mifologiyada bildirilir ki, "Enlil bıçaqla göy qübbəsini çərtir, göy tanrısı An ilə öz arvadı ilahə yer Kidən ayrıldı. Böyük dünyanın dağları gurultu ilə parçalandı. İlahə yerin yastı dairəsini yuyan ilk yaranmış okeandan yuxarıda qaldı, dünyanın örtüyü nəhəng qalaylı yarımkürə isə havadan asılı qaldı.

Göstərilən mifoloji anlamda varlıq haqqında ilkin fantastik–fəlsəfi təsəvvür irəli sürülmüş və Yer, Göy obrazlı şəkildə təcəssümləşdirilmişdir. Bu tipli miflər uydurmaqla özlərinin həyat tərzlərinin aparıcılarına, tənzimləyicilərinə çevrilən tanrı obrazları yaratmışlar. Xüsusilə Şumer miflərində Göy Ata, Yer isə Ana obrazında təcəssümləşdirilmişdir. İndinin özündə də insanlar yeri "Ana torpaq" kimi obrazlaşdırırlar. Poeziyada, mahnılarda "Ana torpaq" haqqında kifayət qədər obrazlı təcəssümləşdirmələr mövcuddur.

Miflər əsrlər boyu insanların davranışlarını tənzimləyən dünyagörüşünə çevrilmişdir. Bir qədər sonralar təşəkkül tapan dini şüur da əslində mövcud olan mifoloji baxışlardan bəhrələnmişdir. İnsanlar miflər vasitəsilə özlərinin qabiliy- yətlərini, idraki səviyyələrini, etik və estetik münasibətlərini formalaşdırmışlar.

Arxaik insanlar idraki təcəssümləşdirmələrinin nəticəsi olaraq özlərinin nədən yarandıqlarını aydınlaşdırmaq üçün çoxlu mifoloji anlayışlar uydurmuşlar. Təbii ki, bu uydurmalar insanın mənşəyinin öyrənilməsinə yönəldilmişdir. Məsələn, "Kaliforniyalı Kayot hinduları belə hesab etmişlər ki, onların əcdadları canavar olmuşdur".

Hindistanda yaşayan qədim insanlar özlərini inəyin törəməsi hesab etmişlər. Qədim türk tayfaları boz qurdu totemləşdirmişlər. Totemistik anlayışlar hələ üst paleolit dövründə meydana gəlmişdir. Görünür dövrün "Təkamül nəzəriyyəsi"də bu

ibtidai anlayışlar zəminində yaranmışdır. Demək olar ki bütün xalqların mifologiyası tipoloji baxımdan eyni silsilələrin mövcudluğu ilə səciyyələnir:

1. Kosmoqonik (kosmoloji) miflər
2. Etnoqonik (geneoloji) miflər
3. Təqvim miflər

Ən maraqlısı ödur ki, dünyanın bütün xalqları tərəfindən yaranan kosmoqonik miflərdə kifayət qədər məzmun oxşarlıqları da vardır. Xüsusilə Yerin və Göyün, eləcə də dünyanın yaranması haqqında mövcud olan mifologiya nümunələri bütün xalqlarda əsasən varlığın təcəssümləşdirilməsinə aid edilmişdir. Necə ki, Şumerlər yerin, göyün yaranmasının xüsusiyyətlərini təsvir etmişlər. Yunanlar da bu mövzu ilə bağlı xüsusi mifoloji anlamlar yaratmışlar. Məsələn, qədim yunan miflərindən birində "Dünyanın və Allahların yaranması"nı belə təcəssümləşdirmişlər:

Öncələrin öncəsində dünyada yalnız əbədi, nəhayətsiz və zülmət Xaos hökm sürürdü, o, dünyadakı həyatın mənbəyi idi. Hər şey – bütün dünya və ölümsüz allahlar, sonsuz yarandı. Xaosdan həm də Yer ilahəsi Geya yarandı. Üzərində yaşayanların və bitənlərin hamısına həyat verən Yerin ucu – bucağı yox idi. Yerin dərinliyində, işıqlı, ucsuz-bucaqsız səmayla bizim aramızdakı ölçüyəgəlməz məsafə qədər uzaq təkində, əbədi qaranlıqla dolu zülmət Tartarın dəhşətli dostluğu yarandı. Qüdrətli bir qüvvə olan, hər şeyi canlandıran Eros da həyatın mənbəyi Xaosdan yarandı. Dünya yaranmağa başladı. Nəhayətsiz Xaosdan əbədi zəhmət - Ereb və qaranlıq gecə - Nyutka törədi. Gecədən və Zülmətdən isə işıq dünyaya yayıldı, gecə ilə gündüz bir-birini əvəz etməyə başladı...''

Qədim yunan miflərində varlığın bütün tərəfləri Allah obrazında təsvir edildi. Bu süjetli təsvirlərdə həm bədiilik, həm də dərin fəlsəfi fikirlər mövcud olmuşdur. Allahların xarakteri, onların bir-birinə olan münasibətləri obrazlı şəkildə ifadə olunmuşdur. Allahların fəaliyyətləri yaşanan həyat reallıqlarına uyğunlaşdırılmışdır. Onların hər biri Allah-insan kimi təcəssüm-

ləşdirilmişdir. Beləliklə də mifologiya təkcə fəlsəfi təfəkkürün yox, həmçinin bədii yaradıcılığın inkişafının mövzu mənbəyinə çevrilmişdir. Qədim yunan dramaturqlarından Esxil, Evripid, Sofokl və başqaları öz əsərlərinin mövzusunu və ideya məzmununu Allahlar haqqında miflərdən götürmüşdür.

Homer özünün "İliada" və "Odisseya" əsərlərində allahlar haqqında yaranmış miflərdən istifadə etməklə onlara yeni çalarlar gətirmişdir. Esxil allahlara ali hisslərlə yanaşmış, Zefsin iradəsinə qarşı çıxaraq insanlara müqəddəs odu bəxş edən nəhəng Prometeyin bədii obrazını yaratmışdır.

Miflər insanlara fövqəltəbii inam hissləri aşılamaqla onların yaradıcılıq fəaliyyətini stimullaşdırmış, müəyyən varlığa, predmetə, hadisəyə inamlarını artırmaqla həyatda yaşamağın məzmununu zənginləşdirmişdir. Lakin, elə qədim Yunanıstanda miflər incəsənət və ədəbiyyatın süjet xəttini təşkil etdikdə insanlar köhnə formada yeni anlayışlar axtarmağa başlamışlar. Xüsusilə faciə janrında yazılan dram əsərlərində, teatr tamaşalarında özünün bədii əksini tapan Olimp allahları arasında cərəyan edən münaqişələr, müharibələr, paxıllıqlar və s. hərəkətlərlə müşahidə olunan mənfi xarakterlər insanlarda allahlara olan inamı azaltmışdır. Beləliklə də mənəvi dayaq anlamını itirən cəmiyyət daxilində inamsızlıq xaosu yaranmışdır. Hətta insanlar miflərə də uydurma kimi baxmışlar. Bunun da nəticəsində miladdan əvvəl V-IV əsrlərdə insanlar mənəvi-həyatın dayaqlarını itirmiş, onların şüurunun dərinliklərində ümidsizlik və şübhə toxumları cücərmişdir. Qədim yunan filosofu Parmenid müəyyən məntiqi sübutlar quraraq insanların ilahi varlıqdan asılı olduğunu təlqin etməyə çalışmışdır. İdrakın, şüurun da loqos vasitəsilə insan beyninə göndərilməsi ideyasını irəli sürmüşdür.

Miflərin yaratdığı qeyri-adi təsəvvürlər obrazlaşdırılmış formada insan şüuruna təsir edərək abstrakt anlayışlar meydana gətirmişdir. Abstrakt anlayışlar idrakın inkişafında əsas rol oynamışdır. Abstrakt anlayışlar fantaziya istehsal etmiş, idrakı prosesdə yeni qanunlar, anlayışlar meydana gətirmişdir.

Çox qəribədir ki, miflərin insan idrakına daha emosional

şəkildə təsir etməsi üçün onlar ritual formasına salınmışdır. Ayrı-ayrı xalqlar mifoloji zəmində yaranan bu ritualları bəşər tarixi boyu qoruyub saxlamışlar. Ritual-mif sintezinə ən möhtəşəm əsər həsr edən C. Frezerin dünya xalqlarından toplayıb qədim aqrar mif sistemlərini bərpa etməsi dünya folklorşünaslığında böyük hadisədir. O, qədim Misirdə Osiris (o biri dünyada insanları bu dünyadakı əməllərinə görə mühakimə edən Allah) kultu ilə bağlı keçirilən rituallar əsasında mifin yaranma mexanizmini göstərir.

Qədim yunanların üzümçülük və şərabçılıq allahı sayılan Dionisin şərəfinə ildə üç dəfə rituallarla müşayət olunan bayramlar təşkil edilmişdir. Miflərdə Dionis Keçi obrazında təsvir olunmuşdur. Onun haqqında mövcud olan miflərin birində deyilir ki, Zefs Dionisi qəzəbli Heranın azğınlığından qorumaq üçün onu keçi balası şəklinə salmışdır. Sonra isə allahlar titan Tifonun qəzəbindən qorxub Misirə qaçarkən Dionis həmişəlik keçiyə çevrilmişdir.

Bu mifologiyaya əsaslanaraq C. Frezer yazmışdır: ”Dionis kultunun iştirakçıları keçini diri-diri parçalayıb ətini çiy-çiy yeyəndə, yəqin elə zənn etməli idilər ki, allahların qanı və canı ilə qidalanırlar. Heyvan və insanın parçalanıb ətinin yeyilməsinə əsaslanan dini mərasimlər müasir barbarlar - vəhşi insan toplumları (Avstraliyada yaşayan aborigenlər nəzərdə tutulur) tərəfindən də icra olunur”. Onu da qeyd etmək lazımdır ki, Dionisin şərəfinə təşkil olunan bayramlarda keçi nəğmələri ifa olunmuş, keçi qurbanları kəsilmişdir.

Ümumiyyətlə dünya xalqlarının mifologiyasında keçi bolluq rəmzi və qoruyucu ruh obrazında təsvir edilmişdir. Azərbaycan xalqı da baharın gəlişi ilə bağlı olan rituallarda keçi obrazından xalq dramlarında geniş istifadə edir. “Kosa-kosa” tamaşasında keçinin qışın rəmzi olan kosalar üzərində qələbəsi, baharın qış üzərində qələbəsi kimi təcəssümləşdirilir. İnsanlar öz maraqları zəminində icra etdikləri ritualların onlara xeyir gətirəcəklərinə inanırlar.

Çox maraqlıdır ki, mifologiyada dünyanın, varlığın, kainatın yaranması haqqında qarşıya qoyulan fəlsəfi problemlər

insanları bütün tarix boyu düşündürmüşdür. Mif insanın ilkin idrakının əsası kimi dünya, kainat, varlıq haqqında çoxsaylı suallar yaratmışdır. İnsan mifoloji obrazlar vasitəsilə bu suallara cavab verməyə çalışmışdır. Klassik Alman fəlsəfəsinin əsasını qoymuş İ.Kant da özündə “Mən nəyi bilərəm?”, ”Mən nə etməliyəm?”, ”Mən nəyə güvənə bilərəm?”, “İnsan nədir?” kimi suallara cavab axtarmağa çalışmışdır. Buradan belə bir nəticə çıxır ki, idraki proses başlanğıc nöqtəsi olsa da onun son nöqtəsi yoxdur. Hələ müasir elmi-texniki inkişaf da idraki prosesin son nöqtəsi deyil. Bu sonsuzluq fəlsəfəsinin əsası isə hələ çox qədim zamanlarda mifoloji anlamlarda qoyulmuşdur.

Güclü hissi qavrayışa malik olan insan təsəvvürləri həmişə fantastik yeniliklər meydana gətirmişdir. Xüsusilə elmi-texniki inkişaf idraki prosesin sonu olmadığını bir daha təsdiq etmişdir. İnsanın emprik fəaliyyəti onun bacarıq və qabiliyyətlərini inkişaf etdirdikcə rasional anlayışlar fantastik şəkildə daha da zənginləşmiş, heyrətamiz yeniliklər meydana gətirmişdir. Kainatda mövcud olan cisim və hadisələrin mahiyyəti öyrənilmiş, dünyanın bütün nöqtələri ilə canlı əlaqələr yaradılmışdır. İndi insan efir məkanından istifadə edərək minlərlə km bir-birindən uzaq olsalar da bütün obyektləri görmək və eşitmək imkanları əldə etmişdir. Bu da onu göstərir ki, elmi idrak müasir insanların gündəlik həyat fəaliyyətlərinin tənzimləyicisinə çevrilmişdir.

Yəqin ki, müasir təkamül elmi idrakın son nəticəsi deyil və o fantastik şəkildə inkişaf etdikcə gələcəkdə ardıcıl olaraq daha böyük nailiyyətlər yaranacaqdır.

## 5. İdraki prosesdə ekoloji mədəniyyət anlamı

Müasir dövrün sosial proseslərinin təhlili ictimai həyatın özünəməxsus qanunauyğunluğu olub, tarixi inkişafın obyektiv gedişi ilə müəyyən olunur. Dövrümüz yeni sosial, iqtisadi, siyasi, ekoloji problemlərin ziddiyyətlərinin, cəmiyyətin və təbiətin “xəstəliklərinin” bir tərəfdən öz kulminasiya nöqtəsinə çatması ilə, digər tərəfdən isə onların təsiri altında yeni sosial münasibətlərin yaranması, yeni cəmiyyətin, sosial həyatın yeni şəraitinin

və tiplərinin formalaşması ilə xarakterizə olunur.

Gərgin ekoloji duruma malik Respublikamız üçün də insan - təbiət münasibətlərinin fəlsəfi təhlili, ekoloji böhranı aradan qaldırmaq üçün dünyagörüşün ekolojiləşməsi rolunun müəyyənləşdirilməsi, ekoloji etikanın və ekoloji mədəniyyətin formalaşdırılmasının, əsas istiqamətlərinin araşdırılması zamanın tələblərindəndir. Bu tarixi zərurətin təhlili mövzunun mahiyyətini təşkil edir. Burada ekoloji problemlərin təsnifatına dair müxtəlif fikirlər təhlil olunur və onların təzahürü və nəticələri nəzəri cəhətdən ümumiləşdirilir. Ekoloji dünyagörüşün formalaşdırılması, onun tərkib hissələri elmi dövriyyəyə daxil edilir.

Müasir ekoloji mədəniyyətin formalaşması bir idraki proses olaraq insanın təbiəti və onun problemlərini düzgün qiymətləndirməsindən asılıdır. Elə etmək lazımdır ki, insanın təhsildən və bütövlükdə cəmiyyətdən aldığı biliklər eyni zamanda onun təbiətə münasibətinin idraki davranış normalarına çevirilsin. Buna görə də ekoloji tərbiyə prosesi idrakın düzgün formalaşdırılması şəraitində həyata keçirilə bilər. Qlobal problemlərin meydana çıxması ilə səciyyələnən indiki şəraitdə tərbiyə prosesinə təkcə maarifçilik baxımından yanaşma özünü doğrultmur. Maarifçiliyin mütləqləşdirdiyi elm və elmi idrak əslində qlobal problemlərin təşəkkülündə və inkişafında bilavasitə əhəmiyyət kəsb edir. XX əsrin insanları ictimai-siyasi, iqtisadi-mənəvi həyatın bütün sahələrində mühüm uğurlar əldə etmişdir. Atom enerjisi ram edilmiş, canlıların irsiyyət daşıyıcılarının maddi əsasları öyrənilmiş, insan beynini təqlid etməyə çalışan kompüterlər yaradılmış və nəhayət, insanlar əmin olmuşlar ki, onlar Günəş sistemində yeganə şüurlu məxluqdur. Əldə edilmiş nailiyyətləri qazanan insan təbiətlə mübarizə apararaq onun ağasına çevrilmiş və onu tam şəkildə ram edə bilməmişdir. Yalnız XX əsrin sonunda insanlar dərk etməyə başladılar ki, təbiətlə mübarizə aparmaq əbəsdir, onunla ancaq dostluq etmək lazımdır və bu dostluğun təməli ekoloji mədəniyyətə, məntiqi idraka yiyələnmədən daha çox asılıdır.

"Ekologiya" anlayışı insanların ətraf təbii mühitə, təbiətin

digər sərvətlərinə qayğısı tələbatından irəli gəlmişdir. Maraqlı burasıdır ki, qədim dünyanın müəllifləri təbiətdə baş verən hadisələri, canlı aləmin daxili əlaqələrini müəyyən qədər şərh edə bilmişdir. Bu mənada biz Qədim Misir, Avropa, Hind yazılarında bir sıra məlumatlara rast gəlirik (Mahabharata, Ramayana).

Hələ eramızdan əvvəl V-IV əsrlərdə Platon (b.e.ə. 427-347) ekoloji problemlərə aid Yunanıstandakі Attika təpələrinin torpaq eroziyası, su ehtiyatları, torpaqların məhsuldarlığının saxlanması, əhali məskunlaşmasının nizama salınması haqqında qiymətli fikir və mülahizələrini irəli sürmüşdür.

Bizim eradan əvvəl III əsrdə Hindistan hakimi Aşoqa heyvanların öldürülməsinin qadağan edilməsinə dair fərman vermişdir. Böyük Karl (742-814) və Vilhelmin hakimiyyəti dövründə (1027-1087) özbaşına meşəqıranlar cəzalandırılırdı.

Bildiyimiz kimi insan təbiətin bir hissəsidir və təbiət haqqında müəyyən məlumatı olan şüurlu varlıqdır. Qeyd etmək lazımdır ki, təbiət yalnız bizi əhatə edən bir mühit deyil, bu həm də müəyyən mənada onunla informasiya mübadiləsində olan psixikamızın, şüurumuzun bir hissəsidir. Əgər əvvəlki dövrdə insan şüuru yalnız özünü müdafiəyə yönəldirdisə indi artıq insan həm də təbiətə qarşı öz gücünü göstərməyə çalışır. Hegelin sözləri ilə desək təbiətə praktik münasibət mənəvi, ilkin, əzəli münasibəti sıxışdırıb çıxarmışdır.

Hal-hazırda müstəqil Respublikamızın 20 faizdən çox ərazisi dağıdıcı təsirlərə məruz qalmışdır. Erməni faşistləri torpağımızın xeyli hissəsini yararsız vəziyyətə salmışdır. Xəzərin çirklənməsi bizi hiddətə gətirir. Ermənistandan gələn təhlükə daha çoxdur. Ermənistanın atom elektrik stansiyasının tullantılarının işğal altında olan ərazilərimizdə yerləşdirilməsinin qarşısı alınmamışdır. Həmin tullantıların Azərbaycan ərazisinə ötürülməsi çox təhlükəli xarakter daşıyır. Xəzərin qəsdən çirkləndirilməsi üçün Araz və Kür çaylarına atılan tullantılar qlobal təhlükə mənbəyinə çevrilir. Alimlər, dövlət xadimləri, siyasi liderlər, gələcək nəsillərin qayğısını çəkən hər bir insan bu problemləri həll etmək üçün düşünür. Hüquq qanunlarından istifadə etməklə

bu cinayətin qarşısını almağa çalışırlar. Lakin, hələ destruktiv istiqamətdə formalaşmış erməni xarakteri bu təhlükənin qarşısını almağa imkan vermir. Bu gün biz müasir ekoloji şəraiti qiymətləndirmək üçün təbiətə münasibətdə yeni mövqelərdən düşünməliyik. V.İ.Vernadiski insanın təbiətə münasibətini yeni mövqe baxımından belə şərh etmişdir: "XX əsrin adamı dərk etməlidir ki, o planetin sakinidir, yeni aspektdə fikirləşməli ayrı-ayrı şəxsiyyət, ailə, nəsil, dövlət yaxud dövlətlər ittifaqı aspektində düşünməli və fəaliyyət göstərməlidir".

Müasir şəraitdə ekoloji problemlərin həlli üçün ekoloji biliklər sistemi tələb olunur. İnsan ekoloji biliklərə yiyələndikcə onda mənəvi baxışların yenidən qurulması yaranır. Bu da təbiətə münasibətdə yeni davranış normaları formalaşdırır. Həmin ekoloji normalar və baxışlarda təbiətə məhəbbət prinsipi yaradan ekoloji mədəniyyət anlayışı öz əksini tapır. Faktlar sübut edir ki, təbiətin mühafizəsini və ekoloji tarazılığını bərpa etmək üçün hüquqi qanunlardan istifadə etmək mümkün deyil. Belə ki, Ermənistan kimi dövlətlər beynəlxalq hüququn tələblərinə əhəmiyyət vermirlər. Buna görə də insanlar tərəfindən yaradılan ekoloji təhlükənin qarşısının alınması getdikcə daha da çətinləşir. Təəssüflər olsun ki, millətlər və ölkələr arasında mövcud olan qarşıdurmalar əslində bütün yer kürəsini qlobal ölümün hədəfinə çevirir.

İnsanların və təbiətin tarixi bir-biri ilə sıx bağlıdır və bir-birini qarşılıqlı sürətdə şərtləndirir. Ona görə də təbiətin, ətraf mühitin, insanın yaranışı məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Canlı aləmə, heyvan və bitki aləminə, havaya, suya, torpağa qayğı Azərbaycanda da hələ qədim dövrlərdən mövcud olmuşdur. Zərdüştlüyün dini - fəlsəfi kitabı olan "Avesta"da torpağın, havanın, suyun, canlının, meşənin müqəddəsliyi haqqında fikirlər vardır. Axar suyun özünü duruldub arındırması haqqında fikir öz əksini tapmışdır. Suyun ilahiliyi haqqında Adam-Nabat-Alovlu su və canlı varlıqların yaradıcısı fikirlərinə rast gələ bilərik. Makovelskinin fikrinə görə "Avesta"da suyun ilahi qüvvəsi, haqqındakı fikirlər çox maraqlıdır.

İnsanla təbiətin qarşılıqlı əlaqəsi və münasibəti məsələsi müxtəlif məktəblər və cərəyanların nümayəndələri - filosoflar, şairlər, yazıçılar, alimlər, dini və siyasi xadimlər tərəfindən müzakirə olunmuşdur.

Ekologiya məsələsi haqqında Azərbaycanın ictimai fəlsəfi və bədii fikrində də müəyyən qiymətli baxışlar toplanmışdır. Mifologiyamızda, qədim yazılı dastanımız olan "Dədə Qorqud" boylarında insan və təbiət məsələsi ön plana çəkilmişdir. Təbiətin insan sığınacağı olması, günəşin saçağı, ağacın yarpağı, cüyürün gözü, atın çapımı təcəssümləşdirir. Yer, göy, ay, ulduzlar və hər nə varsa, hamısı qovuşmuş şəkildə təsvir edilir. Bu anlayışlar dünyanın vəhdətdə olduğunu bildirir.

Azərbaycanlı alim və səyyahlar, filosof və şairlər öz əsərlərində təbiət və insan haqqında ekoloji biliklərə malik olmuşdur. Deməli, cəmiyyətin mənəvi həyatının bir sahəsi olan ekoloji şüur digər şüur formalarına nisbətən sonralar yaransa da, ekoloji dünyagörüşü insan və təbiət münasibətini əks etdirən ilkin baxışlar idraki yiyələnmə prosesində yaranmağa başlamışdır. Məlumdur ki, dünyagörüşün predmetində insan durur. İnsanın insana, insanın təbiətə və cəmiyyətə olan münasibətlərinin ümumiləşdirilməsində rəngarəng və çox saylı münasibətləri ifadə edən elmi fəlsəfi, siyasi, dini, əxlaqi, estetik və s. baxışlar sistemi idraki yiyələnmə prosesinin əsasını təşkil edir. Dünyagörüşü insanın gerçəkliyə münasibətini əks etdirir və onun fəaliyyətini tənzimləyir. İnsan dünyagörüşə yiyələndikcə özünü daha dərindən dərk edir. Filosoflar bu fikri irəli sürürlər ki, dünyagörüş şəxsiyyətin praktik fəaliyyətində, onun ideal, amal və əqidəsinin müəyyənləşməsində, sosial mənafe və məqsədlərin dərk edilməsində çox mühüm əhəmiyyət kəsb edir.

Əhalinin ekoloji bilik və tərbiyəsi, əxlaqı, şüuru - ekoloji mədəniyyətin əsasını təşkil edir. Buna görə də ekoloji mədəniyyətin və ona aid dünyagörüşün bütövlükdə formalaşması mədəni və elmi sintez tələb edir. Çünki idraka yiyələnmə prosesi ekoloji mədəniyyəti özündə birləşdirir. Ekoloji mədəniyyətin ümumi xüsusiyyətləri insanın "ekoloji mənzərəsi"nin əsasını

təşkil edən ekoloji dünyagörüşün mənəvi aspektidir. Ona görə də, insan onu əhatə edən ekoloji mühit kimi dəyişilərək, nisbi həqiqətdən mütləq həqiqətə doğru inkişaf edir. Bir sözlə ekoloji mədəniyyət təbiət və cəmiyyətin harmonikləşdirilməsi prosesində mənəvi dünyagörüşün tərkib hissəsi kimi formalaşır. Idraki yiyələnmədə ekoloji mədəniyyətə malik olan insan təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını dərk edir, öz fəafiyyətinin bütün növlərini təbiətdən səmərəli istifadə olunması tələblərinə tabe edir. Cəmiyyətin ekoloji istiqamətdə tərbiyə olunması, ekoloji biliklərə yiyələnməsi, təbiətə münasibətin mənəvi aspekti insanın təbiətlə münasibətinin köklü dəyişməsinə gətirib çıxarar.

Təbiətə məhəbbət ekoloji tərbiyə və təhsil sistemini həyata keçirilməsi üçün əsas prinsipdir. Ekoloji tərbiyə nəsildən-nəsilə verilən, insanın təbiətə mənəvi praktiki mənimsəməyi səciyyələndirən müəyyən normalar və qaydalar məcmusu kimi başa düşülür. Ekoloji tərbiyə əxlaqi cəhətdən qiymətli, ekoloji cəhətdən məqsədəuyğun davranışı təbiətə münasibətdə şüurlu mövqeyin formalaşmasını tələb edir. Odur ki, məktəb böyüməkdə olan gənc nəslə ekoloji biliklər verməklə yanaşı, təbiətdə düzgün davranmaq, praktiki fəaliyyətdə onun sərvətlərinə əxlaqi və humanist münasibət göstərmək bacarığı yaratmaq ən vacib məsələlərdən biridir. Təhsil sistemində çalışan adamlar pedoqoji kollektivlərin ekoloji tərbiyə və bilik sahəsindəki fəaliyyətini istiqamətləndirməlidirlər.

Bəşəriyyətin keçdiyi tarixi yol insani keyfiyyətlərə, daha doğrusu mənəvi qüvvəyə daha çox əsaslanmışdır. İnsan mənəvi və elmi biliklərə nə qədər mükəmməl yiyələnirsə, o qədər də mənəvi qüvvəyə yiyələnir. Mənəvi qüvvə ilə fəxr etmək heç də dünyəvi mühiti dəyişdirmək deyil, insanı dəyişdirməkdir, kamilləşdirməkdir. S.Vurğun "İnsan" əsərində deyir:

Olmazmı qılıncda ağıl tədbiri,
Ağılda bir qılınc kəsəri ola?

Deməli, ekoloji problemlərin həllində cəmiyyətin mənəvi

həyatının bütövlükdə məzmununun dərinləşib və dolğunlaşması, təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsinin nizamlanması mənəvi prinsip kimi ekoloji təhsil və ekoloji tərbiyənin sistem- ləşdirilməsindən asılıdır. Sözün geniş mənasında mənəviyyatın qorunması və onun inkişafı xüsusi əhəmiyyətli məsələdir. Əvvəlcə qeyd etdiyimiz kimi mənəviyyat ictimai praktikanı və münasibətləri özündə əks etdirən insan fəaliyyətinin bütöv bir sahəsidir. Bəşəriyyətin min illər boyu yaratdığı mənəvi sərvətlərin qoruyucusu olan şüurlu insan təbiətə münasibətdə ən geniş imkanlarından istifadə etməlidir. Ekoloji təhsilin, tərbiyənin stimullaşdırılması şəxsiyyətin mənəvi mədəniyyətinin formalaşdırılmasına təsir göstərə bilər. Çünki "İnsanın mənəvi aləmi" ətraf mühiti özünə daxil edir. Məhz insanın təbiətə münasibətinin həmişə mənəvi və estetik tərəfləri də var. Yetişməkdə olan nəsildə ekoloji mədəniyyətin inkişaf etdirilməsi, təbiətin ümummilli və ümumbəşəri sərvət kimi qiymətləndirilməsi, mənəvi və estetik məzmuna daxil edilir. N. V. Qonçarenko qeyd edirdi ki, "mədəniyyət - bu həm fəaliyyət, həm onun nizamlanma vasitəsi, həm onun nəticəsi, həm funksiyası, həm məzmunu, həm də formasıdır. Elə buna görə də elementlərdən birinin təcrid edilməsi mədəniyyətin tam tərifinin verilməsinə xələl gətirir".

Ekoloji sistemlər üçün səciyyəvi olan münasibətlərin idraka yiyələnmə prosesi baxımından olan təhlili ekoloji problemlərin həlli üçün zəruridir. Bu münasibətlə aşağıdakı fəlsəfi aspektdə olan təhlillərə yer verilə bilər.

Birincisi, mənəviyyatın özündə yeni tələbatı üzə çıxarmaq, problemin mənəvi praktik həllinə istiqamət vermək tələbi baxımından ümumi bəşəriyyətin idrakı subyektinə çevrilməlidir.

İkincisi, ekoloji mədəniyyətin inkişafı qanunauyğunluğun dərk edilməsi kimi başa düşülməlidir. Təsadüfi deyildir ki, inkişaf etmiş dövlətlərdə ekologiya bütün tərbiyə və təhsil ocaqlarında yüksək dərəcədə tədris olunur.

Üçüncü, insanlar ətraf mühiti özünün təkcə iqtisadi tələbatına görə yox həm də mənəvi tələbatına uyğun dəyişdirməlidir.

Dördüncüsü, insan təbiətə qarşı amansız münasibətini dərk

etməli, təbiətin məhvini bütün bəşəriyyətin məhvi kimi qiymətləndirməlidir. Bu münasibət nəticədə ekoloji dünya- görüşün struktur komponentlərindən biri olan "ekoloji fəaliyyət" proqramını dünyanın əsas məsələsinə çevirir.

Beşincisi, müasir texniki nailiyyətlərin yaratdığı bədbin sosial mənəvi cəhətlər doğuran ekoloji problemlərin həqiqi mahiyyəti və səbəbləri anlaşılmalıdır. Bu da yeni ekoloji elmi təfəkkürə əsaslanan və mənəvi dünyagörüşə yiyələnən insan şüuru vasitəsi ilə dərk oluna bilər. Professor M. Cəlilovun qeyd etdiyi kimi insan üçün əlverişli təbii mühit və təbii sərvətlər lazım olduğu kimi, ekoloji mənəvi tərbiyə müasir elmi nəzəri və praktik tələbata cavab verə biləcək ekoloji dünyagörüşə də hava və su kimi lazımdır.

Təbiətə olan humanist münasibətin ekoloji əsası özünü ekoloji şüurda da göstərir. Ekoloji şüurun formalaşması insanın baxış və təsəvvürlərinin belə bir quruluşunu tələb edir ki, insanın mənimsədiyi ekoloji normalar eyni zamanda onun təbiətə münasibətinin davranış normalarına çevrilsin. İnsan özünün şüurlu fəaliyyətində təbiətə humanist münasibət bəsləməli, onun qanunauyğunluqlarını dərk etməli, gözəliyyini başa düşməli və sevməlidir. Təbiətə humanist münasibətin ekoloji əsasları insan-təbiət cəmiyyət tamlığını əhatə edən elmi, etnik, estetik, hüquqi və s. biliklərin cəmi kimi formalaşır, insanla münasibətlərin harmoniyasına yönələrək müsbət mənəvi hisslərin yaranmasında əsas rol oynayır və insanların yaşadıqları mühitdə yaranan ənənəvi dünyagörüşünə yönəldici təsir edib, onların şüurunu ekoloji təhlükəsizliyə yönəldə bilir.

Təbiətə humanist münasibətlərin formalaşmasında ekoloji əsaslardan biri də tərbiyənin gücləndirilməsidir. Yer kürəsində canlı aləmin təbii inkişafı üçün normal şəraitin qorunub saxlanılması yaşlı nəsillə gənc nəslin üzərinə mühüm vəzifələr qoyur. Ekoloji tərbiyə lazımınca olmadığından bu sahədə müəyyən nöqsanlar mövcuddur. Məhz buna görə də ekoloji tərbiyənin səmərəliliyini artırmaq, təbii ehtiyatlardan qənaətlə istifadə, gənclərdə yüksək ekoloji mədəniyyət formalaşdırmaq və yüksək

mənəvi keyfiyyətlər artırmaq tələb olunur. Ekoloji tərbiyəyə kompleks münasibət gənclərin ekoloji tərbiyəsinə müsbət təsir göstərir. Ekoloji tərbiyənin səmərəliliyini artırmaq ekoloji təfəkkürü gücləndirir.

Ekoloji tərbiyə prosesində yeni nəsilin təbiət haqqında bilikləri genişləndirilir, bu biliklər onlarda təbiətin qorunması, onun sərvətlərindən lazımi qaydada istifadə edilməsi tələbi yaradır. Təbiətə insani münasibətləri (humanizm, xeyirxahlıq, zəiflərə kömək arzusu və s.) formalaşdırmaq üçün müsbət əxlaqi cəhətləri vərdiş halına keçirmək, qayğılı münasibət hissi tərbiyə etmək vacibdir. Görkəmli rus alimi N. İ. Piroqov qeyd etmişdir ki, "elm təkcə məlumat almaq deyildir, orada çox zaman digər mühüm element - tərbiyəedici təbiət vardır. Bir çox zaman dərində olur, ona görə də səthi müşahidə üçün görünməz qalır. Bundan istifadə etməyi bacarmayan şəxs elmin hələ bütün xassələrini bilmir və elə bir lingi əldən buraxır ki, onun vasitəsi ilə hələ böyük ağırlıqları asanlıqla qaldırmaq olur".

Təbiətlə ünsiyyətdə insanın emosional aləmi daha da zənginləşir. Deməli idrak prosesi və əqidələrin formalaşması prosesi daha da fəallaşır, insanın əxlaqına, dünyagörüşünə böyük təsir göstərərək, humanist münasbətlər yaradır. Təbiətə humanist münasibətin formalaşdırılması vəzifəsi kəskin vəzifə kimi qarşıya qoyulmalıdır. Azərbaycanın qabaqcıl alim və ziyalıları təbiətə humanist münasibəti baxımından onu daha da sevmək və qorumaq haqqında qiymətli fikirlər irəli sürmüşdür. "Bizim nəğmələrimiz" adlı məqaləsində Y.V.Çəmənzəmənli Azərbaycan təbiətini cənnətə bənzədir. Onun şəhər və kəndlərini, o cümlədən küləklər şəhəri Bakını başdan-başa meşələrə, bağlara, yaşıllıqlara, örtülmüş bir gülüstana çevirməyi, bərəkətli torpağını da münbitləşdirməyi, yollarını abadlaşdırmaq, şəhər və kəndlərini sağlamlıq ocaqlarına çevirməyi arzu etmiş və on illər ərzində bu iş uğrunda fədakarcasına mübarizə aparmışdır.

İnsanların yaşayış tərzi onların təbiətə humanist münasibətilə bağlıdır. Təbiət nə qədər zəngin olarsa, maddi nemətlər bir o qədər bol olar, nə qədər gözəl olarsa, o qədər insanın

zövqünü oxşayar. Emerson demişdir: “Təbiəti heç vaxt pinti görməzsən. Ö həmişə gözəldir”. Təbiət bizim evimizdir. Ona həmişə məhəbbətlə, qayğı ilə yanaşmaq, onu qorumaq müqəddəs borcumuzdur. Təbiətin gözəlliyinin duyulması həyat simfoniyasıdır. Burada hər şey öz yerində, öz normasında olmalıdır. Onun ahəngdarlığı, harmoniyası, daxili səliqəsi heç vaxt heç yerdə pozulmamalıdır. İnsanın təbiətə olan humanist münasibətinin xarakteri onun idrakından, tərbiyəsindən, əqidəsindən, inamından çox asılıdır. Elə bu səbəbdən də ekoloji tərbiyə mühüm yer tutmalı və ekoloji biliklər mənimsənilməlidir. Çünki ekoloji bilik və tərbiyə gənc nəsildə təbiəti düzgün qavramaq, praktik fəaliyyətdə onun sərvətlərinə humanist münasibət göstərilən bacarıq və vərdişləri yaratmaq ən vacib məsələlərdən biridir. Deməli, böyüyən nəsildə ekoloji təfəkkürün formalaşdırılması məsələsi çox aktualdır. Çünki, hər bir insanda ekoloji mədəniyyətin formalaşması yüksək əxlaqi keyfiyyətlərə yiyələnməkdə və əməli fəaliyyətində, təbiətə olan duyğusunda, havanın, suyun, torpağın və canlı aləmin qorunması ilə bağlılığında özünü büruzə verir.

Sosial-ekoloji təhlil göstərir ki, ekoloji mədəniyyət təbiətə münasibətin bütün məzmunundan keçən ümumi biliklərin, əqidələrin, dünyagörüşün əsas sərvətləri olmasıdır. Təbii ehtiyatlara fəal işgüzar və eyni zamanda şüurlu, məsuliyyətli münasibətlər təbii mühitin yenidən yaradılmasını səmtləşdirən mədəniyyətdir. Cəmiyyətdəki ümumi ekoloji əhval-ruhiyyəyə bu cür təsir olduqca böyük əhəmiyyətə malikdir. Bu mədəniyyət insanların ən ali hisslərinə: əxlaqına, estetikasına, etik müna- sibətlərinə təsir göstərən əsas faktordur.

Elmi və texniki baxımdan qəbul edilən qərarlar müasir dövrün qlobal problemlərini həll edə bilməz. Bunun üçün ekoloji tərbiyəyə dair kompleks tədbirlər planı işlənib hazırlanmalıdır. Bu işin məqsədi mədəniyyətin formalaşmasından, insanların mənimsədikləri davranışları tənzim edən spesifik normalar, sərvətlər, baxışlar sistemi yaradılmasından ibarətdir. Deməli, ekoloji mədəniyyətin idarə olunan inkişafı təkcə təbiətdən səmərəli

istifadənin müvafiq formalarının mövcudluğunu deyil, eyni zamanda müvafiq adi və nəzəri requlyatorların (vərdişlər, biliklər, qaydalar, bacarıq və i. a.) mövcudluğunu nəzərdə tutur. Bir sözlə, insanın ekoloji mədəniyyətinin formalaşmasının mənbəyini ekoloji tərbiyə təşkil edir. Ekoloji tərbiyə təbiətlə cəmiyyət arasında aktual nəzəri və praktiki problem kimi çıxış edir. Bizə belə gəlir ki, insanlarda yüksək mənəvi səviyyənin yaradılması mənafelərin üst-üstə düşməsinə xidmət göstərir.

Ekoloji tərbiyə hər bir şəxsdə ağıllı tələbatların formalaşmasında, ətraf mühitə zərər vurmadan onun nemətlərindən istifadə etmək bacarığının yetişdirilməsi vəzifəsinin yerinə yetirilməsində əvəzsiz rol oynayır. Bunun nəticəsində mənəvi məzmun ekoloji dünyagörüşə sirayət edir, onun formalaşması və inkişafı amilinə çevrilir. Beləliklə, ekoloji tərbiyə və təhsil dedikdə təbiəti mühafizəyə dair kompleks tədbirlər nəzərdə tutulur. Bunlar da insana bütün sahələrdə şüurlu və qayğıkeş münasibət tərbiyə edilməsinə xidmət edir. Ümumiyyətlə ekoloji tərbiyə bütövlükdə mədəniyyətə istiqamət və müəyyənlik verən amillərdən biridir. Çünki o, adamların, siyasi, əxlaqi və estetik tərbiyəsi işinin mühüm istiqamətlərindən biri kimi çıxış edir. Bütün insanlarda sosial ekoloji biliklərin, bacarıqların, vərdişlərin tərbiyə edilməsi işi universal şəkildə təşkil olunmalıdır.

Ümumiyyətlə, ilk dövrlərdə mədəniyyətə insanın təbiətə məqsədəuyğun təsiri kimi yanaşılmışdır. Daha sonra, ölkənin sosial inkişafında şəhərlərin meydana gəlməsinə də mədəniyyət kimi baxılmışdır. İntibah dövründə insanın humanist sosial mənəvi idealı, XVII- XVIII əsrlərdə kütlələrin maariflənməsi, XIX əsrdə cəmiyyətin və şəxsiyyətin mənəvi, siyasi, dini, elmi, bədii və i.a. fəaliyyəti kimi münasibətlər məhz mədəniyyət anlayışı altında mövcud olmuşdur.

M. T. Sidqi təkid edirdi ki, “insan yeməyə, içməyə, geyməyə, mənzilə ehtiyac hiss etdiyi kimi, gözəl əxlaqi sifətləri özündə aşılamağa ehtiyac hiss etməlidir. Çünki insan yeməksiz, mənzilsiz qaldıqda fiziki cəhətdən həlak olduğu kimi, gözəl əxlaqi sifətlərdən məhrum olanda da, mənəvi cəhətdən həlak olar,

çünki, şərəfi-insaniyyət feyziməarifətdən ibarətdir... insana yemək, içmək, geymək və s. həvayici zəruriliyə nə tövr lazımsa, elm və mərifət də eləcə lazımdı".

Dünyagörüşün inkişaf səviyyəsi ilə insanın sosial fəallıq dərəcəli arasında qarşılıqlı əlaqə şəxsiyyətin formalaşması üçün estetik mədəniyyətin yaradıcı xarakterinin prinsipial əhəmiyyəti barədə nəticə çıxarmağa imkan verir. Mədəniyyət gerçəkliyin və insanların qarşılıqlı münasibətlərinin zahiri cəhətləri ilə deyil, onların sosial, mənəvi mahiyyəti ilə bağlıdır. Biz təbiətə möhtac olduğumuz kimi təbiət də bizə möhtacdır. İnsanla onu əhatə edən təbiət arasında ixtilaf həm maddi, həm də mənəvi itkilərə doğru aparır. İngilis yazıçısı S. Moem bəşəriyyətin gələcəyini belə qeyd edir. "Biz təbiətin əlində sadəcə oyuncağıq: ... quraqlıq məhsulu məhv edəcək, daşqınlar isə insanın böyük qayğı ilə tikdiyi bəndləri və körpüləri uçuracaqdır. Nə qədər ki, insanlarda lənətə gəlmiş tamahkarlıq, acgözlük ruhu hökmrandır, bunlar insanda nə varsa ondan alacaqdır".

Biz burada təbiətə münasibətdə bəzən aşağı səviyyəli mədəniyyət təzahürü ilə qarşılaşırıq. Buna görə də təbiətə ağılsız münasibət hallarından söhbət gedərkən ümumi mədəni problemlərə də toxunmaq lazımdır. Yalnız estetik, mənəvi mədəniyyəti yüksək olan adam cəmiyyətin inkişafında təbiətin yerini və rolunu dərindən dərk edə bilər.

Ümumiyyətlə ekoloji dünyagörüşün formalaşması prosesini müasir təhsil sistemində uşaq bağçalarında, orta məktəblər və ali təhsil müəssisələrində reallaşdırmaq lazımdır. Ətraf aləmlə tanışlıq, təhsilin dərk olunması məqsədilə nəzərdə tutulan fənlərin tədrisi ekoloji tərbiyə işinin gücləndirilməsində mühüm yer tuta bilər. Hətta ekoloji maarifləndirmə bütün fənlərin tədrisi zamanı nəzərdə tutula bilər. Bu bir mürəkkəb pedaqoji proses olmaqla təbii mühütün təbii sərvət kimi başa düşülməsinə gətirib çıxarda bilər. Məhz bu baxımdan ekoloji təhsil və tərbiyə mühüm fəlsəfi və pedaqoji proses kimi aşağıda göstərilən formada həyata keçirilməlidir:

- Təbiətə, humanist münasibətlərin əsasında ekoloji

mədəniyyətin təşəkkülü

- Təbii sərvətlərin qorunması işində praktik təcrübənin həyata keçirilməsi
- Ekoloji mədəniyyət sistemində praktiki biliklərin tətbiqi
- Təbiətdən istifadə mədəniyyətində maarfiləndirmə işinin həyata keçirilməsi
- Tədris və tərbiyə sisteminin ekolojiləşdirilməsi

Ekoloji dünyagörüşü yalnız biliklərin müəyyən səviyyəsi, əqidələrin toplusu kimi səciyyələndirilməməlidir. "Ekoloji dünyagörüşü" anlayışını belə səciyyələndirmək ancaq birtərəfli cəhəti əks etdirmək deməkdir. İnsanın şüurunu əks etdirən bilik, inam, peşəkarlıq, vərdişlər bu və ya digər şəxsin tam surətdə ekoloji mədəniyyətə malik olması demək deyildir. İnsan yalnız praktika ilə bağlı olan bütün mənəvi və estetik dəyərləri, eləcə də ekoloji biliklərin, ekoloji etikanın, şüurun və mədəniyyətin daşıyıcısı olmaqla şəxsiyyətin çoxcəhətli mənəvi biliyinin və dünyagörüşünün bütövlüyünü müəyyən edən keyfiyyətə nail ola bilər. Bütövlükdə ekoloji təhsil və tərbiyənin formalaşması idrakı və praktiki qabiliyətin inkişaf prosesi ilə bağlıdır. Şəxsiyyətin böyüklüyü onun mənəvi keyfiyyətləri ilə, daha doğrusu mənəvi, estetik və ekoloji mədəniyyəti ilə müəyyən olunur. Bu prosesdə adamları əhatə edən gerçəklik dəyişdirilir, insanın özü artıq müəyyən dərəcədə inkişaf edir, təkmilləşir. Bir sözlə ekoloji dünyagörüşü insan - təbiət münasibətində insanın mənəvi dünyasının yeniləşməsində həlledici rol oynayır. Ümumiyyətlə, ekoloji bilik, təhsil və tərbiyə ümumi mədəniyyətin tərkibinə daxil olmaqla insanın təbiətlə münasibətində harmoniya yaradır və insanın təbiətlə konkret olaraq qarşılıqlı münasibətini qurmaq üçün həyata keçirdiyi müəyyən proqramdır.

Göründüyü kimi ayrı-ayrı fərdlərin dünyagörüşü və mədəniyyətində baş verən dəyişikliklər konkret iqtisadi-sosial-mədəni çərçivədə və inkişafın müəyyən pillələrində baş verir. İstər istəməz cəmiyyət çərçivəsində "inkişaf üslubu"nun dəyişdirilməsi

və fərdin tələbatına ekoloji dəyərlərin daxil edilməsi müqəddəm şərtə çevrilməlidir.

Fəlsəfi dəyərlər amili bəşəriyyətə sabit sivilizasiya yaratmaq üçün zəruri olduğu qədər də labüd və qanunauyğundur. Belə ki, mənəvi dəyərlər mənbəyi insanın biosferdəki həyatından başlanır və təbiətlə-insanın çoxəsrlik ənənələri daha mütərəqqi əsaslarla inkişaf edir. Ona görə də ekoloji mənəvi dəyərlərin formalaşması işi təxirə salınmaz tədbirlərdən birinə çevrilməlidir. Çünki bəşəriyyətlə biosferin vəhdəti dünya birliyi ölkələrinin əməkdaşlığı ənənəsində reallaşan mənəvi-estetik dəyərlərə əsaslana bilər.

# XIII FƏSİL

# ŞƏXSİYYƏT İCTİMAİ-SOSİAL VARLIQDIR

**1. Şəxsiyyət anlayışı və onun elmi-fəlsəfi təhlili**
**2. Şəxsiyyət ictimai və sosial dəyərlərin daşıyıcısıdır**
**3. Şəxsiyyətin formalaşmasının sosial-mədəni mühiti**
**4. Şəxsiyyətin formalaşmasında mədəni irsin rolu**
**5. Mənəvi dəyərlər və şəxsiyyət**

## 1. Şəxsiyyət anlayışı və onun elmi-fəlsəfi təhlili

Şəxsiyyət anlayışı tarixin bütün dövrlərində əsas diqqət mərkəzində olmuş və bir çox sosial-humanitar elmlərin tədqiqat obyektinə çevrilmişdir. Fəlsəfə, tarix, pedaqogika, psixologiya, politologiya, sosiologiya, etika, estetika və s. sosial humanitar elmlər şəxsiyyət anlayışının mahiyyətini, onun cəmiyyətdəki rolunu təhlil etmiş və qiymətləndirməyə çalışmışlar.

Fəlsəfə elmi insanı ictimai-sosial varlıq kimi qiymətləndirərək şəxsiyyətin mahiyyətini onun ümumi xassələrində, cəhətlərində axtarmağa üstünlük vermişdir. Həmçinin şəxsiyyətin sosial, mənəvi-fiziki keyfiyyətlərini qiymətləndirmiş, onu formalaşdıran cəhətlərə kompleks şəkildə yanaşmışdır. Eyni zamanda müxtəlif fəlsəfi konsepsiyalar, cərəyanlar şəxsiyyətin formalaşmasının səbəblərini müxtəlif məzmunlu yozumlarla izah etməyə çalışmışlar. Bu bir daha təsdiq edir ki, şəxsiyyət anlayışı çox mürəkkəb struktura malik olduğundan onun müxtəlif elmi baxışlar əsasında şərhinə böyük ehtiyac vardır. Məhz bu ehtiyacdan irəli gələrək təkcə psixoloqların baxışlarına görə şəxsiyyət haqqında 100-dən çox nəzəri fikirlər mövcuddur. İstər fəlsəfə, istərsə də digər ictimai elmlər şəxsiyyətin bioloji, sosioloji və biososial istiqamətlərinə daha çox üstünlük verirlər.

Təbii ki, insana fərdi anlayışlar zəminində yanaşarkən onun biososial varlıq olduğunu qəbul etmək olar. Belə ki, hər bir fərdə ayrıca insan kimi qiymət verərkən insan növünə xas olan ümumi əlamətləri ifadə etmək mümkündür. "Fərd öz

ifadəsini insanın təbii əlamətlərində və psixi xassələrində - hafizə, təxəyyül, temperament, xarakter xüsusiyyətlərində və insan simasında, onun həyat fəaliyyətinin bütün rəngarəngliyində tapır". Məhz fərdi, qeyd olunan bu xüsusiyyətinə görə şəxsiyyətdən fərqləndirmək olar. Ayrıca fərddən fərqli olaraq şəxsiyyət fərdi xassə və keyfiyyətləri ilə yanaşı cəmiyyətdəki bir sıra sosial, mənəvi və fiziki keyfiyyətlərə də malikdir. Şəxsiyyətin fərdi keyfiyyətləri cəmiyyətdəki bir sıra sosial, mənəvi proseslərə inteqrasiyasında özünü büruzə verir. Bunun da nəticəsində şəxsiyyətin sosial fəaliyyəti onun göstəricisinə çevrilir və fərdi insandan onu bu göstəricilərə görə fərqləndirir. Sosial fəaliyyətin məzmununa uyğun olaraq şəxsiyyətin xassələri və keyfiyyətləri formalaşır. Şəxsiyyətin xassə və keyfiyyətinin dəyər ölçüsü isə zaman və məkan daxilində nəzərə çarpır. Ayrı-ayrı dövrlərin, cəmiyyətlərin, quruluşların ictimai, siysi, mədəni xüsusiyyətləri şəxsiyyətin mənəvi keyfiyyətlərində üzə çıxır. Bu da ondan irəli gəlir ki, hər bir insan tarixin müəyyən dövründə yaşayır, konkret cəmiyyətdə özünün insana xas olan keyfiyyətləri ilə fərqlənir.

Hər bir ictimai formasiyada və müxtəlif sistemli cəmiyyətlərdə şəxsiyyətin üzərinə düşən mənəvi tələbat dəyişir. Şəxsiyyət yaşadığı quruluşun əxlaq normalarına əməl etməklə müxtəlif fərdlərdən fərqlənir. Lakin bu əməletmə prosesi şüurlu davranış normaları əsasında baş verir. Əgər şəxsiyyət öz davranışlarında müstəqildirsə onun əməllərində yüksək nəcib əxlaqi münasibətlər bərqərar olur.

Məlumdur ki, hər bir insan bəşər tarixi boyu yaranmış mənəvi sərvətlərdən bəhrələnir və təkmilləşir. Təkmilləşdikcə insanm mənəvi-emosional keyfiyyətləri də zənginləşir. Bu zənginləşmə insanı yeni fəaliyyət istiqamətlərinə yönəldir. Onun əxlaqi tərəqqisi yaradıcılıq potensialını da artırır. Qeyd olunan keyfiyyətləri özündə əxz edən insanlar elmin müəyyən sahələrində - təhsildə, incəsənətdə, siyasətdə və s. sahələrdə böyük naliyyətlər əldə edirlər. Onlar hətta cəmiyyəti qabaqlayaraq yeni fikir və ideyalar ortaya qoyur, gələcək haqqında müəyyən

proqnozlar vermək qabiliyyətinə malik olurlar. Bu cəhət şəxsiyyəti adi fərddən əsaslı şəkildə fərqləndirir. Qeyd olunan keyfiyyətlər əsasında adi və ya qeyri-adi şəxsiyyətlər formalaşır. Adi şəxsiyyətdən fərqli olaraq qeyri-adi şəxsiyyətlər bəşəriyyətin inkişaf qanunlarını daha yaxşı qavrayır, başqalarının ifadə edə bilmədiyi yeni fikirlər söyləyir, tarixi, ictimai, elmi əhəmiyyəti olan kəşflər edir.

Belə şəxslərin mənlik hissi də başqalarından fərqlənir. Əgər o şəxsiyyətdirsə onun özünə məxsus "Mən"i vardır. Azərbaycan alimi Yaşar Qarayevin təbirincə desək "Şəxsiyyət yoxdursa – "Mən", milli mənlik şüuru yoxdursa - xalq yoxdur. Aşkarlıq, demokratiya, vicdan.... - hamısı "Mən"dən kənarda qalanda yox "Mən"də birləşəndə, onunla bərabərləşəndə, "Mən" olanda "şəxsiyyət" əmələ gəlir.

Şəxsiyyətin əməli fəaliyyəti onun "Mən"ini formalaşdırır. Məhz, özünün geniş, rəngarəng əməli fəaliyyəti ilə şəxsiyyət "sosial varlıq" anlamına söykənir.

Hər bir şəxsiyyətin özünə məxsus olan psixi fəaliyyət imkanları, şüuru, təfəkkürü, intiuisiyası vardır. Belə adamlar özlərinə məxsus hissləri sayəsində elə ideyalar və obrazlar yaradırlar ki, bunlara real həyatda təsadüf edilmir. Onlar öz istedad və bacarıqlarına arxalanaraq cəmiyyətdə qeyri-adi keyfiyyətlər nümayiş etdirirlər. Özlərinin böyük elmi, ictimai əhəmiyyət kəsb edən kəşfləri ilə məşhurlaşır, insanları öz arxasınca aparmaq, onları idarə etmək kimi bacarıqları ilə liderləşirlər. Belə şəxsiyyətlər xarizmatik liderlər kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, tanınmış alman sosioloqu M.Veberin fikrinə görə ənənəvi, xarizmatik, rasional-leqal lider tipləri mövcuddur, öz əlamətinə görə ənənəvi lider öz ictimai-siyasi fəaliyyətində daha çox ənənələrin gücünə arxalanır. Xarizmatik liderlik isə öz istedad və bacarığına güvənərək yeni təşkilatçılıq keyfiyyətləri ilə fərqlənən şəxsiyyətlərə məxsusdur. Rassional-leqal liderlər isə qanunların aliliyinə əsaslanaraq bütün cəmiyyət üzvlərini onlara inandırmağa və qanunların aliliyinə hörmətlə

yanaşmağa üstünlük verir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz belə şəxsiyyətlərdən olmuşdur. O, həm öz istedad və bacarığı sayəsində xarizmatik lider kimi formalaşmış, həm də bütün rəhbərlik fəaliyyəti dövründə qanunların aliliyinə hörmətlə yanaşaraq tabeliyində olanlardan da qanunlar çərçivəsində fəaliyyət göstərmələrini tələb etmişdir.

Bildiyimiz kimi ictimai həyatın rəngarəngliyinə uyğun olaraq şəxsiyyətin xarakteri, fəaliyyət istiqamətləri, onun mənvi aləmi çox müxtəlifdir. Bu müxtəliflik əsasən özünü şəxsiyyətin cəmiyyətdəki fəaliyyətinin məzmununda büruzə verir. Onların fəaliyyətlərinin məzmununu təhlil edərkən ən dahi şəxsiyyətlərin mənəvi keyfiyyətlərinin bir-birindən fərqli olduğunu görürük. Məhz, şəxsiyyətin bir-birindən fərqinə münasibətdə də ayn-ayrı elmi ədəbiyyatlarda müxtəlif aspektlərdən yanaşılır. Belə ki, bəzi müəlliflər şəxsiyyətin fərdi-nisbi inkişafını mənəvi və əxlaqi tərəqqinin əsas amili kimi qiymətləndirirlər. Onlar şəxsiyyətin formalaşması prosesini ictimai inkişafdan kənarda təsəvvür edirlər. Lakin şəxsiyyətin formalaşmasını, onun mənəvi inkişafını cəmiyyətin həyatından ayrı təsəvvür etmək mümkün deyildir. Çünki şəxsiyyət yalnız real cəmiyyət daxilində nəzərə çarpır və buda şəxsiyyətlə cəmiyyət arasındakı vəhdətin mövcudluğundan irəli gəlir.

Bildiyimiz kimi bəşər tarixində indiyə qədər müxtəlif xarakterli, müxtəlif ictimai-siyasi quruluşa malik olan cəmiyyətlər olmuşdur. Bu cəmiyyətlərin ideoloqları şəxsiyyətin formalaşması amillərinə münasibət bildirərkən özlərinə məxsus olan ideya-siyasi zəmindən yanaşmışlar. Məsələn, K.Marks və F.Engels şəxsiyyətin formalaşması prosesində kollektivçilik mühitinə üstünlük vermiş, fərdin şəxsi azadlığının da yalnız kollektivdə mümkün oduğunu demişlər. Onların fikirlərinə görə "Fərd öz qabiliyyətlərinin hərtərəfli inkişafına imkan verən vasitələri yalnız kollektivdə alır və deməli, şəxsi azadlıq yalnız kollektivdə mümkündür".

Təəssüflər olsun ki, marksist ideoloqlar və filoloqlar şəxsiyyəti formalaşdıran mühiti sosializmin kollektivçilik mühiti

ilə məhdudlaşdırırlar. Lakin insan bütün cəmiyyətlərdə kamilliyə yetişmək, çoxluğun xoşuna gələn əməllər etmək, özünün bilik və bacarığı vasitəsilə müəyyən məqsədlərə nail olmaq uğrunda mübarizə aparır. Pedaqoq alimlər belə hesab edirlər ki, "cəmiyyət həyatında hansı insan, xeyirli, səadət, xoşbəxtlik gətirən işdə çalışmasından, tutuduğu vəzifədən asılı olmayaraq, yüksək insani məqama çatıbsa, kamil insan səviyyəsinə yüksəlibsə şəxsiyyətdir". Şəxsiyyətin kamilləşməsinin əsasında isə onun hərtərəfli inkişafı dayanır.

Vaxtilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz çıxışlarının birində qeyd etmişdir ki, "İnsanın hərtərəfli tərəqqisi bizim üçün abstrakt bir ideya deyil, ictimai inkişaf qanunudur".

Şəxsiyyətin mənəvi siması onun əxlaqi fəaliyyəti prosesində formalaşır. Əxlaqi fəaliyyətin özü isə şəxsiyyəti əhatə edən xarici şəraitin məzmunundan çox asılıdır. Eyni zamanda əxlaqi fəaliyyət iradə azadlığına malik olan şəxsiyyətlərdə sərbəst seçim imkanı yaradır və belə şəxsiyyətlər onu əhatə edən aləmə təsir etmək qabiliyyətinə malik olurlar. Hətta onlar öz mühitlərinə təsir edərək onu dəyişdirmək kimi keyfiyyətlərə sahibdirlər.

Azad şəxsiyyət öz davranış və hərəkətini özü seçir. Məhz, buna görə də filosoflar azadlıq və mənəvi məsuliyyəti bir-biri ilə vəhdətdə hesab edirlər. Məsələn, F.Engels belə hesab edirdi ki, "insan öz hərəkət və əməlləri üçün o zaman tam məsuliyyət daşıyır ki, o bu hərəkəti tam iradə azadlığı əsasında etmiş olsun".

Mənəvi azadlığa malik olmadan müstəqil şəxsiyyət kimi formalaşmaq mümükün deyildir. Müstəqil şəxsiyyət özünün cəmiyyət qarşısındakı məsuliyyət dərəcəsini də azad şəkildə qiymətləndirmək qabiliyyətinə malikdir. Belə şəxsiyyət öz vicdanı qarşısında etdiyi hərəkətlərinə və əməllərinə cavab verməyi bacarır, cəmiyyətin əxlaqi tələblərini düzgün dərk edə bilir. Məhz şəxsiyyətin cəmiyyət qarşısında öz məsuliyyətini dərk etməsi əxlaqi məsuliyyətin əsas şərti kimi özünü biruzə verir. Bir tərəfdən müstəqil şəxsiyyət cəmiyyət qarşısında mənəvi azadlıq nümayiş etdirir, digər tərəfdən isə o, öz üzərinə böyük vəzifələr

qoymaqla cəmiyyət qarşısındakı mənəvi borcuna əməl etmək zərurəti qarşısında qalır. Məhz, bu cəhət şəxsiyyətin cəmiyyət qarşısında məsuliyyət hissini formalaşdırır, onun azadlıq dərəcəsini məsuliyyət duyğusu ilə qovuşdurur. Beləliklə də şəxsiyyətin cəmiyyət qarşısındakı məsuliyyəti obyektiv şəraitin tələbatına uyğun şəkildə baş verir. Bu məsuliyyət hissi davranış normasına çevrilərək şəxsiyyətin cəmiyyət qarşısındakı mənəvi borcuna şüurlu münasibət formalaşdırır. Şəxsiyyətin məsuliyyət hissi onun özünəməxsus keyfiyyətlərinin cəmiyyətin həyatına tətbiq etməsinə zəmin yaradır.

İnsanın bir şəxsiyyət kimi formalaşmasının əsasını təhsil və tərbiyə vasitələri təşkil edir. Hər bir fərd hələ məktəb yaşlarından sosial varlığa çevrilir, təhsil vasitəsilə müəyyən biliklərə yiyələnir. Eyni zamanda elm və mədəniyyət sahəsində əldə olunan nailiyyətləri mənimsəyir. Həmçinin təhsil və tərbiyə prosesində şəxsiyyətin ünsiyyət mədəniyyəti formalaşır.

Müasir pedaqogika şəxsiyyətə bir tam, psixi sistem kimi baxır. Burada bioloji və sosioloji xüsusiyyətlər ayrılmazdır. Şəxsiyyət ictimai həyatın məhsulu olmaqla, həm də canlı orqanizmdir. Şəxsiyyətin formalaşması və davranışında sosioloji ilə biolojinin münasibəti olduqca mürəkkəbdir və insanın inkişafının müxtəlif dövrlərində şəxsiyyətə eyni təsir göstərmir. Şəxsiyyətin bütün tərəfləri yalnız fəaliyyətdə və başqa adamlarla ünsiyyətdə təzahür edir. Uşaqlar həm məktəbəqədər tərbiyə müəssisələrində, həm də ümumtəhsil məktəblərində bir-biri ilə ünsiyyətə girmək imkanları qazanırlar. Bu imkanlar daxilinda tərbiyə prosesinin məzmunundan asılı olaraq uşaqların mənəvi aləmində böyük dəyişikliklər baş verir, onlar əqli, əxlaqi, fiziki, estetik tərbiyə prosesinə qədəm qoyur. Onlarda bir sıra fərdi, ictimai keyfiyyətlər formalaşır. Şagird kollektivinin tələbləri daxilində hər bir uşaq optimal münasibətlərin mərkəzində dayanır. Pedaqoqlar belə hesab edirlər ki, "kollektiv şəxsiyyəti öz həyatının normalarına, dəyərlərinə və ənənələrinə tabe edir". Lakin şəxsiyyət zahirən kollektivin tələblərinə tabe olsa da o daxili müstəqilliyini qoruyub saxlayır. Məhz şəxsiyyətin daxili müstəqilliyi onu başqalarından

fərqləndirir. Daxili müstəqillik şəxsiyyətin bir sıra keyfiyyətlərini, o cümlədən istedad və bacarığını üzə çıxarır. Bu cəhət yeniyetmələrdə daha tez nəzərə çarpır. Belə ki, yeniyetmələr ətraf aləmdə baş verən hadisələrə daha aktiv münasibət bildirir və özləri də bir sıra hadisə və proseslərin fəal iştirakçılarına çevrilməyə can atırlar. Onlardan idraki fəaliyyəti güclü olanlar baş verən hadisə və proseslər zamanı yanlış hərəkətlərdən yayına bilirlər, daha intellektual hərəkətlər nümayiş etdirirlər.

Qeyd etmək lazımdır ki, hər bir fərdin şəxsiyyətə çevrilməsində onun güclü iradəyə malik olması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, insanın bütün gücünü və qabiliyyətini onun iradəsi tənzimləyir və istiqamətləndirir. Həyat təcrübəsi göstərir ki, iradəsi zəif olan adamlar heç zaman böyük amallar uğrunda axıra qədər mübarizə apara bilmirlər. İradəsi güclü olan adamlar isə ən çətin məqamlarda da düşdükləri vəziyyətdən çıxış yolu tapa bilir, öz istək və arzularına nail olurlar. Məsələn, xalqmızın Ümummilli lideri Heydər Əliyev düşdüyü bütün çətin vəziyyətlərdə möhkəm iradə və dəyanət nümayiş etdirməyi bacarmış, respublikamızın düşdüyü bütün çətin anda öz iradəsinin gücü ilə yenidən hakimiyyətə gəlmiş və dövlət müstəqilliyimizi qoruyub saxlaya bilmişdir.

Qeyd etmək lazımdır ki, iradə anlayışının özü də şəxsiyyətin mənlik şüuru ilə bağlıdır. Mənlik şüuruna malik olan insanlar ən çətin məqamda da əyilməzlik nümayiş etdirir, özü ilə dialoqa girmək, yeri gələndə özünü təhlil və ya mühakimə etmək qabiliyyətinə malik olurlar. Belə şəxsiyyətlər özlərinin davranışlarında, fəaliyyətlərində buraxdıqları səhvləri görüb vaxtında düzəltmək qabiliyyətinə malikdirlər. Mənlik şüuru onlann əxlaq normaları əsasında ictimai fəaliyyətlərinin rüşeymini təşkil edir. Mənlik şüuru şəxsiyyətin etik, estetik və başqa əxlaqi keyfiyyətlərini özündə birləşdirir. Bu xüsusiyyətlər şəxsiyyətin mədəni səviyyəsini də adi insanlardan fərqləndirir.

Ümumiyyətlə, etik və estetik keyfiyyət mahiyyət etibarı ilə çoxşaxəlidir. Bu keyfiyyətləri kompleks şəkildə özündə əxz edən şəxsiyyətlər həm də universallaşırlar. Yəni hərtərəfli şəxsiyyət

səviyyəsinə yüksəlir, bir çox bacarıq və vərdişlərə yiyələnirlər. Universallaşmış şəxsiyyətlərin həyatdakı fəaliyyət istiqamətləri də rəngarəng olur. Onlar peşələrindən və tutduğu vəzifələrindən asılı olmayaraq başqa işlərin də öhdəsindən məharətlə gəlməyi bacarırlar. Məsələn, Azərbaycanın görkəmli alimi Nəsirəddin Tusi belə şəxsiyyətlər sırasına daxildir. Ensiklopedik zəkaya malik olan Nəsirəddin Tusi Marağa rəsədxanasını yaradaraq astronomiya ilə məşğul olmaqla yanaşı həm filosof, həm də dövlət xadimi idi. Onda həm şairlik, həm də tərbiyəçilik qabiliyyətləri cəmləşmişdi. "Əxlaqi Nasiri", "Şəklül-qita", "Təhlil əl məcəsti" və başqa bir çox əsərlərin müəllifidir. Onun etik və estetik baxışları müasir tərbiyə sistemində də çox əhəmiyyətlidir. Belə ki, Nəsirəddin Tusi insanın xeyirxah əməllərini şəxsiyyətin başlıca keyfiyyəti kimi qiymətləndirərək qeyd edirdi ki, "xeyirxah olan fazil adamlar öz zatlarından xeyir götürüb başqalarına da xeyir verdiklərindən həm o razı qalar, həm də başqaları ondan razı qalar, sədaqətli olduqları üçün onu sevərlər, sevdikləri üçün sədaqətli olarlar, sədaqətli olduqları üçün onun başına toplaşarlar". Bu deyilənlərdən başqa Nəsirəddin Tusi şəxsiyyətin davranışı haqqında da çoxlu maraqlı fikirlər söyləmişdir. O, insan kamilliyinin mahiyyətinə münasibət bildirərək demişdir: "Əməli qüvvət kamilliyi ona deyirlər ki, insan öz imkan və fəaliyyətini nizama salıb elə uyğunlaşdırsın ki, onlar bir-birinə mane olmayıb, əksinə, bir-birini tamamlasınlar, belə halda əxlaq münasib, xoşa gələn şəkildə tərbiyələnir".

Əxlaqın kamilləşməsi şəxsiyyətin ictimai proseslərdə iştirakını da həm reallaşdırır, həm də tənzimləyir. Belə ki, yüksək əxlaqi keyfiyyətə malik olan şəxsiyyət bütün sahələrdə, ictimai proseslərdə, idarəçilik işlərində fəal iştirak etməklə rasional varlıq kimi özünün yüksək mənəvi-siyasi keyfiyyətlərini reallaşdırmaq imkanına malik olmalıdır.

Şəxsiyyətin əxlaqi tənzimlənmə prosesinin bir sıra başqa meyarları da vardır. Belə ki, şəxsiyyətin formalaşmasının təbii-coğrafi mühitlə bağlılığı fikrini irəli sürən coğrafi determistlər coğrafi şəraitə üstünlük vermişlər. Şəxsiyyətin formalaşmasına

təbii-coğrafi mühitin təsiri anlayışı əsasən fransız filosofu Ş.Monteskiyeyə, ingilis tarixçisi H. Bokla, fransız coğrafiyaçısı E. Reklüyə məxsus olmuşdur.

Ümumiyyətlə, naturalist nəzəriyyəçilər şəxsiyyətin inkişaf mühitini cəmiyyətin özündən kənarda axtarmağa üstünlük vermişlər. Onlar dağ adamlarının xarakterini səhra adamının xarakteri ilə müqayisə etmiş, gözəl təbiətdə daha gözəl xarakterli şəxsiyyətlərin yetişdiyini sübut etməyə çalışmışlar. Sözsüz ki, təbiətdən istifadə olunması müəyyən mənada insan şəxsiyyətinin əxlaqi keyfiyyətlərinin folrmalaşmasma təsir edir. Lakin şəxsiyyətin formalaşması bir kompleks prosesdir. Bu prosesdə irsiyyət də xüsusi əhəmiyyət kəsb edir. Alimlər şəxsiyyətə xas olan müəyyən keyfiyyətlərin onun təbiətində və xasiyyətində təzahür etməsini daşıyıcı genlərlə də əlaqələndirirlər. Lakin, şəxsiyyətə aid olan qabiliyyətlər təcrübi fəaliyyətin nəticələri kimi qiymətləndirilir. Bu qabiliyyətlərə yiyələnməyin kökündə irsi xüsusiyyətlərin, nəsil ənənələrinin dayandığı da inkar edilmir. Şəxsiyyətin intellektual səviyyəsinin valideynlərdən irsən keçmə olduğunu bildirən fikirlər isə pedaqogika elmi tərəfindən inkar olunur. Pedaqogika elminin gəldiyi nəticəyə görə şəxsiyyətin keyfiyyətləri irsən keçmir, onlar orqanizmin xarici mühitlə qarşılıqlı təsiri prosesində əldə edilir.

Ümumiyyətlə, irsiyyətin, yoxsa mühitin şəxsiyyətin formalaşmasına daha çox təsir göstərməsi haqqında konkret fikir yoxdur. Bu məsələ ətrafında alimlərin apardığı tədqiqatlar da çox ziddiyyətlidir. Məsələn, sosiogenetiklərin fikrincə mühitin təsiri 90%, biogenetiklərin fikrincə isə irsiyyətin təsiri 80-90% təşkil edir. İngilis psixoloqu D. Şattevort həmin amillərin əqli inkişafa təsiri ilə bağlı aşağıdakı qənaətə gəlmişdir: 64% irsi təsir, 19% ailə mühiti, 17% isə irsiyyətlə mühitin qarışığı.

Qeyd olunan məlumatlardan belə nəticə çıxır ki, hər bir insanın özünəməxsus inkişaf tərzi vardır. Təbii ki, bununla yanaşı şəxsiyyətin formalaşmasında həm mühit, həm də irsi əlamətlər inkar edilməzdir. Sadəcə olaraq onların təsir dərəcəsini bütün şəxsiyyətlər üçün vahid bir ölçüyə salmaq mümkün deyildir.

Müasir politologiya elmi isə siyasi dəyərlərin, normaların, davranış qaydalarının mənimsənilməsini, onlann fəaliyyət prosesində reallaşdınlmasını şəxsiyyətin sosiallaşması anlayışı kimi ifadə edir.

## 2. Şəxsiyyət ictimai və sosial dəyərlərin daşıyıcısıdır

Fəlsəfi fikir tarixində şəxsiyyət anlayışı müxtəlif cür təhlil olunmuşdur. Cəmiyyət aspektində şəxsiyyət **"insan"**, **"şəxsiyyət"**, **"fərdiyyət"**, **"fərd"** kimi anlayışlar vasitəsilə onun məzmunu və mahiyyəti şərh edilmişdir. Hələ keçən əsrin 50-ci illərində **K. Herbert "Şəxsiyyət və cəmiyyət"** adlı əsərində yazırdı ki, "müasir şəraitdə insan problemi ilə yanaşı, indi söhbət atom silahından, toplardan, hərbi gəmilərdən və zəmanəmizin ən böyük məsələlərindən gedir. Çünki, bir-birinə qarşı yalnız müxtəlif qüvvələr təyyarələrdən deyil, hər şeydən əvvəl ruh problemindən, insan mövcudluğundan və insanın fərdi mövcudluğunun qanuni və ya qeyri-qanuniliyindən gedir" (Azərbaycan Elmlər Akademiyası. Sosial, ekoloji, fəlsəfi problemlər. III buraxılış, Bakı 1993 səh. 48-49).

Məlum olduğu kimi fəlsəfə tarixində insan problemini demək olar ki, bütün görkəmli mütəfəkkirlər öz fəlsəfi sistemlərinə daxil etmişlər. Alman filosofları **İ.Fixte, İ.Kant, E.Hegel və L.Feyerbax** hər bir fərdin orijinal və təkrarolunmazlığını qeyd etmişlər. Onlar şəxsiyyəti kollektivlə, cəmiyyətlə əlaqəli şəkildə nəzərdən keçirirdilər. İ.Fixte yazırdı ki, "ictimai cəhd insanın əsas cəhdlərinə aiddir. İnsan cəmiyyətdə yaşamaq üçün nəzərdə tutulmuşdur: o, cəmiyyətdə yaşamalıdır; o, əgər təcrid olunmuş şəkildə yaşayırsa, tam mənada bitkin insan deyildir və özü-özünə zidd fəaliyyət göstərir". (Azərbaycan Elmlər Akademiyası. Sosial, ekoloji, fəlsəfi problemlər. III buraxılış, Bakı 1993 səh. 50).

İnsanın mahiyyəti öz gerçəkliyində ictimai münasibətlərin məcmusudur. İnsan fərd kimi doğulur, şəxsiyyət kimi sonralar formalaşır. Şəxsiyyət biososial varlıq olmaqla insanın ancaq sosial tərəfini ifadə edir. Şəxsiyyət yüksək zəkalılığı, öz hərəkət

və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən varlıqdır. Şəxsiyyət fərdin sosial keyfiyyətlərinin məcmusudur və obyektiv və subyektiv xarakteristikaların vəhdətidir. Şəxsiyyətin sosial keyfiyyətlərini aşağıdakı kimi şərh etmək olar:

**a) Müxtəlif fəaliyyət istiqamətlərində sosial keyfiyyətlərin həyata keçirilməsi.**

**b) Şəxsiyyətin obyektiv tələbatı və mənafeyi.**

**c) Şəxsiyyətin mənəvi dünyagörüşü.**

**d) Şəxsiyyətin əsas götürdüyü əxlaqi normalar və prinsiplər.**

Hər bir inkişaf prosesində şəxsiyyət özünün sosial keyfiyyətlərini daim yeniləşdirir və təkmilləşdirir. Qeyd etmək olar ki, şəxsiyyətin bioloji, psixoloji və sosial inkişafı bir-birilə vəhdətdə çıxış edir. Lakin bu vəhdət daxilində sosial inkişaf çox böyük üstünlüyə malikdir. Şəxsiyyətdə sosial və biolojinin vəhdəti onun istedadında daha aydın görünür. Öz mahiyyətinə görə istedad insanın təbii imkanları ilə əməyinin birləşməsi deməkdir. Alimlərin hesablamalarına görə əqli qabiliyyətin 70-80%-i genetik imkanlarla bağlıdır. Anoloji əlamətlər şəxsiyyətin əsəb proseslərinə, temperamentlərinə, xarakterinə və digər psixiki xassələrinə əhəmiyyətli təsir göstərir.

Tarixi təcrübənin və müasir ictimai praktikanın əsaslarını görən Ümummillilider Heydər Əliyev gənclərin I forumundakı nitqində qeyd edirdi ki, "Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz".

Heydər Əliyevin siyasi fəaliyyəti, istedadı ilə bağlı çoxlu miqdarda məqalələr yazılmış, tədqiqat yönümlü işlər həyata keçirilmişdir. Siyasi etikanın ən mühüm elementi siyasi liderlikdir. Heydər Əliyev dünya arenasında özünü siyasi lider kimi göstərdi. Ən yüksək keyfiyyətlərin hamısını özündə kommunikativ şəkildə birləşdirə bilən Heydər Əliyevin məhz bu fərdi xüsusiyyəti dünya siyasətçiləri tərəfindən birmənalı qəbul olunub və çox yüksək

qiymətləndirilib. Heç də təsadüfi deyil ki, xalqımız Heydər Əliyevin dühasında xarizmatik liderə xas olan bütün yüksək məziyyətləri görməklə ona Azərbaycanın Umummilli lideri adını verib. Heydər Əliyev şəxsiyyəti öz unikallığı, təkrarolunmazlığı, siyasi xadimə xas olan xüsusiyyətləri ilə nəinki bu kriteriyaları əhatə edir, hətta onların əhatə dairəsindən kənara belə çıxması bu siyasi məfhumu zənginləşdirir, məzmun etibarilə çoxşaxəli edir. Böyük türk dünyasının görkəmli ictimai-siyasi xadimi olan Heydər Əliyev Azərbaycan xalqının əvəzolunmaz və tarixi bir şəxsiyyətidir. Bu irsi öyrənmək, doğma vətənimiz olan Azərbaycanın rifahı naminə istifadə etmək isə hər bir vətəndaşın, öz torpağını və millətini sevən hər bir insanın mənəvi borcudur.

Beləliklə, şəxsiyyətin cəmiyyətdə yerinin düzgün başa düşülməsi çox vacibdir. Elə bir cəmiyyət yoxdur ki, öz şəxsiyyətinə biganə qalsın. Hər bir inkişaf mərhələsində cəmiyyət konkret şəraitdə hansı emosiyaların necə qiymətləndirildiyini və ya hansı hərəkətlərin bəyənildiyini müəyyən edir. Belə qeyd etmək olar ki, cəmiyyət öz şəxsiyyətini etalon kimi qəbul edərək şəxsiyyətlərin çoxsaylı "xüsusi" modellərini işləyib hazırlayırlar.

### 3. Şəxsiyyətin formalaşmasının sosial – mədəni mühiti

Müasir sosiologiya elmi şəxsiyyəti cəmiyyətin məhsulu kimi qiymətləndirir, sosial-siyasi mühiti bu məhsulun yetişmə mənbəyi hesab edir. Sosioloqların apardıqları tədqiqatlara görə insanların qarşılıqlı münasibətləri də sosial-mədəni mühit daxilində yaranır, formalaşır və zənginləşir.

Şəxsiyyətin sosial-mədəni mühit daxilində formalaşmasının səviyyəsini və dinamikasını öyrənmək üçün isə sosiologiya elmi sosial təhlillərdən geniş istifadə edir və bu metoddan istifadə etməklə şəxsiyyətin formalaşması amillərini aşkarlayır. "Sosioloji təhlil şəxsiyyətə sosial sistem kimi yanaşır, onun sosiallaşması prosesinin yollarını və mərhələlərini öyrənir, sosial fəaliyyətin və davranışın mexanizmini təhlil edir, bu proseslərdə sosial amillərin rolunu aşkara çıxarır". Bununla da insanın sosial-mədəni fəaliyytinin real mühitini və bu mühitin xarakterik

xüsusiyyətlərini dəqiqləşdirir.

Şəxsiyyətin yetkinləşməsi də sosial-mədəni mühit daxilində baş verir. Məhz, yalnız sosial-mədəni mühit daxilində şəxsiyyət öz qabiliyyətini nümayiş etdirmək imkanı əldə edir, həyati prinsipləri seçməyə, özünün cəmiyyət daxilindəki davranış istiqamətlərini müəyyənləşdirməyə nail olur. Bunun da nəticəsində "yetkin şəxsiyyət bəzi məqsədləri digər, daha vacib və mühüm məqsədlərə tabe edir, müəyyən tələbatları təxirə salmaq və onlardan imtina etmək hesabına digər tələbatların ödənilməsinə üstünlük verir". Sosial-mədəni mühit daxilində şəxsiyyət öz məqsədlərinə çatmaq, yeni nailiyyətlər əldə etmək üçün özünə müvafiq vasitələr seçir və bu vasitələrdən səmərəli şəkildə istifadə etməyə çalışır. Bu fəaliyyət prosesində yetkin şəxsiyyətə özünün mübarizə niyyətləri aydın olur və bu niyyətləri həyata keçirmək üçün sosial-mədəni mühitə daha tez uyğunlaşmağa çalışır. Uyğunlaşma prsesində ətrafda ona qarşı yönəlmiş təzyiqləri də aradan qaldırmaq üçün özünün daxili-psixoloji ehtiyatlarını səfərbər edərək öz şəxsi "Mən"ini də qorumağa cəhd edir. Öz mənini qorumaq, onun sosial-mədəni mühitindəki həyati ziddiyyətləri aradan qaldırmaq prosesində şəxsiyyətin iradəsi həm möhkəmlənir, həm də bir sıra dəyişikliyə məruz qalır. O, insan idealı ilə ictimai quruluş idealı məsələlərini idrakın mühakiməsinə çıxarır, yaşadığı sosial-mədəni mühitin davranış və əxlaq normalarını, ictimai münasibətlərini qiymətləndirir. Beləliklə də həm onda yaşadığı mühitə, həm də özünə qarşı tənqidi münasibət formalaşır. Bunun da nəticəsində şəxəiyyət həyatın mənasım düzgün dərk etmə yolunu tutur və həyat fəaliyyətini planlaşdırır, bu fəaliyyət prosesində öz məqsədlərinə nail olmaq üçün yeni ideyalar düşünür. Beləəiklə də şəxsiyyət nəzəri və praktiki cəhətdən kamilləşərək sosial, siyasi, mədəni inkişaf proseslərinin aparıcı qüvvəsinə çevirilir. Onun əxlaqilik dərəcəsi də sosiallaşaraq ictimai fəaliyyətin məzmununa, məqsədinə uyğunlaşır. Onda bəşəri əxlaqi sərvətlərə yiyələnmək meyli güclənir, xeyir və şər əməlləri bir-birindən seçmək bacarığı yaranır. Bütün bu proseslər şəxsiyyətin əxlaqi şüurunun bütovləşməsinə xidmət

edir.

Tarixilik prinsipi baxımından yanaşdıqda və ayrı-ayrı ictimai siyasi quruluşlara nəzər yetirdikdə şəxsiyyətin formalaşmasına təsir göstərən sosial-mədəni mühitin müxtəlif olduğunu görürük. Bəşəriyyət isə uzun bir təkamül prosesi keçmiş və müxtəlif baxışlar sisteminə mənsub olan həyat fəaliyyətinin rəngarəngliklərindən ibarətdir. Bu rəngarəngliklər şəxsiyyətin həyat fəaliyyətinə, onun dünyagörüşünə və başqa keyfiyyətlərinə təsir göstərmişdir. Məhz buna görə də ayrı-ayrı tarixi dövrlərdə və cəmiyyətlərdə yaşamış filosofların, mütəfəkkirlərin şəxsiyyət haqqında söylədiyi fikirlər öz ideya məzmununa görə bir-birindən fərqlənir. Məsələn, qədim yunan filosofu Aristotel şəxsiyyətin əxlaqilik dərəcəsini əxlaqi keyfiyyətlərin gözəlliyi kimi qiymətləndirmişdir. Aristotel şəxsiyyətin əxlaqi gözəlliklərini mahiyyət və keyfiyyət kateqoriyaları zəminində izah etməyə çalışmış, xeyirxahlıq ideyasını keyfiyyət anlayışının əsası hesab etmişdir. O, şəxsiyyətə aid olan cəsarəti, səxavətliliyi, alicənablığı, doğruçuluğu, mülayimliyi, ünsiyyətçiliyi və s. əxlaqi keyfiyyətləri fəzilətlərin təzahürü adlandırmışdır. Bu keyfiyyətlərin əsasında əqli şəxsi iradəni formalaşdıran əsas amil kimi qiymətləndirmişdir.

Orta əsrin görkəmli teoloqu, filosofu, Avqustin isə şəxsiyyətin əxlaqi xüsusiyyətlərini formalaşdıran amilləri dini - teoloji cəhətdən izah etməyə çalışmışdır. Belə ki, o öz dövrünün dini-sosial mühitinə uyğun olaraq Allahın iradəsini xeyir və fərəh mənbəyi kimi qiymətləndirmişdir. Avqustin şəxsiyyətin ictimai həyatda qazandığı nailiyyətləri tale, qismət təlimi ilə əlaqələndirirdi.

Qərb sxolastikasının görkəmli nümayəndələrindən biri olan Foma Akvinski şəxsiyyətin dünyagörüşünü dini etiqadla əsaslandırırdı. Şəxsiyyətin sosial-mədəni mühit kilsə mühiti ilə izah edilirdi. Allahın mövcudluğu ictimai həyatda baş verən bütün proses və hadisələrin ali səbəbi kimi qiymətləndirilirdi.

İntibah dövründə baş verən elmi yeniliklər humanitar biliklərin istiqamətini dəyişmiş, şəxsiyyətin formalaşmasında əqlin və

onun sosial-mədəni mühitinin roluna daha çox üstünlük verilmişdir. Bu istiqamətdə ingilis filosofu Frensis Bekon daha irəliyə getmiş, insan əqlini səfeh vərdişlərə aparan beş növ kabuslardan qorunmağı məsləhət görmüşdür. "Onlar bəşər nəslinə daxilən xas olan nəsil kabusları, ayrı-ayrı tədqiqatçıya xas olan şəxsi mövhumatla əlaqədar olan mağara kabusları, bizim əqlimizə mənfi təsir göstərən dildə lazımsız sözlərin işlədilməsi ilə bağlı teatr kabusları (dini) və köhnə məktəblərə bağlılıq kabuslarıdır ki, burada kor qaydalar tədqiqatda ağıllı mühakiməni əvəz edə bilər".

Böyük Alman alimi İ.Kant isə şəxsiyyətin əxlaqi məziyyətlərini onun borc hissi ilə əlaqələndirir, bu borc hissinin məzmununu insanın fəaliyyət göstərdiyi zamanın tələbləri ilə uzlaşdırır. Məsələn Kant deyirdi ki, "Elə hərəkət et ki, sənin iradənin əxlaq qaydası eyni zamanda ümumi qanunvericilik prinsipi qüvvəsinə malik olsun".

Ümumiyyətlə ayrı-ayrı ictimai-siyasi quruluşlarda şəxsiyyətə verilən qiymətlər həm də ideoloji mahiyyət kəsb etmişdir. Hər bir ideoloq yaşadığı cəmiyyətin, sosial-mədəni mühitin ideloji-siyasi tələbələrini şəxsiyyətin keyfiyyət faktorlarına daxil etməyə çalışmışdır. Məsələn, Sovet alim və mütəfəkkirləri kommunist əxlaq prinsiplərini şəxsiyyətin keyfiyyət amilləri kimi təbliğ etmişlər. Etiraf edək ki, onlar bu birtərəfli münasibətlə bütövlükdə insana xas olan əxlaqi normaları kommunist ideologiyasının inhisarlığına çevirmişdir. Burjua cəmiyyətində yaşayan insanların sosial-mədəni mühitini isə pisləyir, onların həyat niyyətinin, davranış xəttinin mahiyyətini təhrif edirdilər. Təhrif olunmuş bu tipli qiymətləndirmələr həmin ideoloqlar tərəfindən hazırlanmış dövlət sənədlərində də doqmatikləşdirilirdi. Burjua cəmiyyətinin şəxsiyyət tipini əxlaqi cəhətdən "kefcil", "meşşan", "doymaq bilməyən" ədəbsiz tiplər kimi təqdim etməyə çalışırdılar. Güya sosializm cəmiyyətində belə tiplərə yer olmadığını bildirirdilər.

Halbuki, şəxsiyyəti formalaşdıran əxlaq normaları siyasi partiya anlayışı çərçivəsinə salınmamalı və ictimai-siyasi quru-

luşun ideya tələbləri ilə məhdudlaşdırılmamalıdır. Şəxsiyyəti formalaşdıran əsas faktor kimi insanın sosial-mədəni faliyətinin real mühitinin təsir dairəsi dərk edilib qiymətləndirilməlidir.

Lakin müasir mərhələdə bəzi alimlər sosial-mədəni mühitin şəxsiyyətə təsirini belə müəyyənləşdirirlər ki, insanlar arasındakı harmoniyanın pisləşməsinin səbəblərini elmdə, mədəniyyətdə, texnikada axtarırlar.

Ekzistensialistlər iddia edirlər ki, elm və mədəniyyətin inkişafı, müasir texnika insanın bəşəri keyfiyyətini məhv edir, onu şəxsiyyətsizləşdirir - deporsonifikasiyaya uğradır. Mədəniyyət şəxsiyyətin arzu və amallarının həyata keçirilməsinə mane olur, insanla dünyanın harmoniyasını pozur. Bu fikirlərə əsasən İtaliya filosofu R. Qvardianın yazılarında təsadüf edilir. O sübut etməyə çalışır ki, müasir mədəniyyət həyata yox, ölümə doğru riskdir. R. Qvardianın baxışlarına görə texnika "insanı özgələşdirir, axmaq vəziyyətinə salır, onu udmaqla hədələyir".

Ancaq mədəniyyətə hansı ideoloji və fəlsəfi aspektdən yanaşılmasından asılı olmayaraq o, özündə bəşəri insani keyfiyyətləri əks etdirmək qüdrətinə malikdir. Bu bir həqiqətdir ki, bütün tarixi mərhələdə şəxsiyyətin inkişafı həddini mədəniyyətin inkişaf dərəcəsi ilə müəyyənləşdirirlər. Bu cəhəti nəzərə alaraq görkəmli alman filosofu Hegel mədəniyyəti insanı şıltaqlıqlardan, fərdi meyllərdən, özbaşınalıqdan çəkindirən əxlaqi norma kimi qiymətləndirirdi.

Hegelə və dünyanın bir çox alim və mütəfəkkirlərinin fikirlərinə istinad edərək demək olar ki, "mədəni proses və mədəniyyət nümunələri dəyişən və yeniləşən dialektik hərəkətdir; millətin və xalqın, onun hər bir üzvünün mənəvi dünyasının zənginləşməsi prosesidir. Həm də mədəni tərəqqinin təsiri altında şəxsiyyətlə onu əhatə edən mühiti ağıllı surətdə dəyişdirən fəal tələbat yaranıb inkişaf edir. Bu isə ictimai tələbatı dərk etmək, milli quruculuqla bağlı məsələlərdə borc və məsuliyyət hissi tərbiyə etmək imkanını daha da genişləndirir".

Ekzistensialistlərin baxışlarının əksinə olaraq demək olar ki, mədəniyyət və elmi-texniki inkişaf insanlararası inteq-

rasiyanın coğrafiyasını daha da genişləndirir, şəxsiyyətin mənəvi aləmində isə bəşəri əxlaq keyfiyyətləri formalaşdırır. Şəxsiyyət mədəniyyət və elmi-texniki inkişaf vasitəsilə dünya sivilizasiyasına qovuşur.

Məlumdur ki, sivilizasiya ictimai həyatın spesipik formasıdır. İctimai "həyatın bu formasında insanların birgə fəaliyyəti, bu fəaliyyətin və onun məhsullarının ümumi mübadiləsi baş verir". Eyni zamanda sivilizasiyanın bu xarakterik xüsusiyyətləri şəxsiyyətin dünyagörüşünə, onun cəmiyyət daxilindəki davranışına, münasibətlərinə öz təsirini göstərir. Elə bu səbəbdən də ayrı-ayrı sosial-siyasi quruluşlarda insan ilə cəmiyyətin qarşılıqlı münasibətlərinin öyrənilməsinə böyük ehtiyac vardır. Ayrı-ayrı sosial-siyasi quruluşların təhlili prosesində məlum olur ki, hər bir şəxsiyyət əsasən mövcud cəmiyyətin qanunauyğunluqları əsasında formalaşır. Məhz bu səbəbdən də şəxsiyyətlərin tarixi tipləri anlayışı yaranmışdır. Qeyd olunan xarakterik xüsusiyyətlər sosiologiya elmi tərəfindən də əsaslandırılmışdır. Sosiologiya elmi bu sahədə aparılan elmi tədqiqatlara əsaslanaraq sübut edir ki, hər bir konkret dövrdə insan ilə cəmiyyət arasında qarşılıqlı münasibətlərin xarakteri maddi, sosial və mənəvi şərtlərin təsiri altında formalaşır. Təbii ki, şəxsiyyət qeyd olunan sosial mədəni mühitin təsiri altında sosiallaşır və hərtərəfli inkişaf etmiş şəxsiyyətə çevrilir. Xüsusilə şəxsiyyətin sosial-mədəni sistemə daha fəal şəkildə qoşulması onda yeni keyfiyyətlər yaradır. Sözsüz ki, bütün bu yeniləşmələr insana xas olan təlabatlar zəmnində baş verir. Belə ki, hər bir insan həm maddi, həm də mənəvi sərvətlərə yiyələnmək istəyir, onun ünsiyyət tələbatı, cəmiyyət həyatında ictimai, siyasi mövqeyi, nüfuz qazanmaq və. s. kimi arzularla yaşamaq istəyir. Məhz bu arzulara çatmaq imkanları kontekstində şəxsiyyət yaşadığı sosial-mədəni mühiti qiymətləndirir. Şəxsiyyətin qeyd olunan mühitdə tələbatı ödənilmədikdə o sadəcə olaraq mövcud vəziyyətlə barışmır. Bu vəziyyət onu öz təlabatını ödəmək uğurunda mübarizəyə sövq edir. O, mövcud vəziyyəti dəyişdirmək üçün yeni ideyalar irəli sürür, bu ideyaların cəmiyyətin həyatına tətbiq olunması üçün

yeni fəaliyyətə və mübarizəyə qoşulur, yeni metodologiyalar və nəzəriyyələr, konsepsiyalar yaradır, onları cəmiyətin həyatma tətbiq etməyə çalışır. Məsələn, vaxtilə Marks və Engels yeni "İctimai-iqtisadi formasiya" haqqında yeni konsepsiya hazırlamışlar və həmin konsepsiya sosializm cəmiyyətinin həyatına tətbiq edilmişdir.

Şəxsiyətin formalaşmasının sosial-mədəni həyatla bağlılığını təsdiq edən çoxlu fikir və mülahizələr mövcuddur. Məsələn, rus pedaqoqu B. A. Stalten şəxsiyyətin sosial-mədəni mühit daxilində mövcudluğunu qəbul edərək yazmışdır: "Şəxsiyyət ruhi substansiya, cəmiyyətdən təcrid edilmiş fərd deyil, canlı insandır, hansı ki, bütün tərkibi onun şüuru və iradəsindən asılı olmayaraq müəyyən sosial-tarixi şəraitdə qurulmuş həyatının əksindən başqa bir şey deyildir".

Belə ki, hər bir insan sosial-mədəni mühit daxilində özünün intellektual və emosional təbiətini formalaşdırır. Cəmiyyətin inkişaf səviyyəsi şəxsiyyətin intellektual və emosional davranışının, həyat fəaliyyətinin obyektiv mühitini təşkil edir. Onun müxtəlif biliklərə yiyələnməsinin əsasında da cəmiyyətin yaratdığı şərait və tələbat durur. Bu mühit və sosial tələbatın təsiri nəticəsində şəxsiyyətin həm mənəvi aləmi həm də qabiliyyəti inkişaf edir. Şəxsiyyət özünütəhsilə və özünü yeni elmi-texniki mühitə inteqrasiya edir. Bunun da nəticəsində cəmiyyətlə şəxsiyyət arasındakı münasibətlərdə yeni sosial birlik formalaşır. Bu birlik şəxsiyyətin mədəni ünsiyyət münasibətlərinə də özünün müsbət təsirini göstərir. Şəxsiyyət müxtəlif sosial-mədəni fəaliyyətə qoşulmaqla həm özünə ətrafdakıların münasibətini formalaşdırır, həm də o, yeni sosial-mədəni mühitə adaptasiya olunur. O, cəmiyyət daxilində müxtəlif həyat şəraitinə uyğunlaşmaqla sosial-iqtisadi və mədəni şəraitə, ayrı-ayrı sosial qruplara, təşkilatlara, institutlara qaynayıb qarışır. Uyğunlaşdığı mühitin təbiəti şəxsiyyətin daxili aləminə təsir göstərərək tədricən onu cəmiyyətin mənəvi, iqtisadi, siyasi tələbatına uyğunlaşdırır. Eyni zamanda o, yeni mühitə sadəcə olaraq uyğunlaşmaqla kifayətlənmir, həm də sosial həyatın bu və ya digər sahələrində yaradıcı kimi fəaliyyət

göstərir. Bu fəaliyyət isə şəxsiyyətin cəmiyyət daxilində özünəməxsus sosial mənafeyini formalaşdırır. Məhz o, öz məqsədlərinə çatmaq üçün sosial biliklərlə işgüzar əlaqələr qurur, həmin birliklərin imkanlarından istifadə etməyə çalışır.

Ümumiyyətlə şəxsiyyətin mənafeyinin məzmunu mahiyyət etibarı ilə çox müxtəlifdir. Bu müxtəliflik onun həm peşə, həm də ictimai-siyasi, sosial-mədəni fəaliyyəti ilə də izah oluna bilər. Belə ki, hər bir şəxsiyyət ilk növbədə özünün çalışdığı peşə sahəsində yeniliklər əldə etmək, müəyyən titullar qazanmaq, nüfuz sahibi olmaq, rəhbər vəzifələrə irəli çəkilmək və s. fərdi mənafeyi zəmnində öz fəaliyyətini genişləndirir. Arzularına çatmaq məqsədi ilə başqa fərdlərlə həmrəylik yaradır. Bu həmrəylik obyektiv sosial qanunların tələbləri əsasında formalaşır.

Şəxsiyyətin formalaşmasının bir sıra başqa zəruri şərtləri də vardır. Məhz bu zəruri şərtlər əsasında hər bir fərd öz peşə fəaliyətini, cəmiyyətdəki ünsiyyətini məqsədli şəkildə qurur və inkişaf etdirir.

Şəxsiyyətin formalaşmasının sosial-mədəni mühiti özündə bir sıra tərbiyə konponentlərini birləşdirir. Bu tərbiyə komponentləri çoxşaxəli olmaqla yanaşı özünün kompleksliyi ilə nəzərə çarpır. Onlar əmək tərbiyəsində, əxlaq və ideya-siyasi tərbiyədə, elmi, estetik və fiziki tərbiyə elementlərində özünü büruzə verir. Tərbiyəçi öz fəaliyyəti prosesində qarşısına konkret məqsədlər qoyur və tərbiyə etdiyi fərdin hərtərəfli şəxsiyyətə çevrilməsi üçün ardıcıl iş aparır.

Tərbiyə komponentlərini şəxsiyyətin formalaşmasına tətbiq etmək üçün təhsil müəssisəsəsinin sosial-mədəni mühiti kifayət etmir. Buna görə də çox zaman məktəbdənkənar tərbiyə müəssələrinin imkanlarından istifadə etmək lazım olur.

Aparılan tədqiqatlara görə kulturologiya "açıq və niyyət" ideologiyası formalaşdırmaq prinsipini əsas götürərək millətçilik sədlərini, amansız davranış xüsusiyyətlərini aradan qaldırır. Kulturologiya daha böyük qüvvə ilə mədəniyyətləri bir-birinə yaxınlaşdırır və kulturoloji fəaliyyət prosesində şəxsiyyətin özünüdərkini reallaşdırır, onun mədəni-intellektual səviyyəsi ar-

tırır. Bunun nəticəsində bir sıra müsbət kultroloji vərdişlər və bilgilər yaranır. Məhz buna görə də dünyada nəinki uşaqların, eyni zamanda yaşlıların da davamlı təhsilinə və dünyagörüşlərinin formalaşmasına dövlət səviyyəsində xüsusi qayğı göstərilir, yaşlıların özünü daima təkmilləşdirilməsi üçün təhsil müəssisələri və mərkəzlər yaradılır. Belə təcrübə Azərbaycan Respublikasında da mövcuddur. Azərbaycan Müəllimlər İnstitutu və onun filialları yaşlıların da təhsili və təkmilləşməsi ilə ardıcıl şəkildə məşğul olurlar.

Yaşlıların davamlı təhsili prosesində cəmiyyətdə baş verən elmi, ictimai - siyasi, mədəni proseslər haqqında bilgilər formalaşdırılır. Bu prosesdə hər bir fərd və şəxsiyyət özünün hüquq və azadlıqlarını dərk etmək, prioritet məqsədli təhsil prsesinə qoşulmaq imkanı əldə edir. Eyni zamanda hər bir şəxs siyasi, sosial və mədəni tərəqqinin layiqli iştirakçısına çevrilir. Məhz əsasən məktəbdənkənar kulturoloji məşğuliyyətlər şəxsiyyətin ictimai davranışına, onun özünəməxsus istedad və qabiliyyətinin inkişafına həlledici təsir göstərir. İctimai davranışın tərkib hissəsi olaraq tərbiyə və özünütərbiyə prosesi baş verir. Bu prosesdə şəxsiyyətin mədəni təfəkkür səviyyəsi və mənəvi nüfuzu mükəmməlleşir. Beləliklə də şəxsiyyət fərdi xarakterdə təcəssümləşən sosial simaya çevrilir. O təkcə tərbiyənin deyil, həm də özünü tərbiyənin məhsulu kimi ictimai mövqeyə çıxır. Bu mənada şəxsiyyət fərdi istedad, qabiliyyət və mənəvi məsuliyyətlə yanaşı yüksək sosial keyfiyyətləri özündə birləşdirən ictimai varlığa çevrilir. Qeyd olunan keyfiyyət məhz sosial-mədəni mühitdə baş verir. Sosial-mədəni məşğuliyyətlər şəxsiyyətin ictimai davranışlarını formalaşdıraraq onda qəhramanlıq, ülvülük, xeyirxahlıq və s. kimi gözəl keyfiyyətləri daha da inkişaf etdirir. Həmçinin şəxsiyyət sosial mədəni mühitin təsiri nəticəsində özünə xas olan zəif cəhətləri aradan qaldırmaq, əməllərindəki yanlışlıqları düzəltmək imkanı əldə edir. O, cəmiyyətin həyatı ilə uzlaşdırılmış fəaliyyət xəttini müəyyənləşdirir.

### 4. Şəxsiyyətin formalaşmasında mədəni irsin rolu

Şəxsiyyətin tarixi biliklərə yiyələnməsi bəşər tarixi boyu xalq tərəfindən yaradılmış mədəni sərvətlərin həm bədii, həm də tərbiyəvi təsir gücündən çox asılıdır.

Bütün dünya xalqlarında olduğu kimi Azərbaycan xalqının da çox zəngin mədəni irsi vardır. Onlar uzun əsrlər boyu xalqımızın yaradıçılıq qabiliyyətinə xas olan xüsusiyyətləri, bədii-estetik dəyərləri, əxlaqi-etik normaları özündə qoruyub saxlamışlar. Bir çox mənəvi keyfiyyətlərin toplusu olan mədəni irsimiz şəxsiyyətin örnək mənbəyi olmuş, onun keçmiş haqqında bilgilərini artırmaqla yanaşı əxlaqi tərbiyənin formalaşmasına da böyük təsir göstərmişdir.

Mədəni irs dedikdə insanların maddi və mənəvi fəaliyyətlərinin sərvətlər məcmusu nəzərdə tutulur. Bu sərvətlər toplusuna ümumilikdə mədəniyyət deyilir. Dünya alimləri mədəniyyət anlayışına 500-ə qədər müxtəlif təriflər versələr də mahiyyət etibarı ilə o, bəşəriyyətin ictimai-tarixi proseslərdə topladığı maddi və mənəvi sərvətlərin məcmuu, həmçinin onun yaradılması üsullarıdır. Mədəniyyət anlayışına həm də xalq kütləsinin yaradıcılıq fəaliyyəti, insanların təbiəti və cəmiyyəti dəyişdirmək imkanları daxildir. Möhtəşəm mədəniyyət toplumunu yaradan insanların çox hissəsi də böyük şəxsiy- yətlərdir. Onlar tərəfindən mədəniyyət nümunələri müasir şəxsiyyətlərin də örnək mənbəyi, mənəvi zənginləşmə məktəbidir. Məhz buna görə də müxtəlif tarixi dövrlərdə yaradılmış həm maddi, həm də mənəvi mədəniyyət nümunə- lərimiz dünya alimlərinin həmişə diqqət mərkəzində olmuşdur. Məsələn, Memar Əcəmi tərəfindən inşa edilmiş Mömünə Xatun türbəsinə baxan rus alimi M.V. Alpatov yazmışdır: “Belə yüksək memarlıq forması duyğusuna, kompozisiyanın belə klassik kamilliyinə və mükəmməl işlənməsinə bu zamanlar orta Avropada təsadüf etmək mümkün deyilidir. Naxçıvan türbəsindən klassik şərq ədəbiyyatının ən yaxşı əsərləri Firdovsinin “Şahnamə” (X-XI) və Nizaminin “Leyli və Məcnun” (XII əsr) poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir”.

Tarixdən məlumdur ki, XIX əsrin əvvəllərində Naxçıvanda

olan Fransa səyyahı Dübua de Monpere XII əsrin bu ecazkar sənət incisini görəndə öz heyrətini gizlədə bilməmişdir. O, Mömünə Xatun türbəsinin kitabələrinin üzünü köçürərək Peterburqda yaşayan Akademik Trenə göndərmişdir. Bundan sonra bir çox Avropa alimləri də Mömünə Xatun türbəsi ilə tanış olmuşlar. N. Xanıkov, J. Dyelafua, E. Yakubstol və başqa alimlər Əcəmi Əbubəkirin mədəni irsini, eləcə də Azərbaycan xalqına məxsus olan bir çox memarlıq nümunələrini yaxından görmək üçün Naxçıvana gəlmişlər.

Azərbaycanın tanınmış filosofu, akademik F. Q. Köçərli Azərbaycan Mədəniyyət Abidələrinin Mühafizəsinə Könüllü Yardım Cəmiyyətinin ikinci qurultayında demişdir: “Abidələr bizim hisslərimizə təsir edən ən əyani, ən emosional bir vasitədir. Biz filosoflar onların poeziyasını, estetikasını açmaqla, eyni zamanda təbliğini, qorunmasını da təmin etmiş olardıq”.

Göstərilən misallardan bir daha aydın olur ki, möhtəşəm memarlıq abidələri, xalq folkloru və ədəbiyyatı nümunələri, musiqi və təsviri incəsənət əsərləri tarixin bütün dövrlərində şəxsiyyətin mənəvi aləminə öz müsbət təsirini göstərə bilmişdir. Bu abidələr və sənət nümunələri insanlarda müxtəlif emosional hisslər yaratmaq qüdrətinə malikdirlər. Belə ki, elə təkcə bizim xalqımıza məxsus olan qalalara, məbədlərə, saraylara, onların incə sənətkarlıq xüsusiyyətlərinə diqqət yetirərkən hər bir şəxsin daxili aləmində qürur və fəxarət hissi formalaşır.

Elə bu səbəbdən də yazıçı Iqor Mojeyko dünyanın ən gözəl mədəniyyət abidələrini onların hansı xalqa məxsus olduğundan asılı olmayaraq bəşəriyyətin “klassik möcüzələri” adlandırır. O, yazır: Dünyanın yeddi klassik möcüzəsi var: Misir ehramları, Halikames movzeleyi, Podos nəhəngi, İskəndəriyyə mayakı, Efesli Artemidanın məbədi, Olimpli Yupiterin heykəli və Semiramidanın asma bağları. Bunlardan başqa onlarca “səkkizinci möcüzə” vardır. Son dörd min il ərzində bəşəriyyət çox tikililər ucaldıb, bunların arasında əzəmətli abidələr də az deyil.

Mədəni irs hər bir xalqın milli xüsusiyyətləri zəmnində yaranmasına baxmayaraq tarix qocaldıqca o, bəşəriləşir. Xüsusilə

qədim memarlıq abidələri onlara baxan hər bir şəxsdə həyat ruhu, yaşayıb yaratmaq ruhu, bütövlükdə insanın istedad və bacarığını qiymətləndirmək ruhu yaradır. Əsasən idrakı düşünən şəxsiyyətlər abidələrin bəşəri duyğular aşıladığını daha tez hiss edir və onlara münasibət bildirirlər. Məsələn, Özbəkistanın Səmərqənd şəhərini gəzib dolaşmış Azərbaycan alimi və memarı Cəfər Qiyasi burada gördüyü abidələrə öz münasibətini bildirərək yazmışdır: “Səmərqəndə gəldim. Abidələrin arasında sakitcə dolanmaq istəyirdim. Səmərqənd mənə doğma gəldi. Yaşıllığına görə Gəncəyə bənzəyir. Adamların üzündə, danışıq və davranışında da yaxınlıq gördüm. İndiki geyimlər içində buta naxışlı araqçınlar, xalçalı taxtlar üstündə bardaş qurub yaşıl çay içən ağ çalmalı, zolaq xalatlı qocalar tez-tez gözə dəyir. Yabançı da görünmürlər. Adama elə gəlir ki, bunlar Səmərqəndi dünyaya tanıtmış əski memarlıq abidələrinin anturajı üçün qalıblar. Gur Əmir məqbərəsi, Registan mədrəsələri, Bibixanım məscidi olduqca onlar da qalacaq”.

Mədəni irsimizin böyük bir sahəsini əhatə edən incəsənət nümunələri isə şəxsiyyətin mənəvi tərbiyəsində daha emosional rol oynayır. İncəsənət nümunələri yüksək emosional təsir gücünə malik olduqlarına görə şəxsiyyətin həyata olan estetik münasibətlərini formalaşdırır, hətta onu bədii yaradıcılıq aləminə qovuşdurur. İncəsənətin müxtəlif növlərinin insanda yaratdığı bədii təəssürat unudulmaz olur və o daima xəyalda canlanır. Xüsusilə hər bir xalqın milli ruhunu özündə əks etdirən musiqi incəsənəti dinləyicinin xəyalını həm keçmişi tarixi hadisələrə yönəldir, həm də onda öz gələcəyini daha da gözəlləşdirmək ruhu formalaşdırır. Musiqinin bədii-emosional təsir gücü ilə bağlı olaraq hələ vaxtı ilə Azerbaycanın görkəmli dövlət xadimi və mütəfəkkiri N. Nərimanov demişdir: “Şikəstə və yaxud digər bir milli musiqi havaları eşitdikdə cəm vücudunla, cəm ruhunla qulaq asırsan, həm qəmgin, həm də şad olursan, həqiqət nə halda bulunmağını dürüst anlamırsan. Ancaq musiqiçilərə istəyirsən deyəsən, çalınız, əfəndim, çalınız. Çünki çaldığınız ahəng mənim qəlbimin, ruhumun ən dərin guşəsindən xəbər verir. Elm musiqiyə heç aşna

da olmasan yenə belə bir halətdə bulunacaqsan. Niyə? Ondan ötəri ki, həmin ahəng və zümzümədə valdeyininin dediyi laylaların havasını sevirsən, onun məhəbbətini hiss edirsən. Onu görmürsən, lakin bir növ səsini hiss edirsən".

Sosioloqların apardıqları tədqiqatlara görə yaddaşın möhkəmlənməsində musiqini dinləməyin çox böyük rolu vardır. Musiqi hər bir şəxsin ritim hissəsini, interpretasiya ifadəliliyini artırır, yaddaşını möhkəmləndirir, onda səliqəlilik vərdişi tərbiyə edir. Çünki musiqi insan ruhunun sevinc və əzablarını emosional formada ifadə edir. Bunun da nəticəsində şəxsiyyətin düşüncəsində lirik duyğular, həyacanlı yaşantılar baş verir. Elə buna görə də hələ qədim filosoflar da musiqini duyğu və hisslər sənəti adlandırmışlar. Alman alimi Hegel "Estetika" əsərində qeyd etmişdir ki, musiqi tamamilə qeyri-müəyyən xarakter daşıyan daxili mənəvi dəyişmələrdir, musiqi elə bil ki, anlayışsız duyğuları səsləndirir.

Əgər nəzərə alsaq ki, musiqi mədəniyyəti Azərbaycan xalqının mənəvi irsinin böyük bir hissini təşkil edir. Elə buna görədə xalqımızın musiqi mədəniyyəti ilə bağlı olan böyük şəxsiyyətləri yetişmişdir. Belə şəxsiyyətlərdən biri 1216-cı ildə anadan olmuş Səfiəddin Urməvidir. Bu böyük şəxsiyyət musiqi ilə məşğul olmaqla yanaşı tarix və ədəbiyyat elmlərinə də yiyələnmiş, xəttatlıq sənəti ilə də məşğul olmuşdur. Bir çox Şərq xalqlarının dilini yaxşı bilən Urməvi Bağdad kitabxanalarında özünün dünyagörüşünü, elmi biliklərini zənginləşdirməklə yanaşı heç vaxt özünün sevimli udundan ayrılmamışdır. O, udu çalarkən yüzlərlə insan ecazkar musiqiyə qulaq asmaq üçün onun ətrafına toplaşmışdır. Deyilənə görə qırx gün susuz qalmış dəvə hərisliklə bulaq başına çatanda Səfiəddin Urməvinin çaldığı udun səsini eşidən kimi dayanmışdır. Udun səsi kəsiləndə dəvə yenidən bulağa doğru hərəkət etmişdir.

Xalqımızın Səfiəddin Urməvi, Əbdülqadir Marağı, Mir Mövsüm Nəvvab və başqa musiqi mədəniyyəti ilə məşğul olan görkəmli şəxsiyyətlərimizlə yanaşı, tarixin müxtəlif dövrlərində yaddaşlardan silinmiş musiqi yaradanlarımız da olmuşdur. Məhz

onların yaratdıqları nəğmələr, rəqs havaları, muğamlar, aşıq mahnıları Azərbaycan xalqının mədəni irsini zənginləşdirmiş, bu zəngin mənəvi sərvətin emosional təsiri mühitində yeni şəxsiyyətlər yetişmişdir. Üzeyir Hacıbəyov, Müslüm Maqamayev, Qara Qarayev, Fikrət Əmirov və başqa onlarla görkəmli musiqiçi şəxsiyytlərimiz zəngin mədəni irsimizin emosional mühitində yetişmişlər.

Məlumdur ki, incəsənət əsərləri insanı əhatə edən gerçəkliyin dərk olunmasında yardımçı funksiyasını yerinə yetirir. Çünki, incəsənət də ictimai şüurun xüsusi formalarından biridir. O, elmi idrakı əvəz edə bilməsə də şəxsiyyətin özünü dərketmə prosesində xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, incəsənət mahiyyət etibarı ilə əxlaqi, bədii, ideya-tərbiyəvi funksiyaları yerinə yetirir. Lakin, hamıya məlumdur ki, incəsənət əsərləri insana öz xarakterini dərk etməkdə kömək edir, onun estetik zövqünün formalaşmasında, həyat reallıqlarını qiymətləndirmək qabiliyyətinin inkişaf etməsində yardımçı rolunu oynayır. Çünki, incəsənət əsərləri öz dinləyicisini və yaxud tamaşaçasını daima düşünməyə vadar edir. Digər tərəfdən tamaşaçı baxdığı filimin və ya tamaşaçının qəhrəmanının bədii obrazının təsiri altına düşər və qəhrəmanın keçirdiyi hiss və həyacanı o da yaşayır. Bunun da nəticəsində "İncəsənət həyatın dinamik modellərini yaradır, həmin modellər vasitəsilə insan həyata ideal baxımdan müdaxilə edir, sevinir, kədərlənir, həyacanlanır, müəyyən qənaətə gəlib çıxır. Sənət vasitəsilə təcrübi bilik əldə edir, mənən zənginləşir".

Vaxtilə Ç. Darvin yazırdı ki, "Əgər mən həyatımı yenidən yaşasaydım, mən bir qayda olaraq həftədə azı bir dəfə müəyyən miqdarda musiqiyə qulaq asardım: bu minvalla mən, ola bilsin ki beynimin indi atrofiya olmuş hisslərinin fəallığını şaxlayardım. Həmin zövqlərin itirilməsi xoşbəxtliyin itirilməsinə bərabərdir və bəlkə də əqli qabiliyyətlərin və xüsusilə mənəvi keyfiyyətlərin inkişafına mənfi təsir göstərir, yəni təbiətimizin emosinal tərəfini zəiflədir".

Şəxsiyyətin formalaşmasında ədəbi-bədii irsimizin də çox

böyük rolu vardır. Bu baxımdan Nizami Gəncəvinin poemaları, Nəsiminin, Fizulinin dərin məzmunlu poeziyası, Vaqifin gözəllikləri vəsf edən lirikası, M. Ə. Sabirin satirası, Cəlil Məmmədquluzadənin nadanlığa, cəhalətə, qeyri-insani keyfiyyətlərə yönəlmiş nəsr əsərləri və s. başqa şair və yazıçılarımızın yaratdıqları sənət nümunələri bütün dövrlərdə insanların mənəvi aləminin zənginləşməsinə xidmət etmişlər. Xüsusilə yazıçı və şairlərimizin yaratdıqları bədii obrazlar insanları daima düşündürmüş, onlara xeyiri şərdən fərqləndirmək qabiliyyəti aşılamışlar. Məsələn, Cəlil Məmmədquluzadənin yaratdığı Qurbanəli bəy obrazı ifrat yaltaqlığın bariz nümunəsi kimi nifrət obyektinə çevrilir. "Qapazlı" kəndindən olan və hətta Qubernatorun tulasına da yaltaqlanan, onun ayağını yalamaq istəyən iti qabaqlayaraq başını sığallayan Qurbanəli bəy obrazı başqa yaltaq insanlar üçün də mənəviyyat dərsi verir. Bu yaltaqlığın başqa bir nümunəsini S. Vurğunun "Vaqif" dramında görürük. Ağaməhəmməd şah Qacara yaltaqlanan Şeyx "Buyruq sizinkidir, adil hökmdar. Sizdə ədalət də, fəzilət də var" deməklə ifrat yaltağa xas olan bədii obraz səviyyəsinə yüksəlir. Eyni zamanda belə obrazlar vasitəsilə varlığın ən fərdi, ən səciyəvi cəhətləri ifadə olunur.

İnsan xarakterlərini təcəssümləşdirərək bədii obraz şəkilində ifadə edən kifayət qədər bədii əsərlərimiz və başqa incəsənət nümunələrimiz vardır. Bunların hər biri şəxsiyyətin həyat ideyalarını inkişaf etdirir, bütöv dünyagörüşünün formalaşmasına yaxından kömək edir. Bu da ondan irəli gəlir ki, hər bir sənətkar müəyyən bir mahiyyəti daha dərin ifadə etmək, nəzərə çatdırmaq üçün onu kəskinləşdirir, böyüdür, müəyyən keyfiyyət və xassələri təcrid edərək həyatı bütün zənginliyi ilə əks etdirməyə çalışır.

Xalqımızın əsrlər boyu yaratdığı zəngin mədəni irsin ünsiyyət funksiyasını yerinə yetirən fomaları da çoxdur. Bu ünsiyyət formaları müxtəlif adət və ənənə şəkilində uzun əsrlər boyu insanların mənəvi həyatını zənginləşdirir, ayrı-ayrı fərdlərin şəxsiyyət kimi formalaşmasında böyük əhəmiyyət kəsb edir. Çünki, adət və ənənələrdə xalqımıza xas olan ən gözəl cəhətlər

toplanmış, onlann bədii ifadə vasitələrində ən ideal və ümidverici fikirlər təcəssümlədirilmişdir. Qədim daş dövüründən üzü bəri təşəkkül tapmış adət və ənənələrimiz insanın mənəvi aləminə güclü təsir göstərən oyun və tamaşa elementləri ilə çox zəngindir. Belə ki, adət və ənənələr xalq incəsənətinin bütün növlərini özündə birləşdirir və janr, mövzu genişliyinə görə fərqlənir. Bu baxımdan xalq teatrları sinkretik sənət növü kimi daha emosional və idraki əhəmiyyət kəsb edir. Xalqın mədəni irsinin daha rəngarəng olan bu sahəsi ozan, aşıq, aktyor, bəstəkar, xanəndə, rəqqas, sehirbaz, kəndirbaz və güləşçiliyin müəyyən ünsürlərini özündə birləşdirməklə yanaşı, dekorasiya qurma, gizlənəcək (maska) yaratma, qrimlənmə, paltartikmə peşələrini də əks etdirir, bu zaman mimikalardan, jestlərdən geniş istifadə olunur. Bu və digər teatr ifadə vasitələri ilə insanların mənəvi tələbatı ödənilmiş, hər bir fərdin estetik duyumu, qiymətləndirmə qabiliyyəti formalaşmışdır. Adət və ənənələr isə xalq tərəfindən bədii şəkildə təcəssümləşdirilən müxtəlif məzmunlu hadisələrin ifaçılıq məkanına çevrilmişlər. Bununla da adət və ənənələr özündə mərasim və bayramları birləşdirərək şəxsiyyətin hissi-emosional keyfiyyətinin təşəkkülü üçün bir vasitə olmuşdur. Birdə ki, bədii təfəkkürün inkişaf etməsi, onun idraki prosesə çevrilməsi üçün ruhi bir mühitin mövcudluğuna yaranan ehtiyac özünü adət, ənənə və bayram etmək vərdişləri formasında büruzə vermişdir. Mədəni irsimizə nəzər yetirdikdə belə bir mükəmməl mühitin lap qədim zamanlardan yarandığını görürük. Bu mühit həm də şəxsiyyətin əxlaqi dəyərlər mühiti olmuşdur. Belə bir mühitin formalaşmasında dini inanclar da xüsusi rol oynamışdır. Animistik, totemistik və fetişist anlayışlar zəmnində hələ üst paleolit dövründən bəri çoxlu adət və ənənələr, eyni zamanda bu adət və ənənələrin insan mənəviyyatına təsir edən bədii ifadə vasitələri yaranmışdır. Animistik anlayışlar mifoloji təfəkkürü formalaşmışdır. Mifoloji təfəkkür bədii- poetik anlayışların, ənənələrin ilkin əsasım qoymuşdur. Qədim insan özünü ətraf mühitdən ayırmadan yaşadığı təbiətlə emosional bağlılıq yarada bilmişdir. Bunun da nəticəsində mifologiya bütün dövrlərdə

əxlaqın, hətta dövlətçiliyin və milli özünüdərkin əsasını təşkil etmişdir.

Totemizm və fetişizm isə ibtidai incəsənətin meydana gəlməsinə təsir göstərmişdir və bu incəsənət növləri müxtəlif görüşləri sinkretik, yəni birləşmə şəklində ifadə etmişdir.

Dünyanın bədii mənimsənilməsi ilə əlaqədar olaraq insanın fəaliyyəti eyni zamanda homo sapiens ağıllı insanın formalaşmasına da şərait yaratmışdır. Bu mərhələdə ibtidai insanın bütün psixi proses və həyacanlarının imkanları hüceyrə şəkilində kollektiv şüuraltı vəziyyətdə, arxetip (yunanca başlanğıc - obraz) adlanan obrazda, ilkin formada olmuşdur. Həmin dövrlərdə heyvanların, mamontların, filin, atın, maralın ümumi cizgilərini əks etdirən təsvirlər də yaranmışdır. Təbii ki, bu təkamül prosesi əslində şəxsiyyətin ilkin mənəvi dəyərlər sistemini formalaşdırmışdır. Çünki, ictimai şüurun xüsusi forması olan incəsənət yaramasaydı həyatın dinamik modelləri də olmazdı, şəxsiyyətin dünyanı mənəvi olaraq mənimsəməsi prosesi baş verməzdi.

Bütün qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, mədəni irsimizin ayrı-ayrı sahələri olan ədəbiyyat və incəsənət haqlı olaraq alimlərimiz tərəfindən şəxsiyyətin formalaşmasında xüsusi əhəmiyyət kəsb etdiyi bildirilmişdir.

## 5. Mənəvi dəyərlər və şəxsiyyət

İnsan maddi və mənəvi sərvətlərin yaradıcısı kimi daima təkamül etmişdir. Qədim daş dövründən üzü bəri bəşəriyyət çoxlu yeniliklərlə, həyatda və idrakda baş verən təkamül inqilabları ilə üzləşmişdir. Neolit inqilabı insanları təbiətin asılılığından xilas etmiş, onları həm də yaradıcı varlığa çevirmişdir. İnsanlar öz istək və arzularına uyğun olaraq müxtəlif məşğuliyyət növləri icad etmişlər. Bu məşğuliyyətlər içərisində çoxlu mənəvi əhəmiyyət kəsb edən yaradıcılıq nümunələri də olmuşdur. Tarixin ayrı-ayrı mərhələlərində yaranan mağaralar və ya onların rəsmləri, bayatılar, nağıllar, dini məzmun kəsb edən miflər və başqa xalq yaradıcılığı nümunələri şəxsiyyəti formalaşdıran mənəvi

dəyərlər toplusuna çevrilmişdir. Bunların hər biri insanların mənəvi aləminə təsir göstərmiş və onların həyat fəaliyyətlərini mənalandırmışdır. Eyni zamanda Novruz, Qurban, Orucluq bayramlarında, el toylarında mənəvi dəyərlərimizin tərbiyəvi və bədii estetik məzmun kəsb edən zəngin, mədəni, kamil nümunələrini qoruyub saxlayaraq, onlardan indi də bəhrələnirik.

Araşdırmalar göstərir ki, qədim bayram və mərasimlərdə xalqımızın ictimai-siyasi baxışları, bədii-emosional hiss və duyğuları cəmləşmişdir. Həmin mərasim və bayramlarda müxtəlif fikirləri ifadə edən bədii xalq oyunlarımız, rəqslərimiz, nəğmələrimiz, poetik yadigarlarımız qorunub saxlanılmışdır. Onlar indi də mənəvi həyatımızı zənginləşdirir, milli rolumuzu, mənliyimizi tərənnüm edirlər.

Qobustan qaya rəsmləri əsasında məlum olmuşdur ki, hələ yeni eradan əvvəl 8-ci minillikdə yaşayan əcdadlarımız müxtəlif ayin və mərasimlər icra etmiş, bu ayin və mərasimlərdə yüksək bədii-emosional təsir gücünə malik olan oyun və rəqslər ifa etməklə özlərinin estetik tələbatlarını qismən də olsa ödəyə bilmişlər. Oyun və mərasimlər qədim insanların yaradıcılıq qabiliyətini gündən-günə formalaşdırmış, xalq yaradıcılığının istiqamətlərini daha da genişləndirmişdir. Bunun da nəticəsində gözəl folklor nümunələri, böyük tərbiyəvi əhəmiyyətə malik olan xalq tamaşaları meydana gəlmişdir. Müxtəlif yaradıcılıq nümunləri, o cümlədən xalq tamaşaları gözəlliyin təkamülü prosesində formalaşmışdır. Təbii ki, insanların həyatında baş verən bu proses onların özlərini də dəyişdirərək, şəxsiyyətə xas olan müsbət keyfiyyətlərin inkişafına səbəb olmuşdur. Bu xarakterik xüsusiyyətlər ondan irəli gəlir ki, folklorda, xalq mahnıları və dastanlarda insan təbii gözəlliyin, plastik qamət gözəlliyinin ecazkar təsiri ilə özü də dəyişib gözəlləşir, mənən daha da göyçəkləşib paklaşır. Folklorda mənəvi kamillik bir çox hallarda eyni həcmli və məzmunlu anlayışlar kimi götürülür, təbiətə əxlaqi sifətlər istinad edilir, gözəllik xeyirin, eybəcərlik şərin simvolu kimi götürülür.

Kütləvi oyun və tamaşalar, eyni zamanda digər xalq

yaradıcılığı nümunələri təkcə əyləncə xarakteri daşımamış, əsasən insanların şükruna və davranışına təsir etmək məqsədi güdmüşlər. Xüsusilə bu oyun və tamaşalar vasitəsilə insanlar həyatın heç də hamar olmadığını anlamış, xeyirlə şərin daimi mübarizəsinin mövcudluğunu dərk etmişlər. Bu dərketmənin nəticəsi olaraq xalq tamaşalarında xeyirin şər üzərində qələbəsinə inam hissi yaradılaraq insanları bədbinlikdən xilas etəməyə, hər bir fərdin həyat uğrunda mübarizə hissini daima gücləndirməyə çağırmışdır.

Qeyd etmək lazımdır ki, xalqımızın mənəvi dəyərləri bütün tarix boyu xalq pedaqogikası funksiyasını yerinə yetirmiş, insanlara lap kiçik yaşlarından ictimai varlıq haqqında müəyyən bilgilər aşılamışlar. "Kafdarküsdü", "Xan-xan", "Kosa-kosa" və s. xalq oyunlarında ictimai ziddiyyətlər, xeyirlə şərin mübarizəsi, ədalətin zəfər çalması tərənnüm olunmuş, bu bədii-emosional vasitələrlə insanların əxlaqına, onların dünyagörüşünə təsir göstərmişdir, insanlarda şərə qarşı nifrət hissi yaratmışdır. Məsələn, "Kaftarküsdü" tamaşasında xalq arasında "Goreşən" kimi tanınan yirtıcının simasında şərin obrazı tərənnüm olunmuşdur. Goreşən (kaftarküsdü) qəbirdən çıxardığı meyiti sürüyərək meydana gətirir. O, əldə etdiyi qənimətinə sevinərək çox eybəcər görkəmi ilə atılıb-düşür. Lakin qəfildən, onun meydana gətirdiyi insan bədəni hərkətə gəlir. Bunu görən yırtıcının sifətində tədricən sevinc hissindən əsər-əlamət qalmır. İnsan kəfəni yırtıb ayağa qalxarkən goreşən qorxu içində titrəyir və gülünc vəziyyətdə meydandan qaçır. Bununla da tamaşada xeyirin şər üzərində qələbəsinin labüdlüyü məsələsi diqqətə çatdırılır. Eyni zamanda tamaşaya baxan hər bir insan şərin əsl mahiyyətini düzgün dərk etmək imkanı əldə edir.

Yaxud "Xan-xan" oyunu ictimai həyatın ziddiyyətlərini özündə əks etdirməklə şəxsiyyətin mübarizə hissinin artmasına təkan verir, zalımlıqla məzlumluğun məntiqi mənasını obrazlı şəkildə ifadə edir.

"Tənbəl qardaş" tamaşası şəxsiyyətin əmək tərbiyəsinin formalaşmasında əsrlər boyu çox böyük rolu olmuşdur.

Dini mənəvi dəyərlər də qədim tarixə malikdir. Belə ki, din hələ üst paleolit dövüründən insanların mənəvi həyatında xüsusi əhəmiyyət kəsb etmiş, sosial, fəlsəfi, psixoloji əsaslara malik olmuşdur. Din insan şüurunun təkamülündə özünə- məxsus yer tutmuşdur. Hələ qədim daş dövründən üzü bəri animistik, totemistik, fetişist və s. dini-mifoloji anlayışlar abstrakt və emprik biliklərin ilkin mərhələsi olmuşdur. Bütpərəstlik, atəşpərəstlik, sehrbazlıq və s. kimi dini etiqadlar da insan idrakının təkamülünün müəyyən dövrlərini əks etdirir. Sonralar isə milli dinlər və Buddizm, Xristianlıq, İslam kimi dünya dinləri meydana gəlmişdir. Lakin bütün dinlərin kökündə animistik, totemistik və fetişist anlayışlar dayanır. Sonrakı dinlərin hər biri qeyd olunan tarixi köklərdən qidalanmışlar. Buna görə də belə qənaətə gəlmək olar ki, ibtidai dinlərə xas olan fövqəltəbii anlayışlar formaca dəyişsə də mahiyyətcə sonrakı dinlərin ana xəttini təşkil etmişdir.

Animistik anlayışlar əsasında dünyasını dəyişən insanın da şəxsiyyəti qiymətləndirilmiş, dəfn mərasimi icra olunmuş, axirət evi yaradılmışdır. Müqəddəs ruhlara sitayiş insanları o ruhlar yaşayan məkan ətrafında məskunlaşdırmışdır. İnsanın şüurunda və həyatında baş verən animistik adət və ənənələr onu daha mükəmməl ictimai varlığa çevirmişdir. Ruhlar dəfn olunan ərazilərdə əbədi məskunlaşmaq istəyi də animistik anlamlar zəminin də həyata keçirilmişdir.

Formasından, xüsusiyyətindən asılı olmayaraq din həmişə insanda inam hissi yaratmış, həyat haqqında, insani fəaliyyət haqqında müəyyən bilgilər vermiş, sosial-mədəni münasibətləri tənzimləmişdir. Yeni təkamüllər, elmi yeniliklər, kəşflər baş verdikcə dini anlayışlar da müasirləşmişdir. Dünyanın hər yerində olduğu kimi bu proses Azərbaycan ərazisində də baş vermişdir. Əvvəllər insanların bütün inancları yerdəki əşya və varlıqlarla bağlı olduğu halda, sonralar ətraf aləm haqqında yeni bilgilər yaranmış və insanlar Aya, Günəşə, ulduzlara sitayiş etməyə başlamışlar. Onlann bu inamı da kainatı öyrənməyin əsası kimi qiymətləndirilməlidir. Nəhayət insan Vahid tanrının (Allahın) mövcudluğu inamı ilə bütövləşmişdir. Əsində bu inam bütün

bəşəriyyəti vahid bir toplum halında birləşdirməyin ilkin mərhələsi olmuşdur. Belə ki, insanlar bütlərə, çoxallahlığa olan inamından əl çəkərək bütün kainatın yaradıcısı kimi vahid bir Allahın olması anlamına yiyələndilər. Beləliklə də Allaha inam hissi insanın dünyagörüşünün yeni məzmunda formalaşmasına öz təsirini göstərmişdir. Məhz, dini-mənəvi dəyərlər tarixin bütün mərhələlərində mənəvi saflaşma problemlərinin həllində mahiy-yətcə dəyərlərin ana xəttini təşkil etmişdir. Belə bir mühitdə insanın ağıl və düşüncəsi Allaha yaxınlaşmaq, onun sirlərindən agah olmaq, dünyada baş verən hadisələrin səbəbini öyrənmək istiqamətinə yönəlmişdir. Bu reallığı bir çox din xadimləri də təsdiq edirlər. Məsələn, dinşünas alim Hacı Sabir Həsənli yazmışdır: "Allahımızın bütün yaratdığı məxluqatın şərəflisi, tacı etdiyi insan oğlu yerə, göyə nəzər salarkən bu suallara labüd cavab axtarmaq məcburiyyətindədir. Bu, insanın mütləq tələbatı, ruhun rahatlığı, axtarışı və marağı ilə ifadə olunur. Axtarış yollarına çıxan insanın başı üzərində ağıl çırağı yanmasa, idrak məşəli şölə saçmasa, etdiyi bütün cəhdlər səmərəsiz qalacaqdır".

İslamşünas alim bu ağıl çırağının məhz İslam dini olduğunu xüsusi olaraq qeyd edir. Şəxsiyyətin formalaşması mənbəyi kimi Məhəmməd peyğəmbərin şəxsi nümunəsi, onun müqəddəs sayılan kəlamları, inşalara münasibəti əsas götürülür. Bu etik münasi-bətlər İslamda - mənəvi dəyərlər səviyyəsinə yüksəlir. İslami dəyərlər şəxsiyyətin davamlı formalaşmasının əsas dəyərlərindən biri kimi qəbul edilir. İslam həyat və təfəkkür tərzi kimi çıxış edir. Məhz bu xüsusiyyətinə görə İslam əsasən orta əsrlərdə yaşamış alimlərin, mütəfəkkirlərin dünyagörüşündə xüsusi yer tutur. Elə bu səbəbdən də bilavasitə İslama aid olan nəzəri hüquqşünaslıq (fiqh) meydana gəlmiş, bu dinin fəlsəfə, əxlaq, məntiq və s. sahələrə böyük təsiri olmuşdur.

Digər tərəfdən islam ailə və cəmiyyət məsələlərində də tənzimləyici mövqeyə malik olmuş, şəxsiyyətin formalaşmasının əsas mənbəyi olan ailənin əxlaq mühitinin islam etikası daxilində qorunub saxlanılmasına böyük təsir göstərmişdir. İslamın müqəddəs kitabı olan Qurani Kərim bütün mahiyyəti ilə xeyir

əməllər təlqin edən müqəddəs bir kitab kimi dünya müsəlmanlarının əqidəsinə, şüuruna, davranışına və s. keyfiyyətlərə öz təsirini göstərir. İslam dininin şəxsiyyətdə görmək istədiyi humanizim, xeyirxahlıq, ümumbəşərlik, elmə, təhsilə həvəs göstərmək, xeyrini, ziyanını düzgün müəyyənləşdirmək, eqoist, lovğa olmamaq, zina işlərindən, oğurluqdan, başqalarının malına sahib olmaqdan, riyakarlıqdan çəkinmək, allahını tanımaq, inam, əqidə sahibi olmaq, mənəviyyatını zənginləşdirmək dünya malına acgözlüklə həvəs göstərməmək, peşəyə yiyələnmək, ailə qurmaq, ev-eşik yaratmaq, oğul-qız yetişdirmək və gərəkli keyfiyyətlər bu müqəddəs kitabda müsəlmanlara təlqin edilir.

Şəxsiyyətin formalaşmasına təsir göstərən mənəvi dəyərlərimiz çox zəngindir. Şifahi xalq yaradıcılığı, erkən orta əsrlərdən inkişaf etmiş yazılı ədəbiyyatımız şəxsiyyətin formalaşmasını əsas bədii-emosional mühiti sayıla bilər. Bu mənəvi dəyərlər tərbiyənin irsi mühitini təşkil etmiş, şəxsiyyətin formalaşmasında və inkişafında xüsusi əhəmiyyət kəsb etmişdir. Belə ki, mühit və tərbiyə şəxsiyyətin formalaşması prosesində çox şeyə qadir olsalarda, onlar irsi keyfiyyət olmadan insanın kamilləşməsinə, onun yaradıcı şəxsiyyətə çevrilməsinə bir tam şəklində təsir göstərə bilməzlər.

Şifahi xalq yaradıcılığı tərbiyənin ən kütləvi forması kimi əsrdən-əsrə yaşamaqla yanaşı həm də zənginləşmişdir. Bu zənginliyin əsasında isə xalqın istəyinə uyğun olan özünütərbiyə faktoru dayanmışdır. Xalq insanın bütün davranış və vərdişlərinə qiymət vermiş, bu qiymətləndirmə prosesində tərbiyənin irsiyyət faktoru da unudulmamışdır. Məsələn, "ot kökü üstə bitər", "qurd balası qurd olar" kimi atalar sözləri ilə irsiyyətin əhəmiyyətinə münasibət bildirmişdir. Eyni zamanda atalar sözü formasında insan davranışını zamana və məkana görə tənzimləyən xüsusi nümunələr yaranmışdır. "Hər zamanın bir hökmü var", "Ayağını yorğanına görə uzat", "Damcı daşı deşər, söz başı", kimi atalar sözlərimiz məhz bu qəbildəndir.

Eyni zamanda dostluq, isanpərvərlik, humanizm ideyalarını özündə əks etdirən atalar sözləri də şəxsiyyətin əxlaqi

keyfiyyətinin formalaşmasına təsir göstərən nümunələrdir. “Tək əldən səs çıxmaz”, “El bir olsa dağ oynadar yerindən”, “Birlik harda, dirilik orda” və s. kimi atalar sözlərimiz insanların həmrəyliyinin təmin olunmasında xüsusi rol oynamışlar. Vətən haqqında yaranmış başqa şifahi xalq nümunələrində də insanlara əsl vətənpərvərlik ideyaları aşılanmışdır. Şifahi xalq yaradıcılığı əsrlər boyu şəxsiyyətin tərbiyə funksiyasını yerinə yetirmiş, insanların mənəvi zənginləşmələrinin əsas vasitələri olmuşdur. Xüsusilə şifahi xalq ədəbiyyatı nümunələri ilə tanış olarkən aydın olur ki, bu zəngin mədəni dəyərlərimiz insanların bütün fəaliyyəti normalarına düzgün istiqamət verən mənəvi qanunlar çərçivəsində yerinə yetirilmişdir. Heç bir yerdə yazılmamış olan bu adət və ənənələrin, qayda və qanunların əhatə dairəsi geniş olmuş, insanın öz-özünə, başqalarına, vətənə, təbiət və cəmiyyət hadisələrinə münasibətinə, insanın hansı keyfiyyətlərə yiyələnməsi məsələlərinə, məzmununa, məqsədinə, forma və üsullarına, ailə tərbiyəsinə və. s. geniş formada nüfuz edə bilmişdir.

Xalqımızın bədii və məntiqi düşüncəsinin bəhrəsi olan şifahi yaradıcılıq nümunələri insanların nəinki yaddaşlarına hopmuş, eyni zamanda onların məişətinə, əmək fəaliyyətinə daxil olmuşlar. Əkin, biçin, heyvandarlıq fəaliyyəti, ailə və məişət ənənələri xalq folkloru nümunələri ilə müşayət olunmuşlar. Bu folklor nümunələrindəki nağılların, mahnıların, məzhəklərin, qaravəllilərin, bayatıların ifa olunması prosesində minlərlə istedadlı adamlar iştirak etmiş, onlar el sənətkarları səviyyəsinə yüksəlmişlər.

Adət və ənənələrimizdə insanları halal zəhmət ətrafında səfərbər edən, yaradıb qurmağa, becərməyə, yaşayıb-yaşatmağa səsləyən çoxlu folklor nümunələri vardır. Məsələn “Sayaçı” mərasimini icra edən müdrik adamlar qoyun dölünün və qırxımının bərəkətli olacağına mahnı və şən rəqslərlə özlərində inam yaratmışlar:

Bu saya kimdən qaldı?
Adəm atadan qaldı.

Adəm ata gələndə,
Qızıl öküz duranda,
Bağda sünbül solanda,
Dünya binnət olanda,
Musa çoban olanda...
Şilyiyimiz erkəcdi

Bu nəğmədə sanki sayaçılığın meydana gəldiyi tarixi köklər haqqında məlumat verilir. Bu sənətin hələ Adəm peyğəmbərdən, Musa peyğəmbərdən qaldığı söylənilir. Belə mərasimlərdə "Çoban bayatısı", "Cütləmələr" və s. bədii ifadə vasitələrindən istifadə olunur.

Qeyd etmək lazımdır ki, insanların əməyini tərənnüm edən, şəxsiyyətin əmək tərbiyəsinin formalaşmasına təsir göstərən adət və ənənələrmizin, mərasimlərimizin tarixi çox qədimdir. Belə ki, Qobustan qayalarında qədim balıqçıların həyat və vərdişlərini əks etdirən çoxlu təsvirlər vardır. Alimlər bu təsvirləri orta daş dövrünə aid edirlər. Qədim qobustanlılar balıq ovunun uğurlu keçməsi üçün sehrbazlıq mərasimlərindən də istifadə etmişlər. Belə mərasimlər həm insanlar arasındakı ünsiyyəti inkişaf etdirmiş, həm də əməyin məhiyyətini təkrarən, ardıcıllıqla insanların diqqətinə çatdırmışdır.

Ailə və məişət məsələlərinə həsr olunan "Şah Səlim", "Hacı gəldi", "Keçəl pəhləvan", "Qaragöz", "Şölə" oyunu kimi qədim xalq tamaşalarımız da vardır. Onlar insanlar arası ünsiyyətin daha bədii-emosional forması kimi böyük psixoloji və mənəvi təsir gücünə malik olmuşlar. Elmi araşdırmalar göstərir ki, xalq tamaşaları hələ bəşəriyyətin ilkin inkişaf mərhələsindən başlayaraq davamlı insan inkişafına təsir göstərən əsas vasitələrdir. Xalq tamaşaları mühitində şəxsiyyətin bədii-estetik qiymətləndirmə qabiliyyəti, ədəbi, fəlsəfi baxışı təşəkkül tapmışdır. Elə bu səbəbdən də xalq tamaşaları tədqiqatçılar tərəfindən mənəvi hadisə kimi qiymətləndirilir. Belə ki, bəşəri mənəvi dəyərləri sinkretik halda özündə birləşdirən bu qədim sənət növü unikal mədəniyyət hadisəsinə çevrilərək hər bir xalqın mədəniyyətinin,

mentalitetinin əsasını təşkil etmişdir. Bu tamaşalarda ulu əcdadlarımızın arxaik görüşləri, animistik və antromorfik baxışları, eyni sivil mədəniyyətə doğru edilən cəhdləri ifadə olunmuşdur. Tamaşa vasitəsilə xalqımızın etik, estetik baxışları bir sistem halına salınmışdır. Bununla da qədim xalq tamaşaları yaradıcı şəxsiyyətin inkişafının əsasını qoymuşdur. Məhz bu tamaşalardan əldə olunan təcrübə zəminində dramaturqlar, aktyorlar, rejissorlar, musiqiçilər, rəqqaslar və s. bədii yaradıcılıq sahələri üzrə şəxsiyyətlər yetişmişlər. Müasir dövrün peşəkar teatrları da qədim xalq tamaşalarından bəhrələnərək yaranmış və inkişaf etmişdir. Aşıq sənəti də xalq tamaşaları daxilində təşəkkül tapmışdır. Qeyd etmək lazımdır ki, məhz aşıq sənəti xalq tamaşasının xüsusi bir sahəsi kimi formalaşmışdır. Bu sənətin xüsusi geyimi, çalmaq, oynamaq, oxumaq, mimikaların köməyi ilə müxtəlif obrazları yaratmaq xüsusiyyəti vardır. Aşıqlar qeyd olunan teatr ifadə vasitələrindən istifadə edərək ifa etdiyi obrazların psixoloji vəziyyətini, insani keyfiyyətini izah edir. O, insana xas olan bütün xüsusiyyətləri obrazlı şəkildə ifadə etməklə hər bir fərdin daxili aləminə sirayət etməyə çalışır. Eyni zamanda insanları kütləvi şəkildə maarifləndirir. Beləliklə də şəxsiyyətin sosial, mədəni təkamülündə xüsusi rol oynayır.

Azərbaycan alimi Aslan Aslanov xalq yaradıcılığını insan gözəlliyinin təkamülü prosesi kimi qiymətləndirərək yazmışdır: “Folklorda xalq mahnıları və dastanlarda insan təbii gözəlliyin ecazkar təsiri ilə özü də dəyişib gözəlləşir, mənən daha da göyçəkləşib paklaşır”. Məhz bu paklaşma, gözəlləşmə prsesində böyük şəxsiyyətlər yetişir və formalaşır. Xalq yaradıcılığı özünün bədii ifadəli xüsusiyyətilə şəxsiyyəti kamilləşdirir. Məsələn, xalq bayatılarının birində deyilir:

Eləmi şanəsidir,
Bu zülfün şanəsidir.
Hər işdə kamil olmaq
Ağıl nişanəsidir.

Bayatı insanları kamilliyə, ağılla iş görməyə çağırır. Başqa xalq yaradıcılığı nümunələrinin birində isə deyilir:

Bu dünyada maldan-puldan
Bir ağıllı baş yaxşıdır.
Anlamayan bir kəllədən
Bircə qara daş yaxşıdır.

Xalq nağıllarında və dastanlarında çoxlu imtahana çəkmə məqamları vardır. Məsələn, "Üç Şahzadə" nağılında qız onunla evlənmək istəyən oğlana üç sual verir. Bu sualvermə izdihamlı meydanda kütləvi şəkildə keçirilir. Qızın üç sualına da düzgün cavab verdiyinə görə padşah nəinki öz qızını ağıllı oğlana verir, hətta onu hökmdarlıq tacı ilə qiymətləndirir.

Azərbaycan yazılı ədəbiyyatında da şəxsiyyətin kamillik kriteriyaları geniş mənada öz əksini tapmışdır. Hələ Xaqanidən üzü bəri bütün şair və mütəfəkkirlərimiz şəxsiyyətin ən başlıca göstəricilərini onun mənəvi keyfiyyətləri ilə izah etmişlər. Məsələn, Xaqani kamil şəxsiyyət olmaq üçün 10 mənfi xüsusiyyətdən uzaq olmağa çağırmışdır. Xaqani yazmışdır:

İstəsən güzgütək saf olsun ürək,
Sinəndən on şeyi atasan gərək:
Haram, qeybət, kin, paxıllıq, tamah,
Kibr, riya, həsəd, ədavət, kələk.

Nizami Gəncəvi də şəxsiyyətin insani keyfiyyətini onun xeyirxah, humanist əməllərində görür. Belə ki, Nizaminin yaratdığı mükəmməl humanist təlimdə bir tərəfdən insan xarakteri bu və digər şəraitdə onun təzahür formalarının çoxcəhətliliyi, rəngarəngliyi, digər tərəfdən isə kainatın və insan həyatının məna və mahiyyəti, fərdlə cəmiyyət, cəmiyyətlə təbiət arasında harmoniya imkanları, insanın yer üzündə vəzifəsi və rolu kimi nəhəng problemlər müzakirəyə məruz qalır, təhlil edilirdi.

Nizami Gəncəvi özünüdərketməni şəxsiyyətin başlıca

faktoru kimi qiymətləndirərək yazmışdır:

Kim ki, öz-özünü düşmüşdür başa
Ona ölüm yoxdur, o ölməz haşa...
Tanısan özünü, köçsən cahandan
Yenə bu dünyada yaşayacaqsan.

# XIV FƏSİL

# TƏBİƏT VƏ CƏMİYYƏT FƏLSƏFİ DÜŞÜNCƏLƏR OBYEKTİDİR

**1. Təbiətə tarixi fəlsəfi baxış**
**2. Cəmiyyət və onun fəlsəfi təhlili**
**3. İctimai inkişaf prosesində təbiət və cəmiyyətin qarşılıqlı münasibəti**
**4. Cəmiyyətin maddi və mənəvi sferası**
**5. Təbiət-cəmiyyət sistemində müasir dövrün qlobal problemləri və onun həlli yolları**

## 1. Təbiətə tarixi fəlsəfi baxış

Təbiət həm elmi axtarışların, həm də fəlsəfi düşüncələrin obyektidir. Təbiətə birdəfəlik tərif vermək hələ qeyri-mümkündür. Çünki, təbiətdə hər gün araşdırmalar gedir və təbiətin yeni-yeni sirləri üzə çıxır. Təbiət yalnız insanı əhatə edən coğrafi mühit deyildir, təbiət maddi və mənəvi sistemlər aləminə daxil olmaqla insan fəaliyyətinin obyekti hesab olunur. Texniki imkanlar genişləndikcə yeni komponentlərin araşdırılmasına ehtiyacı yaranır. Məsələn, insanın kosmosa uçması üçün mütləq günəş sistemi tədqiq olunmalıdır. Ətraf mühit haqqında biliklər üzə çıxdıqca, təbiət tədricən təbiətşünaslıq elminin obyektinə çevrildi.

Təbiətin tarixi baxışına nəzər salsaq, təbiət hər şeydən əvvəl insanların şüurundan və iradəsindən asılı olmayaraq mövcud olmuşdur. İnsan yalnız təbiətdə yaşaya bilir və o daim hadisə və prosesləri öyrənməyə cəhd etmişdir. Hollandiyalı filosof **Spinoza** yazırdı: **"Təbiət həmişə hər yerdə eynidir. Təbiətdə baş verən hadisə və proseslərinin əsasında duran qanun və qaydalar hər yerdə eynidir".** Odur ki, qeyd etmək lazımdır ki, idrakın vəzifəsi təbiətin universal qanunlarını dərk etməkdən ibarətdir.

Əvvəllər təbiətin fəlsəfi izahında miflər, əsatirlər, dini rəvayətlər əsas yer tutduğu üçün ona görə təbiət müxtəlif zamanlarda

müxtəlif cür dərk edilmişdir. Qədim yunan filosoflarının ontoloji baxışlarında təbiət ciddi başlanğıc kimi qəbul edilir, onun od, su, hava, torpaq kimi substantiv elementlərdən əmələ gəldiyini iddia edirdilər. Bu ideyaların kökü Şərq mədəniyyətinə də gedib çıxırdı. Məsələn, **C.Drener** qeyd etmişdir ki, Şərq ruhunda dərk edilənlər Avropa təfəkküründə yenidən canlanmışdır. Məsələn, Çin fəlsəfəsinə görə insan və təbiət bir varlıq kimi vahid bir tamın ayrılmaz tərəfləri kimi başa düşülmüşdür.

Yunan filosoflarından olan **Parmend** özünün **"Təbiət haqqında"** əsərində qeyd edirdi ki, **"varlıq mövcuddur, qeyri-varlıq isə mövcud deyil. Yoxluqdan varlığa və varlıqdan yoxluğa keçid qeyri-mümkündür"**. Bu fikir təbiətin heçlikdən yaranması və nə zamansa onun məhv olacağı kimi ideyalara qarşı yönəlmişdir. Bu fikirlərə **Empedokl, L.Kar** və digərlərinin də əsərlərində rast gələ bilərik. Orta əsrlər dövründə təbiət ilə bağlı fikirlər xristian dünyagörüşündə də öz əksini tapmışdır. Burada təbiətin yoxluqdan və heçlikdən Allah tərəfindən yaradılması və idarə olunması iqrar olunurdu. Belə bir fikir təbliğ olunurdu ki, Allah insanlara dünyanı və onu yaradanı dərk etmək üçün iki bilik mənbəyi, iki "kitab" bəxş etmişdir. Bunlardan biri **müqəddəs yazılar**, **digəri isə təbiətdir.** Allah təbiəti ona görə yaratmışdır ki, insanlar bu əsərə baxıb yaradanın böyüklüyünü, hər şeyə qadir olmasını dərk etsinlər. Müqayisəli təhlilə baxsaq görürük ki, antik filosoflar təbiətin insandan qat-qat güclü olduğunu iddia edirdilər və təbiəti harmoniyanın və kamilliyin atributu kimi qəbul etmişlər. Lakin orta əsrlər dövründə təbiətə qovuşmaq sanki ilahiyə qovuşmaq kimi xarakterizə olunurdu.

İntibah dövründə təbiətə olan münasibət daha yeni məzmunda başa düşülürdü ki, təbiət həm gözəllik, həm də sevinc mənbəyi kimi qəbul edilirdi. **N.Kopernikin**, **Q.Qalileyin, N.Kuzanskinin, C.Brunonun** naturfəlsəfi ideyaları təbiətə olan münasibətin nəticəsi olaraq qəbul edildi. Elmi əsaslara görə təbiət maddi obyekt olan və inkişaf edən orqanizm kimi mürəkkəb struktura malikdir. Təbiətin əsasını və kosmik məkanını elementar hissəciklər, nəhəng kütlələr və enerji zənginliyi təşkil edir.

Buraya Qalaktikanı təşkil edən ulduzlar və planetlər də daxildir. Öz növbəsində ucsuz-bucaqsız kosmik əngəlliklərdə hərəkətdə olan qalaktikalar və metaqalaktikalar mövcuddur. Metaqalaktik hüdudda təbiət öz quruluşu ilə fərqlənir. Planetlərin təkamülü üzvi aləmin və canlı varlıqların yaranmasına gətirib çıxarmışdır. İnsanlar təbiət haqqında nə qədər çox öyrənsələr də, təbiət çox sirləri özündə saxlamaqdadır. Tarixin ilk günlərindən insan özünün təbiətlə əlaqəsi və münasibəti barədə düşünməyə başlamışdır. Təbiətə olan elmi baxışlar sistemi dəyişdikcə, insan təbiət üzərində yüksəlmək arzusuna can atır. Klassik alman alimlərindən biri olan **İohan Fixte "İnsanın təyinatı" adlı əsərində qeyd edirdi ki, "təbiət bütün hissələri ilə əlaqəli olan bir tamı, bütövlüyü təmsil edir"** (Антология - Мировая философия М. 1969 том I, стр. 43).

**M.Morten, F.Bekon, T.Hobbs** kimi filosoflar insanı öz zəkası ilə qiymətləndirərək təbiətə qarşı qoymuşdur ki, insan təbiət qarşısında öz zəkası ilə çox güclüdür, bir sözlə insanın təbiət üzərində hökmranlığını təbliğ edirdilər. Bu dövrün alimləri təbiəti öyrənmək və onun qanunlarını tədqiq etmək məqsədilə emprik metodlar hazırlamağa səy göstərirdilər.

Müasir təbiətşünaslıq yeni dövrdə "təbiət" anlayışını daha da zənginləşdirərək inkişaf etdirmişdir. Təbiətin inkişaf səviyyələri və strukturları tədqiq edildikcə buradakı səbəbiyyət əlaqələri və hərəkətin formaları haqqında təsəvvürlər və baxışlar xeyli genişlənirdi. Məsələn, **A.Eynşteyinin** nisbilik nəzəriyyəsində bir çox təsəvvürlər çox ciddi şəkildə dəyişdirilmişdir.

Təbiət insandan və onun fəaliyyətindən asılı olmayaraq mövcud olmuşdur və özünəməxsus varlıq formasıdır. Təbiət fəlsəfi baxımından çox dərin məzmuna malikdir, insanın fəaliyyəti nəticəsində təbiət dəyişdirilməkdədir. Bu dəyişikliklə insanlar özünün "ikinci təbiəti"ni yaratmaqdadır.

## 2. İctimai inkişaf prosesində təbiət və cəmiyyətin qarşılıqlı münasibəti

Məlumdur ki, təbiət bizim beşiyimizdir. Torpaq isə varlığa layla çalan müqəddəs anadır. Torpağın əmələ gəlməsi təbiət üçün nə qədər mühümdürsə, bitki və canlıların da yaranması o qədər müqəddəsdir. Maddi nemətlərin əsl yaradıcısı və yeganə mənbəyi olan torpaq kainatdakı bütün varlıqların sadə və mürəkkəb proseslərin, hadisələrin, hətta planetlər arasındakı saysız–hesabsız əlaqələrin məskəni və hərəkətverici qüvvəsidir. Həyat üçün zəruri olan faktorlar məsələn, su, işıq, istilik, soyuq, külək, günəş enerjisi və digər faktorların hamısı torpağın daxili aləmində cəmləşir. Bu proseslərdə istər müsbət, istərsə də mənfi fəaliyyət göstərən həmin təbii faktorların mövcud varlıqların inkişafındakı kompleks rolu, iştirakı və təsir mexanizmi canlılar aləmindən ötrü əsl həyat amili və şəraiti hesab edilir. İnsanla təbiəti eyniləşdirmək olmaz, çünki insan şüura və iradəyə malik olan bir varlıqdır. Buna baxmayaraq insanın da başqa canlılar kimi onun həyat və fəaliyyəti yalnız təbiətlə bağlıdır. Mühit insana təsir etdiyi kimi insan da mühitə təsir göstərir. İnsan özü üçün münasib şərait yaradır; süni şəkildə çayların istiqamətləri dəyişdirilir, yollar çəkilir, körpülər salınır və s. Ona görə də mühiti iki yerə ayırmaq olar**: təbii mühit və süni mühit.** Təbii mühitdə insan əgər tələbatını tam ödəyə bilmirsə, öz fəaliyyəti ilə yuxarıda qeyd etdiyimiz kimi müxtəlif səpkidə yaradıcı fəaliyyət qurur. İnsanın öz fəaliyyəti ilə yaratdıqları "ikinci təbiət" adlandırılır. Təbii və süni mühit bir-birini tamamlayır.

Cəmiyyət inkişaf etdikcə süni mühitin rolu artmaqdadır. Nəticədə insanla təbiət arasındakı münasibətlər getdikcə zidiyyətlərə doğru gedir. Məsələ burasındadır ki, bəşəriyyət ictimai inkişafında elə bir mərhələsinə gedib çıxmışdır ki, **Erix Frommun "Azadlıqdan qaçma"** adlı əsərində yazdığı kimi əvvəlki əsrlərdə Allah, müasir dövrdə isə insan təbiətlə qarşı-qarşıya dayanmışdır. Avropa alimlərindən **O.Şpenqler, K.Yaspers, A.Toynbi, E.Fromm, A.Markuze** habelə "Roma klubu"nun

üzvləri müasir dünyanın daxili ziddiyyətlərini, getdikcə dərinləşməkdə olan böhranlı anlarını, dünyanın mənəvi cəhətdən dəyişdirilməsi zərurətini göstərmişlər. Noosfera nəzəriyyəsinin yaradıcılarından olan **V.N.Vernadski** təbiət-cəmiyyət münasibətlərinin həlli üçün bəşəriyyətin vəhdəti məsələsini irəli sürmüş və noosferin formalaşdırılması üçün beynəlxalq münasibətlərin noosferləşdirilməsini mühüm mənbə kimi qeyd etmişdir (Şasəddin Mikayılov, "Təbiət-cəmiyyət-insan problemlərinin mənəvi dünyagörüşü aspektinə dair". Ekolgiya, Fəlsəfə, Mədəniyyət. 20-ci buraxılış. Bakı. Elm-1999, səh. 66).

Ümumiyyətlə təbiət-cəmiyyət münasibətləri **üç aspektdə** qavranılıb dərk olunmalıdır.

**Birincisi -** insan-təbiət münasibətləri;

**İkincisi -** insan-cəmiyyət münasibətləri;

**Üçüncüsü -** insanların təbiətarxası münasibətləri.

İnsan və təbiət məsələsi tarixən fəlsəfənin əsas məsələsinin həll edilməsi ilə qırılmaz surətdə bağlı olmuşdur. Biosfer insansız yaşaya bilər, amma insan biosfersiz yaşaya bilməz. Hətta BMT-nin sənədlərində qeyd olunur ki, "Yer kürəsi bizə atalarımızdan irsən qalmamışdır, biz onu uşaqlarımızdan borc almışıq" (Şasəddin Mikayılov, İnsan-təbiət münasibətləri: Əxlaqi-estetik dəyərlər. Bakı. Elm-2009, səh. 37).

İnsanların və təbiətin tarixi bir-biri ilə sıx bağlıdır və bir-birini qarşılıqlı surətdə şərtləndirir. Canlı aləmə, heyvan və bitki aləminə, havaya, suya torpağa qayğı hələ qədim dövrlərdən mövcud olmuşdur. Avestada torpağın, havanın, suyun, canlının, meşənin qorunub saxlanması haqqında fikirlər vardır. Makovelskinin fikirincə Avestada suyun ilahi qüvvəsi haqqında fikirlər nə qədər maraqlıdır (Şükürov A. Müstəqillik və ekoloji siyasət. Ekologiyanın fəlsəfi problemləri. III buraxılış. Bakı.1998. səh. 3).

İnsanla təbiətin qarşılıqlı əlaqəsi və münasibəti məsələsi müxtəlif mənbələr və cərəyanların nümayəndələri-filosoflar, şairlər, yazıçılar, alimlər, dini və siyasi xadimlər tərəfindən müzakirə olunmuşdur. Hətta mifologiyamızda, qədim yazılı dastanımız olan **"Dədə Qorqud"** boylarında insan və təbiət məsələsi ön

plana çəkilir. Təbiətin insan sığınacağı olması, günəşin saçağı, ağacın yarpağı, cüyürün gözü, atın capımı..... bu yer-göy, bu ay, bu ulduzlar hər nə varsa hamısı qovuşub, birgə nəfəs alır.

İnsan və təbiət münasibətlərində və onun harmonikləşməsində insanın özünün öz mənəvi dünyasını dərk etməsi xüsusi əhəmiyyət kəsb edir. İnsanın təbiətlə münasibəti aşağıdakı mövqe ilə əsaslana bilər:

**Birincisi -** təbiət insandan çox-çox yüksəkdə durur. Bu baxımdan insan qeyri şərtsiz təbiətə tabe olmalı, təbiətin qanunlarını özünün daxili qanunlarına aid etməlidir.

**İkincisi -** məlumdur ki, insan ən şüurlu varlıqdır, o, təbiətə münasibəti ictimai münasibət kimi başa düşməlidir.

**Üçüncüsü -** insan başa düşür ki, təbiətin dəyişdirilməsi onun birbaşa fəaliyyəti ilə bağlıdır. Buna görə də insan öz münasibətinin ahəngdarlığını dərk etməlidir, daha doğrusu, insan düzgün qiymətləndirməyi bacarmalıdır.

**Dördüncüsü -** tarixi inkişaf prosesində insanlar özlərinin mənəvi fəaliyyətini praktik fəaliyyət vərdişlərinə çevirməlidir.

**Beşincisi -** mənəvi dünyagörüşün məzmunundan keçən ümumi cəhətlər (biliklər, əqidələr və s.) insanın mənəvi sərvətinə çevrilməli və onların varislik prinsipləri təmin edilməlidir.

Məlumdur ki, insanın həyat fəaliyyətinin bütün növləri təbiətlə bağlıdır. "İnsanın dünyası" ətraf mühiti özündə birləşdirir. İnsanın təbiətə münasibəti onun təlabatı və inkişaf məqsədləri ilə əlaqədardır. İnsanın təbiətə yeni tipli münasibəti istehsal vasitələri üzərində müxtəlif mülkiyyət növləri əsasında, cəmiyyətin iqtisadi, siyasi, sosial və mədəni bünövrəsi üzərində bərqərar omuşdur. Müasir dövrdə hər birimiz cəmiyyətdə və təbiətdə olan münasibətlərin mənasını dövrün mahiyyət və məqsədindən asılı olaraq başa düşməliyik. Çünki, təbiətdə baş verən hər bir dəyişikliklər hər bir insanın şüuruna, psixologiyasına təsir göstərir. Buna görə də yaşadığımız dövr belə bir humanist tələb irəli sürür: hər bir adam təbiətin insanlara bu gün, sabah nə verəcəyini düşünməlidir. İnsan və təbiət arasındakı humanist münasibətlərin harmonikləşməsi üçün insanın dünyagörüşü mühüm

əhəmiyyət kəsb edir. Təbiət və cəmiyyətin münasibəti, harmonik inkişaf yolu yalnız bəşəri, əxlaqi və estetik prinsiplər baxımından mümkündür.

## 3. Cəmiyyət və onun fəlsəfi təhlili

Məlumdur ki, siyasi iqtisad, politologiya, tarix, sosiologiya, etika, estetika, etnoqrafiya, tibb elmləri və s. cəmiyyət anlayışının müəyyən bir sahəsini öyrənirsə, onlardan fərqli olaraq sosial fəlsəfə cəmiyyət və onun inkişafını daha dərindən öyrənir. Sosial fəlsəfənin öyrənmə dairəsində cəmiyyət tam, bütöv bir sistem kimi götürülür. Lakin insanlar cəmiyyətdə ictimai əmək fəaliyyətinə görə sosial qruplarda təmsil olunurlar. Buna baxmayaraq sosial həyat cəmiyyətdə bütöv bir proses kimi qəbul edilir. Cəmiyyətin sosial həyatına maddi və mənəvi həyat, habelə digər hadisə və proseslər daxildir və bu hadisə və proseslərə insanların (iqtisadi, mənəvi, siyasi, elmi, əxlaqi, dini və s.) müxtəlif növ münasibətləri daxildir.

Cəmiyyətin fəlsəfi anlamına nəzər salsaq bu prosesdə tarixi prosesin hərəkətverici qüvvələrinin mahiyyətini və istiqamətini araşdırmaq lazımdır. Burada fərdlərin qarşılıqlı əlaqəsinin və fəaliyyət mübadiləsinin bütöv bir tam kimi müəyyənləşdirilməsi əsas şərtdir. **Birincisi -** insanlar, fərdlər arasında olan qarşılıqlı mənəvi- ruhi münasibətlər (idealist təlim), **ikincisi -** konvensial tip (bu XVII-XVIII əsr filosofların təlimi), **üçüncüsü -** insanların maddi münasibətləri (materialist dialektik təlim tərəfdarları) cəmiyyəti yaradır. Cəmiyyətin bütün fəaliyyət dairəsində insan cəmiyyətin həm obyekti, həm də subyektidir.

Biz gündəlik həyatımızda **"cəmiyyət", "ictimaiyyət", "sosial", "birlik"** və s. kimi anlayışları işlədirik. Sözsüz ki, bu anlayışlar arasında nə isə oxşarlıq və ya ümumilik vardır və varlığın sosial formasının müxtəlif səviyyələrində əks olunur. Bu anlayışlardan bir-birinə yaxın olan iki anlayışı qeyd etmək olar. **"Cəmiyyət və birlik".** Birlik insanların eyni dildə ünsiyyəti, eyni dini baxışlara və ya birgə yaşama zəminində göstərilə bilər.

Məlumdur ki, cəmiyyət də özlüyündə insan birliyidir. Lakin hər bir insan birliyi cəmiyyət ola bilməz. Bundan başqa bu anlayışlarla yanaşı **"tayfa", "qəbilə", "xalq", "millət", "dövlət"** anlayışları da vardır. Ancaq "cəmiyyət" anlayışı bu anlayışlardan konkret olaraq fərqli anlayışdır.

İnsanlar arasındakı bu əlaqələri və fəaliyyəti nəzərdən keçirsək qanunauyğunluqların təhlili yanaşmasına görə aşağıdakı istiqamətlər mövcuddur: **naturalist və idealist istiqamətlər.**

Məlumdur ki, cəmiyyət bütöv bir sosial sistemdir. Bu sistem daxilində müxtəlif biliklər, siniflər, xırda qruplar, xalqlar, millətlər, ailələr, ictimai istehsalın müxtəlif sahələrində kollektivlər fəaliyyət göstərir. Tarixi prosesdə etnik qruplar **qəbilə** formasından **fayfa** formasına keçmişdir. Tarixi inkişaf sübut edir ki, cəmiyyət inkişaf etdikcə **xalq** sosial birlik kimi yaranır və özünün xüsusi keyfiyyət tamlığına malik olur.

Hər bir cəmiyyətdə maddi istehsal xüsusi əhəmiyyət kəsb edir. Təsərrüfat mexanizmi minlərlə insanları birləşdirir. Nəticədə iqtisadi birlik nəticəsində yeni birlik forması olan **millət** formalaşır. Millət sosial-etnik birlik forması olmaqla mövcud ərazi bütövlüyünə və ərazi ümumiliyinə malik olurlar. Milli kimlik və milli özünüdərk milləti təşkil edən əlamətlərdən hesab olunur.

Cəmiyyət anlayışı dünyanın müxtəlif fəlsəfi-sosioloji cərəyanlarının baxışlarında təsvir edilmişdir. Onlardan **K.Marksı, A.Makiavellini, T.Hobbsı, F.Nitşe** və başqalarını göstərmək olar. Ümumiyyətlə, cəmiyyət haqqında XX əsrdə siyasi və akademik şəraitdə məşhur olan **Maks Veberin** adını qeyd etmək olar. Onun **"Təsərrüfat və cəmiyyət", "Protestant etikası və kapitalizm ruhu", "Sosial-elmi və sosial-siyasi idrakın obyektivliyi", "Mədəniyyət haqqında elmin məntiqi sahəsində tənqidi tədqiqatlar", "Əsas sosioloji anlayışlar" və s.** kimi əsərlərində cəmiyyət və onu təşkil edən imkanların, qrupların davranış və fəaliyyət normaları tədqiq edilmişdir. **M.Veberə görə adamlar üç sinfə ayrılır. Birincisi - mülkiyyətçi, ikincisi - qazanc, üçüncüsü - sosial sinifdir. Bu üç sinfi qruplara aid olan səbəbkarlar aşağıdakı kimi təsvir olunur:**

**Birincisi -** qul sahibləri, torpaq sahibləri, mədən sahibləri və s.

**İkincisi -** mülkiyyəti olmayanlar.

**Üçüncüsü** - kommersantlar, sənayeçilər, silah istehsalçıları, bankirlər və s. kimi yüksək təhsil görmüş qabiliyyətli adamlar daxildir.

Qərb sosiologiyasında "**Elita**" nəzəriyyəsi mövcud idi. Bu nəzəriyyəyə görə insanlar qeyri-bərabərdir. Guya insanların qeyri-bərabər istedadının psixoloji əsası üzərində cəmiyyətin yuxarı təbəqəsi olan "elita" adlanan yəni "seçimlər" təbəqəsi dayanır. Bu nəzəriyyənin tarixi kökləri **"qəhrəman və camaat"** nəzəriyyəsinə gedib çıxır. Bu nəzəriyyəni **Karleyl** kimi subyektiv sosioloqlar daha sonra **Qabriel Tard** və digərləri təbliğ etmişdir. Ümumiyyətlə qeyd etdiyimiz baxışlar və cərəyanların həm qüsurlu, həm də müsbət cəhətləri vardır.

## 4. Cəmiyyət sistemində maddi və mənəvi sfera

Cəmiyyətin həyatı iki hissədən: **maddi və mənəvi sferadan** ibarətdir. **Maddi sfera** dedikdə insanların maddi fəaliyyət dairəsi nəzərdə tutulur. Maddi fəaliyyət dairəsi maddi nemətlərin istehsal üsulu ilə şərtlənir. Maddi istehsal zəka vasitəsilə insanların fəaliyyəti əmək prosesində gerçəkləşir. Bəşəriyyət özünün inkişafında sosial aləm yaratmışdır. Bu aləm özünəməxsus qanunauyğunluqları üzrə inkişaf edir. İnsan təbiətə olan yaradıcı münasibətində özünün ikinci təbiətini, zəka aləmini, noosferi yaradır. Bu heç də o demək deyildir ki, təbiət ilə cəmiyyət bir-birindən ayrı olan tərəflərdir, əslində  cəmiyyət təbiətdən kənar mövcud ola bilməz.

Əməyin maddi aləmi mütəmadi olaraq subyektin şüurunda əks olunur, yəni fiziki əmək zehni əməklə dialektik tamlıq təşkil edir. Əmək prosesinin məqsədi nə isə yaratmaqdır. Çünki, ilk növbədə insan öz həyatını və maddi varlığını təmin etmək üçün maddi istehsalın daşıyıcısına çevrilmişdir. Daha doğrusu ərzaq məhsulları, yaşayış yeri, nəqliyyat, geyim və xidmət sahələri

yaradılır. Mənəvi nemətlər də əməyin nəticəsinə əsaslanır. Buraya elmi fəaliyyət dairəsi, incəsənət, ideologiya və digərləri daxildir. Tarixi inkişafın mərhələlərində əmək prosesi insan təbiət münasibətlərindən asılı olaraq getdikcə daha çox şaxələnir, öz növbəsində insan özü də təkmilləşir.

Müasir dövrdə əmək hər şeydən əvvəl **texniki və texnoloji prosesdir** və bu iqtisadi qanunauyğunluqlara əsaslanır. Texnika çox mühüm sosial törəmə olan bir fenomendir. **Ernest Kann** demişdir ki, bəşəriyyətin tarixini ciddi araşdırsaq, deyərdim ki, bu tarix son nəticədə daha yaxşı alətlərin kəşfi tarixidir. **"Texnika"** anlayışı yunanca sənət, ustalıq, bacarıq kimi başa düşülür. Deməli, texnikada mənəvi-ruhi və maddi vəhdətdə çıxış edərək, bir-birini qarşılıqlı surətdə şərtləndirir.

Maddi fəaliyyət və maddi həyat ən mürəkkəb yarım sistemlərdən biridir və təşkilatı hüquqi formalar əsasında baş verən təsərrüfat proseslərini əhatə edir. Bu proseslərin rolu təkcə iqtisadi sfera ilə məhdudlaşmır, həmçinin bütöv bir tam kimi götürülən cəmiyyət sistemini əhatə edir və buna görə də sosial-fəlsəfi xarakter daşıyır. İqtisadi sferanın mahiyyətinin açıqlanmasında tələbatların izahı xüsusilə zəruridir. Hər bir dövrdə təkcə iqtisadi həyat deyil, bütünlükdə cəmiyyət çoxsaylı tələbatlar və onların yerinə yetirilməsi üsullarının geniş şəbəkəsi ilə əhatə olunur.

Bütün deyilənləri nəzərə alsaq belə qeyd etmək olar ki, insan və onun bütün fəaliyyət dairələri çoxsaylı iqtisadi istiqamətlər ilə bağlıdır. Özündə həm bioloji, həm də sosial tərəflərin dialektik tamlığını ifadə edən insan maddi və mənəvi fəaliyyətin subyektidir. İnsan öz həyatı üçün lazım olan nemətləri istehsal etməsi bütünlükdə cəmiyyətin mövcudluğunun mühüm şərtidir. Əgər insanlar maddi nemətlər istehsalını nəinki bir illiyə hətta bir neçə aylığa dayandırmış olarsa, bəşəriyyətin mövcudluğu şübhə altına alınmış olardı. Cəmiyyətin inkişafı obyektiv təbii-tarixi, zəruri bir proses kimi qəbul edilməlidir. Belə qəbul etmək olar ki, təbiətdə olduğu kimi cəmiyyətdə də inkişaf təbii-qanunauyğun obyektiv bir prosesdir. Lakin burada bir fərq üzə

çıxır ki, cəmiyyət qanunları insanların şüurlu fəaliyyəti nəticəsində özünə yol açır. Cəmiyyətin keçdiyi yol şüurlu bir prosesə əsaslanmaqla müəyyən məqsədlərin həyata keçirilməsinə xidmət edir. Cəmiyyətin bu inkişafında təbii-tarixi proses əsas götürülməklə onun fəaliyyətində cəmiyyətin maddi fəaliyyəti dayanır.

Məlumdur ki, cəmiyyətin maddi həyatının ayrılması tərəfi mənəvi həyatdır. Burada insanın fərqləndirici mahiyyəti üzə çıxır və ideyalar hazırlanır və istehlak olunur. Mənəvi fəaliyyət zamanı cəmiyyətin mənəvi-ruhi dəyərləri yaradılır və mənimsənilir. Tarixi inkişafın müəyyən mərhələlərində yeni-yeni tələbləri üzə çıxarır. Mənəvi ruhi təlabatın ödənilməsi cəmiyyətin özünün ictimai şüur səviyyəsindən çox asılıdır. Məlumdur ki, sosial fəaliyyət zamanı səbəb və nəticə fəal və passiv kimi kateqoriyalar maddi və mənəvi amillərə fəal təsir göstərir. Əlbəttə, bu təsir cəmiyyətin inkişaf səviyyəsi ilə bağlı olaraq artır və nəticədə ictimai şüur ictimai varlığın inkişafına müəyyənedici təsir göstərir. Cəmiyyətin mənəvi həyatına aid olan mexanizmlər eləcə də, ictimai şüurun formaları cəmiyyətin maddi münasibətlərinə də təsirini göstərir.

Mənəvi fəaliyyət cəmiyyətin mənəvi təlabatını (elm, emosional hisslər, yaradıcılıq) ödəməklə insanın əsl mahiyyətini ifadə edir və real həyat fəaliyyəti prosesidir. Cəmiyyətin mənəvi həyatı bütöv bir sistemdir və bu sistemə aşağıdakı elementləri aid etmək olar: mənəvi fəaliyyət, mənəvi istehsal, mənəvi təlabat, mənəvi ünsiyyət, mənəvi istehlak və s. Mənəvi fəaliyyət mənəvi dəyərlərin və şüurlu fəaliyyətin yaradılmasına istiqamət verir. Buraya müxtəlif baxışlar, ideyalar, təsəvvürlər, bədii obrazlar və digər mənəvi hadisələr daxildir. Digər tərəfdən mənəvi fəaliyyət məqsədyönlü xarakter daşıyır yəni, insanların mənəvi təlabatlarını ödəməyə yönələn fəaliyyəti daim müəyyən məqsədə xidmət edir. Mənəvi fəaliyyətin məzmununda iki başlıca tərəfi görmək olar: **1) mənəvi fəaliyyət, 2) mənəvi-praktiki fəaliyyət**. Mənəvi fəaliyyətin hər iki tərəfi mənəvi dəyərləndirməyə və onun mənimsənilməsinə xidmət edir.

Cəmiyyətin mənəvi həyatının mərkəzini ictimai şüur təşkil edir. Bir sözlə mənəvi münasibətlər ictimai şüur ilə sıx bağlıdır. İctimai şüur özündə ictimai həyatın müxtəlif baxışlarını, ideya və nəzəriyyələr, siyasi və hüquqi baxışları, əxlaqi, estetik, dini, fəlsəfi fikirləri və s. özündə ehtiva edir. İctimai həyatda ictimai şüura aid olan formalar öz yaranma tarixinə görə bir-birindən fərqlidir. Tarixi inkişafın müxtəlif mərhələlərində onların nisbəti dəyişilir. Məsələn, cəmiyyətin ilkin başlanğıcında əxlaq, incəsənət, din, mifologiya, fəlsəfə və s. kimi formalar, sonrakı inkişaf mərhələlərində sinifli cəmiyyətin yaranması ilə bağlı siyasət, hüquq, iqtisadiyyat, ekologiya daha digər formalar aparıcı rol oynamışdır. Məsələn, qeyd etmək olar ki, din ictimai şüurun ən qədim formalarından bırıdır.

**Dini şüura** əsasən Allah təbiətin, insanın, cəmiyyətin yaradıcısı kimi qəbul edilir. Ona görə də insan öz həyatında ilahi qüvvənin iradəsinə tabe olmağı əsas götürür. Dini şüurda ikili bir dünya: **təbii yəni yaşadığımız dünya, daha sonra axirət dünyası (transsendent)** bir-birilə əlaqədardır. Hər bir insanın axirətdə əzabdan xilası, onun ruhunun transsendent münasibətindən asılıdır. Bütün xalqlar dini şüura malik olmuşdur, onların hamısı bir tələbatdan yaranmışdır.

**Əxlaqi şüur** cəmiyyətin hər bir mərhələsi üçün mövcud olmuşdur. Əxlaqi normalar olan xeyir, şər, ədalət, vicdan, ləyaqət, xoşbəxtlik kimi mənəvi keyfiyyətlər cəmiyyətin mənəvi həyatında öz əksini tapmışdır. Əxlaqi şüurda ümumbəşəri sivil keyfiyyətlərin bir bünövrəsi vardır ki, bu bünövrədə ictimai inkişafın müəyyən mərhələlərində ideyalar və əxlaqi prinsiplər nəsildən nəsilə ötürülür. Belə bir əxlaqi normalar əlbəttə, bütün tarix boyu zorakılığı, qəddarlığı, ədalətsizlik böhranını və s. kimi qeyri-əxlaqi normaları pisləmişdir. Bu qeyri-əxlaqi normalar xalqın folklor nümunələrində bayatılar, atalar sözləri və atmacalar vasitəsilə pislənmişdir.

**Siyasi şüurda** – siyasi qurumların münasibətləri əks olunur. Millətlərarası qarşıdurmaları cəmiyyətin müəyyən etnik tərkibləri arasında olan müəyyən mübarizənin hüquqi əsasları

qonşuluq münasibətləri, diplomatik əlaqələr və s. kimi ideyalar burada öz əksini tapır. Siyasi şüurda siyasi dəyərləri ifadə edən kateqoriyalar (hüquqi dövlət, demokratiya və s. kimi) əsas yer tutur. Siyasi şüur həmçinin siyasətlə daha çox bağlıdır. Cəmiyyətdə siyasi şüur siyasi münasibətlərin göstəricisidir. Qeyd etmək olar ki, insan siyasətdə iştirak etməyə də bilər, lakin siyasət həmişə obyektiv olaraq qalır.

**Hüquqi şüur** – cəmiyyətdə dövlətin yaranması ilə bağlı xarakterizə olunur. Hüquqi şüur dövlətin gücü ilə qorunan sosial hüquqi normalar sistemidir. Əvvəlki dövrlərdə çox zaman hüquqi normaların mövcudluğu və yaranması hakim sinfin iradəsinə əsasən müəyyənləşdirilmişdir. Əslində hüquqi şüur sosial-psixoloji səviyyədə hisslərin, vərdişlərin, adətlərin, təsəvvürlərin məcmusunu özündə tapır. Hüquqi şüurun səviyyəsini və normalarını hüquqi ideologiya müəyyən edir.

**Estetik şüur** – ictimai şüurun qədim formasıdır. Estetik şüur bizi əhatə edən dünyaya bədii zövq, gözəlliyin qiymətləndirilməsi zövqü və s. kimi hisslərlə gözəlliyin dərk olunmasına çağırır. Ətrafımızda baş verən hadisə və proseslər, gözəllik obyektləri bizdə həyəcan, sevinc yaradaraq onlara estetik qiymət veririk. Bu prosesdə daha çox insana incəsənət yardımçı olur. Estetik şüurun formalaşmasında estetik fəaliyyət əsas rol oynayır. Bu zaman incəsənət ictimai funksiyanı həyata keçirməklə dəyərli informasiya mənbəyinə çevrilir. Ona görə də bəzi hallarda incəsənəti insanşünaslıq da adlandırırlar. Burada incəsənətin tərbiyəvi funksiyası üzə çıxır və nəticədə insan hadisələrə estetik qiymət verir.

Biz ictimai şüurun strukturu və digər formaları ilə bağlı xeyli fəlsəfi təhlillər verə bilərik. İctimai şüurun digər formaları (iqtisadi şüur, mifoloji şüur, elmi şüur, fəlsəfi şüur və s.) ilə yanaşı ən sonuncu şüur forması **ekoloji şüur** olmuşdur. Bu şüur forması insan təbiət münasibətlərində yaranmış ziddiyyətlərin aradan qaldırılması, insan təbiət münasibətində harmonik inkişafın yaradılması məqsədilə cəmiyyətin mənəvi həyatında əsas yerlərdən birini tutmuşdur.

## 5. Təbiət-cəmiyyət sistemində müasir dövrün qlobal problemləri və onun həlli yolları

Qloballaşma termini **T.Levitin** adı ilə bağlı olmuş, lakin bu terminin yayılması isə amerikan sosioloqu **R.Robertsonun** adı ilə bağlıdır. Daha sonra yapon alimi **K.Omaye** 1990-cı ildə çap etdirdiyi **"Sərhədsiz dünya"** əsərində qloballaşma anlayışını şərh etməyə çalışmışdır. **M.Uters** isə qloballaşmanı sosial proses kimi müəyyənləşdirmişdir. **Qloballaşma nədir?** sualına müxtəlif münasibətlər bildirilmişdir. Məsələ burasındadır ki, bəşəriyyət ictimai inkişafın elə bir mərhələsinə qədəm qoymuşdur ki, **Erix Frommun "Azadlıqdan qaçma"** əsərində yazdığı kimi keçən əsrdə isə insanın ölümü qarşıda durur. XXI əsrin astanasına gəlib çatmış insanları qlobal böhranlar, "xəzan tökümü fəsli", sivilizasiyaların, dövlətlərin və xalqların arasında baş verən müxtəlif qəbilli ziddiyyətlər təhdid edir. **Avropa alimlərindən O.Şpenqler, K.Yaspers, A.Toynbi, E.Fromm, H.Markuze, habelə, "Roma klubu"**nun üzvləri müasir dünyanın daxili ziddiyyətlərini, getdikcə dərinləşməkdə olan böhranlı anlarını, dünyanın mənəvi cəhətdən dəyişilməsi zərurətini göstərmişlər.

Dünyanın ikili düzümü aradan qalxandan sonra dünya xalqları arasında hərtərəfli əməkdaşlığa və inteqrasiyaya meyl güclənmiş, dünyanı düşündürən qlobal poblemlərin guya birgə həlli yolunda mühüm addımlar atılmağa çalışırlar,lakin dünyanın ən nüfuzlu elmi mərkəzlərindən biri olan "**Roma klubu**" nun yaranması (1968), bu klubun yaradıcısı **A.Peççeinin** dediyi kimi, qarşısına ən ali, nəcib və humanist bir vəzifə - dünyanın başı üzərini kəsmiş qlobal təhlükələrdən onu xilas etmək yollarını axtarmaq vəzifəsini qoymuşdur**. A.Peççei öz fikrini onunla əsaslandırır ki, "İndi hər bir ağıllı adama məlumdur ki, Ana torpaq artıq insan şıltaqlıqlarına dözə bilmir, hər şey artıq aydındır, hər şeyin öz həddi var. Lakin bu həddlər harada qurtarır və nədən ibarətdir – bunlar hələ öyrənilməlidir".**

**N.Vernadskiyə** görə bəşəriyyət bir tərəfdən geopolitik qüvvə, digər tərəfdən isə biosferin yeni keyfiyyət halıdır.

Müəyyən mərhələdə o, öz təbii fəaliyyətini dayandırıb noosfer ölçülərinin məcmusuna çevrilir. Bəşər övladı millətindən və irqindən asılı olmayaraq yer üzərindəki həyatı saxlamaq və davam etdirmək üçün əlbir, məqsədyönlü fəaliyyət göstərməlidir. Ancaq belə olan tərzdə o, öz gələcək yaşayışını təmin edə bilər. Biosferin saxlanılması zərurəti akademik V.N.Vernadskinin haqlı olduğunu sübut edir. Müasir qlobal problemlərin təhlili göstərir ki, biosferin vəhdəti kimi insan cəmiyyəti də tam, vəhdətdə inkişaf etməlidir. Bu baxımdan da dünya xalqları öz səylərini getdikcə daha çox birləşdirməyə, elm, mədəniyyət, təsərrüfat həyatı sahəsində qlobal bəşər ümumiliyinə doğru irəliləməlidir.

**Pyer Teyyar de Şarden** təbiətlə insanların harmoniya təşkil etmələrini, bu yolda bütün eqoist hərəkətlərdən çəkinməyi təklif edir. Bu konsepsiya habelə bəşəriyyətin qlobal miqyasda texniki vəhdətini də nəzərdə tutur. Ümumdünya miqyasında elm və texnikanın getdikcə daha çox beynəlmiləlləşməsi, ictimai həyatın bütün ölkələrdə demokratikləşdirilməsi meylləri dünyanın bir daha vəhdətini zəruri edir. Biosferin vahid, tam sistem kimi fəaliyyət göstərməsi, insan həyatının qlobal ekoloji sistemin tərkib hissəsi kimi mövcudluğunu təmin edir. Müxtəlif səviyyəli ekosistemlərin fəaliyyət qanunlarının düzgün başa düşülməməsi və yaxud onların təsərrüfat fəaliyyətində kifayət qədər nəzərə alınmaması biosferin müasir böhran səbəblərindən birini təşkil edir.

Ümumiyyətlə, təbiət-cəmiyyət-insan problemləri üç aspektdə qavranılıb dərk olunmalıdır;

**Birincisi -** insan-təbiət münasibətləri;

**İkincisi -** insan-cəmiyyət münasibətləri;

**Üçüncüsü -** insanların təbiətarxası münasibətləri.

Müasir elmi-nəzəri ədəbiyyatda **1) formasion; 2) sivilizasion baxışlar** mövcuddur. Axırıncı mövqe son illər daha da aktuallıq kəsb edir. Bu mövqe ilk növbədə **noosfer nəzəriyyəsinə** əsaslanır. Yuxarıda dediyimiz kimi, bu nəzəriyyənin beşiyi başında fransız alimləri **Ela Rua, Pyer Teyyar de Şarden və rus alimi V.N.Vernadski** dururlar.

Son illərin nəzəri ədəbiyyatına əsaslanaraq deyə bilərik ki, müasir dövr-qlobal-ekoloji və sosial-siyasi problemlərin qarşılıqlı əlaqəsilə xarakterizə olunur. Bu dövrün xarakterik xüsusiyyətləri qeyd olunan qanunauyğunluqlar kimi qəbul edilə bilər. Müasir dövrün sosial proseslərinin təhlili ictimai həyatın özünəməxsus qanunauyğunluğu olub, tarixi inkişafın obyektiv gedişilə müəyyən olunur. Dövrümüz yeni sosial, iqtisadi, siyasi, ekoloji problemlərin ziddiyyətlərinin, cəmiyyətin və təbiətin "xəstəliklərinin" bir tərəfdən öz kuliminasiya nöqtəsinə çatması ilə, digər tərəfdən isə onların təsiri altında yeni sosial münasibətlərin yaranması, yeni cəmiyyətin, sosial həyatın, yeni şəraitinin və tiplərinin formalaşması ilə xarakterizə olunur.

XX əsrin adamları ictimai-siyasi, iqtisadi-mənəvi həyatın bütün sahələrində mühüm uğurlar əldə etmişdir. Atom enerjisi ram edilmiş, canlıların irsiyyət daşıyıcılarının maddi əsasları öyrənilmiş, insan beynini təqlid etməyə çalışan kompüterlər yaradılmış və nəhayət, insanlar əmin olmuşlar ki, onlar Günəş sistemində yeganə şüurlu məxluqdur. Əldə edilmiş nailiyyətləri bəşəriyyət təbiətlə mübarizə apararaq qazanmışdır və hər an belə düşünmüşdür ki, o təbiətə qalib gəlir, onu ram edir. Lakin əsrin sonunda insanlar dərk etməyə başladılar ki, təbiətlə mübarizə aparmaq əbəsdir, onunla ancaq dostluq etmək lazımdır və bu dostluğun açarı mənəvi dünyagörüşün əlindədir. Bu mənada insanlarda mənəvi təfəkkürün, şüurun, etikanın, mədəniyyətin və dünyagörüşünün formalaşması əvvəlki dövrlərə nisbətən daha çox aktuallıq kəsb edir. İşin aktuallığını artıran digər bir səbəb mənəvi dünyagörüşün tədqiqatlardan geri qalmasıdır.

Hər bir cəmiyyətdə insanın davranışı, mənəvi və estetik inkişafı sosial cəhətdən şərtlənmişdir. Cəmiyyət şəxsiyyətin başqa insanlara, ətraf aləmə, təbiətə və s. münasibətinin xarakterini müəyyənləşdirir. Hakim münasibətlərin bütün sistemi insanın fikir və əməllərinə, əxlaqi və estetik simasına, xoşbəxtliyinə, həyatın mənası və mənəvi dəyərlər haqqında ali təsəvvürlərinə, onun vərdişlərinə, adət və ənənələrinə təsir göstərir. Buna görə də insanın mənəvi simasına cəmiyyətin qoyduğu tələbləri

nəzərə almaqla mənəvi estetik mədəniyyətin qarşılıqlı əlaqəsinin ümumi və fərqli cəhətlərini unutmamalıyıq.

**Birincisi -** mənəvi estetik mədəniyyətin sıx əlaqəsi onların dəyər formalarının bir-birinə yaxın olmasındadır və hər biri ictimai şüurun formasıdır;

**İkincisi -** mədəniyyətin dəyər formaları ictimai varlıqla müəyyən olunur. İnsanların idraki və praktik fəaliyyətinin nəticəsidir. Şəxsiyyətin əməllərini borc, şərəf, əxlaqi ideal mövqeyindən qiymətləndirən cəmiyyət bu əməllərə həm də ülvilik, gözəllik mövqeyindən yanaşır;

**Üçüncüsü -** mədəniyyətin dəyər formaları sosial hisslər dairəsini əhatə edir. Eləcə də fərdi şüurun inkişafında sosial psixoloji qanunauyğunluq kimi çıxış edir;

**Dördüncü -** forması təbiətinə görə müxtəlif keyfiyyətli yaşantılar kimi bir-birindən fərqlənsə də, onlar gerçəkliyə öz münasibətlərində həmahəngdir və dialektik tamlıq təşkil edir;

**Beşincisi -** mədəniyyətlər tərbiyəvi funksiyalarına görə bir-birinə yaxındır. Çünki, onlar müəyyən bir cəmiyyətin mənafeyinə xidmət etməzdən əvvəl insanın mənəvi estetik dünyagörüşünün formalaşmasında böyük rol oynayır. Planetimiz indi özünün çətin illərini yaşayır. Milyon il bundan əvvəl özünün ocağını yandırmış insan özünə ilk dəfə olaraq odda bişirilmiş qida hazırlamışdır. İkinci mərhələdə insanın təbii ehtiyatlarla özünü təmin etməsi üçün çox vaxt tələb olunmuşdur. Üçüncü mərhələdə insan artıq təbiətə böyük ziyan vura biləcək maşınlı istehsala keçmişdir. Elektrik enerjisindən istifadə, daxili yanma mühərriklərinin yaranması, texnologiyanın intensiv inkişafı dövrü olan dördüncü mərhələ üçün daha 100 illik bir müddət lazım olmuşdur. Daha 50 il sonra yeni dövr - atom əsri, istehsal proseslərinin avtomatlaşdırılması ilə birinci mərhələ başlanmışdır. Mərhələdən mərhələyə insanlar öz biliklərini getdikcə daha da təkmilləşdirmiş, yeni texnoloji proseslər hazırlamış və onları istehsalatda tətbiq etmişlər. Qarşıda texniki inkişafın etaplarının sonsuz sayda mərhələləri durur. Amma, necə deyərlər, obyektiv həqiqət dərk

olunmaz olaraq qalır. Ona görə də gələcəkdə təbiətin taleyi texnoloji inkişafın yeni mərhələsindən asılıdır.

Hazırda yer kürəsi əhalisinin sayı ildə 1,8% artır. Təxminən 12-13 min il əvvəl yer kürəsinin əhalisi cəmi 4 min nəfər idi. XX əsrin əvvəllərində bu rəqəm 1,63 milyard, 1994-cü ildə 5,5 milyard nəfər olmuşdur. Dünyanın demoqrafik artım sürəti elədir ki, hər il yarımda Yer kürəsinin əhalisi indiki Rusiyanın əhalisi qədər artır və indiki Yer kürəsi əhalisinin təxminən xeyli hissəsi aclıq keçirir. Müasir dövrdə əhalinin ərzağa olan təlabatını ödəmək üçün taxıl istehsalını, mineral kübrələri, kənd təsərrüfatı ziyanvericilərinə qarşı mübarizə, elektrik, istilik enerjisi və s. kimi zəruri və mühüm fəaliyyət sahələri üçün xərclər dəfələrlə artırılmaqdadır. Ərzaq problemindən heç də az əhəmiyyət daşımayan bir problem də əhalinin enerjiyə olan təlabatının ödənilməsidir. Bununla belə məsuliyyətli bir dövr olacaqdır. Ona görə də dünya inkişafının müasir problemləri içərisində aşağıdakılar daha önəmlidir:

**-enerji və təbii mənbələrin qlobal miqyasda qıtlığı (enerji böhranı);**

**-əkin sahələrinin azalması;**

**-ərzaq məhsullarının qıtlığı (ərzaq böhranı);**

**-dünya maliyyə sisteminin aşınması (maliyyəböhranı);**

**-cəmiyyətin sosial inkişafının perspektivsizliyi (ideoloji böhran);**

Bütün bu problemlər bu gün öz həllini gözləyir. Əgər bu gün həll edilməzsə, XXII və ya XXIII əsrdə bəşəriyyəti sözsüz ki, düzəldilməsi mümkün olmayan dəhşətli katalikizimlər gözləyir.

Müasir qlobal problemlər dedikdə bütün dünyanın hətta ayrı-ayrı regionları və ölkələri əhatə edən sosial-təbiət münasibətlərinin ümumiliyidir. Qlobal problemlər ayrı-ayrı adamların deyil, bütövlükdə cəmiyyətin və təbiətin məhvinə gətirib çıxara bilən prosesidir. Bütün deyilənləri nəticələndirsək qloballaşmanı üç qrupa ayıra bilərik:

**Birincisi -** siyasi, iqtisadi və digər mənafeləri uyğun olan dövlətlər birliyi (məsələn, varlı və kasıb ölkələr). Bu münasibətlər beynəlxalq problem kimi qəbul edilə bilər.

**İkincisi -** cəmiyyət ilə təbiət münasibətlərindən yaranan problemlərdir ki, yəni təbiətə olan antropogen təsir kimi başa düşülür. Yəni cəmiyyətin enerji, xammal ehtiyatları, içməli su ehtiyatları ilə təmin olunması problemidir. Bu proseslər geriyə dönməzlik istiqamətində baş verir və tamlıqla təbiətin mənimsənilməsi prosesi gedir.

**Üçüncüsü -** bir qrup qlobal problemlər mövcuddur ki, bu fərd-cəmiyyət sistemində baş verir. Bu problem ayrıca insana aid olur, şəxsiyyətin inkişafı üçün cəmiyyətin real imkanlar yaratmasına qadir olmasından asılıdır. Buraya əhali artımı, təhsil, səhiyyə üzərində nəzarətlə bağlı problemlər daxildir. Bundan başqa hərbi təhlükələrin artması, dünya müharibəsi və s. kimi lokal problemlər qlobal problemə çevrilə bilir.

Göründüyü kimi ayrı-ayrı fərdlərin dünyagörüşü və mədəniyyətində baş verən dəyişikliklər konkret iqtisadi-sosial-mədəni çərçivədə və inkişafın müəyyən pillələrində baş verir. İstər istəməz cəmiyyət çərçivəsində "inkişaf üslubu"nun dəyişdirilməsi və fərdin təlabatına mənəvi dəyərlərin daxil edilməsi müqəddəs şərtə çevilməlidir.

Mədəniyyət amili bəşəriyyətə sabit sivilizasiya yaratmaq üçün zəruri olduğu qədər də labüd və qanunauyğundur. Belə ki, mədəniyyətin mənbəyi insanın biosferdəki həyatından başlayır və təbiətlə insanın çoxəsrlik ənənələri daha mütərəqqi əsaslarla inkişaf edir. Ona görə də insanların mənəvi dünyagörüşünün formalaşması təxirə salınmaz tədbirlərdən birinə çevrilməlidir. Çünki, bəşəriyyətlə biosferin vəhdəti dünya birliyi ölkələrinin əməkdaşlığı reallaşan mənəvi-estetik dəyərlərə əsaslana bilər.

# Ədəbiyyat siyahısı


1. Cicero, Tusculan Disputations. VIII, p 8-9 Loeb Classical Library, trans. J.E. King, Harvard University Press, 1945, p. 431 & 433
2. C.Rüstəmov, Qobustan dünyası, səh. 118 Bakı-1994
3. R.Şpigel "Eranische Alterthumskunde Leipriq" əsərinin I – cilidində səh. 264
4. Kitabi-Dədə Qorqud. Əsli və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, səh. 376-195
5. Халилов Д. А. Материальная култура Кавказский Албании, Баку. Элм. 1985. стр. 187-198
6. Həmid İmanov Fəlsəfənin əsasları Bakı-2010 səh. 16
7. Fəlsəfə ensiklopedik lüğəti. İzzət Rüstəmov, Bakı-1997 səh. 304
8. Fərrux Ramazanov, Fəlsəfə. Ali məktəblər üçün dərslik 1998 səh. 110
9. Ф.М. Березин, Б.Н. Головин. Обшее языкознание М.Просвешение 1979 с.72
10. Новое в лингвистике. Выпуск 7, 1975
11. Şasəddin Mikayılov "Təbiət-cəmiyyət-insan problemlərinin mənəvi dünyagörüşü aspektinə dair". Ekologiya, Fəlsəfə, Mədəniyyət. 20-ci buraxılış. Bakı. Elm-1999 səh. 66
12. İnsan-təbiət münasibətləri: Əxlaqi-estetik dəyərlər. Bakı. Elm-2009 səh. 37
13. Məcid Əfəndiyev. Siyasi elmin əsasları. Bakı-2008. səh 63.
14. Azərbaycan Elmlər Akademiyası. Sosial, ekoloji, fəlsəfi problemlər. III buraxılış. Bakı-1993 səh. 48-49
15. Qədim Yunan fəlsəfəsi antologiyası."Yeni Nəsil" AJB, Bakı-2005. səh. 174
16. Elşən Bayramzadə Fəlsəfə. Dərs vəsaiti. Bakı-2018
17. Məmmədov Əhədov A. Qədim dünya fəlsəfəsi. Bakı-1997
18. Fərhadov M.Fəlsəfənin əsasları. Dərslik. Bakı-2006
19. Z. Azərbaycan fəlsəfi fikir tarixi. Bakı-1994
20. İmanov H.R.Fəlsəfənin əsasları. Bakı-2009
21. Qədim yunan fəlsəfəsi antrologiyası. Bakı-2005

**22.** Məmmədova Taliyə. Fəlsəfə. Dərs vəsaiti. Bakı-2018
**23.** Rüstəmov Y. Fəlsəfənin əsasları (mühazirı kursu). Bakı-2004
**24.** Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı "Elm"-2014 səh 456
**25.** Azərbaycan fəlsəfə tarixi. II cild. Bakı: "Elm"-2014.səh 684
**26.** Fəlsəfi kursu üzrə mühazirələr. Ali məktəb tələbələri üçün, Bakı-1990. səh.17
**27.** Z. Hacıyev Fəlsəfə. Bakı-2012
**28.** A. Şükürov, "Fəlsəfə", Bakı Elm nəşriyyatı, 1997 səh. 333
**29.** Z. Məmmədov "Azərbaycan fəlsəfəsi tarixi" Bakı, "İrşad" nəşriyyatı-1994
**30.** Azərbaycan mifoloji mətnləri "Bakı, Elm nəşriyyatı-1988
**31.** A.Şükürov "Kulturologiya" Bakı, Elm nəşriyyatı-1988
**32.** A.Şükürov "Mifologiya" I kitab, Bakı, Elm nəşriyyatı-1998
**33.** Həsən Şirəliyev, Əli Əhmədov "Politologiya", Bakı-1997
**34.** Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. "Azərbaycan Ensiklopediyası", Nəşriyyat-Poliqrofiya Birliyi. Bakı-1997, səh. 520
**35.** Ş.S.Mikayılov, T.Ş.Haqverdiyev. İdraka yiyələnmənin istiqamətləri, Bakı-2018, səh. 106
**36.** Səlahəddin Xəlilov, Elmşünaslığa giriş. Bakı-2010
**37.** N.Tusi "Əxlaqi-Nasiri", Bakı, "Lider Nəzşriyyatı" 2005, səh. 204
**38.** Q.G.Əliyev, "Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri", Bakı-1997, səh.75-76
**39.** Ə.M. Tağıyev, Q.C. Əliyev, M.S. Cabbarov, Platon və Aristotel, Bakı-1997, səh. 52
**40.** K. Marks, F. Engils əsərləri, 42-ci cild səh. 92
**41.** A.A. Bakıxanov "Təhzübül əxlaq", səh. 82-83
**42.** M. Qasımov, C. Cəfərov "Azərbaycanda estetik fikir tarixindən", Bakı, 1964. səh. 27
**43.** A. Rzayev N.Tusi həyatı, elmi, dünya görüşü. Bakı-1996. səh.135
**44.** Ə.B. Məmmədov, V.İ. İsmayılov, F.Ə. Məmmədov Rasionalliq və Qeyri-rasionalliq: Fəlsəfi metodoloji konteks. Bakı, "Elm", 2010. səh. 80

**45.** Ə. Məmmədov İnsan haqqında fəlsəfi düşüncələr. Bakı,”Elm” 2000. səh. 63
**46.** Sakit Hüseynov. Davamlı insan inkişafı. Bakı, ADU nəşriyyatı, Ali məktəblər üçün dərslik 2009
**47.** Əziz Məmmədov. Elmi idrak və mənəvi dəyərlər sistemində insan həyatının mənası problemi. Azırbaycan məktəbi, №5 səh. 59-68, Bakı-2017
**48.** Vəli Həbiboğlu. Qədim türklərin dünyagörüşü. Bakı, “Qartal” nəşriyyatı, 1996
**49.** Azərbaycan mifoloji mətnləri. Bakı, “Elm” nəşriyyatı, 1988
**50.** С.Г. Хук. Мифология ближнего востока. Москва, “Наука” 1991
**51.** Azərbaycan incəsənəti. Bakı, “İşıq” nəşriyyatı, 1992
**52.** Kamil Vəliyev. Elin yaddaşı Bakı, “Gənclik” nəşriyyatı, 1987
**53.** N.V. Davletşina, B.B. Kimlika, R.C. Klark, D.V. Rey Demokratiya: dövlət və cəmiyyət, Bakı “Səda” nəşriyyatı 1999
**54.** Mehrabov Abdulla. Müasir təhsilin konseptual problemləri, Bakı “Müəllim” nəşriyyatı 2010
**55.** Urxan Ələkbərov. Davamlı insan inkişafının əsasları, Bakı “Təhsil” nəşriyyatı 2007
**56.** Y. Qarayev Meyar şəxsiyyətdir. Bakı, “Yazıçı” nəşriyyatı, 1988, s. l 1
**57.** Şəxsiyyətin mənəvi aləmi. Bakı, ADU -nin nəşriyyatı, 1982, səh. 16
**58.** Q.G. Əliyev Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri. Bakı, 1997, səh. 75-76
**59.** R. Xəlilov, Q. Mustafayev. İ. Əhmədov. Respublikamızda ekoloji təhsilin problemlərinə dair mülahizələr. “Axtarış” jurn., 1997, №5, səh.15
**60.** В. Гончаренко. Духовная культура, стр. 9
**61.** Cəlilov. Ekologiya və dünyagörüş. Qarşılıqlı təsirin xüsusiyyətləri. Bakı, Elm 1991, səh. 17-18
**62.** С. Моэм. Подводя итоги. Москва 1957, стр. 209

## MÜNDƏRİCAT


Giriş ........................................................................................ 8

## I FƏSİL
## FƏLSƏFİ TƏFƏKKÜR DÜNYANI DƏRKETMƏ ÜSULUDUR

1. Fəlsəfənin predmeti, məzmumu və mahiyyəti..................... 13
2. Fəlsəfi gerçəkliyin rasional dərki: dünyagörüşü və onun tarixi formaları ............................................................ 25
3. Fəlsəfi problemlər və onun funksiyaları ............................. 42
4. Fəlsəfə və elmi biliklər sistemi ........................................... 48

## II FƏSİL
## FƏLSƏFİ BİLİKLƏRİN YARANMASI VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

1. Qədim Şərqdə fəlsəfənin yaranması, onun tarixi tipləri və səciyyəvi xüsusiyyətləri ......................................................... 55
2. Qədim Şərq fəlsəfəsi: ....................................................... 57
3. Qədim türk mifoloji dünyagörüşündə mənəvi anlamlar...... 83

## III FƏSİL
## ANTİK DÖVRDƏ FƏLSƏFƏNİN YARANMASI VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

1. Qədim yunan fəlsəfəsinin birinci mərhələsi ....................... 91
2. Qədim yunan fəlsəfəsinin ikinci mərhələsi ......................... 102
3. Qədim yunan fəlsəfəsinin üçüncü mərhələsi (Ellinizm mərhələsi) ............................................................. 112
4. Qədim yunan fəlsəfəsinin dördüncü mərhələsi (Roma mərhələsi) ................................................................. 116

## IV FƏSİL
## AZƏRBAYCANDA FƏLSƏFƏ (VII-XIII əsrlər)


1. Kitabi Dədə Qorqud dastanında fəlsəfi anlamlar ............... 121
2. Azərbaycanda dini - fəlsəfi təlimlər və cərəyanlar ............ 124
3. Azərbaycan dini - fəlsəfi dünyagörüşündə peripatetizm .... 129
4. Azərbaycan dini- fəlsəfi fikir tarixində sufizm, panteizm, hürufilik və işraqilik ........................................................... 136
5. Azərbaycanda dini-neoplatonizm və onun dini-fəlsəfi əsasları.......................................................................... 146
6. İslam dəyərlərində mənəvi-əxlaqi xüsusiyyətlər................ 152


## V FƏSİL
## QƏRB FƏLSƏFƏSİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ


1. Xristian teologiyasında mahiyyət və mövcudluq problemi ........................................................................... 158
2. Qərb fəlsəfəsində xristian antropologiyası ......................... 160
3. İntibah dövr fəlsəfəsi ........................................................ 163
4. Yeni dövr fəlsəfəsi ............................................................ 166
5. Yeni dövr fəlsəfi təfəkkürü ................................................ 171


## VI FƏSİL
## KLASSİK ALMAN FƏLSƏFƏSİNDƏ İDRAKİ, DİALEKTİK VƏ ANTROPOLOJİ BAXIŞLAR


1. İ.Kantın transsendental fəlsəfəsi (idrak, əxlaq, teologiya və estetika) ................................................... 183
2. F.Hegel fəlsəfəsində tarixilik və dialektika ........................ 188
3. L.Feyerbaxın antropoloji materializmi. F.Şellinq və İ.Fixte fəlsəfəsində idealizm mövqeyi .............................. 190
4. K.Marksın və F.Engelsin tarix fəlsəfəsi (sosial, iqtisadi, siyasi və elmi mənbələr) ....................................................... 194

## VII FƏSİL
## AZƏRBAYCANDA MAARİFÇİLİK (İNTİBAH) FƏLSƏFƏSİ


1. Azərbaycanda maarifçiliyin təşəkkülü və səciyyəvi cəhətləri ........ 198
2. Maarifçilik fəlsəfəsində varlıq təlimi və qnoseoloji baxışlar ........ 201
3. XX əsrin əvvəllərində maarifçi–demokratik baxışlar ......... 205
4. Azərbaycan fəlsəfəsində və ictimai fikrində milli istiqlal ideyaları ........ 209


## VIII FƏSİL
## XX ƏSRİN QƏRB FƏLSƏFƏSİNDƏ CƏRƏYANLAR VƏ TƏLİMLƏR


1. XX əsr Qərb fəlsəfi dünyagörüşünün səciyyəvi xüsusiyyətləri........ 213
2. A.Şopenhauer və F. Nitsenin fəlsəfi dünyagörüşü............. 215
3. Z.Freydin psixi-fəlsəfi təlimi ........ 217
4. Pozitisizm və praqmatizm ........ 219
5. Ekzistensializm və hermenevtika ........ 222
6. Müasir dini fəlsəfi cərəyanlar ........ 224
7. Müasir dövrdə dinin siyasiləşdirilməsi faktorları ............... 226
8. Dini münasibətlərdə tarixlik və müasirlik ......................... 232


## IX FƏSİL
## FƏLSƏFƏDƏ VARLIQ VƏ MATERİYA ANLAYIŞI


1. Varlıq anlayışı və onun tarixi mahiyyəti ........................... 239
2. Varlığın formaları və müxtəlifliyi ........ 241
3. Materiya anlayışının elmi-fəlsəfi təhlili ........................... 243

## X FƏSİL
## DİALEKTİKA İNKİŞAF HAQQINDA SİSTEMDİR

1. Dialektika universal əlaqələr və inkişaf haqqında təlimdir ........ 246
2. Kəmiyyət dəyişiminin keyfiyyət dəyişiminə keçməsi qanunu ........ 249
3. Əksliklərin vəhdəti və mübarizəsi qanunu ........ 251
4. İnkarı inkar qanunu ........ 252
5. Dialektika təlimində kateqoriyalar və ümumelmi anlayışlar ........ 255

## XI FƏSİL
## FƏLSƏFƏDƏ İNSAN - ŞÜUR PROBLEMİ VƏ İDRAK NƏZƏRİYYƏSİ

1. Fəlsəfədə insan mövzusunun yeri, mənşəyi və mahiyyəti ........ 260
2. Fəlsəfədə şüur problemi və onun mahiyyəti ........ 263
3. İnsan və onun bioloji-sosial istiqamətləri ........ 266
4. Şüurun ictimai təbiəti və onun strukturu ........ 268

## XII FƏSİL
## İDRAK NƏZƏRİYYƏSİ

1. İdrak fəlsəfi təhlilin predmetidir ........ 271
2. İdrakın metodları ........ 274
3. İdraki inkişafın dialektikası ........ 276
4. İdraki prosesdə dini mifoloji baxışlar və mənəvi-əxlaqi dəyərlər ........ 282
5. İdraki prosesdə ekoloji mədəniyyət anlamı ........ 288

## XIII FƏSİL
## ŞƏXSİYYƏT İCTİMAİ-SOSİAL VARLIQDIR

1. Şəxsiyyət anlayışı və onun elmi-fəlsəfi təhlili .................... 302
2. Şəxsiyyət ictimai və sosial dəyərlərin daşıyıcısıdır ............ 311
3. Şəxsiyyətin formalaşmasının sosial–mədəni mühiti ........... 313
4. Şəxsiyyətin formalaşmasında mədəni irsin rolu ................. 322
5. Mənəvi dəyərlər və şəxsiyyət ............................................. 329

## XIV FƏSİL
## TƏBİƏT VƏ CƏMİYYƏT FƏLSƏFİ DÜŞÜNCƏLƏR OBYEKTİDİR

1. Təbiətə tarixi fəlsəfi baxış .................................................. 340
2. Cəmiyyət və onun fəlsəfi təhlili .......................................... 343
3. İctimai inkişaf prosesində təbiət və
cəmiyyətin qarşılıqlı münasibəti ........................................... 346
4. Cəmiyyətin maddi və mənəvi sferası ................................. 348
5. Təbiət-cəmiyyət sistemində müasir dövrün qlobal
problemləri və onun həlli yolları ........................................... 353
Ədəbiyyat siyahısı ................................................................ 359

**Şasəddin Mikayılov**

# FƏLSƏFƏ
# PHILOSOPHY

**(Ali məktəblər üçün dərslik)**


*Nəşriyyatın direktoru: Hüseyn Hacıyev*
*Dizayn: Müşfiq Hacıyev*
*Cildçi: Elmar Mikayılov*

*Çapa imzalanmış 08.01.2024-cü il*
*Kağız formatı 70x100 $^{1/16}$, çap vərəqi 23*
*Sifariş 18, sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*